1990-2020-ci illər Azərbaycan üçün elə də asan dövr olmadı. Cənubi Qafqazda geosiyasi baxımdan çətin bir durum yaratmışdı. Bəzi qüvvələr ikili standartlar fəaliyyət göstərirdilər. Bu qüvvələr Cənubi Qafkazda konfliklərin bitməsini əngəlliyirdilər. Cənubi Qafkazda marağı olan ölkələr öz maraqların xeyrinə oyun aparırdılar. Bu oyunun da nəticəsi Ermənistanın işğalçı siyasətini əbədiləşdirmək idi. Lakin Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətini, bu siyasətin davamçısı, Ali Baş Komandan İlham Əliyevin qətiyyətini və iradəsini, çox uğurlu dövlət quruculuğu, milli ruhda böyüyən azərbaycan gənclərinin vətənpərvəlliyini və xalqın milli birliyini nəzərə almamışdılar. Qalib Azərbaycan dedikdə, təbii ki, Azərbaycan Ordusunun hərbi uğurlarını da nəzərdə tuturuq [6].

Prezident İlham Əliyev: "*...Bizim siyasətimizlə bağlı son vaxtlar dünyada aparılan düzgün təhlillər və fəaliyyətimizə verilən yüksək qiymət həqiqəti tam əks etdirir və İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaradıb. Bölgədə yeni əməkdaşlıq imkanları yaranıb. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər, eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb*".

Beləliklə, Azərbaycanın keçdiyi yolu və son illərdə aparılan uğurlu siyasətin nəticəsi onu təsdiq edir ki, Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradıb. Və bu regionda Azərbaycan Liderdir!

İstifadə edilmiş ədəbiyyat

1. Adıgözəlov K. Cənubi Qafqaz: yeni geosiyasi konfiqurasiya və Azərbaycanın liderliyi. https://www.yeniazerbaycan.com/SonXeber_e80457_az.html

1. Cənubi Qafqazın geosiyasi mövqeyi və təhlükəsizlik problemləri. http://sia.az/az/news/analysis/309496-cenubi-qafqazin-geosiyasi-movqeyi-ve-tehlukesizlik-problemleri

2. Həsənov E.R., Xəlilova Ş.Q. Xalqına və azərbaycan ölkəsinə həsr olunan ömür, Heydər Əlirza oğlu Əliyev ömrü. "Heydər Əliyev -100: müstəqil Azərbyacanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" Respublika Elmi Konfransının materialları, Mingəçevir, 4-5 may 2023

3. https://mod.gov.az/az/

4. https://news.milli.az/politics/1043876.html

5. Xəlilova.Ş.Q. Şəhidlər və qazilər qürur mənbəyimizdir. https://sesqazeti.az/news/politics/1092254.html?fbclid=IwAR3CS5geLRcC1lxUVMX-D1c3uspMq4vzaOWViG9n18xdfGBYbwYlxJOtU_U

MÜLKİ MÜDAFİƏNİN AKTUAL PROBLEMLƏRİ

Mahir Balaca oğlu İsmayılov
texnika üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
mahir.ismayilov@mdu.edu.az
https://orcid.org/0000-0003-0797-9429

Giriş

Günümüzün aktual məsələlərindən biri zəlzələ yaradan yeraltı tektonik proseslərin aktivləşməsi və enerji boşalmalarıdır. Bildiyimiz kimi, Böyük və Kiçik Qafqaz dağları ilə əhatələnən Azərbaycan Respublikasının ərazisi region üçün xas olan bütün fövqəladə halların xüsusiyyətlərini özündə əks etdirir. Çox mürəkkəb geoloji və iqlim şəraitinə malik olan ərazimiz həm endogen, həm də eqzogen hadisələrin miqyasına və intensivliyinə görə dünyanın ən mürəkkəb regionlarından sayılır. Ölkənin demək olar ki, bütün ərazisi seysmik cəhətdən qeyri-sabitdir. Respublika ərazisində torpaq sürüşmələri, sellər, daşqınlar, palçıq vulkanları və s. geniş sahələri əhatə edir. Bu təhlükələri bildiyimizə görə öncədən hazırlıqlı olmalı və lazımı təhlükəsizlik tədbirlərinin görülməsi vacibdir.

Dünyada cərəyan edən hadisələr, siyasi çəkişmələr, hərbi qarşıdurmalar, imperialist maraqları güzlədən dövlətlərin silahlanması, fəal sürətdə, müxtəlif formalarda və müxtəlif istiqamətlərdə hərbi tədbirlər görmələri nəticəsində hərbi-siyasi gərginlik yaradır. Təcavüzkarlıq tədbirləri üçün imkanalar məhdudlaşdırılmış olsa da, onun təbiəti əvvəlki kimi qalır. Buna görə də yüksək sayıqlıq göstərilməli, müdafiə qüdrətimizin daha da möhkəmləndirilməsinə ciddi diqqət yetirilməlidir. Bu sahədə müasir dövrdə həyata keçirilən tədbirlər arasında mülki müdafiə (MM) mühüm yer tutur. Əhalinin və infrastrukturların kütləvi qırğın silahlarının təsirindən və adi basqın vasitələrindən qorumaq, hərbi şəraitdə müəssisələrin fasiləsiz işləməsinə imkan yaratmaq, zədələnmə ocaqlarında, habelə təbii fəlakətlər vaxtı xilasetmə işlərini aparmaq, ən mürəkkəb hallarda inamla fəaliyyət göstərmək üçün xalqı mənəvi-psixoloji cəhətdən hazırlamaq məhz mülki-müdafiənin əsas vəzifələridir. Kütləvi qırğın silahlarından mühafizə üzrə əhalinin ümumi məcburi minimum bilikləri proqramının, həmçinin digər xüsusi proqramların geniş kütlələrə öyrədilməsi, mülki müdafiəyə diqqətin artırılması aktual məsələlərdəndir.

Mülki müdafiənin önəmi

Uzun illər ərazilərimiz işğal altında qalması səbəbi ilə xeyli minalanmış zonaların qalması, təcavüzkar, ikili standartlarla xain xislətli qonşumuzun revanşist meylləri və niyyətlərindən əl çəkmək istəmədiyi dövrdə mülki müdafiə biliklərinin geniş təbliği, müdafiə üsulları və qaydalarının hamıya öyrədilməsi, xüsusən hərbi işin əsasları ilə kütlələrin yaxşı tanış edilməsi xüsusi əhəmiyyət kəsb edir. Müəssisələrdə mülki müdafiənin vəzifələri; işçilərin, habelə onların ailə üzvlərini kütləvi

qırğın silahlarından qorumaq üçün tədbirlərin həyata keçirilməsi, energetika, nəqliyyat, səhiyyə müəssisələrinin müharibə dövründə dayanıqlı işini təmin etmək üçün tədbirlərin yerinə yetirilməsi, müəssisənin mülki müdafiə xidmətlərini, hərbiləşdirilmiş mülki müdafiə dəstələrini, habelə istehsalı fasiləsiz idarə etmək üçün etibarlı xəbərdarlıq və rabitə sisteminin hazırlanması, müəssisənin mülki müdafiə qüvvələrinin yaradılması, əmlakla təchiz edilməsi, fəaliyyətə hazırlanması və daim hazır vəziyyətdə saxlanması, işçilərə və əhaliyə kütləvi qırğın silahlarından mühafizə üsullarının öyrədilməsi, ərzağın, su mənbələrinin radioaktiv, kimyəvi və bioloji zəhərlənmədən qorunmasını təmin edən tədbirlərin görülməsi, zədələnmə ocaqlarında, təbii fəlakətlər vaxtı xilasetmə və təcili qəza-bərpa işlərinin təşkili və yerinə yetirilməsidir.

Mülki müdafiə tədbirləri

Böyük və Kiçik Qafqazın əhatəsində yerləşən Azərbaycan Respublikasının ərazisi region üçün xas olan təbii fəlakət törədən bütün hadisələrin və texnogen qəzaların xüsusiyyətlərini özündə əks etdirir. Çox mürəkkəb geoloji və iqlim şəraitinə malik olan Azərbaycan ərazisi istər endogen, istərsə də eksogen hadisələrin intensivliyinə görədünyanın ən mürəkkəb regionlarından sayılır [3]. Ölkəmizin demək olar ki, bütün ərazisi seysmik cəhətdən qeyri-sabitdir. Bu problemlərin elmi-nəzəri cəhətdən öyrənilməsi, proqnozlaşdırılması və qarşısının alınması istiqamətində ölkəmizdə geniş miqyaslı elmi-tədqiqat aprılır və praktik tədbirlər görülür. Alimlərimizin və mütəxəs-sislərimizin çoxillik gərgin əməyi sayəsində 1989-cu ildə respublika ərazisinin seysmik rayonlaşdırılması xəritəsi dəqiqləşdirilmiş və Azərbaycanın müvəqqəti seysmik rayonlaşdırılması xəritəsi (MSRX-89) tərtib edilmişdir [1].

Respublikamızda problemlərin nəzəri və əməli həlli üzrə keçirilən müxtəlif elmi-metodik konfranslar, seminarlar, respublika və beynəlxalq miqyaslı digər tədbirlər problemin kütlə-viləşdirilməsində müəyyən rol oynayır. 11 noyabr 2022-ci ildə Fövqəladə Hallar Nazirliyinin (FHN) və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Mülki müdafiə üzrə əhalinin hazırlanmasında ali təhsil müəssisələrinin rolu, mülki müdafiə fənninin tədrisinin təkmilləş-dirilməsi, mülki müdafiənin maddi-tədris bazasının gücləndirilməsi, mövcud problemlərin müzakirəsi və bununla əlaqədar nazirliklər arasında qarşılıqlı fəaliyyət" mövzusunda elmi-praktik konfrans keçirilib. Mülki müdafiə fənn proqramlarına praktiki saatların daxil edilməsinin (mülki müdafiə işi nümunəvi təşkil olunan obyektlərdə praktiki dərslərin keçirilməsi), mülki müdafiə fənninin tədrisinin təkmilləşdirilməsi, maddi-tədris bazasının gücləndirilməsi sahəsində qarşılıqlı fəaliyyətin əhəmiyyəti müzakirə olunub.

Qarabağ müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə çoxlu sayda mina və partlamamış hərbi sursat vardır. Bu təhlükələrlə mütəmadi mübarizə tədbirləri çərçivəsində MDU aşağıdakı tədbirlər planını hazırlamışdır.

1. MDU-da hər tədris ilində seminarlar keçirilməsi. Mina təhlükəsi və davranış qaydaları ilə bağlı Mexanika kafedrasının mülki müdafiə fənn müəllimləri tərəfindən tələbələrə magistrantlara, əməkdaşlara tədris ilinin əvvəlində (sentyabr ayının sonu) və tədris ilinin 2 ci yarısında (fevral ayının sonu) maaripləndirici seminarların keçirilməsi

2. MDU-da mövcüd olan 3 fakültədə (Mühəndislik, İqtisadiyyat və İdarəetmə, Təhsil) tədris olunan Mülki müdafiə (Mülki müdafiə və ilkin tibbi yardım) fənlərinin tədris proqramlarında mina təhlükəsi ilə bağlı mövzuların genişləndirilməsi və tədris prosesində bu mövzu ilə bağlı hissələrə əlavə məlumatların daxil edilməsi.

3. MDU- da illik Mülki Müdafiə tədbirləri ilə bağlı hər il üçün nəzərdə tutulan fəaliyyət planında mina təhlükəsi və bu təhlükədən qorunmaqla bağlı məsələnin əlavə edilməsi

4. MDU-nun yerləşdiyi Mingəçevir şəhərində olan məcburi köçkünlərin məskunlaşdığı ərazidə olan orta məktəblərdə , o cümlədən şəhərin orta məktəblərindəki şagirdlərə mina təhlükəsi ilə bağlı maaripləndirici seminarların təşkil olunması.

Yaşadığımız planetdə elmi-texniki inkişafın irəliləməsinə baxmayaraq təbii fəlakətlər, texnogen qəzalar, irimiqyaslı ekoloji, bioloji problemlər, müharibələr, epidemiyalar zaman-zaman

artır və mövcud olan heç bir müasir texnologiya və texniki qurğu əhalini bu bəlalardan qoruya bilmir.

Müasir insan potensial təhlükə əhatəsində yaşayır. Son 10 ildə dünyada dağıdıcı təbii fəlakətlərin sayı 3 dəfə, iqtisadi itkilər isə 9 dəfə artmışdır. Təbii fəlakətlərin miqyasının ildən-ilə artma səbəbi kimi, təbiətə antropogen təsirlərin anbaan artması qeyd olunur. İqtisadiyyat obyektlərinin qeyri-rasional yerləşdirilməsi, yaşayış məntəqələrinin potensial təbii təhlükəli ərazilərdə salınması, ətraf mühitin monitorinqlərinin lazımi qədər səmərəli və əhəmiyyətli olmaması, təbii proseslərin və hadisələrin müvafiq qurumlar tərəfindən zəif müşahidə edilməsi, mühəndis qurğularının qəzalı vəziyyəti və s. insanları daim təhlükə ilə üzbəüz qoyur [2].

Təhlükənin potensial olması onun mahiyyətcə güzli, zaman və məkana görə qeyri-müəyyən olmasındadır. Potensial təhlükə elə bir gizli qüvvədir ki, onun özünü biruzə verməsi üçün müəyyən şərait olmalıdır. Potensial təhlükənin real təhlükə halına keçməsi üçün imkan yaradan şəraitin parametrlərinə fövqəladə halların başvermə səbəbləri deyilir. Hazırda dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da mülki müdafiə sisteminin qarşısında iki mühüm məsələnin həlli durur:

1. Əhalini və iqtisadiyyatı təbii fəlakətlərin, habelə istehsalatda, nəqliyyatda və məişətdə baş verən dəhşətli qəzaların nəticələrindən xilas etmək.
2. Müharibə dövründə dinc əhalini və imkan daxilində iqtisadiyyatı qorumaq.

Nəticə

Hər ilin mart ayının 1-i Ümumdünya mülki müdafiə günü kimi mqeyd olunur. Bu günün keçirilməsində əsas məqsəd, dünya ictimaiyyətinin diqqətini mülki müdafiə xidmətlərinə. İnsanların və onların əmlakının xilas edilməsinə, təhlükəsizliyin təmin edilməsinə və ətraf mühitin qorunmasına yönəltməkdir. Mülki müdafiəyə əhalinin təhlükəsizliyinin təmin edilməsi sahəsində vahid dövlət siyasətini həyata keçirməklə nail olmaq olar. Bu məqsədlə fövqəladə hadisələri vaxtında proqnozlaşdırmaq, aşkar etmək və qarşısını almaq, onların zədələyici, psixoloji təsirini neytrallaşdırmaq və zəiflətmək, iqtisadi obyektlərin stabil işləməsini təmin etmək, xəsarət almış insanları təhlükəsiz yerə köçürmək və s. kimi tədbirlər görülməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Ocaqov H.Q. Mülki müdafiə. Bakı, 2010
2. Hacıyev N.M., Mahmudov S.H. Aqrar sahədə mülki müdafiə. Gəncə, 2011
3. Ocaqov H.Q., Hacıyev A.İ. Həyat fəaliyyətinin təhlükəsizliyi. Bakı, 2013

AZƏRBAYCAN GƏNCLİYİ VƏTƏNİMİZİN İŞIQLI SABAHIDIR

[1,2]**Sabir Rüstəm oğlu Məmmədov,** [1,3]**Fazil Tatarxan oğlu Cəfərov**
[1]Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
[2]pedaqogika üzrə fəlsəfə doktoru, dosent
sabirmemmedov1952@mail.ru
https://orcid.org/0009-0006-0671-1067
[3]aqrar elmlər üzrə fəlsəfə doktoru
faziljafarov@yahoo.com
https://orcid.org/0009-0006-6478-3966

Giriş

Vətənimizi işıqlı sabaha aparan Azərbaycan gəncliyi böyük gücə və istedada malik olmalıdır. Gənclərimizin savadlı, vətənpərvər və geniş dünyagörüşlü olması ən önəmli cəhətlərdən biridir. Bu günkü gənclərimiz zamanın tələblərini ödəmək üçün sağlam, mənəvi cəhətdən pak, elmli, hərtərəfli

dünyagörüşə müasir dünyanın ictimai durumunu analiz etməyi bacaran, yetgin, mübariz olmaları ilə qarşılarına qoyduqları məqsədə nail ola bilərlər. Müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərlə silahlanmalı, potensialını düzgün qiymətləndirməli, müasir texnologiyaları bilməli, siyasi cəhətdən yetgin düçüncəli, elmlə təcrübəni əlaqələndirməyi bacarmalı və vətənimizin uğurlu gələcəyi üçün iz qoymağı bacarmalıdır [1:4].

Hazırda Azərbaycan gəncliyi vətənimizi uğurla gələcəyə aparır. Onlar var qüvvələri ilə calışırlar ki, vətənimiz daha da çiçəklənsin. Bunun nəticəsidir ki, 12 avqust 1998-ci ildə Lissabonda qəbul edilmiş Beynəlxalq Gənclər gününü Azərbaycan gəncləri təntənəli şəkildə bayram edirlər. Ümummilli liderimiz Heydər Əliyev gənclərə böyük dəyər verərək söyləmişdir: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir". Ulu Öndərin gənclər haqqında dediyi bu olduqca dəyərli sözlər indiki gənclərimizin Qarabağ-Vətən müharibəsində göstərdikləri qəhrəmanlığın nəticəsi kimi özünü göstərdi.

Müzakirə və təhlil

Ali Baş Komandam İlham Əliyevin komandanlığı altında 44 günlük "Dəmir yumuruq" döyüşündə erməni işğalçılarınıa qarşı Azərbaycanın Müzəffər Ordusu cəsurluqla vuruşaraq düşməni çökdürdü. Vətəni-Qarabağı yağı düşməndən azad etdi. Gənclərimizin bu zəfər döyüşündəki misilsiz qəhramanlıqları aləmə səs saldı. Onlar 30 illik işğal altında qalmış şəhər və kəndlərimizi, torpaqlarımızı cəllad işğalçaların caynağındam xilas etdilər. Bu sağlam düşüncəli, mübariz, vətənpərvər Azərbaycan gəncliyini iftixar hissi ilə gedən zəfər yolu oldu [5:6]..

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi, rəşadətli və şanlı Azərbaycan Müzəffər Ordusunun Tarixi Zəfəri gənclərimizin sonsuz vətənpərvərliyini, müasir dövrdə vətənimizə, dövlətimizə və xalqımıza məxsus gözəl, olduqca qiymətli bir nəslin kamilləşdiyini və formalaşdığını bütün dünya xalqlarına göstərdi. Böyük dahi şəxsiyyət olan Ulu öndər Heydər Əliyev Azərbaycanın sabahını gənclərin fəaliyyətində, inkişafında görürdü. Ümummilli lider Heydər Əlirza oğlu Əliyev hələ 1970-1980-ci illərdə Azərbaycan gənclərinin inkişafı üçün xeyli iş, əvəzolunmaz işlər görmüş, onların yaxşı təhsil alması üçün keçmiş sövetlər birliyində fəaliyyət göstərən ayrı-ayrı respublikalarda olan ali məktəblərə göndərərək onların yaxşı təhsil alması üçün lazımı şərait yaratmış və onların təhsil almalarına görə bütün köməkliklər göstərilməsini təmin etmişdir [2:3].

Bunun nəticəsində də həmin dövrlərdə xeyli sayda yüksək təhsilli kadrlar respublikamıza qayıdaraq öz bacarıqları ilə Azərbaycan Respublikasının inkişafına öz töhfələrini vermişlər. Bu da Ulu öndər Heydər Əliyevin təhsil sahəsində apardığı siyasətin nəticəsində özünü göstərmişdir. Ulu Öndər gənclərin təhsili ilə bağlı çıxışlarının birində demişdir ki, bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün hər bir sahə üzrə yeni mütəxəssislər hazırlamaq məqsədinə görə edilmişdir: "Bu işə biz hələ 70-ci illərdən başlamışdıq. Mən bu gün çox məmuniyyət hiss ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm".

Azərbaycan Respublikasında gənclərin təşkilatlanması məqsədi ilə Ulu Öndər 26 iyil 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında Fərman imzaladı. 1995-ci ildə Azərbaycan Gənclər forumunun keçirilməsini və həmin ilin 2 fevralında Azərbaycan Gənclər Günü elan edilməsinin təşəbbüsünü irəli sürmüşdür. "Dövlər Gənclər siyasəti haqqında" 1999-cu ildə Ulu öndər Heydər Əliyev fərman vermişdir. 1996-2002-ci illərdə Ulu Öndər tərəfindən qəbul olunmuş "Bədən tərbiyyəsi və idman haqqında", "Azərbaycan gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlılar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında" qərarları "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "Ordudan təxris olunmuş gənclərin məşğulluğu" kimi dövlət sənədləri qəbul edilmişdir.

Bu gün Ulu Öndərin gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ugurla və məqsədyönlü şəkildə davam etdirilir. Cənab Prezident İlham Əliyev gənclərin cəmiyyət həyatında fəal iştirakını təmin etmək üçün məqsədyönlü suyasi kursun davamı olaraq

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsil almasına böyük imkanlar yaradır. Bu proqram əsasında dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssələrində təhsil almaq yolları açılmışdır. Bunlarla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatında yaxşı yer tutmasına gətirib çıxaracaqdır". Cənab İlham Əliyev hər zaman gənclərə diqqət və xüsusi qayğı göstərir. Bunun nəticəsidir ki, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyası" sərancamı verilmişdir. Gənclərimizə ayrılan bu qayğı və diqqət onların dövlət orqanlarında Milli Məcilisdə, bələdiyyələrdə, biznes sturukturlarında və başqa sahələrdə çalışmalarına böyük imkanlar açmışdır. Azərbaycan gəncləri Beynəlxalq aləmdə fəal iştirak edir, onlar istər idmanda, istər siyasətdə və s. yerlərdə hər zaman öz müstəqil sözlərini deməyi bacarırlar. Bu da gənclərimizin hər tərəfli inkişaf etməsindən xəbər verir [2:3].

Hər zaman, xüsusi ilə bu gün milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, xüsusən gənclərin həyat amalıdır. Ümumiyyətlə, bu gün Azərbaycan Respublikasında bütün sahələr üzrə gənclərin aktiv rolu danılmaz dərəcədə yüksəkdir və onlar uğurla irəliyə doğru addımlayırlar.

Nəticə

Qeyd etmək lazımdır ki, bu gün Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin apardığı hərtərəfli siyasət nəticəsində gənclərimiz üçün geniş imkanlar açılmış və onlar bundan bəhrələnərək bütün sahələr üzrə fəal iştirak edir, öz işləri ilə xalqına hər tərəfli xidmət göstərir. Onların milli vətənpərvərliyi isə 44 günlük "Dəmir yumruq"döyüşündə özünü misilsiz şəkildə göstərdi.

Var olsun Azərbaycan gəncliyi, onlar xalqımızın bu günü və sabahıdırlar!

İstifadə edilmiş ədəbiyyat

1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir (Tərtib edənlər: M.Mərdənov və Ə.Quliyev). Bakı: Təhsil, 2002, s.15-40
2. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. Bakı: Çaşıoğlu, 2002, s.50-60
3. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009, s.20-35
4. https://multiculturalism.preslib.az/az_a2.html
5. https://www.yeniazerbaycan.com/Siyaset_e57531_az.html
6. https://respublika-news.az/news/veten-muharibesinde-sanli-qelebemiz

ZƏNGƏZUR NƏQLİYYAT DƏHLİZİ AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFININ İNNOVATİV VASİTƏSİ KİMİ

Əliheydər Vəliəhəd oğlu Panaliyev
iqtisad elmləri namizədi, dosent
Azərbaycan Texniki Universiteti
ali.panaliev@mail.ru
https://orcid.org/0009-0008-0253-6905

Müasir şəraitdə Azərbaycan Respublikasının dayanıqlı nəqliyyat-logistika infrastrukturunun inkişafında beynəlxalq nəqliyyat dəhlizlərinin şaxələndirilmiş inkişafı mühüm əhəmiyyət kəsb edir. Hazırda beynəlxalq təcrübədə siyasi, iqtisadi, infrastruktur və texnoloji amilləri nəzərə almaqla nəqliyyat dəhlizlərinin formalaşması və inkişafı problemlərinə vahid konseptual yanaşma mövcud deyildir. Beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə müxtəlif coğrafi ərazilər arasında beynəlxalq yük

və sərnişin daşımaları həyata keçirilir. Bu nəqliyyat dəhlizləri müəyyən istiqamətlərdə daşımaların yerinə yetirilməsində istifadə olunan bütün nəqliyyat növlərinin nəqliyyat vasitələrini və stasionar qurğularının kompleksini özündə birləşdirir. Eyni zamanda məhsulların – yüklərin istehsalçılardan istehlakçılara çatdırılmasının texnoloji, təşkilati və hüquqi şərtləri əsasında beynəlxalq nəqliyyat sisteminin bir hissəsi kimi fəaliyyət göstərir.

Mövcud geosiyasi şəraitdə Rusiya və İranandan yan keçən, Orta Dəhlizin əhəmiyyəti daha da artmış və ölkəmizin ərazisindən keçən Zəngəzur beynəlxalq nəqliyyat dəhlizinin bərpası zamanın tələbidir. Ona görə də Zəngəzur nəqliyyat dəhlizi respublikamızın iqtisadi inkişafının innovativ vasitəsi kimi tədqiq olunmalıdır.

Hesab edirəm ki, Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri ölkəmizin nəqliyyat sisteminin qlobal nəqliyyat məkanına inteqrasiyası yolu kimi qiymətləndirilməlidir. Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı alternativ marşrutlar üçün şiddətli rəqabət şəraitində fəaliyyət göstərir. Nəqliyyat layihələrinin həyata keçirilməsi nəticəsində Azərbaycan Çindən, Rusiyadan, İrandan və Orta Asiya regionu ölkələrindən Zəngəzur dəhlizi ilə Türkiyədən keçməklə Avropaya malların tranzitini təmin edə biləcək. Bu da daşındıqları regionların, o cümlıədən Azərbaycanın iqtisadi inkişafına müsbət təsir göstərəcək.

Zəngəzur dəhlizlərinin artan iqtisadi və siyasi əhəmiyyəti dünyanın ən güclü ölkələrini (Çin, Qazagıstan, Rusiya, Türkiyə, Avropa İttifaqı və s.) birləşdirən beynəlxalq nəqliyyat marşrutu layihələrinin formalaşdırılmasında iştirakını təsdiqləyir. Olkəmiz həm Çinin "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyasını, həm də Avropa İttifaqı ölkələri TRASEKA beynəlxalq nəqliyyat dəhlizi layihəsində iştirak edir. Ona görə də Azərbaycan aşağıdakı mürəkkəb problemləri həll etməlidir:

- Azərbaycan ərazisindən keçən və ölkəmizin ərazisindən yan keçən beynəlxalq nəqliyyat dəhlizlərin səmərəliliyini müqayisəli şəkildə təhlil etməli;
- beynəlxalq nəqliyyat dəhlizlərinin tikintisi layihələrində aparıcı dövlətlərin rolu və maraqları qiymətləndirməli;
- ölkənin milli təhlükəsizliyini təmin etmək üçün Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyəti müəyyən edilməli;
- beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının Azərbaycanın sosial-iqtisadi vəziyyətin dəyişməsinə təsiri dərəcəsi qiymətləndirilməli;
- Azərbaycanın ərazisindən keçən marşurutların inkişafı sahəsində dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını təhlil etməli;
- Avrapa və Asiya olkələri ilə beynəlxalq əməkdaşlığın inkişafı üçün ölkənin nəqliyyat infrastrukturunun imkanlarını müəyyən etməlidir.

Respublikamızın innovativ iqtisadi inkişafının əsas istiqamətləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" layihəsində verilmişdir [1].

Bu layihəyə görə regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması nəzərdə tutulur. Yeni yaradılacaq Zəngəzur beynəlxalq nəqliyyat dəhlizi Azərbaycanın innovativ iqtisadi inkişafını sürətləndirməklə yanaşı, qlobal bazarlara çıxış imkanlarını artıracaq və ölkəmizin işğaldan azad edilmiş ərazilərin dayanıqlı inkişafına əhəmiyyətli təkan verəcəkdir.

"Bir kəmər, bir yol" layihəsi Avrasiyada geoiqtisadi əlaqələrin yenidən formalaşmasında mühüm rol oynayır. Belə ki, bu layihə Bakı-Tbilisi-Qars dəmir yolu ilə yük daşıma həcminin 5 milyon ton, Bakı Ticarət Limanının yük aşırma imkanlarının 25 milyon tona qədər artmasına və "Rəqəmsal İpək Yolu" layihəsinin həyata keçirilməsinə imkan verdi [2].

Eyni zamanda qeyd olunan layihə perspektivdə Zəngəzur enerji-nəqliyyat dəhlizinin reallaşması ilə nəticələnəcəkdir. Bu da 2030-cu ilədək 7 GVt yaşıl enerji güclərinin yaratmağa və bunun bir hissəsinin Zəngəzur enerji-nəqliyyat dəhlizi ilə ixracına imkan verəcəkdir.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin fəaliyyətinin təhlili göstərir ki, 2019-2022- ci llərdə daşımalardan əldə olunan gəlir xeyli artmışdır. Belə ki, 2020 ci ildə yük

daşımalarından əldə olunan gəlir 513,141 milyon manat, 2022-ci ildə isə yük daşımalarından əldə olunan gəlir 734,913 milyon manat olmuşdur. Yəni son üç ildə ölkəmizin ərazisində Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi ilə yük daşımalarından əldə olunan gəlir 1,432 dəfə artmışdır [3].

Zəngəzur dəhlizi istifadəyə verildikdən sonra Şərq-Qərb, Cənub-Qərb, Şimal-Qərb istiqamətlərində daşınan yüklərin artmasına imkan verəcək və bu da Azərbaycanın ərazisindən keçən tranzit yük daşımalarından əldə olunan gəlirin fasiləsiz artmasına, innovativ iqtisadi inkişafına səbəb olacaqdır.

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycan ərazisindən keçən Şimal-Cənub layihəsinin səmərəli həyata keçirilməsi üçün yerinə yetirilməli olan vəzifələrə xüsusi diqqət yetirirlməlidir. Belə ki, bu dəhlizdən istifadə olunmaqla Zəngəzur dəhlizi vasitəsilə Cənub - Qərb və Şimal - Qərb istiqamətlərində yük daşımalarına çəkilən xərclərin və sərf olunan vaxtın azldılmasına şərait yaradacaqdır. Bunun üçün tələb olunur:

- dəmir yolunun İran hissəsinin tikintisini başa çatdırmaq;
- Həştərxan nəqliyyat qovşağının modernləşdirilmək;
- keçid tarifini müəyyən etmək, malların gömrük dəyərinin hesablanmasına vahid yanaşmanı inkişaf etdirmək, gömrük prosedurlarını sadələşdirilmək və rüsumların optimal səviyyəsini təmin etmək.

Zəngəzur dəhlizi Avropa ilə Asiyanı birləşdirən Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinin əsas marşrutlarından biridir. Bu layihənin məqsədi Çindən Türkiyəyə, Aİ ölkələrinə və geriyə yük daşımalarını artırmaqdır. Bu marşrutdan istifadə Avropa ilə Asiya arasında marşrutu xeyli qısaldacaq və tranzit müddətini də azaldacaq.

Müasir dövrdə nəqliyyat dəhlizləri innovativ texnologiyaları tətbiq etmıklə yaradılmalı və istifadəyə verilməlidir. Nəqliyyat sistemində istifadə olunan innovativ texnologiyalardan biri də rəqəmsal nəqliyyat dəhlizlərinin yaradılmasıdır.

Avropa və Asiya ölkələri böyük tranzit potensialına malik olduğundan, onu ticarət axınlarının artımını stimullaşdıracaq və iqtisadiyyatın əlaqəli sahələrinin inkişafına müsbət təsir edəcək səmərəli vahid nəqliyyat-logistika sisteminin yaradılması yolu ilə reallaşdırmaq lazımdır. Belə bir sistemin yaradılması istiqamətində ilk addım rəqəmsal nəqliyyat dəhlizləri ekosisteminin tətbiqidir. Ekosistem bütün nəqliyyat vasitələri, heyət, yüklər, icazələr verən və müşayiətedici sənədlər haqqında məlumat toplamaq, inteqrasiya etmək və emal etmək imkanına malikdir.

Rəqəmsal nəqliyyat dəhlizlərinin yaradılmas layihəsinin həyata keçirilməsi elektron sənəd dövriyyəsinə və məlumat mübadiləsinə tam keçid hesabına nəqliyyat və logistika əməliyyatlarına kağız dəstəyini minimuma endirməyə, nəqliyyat və logistika xidmətlərinin vahid norma və standartlarının yaradılmasına, beynəlxalq logistika inteqrasiyasının dərinləşdirilməsinə, məlumatların toplanmasına, təhlili və emalı üçün tam inteqrasiya edilmiş sistemə keçid yolu ilə gömrük inzibatçılığının təkmilləşdirilməsinə, rəqəmsal nəqliyyat dəhlizlərinin rezidentləri arasında fasiləsiz qarşılıqlı əlaqənin təmin edilməsinə imkan verir.

Rəqəmsal texnologiyaların tətbiqi daşımaların yerinə yetirilməsinə sərf olunan vaxtı azaldacaq və ümumilikdə daşımaların səmərəliliyini artıracaqdır. Aparılan tədqiqatlar göstərir ki, rəqəmsal nəqliyyat dəhlizləri ekosisteminin yaradılması sayəsində son məhsulların qiymətində nəqliyyat komponentinin payı 20 %-dən 12-15 %-ə qədər azalır [4].

Beləliklə, rəqəmsal nəqliyyat dəhlizlərinin ekosistemi axınların hərəkətini optimallaşdıran və bütün logistika zəncirində həlqələrin qarşılıqlı əlaqəsini sadələşdirən, müasir informasiya texnologiyalarının tətbiqi yolu ilə məlumat mübadiləsi prosesini təkmilləşdirən mühitdir.

İstifadəyə veriləcək Zəngəzur rəqəmsal nəqliyyat dəhlizi logistika xərclərini azaltmağa, nəqliyyat və tranzit potensialından səmərəli istifadəni təmin edərək, milli və beynəlxalq səviyyədə şirkətlər arasında səmərəli əlaqələr yaratmağa imkan verəcək.

Zəngəzur nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi Azərbaycana Avropa və Asiya ölkələri arasında tranzit yük daşma həcmini və nəqliyyat xidmətlərinin ixracının həcmini artırmağa, Azərbaycan şirkətlərinin xarici bazarlara səmərəli çıxışı üçün ilkin şəraiti yaratmağa, gələcəkdə planlaşdırılan bu marşrutların kəsişməsi onların arasında böyük yükdaşıma məntəqəsini təşkil etməyə imkan verəcəkdir. Bu da öz növbəsində qeyd olunan marşrutun Asiyadan Avropaya böyük həcmdə tranzit yük daşımaları üçün Azərbaycanın əsas beynəlxalq nəqliyyat kanalına çevrilməsinə, nəqliyyat sisteminin rəqabət qabiliyyətini artırılmasına və nəticədə ölkəmizin innovativ iqtisadi inkişafına zəmin yaradacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. https://president.az/az/articles/view/50474
2. https://minenergy.gov.az/az/xeberler-arxivi/00073
3. https://www.stat.gov.az/source/transport/
4. Лахметкина, Н. Ю. Развитие транспортных систем в цифровой повестке. Интеллект. Инновации. Инвестиции. 2019. № 4. С. 114 -120

TARİXİ TORPAQLARIMIZA BÖYÜK QAYIDIŞ

Sahilə Rafiq qızı İbrahimova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
sahila.ibrahimova@yahoo.com
https://orcid.org/0009-0008-6960-524X

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq – cəmi 44 gün ərzində – bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik" [1, s.10].

Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə "Azərbaycan sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Bu prioriteltərə söykənən Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə Preziden İlham Əliyevin 16.11.2022-ci il tarixli 3587 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təstiq edilmişdir [3].

44 günlük Vətən müharibəsi Azərbaycanın gücünü bir daha dünyaya sübut elədi. Bu qələbənin nəticəsi olaraq işğaldan azad edilmiş əraziləzilərimizə "Böyük Qayıdış"ın təmin olunması dövlətimizin əsas prioritetlərindəndir. 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış soydaşlarımızın öz doğma vətənlərinə qayıtması qısa zamanda təmin ediləcək. İşğaldan azad edilmiş bölgələrimizdə evlərin tikilməsi, yolların, yeni infrastrukturun qurulması istiqamətində sürətli işlər aparılır. Həmin ərazilərdə məktəb, xəstəxana tikintisi, yeni yaşayış məntəqələrinin salınması sürətlə davam edir.

Həmin ərazilərdə mədəni irsimizin bərpa olunması, kənd və şəhərlərimizin bərpa olunması, regionumuzun gələcəyinin inşa edilməsi strateji əhəmiyyətə malikdir. Burada görülən işlər ardıcıl və məqsədyönlü aparılır. "Ağıllı şəhər", "ağıllı kənd" layihələrinin həyata keçirilməsi yüksək səviyyədə davam etdirilir. "Ağıllı kənd" layihəsinin icrasına 2021-ci ilin aprelin 26-dan başlanıldı.

Prezident İlham Əliyev və birinci xanımı Mehriban Əliyevanın Zəngilana səfəri zamanı Ağalı kəndində "Ağıllı kənd" layihəsinin təqdimatı keçirilmişdir. Bu, işğaldan azad olunmuş rayonlarımızda ilk pilot layihə idi.

Layihənin icrasına başlamasından bir il sonra 2022-ci il mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə "Ağıllı kənd" layihəsinin birinci mərhələsinin açılışı oldu. Cənab Prezidentin göstərişi və xüsusi şəxsi nəzarəti ilə həyata keçirilən bütün abadlıq işləri Vətən-torpaq sevgimizi sonsuz edir.

"Ağıllı kənd" layihəsi həm də çox böyük elmi nailiyyətdir. Burada müasir şəhərsalma standartları tətbiq olunub. Həmçinin burada göyərçin abidə-fəvvarə kompleksi inşa edilib ki, bu da işğal atında qalmış torpaqlarımızda sülhün təmin olunmasının təcəssümüdür. Burada suvarma sistemindən başlamış torpağın əkin-becərmə, məhsulun toplanmasına kimi avtomatlaşdırılmış, həm də ən qabaqcıl, ən inkişaf etmiş texnologiyaların istifadə nəzərdə tutulur. Müasir dövrdə bütün dünyada kənd təsərrüfatında əl əməyindən istifadə minimuma enib, yeni texniki vasitələrdən istifadə edilir. Əkin sahələrinin dərmanlanmasında dronlardan istifadə edilir, məhsul yığımı texnikalar vasitəsilə həyata keçirilir, müasir suvarma sistemlərində istifadə edilir. Bütün texnoloji yeniliklər "Ağıllı kən təsərrüfatı" sistemində istifadə edilməsi buradakı inkişafa böyük töhfəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çıx böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən bözəl bölgələrindən birinə çevirməliyik və əminən ki, buna nail olacağıq" [2, s.482].

Avtomobil və dəmir yolarının çəkilməsi, yeni hava limanlarının tikilməsi digər addımlar görülən işlərin sistemli xarakter daşıdığının göstərir.

Burada ilk olaraq bütün işlərin həyata keçirilməsi üçün bu ərazilərdə mina və partlamamış döyüş sursatlarının aşkar olunaraq zərərsizləşdirilməsi işinə başlamaqdır. Yaşayış məntəqələrinin salınacağı ərazilər ilk olaraq minalardan təmizləmə işlərində başlayır.

İşğaldan azad olunan ərazilərdə tikinti-quruculuq işlərinin aparılması üçün ilk nöbədə yolların yenidən çəkilməsi, tunel və körpülərin bərpası və yenidən tikintisi xüsusi əhəmiyyət daşıyır.

Azad olunan kənd və şəhərlərin elektrik enerjisi ilə təhciz olunması istiqamətində də xeyli işlər görülür. Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təhciz olunması üçün yeni elektrik stansiyaları və yarımstansiyalar tikilir. Bundan əlavə, həmin yerlərdə qazlaşdırma işi də uğurla həyata keçirilir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə içməli su təchizatının yaxşılaşdırılması istiqamətində də müvafiq işlər görülür.

Qısa bir müddətə, təxmini bir ilə yaxın vaxtda yüksək texnoloji vasitələrdən istifadə edərə istifadə edilərək qələbəmzin simvolu sayılan "Zəfər" yolunun tikintisi başa çatıb. Yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi biz döyüşərək, qan tökərək, şəhid verərək torpaqlarımızı azad etdik, Qarabağımız qaytardıq. Biz artıq buraya yerləşmişik, biz buraya qayıtmışıq, biz doğma diyara qayıtmışıq. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünlərimizi bu doğma diyara tezliklə qaytarmaqdır.

Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada – tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq.

İstifadə edilmiş ədəbiyyat

1. Böyük Qayıdış. Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara tarixi səfərləri. I kitab. Bakı: Şərq-Qərb, 332 s.
2. Zəfər səlnaməsi. Bakı: Şərq-Qərb, 536 s.
3. https://president.az/az/articles/view/57883

SÜRDÜRÜLEBİLİR BÖLGESEL KALKINMA PERSPEKTİFİNDEN KARABAĞ'IN TURİZM POTANSİYELİNİ ORTAYA KOYMAYA YÖNELİK BİR ÇALIŞMA

[1]Bahadır İnanç Özkan, [2]Esen Dinçer
[1]Dr. Öğr. Üyesi
Van Yüzüncü Yıl Üniversitesi, Türkiye
bahadirinancozkan@yyu.edu.tr
https://orcid.org/0000-0002-7665-6765
[2]Öğr. Gör.
Muş Alpaslan Üniversitesi, Türkiye
esen.dincer@gmail.com
https://orcid.org/0000-0003-0450-8031

Giriş

1929 yılında Amerika Birleşik Devletleri'nde ortaya çıkan Büyük Buhranın sonucu olarak kalkınma politikaları merkeziyetçi bir hal almış ve bu durum 1980'li yıllara kadar devam etmiştir. 1980'li yıllarda küreselleşmenin etkisiyle önce Berlin Duvarı'nın yıkılması daha sonra ise Sovyet Sosyalist Cumhuriyetler Birliği'nin dağılması sonucunda kalkınma politikaları bölgesel düzeyde ele alınmaya başlanmıştır. Kalkınma politikalarının bölgesel düzeyde ele alınmasıyla kaynakların yerinde ve etkili kullanımı, bölgesel ihtiyaçların daha fazla önemli olduğu bir döneme girilmiştir.

Küreselleşmenin getirmiş olduğu yeni anlayış, bölgesel olarak ekonomik gücün yaratılması ve güçlü bir ağ ekonomisine sahip olmaktadır. Başka bir deyişle, yeni anlayışın temeli özerk bir ekonomik gelişme ile yabancı yatırımların bölgeye çekilerek bölgelerarasında var olan ekonomik eşitsizliklerin giderilmesi ve rekabet edilmesidir (Cankorkmaz, 2011, s.115). Bölgeler arasındaki eşitsizliklerin giderilmesinde, istihdama olumlu katkılar sunulmasında, dış ödemeler dengesine sunduğu olumlu katkılardan dolayı turizm, gelişmiş ve gelişmekte olan ülkeler için önemli bir araç haline gelmiştir. İhraç edilmesi imkân dahilinde olmayan jeoekonomik kaynaklar, kültürel değerler, destinasyona özel olan hizmetler turizm sayesinde değer kazanmakta ve hem bölge hem de ülke için önemli döviz girdisi sağlamaktadır.

Diğer taraftan gölgeye gelen turistlerin yapmış oldukları döviz cinsinden tüketim harcamaları ve turistik talebin karşılanması amacıyla yapılan turistik yatırımlar hem turizme hem de turizmle ilişki olan diğer sektörlere gelir sağlayıcı bir katkı sunmaktadır. Bölgeye yönelik yapılan turistik hareketler bölge insanına yönelik birtakım sonuçlar doğurmaktadır. Bu sonuçlar; ulaştırma, enerji, telekomünikasyon gibi altyapı yatırımları, turistik işletmeler, yiyecek-içecek işletmeleri, sağlık işletmeleri gibi üstyapı yatırımlarıdır. Bu sayede turizm sektörü, bölgenin iktisadi olarak zenginleşmesine ve diğer sektörlerin gelişmesine uygun bir alan meydana getirmektedir (Eşitti ve Kıngır, 2015, s.177-178).

Yukarıdaki ifadelerden anlaşılacağı üzere turizm hem bölgesel hem de ulusal kalkınma için önemli bir rol oynamaktadır. Bu kapsamda çalışmada, Azerbaycan'ın işgalden kurtarılmış olan Karabağ bölgesinde turizmin bölgesel kalkınmada oynayacağı rolün ve etkinin belirtilmeye çalışılması ve birtakım öneriler getirilmesi amaçlanmaktadır. Çalışma bu yönüyle kavramsal bir niteliktedir.

Bölgesel Kalkınma ve Turizm

Kalkınma, bir ülkede ekonomik, siyasi ve toplumsal yapının değişmesi neticesinde insanların yaşamlarında birtakım değişikliklerin meydana gelerek toplumsal refahın artması olarak tanımlanabilir. Kalkınmanın amacı, doğal kaynaklara zarar verilmeden yerel ve bölgesel ölçekte gelir yaratılıp istihdamın artırılması ve yaşam kalitesinin yükseltilmesidir (Çakır ve Sandalcılar, 2018, s.346; Todoro, 1981, s.62; Greffi ve Fonda, 1992, s 420). Bu bakımdan bölgesel kalkınma, ekonomik kalkınmanın bir alt dalı olarak düşünülebilir. Bölgesel kalkınma, toplumun refah

seviyesinin, yaşam kalitesinin, yatırım miktarlarının daha iyi hale gelmesini, kaynakların verimli ve etkili dağılımını ve istihdamda artışın meydana gelmesini ifade etmektedir (Karagöz ve Mesci, 2020, s. 204-205; Tekin, 2011, s. 37; Işık ve Kılınç, 2011, s. 13, Alpaslan ve Aydın, 2021, s.112; Durgun, 2006: s.42). Ekonomik kalkınma, tüm insanlıkla ve gelecek kuşaklarla paylaştığımız dünyamızla ilgili Sürdürülebilir Kalkınma Hedeflerini göz önünde bulundurmalıdır.

Sürdürülebilir Kalkınma Hedefleri (SDG'ler) 2015 yılının Eylül ayında Birleşmiş Milletler (BM) Genel Kurulu'nda açıklanmış, (BM, 2015f) ve 1 Ocak 2016'da yürürlüğe girmiştir. Sürdürülebilir Kalkınma Hedefleri, 17 amaç ve 169 hedeften oluşan geniş bir gündemdir. Küresel hedefler olarak tüm BM üye ülkeleri tarafından oybirliğiyle kabul edildi. Sürdürülebilir Kalkınma Hedefleri (SDG'ler), Eylül ayında Birleşmiş Milletler (BM) Genel Kurulu'nda açıklandı. 2015 (BM, 2015f) ve 1 Ocak 2016'da yürürlüğe girmiştir. Sürdürülebilir Kalkınma Hedefleri, 17 amaç ve 169 hedeften oluşan geniş bir gündemdir. Tüm BM üye devletleri tarafından oybirliğiyle küresel hedefler olarak kabul edildi (Georgeson ve Maslin, 2018, s.1)

Azerbaycan'ın 2023 yılı Sürdürülebilir Kalkınma Hedefleri karnesine göre Azerbaycan 166 ülke arasından 53. sıradadır. Hedeflerin %48,3'üne ulaşmak veya ulaşma yolunda, %34,5'inde sınırlı bir ilerleme içinde, %17,2'sinde kötüye gidiyor olarak raporlanmıştır.

Tablo 1

Kaynak: Sustainable Development Report, Azerbaijan

	Sürdürülebilir Kalkınma Amacı (SKA)	**Hedefe Ulaşma Durumu**	**Gidişat**
1.	Yoksulluğa Son	Hedefe ulaşıldı	SKA hedeflerine doğru ilerliyor veya ulaştı
2.	Açlığa Son	Önemli çaba gerektiriyor	Durağan
3.	Sağlık ve Kaliteli Yaşam	Önemli çaba gerektiriyor	Orta düzeyde ilerleme var
4.	Nitelikli Eğitim	Çaba gerektiriyor	Orta düzeyde ilerleme var
5.	Toplumsal Cinsiyet Eşitliği	Ana hedefler gerçekleşmedi	Durağan
6.	Temiz Su ve Sanitasyon	Önemli çaba gerektiriyor	SKA hedeflerine doğru ilerliyor veya ulaştı
7.	Erişilebilir ve Temiz Enerji	Önemli çaba gerektiriyor	Durağan
8.	İnsana Yakışır İş ve Ekonomik Büyüme	Önemli çaba gerektiriyor	Durağan
9.	Sanayi, Yenilikçilik ve Altyapı	Ana hedefler gerçekleşmedi	Orta düzeyde ilerleme var
10.	Eşitsizliklerin Azaltılması	Hedefe ulaşıldı	Gidişat bilgisi yok
11.	Sürdürülebilir Şehirler ve Topluluklar	Önemli çaba gerektiriyor	Orta düzeyde ilerleme var
12.	Sorumlu Üretim ve Tüketim	Çaba gerektiriyor	Orta düzeyde ilerleme var
13.	İklim Eylemi	Önemli çaba gerektiriyor	Orta düzeyde ilerleme var
14.	Sudaki Yaşam	Bilgi yok	Gidişat bilgisi yok
15.	Karasal Yaşam	Ana hedefler gerçekleşmedi	Orta düzeyde ilerleme var
16.	Barış, Adalet ve Güçlü Kurumlar	Ana hedefler gerçekleşmedi	Durağan
17.	Amaçlar için Ortaklıklar	Önemli çaba gerektiriyor	SKH hedefine doğru ilerliyor veya ulaştı

Azerbaycan'ın 2023 karnesi ağırlıklı olarak iyiye gidişi işaret etmektedir. Halk arasında "Bacasız sanayi" olarak adlandırılan ve emek yoğun bir sektör olan turizm sektörü Sürdürülebilir Kalkınma Hedeflerinin ana temaları olan çevre ve eşitsizliklerin azaltılması amaçları açısından en uygun sektörlerden biridir.

Son zamanlarda tüketici tercihlerinde meydana gelen değişmeler, teknolojik gelişmeler, ulaşım olanaklarının çoğalması ve buna paralel olarak düşen maliyetler sayesinde bir gelişme hızı yakalayan turizm sektörü, tüm dünyada kalkınmanın en önemli araçlarından birisi olarak görülmektedir. Böylece, birçok Avrupa ülkesi ve Amerika Birleşik Devletleri turizm sektörünü kalkınmanın önemli unsurlarından biri olarak görmektedir. Özellikle bir ülkenin az gelişmiş bölgelerinde turizm sektöründe bölge ekonomisi canlandıracağı gibi yeni kaynakların yaratılmasında önemli bir itici güce sahiptir (Eceral ve Özmen, 2009, s.47-49; Sevinç ve Azgün, 2019, s.19; Yıldız ve Sarıtaş, 2021, s.1640).

Turistik açıdan zengin olan ülkelerin kalkınma politikalarında turizme yer vermelerinin nedenleri olarak bölgesel istihdam olanaklarının oluşturulması ve refah düzeyinin artması olduğu tespit edilmiştir. Bir bölgede turizm sektörünün gelişmesi, turizme bağlı olarak yan sanayi ve sektör dallarının oluşması ve gelişmesini, istihdam ve gelir düzeyinin artması anlamına gelmektedir. Bu sayede, döviz girdisi, ekonomik büyümeye katkı ve vergi gelirleri meydana gelmektedir (Saarien vd, 2014, s.8; Lie, 2014, s.823-827; Kim vd, 2006, s.925-933). Braden ve Winer (1980, s.37), bölgeler arasındaki eşitsizliğin giderilmesinde turizm sektörünün, zengin turistik arz kaynakların a sahip ancak tarım ve sanayide yeterli kaynağa sahip olamayan bölgelerin etkin ve planlı turizm politikalarının uygulanması sayesinde dengeli bir kalkınma sağlayacaklarını ifade etmiştir.

Bir bölgenin kalkınmasında ve gelişmesinde turizmin etkili bir şekilde kullanılması için birtakım faktörlerin dikkate alınması gerekmektedir (Çeken, 2008, s.298-299);

- Bölgede bulunan arkeolojik eserlerin, kültürel miras unsurlarının, folklorik değerlerin ve festivallerin analizi yapılmalı,
- Bölgenin iklim şartları ve arazi durumu incelenmeli,
- Bölgede mevcut olan konaklama tesislerinin durumları tespit edilmeli,
- Bölgedeki kamu yatırımlarının durumu incelenmeli,
- Bölgeye yönelik uluslararası turizm talebinin tespiti,
- Bölge halkının turizmi algılama düzeyinin bilinmesi,
- Bölgede bulunan turistik tesislerin bölge istihdamına katkı oranı,
- Turizm sektörü ile bölgedeki diğer sektörler arasındaki ilişki,
- Bölgedeki sivil toplum kuruluşlarının varlığı,
- Bölgede turizm sektörüne, direk ve dolaylı yoldan mal ve hizmet üreten, bunları pazarlayan kuruluşların varlığı olarak sıralanabilir.

Yöntem

Söz konusu çalışma, literatür taraması yöntemiyle yapılmış kavramsal bir çalışmadır.

Sonuç

Turizm sektörü, bir destinasyondaki kaynakları etkin kullanarak hem ulusal hem de bölgesel olarak kalkınmaya olumlu etki eden bir sektördür. Bu bakımdan, dünyada seyahat ve turizm hareketine katılan insan sayısının yıldan yıla artması, turizm sektörünü ön plana çıkartmakta ve turizm sektörü bölgelerarasındaki dengesizliği gidermede başat bir rol oynamaktadır. Aynı zamanda, turizmin temel arz kaynakları, doğal, sosyo-kültürel ve tarihi kaynaklar olduğu göz önünde bulundurulduğunda, turizmin kalkınmaya sağlayacağı katkı diğer sektörlerin sunacağı katkıdan daha fazla olacağı düşünülmektedir.

Bu bağlamda, Ermeni işgalinden kurtarılan Karabağ bölgesinin turizm temelli kalkınmasının sağlanması için kamu ve özel sektöre sorumluluklar düşmektedir. Ancak, işgal altında kaldığı süre ve sözde yönetimin Türk İslam eserlerine bakışı göz önüne alındığında kamu sektörünün daha fazla sorumluluk alması gerektiği düşünülmektedir. Bu sorumluluklar şunlar olabilir;

- Bölgenin altyapısının iyileştirilmesi,
- Bölgeye yönelik olarak yeni ulaşım imkanlarının oluşturulması, uluslararası uçuşların bölgeye yönelik olarak başlatılması,
- Bölgeye yapılacak turizmle ilgili üstyapı yatırımlarına yönelik olarak, yatırım teşviki, faiz desteği, yatırım yeri tahsisi, haberleşme araçları için öncelik tanınması,
- Somut olan kültürel mirasın restorasyonunun yapılarak turizme kazandırılması,
- Uluslararası turizm fuarlarına gidilerek bölgenin tanıtımının yapılması,
- Karabağ'da Türklere yapılan soykırımı anlatan Auschwitz gibi bir müzenin kurulması,
- Tarihi öneme sahip çarşı, bedesten gibi yapıların restorasyonu yapılarak turizme kazandırılması,
- Kültürel faaliyetlerin ve festivallerin bölgede yapılması, film ve dizi gibi unsurların Karabağ'da çekilmesine yönelik teşvikler,
- Uluslararası havayolları ile anlaşılarak birtakım teşviklerin sunulması,
- Konaklama tesislerinin mevcut durumu ve analizinin yapılması,
- Turizm sektöründe çalışacak iş görenlere yönelik nitelikli eğitimin verilmesi,
- Bölgede yer alan sit alanlarının tespit edilmesi,
- Alternatif turizm çeşitlerinin oluşturulması,
- Bölgeye yönelik olarak turizm temelli kalkınma planlarının hazırlanması, bu planları yürütecek organların oluşturulması olarak sıralanabilir.

Kaynakça

Alpaslan, E. T. ve Aydın, H. İ. (2021). Turizmin gelişmesinde kalkınma ajanslarının rolü: Dicle kalkınma ajansı örneği. *International Journal of Economics, Politics, Humanities & Social Sciences*, 4(3), 110-124.

Braden, P. V. ve Wiener, L. (1980). Bringing travel, tourism and cultural resource activities in Harmony with regional economic development, *Tourism Marketing and Management Issues*, 33-41.

Cankorkmaz, Z. (2011). Türkiye'de bölgesel kalkınma ajansları ve bu ajanslara yönelik eleştiriler. *Dokuz Eylül Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi*,26 (1), 113-138.

Çakır, R. A. ve Sandalcılar, A. R. (2018). Turizmin bölgesel kalkınmaya etkileri: Rize Ayder turizm bölgesi Örneği. *Recep Tayyip Erdoğan Üniversitesi Sosyal Bilimler Dergisi*, 4(8), 342-360.

Çeken, H., (2008). Turizmin Bölgesel Kalkınmaya Etkisi Üzerine Teorik Bir İnceleme. *Afyon Kocatepe Üniversitesi İ.İ.B.F. Dergisi*, 10(2), 293-306.

Durgun, A. (2006). Bölgesel kalkınmada turizmin rolü: Isparta örneği. Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü İktisat Anabilim Dalı, Yayınlanmamış Yüksek Lisans Tezi, Isparta

Eceral, T. Ö. ve Özmen C. A., (2009). Beypazarı'nda Turizm Gelişimi ve Yerel Ekonomik Kalkınma. *Bolu Abant İzzet Baysal Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Ekonomik ve Sosyal Araştırmalar Dergisi*, 5(2), 46-74.

Eşitti, B. ve Kıngır, S. (2015). Konya ili örneğinde kalkınma ve inanç turizmi. *Bartın Üniversitesi*

Georgeson, L., & Maslin, M. (2018). Putting the United Nations Sustainable Development Goals into practice: A review of implementation, monitoring, and finance. *Geo: Geography and Environment*, *5*(1), e00049.

Gereffi, G.ve Fonda, S. (1992). Regional paths of development. *Annual Review of Sociology*, 18, 419 448.

Işık, N. ve Kılıç, E. C. (2011) Bölgesel kalkınmada Ar-Ge ve inovasyonun önemi: Karşılaştırmalı bir analiz. *Eskişehir Osmangazi Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi*, 6(2), 9-54.

İİBF Dergisi, 6(12), 175-190.

Karagöz, A. ve Mesci, Z. (2020). Bölgesel kalkınmada turizm girişimciliğinin rolü: Akçakoca örneği. *Seyahat ve Otel İşletmeciliği Dergisi*, 17(2), 203-231.

Kim, H. J., Chen, M. H. & Shawn, S. C., (2006). Tourism Expansion and Economic Development: The Case of Taiwan. *Tourism Management*, 27, 925- 933.

Lie, Y., (2014). Study on The Contribution of Tourism to Regional Economic Development. *Journal of Chemical and Pharmaceutical Research*, 6(7), 823-827.

Saarinen, J., Moswete, N. and Monare, M., (2014). Cultural Tourism: New Opportunities for Diversfying The Tourism Industry in Botswana. *Bulletin of Geography Socio-Economic Series*, 26, 7-18.

Sevinç H. ve Azgün, S. (2012). Bölgesel kalkınma ve İnanç Turizmi bağlamında Akdamar Kilisesi Örneği. *Uluslararası Sosyal ve Ekonomik Bilimler Dergisi*, 2 (2), 17-21.

Sustainable Development Report (2023), Azerbaijan. https://dashboards.sdgindex.org/profiles/azerbaijan

Tekin, A. (2011). Küreselleşen dünyada bölgesel kalkınma dinamikleri, kamu politikaları ve bölgesel kalkınma ajansları. *Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi*, (29), 37-48.

Todaro, M. P. (1989). *Economic development in the third world*. (4th Edition). Longman

Yıldız, Z. ve Sarıtaş, T. (2021). Türkiye'de bölgesel kalkınma ve turizm ilişkisi üzerine bir değerlendirme. *İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi*, 10(2), 1633-1654.

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA DEMOQRAFİK GÖSTƏRİCİLƏRİN EKONOMETRİK TƏHLİLİ

Aytəkin Telman qızı Əfəndiyeva
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Lənkəran Dövlət Universiteti
aytek@mail.ru
https://orcid.org/0009-0009-7271-3345

Tədqiq olunan işdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinda sosial – iqtisadi inkişafının davamlığını xarakterizə edən bəzi demoqrafik göstəricilər təhlili edilir. Təhlildə istifadə edilən dəyişənlərin təsviri statistikaları verilir. Təhlil zaman sıralarına aid olduğu üçün, istifadə edilən dəyişənlərin stasionar olması mütləqdir.

Regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycan 2030-cu ilə qədər olan mərhələdə iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə dayanıqlı iqtisadi artımın sürətlənməsi azad edilmiş ərazilərdə elmi əsaslarla iqtisadi resursların əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir.

AR Dövlət Statistika Komitəsininin rəsmi verilənləri əsasında iqtisadi-riyazi modelləşdirmə üsullarından istifadə edilərək hər iki iqtisadi rayon üzrə demoqrafik göstəricilər arasında uzunmüddətli əlaqənin olub olmadığını tədqiq edə bilərik [1, s.124-217].

Qarabağ iqtisadi rayonu Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Tərtər, Xocavənd, Xocalı, Şuşa rayonlarını və Xankəndi şəhərini əhatə edir.

Cədvəl 1

Qarabağ iqtisadi rayonu	1990	1995	2000	2010	2015	2016	2017	2018	2019	2020	2021	2022
Əhalinin sayı (min nəfər)	523,5	564,7	594,	624,1	662,1	669,8	675,9	682,0	687,7	713,0	724,5	736,0
Doğum	17,4	9,5	12,3	15,8	18,4	17,2	14,9	14,6	14,6	15,0	12,5	13,7
Ölüm	3,6	2,5	3,6	4,6	5,6	5,5	5,8	5,8	5,5	8,4	7,8	6,1
Təbii artım	13,8	7,0	8,7	11,2	12,8	11,7	9,1	8,8	9,1	6,6	5,6	7,5

Şərqi Zəngəzur iqtisadi rayonu Cəbrayıl, Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarını əhatə edir.

Cədvəl 2

Şərqi Zəngəzur iqtisadi rayonu	1990	1995	2000	2010	2015	2016	2017	2018	2019	2020	2021	2022
Əhalinin sayı (min nəfər)	176,3	185,9	202,1	231,3	247,9	251,4	254,1	256,7	259,5	293,3	296,4	300,4
Doğum	25,5	10,4	17,0	19,0	19,5	18,0	15,8	14,6	16,0	15,6	13,6	14,3
Ölüm	5,9	2,9	4,9	5,4	5,8	5,6	6,2	5,6	5,6	8,5	9,0	6,5
Təbii artım	19,6	7,5	12,1	13,6	13,7	12,4	9,6	9,0	10,4	7,1	4,6	7,8

Təhlildə istifadə edilən dəyişənlərin qarafikləri, təsviri statistikaları və korrelyasiya analizləri verildikdən sonra, ekonometrik model üçün ön testlərin aparılmasına keçə bilərik [2, s.55-80]. Təhlil zaman sıralarına aid olduğu üçün, istifadə edilən dəyişənlərin stasionar olması əhəmiyyət kəsb edir. Stasionarlıq dedikdə, dəyişənlərin ortalamasının, varyansının və otokovaryansının zamana görə sabit qaldığı nəzərdə tutulur. Bu üç şərtdən hər hansı biri pozularsa, dəyişənin stasionar olmadığı qənaətinə gəlmək olar. Əslində isə, varyans və otokovaryans düsturlarına diqqətlə nəzər edilərsə, ortalamanın sabit olmadığı təqdirdə, varyansın və otokovaryansın da sabit olmayacağını görə bilərik. Çünki həm varyans həm də otokovaryans düsturlarında ortalama istifadə edilir. Dəyişənlərdən birinin müsbət, digər dəyişəninin isə mənfi trendə sahib olması bu dəyişənlərin ortalamasının sabit olmadığına əsas verir.

Beləliklə, dəyişənlərin qrafiklərinə əsasən dəyişənlərin stasionar olmadığını ifadə etmək mümkündür. Dəyişənlərin qrafikləri ilə, dəyişənlərin stasionarlığı haqqında məlumat əldə etmək mümkün olsa da, dəyişənlərin stastionar olub-olmaması ilə bağlı, bir sıra analitik testlər tərtib edilməlidir. Bunlardan ən geniş istifadə edilənləri Dickey-Fuller (1979) və Phillips-Perron (1988) testləridir. Hər iki testin sıfır və alternativ hipotezləri aşağıdaki kimidir.

H_0: Dəyişən Vahid Kökə Sahibdir və ya Stasionar deyildir.

H_1: Dəyişən Vahid Kökə Sahib Deyildir vəya Stasionardır.

Hər iki test dəyişənin stasionarlığını araşdırarkən 3 fərqli tənlik istifadə edir. Bunlar sabit və trendin olmadığı tənlik, Sabit və trendin olduğu tənlik və sadəcə, sabitin olduğu tənliklərdir.

Növbəti mərhələdə hər iki iqtisadi rayon üçün Azərbaycan Dövlət Statistika Komitəsinin 1990-2022-ci illərin demoqrafik göstəricilərinin statistik verilənləri əsasında qurulan riyazi-iqtisadi modellər fərdi kompüterdə Eviews'11 tətbiqi proqram vasitəsilə ən kiçik kvadratlar üsulu ilə tapılıb, korrelyasiya-reqresiya analizi vasitəsilə qiymətləndirilir [3, s.96-183].

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı, 2023, 592 səh.
2. Ивин Е.А. Практикум по эконометрику. М.: Финансы и статистика, 2021, 104 стр.
3. Матюшок В.М. Основы эконометрического моделирования с использованием EVIEWS. Учебное пособие, Издание 3-е, Москва, 2015, 228 с.

ZƏNGƏZUR NƏQLİYYAT DƏHLİZİNDƏ NƏQLİYYAT DAŞIMALARI ÜÇÜN EFFEKTİV YOLLAR

[1,2]**Ariz Mirəzim oğlu Abbasov,** [1,3]**Tünzalə Hakim qızı Əlifova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]ariz.abbasov@mdu.edu.az
https://orcid.org/0009-0006-4518-3084
[3]tunzala.alifova.h@mdu.edu.az
https://orcid.org/0009-0000-4664-1223

Azərbaycan Respublikasının ərazi bütövlüyünü, Ermənistan Respublikası nəqliyyat əlaqələrinin təhlükəsizliyini təmin edilir. Azərbaycan Respublikasının qərb hissələri ilə Naxçıvan Muxtar Respublikası arasında fiziki şəxslərin, avtomobillərin və malların hər iki istiqamətdə sərbəst hərəkətini asanlaşdırmaq üçün nəqliyyat vasitəsindən istifadə olunur. Zəngəzur dəhlizi, xüsusən də türk dünyası üçün yeni prespektivlər yaradacaq bir bölgədir. Dəhlizin açılması regional nəqliyyat şəbəkəsini genişləndirəcək və region ölkələri arasında iqtisadi əlaqələr yaradır və bununlada regionun mövqeyini gücləndirəcək. Şimal-Cənub və Mərkəzi dəhlizlər kimi beynəlxalq dəhlizlərin açılış ilə Zəngəzur dəhlizi iqtisadi əlaqələri gücləndirəcək, eyni zamanda regional təhlükəsizliyə töhfə verəcək. 2020-ci il noyabrın 10 da Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri Qarabağ münaqişəsinə son qoyan müqaviləyə imza atdılar. Bununla da 2020-ci il sentyabrın 27 də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi sona çatdı. 10 noyabr bəyanatına əsasən Zəngəzur dəhlizinin yenidən açılması ilə bağlı rəsmi razılaşdırma Azərbaycan Avrasiyasının nəqliyyat mərkəzinə çevirilməsi istiqamətində mühüm irəliyişə çevrildi. [1]

Bundan başqa, Zəngəzur dəhlizin yaradılması, şübhəsiz ki, ölkəmizin də daxil olduğu Xəzər nəqliyyat şəbəkəsini gücləndirəcək. Şərq-Qərb nəqliyyat dəhlizi və Şimal-Cənub Beynəlxalq

nəqliyyat dəhlizi, o cümlədən neft və Xəzərdən Avropaya uzanan qaz kəməri sistemi də bölgənin tranzit nəqliyyat xətti olacaqdır. [3]

Zəngəzur dəhlizinin xəritəsi

Dəhlizin perspektiv daşıma qovşağı kimi təhlili Avropanı Uzaq Şərqlə birləşdirən nəqliyyat dəhlizinin fəaliyyətini asanlaşdıran Zəngəzur dəhlizi Asiya, Rusiya və Çin üçün strateji əhəmiyyət kəsb edir və bu prosesdə potensial iqtisadi faydalar vəd edir. Dəhliz, tarixi İpək Yolu üzərində yerləşir və Avropa ilə Asiya arasında logistika qovşağı, Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizindəki mövqelərini gücləndirəcək və Şimal-Cənub tranzit marşrutları Azərbaycanın hər iki nəqliyyat xəttində maliyyə və siyasi payını artıracaq. Bu da dəhlizin bütün region ölkələri, o cümlədən Ermənistan üçün böyük iqtisadi mənfəət gətirəcəyindən dəhlizin tamamlanması təmin etmək böyük ticari və iqtisadi tərəfdaşların marağındadır. Türkiyə Azərbaycanın torpaq yolu ilə birləşdirən Qars-Naxçıvan dəmir yolu layihəsi üzərində də fəal işləyir.

Nəqliyyat infrastrukturu istənilən iqtisadiyyatın mühüm tərkib hissəsidir, çünki o, malların və insanların hərəkətini təmin edir və bununla da ticarət və iqtisadi fəaliyyəti asanlaşdırır. Məqalədə Azərbaycanda nəqliyyat infrastrukturunun iqtisadi artıma təsiri araşdırılmış, nəqliyyat infrastrukturuna investisiyalar və yük dövriyyəsi kimi dəyişənlər üzrə 2000-ci ildən 2020-ci ilə qədər müddət ərzində məlumatlarından istifadə edilmişdir. Nəticələr göstərir ki, nəqliyyat infrastrukturu uzunmüddətli perspektivdə Azərbaycanda iqtisadi artıma əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Konkret olaraq, nəqliyyat infrastrukturuna qoyulan investisiyanın 1 % artması uzunmüddətli perspektivdə real ÜDM-in 0,47 % artmasına gətirib çıxarır ki, bu da nəqliyyat infrastrukturunun Azərbaycanda iqtisadi artımın təşviqində mühüm rol oynadığını göstərir. Bu araşdırmanın nəticələrinin Azərbaycan üçün mühüm siyasi nəticələri var. Ölkə infrastrukturunun yüksək keyfiyyətli olmasını və artan iqtisadiyyatın tələbatını ödəməsini təmin etmək üçün nəqliyyat infrastrukturuna investisiyalar prioritetləşdirilməlidir. [2]

Cənubi Qafqaz regionunda və ona qonşu ərazilərdə geoiqtisadi və strateji əhəmiyyətə malik Zəngəzur tranzit dəhlizinin bərpasının təqdim etdiyi iqtisadi potensiala ümumdünya səviyyəsində diqqət çox yüksəkdir. Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərdə nəqliyyat dəhlizinin yenidən qurulmasını vacib hesab edir. Bu kontekstdə ölkə həmin ərazilərdə böyük nəqliyyat layihələrinin yaradılması istiqamətində ciddi addımlar atır. Bu gün Qarabağda qarşıya qoyulan əsas problemlərdən biri Zəngəzur dəhlizinin yaradılması və bütün nəqliyyat tıxanıqlarının aradan qaldırılmasıdır ki, bunların hamısı üçtərəfli bəyanatda əksini tapıb. Zəngəzur tranzit qovşağının fəaliyyətə başlaması nəticəsində təkcə Cənubi Qafqaz ölkələri deyil, Avrasiya regionu üçün iqtisadi imkanları və regional inteqrasiya məsələlərini araşdırır. Azərbaycan yükdaşıma və enerji tranzit imkanlarını genişləndirdiyi üçün mübahisəli Zəngəzur dəhlizinin inkişafı zərurətindən danışır. Problemlər dəhlizin coğrafi yerləşməsi ilə bağlıdır – Zəngəzur dəhlizi Azərbaycanın Ermənistanın Sünik vilayətindən keçməklə Ermənistanın nəzarət-buraxılış məntəqələri olmadan Naxçıvan Muxtar Respublikasına maneəsiz çıxışını təmin edəcək və daha geniş mənada Türkiyəni türk dünyasının qalan hissəsi ilə birləşdirəcək geosiyasi dəhliz yaradacaq. Konsepsiya 2020-ci il Dağlıq Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan və Türkiyə tərəfindən getdikcə daha çox təbliğ olunur, Ermənistan isə buna davamlı olaraq etiraz edərək "dəhliz məntiqinin" həmin müharibənin sonunda üçtərəfli qaydada imzalanmış atəşkəs bəyanatından yayındığını bildirir**.** Nəqliyyat dəhlizləri və onların sosial-iqtisadi təsiri təhlil edilib və bir çox hallarda tədqiq edilmişdir. Nəqliyyat sektorunda bir sıra problemlər var ki, müxtəlif regionlarda sakinlərin həyat keyfiyyətinə təsir göstərir. Bu məsələlər təhlil edilməli və onların səbəb və törətdiyi maneə və nəticələri tapmaq lazımdır. Üstəlik, ölkənin iqtisadi inkişafında tikinti strukturu olaraq yolların çox mühüm rolu var. Onlar insanların, habelə yüklərin tez və rahat qənaətli formada yaşayış məntəqələrinə daşınmasına imkan verir. [4]

Rusiya-Ukrayna müharibəsi bütün sahələrdə olduğu kimi nəqliyyat sektoruna da təsir edib və etməkdə davam edir. 44 günlük müharibədən sonra Cənubi Qafqaz regionunun nəqliyyat qovşağı kimi əhəmiyyəti Rusiya-Ukrayna müharibəsindən sonra daha da artdı. Artıq bir çox ölkələrin Cənubi Qafqaz regionuna marağı artıb. [5]

Müasir dövrdə nəqliyyat dəhlizlərinin inkişafı iqtisadiyyatın inkişafı ilə düz mütənasibdir və nəqliyyat sektoru ölkələrin iqtisadiyyatında mühüm yer tutur. Region ölkələri arasında iqtisadi və digər əlaqələr qurmaq üçün səmərəli nəqliyyat sistemi və nəqliyyat dəhlizlər vacibdir ki, bu da səmərəli coğrafi mövqeyə sahib olmağı tələb edir. Cənubi Qafqaz regionunun nəqliyyat dəhlizinin mərkəzinə çevirlməsi üçün onun coğrafi mövqeyi əvəzsiz rol oynayır. Əlverişli coğrafi mövqeyi Cənubi Qafqaz ölkələrinin inkişafına töhfə verib, lakin bu maksimum töhfə olmayıb. Beləliklə, tarix boyu bu bölgə siyasi, dini və mədəni mübarizə meydanı olmuşdur. Bu dəhlizin açılması ilə ən qısası Şərqdən Qərbə nəqliyyat dəhlizi təmin ediləcək və Azərbaycanın Naxçıvan və Türkiyəyə İran və ya Gürcüstan vasitəsilə deyil, birbaşa quru yolu ilə çıxışı olacaq. Bu, İranın regionda tranzit ölkə kimi rolunu azaldacaq.

Zəngəzur dəhlizinin açılması ilə iqtisadiyyatı tənəzzülə uğrayan Ermənistan tranzit ödənişləri sayəsində, ticarət həcminin artması və kommunikasiyaların bərpası ilə Çin ilə Avropa arasında ən qısa məsafəni təmin edəcək Orta Dəhlizə daxil olacaq yüksək iqtisadi töhfə verir. Dəhlizə maraq son vaxtlara qədər kifayət qədər deyildi. Rusiya ilə Ukrayna arasında müharibənin başlaması və Rusiyaya qarşı sanksiyalar bu dəhlizə marağı kəskin şəkildə artırıb.

Fevral ayından fəaliyyətə başlayan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Cənub-Şərqi Asiya ilə Çini birləşdirərək, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Avropa ölkələrinə daşımaları təmin edir. Əvvəllər hər il bu marşrut üzrə Aktau limanları ilə Bakı arasında 500 reys həyata keçirilirdi. Ümumilikdə, Bakıdan Aktau və Türkmənbaşı limanlarına göndərilən yüklərin sayı 23 min TIR avtomobili qədərdir.

Yeni dəhlizin üstünlüklərini nəzərdən qaçırmaq olmaz. Qeyd edilənlərə əsasən Zəngəzur dəhlizi digər Türk Dünyası ölkələrinin faydalanması üçün həyati bir bağdır. Asiya ölkələri mallarını su yolu ilə qərbə, sonra isə Zəngəzur vasitəsilə quruya asanlıqla daşıya bilər. Dəhliz Orta Dəhlizin işini gücləndirərək, ötürmə qabiliyyəti və ondan keçən yüklərin sürətini yüksəltməyə imkan verir, eləcə də böyük iqtisadi töhfə verərək bütün tərəflərə təsir göstərir.

Bu gün Azərbaycan bütünlüklə regionda uzunmüddətli sülhə nail olmaq üçün dəhliz və nəqliyyat əlaqələrinin bərpasının əməkdaşlığın ən təsirli vasitələri olduğuna inanır. Bu dəhliz əlavə olaraq iqtisadi əlaqələrin genişlənməsinə müsbət təsir edəcək, regionun uzunmüddətli sülh və təhlükəsizliyini təmin edəcək. Öz növbəsində uzunmüddətli iqtisadi tərəqqiyə və sülhə mane olacaq təhlükəli millətçilik ideallarının təbliği və gələcəkdə təzə müharibələrin yaranmasının qarşısını alacaq.

İstifadə edilmiş ədəbiyyat

1. tps://di.gov.ge/wp-content/uploads/2021/09/south-caucasus-and-regional-opportunities-in-terms-of-transport-and-logistics-corridor-development.pdf
2. http://economics.com.az/index.php/kitabxana/bizim-s-rl-r/meqaleler/item/674-azaerbaydzanda-daeniz-naezhliyyat-problemlaer-perspektivlaer.html
3. https://az.wikipedia.org/wiki/Z%C9%99ng%C9%99zur_d%C9%99hlizi#/media/Fayl:2020_Nagorno-Karabakh_ceasefire_map.svg
4. https://www.mdpi.com/2071-1050/11/19/5248
5. https://dspace.library.uu.nl/handle/1874/293066

ZƏNGƏZUR DƏHLİZİNİN STRATEJİ ƏHƏMİYYƏTİ

[1,2]**Elcan Ramiz oğlu İmamverdiyev, [1,3]Vüqar Məhəmmədəli oğlu Məmmədzadə**
[1]Milli Müdafiə Universitetinin Elmi Tədqiqat İnstitutu
[2]i.eljan85@gmail.com
https://orcid.org/0009-0005-6394-568X
[3]siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0002-5381-0387

Zəngəzur bölgəsinin qısa tarixi

1920-ci ilin noyabrında bolşeviklər tərəfindən Azərbaycanın Zəngəzur inzibati ərazi vahidinin qərb hissəsi qanunsuz olaraq, Sovet Ermənistanı ərazisinə daxil edilmişdir [1]. Ermənistan tərəfi Zəngəzur bölgəsinin ərazisinə düşən hissəni Sünik, Azərbaycan tərəfi isə, həmin ərazini qərbi Zəngəzur adlandırır. Zəngəzur bölgəsinin yerləşdiyi coğrafi mövqeyə (bölgənin Ermənistan – İran və Azərbaycan sərhədinin üzərində yerləşməsi və Azərbaycanın eksklavı – Naxçıvanla onun quru yolunu, o cümlədən Türkiyənin Xəzər Dənizi – Mərkəzi Asiya üzrə türk dünyasını əlaqələndirməsi)

nəzər salınarsa, əslində qərbi Zəngəzurun Sovet Ermənistanı ərazisinə daxil edilməsini məqsədyönlü şəkildə türk dünyasının coğrafi olaraq parçalanmağa hesablandığı qənaətinə gəlmək olar. Bu müstəvidə Azərbaycan tərəfi Zəngəzur dəhlizinin reallaşmasını təkcə, iqtisadi, logistik, siyasi, müdafiə və təhlükəsizlik perspektivi kimi deyil, həm də tarixi torpaqlarına geri dönüşü kimi baxır. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, *"Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik."* [2]

Zəngəzur dəhlizinin reallaşmasının regiona təsiri

15 iyun 2021-ci il tarixində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik haqqında imzalanmış Şuşa Bəyannaməsində hər iki ölkəni birləşdirən nəqliyyat-kommunikasiya əlaqəsi mötərizədə Zəngəzur dəhlizi olaraq adlandırılmışdır [3]. Şuşa Bəyannaməsində Zəngəzur dəhlizinin xüsusi olaraq vurğulanmasını Azərbaycan tərəfinin beynəlxalq arenada uğurlu təbliğatı hesab etmək olar. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz bəyanatlarında vurğulamışdır: *"Bizim səylərimiz nəticəsində Zəngəzur dəhlizi termini artıq beynəlxalq leksikona da daxil edilib. Hətta xarici jurnalistlər mənə sual verdikdə də Zəngəzur dəhlizi deyirlər"* [4].

Zəngəzur dəhlizinin reallaşması region ölkələrinin iqtisadi, siyasi, ticari, turizm və müdafiə-təhlükəsizlik sahələrinə öz müsbət təsirini göstərəcəkdir. Təbii ki, 30 ilə yaxın müddətdə regional blokada vəziyyətində olan Ermənistan üçün bu dəhliz nəfəslik rolunu oynaya və ona iqtisadiyyatını və siyasi kursunu diversifikasiya etmək imkanı verə bilər. Təəssüf ki, bu layihənin Ermənistanın iqtisadi, siyasi və təhlükəsizlik maraqlarına xidmət etdiyi tam olaraq sadə xalq üçün anlaşılan deyildir. Sözügedən layihə çərçivəsində Ermənistan yalnız avtomobil yolu ilə deyil, həm də dəmir yolu xətti ilə strateji tərəfdaşı – Rusiya və qonşusu – İranla əlaqə yaratmaq imkanı əldə edəcəkdir.

İlk baxışda Zəngəzur dəhlizinin reallaşması ilə rəsmi Ankaranın regiondakı nüfuzunun artması məqamının Rusiyanın maraqları ilə ziddiyyət təşkil etdiyi görülsə də, Rusiyanın Ermənistandan satın aldığı "Ermənistan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin də bu dəhlizdən iqtisadi mənfəət əldə edəcəyi şübhəsizdir. Digər tərəfdən, Rusiya ilə Ermənistanı quru yolla əlaqələndirən, Rusiya – Gürcüstan sərhədində yerləşən "Yuxarı Lars" (Gürcüstan hərbi yolu: Yuxarı Lars – Stepanatsminda – Mtsxeta) nəzarət-buraxılış məntəqəsindən keçən yolun pis hava şərtlərində tez-tez sıradan çıxdığı və mövsümi xarakter daşıdığı nəzərə alınarsa, Zəngəzur dəhlizinin reallaşması Rusiya və Ermənistanın Gürcüstandan asılılığının aradan qaldırılmasına və strateji tərəfdaşların – Rusiya və Ermənistanın bir-birinə birbaşa quru yolu ilə çıxış əldə etməsinə imkan yaradacaqdır.

Rusiya tərəfi quru yolu ilə Türkiyə, İran və Mərkəzi Asiyaya çıxış əldə etməsi üçün aktiv olaraq Ermənistan və Azərbaycan arasında bütün növ nəqliyyat və kommunikasiya xətlərinin reallaşmasını dəstəkləsə də, Türkiyənin Cənubi Qafqazda artan nüfuzundan narahatdır. Rusiya və Türkiyənin Cənubi Qafqaz regionundakı əməkdaşlığına baxmayaraq, Ankara və Moskvanın Qara Dəniz hövzəsi, Suriya və Liviya üzrə fikir ayrılıqları, Türkiyənin NATO-nun üzvü olması və Türkiyə hakimiyyətinin daha çox qərb siyasəti aparması kimi məqamlar Ankaranın bu regionda güclənməsini Rusiya tərəfindən arzuolunmaz edir. Hətta İkinci Qarabağ Müharibəsindən öncə də Türkiyənin Azərbaycan və Gürcüstanda güclü dayaqlarının olması amili ona post-müharibə dövründə Cənubi Qafqazda daha da güclənməsinə zəmin yaradacaqdır.

Zəngəzur dəhlizinin reallaşması Türkiyəyə strateji tərəfdaşı – Azərbaycanla yanaşı, Mərkəzi Asiya ölkələrinə də quru yolla çıxış əldə etməsinə imkan verəcəkdir ki, bu da türk dilli dövlətlərin bütün sahələrdə, o cümlədən müdafiə-təhlükəsizlik sahəsində bir-birilə sıx əməkdaşlıq etməsinə zəmin yaradacaqdır. Bu layihə çərçivəsində yeni yaranan Mərkəzi Asiya – Azərbaycan – Türkiyə – Avropa marşrutu regionun iqtisadi baxımdan daha da inkişaf etməsinə və xarici investorların regiona sərmayə yatırımları etməsinə gətirib çıxaracaqdır. Zəngəzur dəhlizi vasitəsilə Avropa və

Asiya arasındakı ticari əlaqələrdə Ələt qəsəbəsində yerləşən Beynəlxalq Dəniz Ticarət Limanı və Trabzon Dəniz Limanının da əhəmiyyətli rol oynayacağı şübhəsizdir.

11.03.2022-ci il tarixində Azərbaycan və İran Hökumətləri arasında imzalanmış, Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunu İran ərazisindən keçməklə Naxçıvanla birləşdirən Cənub Zəngəzur Dəhlizinin yaradılmasının hüquqi bazasını təşkil edən Qarşılıqlı Anlaşma Memorandumu region ölkələrinin həyatında yeni mərhələnin başlanması deməkdir [5].

Azərbaycan tərəfinin Cənub Zəngəzur Dəhlizinin yaradılması barədə İranla Qarşılıqlı Anlaşma Memorandumu imzalamasını Azərbaycan diplomatiyasının növbəti uğuru kimi səciyyələndirmək olar. Sözügedən layihə Ermənistanın yenidən regiondan təcrid olunması ilə yanaşı, rəsmi Yerevanın Zəngəzur dəhlizi kartından Azərbaycana qarşı istifadə etmək imkanını məhdudlaşdırmışdır.

Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi həm tarixi, həm də müasir geosiyasi, geoiqtisadi və hərbi-geostrateji reallıqlar fonunda region ölkələri arasında dayanıqlı sülh və təhlükəsizliyin bərqərar olunmasında prinsipial əhəmiyyət daşıyır. Xüsusilə, Zəngəzur dəhlizi böyük iqtisadi potensiala və zəngin təbii resurslara malik regionu birləşdirməklə, Azərbaycanın Avrasiya məkanında nəqliyyat-kommunikasiya və logistika mərkəzi kimi mövqeyini gücləndirəcəkdir. Zəngəzur dəhlizi uzun müddətdən sonra coğrafi olaraq parçalanmış türk dünyasını birləşdirməklə öz tarixi funksiyasını da yerinə yetirəcəkdir.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, uzun illər boyu Azərbaycana qarşı ərazi iddiaları irəli sürən, təcavüzkar və düşmənçilik siyasəti yürüdən, regional blokadadan əziyyət çəkən Ermənistan üçün Azərbaycanla dayanıqlı sülh müqaviləsi imzalamaq və regionda qurulmaqda olan yeni təhlükəsizlik konfiqurasiyasında iştirak etmək onun üçün ən optimal seçim olardı.

İstifadə edilmiş ədəbiyyat

1. Zəngəzurun Ermənistana verilməsi: mötəbər mənbələr nə deyir: [Elektron resurs]. – 14 aprel 2021. URL: https://azertag.az/xeber/Zengezurun_Ermenistana_verilmesi_moteber_menbeler_ne_deyir-1755703.

2. İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi: [Elektron resurs]. – 20 aprel 2021. URL: https://president.az/az/articles/view/51216.

3. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi: [Elektron resurs]. – 16 iyun 2021. URL: https://azertag.az/xeber/Azerbaycan_Respublikasi_ile_Turkiye_Respublikasi_arasinda_muttefiqlik_munasibetleri_haqqinda_Susa_Beyannamesi-1808083.

4. Prezident İlham Əliyev: Zəngəzur dəhlizi termini artıq beynəlxalq leksikona daxil edildi və əlbəttə, həyata keçiriləcək: [Elektron resurs]. – 12 yanvar 2022. URL: https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Zengezur_dehlizi_termini_artiq_beynelxalq_leksikona_daxil_edildi_ve_elbette_heyata_kechirilecek-1973908.

5. Ekspert: İranla imzalanan Anlaşma Memorandumu iqtisadi inteqrasiya proseslərinin başlanmasını sürətləndirəcək: [Elektron resurs]. – 12 Mart 2022. URL: https://azertag.az/xeber/Ekspert_Iranla_imzalanan_Anlasma_Memorandumu_iqtisadi_inteqrasiya_proseslerinin_baslanmasini_suretlendirecek-2050337.

QARABAĞ ZƏFƏRI AZƏRBAYCAN GƏNCLİYİNİN YÜKSƏK VƏTƏNPƏRVƏRLİK RUHUNDA YETİŞMƏSİNİN TƏSDİQİDİR

Eldar Musa oğlu Mehdiyev
Gəncə Dövlət Universiteti
eldarmeh1@gmail.com
https://orcid.org/0000-0002-5432-5420

Azərbaycanda təhsilli, vətənpərvər, dövlətə bağlı, sağlam düşüncəli gənclərin yetişdirilməsi ölkəmiz üçün böyük önəm daşıyır. Çünki gələcəkdə gənclərimiz bu dövlətə xidmət edəcəklər, Vətənimizi qoruyacaqlar. Ölkəmizi xoşbəxt gələcəyə aparan da məhz gənclər olacaq. Bu gün Azərbaycan gəncləri əsasını Ümummilli lider Heydər Əliyevin qoyduğu ideyalar əsasında, müstəqil dünyəvi dövlətdə, dini radikalizmdən uzaq, sülh və əmin-amanlıq şəraitində yaşayırlar.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətinin mərkəzində bir əsas xətt dayanır ki, bu da Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsidir. Çünki tarix boyu üzləşdiyimiz reallıqlar və Vətən müharibəsindən sonra Azərbaycanın diktə etdiyi reallıq bir daha göstərdi ki, gənc Azərbaycan oğullarının Şuşa qayalarında, bütün Qarabağ torpağında yazdıqları qəhrəmanlıq salnaməsinin kökündə məhz azərbaycançılıq ideologiyası, Vətənə, yurda sədaqət, torpağa bağlılıq amilləri dayanır.

Gənclər ölkəmizin bu günü, gələcəyi, həm də sabaha olan ümididir. 44 günlük Vətən müharibəsində biz bir daha gördük ki, Azərbaycanın böyük və güclü gələcəyi var. Çünki sağlam, cəsur, qəhrəman bir nəslin yetişdiyini gördük. Onların hamısı Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşdilər. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşdular, 30 illik Vətən həsrətinə öz canları, qanları hesabına son qoydular. Tək biz yox, bütün dünya bir daha gördü ki, xalqımız qəhrəmanlar yetişdirən xalqdır və ədalətin bərpası üçün vuruşur. Gənclərimiz təkcə döyüş meydanında deyil, bütün sahələrdə mübarizə aparırdılar, virtual məkanda, ölkəmizin haqq mübarizəsini işıqlandırırdılar. Dünyanın müxtəlif ölkələrində yaşayan gənclərimiz Azərbaycan həqiqətlərini təbliğ edir, erməni terroru haqqında məlumatlar yayır, tədbirlər, yürüşlər keçirirdilər. Yüksək təşkilatlanma var idi. Bütün bunlar bir daha göstərdi ki, ötən illər ərzində çox güclü gənclik formalaşıb.

Qətiyyətli xalqımız, xüsusilə mərd, igid, vətənpərvər gənclərimiz Vətən torpaqlarını Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək üçün sıx birləşdi. Vətən müharibəsi başlayan gün Azərbaycanın bütün bölgələrində yaşayan gənclərimiz torpaqlarımızın işğaldan azad olunması uğrunda mübarizəyə qoşulmaq üçün Ali Baş Komandan İlham Əliyevin əmrinə hazır olduqlarını göstərdilər. İlham Əliyev "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - dedi və bu haqq işi uğrunda minlərlə Azərbaycan gənci ayağa qalxdı. Ali Baş Komandanın çıxışından daha da ruhlanan gənclərimiz Zəfərə sonsuz inamla cəbhəyə könüllü getmək üçün hərbi komissarlıqlara müraciət etdilər. Və mərd oğullar müharibənin ilk günlərindən qələbə əzmi ilə döyüşdülər.

Hətta hərbi xidmətdən tərxis olunanlar da döyüşlər başlayanda döyüşənlərin sırasında olmaqda israrlıydılar. Yəni, Azərbaycan gəncliyi döyüş əzmi ilə xidmət edirdi, döyüş əzmi ilə yaşayırdı. Bu, qələbə ruhulu döyüş əzmi idi. Birinci Qarabağ müharibəsinin iştirakçılarının oğulları, bəzilərinin nəvələri torpaqlarımızın işğaldan azad edilməsi üçün başlayacaq döyüşləri şəhidlərin ruhuna gözaydınlığı etmək niyyətindəydi. Döyüşlər əks-hücum əməliyyatı kimi başladı, Vətən müharibəsi kimi davam etdi. Azərbaycan Ordusu, bu anlamda Azərbaycan gəncləri sərkərdənin əmrini qələbə ilə tamamladı; işğalı Zəfərlə sonlandırdı. Azərbaycan Ordusu bu qələbə ilə regionda bir terror şəbəkəsini zərərsizləşdirdi. Yəni Azərbaycan Ordusunun, Azərbaycan gənclərinin bu qələbəsi bəşəri qələbə oldu. Müharibədə döyüşlər həm ordunun qüdrətinin, həm də döyüşçülərin

döyüş əzminin, qələbə ruhunun göstəricisi olur. Əsgər qətiyyətlidirsə, ordu qətiyyətlidir, əsgər güclüdürsə, ordu güclüdür, əsgərin döyüş hazırlığı yüksəkdirsə, ordunun döyüş hazırlığı yüksəkdir. Bu, müharibələr tarixində təsdiqini tapmış tezislərdəndir. [1]

İkinci Qarabağ müharibəsi barədə çox uzun illər danışılacaq və yazılacaq. Bu müharibə, əslində, Azərbaycan dövləti, Azərbaycan xalqı barədə bir çox həqiqəti yenidən dostların da, düşmənlərin də diqqətinə çatdırdı. Bunların ən ümdələrindən biri Azərbaycan gəncliyinin vətənpərvərliyidir. Hələ çox gənc olan oğullar ömürlərini Vətənə qurban verməyi seçdilər. Can şirin, həyat gözəl olsa da, ölümün gözlərinə dik baxmağı bacardılar. Düşmən güllələrinə sinələrini sipər etdilər. Dostlar da, düşmənlər də gördülər ki, İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun üstünlüyü yalnız müasir silahlarla döyüşə girməsində deyildi. Gənclər bir yumruq kimi birləşmiş Azərbaycan dövlətinin və Azərbaycan xalqının mənəvi gücünü hər an hiss edərək, ürəklərində Vətən sevgisi ilə döyüşə atılırdılar.

Prezident İlham Əliyev xalqa müraciətlərinin birində xüsusi olaraq qeyd etmişdir: "Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil".

44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycan gənclərində torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu göstərdi. Onların qarşısında, döyüş əməliyyatlarında Ermənistan ordusunun əsgərləri mövqelərini, hərbi texnikasını, silah-sursatını qoyub qaçdılar. Gənclərimiz yalnız döyüş meydanında deyil, həm də informasiya müharibəsində vətənpərvərlik hisslərini nümayiş etdirdilər. İkinci Qarabağ müharibəsi Ermənistan dövləti, Ermənistan silahlı qüvvələri üçün əbədi ibrət dərsi olmalıdır. Çünki Prezident, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan yalnız öz möhtəşəm hərbi gücünü göstərərək Ermənistanı məğlubiyyətə uğradıb otuz ilə yaxın işğal altında qalan ərazilərini azad etmədi, eyni zamanda Azərbaycan gənclərinin dövlətinə və xalqına sədaqətini dünyaya nümayiş etdirdi. [5]

Prezident İlham Əliyev qeyd etmişdir: "Əlbəttə, müharibədə əldə edilmiş Qələbənin bir çox səbəbləri var: həm ölkədaxili səbəblər, həm də bizim xarici müstəvidəki fəaliyyətimiz, əlbəttə ki, güclü iqtisadiyyatımız, ordumuzun müasirləşdirilməsi. Ancaq əsas amil vətənpərvərlikdir. Bunu mən, sadəcə olaraq, xoş söz üçün demirəm. Bunu mən Ali Baş Komandan kimi müharibə dövründə hər an, necə deyərlər, bütün əməliyyatlara rəhbərlik edən şəxs kimi deyirəm və görürəm ki, bəzi hallarda, hətta çətin anlarda bizim hərbçilərimiz mümkün olmayanı da reallığa çevirmişlər. Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla heç kim mübarizə apara bilməz. Bilirsiniz, müharibənin bir çox dərsləri var - həm bizim üçün, həm bütün dünya üçün, region üçün. Onlardan biri də odur ki, azərbaycanlılarla mübarizə aparmaq, müharibə aparmaq çox baha başa gələ bilər." [2]

Bu tarixi Zəfər eyni zamanda Azərbaycan xalqının, xüsusən Azərbaycan gəncliyinin milli vətənpərvərlik ruhunun yüksək olduğunu, millətimizin Vətən, dövlət, dövlətçilik, milli bayraq sevgisini, dövlət başçısı və xalq birliyini parlaq şəkildə nümayiş etdirdi. Vətən uğrunda döyüşmək, Vətəni sevmək, Vətəni qorumaq gənclərin əsas vəzifəsi idi. Vətənpərvərlik fəlsəfəsi hər bir Azərbaycan vətəndaşının, hər bir Azərbaycan əsgərinin, Azərbaycan uşaq və gəncinin simasında özünün ifadəsini tapdı, cəmiyyət həyatında vətənpərvərlik hissi və duyğularının rolunun xüsusilə təhsil sistemində, təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsini aktuallaşdırdı.

Vətən müharibəsində gənclərimizin yüksək fiziki və mənəvi hazırlığı, vətənpərvərlik hissi əməldə sübut olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə rəşadətli Ordumuzun sıralarında gənclərimizin tarix yazması Azərbaycan gəncliyinin yüksək vətənpərvərlik ruhunda yetişməsinin təsdiqidir. [4]

Dövlət başçımız çıxışlarında dönə-dönə həm də onu vurğulayır ki, düşmən üzərində qələbədə payı olan gənclərin əksəriyyəti torpaqlarımızın işğalından sonrakı dövrün uşaqlarıdır. O uşaqlar ki,

görmədikləri, yalnız xəyallarında canlandırdıqları ata-baba yurdları uğrunda son nəfəsinədək vuruşub zəfər tariximizi yazdılar. Ölkə başçısının da qeyd etdiyi kimi "bax, budur vətənpərvərlik". Bu gün dövlət gənclər siyasətinin məğzində də gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək amili dayanır. [3]

Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 02 fevral 2022-ci ildə Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda demişdir: "Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik." [2]

Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Zamanın tələbinə uyğun bacarıqlı, geniş dünyagörüşlü, ümumbəşəri əxlaqi dəyərlərə sahib, milli-mənəvi dəyərlərimizə hörmət və məhəbbət hisslərini özündə inkişaf etdirən, müstəqil Azərbaycan naminə hər zaman, hər yerdə yorulmadan, əzmlə, fədakarlıqla çalışan gənc nəslin yetişməsi bu gün çox vacibdir.

Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər. Vətən müharibəsində gənclərimizin yüksək fiziki və mənəvi hazırlığı, vətənpərvərlik hissi əməldə sübut olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə rəşadətli Ordumuzun sıralarında gənclərimizin tarix yazması Azərbaycan gəncliyinin yüksək vətənpərvərlik ruhunda yetişməsini təsdiq etdi.

İstər 2020 ci ildə 44 günlük Vətən müharibəsi zamanı, istərsə də 2023-cü il 19 sentyabr tarixdə Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı ön cəbhədə döyüşən qəhrəmanların əksəriyyəti gənclər idi. Bu onu göstərir ki, gənclərimiz öz xalqına, öz vətəninə daim bağlıdır. Gənclərimiz heç nədən qorxmadan ağır döyüşlərdə iştirak etdilər və bu sınaqdan üzüağ çıxaraq cənab Prezidentin Dəmir yumruğu ətrafında sıx birləşdilər.

Ümumiyyətlə, dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. https://mod.gov.az/az/pre/34657.html
2. https://president.az/az/articles/view/55348
3. https://respublika-news.az/news/gencleri-vetenperverlik-ruhunda-yetisdirilen-xalq-yenilmezdir
4. https://science.gov.az/az/news/open/19750
5. https://www.azerbaijan-news.az/index.php/az/posts/detail/gencler-ali-bas-komandanin-etrafinda-birlesibler-1666815929

QARABAĞ ZƏFƏRİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Kəmalə Kamal qızı Mirzəyeva
Sumqayıt Dövlət Universiteti
kamala.mirzayeva01@gmail.com
https://orcid.org/0000-0001-7564-532X

Məlum olduğu kimi, XX əsrin 80-ci illərinin sonlarından etibarən Ermənistan Azərbaycanın tarixi torpaqlarına qarşı ərazi iddiaları ilə çıxış etmiş və hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda baş verən özbaşnalıqdan, hərc-mərclikdən istifadə edən Ermənistan ərazimizin 20 %-ni işğal edərək bu torpaqlarda həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından, yurd-yuvasından didərgin düşmüşdür.

1988-ci ildən Ermənistan tərəfinin açıq formada başladığı ərazi iddiaları və etnik təmizləmə siyasəti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə nəticələndi və bununla da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsası qoyuldu.

Azərbaycan bütün diplomatik və siyasi üsul və vasitələrdən istifadə edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışsa da, Ermənistan dövlət rəhbərliyinin və DQR separatçılarının destruktiv siyasəti münaqişəsinin sülh yolu ilə həllinə imkan vermədi və münaqişə eskalasiya mərhələsinə keçərək müharibə nəticələndi.

Ermənistan Respublikası işğal tarixindən 2020-ci ilin 27 sentyabr tarixinə qədər olan dövrdə Azərbaycana qarşı dəfələrlə təhdidlərlə çıxış etdi. Ermənsitan yeni ərazilər uğrunda müharibə aparmaq istəyi və iddiasında idi. Lakin düşmənin bu siyasəti iflasa uğradı və artıq anladılar ki, Azərbaycan XX əsrin 90-cı illərindəki Azərbaycan deyil...

2020-ci il sentyabrın 27-də erməni hərbi birləşmələrinin yenidən atəşkəs rejimini pozaraq hərbi təxribatlara əl atmasına cavab olaraq müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatına başladı. Azərbaycan Respublikası, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini (822, 853, 874, 884 saylı qətnamələr) və BMT-nin sülhməramlı missiyasının sülhə məcburetmə prinsipini əsas götürərək beynəlxalq humanitar qaydalar çərçivəsində erməni işğalçılarına qarşı zəfər yürüşünü həyata keçirdi [3].

44 gün davam edən hərbi əməliyyatlarda Azərbaycan ordusu böyük şücaət göstərərək, üstünlük əldə etdi. Üçtərəfli bəyannamənin imzalanmasına qədər 44 günlük müharibə ərzində təqribən 300 yaşayış məntəqəsi, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər düşməndən azad edildi [5].

Şanlı Zəfərlə nəticələnən Vətən müharibəsi əslində 17 illik hazırlığın bir növ sınaq mərhələsi idi. Prezident cənab İlham Əliyev mövcud dünya siyasətinin reallıqlarını müdrikcəsinə dərk edərək bu xüsusda adekvat addımlar atdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq aləmdəki diplomatiya və informasiya sahəsindəki savaşlarda göstərdiyi uğurlar Qarabağ zəfərində qeyri-şərtsiz qələbənin əldə edilməsində həlledici rol oynadı. Bu qələbə son 200 il ərzində Azərbaycana qarşı düşmənçilik mövqeyində və ərazi iddiasında olan Ermənistan dövlətinin və onun havadarlarının üzərində tarixi bir Qələbə idi. Azərbaycan xalqın qüruru mənbəyi olan bu Zəfərin möhtəşəmliyi və doğurduğu sevinc sözlə ifadə edilə bilmədiyi kimi, onun tarixi, siyasi, iqtisadi və geosiyasi əhəmiyyəti də sözlə ifadə edilə bilməyəcək qədər misilsizdir.

Azərbaycanın II Qarabağ müharibəsində qələbəsinin dünyanın bütün geosiyasi qütbləri tərəfindən qəul edilməsi, işğaldan azad etdiyimiz ərazilər üzərində suveren hüquqlarımızın bərpasının beynəlxalq müstəvidə tanınması, haqq işimizə tam dəstək verilməsi Prezident İlham Əliyevin həm müharibə, həm də müharibədən əvvəlki dövrlərdə həyata keçirdiyi siyasətin nəticəsidir.

İlham Əliyev hakimiyyət başına gəldiyi gündən ərazi bütövlüyümüzün bərpası üçün iqtisadi gücün vacibliyini bəyan edərək bu istiqamətdə islahatlar həyata keçirməyə başladı. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan güc toplamağa başlayaraq öz iqtisadi müstəqilliyini təmin etdi. Azərbaycan artıq iqtisadi cəhətdən heç bir ölkədən, beynəlxalq maliyyə idarələrindən asılı olmayan iqtisadi cəhətdən müstəqil bir dövlətə çevrildi. Dünya üçün nümunə olacaq iqtisadi inkişaf modelini yaratdı. Hərb sahəsində həyata keçirilmiş siyasət nəticəsində ordumuzun hərbi gücü daha artırıldı. Azərbaycan ordusunun yüksək döyüş qabiliyyəti dəfələrlə Azadlıq meydanında həyata keçirilmiş hərbi paradlarda nümayiş etdirildi.

Ötən dövr ərzində həyata keçirilən balanslaşdırılmış xarici siyasət xəttinin yürüdülməsi, beynəlxalq müstəvidəxarici təşkilatlarla və xarici dövlətlərlə fəal işin aparılması, sıx əlaqələrin qurulması həyata keçirilən regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi, ölkənin nüfuzunu artırdı, bölgədə Azərbaycanın iradəsi həlledici amilə çevrildi. Bütün bu amillər Azərbaycanın mütləq Qələbəsini tam şərtləndirdi [2].

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirirdi.

Son illər ərzində beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın haqlı mövqeyini dəstəkləyən sənədlərin qəbul edilməsi dövlətimizin başçısı İlham Əliyevin yürütdüyü ölkəmizin milli maraqlarına söykənən xarici siyasətinin nəticəsi idi. Ümumiyyətlə, Prezident İlham Əliyevin prinsipial mövqeyi və diplomatik fəaliyyəti sayəsində Azərbaycanın İkinci Qarabağ müharibəsində beynəlxalq təşkilatların sənədləri əsas hüquqi baza kimi tarixi Qələbəni şərtləndirən amillərdən biri oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 günün ərzində reallığa çevrildi.

Döyüş əməliyyatlarının həyata keçirildiyi zaman kəsiyində dövlət başçısının informasiya savaşının ön cərgəsində dayanaraq, Azərbaycanın haqlı mövqeyini tutarlı faktlarla, arqumentlərlə və əks-arqumentlərlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması, Ermənistanın və havadarlarının, erməni diasporunun uzun illərdən bəri ölkəmizə qarşı apardığı total təbliğatın yüksək natiqlik və diplomatik məharətlə alt-üst edilməsi, Azərbaycanın maraqlarının beynəlxalq və ikitərəfli münasibətlər müstəvisində müdafiə olunması istiqamətində nümayiş etdirilən qətiyyətli mövqe bugünkü reallıqların ortaya çıxmasına zəmin yaradıb" [1].

Prezident İlham Əliyevin həm Vətən müharibəsinin gedişi dövründə müsahibələrində, həm də 2021-ci il fevralın 26-da keçirilən geniş mətbuat konfransında tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan məntiqli fikirləri dünyanın aparıcı KİV-nin gündəmində, əsas xəbər başlıqlarında yayılaraq Azərbaycan həqiqətləri bütün dünyaya çatdırıldı.

Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsası qoyuldu. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz döyüş meydanında da, informasiya məkanında da, siyasi müstəvidə də Qələbə qazandıq.

Qarabağ Zəfərinin böyük bir tarixi əhəmiyyəti var. Çünki biz təxminən 30 il düşmən əsarətində olan torpaqlarımızı işğaldan azad etmişik. Çünki Qarabağ Azərbaycanın incisidir. Qarabağ uğrunda canını fəda edən hər bir Azərbaycan əsgəri daim yaddaşlarımızda qalacaq. Unutmamalıyıq ki, Qarabağ igid oğullarımızın qanı bahasına alınıb.Qarabağımızı göz bəbəyimiz

kimi qoruyub gələcək nəsillərə ötürmək hər bir azərbaycanlının borcudur. İndi Qarabağ əsl sahiblərini qarşılayır. İndi Xarıbülbülün boynu bükülü deyil. İndi Qarabağımızda açılan hər səhər nurla doludur. İndi Qarabağ azaddır! Qarabağ həmişə Azərbaycan torpağı olub, indi də bizdədi və bundan sonra heç kim,heç bir qüvvə Qarabağa göz dikə bilməz! Qarabağ Azərbaycandır! [4].

İstifadə edilmiş ədəbiyyat

1. Aslan A. Qarabağ zəfəri Azərbaycanın beynəlxalq nüfuzuna necə təsir etdi? https://oxu.az/politics/777682
2. https://nk.gov.az/az/azerbaycan/veten-muharibesi
3. İki yüz illik tarixi gedişatı dəyişən lider - Qarabağ zəfəri gələcək nəsillərə ismarış oldu https://report.az/daxili-siyaset/iki-yuz-illik-tarixi-gedisati-deyisen-lider-qarabag-zeferi-gelecek-nesillere-ismaris-oldu/
4. Nəsirova A. Qarabağ zəfəri və onun tarixi əhəmiyyəti. https://capoeira.az/2021/01/17/qarabag-z%C9%99f%C9%99ri-v%C9%99-onun-tarixi-%C9%99h%C9%99miyy%C9%99ti/
5. Qarabağ Azərbaycandır! Zəfər Azərbaycanındır! http://www.neftchalaih.gov.az/az/news/604.html
6. Şuşanın azad edilməsi Qarabağ Zəfərinin zirvəsi oldu. https://science.gov.az/az/news/open/26977
7. Zəfərə gedən yolun başlanğıcı – İkinci Qarabağ müharibəsini şərtləndirən amillər https://azertag.az/xeber/zefere_geden_yolun_baslangici___ikinci_qarabag_muharibesini_sertlendiren_amiller-2308658

28 İLLİK HƏSRƏT – ŞUŞA DASTANI

Nəzrin Tahir qızı İsmayılova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nezrinismayilova011@gmail.com
https://orcid.org/0000-0002-4565-9664

"Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir."
(Heydər Əliyev)

Şuşalı olmaq üçün bu şəhərdə dünyaya göz açmaq əsas şərt deyil. Çünki xalq yazıçısı Anarın təbirincə desək, Şuşa bütün azərbaycanlıların ruhunun vətənidir. Azərbaycanın döyünən ürəyi, musiqimizin beşiyi sayılan "Şuşa"nın tarixi çox qədimlərə dayanır. Rəvayətə görə, bu yerlərin havası büllur kimi saf, səfalı olduğuna görə onu Şuşa (şüşə) adlandırmışlar. Kiçik Qafqaz dağlarının yaratdığı gözəlliklərin qoynunda yerləşən Şuşa Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa təкcə cənnət məкanı deyil, həm də hərbi strateji əhəmiyyət кəsb edən bir alınmazlıq, basılmazlıq qalasıdır. Şuşa dağdan açılan pəncərə, aydınlıq, işıqlıq paylayan ucalıq, düşmənlərə göz dağıdır. Şuşanı Azərbaycanın simvolu adlandıranlar bir məsələni unutmamalıdırlar ki, Şuşa həm də Yer üzündə analoqu olmayan səslər muzeyidir. Vaxtilə dünyanın müxtəlif ölкələrindən gələn səyyahlar bu şəhər haqqında yazanda onu "Yer üzünün canlı muzeyi" adlandırıblar. Bu muzeyin eksponatları isə Cıdır düzü, Ərimgəldi qayası, Qırxpilləкən, Qırxçanaq qala, İsa bulağı, Sarı baba, Xan qızı bulağı, Topxana və başqalarıdır. İngilis alim və səyyahları C.Morye və R.Burter Şuşanın qədimliyi

ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eramızdan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır". Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir. Azərbaycan xalqının tarixi ənənələrinin simvolu olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin (e.ə ikinci minilliyin II yarısı – birinci minilliyin əvvəlləri) əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində yaranıb və daimi insan məskəninə çevrilib. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası (Üçmıx dağında) bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir.

Azərbaycanın tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri 28 il Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmışdır. Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

Təbiətin öz möcüzələrini əsirgəmədiyi bu şəhərin yetişdirdiyi musiqiçilər, şairlər, rəssamlar, memarlar ölkənin tarixi-mədəni irsinə öz töhfələrini vermişdirlər. Bu səbəbdən, Şuşa *Azərbaycanın mədəniyyət paytaxtı* elan edilmişdir. Buradakı əksər binalar və məhəllələr ayrılıqda mədəniyyət abidəsi olduğu üçün bütövlükdə Şuşa şəhəri memarlıq abidələri kompleksindən ibarətdir. Azərbaycanın ədəbi, mədəni və ictimai həyatında xüsusi iz buraxmış görkəmli şəxsiyyətlərin arasında şuşalılar da az deyil. Əgər Şuşanın adlı-sanlı, görkəmli yetirmələrindən hər birinə ev muzeyi yaradılarsa, fikrimcə, burada hər iki-üç evdən birini muzeyə çevirmək lazım gələr. Şuşamız dünyanın ən məşhur çoxsaylı ev muzeyləri şəhəri ola bilər və yaxud tanınmış simaların hamısının doğulduqları, çalışdıqları və ya yaşadıqları binalara xatirə lövhələri vurularsa, Şuşanın demək olar ki, bütün küçələri yaxası dəmir lövhələrlə bəzədilmiş "ordenli-medallı" şəhərə çevrilər. Şuşa buranın səfalı havası və bulaqlarının suyu ilə böyümüş dahi musiqiçilərin vətəni olduğu üçün onu "Azərbaycan musiqisinin beşiyi" da adlandırırlar. Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, XX əsrin əvvəllərinədək xanəndə və sazəndələr zəminində inkişaf edirdisə, XX əsrdən başlayaraq, peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. Azərbaycan peşəkar musiqi sənətinin banisi və Şərqin ilk operasının müəllifi, dahi bəstəkar Üzeyir Hacıbəyov, musiqi mədəniyyətimizdə silinməz izlər buraxmış Xan Şuşinksi, Seyid Şuşinski, Bülbül, Niyazi Şuşanın yetişdirdiyi görkəmli musiqiçilər sırasındadırlar. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur. 1930-cu ilin əvvəllərində Şuşada ilk musiqi texnikumu təşkil olunur. Dahi Azərbaycan şairi Səməd Vurğun deyirdi ki, Azərbaycanın bütün məşhur musiqiçi və müğənniləri şuşalıdır. Azərbaycanın qədim və özünəməxsus muğam sənəti Şuşada xüsusi nəfəs kəsb edib. Təsadüfən demirlər ki, Şuşada körpələr bələkdə belə muğam üstündə ağlarlar. Şuşamız zəngin mədəni həyatı ilə şöhrət qazanmış, ədəbiyyatının, musiqisinin və arxitekturasının çiçəklənmə dövrünü yaşamışdı. Şuşanın mədəniyyət şəhəri olmasından danışırıqsa, Qarabağ muğam məktəbini də xüsusi vurğulamalıyıq. Məlumdur ki, Azərbaycanda bir neçə tanınmış muğam ifaçılıq məktəbi vardır. Muğam bütün ölkədə yayılsa da, onun əsas ocaqları özlərinin müstəqil məktəblərini yaratmış muğam yaradıcılığı mərkəzləri kimi Bakı, Şamaxı, Gəncə, Naxçıvan və Şuşa sayılır. Xüsusi maraq doğuran Qarabağ muğam məktəbi əsasən Şuşada formalaşmışdır. Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətini inkişaf etdirməklə, öz həmvətənlərinin hiss və duyğular aləminə nəcib təsir göstərmişlər. Bu yerlərin təbiətindən keçib gələn, ruhu oxşayan həmin gözəllikdir ki, nadir musiqi mədəniyyətində öz əksini tapmışdır. Qarabağ muğam məktəbinin rəmzinə çevrilən məşhur "Qarabağ şikəstəsi" buna bariz nümunədir.

Mədəniyyət paytaxtı olan bu şəhərin abu-havası məşhur yazıçı Aleksandr Dümanın "Qafqaz səfəri" əsərində də öz əksini tapmış, bu yerlərin gözəlliyindən, Azərbaycan xalqının qonaq-pərvərliyindən, Qarabağ xanlığından, o dövrün tanınmış şairəsi Natəvandan bəhs edilir.

Şuşadan kimlər keçməyib – dost da, düşmən də, səyyah da, musiqişünas da, etnoqraf da... Hər kəs öz qəlbinin gözü ilə bu şəhərə göz yetirib, qiymət verib. "Əgər oxumursansa, deməli, şuşalı deyilsən" – məşhur rus şairi Sergey Yeseninin bu kəlamlarında böyük həqiqət vardır. Həqiqətən də, bu diyarda hər ailədə oxumağı, musiqi alətlərində ifa etməyi bacaran adama rast gəlmək olardı və bu, şuşalılar üçün adi bir hal idi. Böyük rus musiqi tədqiqatçısı V.Vinoqradov yazırdı: "Şuşa musiqi istedadlarının beşiyi idi. Bu füsunkar təbiətli yerin xoş avazlı xanəndələri Zaqafqaziyadan kənarlarda da şöhrət qazanmışdır. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər".

Dumanlı dağların başında durdum,
Dumandan özümə bir xeymə qurdum.
Keçdi xəyalımdan öz gözəl yurdum,
Dumanlar başında duman göründü,
Duman göründü...

Hələ tələbə ikən, eşitdiyim bu mahnı məndə başı qalmaqallı Şuşa obrazı formalaşdırmışdı. Belə hesab etmişdim ki, mahnıdakı "dumanlı dağlar" sözləri M.S. Ordubadinin "Dumanlı Təbriz" tarixi romanında olduğu kimi, təbiət hadisəsinə deyil, Şuşada baş vermiş qanlı, gərgin, ictimai-siyasi və tarixi hadisələrə mahnı dili ilə edilmiş bir işarətdir. "Başı dumanlı dağlar" sözlərini şəhərin başı üstündə dolaşan qara buludlar şəklində təsəvvür edirdim. Şuşamız mənfur ermənilər tərəfindən işğal edildikdən sonra "başı dumanlı" sözlərini daha tünd boyalarla xəyalıma gətirirdim və həmin qara dumanın çox da asanlıqla çəkilib getməyəcəyi qənaətinə gəlmişdim. Lakin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyev erməni işğalçılarını Qarabağdan qovmaqla, Vətən müharibəsində xalqımıza tarixi Zəfər qazandırmaqla həyata keçirilməsi çox çətin olan bir problemi böyük iradə və yüksək səriştə ilə mümkün olacaq bir işə çevrilməsinin mümkünlüyünü isbat etmişdir. Vətən müharibəsinin tarixi Zəfərlə başa çatması günlərində radio-televiziyada tez-tez səsləndirilən, dillər əzbəri olan, unudulmaz dastana çevrilən "Vətən yaxşıdır" mahnısının başının üstündən artıq duman birdəfəlik çəkilmişdi. İndi bu mahnıdakı "dumanlı dağlar" sözləri artıq sözün əsl mənasında xoş təbiət hadisəsi, cəlbedici peyzaj təzahürləridir. Yazıçı Şıxəli Qurbanov yazırdı: "Harda dağ görürəm, gözümün önündə Şuşanın dağları gəlib dayanır". Həqiqətən də, belədir. Dünyada uca dağlar da çoxdur, dilbər guşələr də, gözəl şəhərlər də. Amma bizim üçün Şuşanın əvəzi yoxdur, yeganədir, təkdir, taleyimizə, bəxtimizə yazılan cah-cəlaldır.

Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Mətin Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik qələbəsini şərtləndirdi. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. O, "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan etmişdir.

Bu gün dövlətimiz tərəfindən mədəniyyət beşiyi olan Qarabağımıza, Şuşamıza öz mədəni ruhunun qaytarılması tarixi-mədəni irsə və milli təfəkkürə ehtiramın təzahürüdür. Şuşada möhtəşəm "Xarıbülbül" festifalının keçirilməsi, M.P.Vaqifin məqbərəsinin önündə "Vaqif Poeziya Günləri"nin açılışının keçirilməsi ölkəmizin həyatında böyük əhəmiyyət daşıyan əlamətdar hadisələrdir.

Mədəniyyətimiz insanseverdir, nifrət və dözümsüzlük yaymır. Azərbaycan-Şuşa mədəniyyətinin fərqli cəhətlərindən biri onun sülhsevərliyidir. Düşünürəm ki, bizim mədəniyyət iqtisadiyyatında çox böyük potensialımız vardır. Arzu edərdik ki, bizim mədəniyyətimiz dünyanın yaradıcı sənaye bazarında öz yerini tutsun, onun yaratdığı zövq iqtisadiyyatımıza töhfə versin, mədəniyyət xadimlərinin yaratdığı məhsul dünyada tanınsın. Mədəniyyət iqtisadiyyatı dünyada aktual mövzulardan biridir. Bu sahədə məlumatların toplanılması, statistik monitorinq sisteminin olması

vacib təməldir. Fikrimcə, mədəniyyət iqtisadiyyatının inkişafı üçün ölkəyə bu sahə üzrə ixtisaslaşmış şirkətləri, müxtəlif peşə sahiblərini dəvət etmək, bir araya gətirmək lazımdır.

Şuşamız beynəlxalq əhəmiyyətli, xüsusi iclasların keçirilməsi üçün böyük siyasi və rəmzi məna daşıyır. Ona görə ki, Şuşaya səfər edən xarici diplomatlar, dövlət xadimləri Füzuli Hava Limanına endikdən sonra "Zəfər yolu" ilə irəliləyib erməni vandalizminə və Azərbaycanın öz qüdrətinə bu torpaqlarda apardığı yenidənqurma işlərinə şahidlik edirlər. BMT-nin və digər qurumların nümayəndələri öz gözləri ilə görürlər ki, azad edilmiş torpaqlarda reabilitasiyaya mane olan əsas məqam bu ərazilərin minalarla əhatələnməsidir. Bu, məcburi köçkünlərin təhlükəsiz şəkildə qayıtmasına və sürətli yenidənqurmaya əngəl törədir. Ölkəyə səfər edən xarici missiyalar təbii ki, gördüklərini öz hesabatlarında əhatəli şəkildə təqdim edirlər. Bu da Prezident İlham Əliyevin yaratdığı yeni reallıqların dünyaya yayılması üçün mühüm addımlardan biri kimi qiymətləndirilməlidir. Bu gün Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, qarşıdan gələn dövr ərzində beynəlxalq münasibətlərin, mühüm məsələlərin müzakirə olunduğu siyasi-diplomatik mərkəz rolunda çıxış edir. Beynəlxalq təşkilat rəhbərlərinin, üzvlərinin Qarabağa-Şuşaya, Şərqi Zəngəzura səfərləri bir daha onu təsdiq edir ki, dünya İlham Əliyevin yaratdığı reallıqları qəbul edir.

Əminliklə deyə bilərəm ki, Şuşanı və digər rayonları işğaldan azad etməklə biz təkcə torpağlarımızı işğalçılardan təmizləmədik, eyni zamanda mədəniyyətimizi, incəsənətimizi, tariximizi, etnoqrafiyamızı, folklorumuzu da xilas etdik. Onlara yeni nəfəs verdik. Və əminəm ki, hər bir azərbaycanlının artıq başı dikdir.

44 günlük müharibə şanlı ordumuzun zəfəri ilə sona çatsa da, işğalçı erməni ordusu hələ də xain əməllərindən əl çəkmir, ölkəmiz üzərində təxribatlarını davam etdirir. Boşa çıxacaq, ay faşist Ermənistanı! Ali Baş Komandanımız İlham Əliyevin dəmir yumruğu və cəsur, qorxmaz ordumuz bu dəfə də "Qələbə" kəlməsini tarixə şanlı hərflərlə yazacaq!

İstifadə edilmiş ədəbiyyat

1. "Şuşanın tarixi barədə bildiyimiz və bilmədiyimiz məlumatlar". www.faktxeber.com. 2017.
2. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı". president.az. 7 may 2021.
3. Şuşa musiqi təhsili". www.musigi-dunya.az, 2017.
4. Şuşa tarixi haqqında Şuşasız…Yazı. www.karabakhinfo.com. 2017.
5. "Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib". *apa.az. 2021.*
6. "Şuşa tariximiz". novator.az. 2017.
7. Cıdır düzündə qələbə paradı". musavat.com. 2017.

QARABAĞIN TURİZM POTENSİALI

Samirə Firudin qızı Əsədi
Azərbaycan Dövlət Aqrar Universiteti
samirasadi52@gmail.com
https://orcid.org/0009-0009-6793-1719

Qarabağ Azərbaycanın ən gözəl, ən qədim tarixi bölgələrindən biridir. Füsunkar mənzərəli təbiəti, zəngin mənəvi və mədəni ənənələri olan Qarabağ bir çox görkəmli Azərbaycanlı alimlərin, şairlərin, yazıçıların, sənətkarların, musiqiçilərin və xanəndələrin doğulduğu yerdir. Təəssüf ki, 30 ilə yaxın işğal nəticəsində bu ərazilərdə bütün sərvətlərimiz istismar olunub, talanıb. Burada olan

mədəniyyət ocaqları, muzeylər, tarixi abidələr də məhv edilmiş, dağıdılmış, qədim tarixə malik olan qiymətli əşyalar ölkəmizdən çıxarılmışdır. Bütün bu dağıntılara, maddi və mənəvi ziyana rəğmən dövlətimiz bir tərəfdən də barbarlığa məruz qalan dini, tarixi, mədəni abidələrimizin bərpası ilə məşğuldur. Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır. Kəlbəcərdə ənənəvi turizmdən əlavə qış və sağlamlıq turizminin inkişafı mümkündür. Mədəniyyət beşiyi hesab edilən Şuşada əsasən festivalların keçirilməsi, Ağdamda "dark", yəni işğalın nəticələrinin çılpaq şəkildə göstərilməsi və işgüzar turizm nəzərdə tutulub. Azərbaycanın bu qədim tarixə malik olan bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə turistləri cəlb edəcək. İşğaldan azad olmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək. Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək.

Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində Ümumittifaq əhəmiyyətli 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Buradakı "İstisu" mineral suları ilə insanın həm xarici həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Mütəxəssislərin fikrincə Kəlbəcərin relyefi dünyanın ən hüyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür. Xüsusi vurğulamaq lazımdır ki, turizmin iqtisadi tərəfi ilə yanaşı tanıtım tərəfi də var. Turistlər həm Qarabağımzda dincələcək, təbiətin gözəlliyindən, mədəni-tarixi abidələrimizdən, yaradılmış əlverişli mühitdən zövq alacaq, həm də Ağdam, Füzuli, Cəbrayıl kimi ərazilərimizdə işğalın nəticələrini göstərmək üçün eksponat kimi nümayiş olunacaq bəzi tikililərlə də tanış olmaqla Qarabağın erməni barbarları tərəfindən hansı vəziyyətə salındığını, indi isə əsl sahibləri tərəfindən necə abadlaşdırıldığının əyani şahidi olacaqlar. Eyni zamanda "Qafqaz Albaniyası turizm marşrutu" da Qarabağın tarixini saxtalaşdıran erməni yalanlarının ifşası baxımından mühüm rol oynayacaq. Marşrut Qafqaz Albaniyasını araşdıran alimlərin məsləhət və tövsiyyəsi əsasında hazırlanır. Alban mədəniyyəti marşrutu Azərbaycanın 3 əsas dəhlizini – Bakı-Şəki- Zaqatala, Gəncə-Qazax və Qarabağı əhatə edir. Qeyd edək ki, qədim Alban mədəniyyətinin izi ilə yaranacaq turizm marşrutu ölkəmizin həmçinin Qarabağın zəngin və tarixi turizm potensialının tanıdılması istiqamətində xüsusi əhəmiyyət kəsb edəcək. Prezident İlham Əliyev Qarabağı ölkəmizin ən gözəl və bərəkətli regionlarından biri hesab edir: "Regionun bərpası ilə bağlı bizi çox böyük işlər gözləyir. Biz bütün bu yerləri bərpa edəcəyik. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik".

İstifadə edilmiş ədəbiyyat

1.LiderIlhamAliyev/posts/2208827742586438/?comment_id=2208952295907316&locale=az

2. Abdullayeva F. (2011). 4 may "Azərbaycan turizmi: bu gün və sabah": Turizm İnstitutunda elmi praktik konfrans keçirilib. "Mədəniyyət" qəz.,5 sВечканов Г.С., (2007).

3. Экономическая безопасность,СПб.: Питер, , 384 с. (с.10) Гудзь П. В., (2003).

4. Механізм розвитку курортно-рекреаційних територій у сучаснихумовах // Автореф. дис.док. екон. наук. –Донецьк, 11 с.Савельев Ю.В., Толстогузов О.В., 2008

5. Управление развитием туризма в регионе. Опытреализации Стратегии Республики Карелии / Институт эко-номики КарНЦ РАН, – Петрозаводск: Изд-во Карельского научного центра РАН, 141 с.(с.96)

6. The 2014 Legatum Prosperity Index.LegatumInstitute, (2014). 53 p.

REGİONUN NƏQLİYYAT-LOGİSTİKA MƏNZƏRƏSİNDƏN ZƏNGƏZUR DƏHLİZİ

Qaragöz Kərim oğlu Kərimov
Mingəçevir Dövlət Univeristeti
Azərbaycan Texniki Universitetinin doktorantı
qaragoz.karimov@mdu.edu.az
https://orcid.org/0000-0002-6101-6773

Giriş

Cənubi Qafqazda və dünyada baş verən son geo-siyasi proseslər Avrasiyanın nəqliyyat şəbəkəsinə onun iştirakçılarının rol və mövqelərini dəyişdirərək əhəmiyyətli dərəcədə təsir edir. Bəzi iştirakçı dövlətlər öz mövqelərini möhkəmləndirsələr də, digərləri geosiyasi rəqabət nəticəsində əsas nəqliyyat marşrutlarının rolunun dəyişməsi səbəbindən əhəmiyyətini itirirlər. Son regional və qlobal siyasi proseslər fonunda Azərbaycan qaliblərdən biridir, çünki yeni reallıqlar onun regional nəqliyyat qovşağı kimi rolunu gücləndirmək imkanları yaratmışdır. Azərbaycanın öz tərəfdaşları ilə imzaladığı son sazişlər onun mühüm tranzit ölkə kimi artan rolunun əyani göstəricisidir. Bildiyimiz kimi, ölkəmizin ərazisindən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri keçir. [1]

Azərbaycan beynəlxalq nəqliyyat dəhlizinin mərkəzindədir

Azərbaycan ərazisindən keçən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə beynəlxalq diqqətin artması ilə ölkə ərazisindən yükdaşımalar ildən-ilə əhəmiyyətli dərəcədə artır. Baş nazirin müavini Şahin Mustafayev Bakıda keçirilən üçtərəfli görüşdə qeyd edib ki, 2022-ci ilin yanvar-avqust ayları ərzində Azərbaycan ərazisindən tranzit yüklərin daşınması əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 47 faiz artıb. 2022-ci ilin altı ayında tranzit daşımaların həcmi 50 faizdən çox artıb.

Xəzər dənizində yeni Ələt beynəlxalq dəniz ticarət limanı vasitəsilə tranzit daşımaların həcmi artır. Limanın infrastrukturu ildə 15 milyon tona qədər yükün, o cümlədən 100 min TEU konteynerinin daşınmasına imkan verir. Bununla belə, yük daşımalarının artımı və bununla bağlı proqnozlar onun daşıma qabiliyyətinin artırılmasını tələb edir. Bunu nəzərə alaraq, limanın buraxılış qabiliyyətinin 25 milyon ton yük və 500 min TEU konteynerə çatdırılması üçün ikinci mərhələnin təməli qoyulub. [2]

Daşımaların həcminin artması ilə əlaqədar hazırda ikinci mərhələ çərçivəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanında layihələndirmə işləri aparılır. Layihə başa çatdıqdan sonra limanın ötürücülük qabiliyyəti 25 milyon tona çatdırılacaq.

Azərbaycanın beynəlxalq yükdaşımaları baxımından cəlbediciliyinin səbəbləri:

1. Transmilli şirkətlərin əsas məqsədlərindən biri məhsullarının təhlükəsiz şəkildə istehlakçıya çatdırılmasıdır. Dünyadakı geosiyasi vəziyyət elədir ki, əksər ölkələr şirkətlərə təhlükəsizlik zəmanəti verə bilmir. Bu məsələdə transmilli şirkətlərin Azərbaycana münasibətdə mövqeyi tamam başqadır.

İri korporasiyalar Azərbaycanın təmin etdiyi təhlükəsizlik zəmanətlərinə tam etibar edirlər. Çünki ölkə dünyada baş verən siyasi təlatümlər, müharibələr və inqilablar fonunda regionun ən sabit dövləti statusunu qoruyub saxlaya bildi. Bu, Azərbaycanı transmilli nəqliyyat şirkətləri üçün cəlbedici dövlətə çevirir.

2. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan ərazisindən tranzit daşımaları Aİ ölkələri ilə Çin, Hindistan və digər Şərq ölkələri arasında yükdaşımaların məsafəsi və vaxtı baxımından çox sərfəlidir.

3. Bundan başqa, transmilli şirkətlərin diqqətini Azərbaycanın yüksək keyfiyyətli nəqliyyat infrastrukturu - müasir standartlara cavab verən dəmir yolları və avtomobil yolları şəbəkəsi cəlb edir. Xüsusilə, Bakı-Tbilisi-Qars dəmir yolu, Xəzər dənizində Azərbaycanın ən böyük ticarət donanması olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, müasir gəmiqayırma zavodu ölkənin nəqliyyat imkanlarını daha da artırır. Azərbaycan da Zəngəzur dəhlizinin bir hissəsinə çevriləcək bir sıra yolların, hava limanlarının və digər infrastruktur obyektlərinin tikintisini qısa müddətdə başa çatdırıb.

4. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhlizdir. Uzunluğu 110,4 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttində işlərin 40 faizi tamamlanıb və bu dəmir yolu bu dəhlizin tərkib hissəsidir. SSRİ dövründə bu dəmir yolu xətti ilə təqribən 10 milyon ton yük ötürülürdü.

Zəngəzur dəhlizinin imkanlarını artırmaq üçün işğaldan azad edilmiş ərazilərdə logistika mərkəzlərinin və azad iqtisadi zonaların yaradılır. Dünyada baş verən geosiyasi proseslər də Azərbaycanın beynəlxalq nəqliyyat daşımalarında strateji önəmini artırıb. [2]

Azərbaycanın 2020-ci il ikinci Qarabağ müharibəsində qələbəsi həm Cənubi Qafqaz regionunda, həm də dünyanın geosiyasi panoramasında yeni reallıq yaratdı. Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi ölkənin tranzit imkanlarını xeyli artıracaq. Zəngəzur dəhlizi beş-səkkiz milyon ton yükün Azərbaycan ərazisindən keçməsi üçün əlavə imkanlar yaradır.

Üstəlik, 3+3 formatı regionda yeni nəqliyyat qovşağının yaradılmasına gətirib çıxara bilər. Təbii ki, Azərbaycan region ölkələri arasında yaradılması nəzərdə tutulan nəqliyyat şəbəkəsinin əsas iştirakçısıdır. Bu, ölkənin bu nəqliyyat şəbəkəsinin mərkəzində yerləşməsi və "3+3" formatına daxil olan bütün dövlətlərlə həmsərhəd olması ilə bağlıdır.

24 fevral 2022-ci ildə Ukraynada silahlı münaqişənin başlaması ilə dünya yeni geosiyasi və iqtisadi dövrə qədəm qoydu. Avropa dövlətlərinin və ABŞ-ın Rusiyaya qarşı sərt sanksiyaları dünyanın nəqliyyat xəritəsində əsaslı dəyişikliklərə gətirib çıxarır. Bu da ondan irəli gəlir ki, Şərqdə yerləşən və Avropa ilə geniş ticarət əlaqələri olan Çin, Yaponiya, Cənubi Koreya kimi iri iqtisadiyyata malik dövlətlər Qərbə yükdaşımaları, əsasən, Rusiya ərazisindən həyata keçirirdilər. Bununla belə, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar onun üzərindən yükdaşımaları kəskin şəkildə azaldıb.

Əksər şirkətlər Qərbin sanksiyalarından qaçmaq istədikləri üçün Rusiya vasitəsilə malların daşınmasında maraqlı deyillər. İstər Qərb, istərsə də Şərq şirkətləri intensiv və təhlükəsiz yük daşımaları üçün yeni, alternativ yollar axtarmağa məcburdurlar. [4]

Rusiya ərazisindən keçən Şimal dəhlizi məlum səbəblərdən praktiki olaraq bağlanıb. Əksəriyyəti Əfqanıstan, İran, Suriya və İraqdan keçən Cənub dəhlizinin təhlükəli olması, Əfqanıstan, Suriya və İraqın terrorçu qruplaşmalar üçün əsas sahə olması, eləcə də Qərbin İrana qarşı tətbiq etdiyi sanksiyalar şirkətləri bu dəhlizdən istifadədən çəkindirir.

Şimal və Cənub dəhlizləri öz effektivliyini itirdikcə, Azərbaycanın yerləşdiyi Orta Dəhlizin əhəmiyyəti daha da aktuallaşır. Çindən Avropaya Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə, eləcə də Qara dənizdən keçən dəhliz öz sabitliyi və etibarlılığı ilə transmilli şirkətlərin diqqətini çəkir.

Azərbaycan və Ermənistan arasında ikinci Qarabağ müharibəsindən sonra başlayan sülh danışıqları və regiondan keçən nəqliyyat xətlərinin açılması ilə bağlı müzakirələr Orta Dəhlizin gələcəyinə daha böyük ümidlər yaradır. Bu, beynəlxalq oyunçuların Azərbaycana marağını artırır.

Zəngəzur dəhlizinin açılması ilə regionun tranzit xəritəsində müəyyən dəyişiklər baş verəcək. Azərbaycan və Türkiyə arasında əlaqələndirməni təmin etməklə yanaşı bu dəhliz eyni zamanda Rusiya və Ermənistanın da nəqliyyat əlaqələrini təmin etmiş olacaq. Digər tərəfdən daha geniş

miqyasda baxsaq, Türkiyə və Rusiya arasında daha qısa məsafəli nəqliyyat marşrutları üzrə daşımaları da təmin edəcək.

Qlobal miqyasda məsələyə nəzər saldıqda Zəngəzur dəhlizi Avrasiyanın qərbi ilə şərqini birləşdirən ən qısa quru nəqliyyatı dəhlizi olacaq. Bu isə daşımaların maya dəyərini və sərf olunan zamanı müəyyən qədər azaltmağa imkan verəcək.

Orta dəhlizin bir hissəsi olan Zəngəzur dəhlizi Vətən müharibəsinə qədərki müddətdə işğal altında idi. Buna görə də yüklərin tranzit daşınması alternativ olaraq, Gürcüstan və İran ərazisindən keçməklə baş tuturdu. Bu həm məsafəni, həm də nəqliyyat müddətini artırırdı. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə əlaqələri isə yalnız İran vasitəsilə təmin olunurdu. Bu tranzit xərclərinin artıq olması ilə nəticələnirdi. Azərbaycan Naxçıvan Muxtar Respublikasına göndərdiyi 350 mln m^3 qazın dəyərinin 15 %-ni İrana tranzit xərci kimi ödəyirdi. Eləcə də, Türkiyə və İran arasında qaz nəqli ilə bağlı müqaviləyə əsasən Türkiyə İrana hər 1000 m^3 qaz üçün 490 ABŞ dolları ödəyir ki, Zəngəzur dəhlizi vasitəsilə eyni həcmli qaza görə Azərbaycana 335 ABŞ dolları ödəyə bilər. [5]

Digər tərəfdən Zəngəzur dəhlizinin tranzit potensialı imkan verəcək ki, Türkmənistan qazını İran, Türkiyə və Avropaya ötürməli olan dayanmış layihəni bu dəhlizlə Azərbaycan vasitəsilə həyata keçirsin.

Nəticə

Zəngəzur dəhlizinin açılması ilə Mərkəzi Asiya və Avropa arasında yükdaşıma həcmi 3 dəfədən çox artacaq. Ermənistan üçün Zəngəzur dəhlizinin açılması ancaq xeyir gətirəcək. Belə ki, Ermənistan tranzit ölkə kimi pay götürəcək. Ancaq Ermənistanda məsələni siyasiləşdirmək marağında olanlar dəhlizin açılışını torpaq iddiaları ilə əlaqələndirməyə çalışırlar ki, bu da əsassızdır. Azərbaycanla İran arasında bağlanmış memaranduma əsasən İran ərazisindən keçməklə İran-Ermənistan sərhədi boyunca Zəngəzur dəhlizinə paralel şəkildə alternativ dəhliz (53 km) çəkilə bilər. Hər iki halda əsas tranzit ölkə Azərbaycan olacaq, ancaq ikinci halda Ermənistan bütün kommunikasiyalardan uzaq qalmaqla regiona və qlobal məkana inteqrasiya edə bilməyəcək. Əslində Azərbaycanın Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçirilməsi təklifi Ermənistanın da xeyrinə addımdır ki, bu da bizim regionda sülhün bərqərar olmasında nə dərəcədə maraqlı olduğumuzun sübutudur.

Müxtəlif beynəlxalq iqtisadi forum və konfranslarda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkədə iqtisadiyyatın şaxələndirilməsi proqramlarının həyata keçirildiyini bəyan edib. Təbii ki, Azərbaycanın nəqliyyat imkanlarının artması ölkə iqtisadiyyatının şaxələndirilməsi baxımından çox vacibdir, iqtisadiyyata böyük töhfədir.

Proseslər göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan neft-qaz sektoru ilə yanaşı, nəqliyyat dəhlizləri ilə bağlı dünyanın aparıcı şirkətlərinin də diqqətini cəlb edərək, geosiyasi proseslərdən iqtisadi və siyasi dividendlər almağa nail olur, həm Cənubi Qafqaz regionunda, həm də dünyada özünəməxsus yer tutur.

İstifadə edilmiş ədəbiyyat

1. R. Bayramov, Ch. Rahimov, A.Sharifov, N.Hamidov (2022). Conceptual approaches to regional transportation planning in occupied territories. Norwegian Journal of development of the International Science No 84/2022

2. https://www.azernews.az/business/199205.html

3. P.Gawliczek, K.Iskandarov (2023). The Zangezur corridor as part of the global transport route (against the backdrop of power games in the South Caucasus region). Security and Defence Quarterly 41 (1)

4. Piriyev, H., Iskandarov Kh. and Tahirov R. (2022) The second Karabakh war. Military-political analysis. Baku: Military Publishing House.

5. Shokri U. (2022) Why Iran opposes Azerbaijan's Zangezur corridor project. Available at: https://gulfif.org/why-iran-opposes-azerbaijans-zangezur-corridor-project/ (Accessed: 19 December 2022).

6. Martirosyan, R. (2021) Iran opposes the Zangezur corridor and is trying to cancel it – Aharon Vardanyan. Available

7. at: https://168.am/2021/06/26/1539803.html (Accessed: 23 January 2023)

8. Martirosyan, R. (2021) Iran opposes the Zangezur corridor and is trying to cancel it – Aharon Vardanyan. Available

9. at: https://168.am/2021/06/26/1539803.html (Accessed: 23 January 2023)

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN STRATEJİ ASPEKTLƏRİ

[1,2]**Nərgiz Ehtibar qızı Yusifova,** [1,3]**Nərmin Arif qızı Əliyeva**
[1]Mingəçevir Dövlət Universiteti
[2]nargiz.yusifova@mdu.edu.az
https://orcid.org/0009-0001-6057-6963
[3]narmin.aliyeva@mdu.edu.az
https://orcid.org/0009-0009-5429-9638

Ölkəmiz hazırki dövrdə, tarixi ədalətin bərpa olunduğu, dövlətin və millətin bir yumruq altında birləşdiyi, xalqımızın qürur mənbəyinin gücləndiyi şəraitdə, eyni zamanda müzəffər ordumuzun doğma torpaqlarımızı göz bəbəyi kimi qorumağa, ona kəm baxan mənfur düşmənlərin layiqli cəzasını verməyə nail olduğu şərəfli bir zamanda yaşayır.

2020-ci il sentyabr ayının 27-dən etibarən başlayan 44 günlük Böyük Qarabağ Zəfərindən sonra Azərbaycanın iqtisadi inkişaf modelinin yeni, eyni zamanda obyektiv reallıqlara uyğun təkmilləşdirilməsi, idarəetmə formalarının daha səmərəli, eyni zamanda, çevik olaraq, tənzimlənməsi əsas obyektiv zərurət olaraq ortaya çıxmışdır. Torpaqlarımızın 44 günlük zəfər nəticəsində işğaldan azad olunmasına, erməni işğalçılarının darmadağın edilməsinə, həmçinin Ermənistanın təslimçi sazişə imza atmasına baxmayaraq, revanşist qüvvələr, onların dünyanın müxtəlif aparıcı ölkələrində yerləşən ikiüzlü havadarları, özlərini guya sülh "mələyi" olaraq göstərən siyasətçilər və beynəlxalq təşkilatlar torpaqlarımızın işğaldan azad olunması ilə hələ də barışa bilmirlər və təxribatlar törətməkdə davam edirlər. Bu cür formalaşan vəziyyətdə regionun idarəetmə strukturunun yenidən qurulması, təkmilləşdirilməsi, tarixi faktlara və ədalətə söykənən qərarların verilməsi, işğaldan azad edilmiş ərazilərimizin sürətlə dirçəldilməsi, böyük qayıdışın tezləşdirilməsi üçün mühüm tədbirlərin görülməsi revanşistlərə verilən ən tutarlı cavabdır. [3] Dövlət başçısı belə bir mürəkkəb vəziyyətdə mühüm fərman imzalayaraq iqtisadi rayonların yeni bölgüsünü təsdiq etmiş və ölkə iqtisadiyyatının idarə edilməsinin strateji mexanizmlərinin yenilənməsinin başlanğıcını qoymuşdur. Belə ki, Prezidentimizin 7 iyul 2021-ci il tarixli fərmanına əsasən ölkəmizdə iqtisadi rayonların yeni bölgüsü təsdiq dedilmişdir. Yeni bölgüyə əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Fərmanda qeyd olunmuşdur ki, işğaldan azad olunan ərazilərin bərpa edilməsi və yenidən qurulması, yeni infrastruktur obyektlərin yaradılması və əhalinin doğma torpaqlarımıza köçürülməsi istiqamətində mühüm işlər görülür. Hesab edirik ki, yeni iqtisadi rayonlaşmanın tətbiq edilməsi görülən işlərin səmərəsinə öz töhfəsini qatacaqdır. Əsasən yüksək dağ silsilələri ilə əhatələnmiş Zəngəzur mahalı 1861-ci ildə yaradılıb və hal hazırda Qarabağa bitişik olan 5 rayon – Laçın, Kəlbəcər Qubadlı, Zəngilan və Cəbrayıl rayonları hesab edilir. [1]

Respublikamızın öz əzəli, doğma torpaqlarımızı dirçəltməsi, inkişaf etdirməsi niyyətinin nə qədər güclü olması məhz Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılmasında öz əksini tapır.

Regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün əlverişli vəziyət yaranır. Müasir dövrdə - Şərqi Zəngəzur iqtisadi rayonunun yeni bölgü əsasında səciyyələnən ərazisində müxtəlif iqtisadiyyat sahələrinin, həmçinin, turizm, kənd təsərrüfatı, sənaye və aqrar sektorun, eyni zamanda heyvandarlıq və bitkiçiliyin inkişaf etdirilməsi məqsədilə həm təbii və həm də iqtisadi resurslar, eyni zamanda güclü imkan var və görülən işlər yekununda, yurdumuzun regionlarda mövcud olan resurs imkanlarından istifadənin effektiv səmərəliliyi dəfələrlə yüksəldə bilər.

Qeyd etdiyimiz kimi, iqtisadi rayonun tarixən istər sənayedə, istərsə aqrar sektorda, əsasən də heyvandarlıqda, həmçinin turizm, sağlamlıq sektorlarında da çox geniş imkanları olmuşdur. Lakin uzun illər ərzində işğal altında olması bu rayonlarımızın imkanlarından isifadə olunmasına mane olmuşdur. Bu səbəbdən də işğal müddəti ərzində Şərqi Zəngəzur iqtisadi rayonunun ÜDM-dəki payı 0,1 %-ə qədər aşağı düşmüşdür. Nəzərə alsaq ki, potensial imkanlar çox yüksək idi, lakin işğal nəticəsində bu potensialdan istifadə etmək mümkün olmadı. [4]

Aparılan iqtisadi tədqiqatlar nəticəsində göstərilir ki, ölkədə aqrar sektorun təkmilləş-dirilməsi üçün Şərqi Zəngəzur iqtisadi rayonu çox mühüm töhfə verəcəkdir. Hazırda qeyd edilən iqtisadi rayonun tərkibi hesab olunan inzibati vahidlər azaddır, onların iqtisadi imkanlarından istifadə etməyə nail olacaq. Öncədən aparılan qiymətləndirmələrdən belə qənatə gəlmək olur ki, Şərqi Zəngəzur iqtisadi rayonunun potensialı qarşıdakı illər ərzində Azərbaycanın bütöv iqtisadiyyatının təqribən 4 %-ni formalaşdırmaq potensialına malik olacaqdır. Buradan belə görünür ki, yaxın illərdə bu bölgədə təqribən 3 milyard manat civarında sənaye və aqrar məhsullarının istehsalını aparmaq mümkün olacaq. Şərqi Zəngəzur iqtisadi rayonu heyvandarlığın sahəsinin inkişafı yönümündə kifayət qədər güclü potensialı vardır. Bu da öz növbəsində daxili bazar üçün çıxarılan aqrar və həm də heyvandarlıq məhsullarının payının artmasına geniş imkan yaradır.

Şərqi Zəngəzur iqtisadi rayonunun ixrac potensialını da tədqiq etsək görərik ki, bu iqtisadi rayon əsas kommunikasiya qovşaqlarının birləşməsində yerləşəcəkdir. Hazırda Horadizlə Zəngilan rayonları arasında dəmir yolu xətti yaradılır və bununla yanaşı, Horadizdən Ağbəndə qədər olan asvalt avtomobil yolu da inşa edilir. Nəticədə bu yolların da həm bilavasitə Zəngəzur Dəhlizinə, həmçinin şərq-qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsinə imkan verəcəkdir. Qeyd etdiyimiz əlaqələr yaradıldıqdan sonra Şərqi Zəngəzurda istehsal olunan məhsulların daha böyük bazarlara çıxışının təmin edilməsi mümkün olacaqdır, bu baxımdan da iqtisadi rayonun istənilən səviyyədə güclü ixrac potensialı var. Ümumilikdə bu rayon istər aqrar məhsullar, istərsə də sənaye məhsulları, xüsusilə də qiymətli materiallara olan tələbin yerinə yetirilməsində güclü imkanlara malik olduğuna görə ehtimal olunur ki, bu, bazardakı qiymətlərə də öz təsirini göstərəcək. Ümumiyyətlə, işğaldan azad edilmiş rayonlarımızda heyvandarlıqla əkinçiliyin inkişafına şərait verilməsi daxili bazara xeyli miqdarda məhsuların çıxarılmasına imkan yaradacaqdır ki, bu da həmçinin növbəti dövrlərdə kənd təsərrüfatı məhsullarındakı qiymətlərin optimallaşdırılmasına, eyni zamanda, digər bəzi məhsulların da qiymətlərinin aşağı düşəcəyinə yol açır. Ehtimal olunur ki, bunun nəticəsində də artıq həm bazarda yerli məhsulların sayı artacaq, həmçinin qiymətlər optimallaşacaq və bu da idxaldan asılılığın aradan qaldırılması, həmçinin ixrac imkanlarının artırılması cəhətindən çox mühümdür. [5]

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yerli və xarici investisiyalar hesabına sənaye parklarının yaradılması prosesi sürətlə gedir. Müasir dövrdə göstərilən ərazilərin iqtisadi gücünün hərəkətə gətirilməsi üçün mövcud infrastrukturun yaradılması ilə bağlı tədbirlər sürətlə davam etdirilir. [2]

Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında təqdirəlayiq işlər görülür və bölgədə iqtisadi fəallığın artırılması davam etdirilir. Qeyd etmək lazımdır ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Azərbaycan Respublikasının Prezidenti İlham

Əliyevin 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə əsası qoyulmuşdur. Prezident fərmanında göstərildiyi kimi, Şərqi Zəngəzurun Arazboyu ərazisinin əsasən düzənlik relyefə, həmçinin regionun cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması qeyd edilən sənaye zonasının fəaliyyət göstərilməsi üçün əlverişli şəraiti təmin edir. Kəlbəcər inzibati rayonunda Yuxarı İstisu, Aşağı İstisu sanatoriyalarının olması ilə turizm sektoruna çox böyük dəstək pontesialı vardır. Bununla yanaşı, Kəlbəcərin faydalı qazıntı yataqlarına malikdir ki, bunların hər biri xarici investisiyanın buraya maraq yaratması üçün məqsədli əsasdır. Cəbrayıl inzibati rayonunda sement istehsalı üçün xeyli miqdarda xammal resurslarına malikdir. Bununla yanaşı, burada heyvandarlıq və əkinçilik potensial imkanları vardır ki, növbəti proseslərdə həm qida, həm də toxuculuq sənayesinin inkişafı baxımından da əlverişlidir. Qeyd edilən bu faktorlar Şərqi Zəngəzur iqtisadi rayonuna xarici investorların cəlb edilməsi üçün kifayət qədər əsas səbəblərdir. Laçın inzibati rayonun coğrafi relyefi şərait yaradır ki, burada dünya üzrə geniş rəqabət qabiliyyətli arıçılıq təsərrüfatının yaradılması üçün potensial var və həmçinin Laçın Zəngəzur dəhlizinin Azərbaycanla birləşən coğrafi kordinatlarında yerləşir. [6]

Dövlətimiz yeni iqtisadi rayonların yaradılması və davamlı olaraq inkişaf etdirilməsi ilə Qarabağ regionunu daha güclü, dinamik inkişafda olan bir iqtisadi rayona çevirməklə yanaşı, həmçinin əzəli Azərbaycan torpağı olan Zəngəzura bütöv olaraq soydaşlarımızın qayıtmasında, qədim torpaqlarımızın inkişaf etdirilməsində yetəri qədər qərarlıdır.

Qeyd etdiyimiz iqtisadi rayonlarının yaradılması isə dünya sferasında Azərbaycanın strateji rolunu sürətlə artırır, çünki iki yeni iqtisadi rayonun inkişaf etdirilməsində strateji hədəflərin olması və Zəngəzur dəhlizinin vasitəsilə türkdilli dövlətlərin inteqrasiyasının güclənməsi, Qərblə Şərq, Şimal ilə Cənub nəqliyyat yollarının yükdaşımaların intensivliyinin sürətləndirilməsi, beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat və logistika sahəsinin əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi nəticəsində ölkəmizin rəqabət qabiliyyətinin, həmçinin siyasi və iqtisadi qüdrətinin gücləndirilməsinə real imkanlar formalaşacaqdır və s.

Tam əminliklə deyə bilərik ki, Zəngəzurun tam işğaldan azad olunması, bununla yanaşı xalqımızın öz əzəli torpaqlarına geri qayıtması uzaqda deyil, çox yaxın zamanda Zəngəzur dəhlizinin reallaşacağı bu ümidləri daha da artırmağa inam yaradır. Onu da qeyd etməliyik ki, Zəngəzur dəhlizi Avrasiya zonasını bir-biri ilə əlaqələndirən ən mühüm nəqliyyat dəhlizidir. Həm Qafqazın, həmçinin də Mərkəzi Asiyanın əsas qapısıdır. Əzəli Azərbaycan torpağı sayılan Zəngəzur, çox yaxın dövrdə bütün türk dünyasının birləşməsi rolunu oynayacaq. [5]

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.

2. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə "Bakı şəhəri, 10 iyul 2021-ci il. https://nk.gov.az/az/document/5457/print/.

3. Qarayeva, S. "Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması tarixi ədalətin bərpasıdır". https://525.az/news/171825-serqi-zengezur-iqtisadi-rayonunun-yaradilmasi-tarixi-edaletin-berpasidir.

4. Əliyev İ. Zəngəzur dəhlizi türk dünyasını birləşdirən əsas nöqtədir. 04.04.2021. https://xalqqazeti.com/az/news/73722.

5. Eyyubova G. İqtisadi rayonların sayının artması Vətən müharibəsində qazandığımız Zəfərdən sonra formalaşmış yeni reallıqlara tam uyğundur. 09 iyul 2021. https://ikisahil.az/post/233156-iqtisadi-rayonlarin-sayinin-artmasi-veten-muharibesinde-qazandigimiz-zeferden-sonra-formalashmish-yeni-realliqlara-tam-uygundur.

6. İqtisadi rayonlaşdırma. https://www.azerbaijans.com/content_464_az.html. https://azertag.az/xeber/Azerbaycanin_Qarabag_ve_Serqi_Zengezur_iqtisadi_rayonlarinin_yaradilmasi_dusmenin_revansist_ruhunu_ezib-1826439.

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ZƏNGƏZUR MODELİ

Zümrüd Novruzəli qızı Hüseynova
doktorant
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
zumrud.huseynova2023@gmail.com
https://orcid.org/0000 0003 3912 7263

44 günlük müharibədən sonra Azərbaycan Respublikasının dövlət idarəçiliyində yeni imkanlar və istiqamətlər açılmışdır. Onlar içərisində ən güclüsü nəqliyyat imkanlarıdır. Belə ki postmüharibə dövründə ölkə siyasətində siyasi və iqtisadi istiqamətlər daha basqın olur. Çünki əsas məqsəd müharibənin yaratdığı fəsadları, itkiləri bərpa etməkdir. Bu zaman sosial sferanın da əhəmiyyəti danılmaz faktdır. Fəsadlar və fürsətlər cəmiyyət həyatına siraət edir. Bu zaman onun təsirlərinin ölçüsü də sosial həyatda baş verir. Hazırda Azərbaycan Respublikası postmüharibə dövrünü yaşayır. Bu dövr həm də həssaslaşmış cəmiyyət dövrüdür. Bu dövrdə sosial əlaqə və münasibətlərin bərpası sosial qrupların sosial müdafiə siyasətinin gücləndirilməsi üçün sosial xidmətlərin fəaliyyətinin daha geniş aspektdən formalaşması zərurətini yaradır. Bu istiqamətdə Zəngəzur dəhlizin açılması, fəaliyyətin bərpası qədim tarixi kökə malik olan torpaqlarımıza qayıtmaq və orda normal həyat fəaliyyətin yaradılmasına zəmin yarada bilər.

Ümumiyyətlə, Zəngəzur dəhlizinin regional səviyyədə hətta beynəlxalq səviyyədə xüsusi vacib əhəmiyyətə sahibdir. İlk baxışdan bu dəhlizin siyasi-iqtisadi əhəmiyyətə, perspektivliyə sahib olduğu kimi görünsə də, həm də sosial əhəmiyyətə sahibdir. İlk növbədə bu dəhlizin ümumi əhəmiyyətinə nəzər yetirək. Məlum olduğu kimi, "Bu dəhlizinin açılmasının hüquqi bazasını 10 noyabr 2020-ci tarixində Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat təşkil edir". [1] Hüquqi əsasın təsisatı ölkənin daxili və xarici siyasətində yer alan sosial-iqtisadi inkişafa təkan verən istiqamətlərin geniş aspektdən həyata keçirilməsinə şərait yaradır. Zəngəzur dəhlizinin bilinən siyasi-iqtisadi əhəmiyyəti ilə yanaşı lokal xarakterli əhəmiyyətə malikdir. Belə ki, "Dəhlizin lokal müstəvidəki əhəmiyyəti yeni nəqliyyat yolunun keçdiyi hər bir ölkədə yerli inkişafı stimullaşdırıcı faktor kimi çıxış etməsidir. Nəzərə almaq lazımdır ki, yeni dəhliz hər üç ölkənin ən zəif inkişaf etmiş bölgələrindən keçir. Belə ki, dəhlizin 30 ilə yaxın işğal altında olan və talançılığa məruz qalan Azərbaycanın cənub-qərb rayonları, Ermənistanın ən zəif inkişaf etmiş Sünik bölgəsi və onilliklərdir terrorizm səbəbilə zəif inkişaf etmiş Türkiyənin şərq vilayətlərini biri-birinə bağlaması planlaşdırılır ki, bu da hər üç bölgədəki yerli iqtisadi yüksəlişə ciddi töhfə verəcək". [3]

Zəngəzur dəhlizinin siyasi və iqtisadi əhəmiyyəti "3+3" formatında yaradılmış əməkdaşlıq nəticəsində beynəlxalq tranzit daşımalarda yeni strateji mərkəz yaratmaq ehtimalını gücləndirir. Həm də Zəngəzur dəhlizi regiondakı ölkələrə daha ucuz alternativ çıxış imkanları vəd edir. Zəngəzur dəhlizinin açılması məqsədilə isə genişmiqyaslı işlər icra edilir, dəmir yolları, avtomobil yolları çəkilir. Nəzərdə tutulan planlaşdırılma uğurla həyata keçirildikdə isə "...yaxın gələcəkdə Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsi fonunda Zəngəzur dəhlizi Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi çıxış etmək potensialı daşıyır". [3]

Məlum olduğu kimi, II Qarabağ müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı.Hazırda həmin ərazilərə "Böyük Qayıdış" planı həyata keçirilir.Həmin ərazilərdə

yalnız iqtisadi,siyasi inkişaf potensialı önəm kəsb etmir. Eləcə də orda sosial həyat səviyyəsini təmin etmək, sakinlərin sosial müdafiəsini layiqli şəkildə icra etmək digər məqsədlərdəndir. Belə ki, əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların, fərdi yaşayış evlərinin tikintisi, çoxmənzilli binaların idarə edilməsi, həmin ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrinin formalaşmasına önəm verilir. Bu məqsədlə işçi qüvvəsinin artırılması zərurəti yaranır. Ümumiyyətlə, "Əlverişli demoqrafik vəziyyətin mövcudluğu, iqtisadi fəal gənc əhalinin işçi qüvvəsinin ümumi strukturunda yüksək paya malik olması və gənclər tərəfindən yeni innovativ metodların dərindən mənimsənilməklə tətbiqi daha effektiv nəticələrin əldə olunması üçün fürsətlər yaradır".[2 s.13]

Şərqi Zəngəzur iqtisadi rayonunda yaşayış evlərinin tikintisi, çoxmənzilli binaların idarə edilməsi, həmin ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfat fəaliyyətinin formalaşdırılması üçün Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 və 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti yaradılmışdır. 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını, 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti isə Laçın və Kəlbəcər rayonlarını əhatə edir. 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti Zənglian rayonunda, 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti isə Laçın şəhərində fəaliyyət göstərir. Hər iki xidmətin eyni fəaliyyət istiqamətləri var. Bunlara daxildir:

"2.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək;

2.1.2. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaları, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək, müvəqqəti idarə etmək;

2.1.3. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək;

2.1.4. müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək;

2.1.5. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək". [4]

Bu fəaliyyət mexanizmlərinin həyata keçirilməsi üçün müvafiq sahəyə uyğun işçi qüvvəsinin təminatı mühüm rol oynayır. Uğurlu kadr siyasəti insan kapitalının inkişafı deməkdir. Xüsusilə, ətraf ərazilərdə yaşayan sakinlərin işçi qüvvəsi onların sosial və iqtisadi həyat fəaliyyətinə müsbət təsir edəcəkdir.

Nəticə olaraq qeyd edək ki, yuxarıda qeyd olunan əhəmiyyətli məqamlar nəinki Zəngəzur dəhlizinin, o cümlədən qədim tarixi keçmişə sahib olan Zəngəzur ərazisinin əhəmiyyəti də vurğulayır. Bugünün region üzrə iqtisadi mərkəzi yalnız uğurlu iqtisadi model kimi deyil, həm də sosio-siyasi-iqtisadi əhəmiyyətə malik olan model kimi də çıxış edir.

İsifadə edilmiş ədəbiyyat

1. Zəngəzur dəhlizinin böyük regional və beynəlxalq əhəmiyyəti var https://ikisahil.az/post/214832-zengezur-dehlizinin-boyuk-regional-ve-beynelxalq-ehemiyyeti-var 27 aprel 2021 12:52

2. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf

3. Zəngəzur Dəhlizinin üç müstəvidə əhəmiyyəti https://top-center.org/az/ekspert-reyi/3247/zengezur-dehlizinin-uc-mustevide-ehemiyyeti 27-10-2021, 04:30

4. Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin NİZAMNAMƏSİ https://president.az/az/articles/view/59965 26 may 2023, 16:06

5. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin NİZAMNAMƏSİ https://e-qanun.az/framework/49998

MÖHTƏŞƏM QARABAĞ ZƏFƏRİ AZƏRBAYCANIN ƏBƏDİ QÜRUR MƏNBƏYİDİR

Tahirə Əli qızı Quliyeva
Mingəçevir Dövlət Universiteti
tahira.quliyeva@mdu.edu.az
https://orcid.org/0000-0001-9351-2897

Azərbaycan xalqı özünün çoxəsrlik tarixinin, eləcə də müasir hərb tarixinin ən şərəfli hadisəsini təntənəli şəkildə qeyd edir. Xalqımızın şərəf və ləyaqət tarixinin qızıl hərflərlə yazılmış səhifələrinə çevrilmiş 44 günlük Vətən Müharibəsi, qazanılan böyük Qələbə gələcək nəsillər üçün əbədi sevinc mənbəyinə çevrildi. Azərbaycan xalqının və Milli Ordumuzun Ali Baş Komandanının qəhrəmanlığı sayəsində Vətənimizin əbədi və ayrılmaz hissəsi olan, otuz ilə yaxın işğal altında olan Qarabağ torpaqları azad edilərək zəmanəmizin məharət və şücaət salnaməsinə çevrildi. Bu Qələbə və əfsanəvi "Dəmir yumruq" əməliyyatı sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Ali Baş Komandanımızın qətiyyəti, dönməz siyasi iradəsi və barışmaz mövqeyi sayəsində dünya Azərbaycan xalqının birlik və həmrəyliyinin, Azərbaycan dövlətinin qüdrətinin, Ordumuzun yenilməzliyinin bir daha şahidi oldu.

Möhtərəm Prezidentimizin beynəlxalq aləmdə informasiya və diplomatik müharibədə əldə etdiyi misilsiz uğurlar 44 günlük Vətən müharibəsində qeyd-şərtsiz qələbənin qazanılmasında həlledici rol oynamışdır. Bu qələbə həm də son iki yüz ildə Azərbaycan və Türkiyəyə qarşı düşmən mövqedə olan, ərazi iddiaları ilə çıxış edən işğalçı Ermənistan və onun havadarları üzərində tarixi qələbə idi. Azərbaycan xalqının qürur mənbəyi olan bu Qələbənin əzəmətini sözlə ifadə etmək mümkün deyil, onun siyasi, hüquqi, tarixi, iqtisadi, etnomədəni və geosiyasi əhəmiyyəti ölçüyəgəlməzdir. Bütün bunları düşünərək, eləcə də 44 günlük Vətən Müharibəsində baş verənləri təhlil etməklə biz bütün dünya ermənilərinə qarşı vuruşan Azərbaycan xalqının əvəzsiz LİDERİNİN, onun qəhrəman Milli Ordusunun misilsiz qüdrətini və fədakarlığını dərk edirik, Vətənin hər qarışı uğrunda canından keçən şəhidlərimizlə, qazilərimizlə fəxr edirik.

Cənab İlham Əliyev 2003-cü ilin prezident seçkiləri ərəfəsində bildirmişdi ki, Azərbaycan xalqı ona etimad göstərərsə, Ulu Öndərin siyasətinə sadiq qalacaq. Xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Heydər Əliyevin siyasi varisi kimi hakimiyyətə gələn cənab İlham Əliyev son 20 ildə verdiyi vədləri maksimum dərəcədə yerinə yetirmiş, Azərbaycan xalqının ən böyük arzularını həyata keçirmişdir. Prezident cənab İlham Əliyev qısa müddət ərzində ona olan bütün ümidləri tam doğrultdu, yorulmaz, qətiyyətli və prinsipial fəaliyyəti ilə sübut etdi ki, atdığı hər bir addım, qəbul etdiyi hər bir qərar, cəmiyyət üzvlərinin mənafe və istəklərinin təmin edilməsinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə yönəlmiş, ərazi bütövlüyümüzün, davamlılığımızın təmin edilməsinə, siyasi sabitliyin və iqtisadi tərəqqinin daha da möhkəmlənməsinə hesablanıb [2]. Şanlı Qələbə ilə başa çatan Vətən Müharibəsi əslində 30 illik hazırlığın bir növ sınaq mərhələsi idi. Prezident cənab İlham Əliyev müasir dünya siyasətinin reallıqlarını müdrikliklə dərk edərək bu istiqamətdə adekvat addımlar atdı, məhz onun ardıcıl və qətiyyətli siyasəti nəticəsində Azərbaycan hərbi potensialını xeyli artıra bildi. Ordumuz ən müasir silah, texnika ilə təchiz edilmişdi. Azərbaycan müdafiə sənayesi məhsulları istehsal edən, hətta ixrac edən ölkəyə çevrilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrildi. Təsadüfi deyil ki, 2003-cü ildən Azərbaycanın hərbi büdcəsi 15 dəfə artıb. Bu göstəricilər beynəlxalq reytinq agentliklərinin diqqətindən yayınmayıb. Dünyaca məşhur "Global Firepower" şirkətinin hesabatına əsasən, Azərbaycan ordusu dünyanın 50 ən güclü ordusu siyahısına daxil edilib. Təbii ki, davamlı inkişaf edən iqtisadiyyat olmadan biz hərbi potensialımızı istənilən səviyyəyə çatdıra bilməzdik. Digər tərəfdən, ümumiyyətlə, iqtisadi asılılıq şəraitində bizim tam müstəqil siyasət yürütmək imkanlarımız məhdud ola bilərdi. "Yalnız güclü iqtisadiyyatı olan ölkələr müstəqil siyasət apara bilər" deyən Prezident İlham Əliyev bu prinsipi özünün idarəetmə

fəlsəfəsinin əsas elementinə çevirib. Azərbaycan son 20 ildə həyata keçirdiyi iri geoiqtisadi layihələrlə öz iqtisadi müstəqilliyini təmin etməklə yanaşı, həm də Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayaraq köhnə qitəni özündən asılı vəziyyətə salıb. Dünyanın ən nüfuzlu iqtisadi təşkilatı olan Avropa İttifaqı Azərbaycanın strateji tərəfdaşına çevrilib. Azərbaycan Şərq Tərəfdaşlığı proqramında iştirak edən yeganə ölkədir ki, Avropa İttifaqının üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq sazişi imzalayıb.

Beləliklə, iqtisadi sahədə qazandığımız uğurlar bir tərəfdən siyasi müstəqilliyimizi təmin edən amillərdən birinə çevrildisə, digər tərəfdən də ordumuzun ən müasir silah-sursatla təchiz olunmasına şərait yaratdı. Bu amil bizi böyük qələbəyə yaxınlaşdıran səbəblərdən biri oldu. Digər mühüm amil siyasi, diplomatik və informasiya səviyyəsində görülən işlər idi. Əks halda, ordumuzun sentyabrın 27-də başlatdığı əks-hücum əməliyyatları beynəlxalq ictimaiyyətin mənfi reaksiyası ilə üzləşə bilərdi. Ardıcıl və uzaqgörən siyasət nəticəsində münaqişənin hüquqi bazası formalaşıb. 2003-cü ildə münaqişə ilə bağlı istinad edə biləcəyimiz yeganə sənədlər BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri idi, lakin Prezident cənab İlham Əliyevin hakimiyyəti dövründə, demək olar ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təsdiq edən sənədlər qəbul etmişlər və Ermənistanın işğalçı siyasəti bütün beynəlxalq səviyyələrdə ifşa olundu. Cəmi 20 ildə dövlətimizin başçısı öz yorulmaz fəaliyyəti ilə erməni lobbisinin bir əsrdən artıq müddətdə yaratdığı mifləri, stereotipləri məhv etməyə nail oldu. 100 illik erməni yalanları bütün dünyada ifşa olundu, Azərbaycanın düzgün mövqeyi bütün beynəlxalq dairələr tərəfindən qəbul edildi və nəhayət, işğalçı öz adı ilə çağırılmağa məhkum edildi. Elə bir beynəlxalq platforma qalmadı ki, orada Azərbaycanın hüquqları ilə bağlı tarixi həqiqətlər səslənməsin. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul ediblər. Azərbaycanın səmərəli informasiya strategiyası sayəsində BMT Baş Assambleyası, hətta Avropa Şurası və Avropa Parlamenti münaqişə ilə bağlı ədalətli və obyektiv qətnamələr qəbul etməyə məcbur olub. 2011-ci ildə Azərbaycan Qoşulmama Hərəkatına üzv olmaq istəyəndə bunun yanlış addım olduğunu düşünən dairələr var idi, lakin ölkəmizin bu təşkilat çərçivəsində apardığı informasiya siyasəti çox səmərəli nəticələrə gətirib çıxardı. Dünyanın 120 ölkəsinin birləşdiyi bu nəhəng struktur bütün toplantılarında Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə dəstəyini nümayiş etdirdi [1]. Yeri gəlmişkən, Vətən Müharibəsi davam edərkən, oktyabrın 19-u və 29-da BMT Təhlükəsizlik Şurasında Azərbaycanın maraqlarına tamamilə uyğun olmayan ədalətsiz sənədin qəbulu müzakirə olundu. Azərbaycan mütəmadi olaraq geniş müsəlman dünyasına münaqişə faktları barədə məlumat verirdi. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həyata keçirilən uğurlu fəaliyyət nəticəsində Ermənistanı işğalçı ölkə kimi təmsil edən sənədlər qəbul edilib. Düşmənin dini abidələrimizə qarşı təcavüzkar davranışı inandırıcı faktlarla müsəlman dünyasına çatdırılıb. Azərbaycan Prezidentinin "Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz" tezisi müsəlman dünyasında ciddi rezonans doğurdu və bu gün bəzi xırda istisnalarla Ermənistanın İslam dünyasına qapısı bağlıdır. Ermənistanın dünyaya təqdim etdiyi qondarma miflər ifşa edilib. Real tarixi faktlara əsaslanaraq, ermənilərin son 200 ildə müxtəlif dövlətlərin geosiyasi ambisiyaları nəticəsində Qarabağ ərazisinə köçürülməsi əsaslandırılır.

Heydər Əliyev Fondunun qlobal miqyasda apardığı səmərəli təbliğat sayəsində 13 ölkə Xocalı soyqırımını soyqırım cinayəti kimi rəsmən tanıyıb. Bütün dünya kimin ədalətin tərəfində olduğunu, kimin təcavüzkar olduğunu, kimin sülh missiyası olduğunu anladı. Dünya Ermənistan dövlətinin faşizminin mahiyyətini bütün çılpaqlığı ilə gördü. Müharibə ərəfəsində, yəni ötən ilin fevralından başlayaraq ölkəmizi də çətin sınaq gözləyirdi. Qlobal sağlamlığın əvvəllər heç vaxt görmədiyi mənşəyi naməlum virusun yayılmasının qarşısını almaq son dərəcə çətin, hətta qeyri-mümkün görünürdü. Lakin ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqları əsasında əhalinin həyat və sağlamlığının qorunması, sosial müdafiəsinin təmin edilməsi və iqtisadi fəallığın inkişaf etdirilməsi sahələrində pandemiyaya qarşı mübarizə aparmaqla müsbət təcrübə qazanmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Bizim yeganə yolumuz insanları qorumaq, yoluxmaların sayını azaltmaq, xəstəliyin yayılmasının qarşısını almaq və bununla da vətəndaşlarımızı və dövlətimizi bu vəziyyətdən xilas etməkdir" fikirləri böyük ruh yüksəkliyi yaratdı hər birimizdə. Azərbaycan xalqı da mənəvi-psixoloji baxımdan mümkün müharibəyə hazırlaşırdı. Gənc nəsil Vətən sevgisi, düşmənə nifrət hissi ilə böyüyüb, torpaqlarımızı işğalçılardan azad edib. Vətən müharibəsində bütün yaş kateqoriyalarından olan insanlar böyük fədakarlıq və qəhrəmanlıq göstərmişlər, lakin fakt budur ki, döyüşlərdə iştirak edənlərin böyük əksəriyyəti uşaqlıq illərini 2003-cü ildə, cənab İlham Əliyevin prezident seçilməsi ərəfəsində yaşamışdır. Bu uşaqların vətənpərvərlik ruhunda böyüməsi bizi müharibədə qələbəyə aparan əsas amillərdən biri idi. Çəkinmədən deyə bilərik ki, torpaqlarımızın işğaldan azad edilməsində iştirak edən gənclər Heydər Əliyev məktəbinin və Prezident İlham Əliyevin administrasiyasının yetirmələridir. İctimaiyyət bu tarixi Qələbəni bilavasitə ulu öndər Heydər Əliyev və onun ideyaları ilə əlaqələndirir [3]. Əslində bu prosesə ən düzgün qiymət və rəyi tarixi Qələbənin müəllifi olan qalib Ali Baş Komandanımız cənab İlham Əliyev verib. Onun sözlərinə görə, Vətən müharibəsində qazanılan qələbə ulu öndər Heydər Əliyev ideyalarının hərtərəfli həyata keçirilməsinin təbii nəticəsidir. Qarabağın təkcə coğrafi deyil, həm də mənəvi-siyasi zirvəsi olan Şuşanın işğaldan azad edildiyini, Azərbaycanın mədəniyyət paytaxtı elan edildiyini bəyan edən möhtərəm dövlətimizin başçısı bu qələbəni Ümummilli Liderin vəsiyyətinin yerinə yetirilməsi kimi qiymətləndirdi, Mehriban xanım Əliyeva ilə birlikdə Ulu Öndərin məzarını ziyarət edərək, qələbə xəbərini bütün dünyaya çatdırdı. Prezident İlham Əliyev Şuşaya son səfəri zamanı Ulu Öndərin Qarabağda yaratdığı milli mühitdən, qoruduğu mənəvi irsdən həssaslıqla danışıb. Çünki proseslər onun gözləri önündə cərəyan edirdi və o, əksər hadisələrin canlı şahidi idi. O, artıq gənclik illərində Ulu Öndərin Qarabağa, o cümlədən Şuşaya səfərlərini müşayiət edib və Qarabağ strategiyasını ən xırda elementlərinə qədər bilir. Möhtərəm Prezidentimiz üçün Şuşanın küçələri, məhəllələri, Vaqifin, Natəvanın və digər görkəmli insanların məqbərələri, abidələri adi tarixi yerlər deyil, onları 70-80-ci illərdə Ulu Öndərlə birgə səfərlərində görmüş, bir çoxunun açılışında iştirak etmiş, hər biri haqqında təəssürat formalaşdırmışdır. Təsadüfi deyil ki, o, son aylarda qısa müddət ərzində Şuşaya dəfələrlə səfər edib, burada tikinti işlərinin gedişi ilə xırdalıqlarına qədər maraqlanıb və bu prosesi həm Mehriban xanımın şəxsi nəzarətinə, həm də özünə etibar edib.

Cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan Böyük Qələbə, doğrudan da, Heydər Əliyev ideallarının tərənnümü və daha bir ölümcül arzusunun gerçəkləşməsidir. Necə ki, bu gün Ali Baş Komandan Müzəffər onilliklərdən sonra Qarabağı Azərbaycanın suveren hüquqları çərçivəsinə qaytardısa, Heydər Əliyev də artıq 70-80-ci illərdə əldən düşmüş Dağlıq Qarabağı Azərbaycana qaytardı. Bu gün Qarabağın dirçəlişi, quruculuğu aparılır. Mütləq ən yüksək səviyyədə. Möhtərəm Prezident Qarabağın dirçəlişini özünün prioriteti elan edib bu prosesi birbaşa öz nəzarətinə götürsə, o zaman əvvəlki hallarda olduğu kimi burada da ən uğurlu nəticələr əldə olunacaq. Hər kəs görür ki, cənab İlham Əliyevin "Mən nə edəcəyimi, necə və nə vaxt edəcəyimi bilirəm" tezisi onun böyük dövlətçilik fəaliyyətinin, xüsusilə də Böyük Vətən Müharibəsi illərində həyata keçirdiyi bütün dövrlərdə tam mənada hərəkətə keçib. İnanırıq ki, prezidentin "Qarabağı Azərbaycan üçün cənnət məkanına çevirəcəyik" qərarı yaxın gələcəkdə həyata keçiriləcək. Bu prosesdə Ali Baş Komandanın Qarabağ bölgəsinə mütəmadi səfərləri mühüm rol oynayır. Möhtərəm Prezident dəfələrlə Şuşa, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Kəlbəcər, Laçın, Xocavənd rayonlarında olub. O, işğaldan azad edilmiş ərazilərdəki vəziyyətlə tanış olub, həmçinin yaradılan infrastrukturun əsasını qoyub. Bu səfərlərin real nəticələri var.

Hazırda işğaldan azad edilmiş hər bir şəhər və rayonu üzrə layihələndirmə işləri aparılır. Əhəmiyyətli sahələrdə infrastrukturun tikintisinə başlanılmış, onların bir çoxu artıq istifadəyə verilmişdir. Dəmir yolu xəttinin tikintisi davam edir, ərazilərin intensiv şəkildə minalardan təmizlənməsi işləri aparılır. Füzuli hava limanının tikintisi başa çatıb. Cənab Prezident İlham Əliyev və qardaşı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da limanın

açılışını etdilər. Laçın və Zəngilan hava limanlarının tikintisi davam edir. Bütün bu işlərin mərkəzləşdirilmiş şəkildə əlaqələndirilməsi və yerlərdə xüsusi idarəetmə modelinin yaradılması yolu ilə prosesin həyata keçirilməsində şəffaflıq və operativlik təmin edilir. Bu rayonun yenidən qurulması və iqtisadi potensialının bərpası Qarabağı yüksək rifah bölgəsinə çevirəcək və Azərbaycanın iqtisadi inkişafına mühüm töhfə verəcək.

Xalqımız əmindir ki, tezliklə Qarabağda həyat yenidən dirçələcək, möhtərəm dövlət başçımız Qarabağa yeni həyat bəxş edəcək, onu inkişafa, tərəqqiyə qaytaracaq. Regionda sabitliyin və əmin-amanlığın təmin edilməsi, iqtisadi potensialın artırılması Ali Baş Komandanın yaratdığı yeni reallıqlardan irəli gələn təhlükəsizlik amilinə çevriləcək.

Ulu Öndər bir dəfə demişdi: "Azərbaycan dünyaya Günəş kimi doğacaq". Doğrudan da, bu gün ölkəmiz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın timsalında dünyaya Günəş kimi parlayır. Nə qədər ki, Heydər Əliyevin böyük siyasi kursu Azərbaycanda uğurla davam edəcək, nə qədər ki, cənab İlham Əliyev Azərbaycanı yeni və daha iddialı hədəflərə qətiyyətlə aparacaq, xalqımız, dövlətimiz daha böyük qələbələr qazanacaq.

İstifadə edilmiş ədəbiyyat

1. Əlili İ., Şahinoğlu V. Zəfər yolu, Bakı, Ləman. 2021, 148 s.
2. Cəfərova E., Hüseynov V., Bağırov O. 44 günlük Qarabağ müharibəsi: Mülahizə və nəticələr, Bakı, 2021.
3. Məmmədova A. 8 Noyabr - Zəfər Günü. Bakı, 2021, 55 s.

AZAD QARABAĞDA TURİZM POTENSİALI

[1,2]**Ləman Əhməd qızı Qarayeva,** [1,3]**Tamilla Zahir qızı Rzayeva**
[1]Azərbaycan Dövlət Aqrar Universiteti
[2]qarayevvusal38@gmail.com
https://orcid.org/0009-0007-3180-2718
[3]tamilla.rzazade47@gmail.com
https://orcid.org/0000-0002-4638-6485

Qarabağ Azərbaycanın ən qədim tarixi bölgələrindən biridir. 1968-ci ildə Qarabağ ərazisində yerləşən Azıx mağarasında qədim insanın qalıqları tapılmışdır. Güman ki, bu ərazidə insanlar hələ 250-300 min il əvvəl yaşamışlar. Bu qədim torpaqların zəngin təbiəti və təbii sərvətləri həmişə diqqət mərkəzində olmuşdur. [3]

Təəssüf ki, 30 ilə yaxın işğal nəticəsində bu ərazilərdə bütün sərvətlərimiz istismar olunub, talanıb. Düşmən hər şeyi özününküləşdirərək iyrənc əməllərindən geri qalmamışdır. Burada olan mədəniyyət ocaqları, muzeylər, tarixi abidələr də məhv edilmiş, dağıdılmış və qədim tarixə malik olan qiymətli əşyalar ölkəmizdən çıxarılmışdır. İşğalçı rejim İkinci Qarabağ müharibəsinin son günlərinədək Qarabağın müxtəlif bölgələrində qanunsuz arxeoloji qazıntılar aparmış və tapılmış artefaktlar Ermənistana daşınmışdır. Tarixi-mədəni abidələrimiz talan edilmiş, bütün infrastruktur məhv edilmiş, qədim memarlıq abidəsi sayılan məscid və onun minarələri vəhşicəsinə uçurulmuş, ziyarətgahlar darmadağın edilmişdir. [3]

Bütün bu dağıntılara, maddi və mənəvi ziyana rəğmən dövlətimiz bir tərəfdən də barbarlığa məruz qalan dini, tarixi, mədəni abidələrimizin bərpası ilə məşğuldur. Qarabağın mədəniyyət beşiyi hesab edilən Şuşada başlayan mədəni quruculuq işləri digər bölgələrimizdə də davam etdiriləcək. Qısa bir müddət ərzində Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin

abidəsi yenidən qoyuldu, Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpasına başlanıldı, Bülbülün ev muzeyinin açılışı baş tutdu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən gülləbaran edilmiş dahi şəxsiyyətlərimizin – Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı, Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olundu. Bütün bu mədəni fəaliyyətin bərpasında Heydər Əliyev Fondunun rolu danılmazdır. [2] Qısa bir müddət ərzində Şuşada "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verildi. Qarabağda 3 hava limanının tikilməsi də təsadüfi deyildir. Füzuli Hava Limanı artıq fəaliyyətə başlamışdır, Zəngilan və Laçın Hava Limanlarının da yaxın vaxtlarda fəaliyyətə başlaması istisna olunmur. Bu isə Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən, Kəlbəcərin füsunkar təbiəti, ekoturizm imkanları, İstisu kurortuna üz tutan istər yerli, istərsə də xarici turistlərin bu hava limanlarından istifadə etməklə səyahətlərini daha rahat və asan gerçəkləşdirmələrinə imkan yaradacaqdır. [2]

Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri – ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır. Kəlbəcərdə ənənəvi turizmdən əlavə, qış və sağlamlıq turizminin inkişafı mümkündür. Mədəniyyət beşiyi hesab olunan Şuşada əsasən festivalların keçirilməsi, Ağdamda "dark", yəni işğalın nəticələrinin çılpaq şəkildə göstərilməsi və işgüzar turizm nəzərdə tutulub. Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Tuğ və Hadrutun şərab marşrutuna salınması daha uyğundur. Məşhur Azıx mağarası, Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur.

Azərbaycanın bu qədim tarixə malik olan bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə turistləri cəlb edəcək. Təbii ehtiyatlarla zəngin olan Qarabağda həm də müxtəlif növ ekstremal turizm, aqroturizm, yaşıl turizm təşkil etmək olar. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır. Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək. [2]

Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində Ümumittifaq əhəmiyyətli 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə olunur və istirahət edirdi. Buradakı "İstisu" mineral suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Hətta orada kurort və mineral sudoldurma zavodu da tikilmişdi. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür. [1]

Eyni zamanda "Qafqaz Albaniyası turizm marşrutu" da Qarabağın tarixini saxtalaşdıran erməni yalanlarının ifşası baxımından mühüm rol oynayacaq. Marşrut Qafqaz Albaniyasını araşdıran alimlərin məsləhət və tövsiyələri əsasında hazırlanır. Alban mədəniyyəti marşrutu Azərbaycanın 3 əsas dəhlizini – Bakı-Şəki-Zaqatala, Gəncə-Qazax və Qarabağı əhatə edir. Alban mədəniyyətinin izləri Qarabağda və Şərqi Zəngəzurda daha çoxdur. Burada Qafqaz Albaniyası ilə bağlı zəngin irs var. Bura məbədlər, kilsələr, həmçinin adət-ənənələr və s. daxildir. Qeyd edək ki, qədim Alban mədəniyyətinin izi ilə yaranacaq turizm marşrutu ölkəmizin, həmçinin Qarabağın zəngin və tarixi turizm potensialının tanıdılması istiqamətində xüsusi əhəmiyyət kəsb edəcək.

Qarabağın mövcud turizm potensialının tanıdılması üçün zəruri turizm infrastrukturunun yaradılması istiqamətində gərgin işlər davam edir. Xüsusi vurğulamaq lazımdır ki, turizmin iqtisadi tərəfi ilə yanaşı, tanıtım tərəfi də vardır. Turistlər həm Qarabağımızda dincələcək, təbiətin gözəlliyindən, mədəni-tarixi abidələrimizdən, yaradılmış əlverişli mühitdən zövq alacaq, həm də Ağdam, Cəbrayıl, Füzuli kimi ərazilərimizdə işğalın nəticələrini göstərmək üçün eksponat kimi nümayiş olunacaq bəzi tikililərlə də tanış olmaqla Qarabağın erməni barbarları tərəfindən hansı vəziyyətə salındığının, indi isə əsl sahibləri tərəfindən necə abadlaşdırıldığının əyani şahidi olacaqlar.

Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafı ilə bağlı planlar genişdir. Yaxın 4 ildə daxili və xarici turistləri nəzərə alaraq, Qarabağın 1 milyon insanı qəbul edəcəyi gözlənilir.

İstifadə edilmiş ədəbiyyat

1. Qurbanov H.S. Qarabağın azadlığı və zəfərə gedən yol: hüquqi-sosio-mədəni baxış. Bakı, 2022
2. Qarabağ: qələbəmizin kreativ tarixi. Bakı: Hədəfim Təhsil, 2022
3. Müdrik siyasət və Qarabağ zəfəri. Bakı: Hədəf Nəşrləri, 2021

QARABAĞ İQTİSADİ RAYONUNDA TURİZMİN TƏŞKİLİ PROSESİNƏ STRATEJİ YANAŞMA

Könül Mübariz qızı Vəliyeva
doktorant
Azərbaycan Dövlət İqtisad Universiteti
konul-valiyeva@unec.edu.az
https://orcid.org/0009-0001-2497-2985

Beynəlxalq təcrübəyə nəzər yetirdikdə görürük ki, turizm iqtisadi inkişafa böyük təsir göstərən güclü qüvvədir. Turizm nəticəsində ticarət balansı sabitləşir, dövlət büdcəsi formalaşır, təsərrüfatın bütün sahələri stimullaşır, iqtisadi və mədəni əlaqələr genişlənir, inteqrasiya prosesi sürətlənir. XXI əsrin iqtisadi fundamental əsasını turizm təşkil edir. Belə ki, turizm texnika və texnologiyanın inkişafı ilə əlaqədar olaraq insanlar arasında humanitar münasibətləri formalaşdırır.

Mövcud turizm resurslarının üzə çıxarılması, qiymətləndirilməsi və onlardan səmərəli istifadə olunması respublikamızda turizmin inkişafının strateji məqsədi olmalıdır. Ölkəmizin zəngin turizm resurslarına malik olması, milli turizm bazarının formalaşması və beynəlxalq turizm bazarında özünəməxsus yer tutması üçün geniş imkanlar yaradır.

"Turizm" sözü fransız sözü olub, mənası gəzinti, səyahət deməkdir. Turizm istirahətin fəal növü kimi çıxış edir [3, s.24]. Bazar iqtisadiyyatı şəraitində turizmə sahibkarlıq predmeti, menecment obyekti kimi baxılır. Turizm bazar münasibətləri əsasında formalaşır. Turizm təşkilati - iqtisadi və resurs potensialının kompleks istifadəsi yolu ilə idarəetmə sahəsi kimi diqqəti cəlb edir.

Turizmin iqtisadi əsasını ölkə iqtisadiyyatı və xarici kapitalın ölkəyə axını ilə infrastruktur obyektlərin tikilməsi üçün qoyulan investisiya təşkil edir. Azərbaycan Respublikasında turizmə qoyulan investisiya həcminin son on ildə daha çox artması və gündən-günə daxili investisiyanın xüsusi çəkisinin artması turizmin inkişafı üçün resurs potensialı yaradır. Turizm təşkilati-iqtisadi tədbirlərin sistem əlaqəsidir, azad rəqabət, açıq iqtisadi model olaraq, iştirak payına görə ayrı-ayrı sahələr və regionlar üzrə ixtisaslaşır.

Hazırda turizmin inkişafı ölkənin gələcək perspektiv imkanlarına böyük təsir göstərməkdədir. Elə buna görə də bazar münasibətləri sferasında turizmin düzgün şəkildə tənzimlənməsinə nail

olmaq ölkənin əsas məqsədlərindən biri hesab olunur. Turizm bazarının inkişaf etdirilməsində turizm obyektlərinin, iri şirkətlərin, restoranların, mehmanxanaların fəaliyyətinin məqsədəuyğun şəkildə qurulması, turizm sferasının nizamlanmasında turizm menecmentinin və marketinqinin təşkilinin böyük rolu vardır.

Turizm Azərbaycanın iqtisadi inkişafının prioritet istiqamətlərindən biridir. O, iqtisadi baxımdan daha çox gəlir gətirən sahələrdən biri kimi çıxış edir. Qeyri-neft sektorunun əsas xidmət sahələrindən biri olan turizmdə hər bir şəxsə turizm xidməti göstərilməsi, onun sağlamlığı, daxili tələbatının ödənilməsi və mədəni səviyyəsinin yüksəldilməsi təmin olunur.

Azərbaycan Respublikasında turizmin sürətli inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq, turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və həmçinin xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədi ilə 15 fevral 2011-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi haqqında Sərəncam imzalamışdır.

Turizm müalicə və asudə vaxtın keçirilməsi, ailəvi və yaxud işgüzar səfər məqsədləri üçün qısamüddətli səyahətdir. Turizmin sosial-iqtisadi mahiyyəti onun ölkənin iqtisadi potensialının formalaşması və dinamikasında rolu ilə izah olunur. Hər bir ölkənin sosial və iqtisadi potensialı onun ərazi strukturunu formalaşdırır [1, s.12].

Regionların inkişafı onun təbii resurslarından səmərəli bazar seqmentlərinə uyğun istehsal və istehlak məqsədi ilə istifadə edilməsindən asılıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 7 iyul 2021-ci ildə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalanmışdır. Ölkəmizin şəhər və rayonlarının tarazlı və davamlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, infrastruktur təminatı, investisiya və biznes mühiti yaxşılaşmış, əhalinin rifahı yüksəlmişdir.

Hazırda işğaldan azad edilmiş ərazilərin gələcək inkişafının təmin olunması və bərpası, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı yönündə genişmiqyaslı tədbirlər həyata keçirilir. Ərazilərin təbii sərvətlərindən və zəngin iqtisadi potensialından səmərəli istifadə etmək məqsədi ilə turizm imkanları genişləndirilir.

Qarabağ iqtisadi rayonu Azərbaycanın 14 iqtisadi rayonlarından biridir. Tərkibinə Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər inzibati rayonları və Xankəndi şəhəri daxildir. Qarabağ iqtisadi rayonunun iqtisadiyyatına təbii sərvətlər (hasilat), sənaye, turizm aid edilir.

BMT tərəfindən qəbul edilmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", eləcə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyası" və digər milli və beynəlxalq strateji sənədlərdən irəli gələn vəzifələrin icrasına töhfə verilməsi ideyasına turizmin davamlı iqtisadi inkişafda artan rolu xüsusilə aid edilir.

Qarabağ iqtisadi rayonunun iqlim şəraiti, mövcud geoloji mövqeyi və potensial resursları bir çox turizm sahələrinin prioritet imkanlarına yol açır. Bunlara aiddir: aqrar sektor, logistika, mədən sənayesi, enerji istehsalı, mineral sular, baramaçılıq, şərabçılıq, xalçaçılıq.

Qarabağ iqtisadi rayonunun dayanıqlı sosial-iqtisadi inkişafı və işğaldan azad olunmuş ərazilərin bərpası işlərinin icra edilməsi, investisiyaların səmərəliliyinin artırılması məqsədilə kommunal, yol-nəqliyyat infrastrukturu, meliorasiya və miqrasiya sisteminin çəkilməsi, alternativ və ənənəvi enerji istehsalı, iqtisadi aktivliyin təşviq edilməsi mühüm əhəmiyyət kəsb edir.

Erməni vandalizminin son nəticəsi kimi özünü göstərən işğaldan azad olunmuş ərazilərin yenidənqurma və bərpası işləri həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə 5 şəhər, 300-ə

yaxın kənd, 4 qəsəbə, yaşayış evləri və inzibati binalarla yanaşı, 800 mədəniyyət mərkəzi, 927 kitabxana, 85 musiqi və incəsənət məktəbi, 700 tarixi-mədəni abidə, ümumilikdə 100 000 artefaktın saxlandığı 22 muzey, 4 kinoteatr, 4 rəsm qalereyası, 2 konsert zalı məhv edilmişdir. Bütün bu işlərin müvəffəqiyyətlə yerinə yetirilməsi və bərpası üçün milyardlarla investisiyaların cəlb edilməsi məqsədi ilə Qarabağ Dirçəliş Fondu yaradılmışdır. Qurum Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma üçün layiqli və müasir həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, həmçinin təhlükəsiz yaşayışın, rifahın və səmərəli fəaliyyətin davamlı artmasının dəstəklənməsi üçün fəaliyyət göstərməkdədir. 4 yanvar 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı əsasında publik şəxs kimi yaradılmışdır [2, s.57].

Qeyd etmək lazımdır ki, 2021-ci il Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən davamlı inkişaf üçün "Beynəlxalq Yaradıcı İqtisadiyyat ili" elan olunmuşdur. Hazırda Prezidentin Ehtiyat Fondundan müvafiq vəsait ayrılmışdır.

Füzuli-Şuşa avtomobil yolu, Bərdə-Ağdam dəmiryolunun inşasına artıq başlanılmışdır. İşğaldan azad edilmiş ərazilərin sənaye potensialını nəzərə alsaq, Füzulidə artıq beynəlxalq hava limanının inşasına başlanılmışdır. İşğaldan azad olunmuş ərazilərdə kəndlər "Ağıllı kənd" konsepsiyası əsasında qurulacaq. "Ağıllı kənd" birinci pilot layihə kimi icra ediləcək. Əkin sahələri və onlara gedən yollar təmizlənməlidir.

Azad edilmiş torpaqlar gələcəkdə "Yaşıl enerji" zonası olacaqdır. Bu əraziləri dayanıqlı, uzunmüddətli, ekoloji cəhətdən təmiz və ucuz enerji növləri ilə təmin etmək əsas məqsədi təşkil edir. Füzuli, Şuşa, Ağdam rayonlarında ümumilikdə 308 kilometr elektrik xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovotluq şəbəkənin yaradılacağı nəzərdə tutulmuşdur. Bununla belə, "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının inşası da planlaşdırılır. Bu torpaqlarda aqrar sahənin inkişafı ilə əlaqədar olaraq zəruri tədbirlər həyata keçirilir. Belə ki, çoxillik əkin sahələrinə aqrotexniki qulluq göstərilməsi məqsədi ilə bir sıra işlər görülmüşdür. Azad olunmuş ərazilərdə Kənd Təsərrüfatı Nazirliyi, "Azərkosmos" ASC faktiki əkinaltı torpaqların peyk təsvirləri əsasında xəritələşdirməsini yerinə yetirmişlər. Fermerlərə minlərlə texnika və maşınlar verilmiş, minlərlə baş damazlıq heyvanların satışı maliyyəşləşdirilmişdir. 2021-2022-ci illər ərzində fermerlərə mikro kreditlər verilmişdir [4, s.112]. Prezident İlham Əliyev tərəfindən 2021-ci il 2 fevral tarixində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Sərəncamı imzalanmışdır. Sərəncamda qeyd edilmişdir ki, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 Milli Prioritet reallaşdırılmalıdır. Bunlara aiddir:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Beləliklə, ölkədə iqtisadi üstünlüyə nail olmaq üçün azad edilmiş ərazilərin mövcud iqtisadi potensialı dəyərləndirilməlidir.

Qarabağ iqtisadi rayonunda turizmin təşkili prosesinə strateji yanaşma aşağıdakı kimidir:

- turizm bazarının formalaşma mənbələri və onun sosial-iqtisadi əhəmiyyətinin genişləndirilməsi;
- turizm bazarının təkmilləşdirilməsi, işğaldan azad edilmiş ərazilərdə turizm bazarının seqmentləşməsi;
- işğaldan azad edilmiş ərazilərdə turizmin sosial-iqtisadi nəticələrinin qiymətləndirilməsi.

İstifadə edilmiş ədəbiyyat

1. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Mütərcim, 2006, 280 s.

2. Bilalov B.Ə. Turizmin menecmenti, Bakı: Mütərcim, 2005, 372 s.
3. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010. 326 s.
4. Məmmədov E.Q. Turizm bazarı respublikanın sosial-iqtisadi inkişaf amili kimi // AMEA-nın Xəbərləri, Humanitar və ictimai elmlər seriyası, İqtisadiyyat № l", Bakı, 2007, s.l11-117
5. Салманов А.А., Рзаева С.А. Развитие международного туризма Азербайджана в начале XXI века /В ученых записках Азербайджанского Университета Языков. 2007, № 5, с.266-271

ORGANIZATION AND RECONSTRUCTION OF THE TRANSPORT SERVICE IN THE TERRITORIES FREED FROM OCCUPATION

Javid Abdullayev
doctoral student
Institute of Economics of the MSE
javidnarimansoy@gmail.com
https://orcid.org/0009-0006-9362-0170

Thanks to the Azerbaijan Army led by Supreme Commander-in-Chief Muzaffar, territorial integrity was restored and the foundation for the Great Return to our historical lands was laid under the leadership of President Ilham Aliyev, which is regarded as one of the most significant periods in the country's history. Prioritised by the state are restoration and reconstruction efforts, the construction of necessary infrastructure, and the establishment of living and business conditions for citizens who wish to return to their native lands after they have been liberated from occupation [5].

For the successful organisation of restoration and reconstruction in liberated areas, the state's current and prospective resources must be utilised actively. This requires the evaluation of international assistance, investments, and economic support. The state should devise programmes for the reconstruction of the infrastructure of the territories, the repair of highways and bridges, the development of education and health infrastructure, and the implementation of projects in a variety of other fields.

Making sure that Azerbaijani individuals may return safely to their home country as soon as feasible is one of the most crucial responsibilities to be completed. In order to do this, routine inspections to the locations are planned in conjunction with the State Road Transport Service and the Ministry of Digital Development and Transport. These trips are planned to make sure that locals may visit the areas that have been freed from occupation in a secure and comfortable manner. The ability to visit their home country and do business is made possible by this service for the citizens. This well-organized, secure, and economical transport service significantly contributes to the promotion of socioeconomic growth and the enhancement of public welfare [5].

Reconstructing the transport infrastructure in the liberated districts of Shusha, Fuzuli, Jabrayil, Zangilan, Gubadli, Aghdam, Kalbajar, and Lachin, as well as meeting the demand for freight and passenger transport in these districts, is one of the state's highest priorities. This contributes to the restoration of all road transport services and the socioeconomic growth of the region [4].

Obviously, the construction of a superior road network is essential for the provision of high-quality transport services. Because of this, the first reconstruction and construction projects in the liberated areas began with the transportation infrastructure. Currently, construction of highways is ongoing in the following directions in order to organise the transit service:

Table 1

Roads built in Karabakh and East Zangezur

(**Source:** the table was prepared by the author based on data retrieved from "AAYDA, 2022")

Road	Length
Ahmedbeyli – Fuzuli – Shusha highway	81,6 km
Toganali – Kalbajar – Istisu highway	80,7 km
Kalbajar - Lachin highway	72,3 km
Construction of road infrastructure in Kalbajar and Lachin regions	726,3 km
Horadiz - Jabrayil - Zangilan - Agband highway	123,8 km
Khudafarin – Gubadli - Lachin highway	70,4 km
Gubadli - Eyvazli highway	26 km
Shukurbeyli - Jabrayil - Hadrut car	43 km
Fuzuli – Hadrut highway	13 km
Hadrut-Tugh-Azikh highway	22 km
Barda-Aghdam highway	45 km
Talish – Tapgaragoyunlu – Gashalyti – Naftalan highway	22 km

The presidents of Azerbaijan and Turkey lay the foundation for the Horadiz-Jabrayil-Zengilan-Aghband motorway, which spans a distance of around 123.8 km and is a significant step towards the opening of the Zangezur corridor. The implementation of this project seeks to enable socioeconomic growth in the area and rebuild the transport infrastructure in the areas liberated from occupation. This road has had 27 bridges erected on it, 12 of which have already been finished, and 73 % of its construction is complete. These bridges play a significant part in fortifying the links in the area by enabling the road to be used more effectively and safely.

Additionally, the project's initial phase, which included nine stations on the Horadiz-Aghband railway for the transit of passengers and goods, is now complete. The fact that 90 % of this phase has been successfully finished shows how close the railway is to becoming operational. The region's transport options will be significantly improved as a result of this railway, and people' friends, family, and commodities will be transported more quickly and efficiently. All of these building projects are crucial milestones in assuring the socioeconomic growth of the area. One of the crucial milestones towards reestablishing Azerbaijan's territorial integrity was the opening of the Zangezur corridor and the completion of these transport projects. These initiatives significantly improve living conditions for locals, promote business and trade ties and socioeconomic growth, and pave the way for the eventual implementation of an ideal transit service network [3].

When discussing the organisation of transport services, the airports constructed in the liberated areas must also be mentioned. The construction of contemporary airports that conform to international standards is one of the most important projects in the liberated territories of Azerbaijan. Rehabilitation and development of the liberated territories place a high priority on airport construction projects. The construction of these terminals is a crucial stage in enhancing the region's economic and tourism potential. By providing passenger and cargo conveyance, airports that are modern and functional increase the region's independence and efficiency. In addition, the

development and construction of airports enables the region to become a better-connected centre for international trade and humanitarian aid. The following are the airports currently under construction in Karabakh and East Zangezur:

Fuzuli International Airport

The Fuzuli region serves as the principal entrance to Karabakh. It is also connected by road to our nation's pearl, Shusha. The presence of an airport in such a region is crucial. Presidents Ilham Aliyev of Azerbaijan and Recep Tayyip Erdogan of Turkey attended the inauguration ceremony of the Fuzuli International Airport, which was inaugurated in October 2021. It is important to note that the Turkish president flew directly to the Fuzuli airport for the opening ceremony. This airport can accommodate 200 passengers per hour.

Zangilan International Airport

Exactly 1 year after Fuzuli airport - in October 2022, Zangilan airport was put into operation. The opening of this airport took place with the participation of the presidents of the sister states of Azerbaijan and Turkey.

Lachin International Airport

The construction of Lachin International Airport is occurring in a mountainous region. The terminal's area is 5,000 square metres in accordance with international standards. This airport can accommodate 200 passengers per hour. 30 kilometres separate the aerodrome from the community of Lachin. The distance from the airport to Shusha is 70 kilometres, while that to Kalbajar is 60 kilometres. The Lachin International Airport is one of the most crucial components of the road and transport strategy in the liberated regions.

Conclusion

Therefore, we can say that a well-planned conveyance service will expedite the reintegration of liberated areas into other regions of the country. In addition, well-planned transportation infrastructure will make the region a passenger and freight transportation centre.

References

1. Azad edilmiş ərazilərdə inşa edilən beynəlxalq hava limanları. https://fed.az/az/neqliyyat/azad-edilmis-erazilerdeinsa-edilen-beynelxalq-hava-limanlari-siyahi-136907 [accessed Nov 26 2023].

2. Xalid Kərimli (2023). Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir. https://apa.az/az/apa-tv/xeber/xeberler/qarabag-ve-serqi-zengezur-cennete-cevrilir-qisa-vaxtda-bu-qeder-isin-gorulmesi-inanilmazdir-78518 [accessed Nov 26 2023].

3. İlham Əliyev Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olub. https://president.az/az/articles/view/56541 [accessed Nov 26 2023].

4. İşğaldan azad edilmiş ərazilərə müntəzəm avtobus marşrutlarının açılması ilə bağlı brifinq, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (2022). https://mincom.gov.az/az/view/news/1402/isgaldan-azad-edilmis-erazilere-avtobus-marsrutlari-acilir [accessed Nov 26 2023].

5. İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat infrastrukturu ilə bağlı rəsmi açıqlama, DANX (2020). https://konkret.az/isgaldan-azad-edilmis-erazilerde-neqliyyat-infrastrukturu-ile-bagli-resmi-aciqlama/ [accessed Nov 26 2023].

6. Qarabağ və Şərqi Zəngəzurda bu yollar tikilir, AAYDA (2022). https://fed.az/az/neqliyyat/qarabag-ve-serqi-zengezur-iqtisadi-rayonlarinda-icra-olunan-yol-layiheleri-siyahi-123168 [accessed Nov 26 2023].

POSTKONFLİKT DÖVRDƏ İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞ

Rəşad Əbülfət oğlu Bayramov
doktorant
ETN İqtisadiyyat İnstitutu
rashad.bayramsoy@mail.ru
https://orcid.org/0009-0002-5773-7954

Qədim və zəngin tarixə, mədəniyyətə, faydalı qazıntılara, özünəməxsus iqlim və təbiətə məxsus olan Azərbaycan tarixin hansı mərhələsində olmasından asılı olmayaraq, hər zaman diqqət mərkəzində olub. Azacıq tarixə nəzər salsaq, görərik ki, istər qədim və orta dövrlərdə, istərsə də yeni və ən yeni dövrlərdə torpaqlarımız daim digər dövlətlər tərəfindən maraqla qarşılanıb və zaman-zaman hücumlara məruz qalıb. Dünya tarixinin ən qanlı savaşlarından olan II Dünya müharibəsinin gedişatında Bakının əsas hücum hədəflərindən biri olması təsadüfi deyil.

Bundan savayı Azərbaycan həmçinin qonşuluqda olan digər dövlətlərin də hər daim marağında olmuşdur. Sözsüz ki, xüsusilə də düşmən ermənilər hər vəhclə Azərbaycana qarşı ərazi iddiaları ilə yüzillərdir ki, çıxışlar edib və bir çox dəfə müxtəlif formalarda qətliamlar törədib, işğalçılıq fəaliyyətini nümayiş etdirib. Ötən əsrin sonlarında isə düşmənin Azərbaycana qarşı ərazi iddiaları daha da çoxalıb və 90-cı illər Azərbaycan tarixində unudulmaz bir dövrə çevrilib.

Əsası 80-ci illərin ikinci yarısından başlayan erməni riyakarlığı və etnik təmizləmə siyasəti, 1992-1993-cü illərdə ən pik həddinə çatdı və nəticədə 1-ci Qarabağ müharibəsi ilə nəticələndi. 1991-ci ildə yenicə müstəqillik əldə etmiş, lakin həmin zamanlarda siyasi hərc-mərcliyin mərkəzinə çevrilən Azərbaycanın vəziyyətindən istifadə edən Ermənistan və havadarları 1992-1993-cü illərdə ümumilikdə Azərbaycan ərazisinin iyirmi faizini əhatə edən Qarabağ və ətraf bölgələri işğal etdi. Nəticədə Kəlbəcər, Laçın, Şuşa, Xankəndi, Xocavənd, Xocalı, Ağdam, Ağdərə, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan kimi mühüm əhəmiyyətli şəhər, rayonlarımız, o cümlədən onların tabeliyində olan kənd və qəsəbələrimiz, bir sıra strateji yüksəkliklər düşmənin nəzarətinə keçdi.

İşğal nəticəsində 1 milyondan artıq vətəndaşımız öz torpaqlarında didərgin düşərək ölkəmizin müxtəlif yerlərində məcburi köçkün yaşamağa məcbur olub, müharibə gedişində 10 mindən çox insan həlak olub, 50 min insan yaralanıb, 5 mindən çox vətəndaşımız itkin düşüb və bir çoxundan bugünə qədər hələ də məlumat yoxdur.

Bundan savayı, işğal olunmuş ərazilərdə olan evlər, məktəblər, mədəniyyət abidələri, məscidlər, müxtəlif məqsədli istifadə olunan müəssisələrin, demək olar ki, hamısı dağıdılmış, yandırılmış və talan edilmişdir. O cümlədən, zəngin və özünəməxsus təbiətə malik həmin ərazilər 30 il ərzində ekoloji terrora məruz qalmış, meşə və bitki örtüyü məhv edilmiş, əkinə yararlı olan torpaqlar yarasızlaşdırılmış, ərazilərdə yerləşən çaylar, göllər, su anbarları çirkləndirilərək yararsız vəziyyətə salınmşdır.

Bunun nəticəsidir ki, aparılan ilkin və tam dəqiqləşdirilməmiş məlumatlara əsasən, işğal nəticəsində 500 milyarddan çox ziyan dəyib, lakin qeyri-rəsmi olaraq həmin rəqəmlərin qat-qat çox olduğunu söyləyə bilərik.

2020-ci il 27 sentyabr tarixində erməni tərəfinin növbəti təxribatlarına qarşı başlanan və 44 gün ərzində davam edən genişmiqyaslı əkshücumlar Azərbaycan tarixinin şanlı səhifələrinə yazılacaq parlaq qələbə ilə yekunlaşdı.

44 gün ərzində Ali Baş Komandanın rəhbərliyində Azərbaycan ordusu 30 ilə yaxın işğal altında olan torpaqlarımızı işağldan azad etdi. Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Şuşa şəhərləri və tabeliyində olan yüzlərlə kənd, həmçinin Xocalı, Xocavənd və Laçının bir sıra kəndləri bu müddət ərzində işğaldan azad olundu. 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, 2020-ci ilin sonuna kimi Laçın, Kəlbəcər və Ağdam şəhərləri də tamamilə düşməndən təmizləndi.

2023-cü ilin sentyabr ayında aparılan antiterror əməliyyatları nəticəsində Xankəndi, Xocalı, Xocavənd və Ağdərə də tamamilə azad edildi və Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olundu.

Sözsüz ki, müharibədən sonra işğldan azad olunmuş ərazilərdə başlıca vəzifələrdən biri işğal zamanı viran edilmiş torpaqlarımızda həyatın yenidən canlanması və sabiq məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışını ən qısa zamanda təmin etməkdir.

Prezident İlham Əliyevin rəhbərliyində dövlətimiz böyük qayıdış prosesinə müharibənin başa çatmasından dərhal sonra başladı. Prezident həmin ərazilərdə mövcud vəziyyətlə yerindən tanış olaraq müvafiq göstərişləri yerindəcə verir.

Təsadüfi deyil ki, müharibədən çox uzun müddət keçməməsinə baxmayaraq, artıq bir neçə ərazilərimizdə yaşayış bərpa olunub. 2022-ci ildə Zəngilan rayonunun Ağalı kəndinə 29 ildən sonra ilk sakinlər doğma yurdlarına qayıtdı. Bununla yanaşı 2023-cü il ərzində Laçın şəhəri və Zabux, Talış kəndləri, eləcə də Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı təşkil edilib və bu proses hazırda da davam etməkdədir. Qeyd edək ki, hazırda Cəbrayıl, Ağdam və digər şəhərlər, kəndlərində böyük qayıdış istiqamətində fəaliyyətlər görülür və qarşıdakı illər ərzində həmin rayonlardan olan sakinlər də öz doğma yurdlarına qayıdacaqlar.

Məlumat üçün bildirək ki, böyük qayıdış prosesi özündə bir neçə mərhələni əhatə edir və işğaldan azad olunmuş ərazilərdə məskunlaşma mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulub. İlkin mərhələdə 2026-cı ilədək 66 min məcburi köçkün öz torpaqlarına qayıdacaq və orada həmin şəxslər üçün lazımi şərait yaradılacaqdır.

Əlbəttə ki, işğal zamanı 1 milyondan çox məcburi köçkün ölkəmizin müxtəlif bölgələrində illərlə çətin şəraitdə yaşamağa məcbur olub və təbii ki, onların öz torpaqlarına qayıtmaq istəkləri də normaldır. Təsadüfi deyil ki, müharibədən sonra aparılan araşdırmalar və sorğular bir daha sübut edir ki, məcburi köçkünlərin mütləq əksəriyyəti öz yurdlarında yaşamağa üstünlük verirlər. Bu səbəbdən də dövlətimiz müharibə başa çatdıqdan sonra qeyd olunan istiqamətlərdə sürətli şəkildə müvafiq işlər görür, hər il dövlət büdcəsindən məhz böyük qayıdış prosesi çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası istiqamətində milyardlarla manat vəsait ayrılır.

30 il işğal nəticəsində düşmən tərəfindən tamamilə dağıdılmış, məhv edilmiş şəhər, rayon, kənd və qəsəbələrimizin bir neçə ilə tamamilə bərpası mümkünsüzdür. Burada təkcə təmir-bərpa üçün maliyyə yetərli deyil, çünki düşmən işğal dönəmində və müharibənin gedişində həmin əraziləri demək olar ki, bir çox hissələrdə minalayaraq həm müdafiəni təşkil etməyə çalışıb, həm də vətəndaşlarımızın qayıdışına mane olub. Bundan savayı, işğaldan azad olunmuş ərazilərimizdə vaxtı ilə fəaliyyət göstərən turizm məkanları, mədəniyyət abidələri, mehmanxanalar, zavod və digər müəssisələrin talan edilməsi və dağıdılması nəticəsində həmin ərazilərdə insanların məşğulluğunun təmin edilməsi üçün heç bir şərait qalmayıb. Odur ki, qeyd etdiyimiz və etmədiyimiz digər faktorlar bugün məcburi köçkünlərin qayıdışı prosesini müəyyən qədərn ləngidir.

Dövlətimiz isə böyük qayıdış prosesini xüsusi həssaslıq və birgə əməkdaşlıq şəkildə həyata keçirməyə davam edir. Unutmayaq ki, qayıdış prosesi heç də asan və qısa müddət dövrü əhatə etmir. Qayıdış yalnızca insanları həmin ərazilərə köçürməklə bitmir. Dayanıqla məskunlaşma üçün əhalinin köçürüldüyü ərazilərdə təhlükəsiz səviyyədə məskunlaşma ilə yanaşı, onların müəyyən fəaliyyətlə məşğul olması, rahatlıqla yararlana biləcək ərzaq, səhiyyə, nəqliyyat, təhsil və digər ehtiyaclarını təmin etmək üçün müvafiq şərait yaradılmalıdır.

İndiyə kimi işğaldan azad olunmuş Zəngilan rayonu Ağalı kəndi, eləcə də, Füzuli və Laçın şəhərləri, Zabux və Talış kəndlərinə köçürülən əhalinin timsalında yuxarıda qeyd olunan dayanıqlı məskunlaşma modeli yaradılıb və həmin ərazilərdə yaşayan sakinlər üçün demək olar ki, hər bir ehtiyaclarını ödəyə biləcəkləri şərait qurulub. O cümlədən, qeyd olunan ərazilərə köçən vətəndaşların böyük hissəsi müvafiq ərazilərdə işlə təmin olunub.

Qeyd etməliyik ki, işğaldan azad olunmuş ərazilər həmçinin mühüm nəqliyyat qovşağı üzərində yerləşir və müəyyən müddətdən sonra Qarabağ və Şərqi Zəngəzur əraziləri regionda əsas

nəqliyyat mərkəzlərindən birinə çevriləcəkdir. Təsadüfi deyil ki, müharibədən dərhal sonra əsas məsələlərdən biri də əhəmiyyətli avtomobil və dəmir yollarında bərpa işlərinə başlanması oldu və bu proses hazırda da sürətli şəkildə davam etdirilir.

Bununla yanaşı gələcəkdə yerli və əcnəbi turistlərin işğaldan azad olunmuş ərazilərə daha rahat və qısa zamanda səfərlərinin təşkili, həmçinin yükdaşınmalarda istifadə məqsədilə Zəngilan Beynəlxalq Hava Limanı və Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib, Laçın Beynəlxalq Hava Limanı isə növbəti illərdə istifadəyə veriləcək.

Digər əsas məsələlərdən biri də, işğaldan azad olunmuş ərazilərdə əhalinin məşğuıiyyətini təmin edəcək və ölkə iqtisadiyyatının güclənməsinə şərait yaradacaq sənaye müəssisələrinin tikilməsidir. Bu məsələni də dövlət xüsusi diqqətdə saxlayır və müvafiq işlər görülməkdədir. İşğaldan azad olunmuş ərazilərin iqtisadi perspektivlərinin yüksək olması və əlverişli mövqedə yerləşməsi nəticəsində artıq həmin ərazilərdə bir sıra sənaye müəssisələrinin əsası qoyulub, bir neçə xarici ölkələrlə birgə bu istiqamətdə fəaliyyət davam etdirilir. Xüsusilə burada hər zaman Azərbaycana dəstəyini əsirgəməyən Türkiyə şirkətlərinin üstünlüyünü qeyd etməliyik.

Bundan savayı dövlətimiz işğaldan azad olnumuş ərazilərdə fəaliyyət göstərmək istəyən sahibkarlıq subyektləri üçün müəyyən proqramlar hazırlayıb və bununla həm yerli, həm də əcnəbi sahibkarlar üçün müəyyən güzəştlər nəzərdə tutulmaqdadır.

Məhz yuxarıda qeyd etdiyimiz məqamlar bir daha Azərbaycanın böyük qayıdış prosesinə nə qədər həssas və ciddi şəkildə yanaşdığını, dayanıqlı məskunlaşma istiqamətində qarşılıqlı əməkdaşlıq və məqsədli planlama formasında fəaliyyətini əks etdirir. Əminik ki, mərhələli şəkildə və ən qısa zamanda vətəndaşlarımız böyük qayıdış prosesi çərçivəsində işğaldan azad olunmuş ərazilərimizə geri dönəcəklər.

İstifadə edilmiş ədəbiyyat

1. Humanitar Tədqiqatlar Cəmiyyəti. Qarabağ müzakirə olunur. Bakı, 2006, 324 səh
2. Nedim Kaya. Qarabağ: Suallar və faktlar. Bakı, "Qismət", 2005, 156 səh
3. Akif Nağı. Qarabağ müharibəsi: qısa tarix. Bakı, "Anar Ağalarov", 2014, 121 səh
4. https://az.wikipedia.org/wiki/Birinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99si
5. https://xalqqazeti.az/az/sosial-heyat/145591-qarabaga-donen-kockunlerin-70-faizi-isleyir
6. https://teleqraf.com/news/qarabagh/352432.html
7. https://www.bizimyol.info/az/news/57256.html

QARABAĞIN GİZLİ SƏRVƏTİ: TURİZM POTENSİALI VƏ TƏBİİ EHTİYATLARI

Təhminə Habil qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
tahmina.mammadova@mdu.edu.az
https://orcid.org/0009-0006-7588-9512

Hələ XX əsrin 90-cı illərində mənfur qonşularımız – ermənilər tərəfindən Azərbaycanın incisi sayılan Qarabağ işğal olundu. İşğal dövründə həmin ərazilər əsl erməni vandallığının mərkəzinə çevrilmişdi. Belə ki, orada yerləşən tarixi və mədəni abidələrimiz, təhsil ocaqlarımız, azərbaycanlılara məxsus qəbiristanlıqlar dağıdılmış, təbii sərvətləri talan edilmiş və ən əsası zəngin turizm potensialına malik olan meşələr məhv edilmiş, çaylar isə çirkləndirilmişdir. İllər boyu Azərbaycan həmin ərazilərin xalqımıza mənsub olduğunu beynəlxalq aləmdə dəfələrlə vurğulamış, beynəlxalq hüququn normalarının və qəbul edilən qətnamələrin yerinə yetirilməsi üçün çağırışlar etmişdir. Bütün bunlara baxmayaraq, nə yaradılan təşkilatlar BMT tərəfindən qəbul olunan

qətnamələri yerinə yetirmiş, nə də Ermənistan beynəlxalq hüququn normalarına uyğun davranmışdır.

30 ilə yaxın işğal dövründə Azərbaycan bir dəfə də olsun, ərazi bütövlüyünün bərqərar olması fikrindən vaz keçməmişdir. Həmin illər ərzində düşmən tərəfinin təxribatlarına daim vaxtında və qəti cavablar vermişdir. Azərbaycan və Ermənistan arasında razılığa gəlinən atəşkəs vandal qonşularımız tərəfindən 2020-ci ilin sentyabr ayında növbəti dəfə pozuldu. 27 sentyabr tarixində planlaşdırılan təxribata bu dəfə Azərbaycanın cavabı əvvəlkilərdən fərqli olmuş və əks-hücum əməliyyatı başladılmışdır. Bu əks-hücum əməliyyatı Vətən müharibəsinin başlanğıcı idi və ali baş komandanın göstərişi, xalqımızın dəstəyi və ordumuzun əzmi ilə cəmi 44 gün ərzində 30 ilə yaxın işğala son qoyuldu və Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi.

Azərbaycan yenə də öz humanizmini göstərərək işğalın ilk günlərində xalqımıza qarşı törədilən vandalizmin tam əksini nümayiş etdirdi. 10 noyabr tarixində imzalanan üçtərəfli bəyanata əsasən ermənilərin azad olunan ərazilərimizi tərk etmələri üçün əlavə vaxt verildi. Amma hər zamankı kimi ermənilər bu rəftardan sui-istifadə edərək, Qarabağda öz terror qruplaşmalarını möhkəmləndirmək niyyətinə gəlmişdilər. Və bu niyyət də uzun çəkmədi ki, Azərbaycan 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirdiyi "antiterror əməliyyatı" nəticəsində ermənilərin növbəti dəfə diz çökməsini təmin etdi və bununla da ermənilərin böyük arzusu olan ərazi iddialarına birdəfəlik son qoyuldu [8].

Təbii ki, həmin ərazilərdə törədilən vəhşiliklər nəticəsində həm yaşayış məntəqələri, həm mədəni və tarixi abidələrimiz, həm də Qarabağın təbiəti demək olar ki, məhv edilmişdi. Amma qürurverici haldır ki, çox qısa zaman ərzində Azərbaycan azad olunan ərazilərdə yenidənqurma və bərpa işlərinə başlamış və hətta yekunlaşan ərazilərdə keçmiş məcburi köçkünlərin öz dədə-baba torpaqlarında yerləşdirilməsinə başlanmışdır. Danılmaz faktdır ki, Azərbaycan yaşayış məntəqələri ilə yanaşı Qarabağın təbiətinin və eləcə də tarixi abidələrinin bərpasını təmin edəcəkdir.

Elə bu istiqamətdə atılan ilk addımlardan biri də Azərbaycanın iqtisadi rayon bölgülərinə dəyişiklik edilərək, azad olunmuş əraziləri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə yenidən qruplaşdırılmasıdır. Təbii ki, buradakı əsas məqsədlərdən biri də iqtisadi rayonlar üzrə sürətli inkişafı təmin etməkdir.

Yenidənqurmanın ilk mərhələsində ermənilər tərəfindən talan edilmiş Qarabğın təbii sərvətlərinə sahib çıxmaq və onların düzgün istifadəsini təmin etmək qarşıda duran əsas məqsədlərdən idi.

Qarabağ və Şərqi Zəngəzur bölgələri, Azərbaycanın təbii yeraltı sərvətləri ilə zəngin olan ərazilərdən biridir. Əsasən bu ərazilərdə təbii sərvət kimi mineral sular, mineral resurslar (faydalı qazıntılar), əkinə yararlı torpaqlar və yüksək enerji potensialı mövcuddur.

Mineral su ehtiyatları çeşidliliyi və təmizliyi ilə tanınan Qarabağ və Şərqi Zəngəzur ərazilərindən hasil olunan mineral sular hələ işğaldan əvvəlki dövrdə belə ölkə ərazisində və eləcə də beynəlxalq sferada öz sözünü demişdir. Bu ərazilərdən gələn mineral su müalicəvi xüsusiyyətləri və təbii təmizliyi ilə diqqət çəkir. Bu su mənbələri sadəcə içməli su üçün deyil, həm də tibbi məqsədlər üçün istifadə olunan mineral baxımdan zəngin suları da təmin edir. Təbii su qaynaqları turistlərin marağına səbəb olur və regional iqtisadiyyatın inkişafına böyük töhfə verir. Eyni zamanda ərazidə bolsulu çayların mövcudluğu bu əraziləri əkinçilik üçün potensial sahələrə çevirir. İşğal dövründə ermənilər tərəfindən bu çaylar çirkləndirilsə də, işğaldan sonra həmin məqam da diqqət mərkəzindədir. Eyni zamanda ərazi heyvandarlıq üçün də potensialdır. Ümumiyyətlə, yenidənqurma işlərindən sonra azad olunan ərazilərin Azərbaycanın kənd təsərrüfatı sahəsinə də öz töhfəsini verəcəyi gözlənilir [3, s.27-33].

Azad olunan ərazilərimiz eyni zamanda strateji əhəmiyyətə malik olan faydalı qazıntılara da ev sahibliyi edir. Belə ki, Qarabağ və Şərqi Zəngəzurda dəmir, molibden, civə, qıza və s. kimi bir sıra qiymətli metal və mineral ehtiyatlar mövcuddur. Bu təbii sərvətlərinin istifadəsi ilə ölkənin

sürətli iqtisadi inkişafını təmin etmək istiqamətində böyük strateji əhəmiyyətə malikdir. Bu ərazilərin faydalı qazıntıları regionin iqtisadi və enerji təhlükəsizliyini təmin edir.

Enerji potensialı baxımından azad olunan ərazilərimiz Azərbaycanın ən zəngin regionlarındandır. Qarabağ hidroelektrik energetika potensialı baxımından olduqca zəngindir. Belə ki, bölgədə yerləşən iri çay və göllər, hidroelektrik stansiyaların qurulmasına imkan yaradır. Hidroelektrik energetika təmiz və çevrilməmiş energetika sahəsi olduğundan, Qarabağın energetika inkişafında strateji bir rola malikdir. Bu enerji potensialı Azərbaycanın həmin ərazilər üçün enerji təminatını daxili istehsal əsasında təmin etməsinə və enerji təhlükəsizliyinə əsas verir. Energetika sektorundakı bu zənginlik, ölkənin iqtisadi inkişafına zəmin yaradır və sürətli bir şəkildə energetika infrastrukturunu inkişaf etdirməyə əsas verir.

Belə ki, həmin ərazilərdəki yüksək enerji potensialı sayəsində Zəngəzur dəhlizinin açılacağı təqdirdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının enerji ilə təmin olunması istiqamətində İran İslam Respublikasından olan asılılığına da son qoyulacaqdır. Eyni zamanda Zəngəzur dəhlizinin açılışı regionda nəqliyyat infrastrukturuna da öz töhfəsini verəcəyi gözlənilir. Belə ki, tarixi ipək yolunun bərpası Azərbaycanı tranzit ölkə olaraq nəqliyyat xərclərindən gəlir əldə etməsini təmin edəcək.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın əkinçilik potensialı baxımından zəngin ərazilərindən hesab olunur. Burada həm torpaqların minerallığı, həm də suvarma üçün bolsulu çayların mövcudluğu buna zəmin yaradır. Bu bölgələr geniş və münbit torpaq sahələri ilə tanınır və müxtəlif bitki növləri üçün əsasən də, dənli bitkilərin yetişdirilməsi üçün əlverişlidir [6].

Şərqi Zəngəzur əsasən çay, tütün, buğda və digər dənli bitkilər üçün əhəmiyyətli münbit torpaqlara malikdir. Eyni zamanda Şərqi Zəngəzurda baramaçılıq və heyvandarlıq üçün də xüsusi şərait mövcuddur. Bu sahələrin inkişafı üçün təbii ki, böyük qayıdışdan sonra əsaslı işlər görüləcəkdir.

Qarabağ isə işğaldan əvvəl daha çox şərabçılıq üzrə ixtisaslaşmış ərazi olduğundan burada müxtəlif üzüm növlərin yetişdirilməsi üçün olduqca əlverişli və münbit torpaqlar mövcuddur. Həmçinin bu sahədə mövcud olan potensial nəinki ölkədaxili tələbatı ödəmək üçün, hətta xaricə ixrac üçün də kifayət edəcəyi planlaşdırılır. Qarabağ heyvandarlıq sahəsində də böyük potensiala malikdir. Belə ki, burada iri və xırda baş mal-qaranın saxlanılması və bu sahənin inkişafı üçün olduqca əlverişlidir. Tarixən beynəlxalq aləmdə xüsusi olaraq tanınan Qarabağ atlarının da azad olunduqdan sonra yenidən artırılması və bu sahənin inkişafı diqqət mərkəzindədir.

Qarabağ zəngin tarixi, təbii gözəllikləri və müasir mədəniyyəti ilə turizm sektorunda dünya üzrə əsl bir incidir. Qarabağ və Şərqi Zəngəzur zəngin təbii sərvətləri və möhkəm tarixi ilə tanınan bir regiondur. Bu ərazi, gözəl dağ və şəlalələri, şirin gölləri və təbiət parkları ilə baxılmış bir turizm potensialına sahibdir.

Qarabağın tarixi abidələri də turistlər üçün böyük marağa səbəbdir. Bir çox ənənəvi abidələr və tarixi qalalar, regionun zəngin tarixi və mədəni irsini əks etdirir. Turistlər, bu abidələri ziyarət edərək Qarabağın tarixi haqqında ətraflı məlumat əldə edə, unikal arxeoloji tapıntıları görmək imkanına asanlıqla sahib ola bilirlər. Təbii ki, işğal dövründə ermənilərin törətdiyi vandalizmin nəticəsində tarixi abidələrimiz və turizm potensialı olan təbiətimizə böyük zərər dəysə də, yenidənqurmadan sonra bu ərazilərin əvvəlki kimi və hətta ondan daha çox turist cəlbinin mümkünlüyü qaçılmaz haldır.

Qarabağın turizm potensialını artırmağa nail olmaq üçün müxtəlif tədbirlər həyata keçirilir. Turizm infrastrukturunun inkişaf etdirilməsi, möhtəşəm təbii sərvətlərin və tarixi abidələrin təbii müstəqil turizm tədbirləri ilə təbliğ edilməsi, regionun turizm sahəsində daha çox tanınması üçün maraqlı tədbirlər təşkili davam etdirilməlidir. Qarabağ və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatı üçün turizm sahəsində əlverişli dərəcədə əhəmiyyətə malikdir və əhəmiyyəti işğaldan sonrakı son illərdə artırmaq üçün inkişaf planları həyata keçirilir. Turizm infrastrukturu inkişaf etdirilir, rahat otellər və xüsusi tur paketləri təqdim edilir.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair" I Dövlət Proqramı (2022-2026)
2. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və dayanıqlı inkişafına dair" Dövlət Proqramı (2021-2025)
3. Fikrətzadə F. (2020), İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması. Kənd təsərrüfatının iqtisadiyyatı №4, səh. 27-33.
4. Həsənov B. (2023), Qarabağ bölgəsi XX əsrin əvvəllərində (ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyat), Bakı 2023
5. Səfərov E. (2021), "Qarabağın azad edilməsi turizmin inkişafına yeni stimul verəcək", Xalq qəzeti S.9.
6. Vəliyev Ç. (2021), "Azad olunmuş ərazilərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək", Xalq qəzeti S.3.
7. "İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı üzrə beşillik proqram hazırlanıb" - https://medeniyyet.az/page/news/57941/Isgaldan-azad-edilmis-erazilerin-berpasi-ve-inkisafi-uzre-besillik-proqram-hazirlanib.html
8. "Vətən müharibəsi" - https://president.az/az/pages/view/azerbaijan/karabakh2

ORTA DƏHLİZ VƏ AZƏRBAYCANIN BEYNƏLXALQ NƏQLİYYAT-KOMMUNİKASİYA SİSTEMİNDƏ YERİ

Rufanə Qılman qızı Əhmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
rufana.ahmadova@yahoo.com
https://orcid.org/0009-0005-5909-8756

Müasir şəraitdə dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda meydana çıxan qlobal çağırışlar regional və beynəlxalq sahələrdə yeni əməkdaşlığın yaranmasına səbəb olan, ölkələri,qitələri birləşdirən beynəlxalq enerji və nəqliyyat dəhlizləri səmərəli və uzunmüddətli əməkdaşlıq üçün yeni imkanlar yaratmışdı. Böyük coğrafiyanı əhatə edən Avrasiya Yer kürəsində ən böyük qitədir və geosiyasi cəhətdən mərkəzi ox yerini tutur". [1] Bu məkanda nəqliyyat-kommunikasiya sahəsi xüsusi əhəmiyyət daşıyır. Rusiya-Ukrayna müharibəsinin beynəlxalq marşurutlar və bir sıra mühüm nəqliyyat dəhlizləri üçün ciddi təhdidlər yaratması, yeni nəqliyyat dəhlizlərinin yaranması zərurətini ortaya çıxarmışdır.

Belə bir mürəkkəb şəraitdə "Orta Dəhliz"ə və ya Trans-Xəzər Beynəlxalq Nəqliyyat dəhlizinə maraq əhəmiyyətli dərəcədə artırmışdır. Bu layihənin iqtisadi və siyasi əhəmiyyəti təkcə region ölkələrinin deyil, eyni zamanda bir sıra böyük dövlətlərin də marağına səbəb olmuşdur. Budapeşt Univesitetinin professoru Laslo Vasa Azərbaycandan keçən "Şərq-Qərb"dəhlizinin əhəmiyyətini qeyd edərək,"Orta Dəhliz"in Azərbaycandan keçməsi, "Cənubi Qafqazın qızıl dövrü olacaq", -[2]demişdir.

Çindən başlayaraq, Mərkəzi Asiya ölkələri, Xəzər dənizi üzərindən,sonra isə Azərbaycan və Türkiyə ərazisindən keçərək, Avropaya qədər geniş bir ərazini əhatə edən, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşurut sayılan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi yükdaşımalarının həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir.

2013-cü ildə Çinin təşəbbüsü ilə dünyanın siyasi, iqtisadi, sosial həyatında mühüm dəyişikliklərə səbəb ola biləcək "Bir kəmər, bir yol" (BRİ), layihəsi əslində 69-dən çox dövləti və

dünya əhalisinin 64 %-ni əhatə edərək," [3] keçdiyi və ya keçəcəyi ərazilərdə sənayenin,ticarətin inkişafına güclü təkan verəcək. Bütün bunları nəzərə alan ,"Azərbaycan,Qazaxstan və Gürcüstan 2014-cü ildə ,"Orta Dəhliz"in yaradılması təşəbbüsünü irəli sürdülər" [4]. Sonrakı illərdə layihə Ukrayna,Rumıniya və Polşanın səyi ilə genişlənmişdir. Hazırda Çindən Avropaya hərəkət edən qatarlar 10 min km məsafə qət edir. Lakin "Orta Dəhlizi"in açılması ilə bu yüklərin çatdırılması üçün 7 min km məsafə qət ediləcək, Asiya ilə Avropa arasındaki məsafə 3min km qısalmış olacaqdır" [5]. Bu isə Avropa və Asiya arasında "Orta Dəhliz"in nə qədər əlverişli olduğunu təsdiq edir. Təbii ki, məsafənin qısalması,yüklərin tez və sürətli mənzil başına çatdırılması təkcə zaman baxımından deyil,eyni zamanda bu yüklərin daşınmasına çəkilən xərclər baxımından da əlverişlidir. Belə ki, "Orta Dəhliz" həm iştirakçı dövlətlər, həm də digər dövlətlər üçün də çox böyük iqtisadi əhəmiyyət daşıyır. "Orta Dəhliz" boyunca vahid tarif kimi "bir pəncərə" prinsipinin tətbiq olunmas"ı [6] da dəhlizi daha cazibəli hala gətirir. Bütün bunlar bölgədə yeni nəqliyyat-infrastruktur xəritəsinin formalaşmasından xəbər verir. Bu xəritənin formalaşmasında ən önəmli dövlətlərdən biri kimi Azərbaycanın müstəsna rolu və yeri vardır. Cənub nəqliyyat xəttinin Azərbaycandan keçməsi, lazım olarsa, bu xəttin Şərq-Qərb dəhlizinə birləşdirilməsi və ölkənin geostrateji mövqeyi bu dəhliz üzrə onu dünyanın aparıcı dövlətlərindən birinə çevirir.

"Orta Dəhliz"i Beynəlxalq Trans-Xəzər dəniz nəqliyyatı olmadan təsəvvür etmək mümkün deyil. Belə ki,bu dəhliz üzrə daşımaların mühüm hissəsi məhz dəniz nəqliyyatının payina düşür. Əgər 2021-ci ildə TRASEKA nəqliyyat dəhlizində dəniz nəqliyyatı ilə yük daşımalarının həcmi 4 milyon 558 min idisə, "2022-ci ildə bu göstərici əvvəlki ilə nisbətdə 29,8 % artaraq, 51420,6 min ton təşkil edib. Yük dövriyyəsi isə 12milyard 648,9 milyon ton-kilometr olub ki, bu da tranzit daşımalar üzrə 31,9 % artım deməkdir. Bu yüklərin 27966,8min tonu və ya 54,4 % avtomobil nəqliyyatı, 16841,2min tonu və ya 32,7 % dəmiryol nəqliyyatı, 6612,6 min tonu və ya 12,9 % dəniz nəqliyyatı ilə daşınmışdır". [7] Ələt limanının genişlənməsinə əlavə vəsaitin ayrılması, bu liman ətrafında yeni iqtisadi zona yaradılması ilə bağlı Azərbaycaın Respublikasının Prezidenti İlham Əliyevin "Ələt azad iqtisadi zonasının" fəaliyyətinin təmin edilməsilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı da Azərbaycanın Trans-Xəzər nəqliyyat dəhlizinə verdiyi böyük əhəmiyyətin daha bir gerçək nümunəsidir

Transxəzər nəqliyyat dəhlizi Xəzər ətrafı ölkələrin dünya bazarına çıxmasında mühüm rol oynamaqla bölgədə istehsal olunan müxtəlif sənaye və kənd təsərrüfatı məhsullarının birbaşa, az müddətdə müxtəlif bazarlardaki alıcılarına çatdıracaq. Eyni zamanda Azərbaycandan çıxan yük qatarları təqribən iyirmi dört saat mürddətində İstanbula çatacaq və ya əksinə İstanbuldan çıxan yüklər təqribən iyirmi dört saat ərzində Ələt Dəniz-Ticarət Limanına çatacağı hesablanır. Bütün bunlar Aərbaycanın "Orta Dəhliz" boyunca yerləşən dövlətlər arasında önəmli mövqeə malik olduğunu göstərir.

Azərbaycanın Fizuli, Zəngilan və tezliklə Laçında yeni havalimanlarının açılması təkcə ölkə daxilində sərnişinlərin və yüklərin sürətlə mənzil başına çatdırılması ilə məhdudlaşmayacaq, eyni zamanda, "Orta Dəhliz" boyunca daşımaçılıq fəaliyyəti göstərəcək. Beləliklə də, Azərbaycan öz ərazisi boyunca tam mənada multimodal daşımaçılıqdan istifadə etmiş olur.

"Orta Dəhliz"in ən vacib seqmentlərindən biri də Zəngəzur dəhlizidir. Heç şübhəsiz, Zəngəzur dəhlizi, ilk növbədə bölgənin inkişafında xüsusi əhəmiyyət kəsb etməklə, regionda yeni əməkdaşlıq formatının yaranmasına, sülhün və tərəqqinin təmin olunmasına geniş imkanlar açacaqdır. Ən əsası odur ki, bu dəhliz təkcə Avropa ilə Asiyanı deyil, eyni zamanda bütün Türk dünyasının inteqrasiyasına yeni fürsətlər yaradacaqdır.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi ölkənin beynəlxalq yük və sərnişin daşımasında mövqeyini gücləndirərək bölgənin nəqliyyat habına çevirə bilər. Lakin Ermənistanın qeyri-konstruktiv mövqei bu ölkə rəhbərliyinin eskopizmə qapılması dəhlizin açılmasına mənfi təsir göstərsə də Azərbaycan Respublikası Pezidentinin apardığı ardıcıl və məqsədyönlü siyasət bu

dəhlizin açılmasına əngəl olan bütün maneələri aradan qaldırmaqla onun işlək hala gətirilməsini təmin edəcək.

Zəngəzur dəhlizinin açılması regionun sosial iqtisadi inkişafının və bölgə əhalisinin rifah halının yaxşılalaşdırılması üçün yeni imkanlar yaradacaqdır Azərbaycan kütləvi informasiya vasitələrinin məlumatına görə "Horadiz-Ağbənd və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun xeyli hissəsi tikilib və yol 2025-ci ildə istifadəyə veriləcək." [8] Azərbaycan Zəngəzur dəhlizinə alternativ olaraq İranla da müqavilə bağladı və Ermənistan yolun açılmasına əngəl törədəcəyi halda həmin yolun Zəngəzur dəhlizindən keçməli olan hissəsi Araz çayı üzərinə körpülər salınaraq İran ərazisindən keçməklə yenidən Orta Dəhlizə qoşulacaq, beləliklə də bu əngəl ortadan qaldırılmış olacaq.

İstifadə edilmiş ədəbiyyat

1. https://freight.ady.az/beynelxalq-dehlizler/serq-qerb-neqliyyat-dehlizi
2. https://www.stat.gov.az/news/macroeconomy.php
3. tr.wikipedia.org/wiki/Bir_Kusak_Bir_Yol
4. Xalqqazeti.az/az/iqtisadiyyat/146298-gurcustan-qazaxstan-orta-dehlizde-azerbaycan
5.Средний коридор https:caliber.az/post/203470
6. globalnews.azorta-dehliz-uzerinde-ve-şimal-cenub-marşrutu-boyu-yerleşme-azerbaycan-uçun-elave-ticaret-imkanları-yar
7. Z.Brzezinski. Böyük Şahmat Taxtası. Bakı: Qanun, 2011

BÖLGESEL KALKINMADA DENEYİM MEKÂNLARI OLARAK HÜZÜN DESTİNASYONLARININ POTANSİYELİ: KARABAĞ ÖRNEĞİ

[1]**İsmet Güney,** [2]**Merve Altundan Öncü**
[1]Recep Tayyip Erdoğan Üniversitesi, Türkiye
ismet.guney@erdogan.edu.tr
https://orcid.org/0000-0003-4682-4905
[2]Ankara Üniversitesi, Türkiye
maoncu@ankara.edu.tr
https://orcid.org/0000-0003-2402-9134

1. Giriş

Kafkasya, Alp-Himalaya Dağ sisteminde Karadeniz ile Hazar Denizi arasında bulunan, tarihsel ve kültürel bakımdan önemli bir birikimi olan, büyük bir bölümü dağlarla kaplı bir bölgedir. M.S. 350'de başlayan Kavimler Göçü'nde Orta Asya'dan Doğu Avrupa'ya kadar giden Türk boyları ilk Kafkasya'ya yerleşmiş ve yurt edinmişlerdir. Türk toplulukları arasında Kimmer ve İskitler Kafkasya'ya ilk yerleşen Türk boyları olmuştur. Ardından Kıpçaklar Kafkasya'ya gelmiştir. Hunlardan itibaren ise Kafkasya'ya Türk göçleri aralıksız bir şekilde devam etmiştir (Tellioğlu, 2017). 11. yüzyıldan itibaren bölge Selçuklular tarafından iskân edilmiştir. 15. yüzyılda Moğollar batı akınlarında birçok Türk'ü bölgeye yerleştirmiştir. Bölgeyi 13. yüzyılda İlhanlılar, Akkoyunlular ve Karakoyunlular gibi beylikler yönetmiştir. 16. yüzyıldan itibaren Kafkasya, Osmanlı ve İran ilişkilerinde savaşa konu olmuş ve dönemsel olarak hakimiyet el değiştirmiştir (Kalkan, 2010). Dolayısıyla bölgenin yerleşik halkları olan Gürcü ve Ermenilerin yanı sıra akınlarla gelen Türkler, bölgenin kadim toplumlarından biridir ve bölgedeki medeniyetin temelini attıkları söylenebilir (Ateş, 2023).

Kafkasya, doğu ile batı arasında köprü oluşturan coğrafi konumu nedeniyle tarihin başlangıcından itibaren göç ve ticaret alanı olmuştur. Bu durum üzerinde yaşayan topluluklara hem önemli olanaklar hem de savaşları beraberinde getirmiştir. Ayrıca günümüz üretim ve tüketim sistemi için gerekli yeraltı varlıkları bakımından zengin olan bölge geçmişte olduğu gibi bugün de hem önemli olanakları hem de jeopolitik zorlukları bir arada getirmektedir. Bu nedenle Kafkasya'da savaş, tarihin bütün aşamalarında olduğu gibi bugün de mekânı şekillendiren en önemli olgu olmuştur. Dolayısıyla bölgede yaşayan Türkler coğrafyanın getirmiş olduğu savaş olgusu, kültürlerinin en önemli parçası haline getirmiştir (Özdal, 2005; Göksu, 2009; Badakoğlu, 2021).

Türk topluluklarında savaşların geliştirdiği milli hassasiyetler kurumsal ve gündelik hayatın içinde birçok alanı etkilemektedir. Bu durum Türk toplulukların boş zaman pratiklerini dahi etkilemektedir. Bu kapsamda Türk tarihinin önemli dönem noktaları ve önemli mekânlar Türk toplumları tarafından geçmişleriyle bir bağlantı kurmak amacıyla dark turizmi (hüzün) kapsamında ziyaret edilmektedir. Söz gelimi Anadolu'da Gelibolu yarımadası, Sarıkamış ve Anıtkabir dark turizmi için önemli alanlardır. Azerbaycan'daki Dağlık Karabağ Bölgesi de hem Türk tarihi hem de Azerbaycan tarihi bakımından önemli savaşlara sahne olmuş bir bölgedir. Bu kapsamda işgalden kurtulan bölgelerin sürdürülebilir bir şekilde kalkınmasının sağlanması için dark turizmi ve dağlık alan rekreasyonlarının bölgede geliştirilmesi bu çalışmanın amacının oluşturmaktadır.

Kavramsal olarak kalkınma ile hüzün destinasyonu arasında bir çelişki varmış gibi görünse de; bu iki kavramın ilişkisel olarak ele alınışında büyük avantajlar vardır. Bölgesel kalkınma, ekonomik, sosyal, kültürel ve çevresel açıdan bir bölgenin refah seviyesinin topyekun artmasını ifade eder. Diğer taraftan hüzün turizmi ise, turizm faaliyetini gerçekleştiren bireylerin duygusal ve etkileyici bir deneyimi keşfetmelerini sağlayan, tarihe ve geçmişe bağlı bir turizm türüdür. Bu bağlamda tarihsel süreçte hüzünlü veya duygusal olayların gerçekleştiği mekanlar, bölgesel kalkınmanın teşvik edilmesi amacıyla turizm faaliyetlerine açıldığında, başta bölgede turizmden elde edilen gelir ve artan istihdam olanakları olmak üzere, farkındalık ve olumlu kültürel etkileşim fırsatları doğurmaktadır (Ongun, Çuhadar ve Kervankıran, 2021). Bu çerçevede Karabağ tarihsel süreçte yaşanan olaylar bakımından önemli bir noktada yer almaktadır. Bölgenin Karabağ Zaferi ile istikrarsız dönemi geride bırakmasının ardından, hızla yerel ve bölgesel kalkınma için adımlar atması gerekmektedir. Bu süreçte ise bir hüzün destinasyonu olarak deneyimlenme potansiyeli göz ardı edilmemelidir. Hüzün destinasyonlarında mekanın deneyimlenerek turizme kazandırılması ile turizmin yalnızca eğlence sunan ve tüketilen bir olgu olmadığı; mekan ile bağ kurmaya dayalı deneyimler bütünü olduğu belirtilmelidir. Gelinen noktada Karabağ'daki deneyim mekanlarının müzeler, savaş anıtları, cepheler ve spesifik hikayeler ile gelecek nesillere aktarılması önemli bir potansiyel olarak karşımıza çıkmaktadır.

Bu araştırmanın amacı Karabağ'ın savaş sonrası bölgesel kalkınma sürecinde deneyim mekanı olarak hüzün destinasyonu çerçevesinde turizme kazandırılmasının önemini ortaya koymaktır. Bu amaçla araştırmanın sorusu Karabağ'ın bölgesel kalkınmasında bir turizm çeşidi olarak hüzün destinasyonu potansiyelinin kullanılıp kullanılamayacağıdır. Bu kapsamda araştırmada doküman incelemesi tekniğiyle elde edilen veriler karşılaştırmalı olarak analiz edilmiştir.

2. Kavramsal Çerçeve

2.1. Dağlık Alanlar

Dünyanın yaklaşık dörtte birinin dağlık alanlardan oluştuğu belirtilmektedir (Scott, 2006). Ancak dağlık alanların tanımına ilişkin kesin bir tanımlamadan kaçınıldığı ve kriterlerin ülkelerin kendisine bırakıldığı bilinmektedir. Örnek olarak 1000 metreden yüksek yerler ya da yüksekliği 500-1000 metre arasında olup eğimi %17'den fazla olan alanlar Türkiye'de dağlık alanlar olarak tanımlanmaktadır (Tarım ve Köy İşleri Bakanlığı, 2007). Dağlık alanlar biyoçeşitlilik, su kaynakları, ekoloji, kültürel zenginlik ve geleneksel kırsal hayat özellikleri ile dünyanın önemli coğrafi alanlarıdır (Romeo vd. 2020). Buna ek olarak, dağlık alanların barındırdığı potansiyeller

ovalarda ve kentlerde yaşayanlar için de önemli kaynakları meydana getirir. Dağlık alanların küresel anlamda önemi ilk olarak, 1992 yılında Rio Dünya Zirvesi Konferansı'nda Birleşmiş Milletler (BM) tarafından ortaya konmuştur. Bu toplantının Gündem 21 eylem planında dağlık alanlara yer verilmiş ve "Kırılgan Ekosistemin Yönetimi: Sürdürülebilir Dağ Gelişimi" olarak ele alınmıştır. Yine BM tarafından 2002 yılı 'Uluslararası Dağ Yılı' ilan edilmiştir. Dağlık alanların sürdürülebilir kalkınma kapsamında küresel ölçekte değiştirilebilmesi için, ülkelerin arası iş birliğiyle plan ve politikaların geliştirilmesi önerilmiştir. Bu gelişmeler küresel ölçekte dağlık alanlar ve orada yaşayanlar için önemi büyüktür (Grabherr ve Messerli, 2011).

20. yy'nin ortalarına kadar dağlık alanlar zor, uzak ve izole mekanlar olarak görülmesi nedeniyle nüfus kaybı süreci başlamış, uzun bir atıl dönemin ardından ise turizm ve rekreasyona bağlı dağlık alanların yeniden mekansal organizasyonu başlamıştır. Günümüzde dağlık alanlar daha kolay ulaşılabilir durumdadır. Bu nedenle de daha fazla ekonomik ve sosyal olgu dağlık alanlara eklemlenmektedir. Bilgi toplumunun eğitim, iş ve yaşam koşullarının, bireylerin kentsel mekan dışında da yaşamasına imkan vermesi, şüphesiz dağlık alanların gelecekte turizm ve rekreasyon bakımından önemini arttırmaya devam edecektir (Altundal Öncü, 2022).

2.2. Hüzün Turizmi

Günümüz turistleri arasında postmodern etkiler sonucu geçmiş toplumun yaşam koşulları, biçimleri ve ürünleri ile etkileşim içerinde olma talebi artmaktadır. Bu durum yeni destinasyonlar ve alternatif turizm türlerini ortaya çıkarmaktadır. Bu bağlamda hüzün turizmi; savaş sürecinde belli bir topluma yapılan işkence, soykırım veya toplu can kayıpları gibi ölümlerin gerçekleştiği mekanlar, ölenler için yapılan anıtlar ve müzeler ile doğal felaket ve büyük kazalar gibi hüzünlü hadiselerin gerçekleştiği mekanlara seyahati içeren turizm türüdür (Kılıç ve Akyurt, 2011). Gerek teoride gerekse de pratik uygulamalarda hüzün mekanlarının günümüz turizm sektörü için önemli birer destinasyon olabileceği kabul edilmektedir (Yıldız, Yıldız, Aytemiz, 2015; Ilgar, 2015; Doğancili, Oruç, 2016; Alili, 2017). Hüzün turizmi kavramı talep ve arz boyutunun farklı şekillere dönüştürebildiği alternatif bir turizm türüdür (Seaton 1996). Yine de bu geniş kavram içerisinde yoğun olarak yapılan faaliyetler Seaton (1996) tarafından 5 kategoride toplamıştır:

1.Ölümü izlemek için seyahatler
2.Bireysel-toplu ölümlerin olduğu mekânlara seyahatler
3.Anıt-hapishaneler için seyahatler
4.Ölümle ilişkili mekânlara seyahatler
5.Ölümle ilişkili delillerin gösterildiği mekânlara seyahatler

3. Veri ve Yöntem

Araştırmada veriler literatür taraması ve ikincil verilerin incelenmesi ile oluşturulmuştur. Bu kapsamda sahaya ilişkin elde edilen bilgiler tasniflendirilmiştir. Ardından dark turizmi kapsamında değerlendirilebilecek mekân, obje veya nesneler tespit edilmiştir. Elde edilen veriler bulgular bölümünde küresel ve ulusal ölçekte önemli bazı hüzün destinasyonlarıyla karşılaştırılmalı olarak analiz edilmiştir.

4. Karabağ'da Hüzün Turizmi Destinasyonları

Yaklaşım 30 yıldır Ermenistan tarafından işgal edilen Karabağ'da bulunan önemli Türk yerleşmeleri Hankenti, Hocalı, Şuşa, Terter, Ağdere, Ağdam, Hocavend, Fuzuli şehirleridir. Bu yerleşim alanları ülke topraklarının üçte birlik kısmını oluşturmaktadır. Bu kapsamda İkinci Karabağ Savaşı Azerbaycan'a gerek tarihsel gerekse de coğrafi olarak önemli kazanımları sağlamıştır. Bu kazanımlar tabi ki bölgenin kalkınmasına bir dinamizm oluşturabilir.

4.1. Hocavend Cephe Alanı

Azerbaycan'ın savaş sırasında kullandığı kara ve hava ekipmanlarının tümü çatışmaların en yoğun olduğu Hocavend'te bulunan bir cephe hattında oluşturulabilecek açık bir alanda sergilenebilir. Dolayısıyla savaş alanında Azerbaycan ordusunun hangi teknolojik koşullarda olduğunu görülebilir. Bu objelerden bazıları şunlar olabilir: Tank, askeri araç, ambulans, silahlar,

askeri kıyafetler vb. Bu durum muhtemel ziyaretçiler için savaş anının gerçekleştiğinin zamansal koşullar ve mekânsal durumunu göstererek geçmişle bağlantı kurma olanağı tanıyacaktır. Bu tespit yaşanan olayın bir hüzün turizmi potansiyeli olduğunu göstermektedir. Aynı zamanda ermeni birlilerinden ele geçirilen teçhizatlar yine belli alanlarda sergilenebilir. Bu kapsamda karşılaştırılarak değerlendirilebilecek en önemli destinasyon Gelibolu yarımadasıdır. Hem Türk askerlerine hem de Anzak askerlerine ait bir çok ekipman açık ve kapalı alanlarda sergilenmektedir.

4.2. Hankendi Şehitler Anıtı

Türk topluluklarında savaş esnasında hayatını kaybeden askerler kutsal bir mertebe olarak kabul edilen şehitlik sıfatını almaktadır. Bu nedenle gelecek kuşaktaki bireyler bir anlamda şehitleri anmak ve hatırlamak amacıyla yılın bazı dönemlerinde ziyaret edilmektedir. Azerbaycan'da bilinen önemli şehitlikler bulunmakta ve birçok kişi tarafından ziyaret edilmektedir. Bu kapsamda savaş sırasında ülkeleri için hayatını kaybeden askerlerin hem anılması hem de ziyaretçilerin geçmişleri ile bağ kurması bakımından önemli alanlar olarak karşımıza çıkmaktadır. Bu kapsamda Hankendi'de şehitlik anıtının yapılması hüzün turizmi bakımından önemli bir çekicilik oluşturabilir. Benzer bir durum Osmanlı Devleti'nin doğu cephesinde 90 bin askerin şehit olduğu Sarıkamış'ta yaşanmaktadır. Yılın belli döneminde birçok insan bu bölgeye şehitleri anmak amacıyla gelmektedir.

4.3. Şuşa'da Savaş Sokakları Alanı

İkinci Karabağ savaşı süre zarfında kırsal ve kentsel alanlarda çatışmalar çıkmıştır. Kent mekânı içerinde çatışma bölgelerin koruma altına alınarak müzeleştirilmesi bölgede işgal ve kurtuluşun en önemli tanığını oluşturmaktadır. Bu bakımdan savaş dönemi ile bağ kurmak isteyen yeni nesiller Şuşa'da sınırlı bir mekânda belirlenecek sokaklarda çatışma alanlarını ziyaret ederek tanıklık edebilir. Bu sayede birçok ziyaretçi buraya çekebilir. Söz gelimi Almanya'daki Berlin Duvarı Doğu ve Batı Almanya arasındaki çatışma ve savaşa ilişkin izler taşımakta ve birçok ziyaretçi o dönemden kalan bu çalışma izlerini görmeye gitmektedir.

5. Sonuç

Araştırmanın sonuçlarına göre Azerbaycan'ın tarihi ve coğrafyası her dönem üzerinde yaşayan toplum için zorluklar getirmiştir ve bu zorlukların göstergeleri mekân üzerinde halen gözlemlenebilmektedir. Bu durum geçmiş ve gelecek nesiller arasında bir bağ kurmak için önemli toplumsal bir işlevi yüklenebileceği gibi bölgesel kalkınma için turizm aracılığıyla önemli ekonomik katkılar sağlayabileceği görülmektedir. Bu kapsamda hüzün turizmi Türk toplumları için en önemli turizm türlerinden biridir ve Dağlık Karabağ bölgesinde işgalden kurtulan birçok bölge bu kapsamda değerlendirilmelidir.

Karabağ, araştırma kapsamında hüzün destinasyonu potansiyellerine sahiptir. Bu potansiyelin doğru planlama ile bölgesel kalkınmada etkili bir araç olarak kullanılabilmesi mümkündür. Buradaki en önemli husus ise hüzün destinasyonlarının, ziyaretçilerin ve yerel halkın hassasiyetleri çerçevesinde oluşturularak, acının saygı ile yönetilerek paylaşılmasına özen gösterilmesi ile başarıya ulaşacağıdır.

Kaynakça

Alılı, M. (2018). *Bir hüzün turizmi destinasyonu olarak Azerbaycan'ın değerlendirilmesi* (Yüksek Lisans Tezi) Süleyman Demirel Üniversitesi.

Altundal Öncü, M. (2022), *Refah göçünün dağlık yerleşmelerin yeni mekân organizasyonu üzerine etkileri: Mersin (Çamlıyayla) ve Adana (Meydan Yaylası).* Basılmamış doktora tezi, Ankara Üniversitesi.

Ateş, C. (2023). *Kafkasya'daki Türkler ve Türkiye'nin Kafkasya Türkleri Politikası* (Yayımlanmamış Yüksek Lisans Tezi), Aksaray Üniversitesi.

Badakoğlu, U. (2021). *Bozkır Savaş Sanatı: Brenta Savaşı'nın Stratejik ve Taktik İncelemesi*. *Harp Tarihi Dergisi*, (3), 83-114.

Doğancili, O. S., & Oruç, M. C. (2016). Cezaevlerinin Müzeye Dönüşüm Süreci: Sinop Cezaevi Örneği. *Yalova Sosyal Bilimler Dergisi*, *6*(12), 268-284.

Göksu, E. (2009). Kutadgu Bilig'e Göre Türk Savaş Sanatı. *Journal of International Social Research*, *1*(6).

Grabherr, G., Messerli, B. (2011). An Overview of the World's Mountain Environments. in AnAustrian Contribution to the 40th Anniversary of UNESCO's MAB 187 BiosphereReserves in the Mountains of the World. Excellence in the Clouds? (Vienna:Austrian Academy of Sciences Press), 8-14.

Ilgar, R. (2015). Mabetleşen bir mekân: Gelibolu Yarımadası tarihi savaş alanları turizmi. *Çanakkale Araştırmaları Türk Yıllığı*.

Kalkan, D. (2010). *Güney Kafkasya Bölgesi'ndeki Etnik Çatışma Alanları* (Yayımlanmamış Yüksek Lisans Tezi) Selçuk Üniversitesi.

Kılıç, B., Akyurt, H. (2011). Destinasyon imajı oluşturmada hüzün turizmi: Afyonkarahisar ve Başkomutan Tarihi Milli Parkı. *Gaziantep University Journal of Social Sciences*, *10*(1), 209-232.

Ongun, U., Çuhadar, M., & Kervankıran, İ. (2021). Süleyman Demirel Demokrasi-Kalkınma Müzesi ve Anıt Mezarının, Hüzün Turizmi ve Yöre Ekonomisi Kapsamında Değerlendirilmesi. *Journal of Tourism Intelligence and Smartness, 4*(2), 201-217.

Özdal, A. N. (2005). *Selçuklu Coğrafyasında Türklerin Savaş Sanatı (Xi-Xiv. Yy.)* (Doctoral dissertation), Marmara Üniversitesi.

Romeo, R., Grita, F., Parisi, F., Russo, L. (2020). Vulnerability of mountain peoples to food insecurity: updated data and analysis of drivers. Food & Agriculture Org.

Scott, D. (2006). *Global environmental change and mountain tourism*. Tourism and Global Environmental Change, 54-75.

Seaton, A.V. Tony. "Guided by the Dark: From Thanopsis to Thanatourism". *International Journal of Heritage Studies* 2 (1996): 234-244.

T.C. Tarım ve Orman Bakanlığı Tarım Reformu Genel Müdürlüğü, (2018), IPARD II Programı Yatırımcı Rehberi.

Tellioğlu, İ. (2017). Kafkasya'da Türk Varlığının Başlangıcı Üzerine. Vakanüvis-Uluslararası Tarih Araştırmaları Dergisi, 2(Spec. issue), 558-575.

Yıldız, Z., Yıldız, s., & Aytemiz, l. (2015). Kara Turizm, Terör Turizmi ve Türkiye Potansiyeli. *İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi*, *4*(2), 390-407.

QARABAĞIN TƏBİİ TURİZM EHTİYATLARININ MÜASİR VƏZİYYƏTİ

Lalə Seyidağa qızı Xanseyidova
Azərbaycan Dillər Universiteti
l.khanseyidova@gmail.com
https://orcid.org/0009-0003-5941-1103

Qarabağ silsiləsi – Kiçik Qafqazda dağ silsiləsi olmaqla, əsas hissəsi Yuxarı Qarabağ ərazisindədir. Şimal-qərbdə Tərtər çayının dərəsi ilə Murovdağ silsiləsindən, qərbdə isə Həkəri çayının dərəsi ilə Qarabağ yaylasından ayrılır. Uzunluğu (şimal-qərbdən cənub-şərqə doğru) təqribən 120 km-dir. Ən hündür zirvələri: Qızqala (2843 m), Böyük Kirs (2725 m) və s.-dir. Yura və Tabaşir sistemlərinin çökmə və vulkanogen süxurlarından təşkil olunmuşdur. Relyefin mürəkkəbliyi və suxurların müxtəlifliyi faydalı qazıntıların zənginliyinə və dünyaca məhşur mineral suların yaranmasına zəmin yaradır. Silsilənin qərb yamacları dikdir. Qarabağ və Mil düzlərinə tərəf tədricən alçalan şərq yamacları isə çay dərələri ilə kəsilmiş və bir neçə qola

ayrılmışdır. Silsilənin cənub-şərq qurtaracağı Araz çayına tərəf alçalaraq dağətəyi düzənliklərə keçir. Xaçın, Qarqar (Kür hövzəsi), Köndələnçay, Quruçay, Qozluçay (Araz hövzəsi) və s. çaylar Qarabağ silsiləsindən mənbələrini götürür. Çimli dağ-çəmən torpaqlarında subalp çəmənləri, qonur dağ-meşə torpaqlarında isə meşə (palıd, fıstıq, vələs və s.) landşaftı geniş yer tutur.

Şuşa Kiçik Qafqazın Qarabağ silsiləsinin mərkəzi hissəsində yerləşir. Qarqarçay və onun qolları- Xəlfəli, Zərisli çayları bu silsilənin dağlarından başlayır. Şəhərdə maraq doğuran ən mühüm cəhətlərdən biri də onun hündür sıldırım qayalıqlar üzərində, bir qədər maili, nisbətən düzənlikli ərazidə qurulmasıdır. Şuşa məlum olduğu kimi 1752-ci ildə Qarabağın birinci xanı Pənahəli xan tərəfindən əsası qoyulub [2].

Şuşa dağlarının geoloji inkişaf tarixi çox qədimdir. Orta Mezozoy, Yuxarı Yura erasının və qismən Təbaşir dövrlərini əhatə edir. Sadə dillə desək, dağları təşkil edən süxurlar vulkan püskürmələri və dənizdə çöküntü toplanması nəticəsində 168 milyon il bundan əvvəl təxminən 100 milyon il ərzində əmələ gəlmişdir.

Şuşa şəhəri yerləşən maili plato dəniz səviyyəsindən 1300-1557 m hündürlükdə yerləşir və 300-400 metrlik sıldırım qayalarla dairəvi şəkildə əhatələnmişdir. Milyon illər əvvəl dəniz dibində əmələ gəlmiş bu qayalar qalın əhəngdaşı laylarından ibarətdir. Zaman da öz işini görmüş, sonrakı geoloji, tektonik proseslər nəticəsində bu süxur layları dəniz dibindən çıxaraq yavaş-yavaş yüksəlmiş və yüksəldikcə də çaylar vasitəsilə eroziyaya məruz qalaraq dərin dərələr yaranmış və nəticədə ərazidə bu gün gördüyümüz relyef formalaşmışdır.

Şuşadan bir neçə kilometr aralıda Qarabağ hökmdarları öz yay iqamətgahı Xankəndini (Xan kəndi) tikmişdir. Hündür yaylada yaxınlıqda yerləşən Şuşa həmişə strateji üstünlük və dominantlıq təşkil edir. Şuşaya nəzarət Xankəndi üçün həlledici rol oynayır. Şuşanın yerləşdiyi yer Xankəndi üçün ideal qoruyucu-bufer zonasını təmin edir. Şuşa həm də Laçın dəhlizi, dağ keçidi və Qarabağın yüksəkliklərini birləşdirən yol boyunca ən mühüm müdafiə qovşağıdır.

2021-ci il 7 iyul tarixli qərar ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yenidən bölgüsü təsdiq edilmişdir. Bu fərmana əsasən Xankəndi şəhəri, Ağcabədi, Bərdə, Ağdam, Füzuli, Tərtər, Xocavənd, Xocalı və Şuşa rayonları Qarabağ iqtisadi rayonunun tərkibində, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları isə Şərqi Zəngəzur iqtisadi rayonun tərkibində yer almışdır. Yeni iqtisadi rayonların bölgüsünə əsasən müvafiq layihələrin hazırlanması, tədbirlərin görülməsi, qəbul edilən qərarların tənzimlənməsi və həyata keçirilməsi istiqamətində addımlar atılmaqdadır.

Hazırda Şuşanın, Qarabağın bərpasına, onların yeni konsepsiya əsasında yenidən qurulmasına artıq başlanılıb. Məsələn, ağıllı şəhər və kəndlərin salınması və bu işlərin daha sürətlə və nisbətən az xərclə yerinə yetirilməsi üçün mövcud faydalı qazıntıların yenidən qiymətləndirilməsi, digərlərinin kəşfi və istismarı üçün bu dağlar daha müasir üsullarla əsaslı şəkildə yenidən tədqiq edilməlidir. Uzun illər Qarabağdakı torpaqlar elmi araşdırmalardan kənarda qaldı. İndi onlar həm tarixi, həm arxeoloji, həm də geoloji, coğrafi, ekoloji baxımdan yeni elmi tədqiqat sahəsinə çevrilməlidirlər, yəni hərtərəfli öyrənilməlidirlər.

Xarici şirkətlərin Qarabağda törəmə filiallarını yaradan Ermənistan hökuməti bu törəmə müəssisələrin rəhbərliyinə erməni millətindən olan rəhbərlər gətirərək, böyük hiyləgərliklə Qarabağa xarici investisiyalar cəlb edirdi. Bunun da nəticəsində Qarabağın təbii sərvətləri qeyri–qanuni yollarla xarici ölkələrdə satışa çıxarılırdı. Əldə edilən gəlir Ermənistanın inkişafına sərf olunur, bir qismi isə Qarabağda yaşayan ermənilərin maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldilirdi. Təəssüflər olsun ki, özlərini demokratiya, insan hüquqları, ekologiyanın qoruyucuları kimi dünyaya car çəkən Qərb dövlətləri, hətta şimal qonşumuz Rusiyanın iş adamları belə bəzi məqamlarda öz maddi maraqları naminə Qarabağda Ermənistanın işğalçılıq siyasətini və həmin ərazilərində ermənilərin törətdiyi talançılıq əməllərini davam etdirilməsinə göz yumurdular. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan zaman Azərbaycan ərazilərinin 261 min hektar meşə sahəsi, o cümlədən pasportlaşmış 145 Şərq Çinarı məhv edilmişdir.

Orta və alçaq dağların yerləşdiyi Qarabağın daxili su ehtiyatları müxtəlifdir. Burada çaylar, göllər, bulaqlar, mineral mənbələr geniş yayılmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə çay suları ehtiyatı olduqca mürəkkəb təbii şəraitdə formalaşır. Bu iqtisadi rayonların ərazilərində formalaşan çay axımına təbii amillərlə yanaşı, antropogen amillərin də təsiri güclüdür. Onların rejim xüsusiyyətlərinin təhlili göstərir ki, bu çayların oxşar cəhətləri ilə yanaşı, fərqli xüsusiyyətləri də çoxdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının çayları dağlıq ərazilərin orta, həmçinin yüksək hissələrində formalaşır. Həmin çaylar dağətəyi və düzənlik ərazilərə çıxdıqdan sonra, tranzit şəkildə axır və iqtisadiyyatın müxtəlif sahələrində istifadə olunur.

Qarabağda Tərtərçay, Qarqarçay, İncəçay, Xaçınçay, Köndələnçay, Quruçay, Həkəriçay, Zabuxçay, Oxçuçay, Bərgüşadçay kimi çaylar özünəməxsus təbii şəraitdə formalaşır [2].

Araşdırmalara əsasən, Qarabağ iqtisadi rayonunun və ümumiyyətlə, Qarabağ regionunun ən böyük və bolsulu çayı Tərtər çayıdır. Bu çayın böyük hissəsi Şərqi Zəngəzur iqtisadi rayonu (Kəlbəcər inzibati rayonu) ərazisində formalaşsa da, onun su ehtiyatlarından əsasən, Qarabağ iqtisadi rayonunda istifadə olunur. Tərtərçay Kiçik Qafqazdan axan xırda çay və bulaqların sularının qovuşmasından yaranır. Mənbəyi 3120 m yüksəklikdə yerləşən bu çay Kür çayına qovuşur. Uzunluğu 200 km, hövzəsinin sahəsi isə 2650 km^2-ə bərabərdir. Tərtərçayın 31 qolu vardır. Tərtərçayın üzərində 1976-cı ildə Sərsəng su anbarı tikilmişdir ki, bu qurğu da suyun çoxillik tənzimlənməsi imkanına malikdir. Sərsəng su anbarından bir qədər aşağıdan axan Tərtərçayın üzərində inşa olunan "Suqovuşan" hidroqovşağının fəaliyyəti isə əsasən, çayın su ehtiyatlarının sağsahil və solsahil magistral kanallarına yönəltməkdən ibarətdir.

İşğaldan qabaq Qarabağ ərazisində 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir. Bunlardan 70-i endemik növ olub, dünyanın heç bir yerində təbii halda bitmir. Bunlara Qaracöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, şərq çinarı, və s. növ ağacları misal çəkə bilərik. Regionun fauna və floranın qorunması üçün tədqiq olunan ərazidə iki qoruq "Bəsitçay" və "Qaragöl" və 4 yasaqlıq var idi. Bəsitçay Dövlət Qoruğu 1974-cü ildə Zəngilanda yaradılmışdı. Qoruq Azərbaycanın cənub-qərbində, Bəsitçay dərəsində yerləşir. Burada Avropada yalnız Azərbaycanda bitən şərq çinarı meşəsi qorunur. Onun sahəsi 107 ha təşkil edirdi. Təəssüf ki, bu sərvətimiz 1993-cü ildən erməni işğalçıları tərəfindən məhv edilmiş, o meşələrə amansız divan tutulmuş, kəsilib mebel istehsalında istifadə olunmuşdur. Belə ki, işğalçı ölkənin hərbi hissələri qoruq ərazisinin 42 ha sahəsində yerləşdirilməsi nəticəsində ağaclar tamamilə məhv edilmişdir. 110 çinar ağacı kökündən çıxarılaraq, Göyçə (Sevan) gölünün sahillərinə və Yerevan şəhərinin ətrafına köçürülmüşdür. Vətən müharibəsindən sonra 14 fevral 2021-ci il tarixində Bəsitçay Dövlət Qoruğunun bərpasına start verilmiş və şərq çinarı ağaclarının qorunmasına qayğı artırılmışdır.

Respublikada zəngin təbii ehtiyat imkanlarından turizm məqsədilə istifadə olunmasında çətinliklərin mövcudluğu, təbii ehtiyat potensialından lazımi səviyyədə istifadə olunmaması, turizm sənayesi və qonaqpərvərliyin inkişafına təsir edən infrastrukturun hələ yaradılmaqda olması, istirahətin qısamüddətli təşkili və digər səbəblərə görə turizm bazarının formalaşması ilkin mərhələdədir və bu bazar inkişafda olan zəif bazar kimi qiymətləndirilə bilər [4].

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin 2025-ci ilədək region ölkələri arasında və eyni zamanda digər dünya ölkləri arasında əsas turizm öklərindən birinə çevrilməyi hədəf qoymalıdır. Qarabağın işğaldan azad olunması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm potensiallarının üstünlüklərindən yararlanmaq bu baxımından çox əhəmiyyətli olacaqdır [5].

Hər bir iqtisadi inkişafın özünəməxsus xüsusi prosesi və xüsusiyyətləri vardır. Burada coğrafi faktorlar, təbii amillər və iqtisadi amillər kimi bir neçə faktor daha vacibdir. Məşğulluq xüsusiyyətləri, milli adət və ənənələr milli məhsul üçün mühüm xidmətlərdir. İqtisadi rayonların planlı və nizamlı idarə edilməsi, burada tələb olunan prioritet layihələrin işlənib hazırlanması və həyata keçirilməsi, dövlət maliyyələşdirmə mexanizmlərinin işlənib hazırlanması və tətbiqi, digər

maliyyə resurslarının inkişafı, əhalinin məşğulluğu və təsərrüfat fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, sosial infrastrukturun yaradılması mühüm əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Turizmin əsasları. Müəllif kollektivi. Bakı: QHT nəşriyyatı, 2015, 496 s.
2. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası (Ümumi hissə): Universitetlərin coğrafiya fakültələri üçün dərslik. Redaktor: İ. A. Babayev. Bakı: "Maarif" nəşriyyatı, 1998, 400 s.
3. Cabbarov Ə.X. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı:.ADPU-nun nəşriyyatı, 2015, 267 s.
4. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Monoqrafiya. Bakı: AzTU-nun mətbəəsi. 2015, 475 s.
5. Turizm Strategiyası 2023-2026

BÖYÜK QAYIDIŞIN TƏMƏL DAŞLARI

İlahə İbad qızı İsmayılova
Mingəçevir Dövlət Universiteti
ilaha.ismayilova@mdu.edu.az
https://orcid.org/0009-0002-6970-3831

Dünəndən bu günə

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Respublikasına qarşı törətdiyi növbəti hərbi təxribatına qarşı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsi Azərbaycan xalqının tarixi qələbəsi ilə başa çatıb. Düşmənlə üz-üzə qəhrəmancasına döyüşən igidlərimizin sayəsində 44 günlük müharibənin hər gününü həyacanla işğal altında olan torpaların azad edilmə xəbərlərinin, Qələbə müjdəsinin bəxş etdiyi duyğular 30 illik həsrətin şölələri olub. 30 illik bir həsrətlə böyüyən yeni nəsil fərqli duyğularlarla, düşüncələrlə inkişaf ediblər. Onlar məktəbə ilk qədəmlərini atdığı andan etibarən əlifba ilə bərabər Qarabağımız haqqında öyrənməyə başlayıb. Fikrət Əmirovun "Qarabağ" marşı, Üzeyir Hacıbəylinin "Cəngi"silə Cıdır düzünə xəyali səyahət etmiş, Sara Qədimovanın, Şövkət Ələkbərovanın həzin nəğmələrilə gözəl Şuşanın, "başı dumanlı dağlarının" həsrətini çəkmiş, Səxavət Məmmədovun yanıqlı səsində "al-əlvan Vətən bağında Xarı bülbül"ün olmadığını öyrəniblər. Xan Şuşinskinin qəlbləri dağlayan ifasında "Qarabağ şikəstəsi"nin laylaları əvəzlədiyi bir dövrdə vurma cədvəli ilə yanaşı, Xocalı faciəsindən başlayaraq, Xocavənd, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Qubadlı, Füzuli və Zəngilan rayonlarının işğal tarixlərini əzbərləyib, erməni quldurlarının törətdikləri vəhşilikləri dərk etməyə çalışıblar. Telekanallarda üzü saqqallı döyüşçülərimizin, əli silahlı igidlərimizin cəbhə bölgəsindən ürək dolusu, vətən sevgisilə dolu çıxışları, doğma yurd-yuvalarından didərgin düşən soydaşlarımızın soyuq qış aylarında piyada, ayaqyalın, başıaçıq vəziyyətdə döyüş bölgəsindən yaxın rayonlara pənah gətirməsini əks etdirən, onların acınacaqlı durumlarını göstərən telereportajlar o dövrün uşaqlarının cizgi filmləri əvəzinə daha çox izlədiyi verilişlər olub. Həyatın qayğısız illərini müharibə kimi bir düşmənlə əvəz edərək o zamanadək eşitmədiyimiz "işğalçı", "qaçqınlar", "məcburi köçkünlər" sözlərilə tez-tez rastlaşıblar. 30 illik bir dönəmdə oyunları döyüş, şeirləri "Qarabağ", musiqiləri Şuşa, yolları Laçın, arzuları Qubadlı, niyyətləri Xocəvənd, istəkləri Cəbrayıl, muradları Xankəndi, göz yaşları Xocalı, fəryadları Ağdam, məqsədləri QƏLƏBƏ olaraq böyüyüblər. Düşmənə nifrətlə, qisas yanğısı ilə boya-başa çataraq öyrəniblər ki, Ermənistanın hərbi

təcavüzü nəticəsində 20 faiz Azərbaycan torpağı erməni işğalçıları tərəfindən zəbt edilib, 20 min azərbaycanlı bu mübarizədə şəhid olub, 100 min nəfər yaralanıb, 50 min adam müxtəlif dərəcəli xəsarət alaraq əlil olub, 4011 nəfər itkin düşüb. Minlərlə insan doğma elindən-obasından didərgin düşüb, respublikanın hər yerinə pənah apararaq, məktəblərin, uşaq bağçalarının, idarə və müəssisələrin inzibati binalarında, istifadəsiz vaqonlarda məskunlaşıblar, ölkəmizdə çadır şəhərcikləri salınıb. Yaşayış üçün əlverişli olmayan ərazilərdə yurd həsrətli, ev-eşiklərindən uzaq düşmüş, əksəriyyəti yaxınlarını, qohumlarını itirmiş insanlar yaşamağa deyil, sözün əsl mənasında həyatda qalmağa çalışıblar. Ona görə də 2020-ci ilə qədər ötən 30 ildə Dağlıq Qarabağ, o cümlədən qaçqın və məcburi köçkünlərin problemlərinin həlli dövlətin ən çox diqqət yetirdiyi prioritet sahələrdən biri olub.

Böyük Qayıdış Dövlət Proqramı ilə həyata keçirilir

Hələ ana bətnindəki ikən doğma Şuşasından didərgin salınan əzəmilərin, atalarını birinci Qarabağ döyüşləri səbəbindən itirən yusiflərin, cəsarətilə seçilən orucların, el-obasından uzaq düşən Laçının Qorxmaz oğullarının, Vətəni üçün canını fəda edən kənanların, "Qarabağ Azərbaycandır!" deyib düşmənə qan udduran faiqlərin, bir sözlə Vətənə sevgilərini tarixə qanla yazan 3000 şəhidimizin qəhrəmanlığı sayəsində 30 illik həyatımızın axarında yerini möhkəmlədən yurd həsrətinə, aktuallığını itirməyən cavabsız suallara, ruhumuza həkk olan nisgilli duyğulara, qəlbimizi incidən ağrıya 44 günlük savaşda son qoyuldu. Məhz yenilməz ordunun tarix yazan ərənlərinin göstərdiyi igidlik nəticəsində bu gün rayonlarımızın tarixə qovuşan işğal günlərini deyil, şanlı qələbə günlərinin qeyd edirik.

Otuz ilə yaxın keçən müddətdə həsrət yaraları ürəklərində qaysaqlamış insanların həsrətinə son qoyan Ali Baş Komandan İlham Əliyev Azərbaycan Respublikasının güclənməsi naminə həyata keçirdiyi sistemli işlərin davamı olaraq işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasını, bərpasını və dayanıqlı inkişafının, milli iqtisadiyyata sürətli inteqrasiyasının və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsini qarşıya hədəf qoydu. Doğma elindən uzaq düşmüş minlərlə insanın qayıdışını yubatmaq olmazdı. Bu hədəflərin reallaşdırılması istiqamətində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət I Proqramı" [1] hazırlandı. Hər bir vətəndaşına xüsusi önəm verən ölkə başçısı doğma yurdlarına qayıdacaq insanlara layiqli həyat şəraitinin təmin edilməsi üçün ilk növbədə onların təhlükəsizliyinin həlli istiqamətində mühüm addımlar atdı. Daha sonra qısa zamanda Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri aparıldı, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri sürətlə həyata keçirildi. Ən əsası isə bölgədə yaşayan əhali keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edildi.

Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" [2] sənədində 5 prioritetdən biri olan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" [2] hədəfinə doğru iri addımlarla irəliləyirik. Hazırda azad edilmiş ərazilərdə məcburi köçkünlərin və yeni sakinlərin dayanıqlı məskunlaşması uğurla təmin edilir, həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilir, orada dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılır.

Doğma Qarabağın ilk məktəblərinin ilk müəllimləri

Doğma Qarabağımızda həyatın yenidən qurulmasında Mingəçevir Dövlət Universitetinin (MDU) də özünəməxsus payı var. Təhsil ocağı olaraq əsas hədəfi cəmiyyətə fayda verməkdən ibarət olan universitet nəticəyönümlü elmi tədqiqatlar aparmaqla və cəmiyyətə faydalı sosial xidmətlər göstərməklə yanaşı, yüksək keyfiyyətli mütəxəssis və yaxşı vətəndaş hazırlayan, gəncləri hərtərəfli inkişaf etdirmək missiyasını həyata keçirən ali təhsil müəssisəsidir. Gənclərin vətənpərvərlik ruhda yetişdirilməsinə xüsusi önəm verən universitetin "müasir təhsil, doğru seçim və uğurlu karyera" sloqanı da məhz bu missiyaya əsaslanır. Bu baxımdan universitetin fəaliyyətində məzunlarla işin keyfiyyətinə hər zaman xüsusi diqqət yetirilir. Çünki bütün təhsil ocaqları onların hazırladıqları məzunları ilə tanınır. Hazırda yüksək dövlət vəzifələrində, özəl təşkilatlarda rəhbər

vəzifələrdə, gənclər sektorunda, nəqliyyat sferasında, sənayedə, bir sözlə istənilən sahələrdə çalışan çoxsaylı MDU məzunu, bu təhsil ocağında aldıqları bilik və bacarıqlar sayəsində universiteti uğurla təmsil edirlər.

İşğaldan azad olunmuş torpaqlarda fəaliyyətə başlayan ilk təhsil ocaqlarında çalışmaq üçün müxtəlif bölgələrdən müraciət edən gənc müəllimlər arasında MDU-nun 3 məzununun olması isə xüsusilə qürurvericidir. Bu gün nəinki MDU kollektivi, hətta həmin məzunları tanıyan hər kəs şərəfli müəllim adını uca tutan gənclər haqqında qürurla danışır, onların cəsarətli fəaliyyətini fəxrlə işıqlandırırlar.

Böyük Qələbədən sonra ölkə prezidentinin illərlə yurdundan, yuvasından didərgin düşmüş insanlara göstərdiyi əyani nümunələrdən biri Zəngilan rayonunun Ağalı kəndinin salınması və bu kənddə açılan tam orta məktəbdir. Yeni tariximizə adı "ağıllı kənd" kimi düşən Ağalı kəndi qələbənin təntənəsi, doğma yurda qayıdışın simvolu, vətənə sevginin rəmzidir, vətənpərvər azərbaycanlıların fədakarlıq meydanıdır. Ağalı həm də 29 ildən sonra düşmən tapdağından azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda ilk məktəb zənginin çalındığı məkandır. Respublikanım müxtəlif rayon və şəhərlərindən könüllü olaraq Ağalı kənd məktəbini seçən müəllimlər indi həmin məkanda yeni nəslə Qarabağ müharibəsində qəhrəmancasına savaşaraq qələbəyə gedən yolun tarixindən, igidlərin qəhrəmanlığından danışır, onların vətənpərvər ruhda böyüməsi üçün çalışırlar.

Böyük qayıdışın təməl daşı olan Zəngilan rayonu Ağalı kənd tam orta məktəbinin ilk müəllimlərindən biri olan, həmçinin MDU-nun məzunu, dayanıqlı inkişafa töhfə verən yüksək ixtisaslı kadrı Şəmsiyyə Şəmsəddinovadır**.**

Ş.Şəmsəddinova 2016-2020-ci illərdə MDU-da İbtidai sinif müəllimliyi ixsisası üzrə təhsil alıb. 2021-ci ildən doğma Qarabağın ilk orta məktəbində çalışır.

Gənc müəllimin işğaldan azad olunmuş torpaqlarda fəaliyyət göstərməsində MDU-nun kollektivinin böyük əməyi vardır. Çünki tələbəlik illərindən Qarabağda fəaliyyət göstərməyi arzulayan gəncin istəklərinə çatmasında müəllimlərinin əməyi böyükdük. Çətinlikdən qorxmayan Şəmsiyyə xanım Azərbaycanın qəhrəman oğullarının bizə bəxş etdiyi azad torpaqlarda çalışan ilklərdən biri olduğu üçün özünü şanslı sayır.

O, igidlərin qanı ilə suvarılan bu torpaqlarda 30 ildən sonra aparılan yenidənqurma işlərini izləməklə bu fəaliyyətin bir parçası olmağın, azad edilmiş ərazilərdə məcburi köçkünlərin və yeni sakinlərin dayanıqlı məskunlaşmasına yardım etməyin, doğma torpaqlarda tarix yazan igidlərin tarixini yeni nəslə çatdırmağın çətin, bir o qədər də şərəfli və məsuliyyətli olduğunu bildirib. Bu gün ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş qalib ölkənin vətəndaşı olaraq hər qarışında şəhidlərin qan izləri qalan Qarabağda işləməyin qürurvericiliyini vurğulayan Şəmsiyyə müəllim gələcək fəaliyyətlərini Qarabağda davam etdirmək istədiyini xüsusilə qeyd edib.

MDU-nun digər iki məzunu – Zəhra İsayeva və İltimas Məmmədova isə Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə btidai sinif müəllim kimi çalışırlar.

Zəhra İsayeva 2018-2022-ci illərdə Mingəçevir Dövlət Universitetinin İbtidai sinif müəllimliyi ixtisasında təhsil alıb. Təhsil aldığı illərdən Qarabağda çalışmaq arzusunda idi. Gənc məzun olduğu andan etibarən bu istəyinə doğru addım atıb. O, müəllimlərin işə qəbul imtahanından uğurla keçərək, Zəngilan rayonunun Ağalı kənd orta məktəbdə fəaliyyətə başlayıb. Vakansiya seçərkən tərəddüd etməyən gənc indi böyük qürurla Qarabağda çalışır. İşğaldan azad olunmuş ərazilərdə qurulan yeni həyatın bir parçası kimi sevdiyi peşə üzrə fəaliyyət göstərib cəmiyyətə faydalı olmaqla fəxr etdiyini bildirən Zəhra İsayeva hazırda ikiqat sevinc yaşadığını qeyd edib. Bu müqəddəs hissləri ona bəxş edən şəhidlərimizin ruhu qarşısında baş əydiyini deyən müəllim Ali baş Komandan İlham Əliyevə, Azərbaycanın Milli Ordusunun qəhrəman əsgər və zabitlərimizə də təşəkkür etməyi unutmur.

Müəllimliyə işğaldan azad olunmuş ərazilərdə başlamaq isə qürurverici olduğunu deyən gənc müəllimin hazırda dərs keçdiyi sinifdə 30 il əvvəl doğma yurdlarından didərgin düşmüş şəxslərin övladları təhsil alır. O, sevimli peşəsi sayəsində həmin uşaqlara üstündə gəzdikləri torpağın şanlı

keçmişindən, mənfur düşmənlərin gözəl yurdlarımıza göz dikməsindən, işğal edilməsindən, ötən illər ərzində ölkə rəhbərlərinin həyata keçirdiyi uğurlu islahatlar nəticəsində qazanılan şanlı zəfər tarixindən danışıb, onların vətənpərvər ruhda böyüməsi üçün çalışır. Bu işin qürurverici olmağı ilə yanaşı üzrərinə böyük məsuliyyət götürdüyünü bildirən Zəhra İsayeva ona etimad edən, onun gələcək fəaliyyətinə inanan və digər məzunları kimi onu da hər zaman diqqət mərkəzində saxlayan, eyni zamanda dəstəkləyən MDU ailəsinin qayğısı sayəsində bu məsuliyyətin öhdəsindən uğurla gələcəyini vurğulayır.

Qürur duydğumuz digər gəncimiz isə MDU-nun 2020-ci il məzunu İltimas Məmmədovadır. O, universitetə 2016-cı ildə, Aprel döyüşləri baş verən il qəbul olub. Hələ o vaxtdan Qarabağa getməyi düşünən vətənpərvər gənc məzun olduğu il – Şanlı Zəfər əldə olunduqdan sonra məqsədinə doğru can atmağa başladı. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış başlanan andan İ.Məmmədova heç tərəddüd etmədən Doğma Qarabağda işləmək üçün müraciət etdi. İndi o, Azərbaycan Ordusunun düşməndən azad etdiyi ərazilərdə, daha dəqiq desək hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraiti ilə təmin olunmuş Füzuli rayonunda çalışır. Doğma yurdlarına qayıdanların, həmçinin bu ərazilərin yenidən qurulmasında bilavasitə iştirak edən Qarabağ bölgəsinin yeni sakinlərinin övladlarına dərs demək, elə Doğma Qarabağın qurulan təməlinə bir daş qoymaqdır. 30 illik həsrətdən sonra evlərinə qayıdanlara dəstək durmaq, onların yüksək rifahlı həyatla təmin olunmasında iştirak etmək həm məsuliyyətdir, həm də qürurvericidir.

Bu gün işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın təminatında, həmçinin dayanıqlı məskunlaşma konsepsiyasının icrasında əməyi olan, Şəhid qəhrəmanlarımızın qanı tökülmüş torpaqlarda fəaliyyət göstərən hər kəslə, xüsusən də haqqında danışdığımız hər üç gənc müəllimlə və onların timsalında Qarabağda çalışan bütün həmvətənlərimizlə qürur duyuruq.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"- Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilib.

2. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət I Proqramı" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilib.

QARABAĞIN TARİXİ VƏ MƏDƏNİ TURİZM POTENSİALININ TƏDQİQİ

[1,2]**İlhamə Ağamusa qızı Zeynalova**, [1,3]**Gülər Çingiz qızı Bayramova**
[1]ETN akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
[2]izeynalova112@gmail.com
https://orcid.org/0009-0003-2648-4621
[3]gulyar.gulalieva@bk.ru
https://orcid.org/0009-0003-3197-0261

Turizm sosial-iqtisadi proses kimi cəmiyyətin həm iqtisadi, həm də sosial mühitinin tərkib hissəsinə daxildir. Məhz buna görə də dünya dövlətlərinin əksəriyyəti turizmin milli iqtisadiyyata müsbət təsirlərini qiymətləndirərək, siyasi, iqtisadi və sosial məsələlərin həllində turizmin inkişafını şərtləndirən xüsusi tədbirlər həyata keçirirlər. Xüsusi xidmət sferası olan turizmin özünəməxsus cəhətlərindən biri də onun təsərrüfatın digər sahələrinin inkişafına təsiridir. Belə ki, turizm nəqliyyat, ticarət, rabitə, məişət xidməti, istehlak malları istehsalı, kənd təsərrüfatı və digər sahələrin inkişafını şərtləndirir. Yuxarıda qeyd edilənlərə əsasən Qarabağın perspektiv sosial-iqtisadi inkişafı turizm sahəsi ilə sıx əlaqəlidir [1, s.35].

Səyahət edilən ərazinin turistlər tərəfindən seçilməsində regionun təbii xüsusiyyətləri ilə yanaşı, tarixi-mədəni abidələr də vacib əhəmiyyət daşıyır. Əksər hallarda isə mədəniyyət obyektləri və tarixi-mədəni abidələr ərazinin turistlər tərəfindən seçilməsində əsas amil kimi götürülür [5, s.258].

Tarixi-mədəni turizm ehtiyatlarına məbəd, müəyyən tarixi mərhələləri əks etdirən ərazilər, tarix, mədəniyyət və memarlıq abidələri, tanınmış şəxslərin həyat və fəaliyyəti ilə bağlı yerlər, memorial, müxtəlif profilli muzeylər aiddir [6, s.74].

Tarixi abidələrə qədimliyi ilə seçilən tikililər, vacib tarixi hadisələri özündə əks etdriən məntəqələr, müxtəlif memarlıq nümunələrinə malik binalar aid edilir. Tarixi abidələrə xalqın tarixində, ictimai və siyasi formalaşmasında xüsusi yeri olan şəxsiyyətlərin həyatı və fəaliyyəti ilə bağlı maddi nümunələr də daxil edilir [4, s.62].

Qarabağ nəinki Azərbaycanın, həmçinin əksər dünya ölkələrindən fərqli olaraq daha qədim tarixə malik bir ərazidir. Qarabağ dünyanın ən qədim insan məskənlərindən biri kimi fərqlənərək, sərhədləri daxilində yerləşən və 2 mln il yaşa malik Azığ mağarası insanların yaşadığı ərazi olmuşdur. Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının Tunc və Dəmir dövründə mövcud olan Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskəni kimi seçilir.

Qarabağ zəngin memarlıq abidələri ilə fərqlənir. Ərazidəki bəzi memarlıq abidələrinin yaşı min illərə gedib çıxır. Azərbaycanın tarixən formalaşmış memarlıq məktəblərindən biri olan Qarabağda oxşar milli cəhətlərlə yanaşı, inşaat-konstruksiya və bədii-estetik xüsusiyyətlərdə spesifiklik də müşahidə edilir. Qarabağın memarlıq abidələri erməni işğalı nəticəsində dağıdılsa da, ərazidə aparılan genişmiqyaslı bərpa işlərindən sonra onlar əvvəlki vəziyyətlərinə gətiriləcəkdir ki, nəticədə də tarixi-mədəni turizmin resurs bazası möhkəmlənəcəkdir.

Ağdərədə Amaras, Ağdamda alban xristian məbədləri, Xocavəndin alban kilsəsi, Ağcabədinin Təzəkənd yaşayış məntəqəsindəki üçnefli bazilikalı bina, Bərdə şəhərində aşkar olunmuş üç yarım dairəvi apsidalı məbəd Qarabağın spesifik memarlığını əks etdirir.

Qarabağ ərazisində müxtəlif növ mədəniyyət abidəsi qeydə alınmışdır ki, bunların da çoxunu epiqrafik abidələr təşkil edir. Şuşa, Ağdam, Bərdə və Füzuli rayonları ərazisindən çoxlu sayda tikinti, qəbir və s. epiqrafik abidələri aşkar edilmişdir ki, onlar da sonralar tədqiqata cəlb olunmuşdur.

Ağdamın tarixi abidələri kimi Xanoğlan məqbərəsi (XVII əsr), Qarabağ xanı Pənahəli xanın imarəti və məqbərəsi, məscid (XVIII əsr), Kəngərli kəndində türbə (XIV əsr), Xaçıntürbətli kəndində Qutlu Musa oğlu türbəsi (1314-cü il), Papravənd kəndində 2 türbə və məscid (hamısı XVIII əsr), Ağdam şəhərindən 10 km qərbdə, Şahbulaq adlanan yerdə karvansara və qüllə (XVIII əsr) fərqlənir. Şuşada turistlərin marağına səbəb olacaq və XVIII əsrə aid çoxlu sayda memarlıq abidələri vardır ki, onların da arasında "Gəncə darvazası" və qala divarları (1754-cü il), İbrahim Xəlil xanın və onun qızı Qara Böyükxanımın qəsrləri, Qarabağ xanlarının imarəti, Hacıqulular sarayı, karvansara, qala qüllələri, qədim "Şirinsu" şərq hamamı, hərbi sərkərdə Səməd bəy Mehmandarovun və şair-rəssam Mir Möhsün Nəvvabın evi xüsusilə seçilirlər [2, s. 463-464].

Qarabağın tarixi, mədəni və memarlıq abidələrindən ərazidə turizmin tarixi-mədəni növünün inkişafında istifadə etmək perspektiv üçün nəzərdə tutulmuşdur.

Arxeoloji abidələrə qədim yaşayış məntəqələrinin qalıqları, kurqanlar, qədim insanların yaşadığı mağaralar, müxtəlif antik əşyaların cəmləndiyi ərazilər aiddir. Arxeoloji abidələrin yerləşdiyi sahələr etnoqrafik və elmi əhəmiyyət kəsb edən ərazi kimi qorunur [4, s.63].

Qarabağın dağlıq hissəsində Xankəndi, Ağdərə, Xocavənd, Şuşa, aran hissəsində isə Bərdə, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarında arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələri və numizmatik dəlillər ümumilikdə ərazinin tarix və etnoqrafiyasını, əhalisinin sosial-iqtisadi səviyyəsini və məişət şəraitini əks etdirir. Qarabağın dağlıq və aran hissəsində aşkar edilmiş qədim daş abidələr – Xocalıdakı dolmenlər, Xankəndindəki kromlexlər,

eləcə də Qarabağın müxtəlif yerlərindən tapılmış antik dövrə aid daş qutu qəbirlər maddi mədəniyyət nümunələri kimi fərqlənməklə, həmin dövrün ideologiyası və mənəvi düşüncəsini nümayiş etdirir.

Ağcabədi, Bərdə, Tərtər və Qarabağın dağlıq ərazisində türk xalqlarına məxsus olan və b.e.ə. VI-III əsrlərə aid çoxlu sayda skif kurqanları aşkar edilmişdir. Antik mənbələrə əsasən Qarabağın bəzi ərazilərində – Uti, Arsak və Paytakaranda qədim şəhərlər mövcud olmuşdur. Belə ki, Bərdə, Govurqala (Ağdam), Qaraköpək təpə (Füzuli), Ergi yaşayış yeri (Ağcabədi) və s. ərazidə aparılan arxeoloji tədqiqatlar qeyd olunanları təsdiqləyir.

Şuşada uzunluğu 125 m, eni 20 m, hündürlüyü 10 m olan Şahnəzər mağarasından Paleolit dövrünə aid 2 kobud daş çapacaq, Mezolit dövrünə aid mikrolit bıçaqlar, b.e.ə. V-IV minilliyə aid Eneolit gil qablar, Tunc, Dəmir dövrləri və orta əsrlərə aid saxsı məmulat qalıqları, müsəlman qəbri tapılmışdır [3, s.188].

Xocavənd rayonunda arxeoloji abidə kimi dünyanın ən qədim sakinlərindən olan Azixantropun alt çənəsinin tapıldığı Azıx və 90 mln il əvvəldən 35 mln il əvvələ qədər yaşayış olduğu müəyyənləşdirilən Tağlar mağaraları fərqlənir. Xocalı rayonunda Xankəndi şəhəri yaxınlığında qəbilə üzvləri və başçılarının dəfn olunduqları Xankəndi kurqanları aşkar edilmişdir.

Füzuli rayonunda, Füzuli şəhəri yaxınlığında, Köndələnçayın sağ sahilində çoxtəbəqəli qədim yaşayış yeri, Bala Bəhmənli yaxınlığında Kültəpə çoxtəbəqəli qədim yaşayış yeri, Mirzəcamallı kəndi yaxınlığında 20 kurqandan ibarət Yedditəpə arxeoloji abidəsi fərqlənir.

Tərtərdə Xoruzlu kəndi yaxınlığında Xoruzlu kurqanları, Borsunlu kəndi yaxınlığında Borsunlu kuqanları, Dəmirçi kəndi yaxınlığında Dəmirçi kurqanları, Evoğlu kəndi yaxınlığında Böyüktəpə, Qurdtəpə və Çaqqaltəpə kurqanları, Azad Qaraqoyunlu kəndi yaxınlığında yaşayış yeri, Hüseynli kəndi yaxınlığında Hüseynli və Sayadtəpə kurqanları aşkar edilmişdir.

Ağdamda Əfətli kəndi yaxınlığında Çalağantəpə yaşayış yeri, Ağdam şəhəri yaxınlığında Çıraqtəpə, Qarahacı və Vəlixantəpə yaşayış yerləri və kurqanlar, Baş Qərvənd kəndi yaxınlığında İlanlıtəpə yaşayış yeri, Orta Qərvənd və Mirəşelli kəndlərinin arasında Dəyirmantəpə kurqanı, Məşrəfli kəndi yaxınlığında Şomutəpə yaşayış yeri, Mirəşelli və Armudlu kəndlərinin arasında Bənövşələr təpəsi yaşayış yeri, Mirəşelli kəndi yaxınlığında Gültəpə yaşayış yeri tapılmışdır.

Bərdə rayonu ərazisində tapılmış gümüş və mis sikkələrdən ibarət Bərdə dəfinələri və Şatırlı kəndi yaxınlığında Şortəpə qədim yaşayış yeri arxeoloji abidələr kimi fərqlənir.

Ağcabədidə Sarıcalı kəndi yaxınlığında Səngərtəpə yaşayış yeri, Poladlı kəndi yaxınlığında Govurtəpə, Yolçəkəntəpə, Aşıxlıtəpə kuqanları, Ağcabədi şəhərində Üçtəpə və Şahtəpə kuqanları, Hindarxı kəndində Çaqqallıtəpəı yaşayış yeri, Qasımtəpə və Hüsynbəy kurqanları, Boyat kəndi yaxınlığında Töyrətəpə yaşayış yeri, Boyatqala, Arazbar kəndi yaxınlığında b.e.ə. I minilliyə aid yaşayış yeri, Salmanbəyli kəndi yaxınlığında Qaqagöbər nekroloqu, Üçtəpə yaşayış yeri aşkar edilmişdir.

Qarabağda arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş nümunələr ərazidə turizmin inkişafı baxımından yüksək qiymətləndirilərək, turizm fəaliyyətini təşkil etməyə əlverişli şərait yaradır.

Qarabağın tarixi və mədəni turizm potensialını tədqiq edərək, aşağıda qeyd edilən nəticələrə gəlmək olar:

- Tarixi-mədəni turizmin mahiyyəti əsaslandırılmış, tarixi və arxeoloji abidələrin strukturu müəyyən edilmişdir;
- Qarabağ turizmin tarixi-mədəni növünün inkişafına imkan verən zəngin tarixi, mədəni və memarlıq abidələrinə sahibdir;
- Qarabağın inzibati rayonları üzrə tarixi, mədəni və arxeoloji abidələrin səciyyəsi verilmiş, onların əhəmiyyəti göstərilmişdir;
- Qarabağın tarixi-mədəni zənginlikləri erməni işğalı nəticəsində dağıdılıb yararsız vəziyyətə gətirilsə də, ərazidə aparılan genişmiqyaslı bərpa işləri bütün sahələr kimi, abidələri də əhatə edir;

- Qarabağda arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş abidələr turizm fəaliyyətini təşkil etməyə əlverişli şərait yaradır.

İstifadə edilmiş ədəbiyyat

1. Ağakişiyeva G.R. Qarabağda turizmin inkişaf imkanları // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dillər Universiteti. "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda ikinci Qarabağ Vətən müharibəsi: Dövlət, Xalq, Ordu birliyi. Uğurlar və perspektivlər" adlı Beynəlxalq Elmi konfransın materialları. Bakı, 2022, s.35-39
2. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı: Mütərcim, 2002. 512 s.
3. Məmmədov Q.Ş., Yusifov E.F., Xəlilov M.Y., Kərimov V.N. Azərbaycan: Ekoturizm potensialı. II hissə. Bakı: Şərq-Qərb, 2012. 420 s.
4. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı: AzTU, 2015. 475 s.
5. Agakishiyeva G.R., İsmayılova E.A. Contemporary situation and development directions of the cultural tourism in the mountainous areas of Azerbaijan // Universidad & Sociedad. Revista multidisciplinar de la Universidad de Cienfuegos. 2022, 14 (5), p. 256-263
6. Погодина В.Л., Филиппова И.Г. География туризма. Москва: ИНФРА-М, 2012. 256 с.

POST-MÜNAQİŞƏ DÖVRÜNDƏ ABŞ-IN QARABAĞ SİYASƏTİ

Şəlalə Rza qızı Quliyeva
Mingəçevir Dövlət Universiteti
shalala.quliyeva@mdu.edu.az
https://orcid.org/0000-0003-0692-9366

İkinci Qarabağ müharibəsi bitdikdən sonra regionda formalaşan yeni geosiyasi reallıqlar Cənubi Qafqazda maraqları, təsir imkanları olan bir sıra böyük dövlətlərin, güc mərkəzlərinin siyasətində də müəyyən korrektələr etməsinə səbəb oldu. Bu ölkələrdən biri də Birləşmiş Ştatlardır. Ağ Evin regional siyasətinin ən yeni tarixi haqqında onu qeyd etmək olar ki, Sovet İttifaqı dağıldıqdan və Cənubi Qafqaz ölkələri beynəlxalq münasibətlərin müstəqil subyektinə çevrildikdən sonra bölgə ABŞ-ın geostrateji baxımdan maraqları dairəsinə daxil edildi.

1990-cı illərin əvvəllərində soyuq müharibəni qələbə ilə başa vuran və yeganə fövqəldövlətə çevrilən ABŞ-ın Cənubi Qafqaz siyasətinin prioritetlərini bu amillər təşkil edirdi: enerji, təhlükəsizlik və siyasi islahatlar [1, s.423]. Enerji amili ABŞ-ın Cənubi Qafqaz və Xəzər hövzəsi regionunda siyasətini müəyyən edən əsas faktorlardan biri kimi çıxış edib. 1990-cı illərdə və 2000-ci illərin əvvəllərində Birləşmiş Ştatların regionla bağlı siyasətində enerji faktorunun əhəmiyyəti Vaşinqtonun qəbul etdiyi strateji sənədlərdə də ifadə olunur. Məsələn, 2003-cü ildə qəbul edilmiş Milli Təhlükəsizlik Sənədində Xəzərin enerji mənbələrinin strateji əhəmiyyəti xüsusi qeyd edilir. Eyni zamanda, Cənubi Qafqazda təhlükəsizlik və siyasi islahatlar məsələləri də ABŞ-ın həmin dövrdə qəbul etdiyi analoji sənədlərdə öz əksini tapıb.

ABŞ-ın İkinci Qarabağ Müharibəsinə qədər Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həyata keçirdiyi siyasət müəyyən istisnalarla (1992-ci ildə Konqres tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin qəbulu və s.) əsasən tarazlığı qorumaq prinsipinə əsaslanmışdır. Vaşinqton həm Azərbaycanla, həm də Ermənistanla münasibətləri pozmaqdan çəkinərək Qarabağ münaqişəsində neytrallığını qorumağa çalışmışdır.

Birləşmiş Ştatlar bir tərəfdən ölkəmizin ərazi bütövlüyünə hörmət etdiyini bəyan etsə də, digər tərəfdən də Qarabağda yaşayan ermənilərin statusu və Ermənistanın təhlükəsizliyi məsələsini də daim diplomatik gündəliyində saxlamışdır. ABŞ-ın münaqişəyə münasibətdə sərgilədiyi bu mövqe ölkəmizi o qədər də qane etməmişdir. 1990-cı illərin ikinci yarısından ABŞ Ermənistan-Azərbaycan münaqişəsinə ATƏT-in Minsk Qrupunun həmsədri kimi cəlb olunmuşdur və digər həmsədr dövlətlər olan Rusiya, Fransa ilə birlikdə konfliktin dinc yollarla nizamlanması prosesində birbaşa iştirak etmişdir. Həmçinin, 1990-cı illərin sonları – 2000-ci illərin əvvəllərində Vaşinqton münaqişənin həlli ilə bağlı fərdi təşəbbüslərlə də (Ki-Uest danışıqları və s.) çıxış etmişdir. Bir vacib məqamı da qeyd etmək lazımdır ki, ölkəmizlə enerji sahəsində əməkdaşlıq (1994- cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması və s.) və 2001-ci ildə antiterror kampaniyası çərçivəsində Əfqanıstanda başlanan müharibə Birləşmiş Ştatlar üçün Azərbaycanın geoiqtisadi, geostrateji, tranzit əhəmiyyətini artırmışdır ki, bu proseslərin nəticəsində də Vaşinqton Ermənistanla münaqişə kontekstində ölkəmizə doğru müəyyən müsbət reveranslar (2001-ci ildən başlayaraq 907-ci düzəlişin hüquqi qüvvəsinin müvəqqəti dayandırılması və s.) etmişdir [3, 265]. Hətta Trampın prezidentliyi dönəmində ABŞ ölkəmizə 200 milyon dollar dəyərində silah satışını da həyata keçirmişdir.

Vaşinqtonun İkinci Qarabağ Müharibəsindən sonra postmünaqişə dövrü problemlərinə yanaşmasında sərgilədiyi davranışlarda ciddi dəyişikliklərin baş verdiyini aydın görmək olar. Birləşmiş Ştatlar Azərbaycanın mövqeyindən fərqli olaraq münaqişənin bitmədiyini və bu səbəbdən də ATƏT-in Minsk Qrupunun fəaliyyətinin bərpa edilməsi zərurətini bəyan edir, Ermənistan-Azərbaycan sərhədində, Qarabağ bölgəsində baş verən toqquşmalarda daha çox ölkəmizi ittiham edir. Xüsusilə son aylarda ABŞ rəsmilərinin qeyd etdiyimiz mövzularda verdiyi açıqlamalara, bəyanatlara, atdığı addımlara xronoloji ardıcıllıqla baxdıqda, Vaşinqtonun Ermənistana doğru müsbət reveranslarının tezliyinin artdığını görmək mümkündür.

2022-ci il avqustun ilk günlərində Azərbaycanın Kəlbəcər və Laçın bölgələrində baş verən və Ermənistanın təxribatları nəticəsində meydana çıxan növbəti gərginlikdən sonra ABŞ Dövlət Departamentinin rəsmi açıqlamalarında "Dağlıq Qarabağ" münaqişəsinin yalnız danışıqlar yolu ilə həllinin mümkünlüyü vurğulanırdı. Həmin dövrdə ABŞ Dövlət Departamentinin rəsmi saytında iki məlumat dərc olunub [2]. Birinci yazıda ABŞ dövlət katibi Entoni Blinkenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng etməsi ilə bağlı məlumat verilib: "E.Blinken gərginliyi azaltmağa və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı və ya ondan irəli gələn məsələləri həll etmək üçün Azərbaycan və Ermənistanı birbaşa dialoqa çağırıb". İkinci məlumatda da ABŞ dövlət katibi Blinkenin Ermənistan Baş naziri Paşinyana zəng edərək oxşar məzmunlu danışıqlar apardığı bildirilir. Məsələ ilə bağlı ABŞ qanunverici orqanının nümayəndələri də 5-6 avqust tarixlərində müxtəlif açıqlamalar vermişdir. ABŞ Senatının Xarici Əlaqələr Komitəsi tərəfindən paylaşılan tvitdə qeyd olunur: "Azərbaycanın Dağlıq Qarabağda törətdiyi ölümcül hücumlar təkcə atəşkəs rejiminin pozulması deyil, həm də bu ölkənin son zamanlardakı təcavüzkar davranışının qəbuledilməz davamıdır. Azərbaycan qüvvələri bölgədən geri çəkilməli və Dağlıq Qarabağ xalqına qarşı hərbi əməliyyatlara son qoymalıdır". Avqustun 27-də Şuşada keçirilən beynəlxalq konfransda ABŞ və Fransa səfirlərinin nümayişkaranə formada iştirak etməməsi Azərbaycan hökuməti tərəfindən ərazi bütövlüyümüzə qarşı hörmətsizlik kimi dəyərləndirilmişdir [2].

2022-ci il sentyabrın 13-14-də Ermənistan-Azərbaycan sərhədində baş verən toqquşmalardan sonra Amerika rəsmiləri, Konqres nümayəndələri də ölkəmizi günahlandıran açıqlamalarla çıxış etmişdir. Sentyabrın 17-də Ermənistana gələn ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosi ölkəmizin ünvanına sərt ittihamlar səsləndirmişdir. Nensi Pelosi Ermənistana səfəri haqqında bildirmişdir ki, "bu səfər iki yüzdən çox insanın həlak olduğu sərhəd toqquşmalarına səbəb olan Azərbaycanın Ermənistan ərazisinə qanunsuz və ölümcül hücumlarından sonra xüsusi əhəmiyyət daşıyır. ABŞ Konqresi adından Azərbaycanın Ermənistan üzərinə hücumlarını qətiyyətlə pisləyirik". ABŞ dövlətinin üçüncü şəxsinin belə bir həssas dövrdə Ermənistana səfəri (səfər

əvvəlcədən planlaşdırılsa belə) və bu səfər müddətində Azərbaycanı ittiham etməsi Vaşinqtonun postmünaqişə dövrü problemlərinə yanaşmasında vacib nüanslardan hesab oluna bilər [2].

Beləliklə, qeyd olunanları nəzərə alaraq, İkinci Qarabağ Müharibəsindən sonra ABŞ-ın regionla bağlı siyasətində yeni ziddiyyətli məqamların olduğu qənaətinə gəlmək mümkündür. Fikrimizcə, Vaşinqtonun postmünaqişə problemlərinə münasibətdə nümayiş etdirdiyi ziddiyyətli məqamlar əsasən ABŞ-ın İkinci Qarabağ Müharibəsindən sonra Cənubi Qafqazda formalaşmış yeni geosiyasi reallıqlardan o qədər də məmnun qalmaması və bu ölkədə güclü olan erməni lobbi qruplarının fəaliyyəti ilə bağlıdır. ABŞ postmünaqişə dövrü problemlərinin həllində Rusiyanın üstünlük əldə etməsini, Moskvanın regionda mövqeyinin güclənməsini, Vaşinqtonun isə sülh prosesindən kənarda qalmasını özünün bölgə ilə bağlı geostrateji maraqlarına təhdid kimi qəbul edir. Eyni zamanda, burada Demokratlar üzərində daha çox təsir imkanları olan erməni lobbi qruplarının fəaliyyəti də nəzərdən qaçırılmamalıdır. Xüsusilə də, noyabrda Konqresə keçiriləcək aralıq seçkilər ərəfəsində bu lobbi qrupları fəallığını daha da artırır. Nəticədə ABŞ siyasətində mühüm hadisə olan aralıq seçkilər ərəfəsində hakim partiya erməni diasporunun dəstəyini əldə etmək üçün müəyyən ermənipərəst addımlar atmaqdan çəkinmir.

Onu da qeyd edək ki, xüsusilə sentyabr ayında Vaşinqton tərəflər arasında vasitəçilik təşəbbüsləri ilə çıxış etmişdir. Məsələn, sentyabrın 14-də dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə BMT Baş Assambleyasının iclasında iştirak etmək üçün Birləşmiş Ştatlara gələn Ermənistan və Azərbaycan Xarici İşlər Nazirlərinin görüşü keçirilmişdir. Görüşdə tərəflər son toqquşmalardan sonra yaranmış vəziyyəti müzakirə edib. ABŞ Dövlət Departamenti bu görüşün dövlət katibi Blinkenin təşəbbüsü ilə keçirildiyini açıqlayıb və bildirib ki, rəsmi Vaşinqtonun məqsədi münaqişə tərəfləri arasında danışıqları intensivləşdirməkdən ibarətdir. Daha sonra sentyabrın 27-də ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanın vasitəçiliyi ilə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında görüş olub. Görüşün nəticələri ilə bağlı Ceyk Sallivan bildirib ki, "biz növbəti zorakılıqdan qaçmağın və vaxtında məqsədyönlü danışıqların aparılmasının vacibliyini müzakirə etdik". Birləşmiş Ştatların təşəbbüsü ilə keçirilən görüşlər, bu görüşlərdə müzakirə olunan məsələlər və ümumiyyətlə, Ermənistanla Azərbaycan arasında davam edən sülh prosesi ilə bağlı ABŞ-ın siyasi, elmi dairələrinin verdiyi açıqlamalar bir sıra vacib qənaətlərə, nəticələrə gəlməyimizə imkan verir. Bu nəticələri əsasən belə qeyd edə bilərik ki, ABŞ qısa müddət ərzində iki ölkə arasında sülh müqaviləsinin imzalanmasına nail olmağa çalışır. Beləliklə, Rusiya və Avropa İttifaqından sonra vasitəçilik təşəbbüsləri ilə çıxış edən Birləşmiş Ştatların postmünaqişə dövrü problemlərinin həllində əsas məqsədi kimi tezliklə regionda davamlı sülhə nail olmağı qeyd etmək mümkündür. Vaşinqtonda aydın dərk edirlər ki, bölgədə ciddi münaqişə potensialı olan problemlərin mövcudluğu ABŞ-a rəqib olan güc mərkəzlərinin Cənubi Qafqazda təsir imkanlarının qorunub saxlanmasına xidmət edir. Buna baxmayaraq, Vaşinqtonun postmünaqişə dövründə həyata keçirdiyi siyasətdəki bir sıra təzadlı məqamlar ABŞ-ın regionda sülhün əldə olunmasının vacibliyi ilə bağlı strategiyası ilə ziddiyyət təşkil edir. Bu isə onsuz da kövrək olan sülh prosesinin uğurla davam etməsinə mane olur. Eyni zamanda regionun aparıcı dövləti olan, Birləşmiş Ştatlarla da strateji tərəfdaşlıq münasibətlərinə malik ölkəmizlə də münasibətlərdə ciddi problemlər yaradır.

İstifadə edilmiş ədəbiyyat

1. Həsənov, Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 631 s.
2. Məmmədli M. ABŞ-ın Cənubi Qafqaz siyasəti. https://aircenter.az/az/single/post-munaqise-dovrunde-abs-in-siyaseti-1058
3. Mustafayeva S. ABŞ-ın xarici siyasəti (1945-2010). Bakı, 2011, 301 s.

ZƏNGƏZUR DƏHLİZİNDƏ NƏQLİYYAT İNFRASTRUKTURUNUN İNKİŞAFI

Əli Xanlar oğlu Qurbanov
Mingəçevir Dövlət Universiteti
ali.qurbanov@mdu.edu.az
https://orcid.org/0009-0005-2255-1836

Nəqliyyat iqtisadi fəaliyyətin yaxşı işləməsi üçün həyati əhəmiyyət kəsb edir və əhalinin sosial rifahını və birliyini təmin etmək üçün açardır. Nəqliyyat insanların gündəlik hərəkətliliyini təmin edir və malların istehsalı, paylanması üçün mühüm əhəmiyyət kəsb edir. Adekvat infrastruktur nəqliyyat sistemləri üçün əsas ilkin şərtdir. Bununla belə, hökumətlərdə və beynəlxalq təşkilatlarda qərar qəbul edən şəxslər nəqliyyatı asanlaşdırmaq səylərində çətin sınaqlarla üzləşirlər. Bunlara fiziki maneələrin və ya maneələrin, məsələn, qeyri-kafi və ya qeyri-adekvat nəqliyyat infrastrukturunun, dar boğazların və çatışmayan keçidlərin mövcudluğu, habelə onların aradan qaldırılması üçün vəsaitin olmaması daxildir. Bu problemlərin həlli asan məsələ deyil. Bu, aidiyyəti hökumətlərin fəaliyyətini, beynəlxalq səviyyədə digər hökumətlərlə əlaqələndirilmiş hərəkətləri tələb edir.

Azərbaycan özünü bütünlüklə bu dəhlizin inkişafına və yenidən aktivləşməsinə həsr etmişdir. Əməkdaşlığın, uzunmüddətli nailiyyətlər əldə etməyin ən təsirli vasitəsi olduğuna inanan nəqliyyat əlaqələri regionda sülhə bağlanır və Zəngəzur dəhlizi Avrasiyanın nəqliyyatını yeni arteriya ilə təmin edəcək şəbəkə və regional ölkələr arasında iqtisadi və ticarət əlaqələrini yaxşılaşdıracaqdır. Türkiyə bu dəhlizdən istifadə etməklə, Azərbaycanla quru əlaqəsi, ikitərəfli ticarət və turizm əlaqələrinin genişləndirilməsi, iki ölkə arasında eləcə də Zəngəzur dəhlizi ilə Regional Mərkəzin qapısı rolunu oynayacaqdır.

Zəngəzur dəhlizi Türkiyə üçün Asiya, Türk Dünyası ilə ticarət əlaqələrini genişləndirməyə imkan verir. Türkiyə də Naxçıvanı Qars-Naxçıvan dəmir yolu ilə və Türkiyə ilə birləşdirəcək yeni layihənin hazırlanması bu dəmir yolunun sonradan Zəngəzur dəhlizinə qoşulması ikitərəfli münasibətlərə daha bir təkan verəcək. Ermənistan Azərbaycan və Türkiyə arasında ticarət əlaqələrinin, həmçinin regional nəqliyyat və digər sahələrdə əməkdaşlığın dəyərini anlayır. Ermənistanın müttəfiqi Rusiya ilə də dəmir yolu əlaqəsidə olacaq, bu da həm nəqliyyat eləcədə iqtisadi baxımdan əlverişli olacaqdır.

Bu marşurut Avropaya qonşu İranı, həm də Azərbaycanı Türkiyə və Mərkəzi Asiya ilə birləşdirəcək. Prezident İlham Əliyevin fevralın 15-də imzaladığı sərəncama əsasən Horadiz-Ağbənd 100 kilometrlik dəmir yolu Azərbaycan-İran sərhədindən Ermənistan sərhədinə qədər uzanacaq və onun bir hissəsi olacaq. Azərbaycanı Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanla birləşdirən dəmir yolu xətti qurulacaq.

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasına (UNECE) üzv dövlətlər Avropada ardıcıl beynəlxalq nəqliyyat şəbəkələrinin inkişafında çoxillik təcrübələrə malikdir. Onlar müvafiq olaraq, avtomobil, dəmir yolu, daxili su və birləşmiş nəqliyyat üçün əlaqəli şəbəkələrin inkişafına yönəlmiş 4 əsas nəqliyyat şəbəkəsi sazişi yaratmışlar:

- 1975-ci ildə imzalanmış Əsas Beynəlxalq Trafik Arteriyaları üzrə Avropa Sazişi (AGR);
- 1985-ci ildə imzalanmış Əsas Beynəlxalq Dəmir Yolu Xətləri üzrə Avropa Sazişi (AGC);
- 1991-ci ildə imzalanmış Mühüm Beynəlxalq Birləşdirilmiş Nəqliyyat Xəttləri və Əlaqədar Qurğular üzrə Avropa Sazişi (AGTC);
- 1996-cı ildə imzalanmış Beynəlxalq Əhəmiyyətli Əsas Daxili Su Yolları üzrə Avropa Sazişi (AGN).

UNECE-ə üzv dövlətlərə bütün UNECE regionunda beynəlxalq avtomobil nəqliyyatının inkişafı məqsədi ilə əlaqəli beynəlxalq yol şəbəkəsinin qurulması və inkişafı üçün beynəlxalq hüquqi baza təqdim edir.

İqtisadi arteriyalar coğrafi və ya regional əraziləri birləşdirən maliyyə məqsədləri üçün vahid infrastrukturdur. Dəhlizlər iqtisadi qovşaqlar və ya mərkəzlər arasında kritik əlaqələri təmin edir. Onlar regional inteqrasiya və şəbəkə bağlantısı kimi keyfiyyətləri paylaşır. Dərhal regional inteqrasiya, enerji, ticarət, turizm və s. vasitəsilə iqtisadi inkişafa gətirib çıxarır. Şəbəkə əlaqə körpülərini, iqtisadi boşluqları, ticarət axınını gücləndirir, yoxsulluq və işsizliyi azaldır. Nəqliyyat və təsərrüfat fəaliyyəti ayrıca nəzərdən keçirilməməlidir. Nəqliyyat və enerji infrastrukturu, inkişaf edəcək layihələrin geridə qaldığı sahələrə investisiya tələb olunur.

AGR Avropada əsas beynəlxalq yol nəqliyyat axınlarını istiqamətləndirən arteriyalardan və həmin arteriyaların uyğun gəlməli olduğu infrastruktur parametrlərindən ibarət e-yol şəbəkəsini müəyyən edir. AGR daim nəzərdən keçirilir və onu yeni siyasi və nəqliyyat inkişaflarına, məsələn, yeni regionlarda yeni yollara ehtiyac və ya yeni nəqliyyat axınları tərəfindən yaradılanlara uyğunlaşdırmaq üçün yenilənir. Yeni Şərq-Qərb nəqliyyat axınlarını nəzərə almaq üçün Dəmir Pərdənin süqutundan sonra 90-cı illərin əvvəllərində böyük bir revizyona məruz qaldı. Qafqaz və Mərkəzi Asiya ölkələrinin beynəlxalq yollarını da əhatə etmək üçün son illərdə daha bir böyük reviziondan keçib. AGR-nin Razılığa Gələn Tərəfləri olan dövlətlər öz milli investisiya proqramları çərçivəsində öz ərazilərində elektron yolların tikintisi və ya təkmilləşdirilməsi də daxil olmaqla, onun həyata keçirilməsini öhdələrinə götürürlər, baxmayaraq ki, onlara tamamlanma vaxtı ilə bağlı tam genişlik verilir tikinti işlərinin eyni şəkildə regionda əlaqəli beynəlxalq dəmir yolu şəbəkəsinin inkişafı üçün hüquqi və texniki bazanı təmin edir. AGC əsas beynəlxalq əhəmiyyətli dəmir yolu xətlərini, e-dəmir yolu şəbəkəsini müəyyən edir və onların uyğun gəlməli olduğu infrastruktur parametrlərini müəyyən edir.

O, iki kateqoriya xətlər üçün infrastruktur parametrlərini müəyyənləşdirir: artıq mövcud olanlar və yeni tikiləcəklər. Sonuncular yenidən mal və sərnişin daşımaları üçün, digərləri isə yalnız sərnişin daşımaları üçün xətlərə bölünür. AGC həmçinin Avropada siyasi və nəqliyyat dəyişikliklərini nəzərə almaq üçün lazım gəldikdə yenidən nəzərdən keçirilir. Qafqazın və Mərkəzi Asiya ölkələrinin beynəlxalq dəmir yolu şəbəkələrini də əhatə etmək üçün son illərdə böyük reviziyadan keçmişdir. AGC-nin razılığa gələn tərəfləri olmaqla, Avropa Dövlətləri öz milli proqramları çərçivəsində, lakin heç bir vaxt məhdudiyyəti olmadan öz ərazilərində elektron dəmiryol xətlərinin tikintisi və ya təkmilləşdirilməsi də daxil olmaqla, onun həyata keçirilməsinə dair öhdəlik götürürlər.

Logistikanın iqtisadiyyata, xarici ticarətə və iqtisadi böyüməyə təsiri ilə bağlı araşdırmalar müxtəlif illərdə müxtəlif tədqiqatçılar tərəfindən aparılmışdır. İstifadə etdiyi üsullara baxmayaraq tədqiqatçılar fərqlidir, onların nəticələrinin əksəriyyəti iqtisadi artıma təsiri logistikanın müsbət olduğu istiqamətdədir. Səmərəli, beynəlxalq birləşmiş avtomobil dəmir yolu nəqliyyatı infrastrukturunun və xidmətlərinin inkişafı üçün texniki və hüquqi bazanı təmin edir. Kombinə edilmiş avtomobil dəmir yolu nəqliyyatı konteynerlərin, dəyişdirmə kuzovlarının və bütöv yük maşınlarının dəmir yolu vaqonlarında xüsusi təchiz olunmuş terminallardan daşınmasını əhatə edir. AGTC beynəlxalq birləşmiş nəqliyyat üçün istifadə olunan bütün mühüm Avropa dəmir yolu xətlərini müəyyən edir, bütün terminalları, sərhəd keçid məntəqələrini, bərə bağlantılarını və beynəlxalq birləşmiş nəqliyyat xidmətləri üçün vacib olan digər qurğuları müəyyən edir. O, həmçinin həmin xətlər və əlaqəli birləşmiş nəqliyyat qurğuları üçün beynəlxalq səviyyədə məqbul infrastruktur standartlarını müəyyən edir və qatarların və birləşmiş nəqliyyat qurğuları və avadanlıqlarının beynəlxalq səviyyədə məqbul olan performans parametrlərini müəyyən edir. AGTC-nin razılığa gələn tərəfləri olan Avropa Dövlətləri öz milli proqramları çərçivəsində, lakin heç bir vaxt məhdudiyyəti olmadan öz ərazilərində dəmir yolu xətlərinin və əlaqəli birləşmiş nəqliyyat qurğularının tikintisi və ya təkmilləşdirilməsi də daxil olmaqla, onun həyata keçirilməsini öhdələrinə götürür. Logistika ölkə iqtisadiyyatına müsbət təsir göstərir.

Bir qrup ölkədə aparılan araşdırmalarla logistik fəaliyyətlərin tərtibatı iqtisadi artımda rol oynayır. Logistika müasir dövrümüzdə mühüm amilə çevrilib və logistika xidmətlərinə tələbat artır.

Logistikanın inkişafı iqtisadiyyatı xarici ticarət üçün mühüm imtiyazlar yaradaraq ölkədə fəaliyyət dairələrini artırır. Buna görə də inkişaf etmiş ölkələrdə logistika fəaliyyətləri genişlənir, logistikaya xüsusi diqqət yetirilir. İnkişaf etmiş ölkələrdə də logistika mərkəzləri fəaliyyətə başlamışdır. İlk dəfə logistika mərkəzi ABŞ-da yaradılmış, Yaponiya və Avropa ölkələrində də inkişaf etmişdir.

Tarixən Azərbaycanın mühüm nəqliyyat yollarının kəsişməsində yerləşməsi ölkədə logistika fəaliyyətinin inkişafına səbəb olmuşdur. Bu gün Azərbaycan da tranzit ölkə kimi mühüm logistika infrastrukturu yaradıb. Şərqin potensialını nəzərə alaraq Zəngəzur, Zəngilan logistika mərkəzi kimi perspektivə malikdir. Onun perspektivindən istifadə etmək üçün biz nəqliyyat növlərinin müxtəlifliyinin təmin edildiyini, infrastruktur layihələrinin uğurla həyata keçirildiyini, texnoloji yeniliklər tətbiq edildiyini göstərə bilərik.

AGN daxili su yolları və limanlarının beynəlxalq səviyyədə razılaşdırılmış Avropa şəbəkəsini, habelə onların uyğun gəlməli olduğu vahid infrastrukturu və əməliyyat parametrlərini müəyyən edir. Naviqasiya olunan çaylar, kanallar və sahil marşrutlarından ibarət E su yolları şəbəkəsinin coğrafi əhatəsi Atlantik okeanından Urala qədər uzanır, 37 ölkəni birləşdirərək Avropa regionundan kənara çıxır. AGN-ə qoşulmaqla Hökumətlər razılaşdırılmış vahid şərtlərə uyğun olaraq və investisiya proqramları çərçivəsində öz daxili su yollarının və beynəlxalq əhəmiyyətli limanların inkişafı və tikintisini öhdələrinə götürürlər. AGN 26 iyul 1999-cu ildə qüvvəyə minmişdir.

Gələcək nəqliyyat infrastrukturunun planlaşdırılması qərar qəbul edənlərdən bir çox amilləri nəzərə almağı tələb edən mürəkkəb bir işdir. Torpağın mövcudluğu, nəqliyyat sistemlərinin qurulması və istismarı xərcləri və ictimai rəy kimi bir çox məhdudiyyətlər var.

Planlaşdırıcılara bu qərarları qəbul etməyə kömək etmək üçün bir neçə alət işlənib hazırlanmışdır. Bu alətlər digər yerlərdə görülən işlər və hər bir vəziyyətdə nəyin ən yaxşı nəticə verə biləcəyi haqqında məlumat verməklə gələcək nəqliyyat infrastrukturunun planlaşdırılması ilə bağlı bəzi mürəkkəblikləri həll edə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. https://www.bbc.com/azeri/articles/c727lnw7v87o
2. https://serqqapisi.gov.az/xeberler/zengezur-dehlizi-naxcivani-beynelxalq-logistika-merkezine-cevirecek-1
3. https://ereforms.gov.az/az/ekspert-yazilari/zengezur-dehlizinde-region-olkelerinin-de-maragi-yuksekdir-59
4. https://musavat.com/news/zengezur-dehlizi-iki-ay-sonra-acilacaq-xerite-ortaya-cixdi-fotofakt_1005830.html

ZƏNGƏZUR DƏHLİZİ: REGİONAL ƏMƏKDAŞLIQ VƏ TƏHLÜKƏSİZLİK ÜÇÜN YENİ İMKANLAR

Güldanə Aydın qızı Nurəddinova
Mingəçevir Turizm Kolleci
guldanenureddinova@gmail.com
https://orcid.org/0009-0004-3272-5169

1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Azərbaycan SSR hökuməti 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb edir.

10 avqust 1920-ci il tarixində RSFSR ilə Birinci Ermənistan Respublikası arasında bir müqavilə bağlanır. Müqavilənin şərtlərinə görə RSFSR-in Qırmızı Ordusu Ermənistanla Azərbaycan SSR arasında mübahisəli Qarabağ, Zəngəzur və Naxçıvan bölgələrini nəzarətə götürür. 1920-ci il 10 avqustda Rusiya KP-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək bərədə qərar çıxarılır. Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olunur. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olundu. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunur. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi Zəngəzur qəzasına bölmək təklif edilirdi. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmiş olur. Bununla da Azərbaycan ilə onun bir hissəsi olan Naxçıvan arasında quru əlaqəsi kəsilir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi regionda qüvvələr balansının yenidən formalaşmasına səbəb oldu. Müharibənin sonunda imzalanmış üçtərəfli Bəyanatda öz əksini tapan ən mühüm müddəalardan biri Azərbaycanın qərb bölgələri ilə Naxçıvan arasında əlaqəni təmin edəc ək Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Azərbaycan və Ermənistan ərazisindən keçən bu dəhliz in açılması təkcə ölkəmizin deyil, bütün region ölkələrinin iqtisadi, siyasi və logistik əlaqələrini gücləndirəcək ki, bu da təbii olaraq, Türkiyə, Ermənistan, İran, Rusiya və s. ölkələrin dəhlizin fəaliyyətə başlamasına olan marağını daha da artırır.

Bu ilin fevral ayında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Horadiz Cəbrayıl Zəngilan, Ağbənd avtomobil yolunun 73 faizinin tamamlandığını və Ağbəndə qədər uzanan bu avtomobil yolunun Zəngəzur dəhlizi ilə birləşdirilməsinin planlaşdırıldığını açıqlamışdı. Eyni marşrut üzrə tikilməkdə olan dəmir yolu xətti üzrə işlərin isə təxminən 40 faizinin tamamlandığı bildirilmişdir. Bütün bunlara baxmayaraq, Zəngəzur dəhlizinin Ağbənddən Ermənistanın cənub ərazisi ilə Naxçıvana qədər olan hissəsində işlər hələ başlamayıb.

Zəngəzur dəhlizi Azərbaycandan Türkiyənin Qars vilayətinə qədər uzanan və ölkənin İranla sərhədi yaxınlığında Ermənistan ərazisindən keçən strateji nəqliyyat marşrutunun bir hissəsidir. Dəhliz həm də Azərbaycan-Türkiyə marşrutu ilə Avropanı Mərkəzi Asiya və Çinlə birləşdirən geosiyasi layihədir. Zəngəzur dəhlizinin ən mühüm cəhətlərindən biri də türk dünyasının birləşdirməsidir. Zəngəzur dəhlizi təkcə Cənubi Qafqazda deyil, həm də Türkiyə, Rusiya, Mərkəzi Asiya ölkələri, İran və Ermənistan arasında əlaqələrdə mühüm əhəmiyyətə malikdir. Bu gün Şərqdə də Qərbdə də Zəngəzur dəhlizinin açılmasının dünya ticarətinin inkişafında ciddi bir dönüş yaradacağına böyük inam formalaşıb.

Zəngəzur dəhlizindən keçib Şərqlə Qərbi birləşdirəcək Orta yol onun təşəbbüskarları və iştirakçıları üçün nə deməkdir?

Öncə onu deyək ki, bu yolla daşımalarda zamanın 3 dəfəyə qədər qısaldılması, investorların qazancının 3 dəfəyə qədər artmasına imkan verəcəkdir. Bu, investorlar üçün yüz milyardlarla dollarla ölçülən yeni qazanc mənbəyinin yaranması deməkdir. Belə olan halda, dövlət büdcəsi 5 milyard dollar ətrafında olan Ermənistan, Zəngəzur dəhlizinin açılması ilə bağlı bu gün nümayiş etdirdiyi siyasi oyunbazlıqla heç nəyə nail ola bilməz. Bu dəhliz mütləq açılacaq. Təbii ki, Ermənistan ağıllı davranarsa, bu dəhlizin fəaliyyətindən böyük iqtisadi və siyasi dividentlər əldə edə bilər.

Şərqlə Qərbi birləşdirəcək ən yaxın və iqtisadi cəhətdən səmərəli quru yol Türkiyə üzərindən keçə bilər. Bu mənada Çinin 10 il öncə təklif etdiyi və əsas xətlərindən birinin Zəngəzur dəhlizindən keçəcəyi "Bir kəmər, bir yol" layihəsinin alternativi yoxdur. Xatırladaq ki, Çinin 10 il öncə irəli sürdüyü bu layihəni hamıdan öncə Azərbaycan dəstəkləmişdi.

Orta dəhliz - tarixi Böyük İpək yolu bərpa olunur.Hazırda Orta dəhliz uzaq Çindən yüklərin Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilir. Bu marşrut

Şimal dəhlizindən orta hesabla 2500 kilometr qısadır və dəmir yolu ilə səyahət müddətini 7-8 günə azaltmaq potensialına malikdir. O, həmçinin keçdiyi ölkələr arasında ticarətin inkişafına kömək etmək iqtidarındadır.

Bu dəhliz həm də tarixi Böyük İpək yolunun yenidən canlandırılmasını şərtləndirir. Çünki Orta dəhliz vasitəsilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya daşınacaq. Bu da İpək younun bərpası deməkdir. [2]

Nəqliyyat və logistika sahəsində xidmətlərə artan tələbat Azərbaycanda iqtisadiyyatın inkişafına töhfə verir. Orta Dəhlizdə strateji yerləşmə həm də Azərbaycanın qlobal səviyyədə önəmini daha da artırır.

Avropadan Qazaxıstana, Xəzər dənizinə, Azərbaycan və Gürcüstana, oradan isə Qara dəniz vasitəsilə Türkiyəyə uzanan Orta Dəhliz ixrac və enerji əlaqələrini gücləndirmək üçün perspektivli alternativdir. Avropa ilə Asiyanı birləşdirən Şimal dəhlizinin Rusiya-Ukrayna müharibəsi səbəbindən lazımsız hala düşdüyü, cənub dəhlizinin isə regional mübahisələr və gərginliklər səbəbindən əngəlləndiyi bugünkü geosiyasi şəraitdə Türk Dövlətləri Təşkilatı çərçivəsində Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq bütün türk dövlətlərinin ortaq məqsədlər naminə birgə fəaliyyətinə geniş şərait yaradır. Bu əməkdaşlıq Çindən Avropaya qədər uzanan geniş nəqliyyat və logistika şəbəkəsinin yaradılmasına imkan verəcək. Bu mənada, Orta Dəhliz Türkiyə və Azərbaycanın sayəsində yaxın 50 il üçün böyük əhəmiyyət kəsb edən nəqliyyat və logistika şəbəkəsi hesab olunur. Həmçinin Şərqi Asiya və Avropanı Mərkəzi Asiya və Cənubi Qafqaz vasitəsilə birləşdirən Orta Dəhliz layihəsi Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün bir hissəsidir. Azərbaycan, Qazaxıstan, Mərkəzi Asiya dövlətləri və Türkiyə Orta Dəhlizin optimallaşdırılması üçün geniş spektrli tədbirlər həyata keçirirlər.

Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdıran Azərbaycan həm də beynəlxalq yükdaşımaların əsas mərkəzi kimi çıxış edir. Zəngəzur dəhlizinin açılması isə ölkəmizdə kəsişən yolların əsas həlqəsinə çevriləcək. Belə ki, dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya ediləcək. Həmçinin Mərkəzi Asiya ölkələri Orta Dəhliz üzərindən Zəngəzur dəhlizinə birbaşa çıxış qazanacaqlar. Beləliklə, beynəlxalq yükdaşımaların ən cəlbedici marşrutu olan Orta Dəhliz Zəngəzurda kəsişəcək. Zəngəzur dəhlizinin açılması isə regionda sülhün bərqərar olması ilə reallaşacaq. İlham Əliyevin bu təşəbbüsü Orta dəhlizin tezliklə reallaşmasına mühüm töhfə verəcək.

Cənubi Qafqazın aparıcı ölkəsi, Şərqlə Qərbin arasında körpü rolunu oynayan Azərbaycan geosiyasi mövqeyindən maksimum yararlanaraq, regionlararası nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılmasında hər zaman fəal iştirak edir və yeni-yeni qlobal təşəbbüslər irəli sürür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra Cənubi Qafqazda yaranan yeni reallıqları dəyərləndirən qalib ölkə bu prosesə daha iki töhfə vermək üçün ciddi işlər görüləcək.

Bunlar - bu ilin martın 11-də İranla imzalanan anlaşma memorandumuna əsasən yaradılacaq Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizi və Vətən müharibəsindəki Zəfərdən sonra açılması qətiləşən tarixi Zəngəzur dəhlizidir. Azərbaycan hər iki dəhlizin tezliklə reallaşmasında olduqca maraqlıdır. Bu dəhlizlərin yaradılması ilə Azərbaycanın etibarlı tranzit ölkə kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfələr verdiyi bir daha təsdiqini tapacaq.

Zəngəzur dəhlizinin dəmir yolu marşrutlarının, avtomobil yollarının, hava yollarının, enerji xətlərinin və s. açılması kimi kompleks xarakterikə sahib olması onun inkişaf imkanlarını genişləndirir. Dəhlizin reallaşdırılması nəqliyyat qovşaqlarının, ixtisaslaşmış ticarət mərkəzlərinin, yolkənarı pərakəndə satış mərkəzlərinin və digər bu kimi proaktiv infrastruktur layihələrinin inkişafına kömək edəcək. Beləliklə, bölgədəki müəssisələrə potensial müsbət təsirlər ticarətin inkişafı, iş yerlərinin yaradılması, yoxsulluğun azaldılması, gənclərin məşğulluğu, kiçik və orta sahibkarlığın inkişafı olacaqdır. Bütün nəzəri və praktiki yanaşmaları ümumiləşdirdikdə, regional nəqliyyatın və ticarətin bərpası məsələsi bir neçə səbəbə görə mühüm əhəmiyyət kəsb edir. Bu, münaqişədən sonrakı sabitlik üçün "qazan-qazan" ssenarisinin yeganə bariz nümunəsidir. Bu və

buna bənzər iqtisadi və ticarət imkanları bütün region ölkələri üçün əhəmiyyətlidir. Yeni dəhliz istehsal və paylama şəbəkələrinin inteqrasiyasını sürətləndirəcək və subregional inteqrasiya prosesini daha da gücləndirərək regional layihələrin həyata keçirilməsinə səbəb olacaqdır. Həmçinin, yeni dəhliz bölünmüş coğrafiya üzrə iqtisadi agentləri birləşdirəcək. Zəngəzur dəhlizinin həyata keçirilməsi mərkəzləşmiş iqtisadi qovşaqlar və ya mərkəzlər arasında mühüm əlaqələri təmin edəcək. Zəngəzur dəhlizinin açılması nəhayət, birgə təşəbbüslər, xüsusən də hökumətin rəhbərlik etdiyi təşəbbüslər üçün çoxsaylı imkanlar yaradacaq. Qısa və ortamüddətli perspektivdə bu layihə ayrı-ayrı ölkələr üçün regional iqtisadi inteqrasiya platforması rolunu da oynayacaq. Açıq dəhliz həm də maraqlı tərəflər arasında əlaqə, ünsiyyət və münaqişədən kənarda qalan məsələlərin işıqlandırılması üçün çoxsaylı imkanlar yaradacaq.

Açıq dənizlərə çıxışı olmayan ölkə mühüm nəqliyyat şəbəkəsi yaradıb. Azərbaycan Orta dəhlizin reallaşması üçün çox mühüm addımlar atmaqdadır. Bunu Prezident İlham Əliyev bu il iştirak etdiyi beynəlxalq konfranslarda və tədbirlərdə bir daha bəyan edib.

Həmin gün Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısının plenar iclasında çıxış edən İlham Əliyev həmçinin qeyd edib ki, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. 2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Azərbaycan Orta dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir". [2]

Zəngəzur dəhlizi Azərbaycanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirəcək. Oktyabrın 20-də, Zəngilanın işğaldan azad edilməsinin ikinci ilində Azərbaycana səfər edən və İlham Əliyevlə birgə Zəngilan Hava Limanının açılışını edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Orta dəhlizin inkişafına verdiyi töhfələri dəyərləndirib. Qardaş ölkənin lideri vurğulayıb ki, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq reallıqdan uzaqdır. Yəni Qarabağla bağlı atılan bütün addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə "Şərq-Qərb", Orta dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək. Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti bu ərazinin beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Meqa transregional layihələr iqtisadi əlaqələrin möhkəmləndirilməsində çox mühüm rol oynayaraq istehsalçı, tranzit və istehlakçı ölkələr arasında güclü inteqrativ əlaqələrin qurulmasına mühüm təkan verir. Aydındır ki, Zəngəzur dəhlizi və oxşar layihələr geniş arteriyaya malik nəhəng dəhlizlərin formalaşmasına səbəb olur. Bu da öz növbəsində Şərqlə Qərbi birləşdirmək baxımından xüsusi strateji əhəmiyyətə malikdir.

Beləliklə, beynəlxalq hüquqi, iqtisadi, mədəni əlaqələri və qarşılıqlı anlaşmanı gücləndirməklə, Zəngəzur dəhlizi kimi layihələr regional əməkdaşlıq və təhlükəsizlik üçün yeni imkanlar gətirəcək. Bu layihələrin əhəmiyyəti və regiona gətirə biləcəyi üstünlüklər hər kəsə fayda verə biləcək yeni geoiqtisadi vəziyyət yaradır. Mərkəzi Asiya, Cənubi Qafqaz və qonşu regiondakı ölkələr Azərbaycanın liderliyi ilə əldə edilən yeni geoiqtisadi vəziyyət nəticəsində inkişaf etmiş Avropa ölkələri vasitəsilə texnoloji yeniliklərə çıxış əldə edəcək və iqtisadi səmərəliliyi artıracaqdır. Bunun qarşılığında isə, Avropa ölkələri yeni iqtisadi tərəfdaşlar və təhlükəsiz nəqliyyat kanalları əldə etmək baxımından üstünlüklərdən faydalanacaqlar.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə. Zəngəzur. Bakı, 2022
2. Qafazinfo.az
3. Şərq qapısı qəzeti.
4. Əliyev Z. Zəngəzur dəhlizi: geosiyasi realliqlar və perspektívlər. Bakı, 2023

ZƏNGƏZUR DƏHLİZİ – BEYNƏLXALQ NƏQLİYYAT DAŞIMALARINDA YENİ İMKANLAR

Ləman Rafiq qızı Allahverdiyeva
ADİU-nun nəzdində Qida Sənayesi Kolleci
ilaxh@mail.ru
https://orcid.org/0009-0008-0786-4748

Azərbaycanın əlverişli coğrafi mövqeyə malik olması transmilli nəqliyyat-kommunikasiya siyasətinin həyata keçirilməsində başlıca amillərdən sayılır. Bu mövcud reallığı həm Ümummilli lider Heydər Əliyev, həm də Prezident İlham Əliyev Azərbaycan dövlətinin əsas üstünlüklərdən biri kimi qiymətləndirmişlər.

Son illər Azərbaycan öz iqtisadiyyatında əsas hədəfini qeyri-neft sektorunun inkişafına yönəltdiyi üçün tranzit imkanlarını genişləndirməyi əsas məqsədlərindən biri kimi müəyyən edir. Tranzit daşımaları üçün Azərbaycanda bütün şərtlər mövcuddur və bu daşımalar yüksək gəlir gətirmək potensialına malikdir. Əlverişli tranzit imkanlarının mövcudluğuna həm əlverişli coğrafi mövqe, su və quru sərhədlərinin olması, həm də ölkədaxili sabitlik imkanı verir. Digər tərəfdən beynəlxalq münasibətlərdə fəal iştirak, qonşu dövlətlərlə xoşməramlı əlaqələr, dünyada, siyasi arenada müsbət imic qazanması Azərbaycanın tranzit imkanlarını genişləndirməyə şərait yaradır. Bütün bunlardan irəli gələrək nəqliyyat sektorunun inkişafı qeyri-neft sektorunun inkişafına səbəb olur.

44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi möhtəşəm qələbə ölkəmizin tranzit imkanlarının genişləndirilməsinə şərait yaratdı. Bu geosiyasi dəyişiklik Zəngəzur dəhlizinin açılması mövzusunda da ortaya çıxır.

Bu ideya hələ Sovet İttifaqı dönəmində, Ulu öndər Heydər Əliyevin səyi nəticəsində gündəmə gəlmişdir. Hələ sovet hakimiyyəti illərində, yəni 1941-ci ildə Sovet İttifaqı tərkibində olarkən sovet dövlətinin dəmir yollarının tərkib hissəsi kimi Mincivan-Ordubad xətti tikilib istifadəyə verilmiş, o dövrdə Moskvanı təkcə Azərbaycan, Ermənistan və Naxçıvanla deyil, həm də muxtar respublikadakı Culfa dəmiryolu vasitəsilə İranın dəmir yolu şəbəkəsi ilə birləşdirərək, SSRİ ilə İranın Fars körfəzindəki limanları arasında tranzit yük daşımalarına imkan yaratmışdı.

Yeri gəlmişkən, hələ 1974-cü ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində işləyən ulu öndər Heydər Əliyevin Bakı ilə Naxçıvan arasında birbaşa avtomobil yolunun çəkilməsi istiqamətində apardığı mübarizə, keçmiş SSRİ rəhbərliyinin razılığına nail olmaqla, uğurla nəticələnsə də (tikintinin 1980-ci ildə başa çatdırılması nəzərdə tutulmuşdu), yolun 48 kilometri Ermənistanın Mehri rayonu ərazisindən keçdiyindən, ermənilər bütün vasitələrlə yolun çəkilməsinə mane oldular. Ermənilər bu layihəyə türklərin birləşməməsi üçün qarşı çıxır, "Böyük Turan"ın qurulmasında əsas predmet hesab edirdilər. Sovet hakimiyyəti illərində azərbaycanlılar Naxçıvandan ölkəmizin əsas hissəsinə və əks istiqamətdə Şahbuz rayonunun Batabat yaylağından, Biçənək aşırımından keçən avtomobil yolundan istifadə edirdilər. Başqa sözlə, Zəngəzur dəhlizinin açılmasında ciddi şəkildə iradə ortaya qoyan Azərbaycan Prezidenti İlham Əliyev üçün Zəngəzur yolunun bütün cəhətləri ilə yanaşı, belə görünür ki, həm də mənəvi tərəfi var. Eyni zamanda Ulu

Öndərin müəyyən etdiyi strateji hədəfə nail olmaq növbəti dəfə bütün Azərbaycan xalqını qürurlandıracaq.

Prezident İlham Əliyevin təbirincə desək, Zəngəzur dəhlizi layihəsi Azərbaycan üçün təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, həm də strateji bir layihədir və bu layihənin reallaşdırılması Azərbaycanın təbii hüququdur. Zəngəzur dəhlizinin yaradılması Azərbaycanın tarixi, milli və gələcək maraqlarının təmin olunmasına, imkan verir .

Zəngəzur dəhlizinin önəmini bir neçə cəhətdən dəyərləndirə bilərik. İlk növbədə, onu qeyd edək ki, Zəngəzur dəhlizi Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirərək, Naxçıvanın üç onillik ərzində davam edən blokadasına son qoyacaq. Dəhlizin açılması ilə Azərbaycanın üçüncü tərəf ölkələrinə hava və dəmir yolu nəqliyyatından asılılığı azalacaq və Naxçıvan istiqamətindən birbaşa quru yolu ilə hərəkət təmin ediləcək. Bu isə regional əlaqələrin və ticarət imkanlarının artması deməkdir. Naxçıvana çıxışın asanlaşması malların, investisiyaların və insanların axınına təkan verəcək, bununla da, regionda iqtisadi inkişaf təmin olunacaq, yeni iş yerləri yaradılacaq və rifahın artması müşahidə olunacaq.

Zəngəzur dəhlizinin açılmasından sonra Naxçıvanda inkişaf edəcək sahələrdən biri də turizm sahəsidir. Bu bölgədə müalicəvi turizm potensialı genişdir. Orta Asiyadan, həmçinin digər xarici ölkələrdən olan turistlər dəhlizin açılmasından sonra bu dəmir yolu vasitəsilə çox rahatlıqla səfər edə biləcək və Naxçıvanda turistik fəaliyyət genişlənəcək. Bu da ölkə iqtisadiyyyatına və turizmin inkişafına böyük dəstək olacaq.

Eyni zamanda, dəhliz fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi bu bağlantıda yeni və çox mühüm halqa təşkil edəcək. Dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları məhz ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya ediləcək. Azərbaycanın Xəzərdə qurduğu ən böyük limanın, həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa olunan üç beynəlxalq səviyyəli aeroportun yaradacağı imkanları da nəzərə alsaq, belə bir qənaət ifadə edə bilərik ki, Zəngəzur dəhlizi beynəlxalq səviyyədə daşımalar üçün ən cəlbedici marşrutlardan birinə çevriləcək və respublikamız perspektivdə etibarlı tranzit ölkə kimi bundan böyük dividendlər əldə edəcək.

Zəngəzur dəhlizi ilə bağlı digər bir mühüm məqam da onun Cənubi Qafqaz regionu, eləcə də Uzaq Şərq, Mərkəzi Asiya və Avropa üçün əhəmiyyətli olmasıdır. Bu dəhliz vasitəsilə Aşqabad müqaviləsi ölkələri Avropa ilə ticarət mübadiləsini daha da genişləndirəcək. Belə ki, Aşqabad müqaviləsi Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanıb. Bu ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizi vasitəsilə Avrasiya bazarlarına çıxarılması Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafına böyük təkan verə bilər.

Bu dəhlizin açılmasından sonra böyük İpək Yolunun Azərbaycan ərazisindən şaxələnməsi reallaşacaq. Zəngəzur dəhlizi vasitəsilə Avropadan gələn mal və sərnişinlərin Şərq ölkələrinə çatdırılması da mümkün olacaq. Bununla ölkəmiz yeni logistik məkan kimi dünya ticarəti və iqtisadiyyatının mərkəzinə çevriləcəkdir. Dəhlizin açılması Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımalarını da sürətləndirəcək. Çünki Şərq-Qərb və Şimal-Cənub beynəlxalq dəhlizləri məhz Azərbaycanda kəsişir.

Azərbaycan tranzit imkanlarının genişlənməsi region dövlətləri arasında əməkdaşlığın dərinləşməsi baxımından da böyük əhəmiyyətə malikdir.

Dəhlizin regional müstəvidəki qlobal əhəmiyyəti məhz Türkiyə və Mərkəzi Asiya arasında yeni marşrut kimi ortaya çıxmasıdır. Zəngəzur dəhlizi xüsusilə qardaş Türkiyə üçün də mühüm yoldur. "Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngəzur dəhlizini "Turan qapısı" adlandırıbsa, Atatürk isə "Avrasiya-Türk" qapısı adlandırırdı. Bu dəhliz çox iqtisadi-siyasi önəm

daşıyır. Bu məsələnin həm də mənəvi-tarixi əhəmiyyəti də var. Türkiyə kimi böyük xarici ticarət dövriyyəsində olan bir ölkə Orta Asiya ilə ticarət əlaqələrində olduqca kiçik həcmdə göstəricilərə malikdir. Buna səbəb isə məhz Zəngəzur dəhlizinin açıq olmaması, başqa sözlə ermənilər planlı şəkildə Türkiyənin Orta Asiyaya çıxışını bağlamasıdır. Bunun nəticəsi olaraq, Türkiyə tərəfi məhz Orta Asiyaya çıxışı zamanı çox ciddi maneələrlə qarşılaşmış və xarici ticarət dövriyyəsi bu sahədə uğursuzluqla yadda qalıb.

Zəngəzur dəhlizi Türkiyə üçün yalnız Azərbaycana birbaşa çıxış əldə etmək baxımından deyil, həm də daha geniş mənada Xəzər Dənizi vasitəsilə Mərkəzi Asiyaya, yəni Türk dünyasına çıxış əldə etmək baxımından əhəmiyyətlidir. Belə çıxışın əldə edilməsi Türkiyə üçün strateji əhəmiyyətə malikdir. Hazırda Türk ölkələri ilə quru yolu ilə əlaqələr Gürcüstan və İran vasitəsilə qurulur, dəhlizin açılmasından sonra isə Türkiyə bu asılılıqdan azad olacaqdır. Türkiyənin Azərbaycana və Mərkəzi Asiyaya birbaşa çıxış əldə etməsi isə Türk dünyası ölkələri arasında istər iqtisadi, istər siyasi, istərsə də strateji əlaqələrin qurulması və inteqrasiyanın genişlənməsi baxımından böyük əhəmiyyət daşıyır. Zəngəzur dəhlizinin açılması enerji təhlükəsizliyinin təmin edilməsi və iqtisadi tərəqqi cəhətdən önəmli olmaqla yanaşı, həm də türk dünyasını birləşdirmək baxımından əhəmiyyətlidir.

Ən əsası isə bu dəhliz ölkəmizlə yanaşı, türk dövlətlərinin iqtisadi tərəqqisinə, milli və iqtisadi təhlükəsizliyinin, müdafiəsinin gücləndirilməsinə, əhalinin yaşayış səviyyəsinin artırılmasına, yüksək texnologiyaların inkişafı üçün transfer mübadiləsinin intensivliyinə və türk dünyasının dəyərlərinin qorunub saxlanılmasına, inkişaf etdirilməsinə yeni resursların cəlb edilməsinə töhfə verəcək.

Beləliklə, Zəngəzur dəhlizinin açılması həm türk dünyasının güclənməsinə, həm də türkdilli dövlətlərin təşkilatlanmasında yaranan yeni şəraitdə onların dünya iqtisadiyyatında və dünya siyasətində daha önəmli rol oynamasına imkan verəcək.

Zəngəzur dəhlizi açılandan sonra ən çox qazanan dövlətlərdən biri Ermənistan olacaq. Ermənistan özünü saldığı blokada şəraitindən çıxacaq, Moskvaya, Orta Asiya və Orta Şərq dövlətlərinə yolları açılacaq, Azərbaycan, Türkiyə, İranla siyasi, iqtisadi, sosioloji, mədəni, turizm və s. əlaqələri bərpa olunacaq, bir sözlə, dünyada gedən inteqrasiya proseslərində iştirak edəcək.

Zəngəzur dəhlizinin açılmasında Rusiyanın da öz maraqları var. Rusiya üçün Zəngəzur dəhlizinin açılması vacibdir. O, bu dəhliz vasitəsilə birbaşa Ermənistan və İranla dəmiryolu əlaqəsi imkanları əldə edəcək.

İran isə bu maraqlarda yalnız fərqli və dəyişkən mövqe tutur. Zəngəzur dəhlizinin açılması əslində İran üçün də böyük fayda verəcək. İranın dəhlizdən istifadəsi onun dəmiryolu vasitəsilə Rusiyaya birbaşa çıxışını təmin edəcək.

Zəngəzur dəhlizi təkcə Cənubi Qafqazda deyil, həmçinin bütün Avrasiya üçün böyük əhəmiyyəti olan yeni kommunikasiya xəttidir. Dəhlizin interkontinental müstəvidəki əhəmiyyəti isə Çinin son illərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni bir alternativlik təşkil etməsidir. Buna əsasən, Zəngəzur dəhlizi Çindən gələn malların Türkiyənin şərq vilayətlərinə, oradan da Aralıq dənizi və yaxud da İstanbul boğazları vasitəsilə Avropaya daşınmasını təklif edir. Bu yenilik həm Türkiyənin, həm də Çinin nəqliyyat yollarının diversifikasiya edilməsi strategiyaları ilə üst-üstə düşür. Bununla da Zəngəzur dəhlizinin Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi çıxış etmək potensialı var.

Dəhlizin strateji əhəmiyyəti ilə yanaşı iqtisadi əhəmiyyəti də böyükdür. Belə ki, Zəngəzur dəhlizi quru bölgədə iqtisadi fəallığının artımını təmin edəcək, bu da öz növbəsində sənayeləşmənin sürətlənməsinə, ölkələr arasında ticarət dövriyyəsinin, eləcədə beynəlxalq yük daşınmalarının həcminin artırılmasına gətirib çıxaracaqdır.

Zəngəzur dəhlizinin fəaliyyəti dövründə yolboyu həm texniki xidmət üzrə mərkəzlər, həm mehmanxana, həm də iaşə müəssisələri yaradılacaq və bu da müvafiq olaraq, ölkə əhalisi üçün əlavə iş yerlərinin açılmasına təkan verəcək. Zəngəzur dəhlizinin əhəmiyyətini artırmaq üçün

işğaldan azad ərazilərdə Azad İqdisadi Zonaların (AİZ) və logistika mərkəzlərinin yaradılması labüddür. Reallıq ondan ibarətdir ki, bu gün təkcə Azərbaycan üçün deyil, həm də bütün dünya üçün yeni imkanlar yaradacaq və yüksək iqtisadi inkişafa səbəb olacaq Zəngəzur dəhlizinin açılması vacibdir.

İstifadə edilmiş ədəbiyyat

1. https://respublika-news.az/news/azerbaycanin-iqtisadi-gucunun-novbeti-tezahuru-zengezur-dehlizi
2. https://respublika-news.az/news/zengezur-dehlizinin-acilmasi-regionun-iqtisadi-inkisafina-tohfe-verecek
3. https://azerbaijan-news.az/posts/detail/zengezur-dehlizinin-ehemiyyeti-boyukdur-1635803974
4. https://serqqapisi.gov.az/xeberler/zengezur-dehlizi-naxcivani-beynelxalq-logistika-merkezine-cevi
5. Zəngəzur dəhlizi – Prezident prinsipiallığı və Ermənistanın təcridi: yaxud İrəvanın səfalətdən çıxmaq, Qərbin İrəvanı əldə "saxlamaq" şansı / Ə.Cahangiroğlu // Xalq qəzeti. - 2023.- 6 may.- № 93.- S. 10
6. Binyətoğlu, Vaqif. Zəngəzur dəhlizi qlobal önəm daşıyır / V. Binyətoğlu // Xalq qəzeti.- 2023.- 5 may.- № 92.- S. 11
7. Bağırlı, Musa. Zəngəzur dəhlizi: türk dünyasını birləşdirən körpü / M.Bağırlı // Respublika.- 2023.- 17 avqust.- № 174.- S. 1,6.
8. Əliyev, İsmayıl. Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazı dünyanın mühüm logistik mərkəzinə çevirəcək / İ.Əliyev // Respublika. - 2023.- 23 avqust.- № 179.- S.9.

TÜRK DÜNYASI BÖLMƏSİ

YEMEK SUNUMU ODAKLI SOSYAL MEDYA PAYLAŞIMLARINDA TÜRK MUTFAK KÜLTÜRÜNDEN SOSYO-KÜLTÜREL SAPMALAR

[1]Yakup Kemal Özekici, [2]Kurban Ünlüönen
[1]Doç., Dr.
Adıyaman Üniversitesi, Türkiye
ykozekici@gmail.com
https://orcid.org/0000-0003-2482-7355
[2]Prof., Dr.
Ankara Hacı Bayram Veli Üniversitesi, Türkiye
kurban.unluonen@hbv.edu.tr
https://orcid.org/0000-0002-4191-9019

Giriş

Türkler, binlerce yıllık tarihleri boyunca, dünyadaki birçok milleti nüfuzu altına almakla birlikte onların kültürlerine has unsurları bünyelerine entegre etmeyi başarmış ender milletler arasında yer almaktadırlar (Kaya ve Akpınar, 2017). Bu süreç, Türklerin kültürlerine has hemen her unsur üzerinde tesirini göstermiştir. Türk mutfağı, Türklerin coğrafi hareketliliklerinin kültürleri üzerindeki tesiri gösteren temel faktörleri içerisinde barındırmaktadır (Güler, 2010). Zira mutfak, kültürden beslenen unsurlar arasındadır. Bu bağlamda, birtakım gıda ürünlerine yönelik toplumlar nezdinde yüklenen sembolik anlam, gıdanın kültür havzası içerisindeki ilk konumunu oluşturmuştur (Ward vd., 2010). Yeme içme olgusunun sosyoloji disiplini ile ilişkisi, önceleri sağlık sosyolojisi kapsamında irdelenmiştir. Medya tarafından gıda hijyeni konusundaki risklere dikkat çekilmesi (Knight vd,. 2007; Ward vd., 2010) ile birlikte genetiği değiştirilmiş gıdalara yönelik fikir ayrılıkları (Lupton, 2005) sağlık sosyolojisinin ana temasını oluşturmuştur. İlerleyen yıllarda, yiyecek-içecek alanında yeni pazarların ortaya çıkması, farklı kültürlerin çeşitli gıda seçeneklerine erişebilir olması, gıda ve kimlik kavramlarının etkileşimini beraberinde getirmiş (McMilan ve Coveney, 2010; Ward vd., 2010) ve gıda, kimliğin oluşturulmasında aracı rol oynamıştır. Tercih edilen gıda türü, bir gruba üyeliği simgeler hale gelmiştir (Fischler, 1988; Ward vd., 2010). Gıdanın, toplum içerisinde taşıdığı bu önem, sosyoloji disiplinin gıdaya yönelik alakasını meydana getirmiştir. Gıda sosyolojisi, gıdanın üretiminden tüketimine kadar uzanan süreçteki kültürün rolünü konu etmektedir (Okat vd., 2021). Sosyal medya araçlarının gelişimi ile birlikte deneyim edinme motivasyonu toplum nezdinde rağbete konu olmuştur (Oliveira vd., 2020). Bu da, bir zamanlar toplumsal normun ürünü olan ritüellerin, turist deneyimine konu edilme amacıyla sahnelendiği, ticari bir araca dönüşmesine yol açmış (Chhabra vd., 2003) ve gıdanın, hazırlamadan tüketime kadar olan süreci deneyim motivasyonunun etki alanına konu edilmiştir (Holmberg vd., 2016).

Toplumların mutfak kültürleri, yemeğin türü ile birlikte hazırlanma süreci, türü, sunumu ve tüketim şekilleri gibi bileşenlerden oluşmaktadır (Fieldhouse, 1996; Diken, 2023). Söz konusu bileşenler, toplumların içerisinde bulunduğu coğrafi koşullar ile birlikte etkileşim kurulan toplumlar tarafından da belirlenmektedir. Bu durum bilhassa Türk mutfağı için geçerlidir. Türkler, binlerce yıllık hikayeleri süresince farklı coğrafyalarda mukim olmuşlar ve farklı toplumlarla etkileşim kurmuşlardır. Bununla birlikte, Türk mutfağının temelini göçebe kültür, dolayısıyla et ve mayalanmış süt ürünleri oluşturmaktadır (Güler, 2010). Türklerin Anadolu'ya geçmesi ile birlikte tahılın, ege ve balkanlara geçmesi ile birlikte ise zeytinyağlılar ve deniz mahsullerinin Türk mutfağında yaygınlaşması gözlemlenmiştir (Ünver, 1952; Güler, 2010).

Türk kültürü, yeme olgusuna fizyonomik gereksinimi karşılamanın ötesinde, kültürün toplumsal birlikteliği sağlayıcı misyonunu yüklemiştir. Bu bağlamda, hakanlara, halkının yeme ve

giyinme gereksinimleri yüklenmiştir. Bu durum, yeme-içme faaliyetlerinin bir şölene dönüşmesine neden olmuştur. Söz konusu şölen anlayışı, yemeğin fizyonomik gereksinimi karşılamanın ötesinde, göze hitap etmesini de ön plana çıkarmıştır (Kaya ve Akpınar, 2017). Bu bağlamda, Türk kültüründeki yemek odaklı şölen anlayışını, post-modernizmin Türk mutfağı üzerindeki etkisinden (Koçak, 2013; Uçuk ve Buyruk, 2020) bağımsız düşünmek gerekmektedir. Yine, cenazelerin arkasından verilen yuğ aşı cenazenin (Kaya ve Akpınar, 2017), düğün toyu ise düğünlerin (Koçak, 2013) hatırasını yaşatma maksadına yemeğin aracı kılındığı diğer bir örnektir. Ortak sofradan yemenin, vefayı gerektirdiğine yönelik anlayış, tuz ekmek hakkı şeklinde Türk lügatine yerleşmiştir (Koçak, 2013). Deneyimi hatırada kalıcı kılmanın ötesinde, yeme-içme eylemi bir nevi statü göstergesi olarak da ön plana çıkmıştır. Söz gelimi, bir boya, koyundan taksim edilen etin bölgesi, o boyun toplum içerisindeki statüsünü göstermekteydi (Birol ve Akpınar, 2009). Bu tür örnekler, toplumların kalkınmasına ön ayak olan kültür içerisinde mutfağın ehemmiyetini göstermektedir. O sebeple, mutfak kültüründeki sapmaların tespiti, kültürün mevcut pozisyonunu sergilemesi açısından önem arz etmektedir. Söz konusu önem, ilgili çalışmanın ortaya çıkış motivasyonunu oluşturmaktadır. Bu çalışmanın amacı, Türkiye menşeili sosyal medya üreticilerinin, sosyal medya platformları üzerinde yiyecek-içecek kapsamında üretilen ürünlerin, üretiminden tüketimine kadar gerçekleştirilen süreç içerisinde gerçekleştirdikleri sapmaları ortaya koymaktır. Bu şekilde, Türk dünyasında hedeflenen kalkınma önündeki sosyo-kültürel engellerin kaldırılması kolaylaştırılmış olacaktır. Kalkınma, Türk dünyasının temel gayeleri içerisinde yer almaktadır. Sosyal ve kültürel değerlerin dejenere olması durumunda kalkınmanın uzun vadeli olumsuz etkileri (Bilgiseven, 1991) göz önünde bulundurulduğunda, mutfak kültüründeki sapmaların tespiti, mutfak kültürünün sürdürülebilirliğini sağlamanın yanı sıra, kalkınma sürecinde denetim mekanizmasının hangi noktalarda güçlendirilmesi gerektiğine yönelik araçlar ile ilgili ipuçları sunacaktır.

Metod

Çalışmanın amacı, Türk yeme-içme kültüründen sapmaları, içerik üreticilerinin paylaşımları üzerinden tespit etmektir. Buradaki sapmadan kasıt, içeriklerde vurgulanan temalar, müzik, görsellik, jest ve mimikleri içerisine alan bütün bir kapsamı, hazırlık, pişirim, sunum ve tüketim süreçlerinin tamamı için göz önünde bulundurmaktır. Bu sebep, paylaşımların içeriği ile alakalı derinlemesine bilgi edinmeyi gerekliliğe dönüştürmüştür. Nitel araştırma deseni, konu ile alakalı zengin içerik temin etme yönüyle (Neuman, 2014) tercih edilmiştir. Bu desene yönelik veri toplama yöntemi süreci kapsamında, ilk aşamada içerisinde sapmaların olma ihtimali olan içeriklere erişmeyi kolaylaştırıcı yemek videoları, yemek hazırlama videoları anahtar kelimeleri girilmiştir. Araştırmanın amacı ve anahtar kelimelerin yönlendirici niteliği gereği amaçsal örnekleme yöntemi tercih edilmiştir (Karasar, 2003). Sosyal medya platformları içerisinde en yaygın içerik zenginliğine sahip olması nedeniyle (Cheng vd., 2008), youtube üzerinde yayınlanmış olan içerikler tercih edilmiştir. İlk aşamada, girilen anahtar kelimeler aracılığıyla erişilen kanallara ait içerikler izlenilmiştir. Bu içeriklerden, sapma içermeyen içerikler kapsam dışında bırakılmıştır. Süreç sonucunda, sapma barındıran 60 videoya erişilmiştir. Araştırmanın kapsamı, yiyecek-içecek üretimi kapsamında kültür odaklı sapmaları ortaya koymak olduğundan, en az bir sapmanın yer aldığı videolar araştırma kapsamına dâhil edilmiştir.

Analiz aşamasına geçmeden önce, sapmaların tespit edilebilmesi için, Türk mutfak kültürünü oluşturan temel esaslar tespit edilmiştir. Bunun için, konuyla ilgili çalışmalar (Çerikan, 2019; Demirgül, 2018; Diken, 2023; Güler, 2010 İlban vd., 2021; Kaya ve Akpınar, 2017; Solmaz ve Alıner, 2018; Uçuk ve Buyruk, 2020)'dan elde edilen bilgiler bir araya getirilmek suretiyle Türk mutfak kültürüne has temel kriterler irdelenmiştir. Analiz süreci çalışmanın yazarları tarafından gerçekleştirilmiştir. Çalışma kapsamında, araştırmanın ana odağını gerçekleştirme amacıyla 50 farklı içeriğin analiz kapsamına alınması için yeterli görülmesi nedeniyle (Lockwood, 1994), 60 içerik ile analiz sürecine başlanılmıştır. Analiz sürecine açık, eksensel ve seçici kodlama aracı kılınmıştır. İlk aşamada, içerikler hikayeleştirilerek bir metin dosyasına dönüştürülmüştür.

Sonrasında hikayelerde geçen ortak noktalar işaretlenerek kod etiketi verilmiştir. Benzer içerikler aynı kategori içerisinde gruplandırılmıştır (açık kodlama). Sonrasında, kategoriler arasındaki benzer ve farklı noktalar, yazarlar tarafından gerçekleştirilen istişareler neticesinde şekillendirilmiştir (seçici kodlama). Son olarak, farklılıklar ve benzerlikler esas alınarak, kategorilerin netleştirilmesi gerçekleştirilmiştir (eksensel kodlama) (Neuman, 2014). Mutfak kültürünün, kullanılan malzeme, yemek türü, hazırlama süreci, sunumu ve tüketimi gibi bileşenlerden oluşması (Fieldhouse, 1996) nedeniyle, söz konusu sapmaların kategorize edilmesinde bu eşikler dikkate alınmıştır.

Bulgular

Tablo 1 ve tablo 2'de içeriklere yönelik karakteristik özellikler ve sapma türleri görülmektedir.

Tablo 1

İçeriklerin karakteristik özellikleri

Tür	Karakteristik	Frekans	Yüzde
İzlenme Sayısı	En çok	207.000.000	-
	En az	13.000	-
	Ortalama	14.899.694	-
İçerik Üretici Türü	Münferit	41	68.3
	Müessese	19	31.7
Yemek Türü	Et	35	58.3
	Karışık	16	26.6
	Sakatat	5	8.3
	Ev Yemeği	2	3.3
	Salata	1	1,6
Mutfak Bölgesi	Karadeniz	13	21,6
	Güneydoğu	12	20
	Hatay	4	6,6
	Adana	1	1,6
	Tema/Bölge Vurgulanmamış	30	50
TOPLAM		**60**	**100**

Tablo 1'de içerik üreticileri ve içeriklerin karakteristik özellikleri betimlenmektedir. İlgili içerikler irdelendiğinde, içeriklerin ortalama olarak 14 milyonun üzerinde izlenime konu olduğu, içerik üreticilerinin ağırlıklı olarak münferit kimselerden oluştuğu, yemek içeriklerinde ağırlıklı olarak etin kullanıldığı ve sebze ağırlıklı paylaşımların tercih edilmediği, içeriklerin yarısında bölgesel temaların vurgulanmadığı görülmüştür. Tema vurgulanan içeriklerde ise Karadeniz ve Güneydoğu Anadolu bölgelerine has karakteristik özelliklerin ön plana çıkarıldığı görülmüştür.

Tablo 2

Sapma Türleri

Tür	Karakteristik	Frekans (n)	Yüzde (%)
Malzeme/Ekipman Türü Sapmaları	Malzemeleri Abartılı Kullanma	16	42,1
	Abartılı Kesici Alet Kullanımı	8	21
	Abartılı Alev Kullanımı	5	13,2

	Şov	4	10,5
	Diğer	5	13,2
	Toplam	*38*	*100*
Yemek Türü Sapmaları	Başka Bir Kültüre Has Reçeteyi Uygulama	15	76,3
	Farklı Kültüre Has Ekipman Kullanımı	2	10,5
	Başka Bir Kültüre Has Ürünü Dahil Etme	1	6,6
	Başka Bir Kültüre Has Marineleme İşlemini Gerçekleştirme	1	6,6
	Toplam	*19*	*100*
Hazırlama Sürecinde Gösterilen Sapmalar	Gıdaya Nezaketsizlik	40	60,7
	Şov	18	27,3
	Farklı Hayvansal Ürünleri Karıştırma	6	9
	Abartılı Malzeme Kullanımı	2	3
	Toplam	*66*	*100*
Sunum Sapmaları	Gıda Mahremiyet İhlali	18	54,6
	El İle Sıkma	4	12,2
	Bıçakla Sıyırma	3	9
	Ses Efekti Verme	3	9
	Şov	3	9
	Ürünü Özendirecek Jest ve Mimikler	2	6,2
	Toplam	33	100
Tüketim Sapmaları	Özendirerek Yeme	22	91,6
	Abartarak Yeme	1	4,2
	Şov	1	4,2
	Toplam	*24*	*100*
TOPLAM		**60**	**100**

Tablo 2'de sapmaların türleri ve bu türleri oluşturan alt kategoriler görülmektedir. Yiyecek-içecek odaklı sapmalar incelendiğinde, bu sapmaların temelde beş kategoriden (malzeme / ekipman türü sapmaları, yemek türü sapmaları, hazırlama sürecinde gösterilen sapmalar, sunum sapmaları, tüketim sapmaları) oluştuğu gözlemlenmiştir. Söz konusu sapmalar içerisinde, hazırlama sürecinde gösterilen sapmalar, en sık gözlenen sapma türü olarak tespit edilmiştir. Hazırlama süreci kapsamındaki sapmalar içerisinde, ağırlıklı olarak gıdaya nezaketsizlik şeklinde kategorize edilmiş olan sapma türlerinin rol oynadığı gözlemlenmiştir. Gıdaya nezaketsizlik kategorisindeki sapmalarda, gıdayı yumrukla ezme, sıkma, atma, fırlatma veya yüksek bir yerden düşürme türündeki eylemlerin gerçekleştirildiği görülmüştür. Şov alt kategorisindeki eylemlerin

birbirlerinden oldukça farklı türlerden oluştuğu görülmüştür. Bu eylemler, tavuğu akarsu üzerinde yüzdürmekten, pişirilmiş eti dans ettirmeye, yumurtayı bıçak sırtı ile kırmaktan tuzu bıçak üzerinden ekelemeye, soğanı havaya fırlatıp bıçakla yakalamaya kadar değişiklik göstermektedir. Farklı hayvansal ürünleri karıştırma alt kategorisi, birbirlerinden tür olarak farklı olan iki veya ikiden çok hayvansal gıdayı karıştırmaktan oluşturmaktadır.

İkinci sıklıkla gerçekleşen kategori, malzeme/ekipmandan kaynaklanan sapmalardan oluşmaktadır. Bu kategori içerisinde yer alan sapma türlerinden, malzemeleri abartılı kullanma, iki bıçağı aynı anda kullanma, zırhı 360 derece çevirme, bıçak, kazan, tepsi fırlatma gibi eylemlerden oluşmaktadır. Abartılı kesici alet kullanımı irdelendiğinde ise, ağırlıklı olarak bıçağı kesim tahtasına veya hayvanın cansız gövdesine saplama gibi eylemler gözlemlenmiştir. Abartılı alev kullanımı, pişirim için açılan çukurda büyük ölçekli alev oluşturma ve tuz kapama şeklindeki ürünler üzerinden alev şovu gerçekleştirme gibi eylemlerin gerçekleştirildiği gözlemlenmiştir. Bu kategori altındaki şov eylemleri, masadı havada çevirerek bıçak bileme veya et saplama çubuklarını havada dönderme gibi eylemlerden oluşmaktadır. Herhangi bir kategori içerisine girmeyen, etin sarıldığı gazeteyi okuma, baltayla kütüğü ortadan ikiye ayırma gibi eylemler diğer kategorisi içerisinde yer almıştır.

Sunum sapmaları, sıklık bakımından üçüncü sırada yer alan sapmaları oluşturmaktadır. Bu kategori içerisinde yer alan gıda mahremiyet ihlali en sık tekrarlanan eylemleri oluşturmaktadır. Bu eylemler, çoğunlukla, hazırlanan yemek türünü kesip içerisini izleyiciye sergilemekten oluşmaktadır. Bununla birlikte, pişmiş eti el ile sıkma, bıçakla sıyırma ve sıyrılma sırasında ses efekti vererek yapay bir sunum atmosferi oluşturma gibi eylemlerin sunum sürecinde gerçekleştirildiği gözlemlenmiştir. Yine, ürünü özendirecek jest ve mimiklerin yoğun bir biçimde kullanılması, tespit edilen sapma eylemleri içerisindedir. Bu kategori içerisinde yer alan şov eylemleri, pişmiş eti sallayarak dökme suretiyle kemikten ayırma ve pişmiş gövdeyi fırlatma şeklinde sıralanabilir.

Diğer bir sapma kategorisi, tüketim sürecinde gösterilen sapmalardan oluşmaktadır. Bu kategori içerisinde, ağırlıklı olarak özendirerek yeme eyleminin gerçekleştirildiği görülmüştür. bununla birlikte, yedikten sonra göle atlama (şov) ve yemeği bıçağa saplayarak yeme (abartarak yeme) gibi sapma eylemlerinin gerçekleştirildiği de gözlemlenmiştir. Son olarak, yemek türü yönüyle gerçekleştirilmiş olan sapma kategorileri irdelendiğinde, içerik üreticilerinin ağırlıklı olarak başka bir kültüre ait reçeteyi uygulamak suretiyle sapma gerçekleştirdiği gözlemlenmiştir. Benzer şekilde, farklı bir kültüre has ekipman veya ürünü dahil etme şeklinde gerçekleştirilen sapma eylemlerinin bu kategori içerisinde yer aldığı görülmüştür.

Sonuç ve Öneriler. Bu araştırma, sosyal medya platformları üzerinde yiyecek-içecek kapsamında üretilen ürünlerin, üretiminden tüketimine kadar gerçekleştirilen süreç içerisinde meydana gelen sosyo-kültürel odaklı sapmaları ortaya koymaktır. Sapmaların tamamı genel olarak değerlendirildiğinde, ortak özelliklerinin, gıdaya yönelik nezaketin kaybolması şeklinde olduğu görüşmüştür. Özellikle, Türk örf ve ananelerinde kerih görülen gıdaya vurma, ezme, fırlatma ve sıkma gibi eylemlerin en sık karşılaşılan sapma türü olarak ortaya çıkmış olması, Toplumdaki değer yargılarının dönüşüme uğramasına yönelik bir işaret olarak kabul edilebilir. Bu iddia, sapma odaklı videoların izlenim sayılarının yüksekliği göz önünde bulundurularak ifade edilebilir.

Araştırma sonucunda ulaşılan sonuç, bugünün toplumunda yemeğin fizyolojik ihtiyaçları karşılamanın ötesinde bir role sahip olduğunu işaret etmektedir. Bu iddianın temelinde, sapmaların bir diğer ortak özelliği olan beş duyuya hitap etme özelliği yatmaktadır. Sapmalar irdelendiğinde gıdanın, tüketim öncesinde, hazırlama sürecinde gösterilen eylemler ile birlikte beş duyu organına keyif verecek şekilde bir tasarlama konu edilmiştir. Bu da, deneyim ekonomisi anlayışının (Pine ve Gilmore, 1998), hem talep hem de arz yönüyle karşılık bulduğunun işareti olarak görülebilir. Gösteri toplumu (Debord, 1996) ile başlayan eylemi göze tabi etme sürecinin gastronomik anlamda

topluma sirayet ettiği, kültürel sapmaları içeren görsellere yönelik izlenim ve beğeni sayısı temel alınarak iddia edilebilir.

Gösteri odaklı yemek hazırlama paylaşımlarında yer alan birtakım temaların (yemeği bıçağa saplayarak yeme, gıda ürünlerini fırlatma vb.) birkaç on yıl önce tasvip edilmemesine rağmen, bugünün kitlelerince beğeniye, izlenime ve paylaşıma konu edilmesi, kültürel deformasyonun yaygınlaştığının işareti olarak kabul edilebilir.

Kaynakça

Bilgiseven, A. K. (1991). Kalkınma ve Kültür İlişkisi. *Istanbul Journal of Sociological Studies*, 23, (1), 1-20.

Birol, N. ve Akpınar E. (2009). XIII. ve XIV. Yüzyıl Seyyahlarına Göre Deşt-İ Kıpçak ve Türkistan'da Mutfak Kültürü, *Erzincan Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi*, 2(2), 307-319.

Cheng, X., Dale, C., & Liu, J. (2008). *Statistics and social network of youtube videos*. In 2008 16th Interntional Workshop on Quality of Service, June, 229-238.

Chhabra, D., Healy, R., & Sills, E. (2003). Staged authenticity and heritage tourism. *Annals of Tourism Research*, *30*(3), 702-719.

Çerikan, F. U. (2019). Türk Ailesinde Sofra Adabı, Denizli Örneği ve İşlevselliği. *Uluslararası Türkçe Edebiyat Kültür Eğitim (TEKE) Dergisi*, *8*(1), 481-511.

Debord, G. (1996). *Gösteri toplumu*. İstanbul: Ayrıntı Yayınları.

Demirgül, F. (2018). Çadırdan saraya Türk mutfağı. Uluslararası *Türk Dünyası Turizm Araştırmaları Dergisi*, *3*(1), 105-125.

Diken, H. A. (2023). Geleneksel Türk Mutfak Kültüründeki Alışkanlık Ve Davranış Örüntüleri Üzerine Genel Bir Değerlendirme. *The Journal of Academic Social Science*, 142, 282-292.

Fieldhouse, P. (1996). *Food and Nutrition*: Customs and Culture. London: Chapman@Hall Publishing.

Fischler, C. (1988) 'Food, self and identity', *Social Science Information 27*(2), 275–92.

Güler, S. (2010). Türk Mutfak Kültürü ve Yeme İçme Alışkanlıkları. *Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi*, *26*, 24-30.

Holmberg, C., Chaplin, J. E., Hillman, T., & Berg, C. (2016). Adolescents' presentation of food in social media: An explorative study. *Appetite*, *99*, 121-129.

İlban, M. O., Güleç, E., Çolakoğlu, F., & Karabıyık, Ş. (2021). Türkistan'dan Günümüze Türk Mutfak Kültürünün Gelişimi: Geleneksel Türk Mutfağının Günümüz Yeme-İçme Alışkanlıklarındaki Yeri. *Türk Dünyası Araştırmaları*, *127*(251), 269-288.

Karasar, N. (2003). *Bilimsel araştırma yöntemi* (12. Baskı). Ankara: Nobel Yayın Dağıtım.

Kaya, F., & Akpınar, E. (2017). Kutadgu Bilig'de Türk Yemek Adabi ve Kültürü. Electronic Turkish Studies, 12(21), p335-348.

Knight, J., D. Holdsworth and D. Mather (2007) 'Determinants of Trust in Imported Food Products', British Food Journal 109(10), 792–804.

Koçak, K. (2013). Türk Kültür Tarihinin Bin Yıllık Başyapıtı: Kutadgu Bilig'den Bu Güne Ulaşan Gelenekler. International *Journal of Eurasia Social Sciences/Uluslararasi Avrasya Sosyal Bilimler Dergisi*, *4*(13): 56-66.

Lockwood, A. (1994), "Using service incidents to identify quality improvement points", International Journal of Contemporary Hospitality Management, Vol. 6 Nos 1/2, pp. 75-80.

Lupton, D. (2005) 'Lay Discourses and Beliefs Related to Food Risks: An Australian Perspective', *Sociology of Health and Illness, 27*(4), 448–67.

McMillan, J. and J. Coveney (2010) 'What Took You so Long? Sociology's Recent Foray into Food', *Health Sociology Review* 19(3), 282–4.

Neuman, W.L. (2014), Social Research Methods: Qualitative and Quantitative Approaches, 7th ed., Pearson, Harlow.

Okat, Ç., Özer, S., & Çakır, M. U. (2021). *Koronavirüs günlerinde X ve Y kuşaklarının gıda tüketimlerinin incelenmesi*. Daha İyi Bir Dünya İçin Turizm. USF M3 Center Publishing, USA.

Oliveira, T., Araujo, B., & Tam, C. (2020). Why do people share their travel experiences on social media?. *Tourism Management*, *78*, 104041.

Pine, B. J., & Gilmore, J. H. (1998). The experience economy. Harvard business review, 76(6), 18-23.

Solmaz, Y., & Altıner, D. D. (2018). Türk mutfak kültürü ve beslenme alışkanlıkları üzerine bir değerlendirme. *Safran Kültür ve Turizm Araştırmaları Dergisi*, *1*(3), 108-124.

Uçuk, C., & Buyruk, L. (2020). Postmodernizmin Türk mutfak kültürüne etkileri üzerine kavramsal bir değerlendirme. *Gastroia: Journal of Gastronomy And Travel Research*, *4*(2), 270-286.

Ünver, S. (1952), *Fatih Devri Yemekleri*, İstanbul Üniversitesi Tıp Tarihi Enstitüsü, İstanbul.

Ward, P., Coveney, J., & Henderson, J. (2010). A sociology of food and eating: Why now?. *Journal of Sociology*, 46(4), 347-351.

AŞIQ ÖMƏRİN YARADICILIĞI VƏ KARAY TÜRKLƏRİNİN "MƏCMUƏ"LƏRİ

Elmira Fikrət qızı Məmmədova-Kekeç
filologiya elmləri doktoru, professor
Bakı Avrasiya Universiteti
Xəzər Universiteti
mamedovaelmira4@gmail.com
https://orcid.org/0000-0002-3445-1569

Giriş

Türk dünyasının tanınmış aşıqlarından olan Aşıq Ömərin həyatı və yaradıcılığı haqqında araşdırmaların sayı çox olsa da, bir çox hallarda bir-birini təkzib edən fikirlərlə də rastlaşırıq. Tədqiqatçıların yekdil fikrinə görə, XVII əsr aşığı kimi qəbul edilən Aşıq Ömərin doğum və ölüm tarixləri haqqında mübahisəli fikirlər mövcuddur. 1619, 1621, 1651-ci illər doğum tarixi göstərilsə də, ölüm tarixi haqqında müxtəlif tədqiqatçılar 1707-ci ilin üzərində dayanırlar. Yaqub Karasoy və Orxan Yavuzun verdikləri məlumata görə, o, fars dilinə də bələd olmuş, eyni zamanda bir ordu şairi kimi bəzi döyüşlərdə də iştirak etmişdir. Anadolu, Rumeli, Bağdad və rus ellərini gəzib-dolaşmış, əvvəllər Adli, daha sonra Ömər təxəllüsü ilə şeirlər qələmə almışdır. (Karasoy, Yavuz, 2003: 178) Aşıq Ömərin həyatı ilə bağlı əsas mübahisəli məqamlardan biri onun harada anadan olması ilə bağlıdır. Qeyd edək ki, bununla bağlı müxtəlif variantlar var:

1. Konya, Gözleve;
2. Aydın, Gözleve;
3. Krım, Gözleve.

Türkiyədə bu məsələ ilə əlaqədar Aşıq Ömər yaradıcılığını öyrənən bir çox tədqiqatçılar fikirlərini bildirmiş, son vaxtlar Aydında dünyaya gəlməsi daha çox şübhə altına alınmışdır. Xüsusilə də Karasoy və Yavuzun məqaləsində onun Adyından olmasına qəti şəkildə etiraz edilmiş və şairin "Vatan-ı aslimiz aydın elidir" mısrasını işlətməkdə məqsədinin Aydın elindən olmasını vurğulamaq deyil, daima qürbətdə olduğunu ifadə etmək istəməsi qeyd edilmişdir. (Karasoy, Yavuz, 2003: 199) Həmin müəlliflərin digər bir maraqlı iddiası isə Aşıq Ömərin şeirlərinin dil-üslub baxımından Türkiyə türkcəsi ilə eyni olması və Krım tatar türkcəsindən heç bir iz

daşımamasıdır. (Karasoy, Yavuz, 2003: 200) Bu kontekstdə "Eliyahu Ben Yosef Kılcının məcuməsi"ni çapa hazırlayan Gülayhan Aqtayın fikirləri də maraqlıdır. O, "Məcmuə"nin dil xüsusiyyətlərindən bəhs edərkən türkcənin təsirinin çox böyük olduğunu qeyd edir və bunun səbəbini Krım xanlığının Osmanlı dövləti ilə yaxınlığına, eləcə də türkcənin Krımda ədəbi dil statusunda olmasına bağlayır. (Aqtay, 2021: 33)

Aşıq Ömər Yunus Əmrədən sonra Türk dünyasında böyük ünə malik olan ikinci bir sənətkar kimi tanınır və yaradıcılığı sevilərək dillərdə əzbər gəzir. Bunu sübut edən faktlardan biri də onun şeirlərinə müxtəlif cünglərdə yer verilməsidir. Şeirlərində həm klassik, həm də xalq şeiri üslubunu sinkretik şəkildə əks etdirən, hər iki üslubun forma və şəkilləri ilə mənzum parçalar dilə gətirən Aşıq Ömər Erman Artunun qeyd etdiyinə görə, divan və xalq şairlərinin ortaq mövzularına məmləkət gözəlləmələri ilə qəhrəmanlıq və savaş türkülərini də əlavə etmişdir. (Artun, 2021: 314) Onun ən məşhur mənzumələrindən biri də 170 şairin adının çəkildiyi və bu baxımdan bir təzkirə xüsusiyyətində olan "Şairnamə" adlı əsəridir.

Şairin adının Krımla əlaqədar olaraq çəkilməsi də tədqiqatçıların uzun illər diqqətini cəlb etmiş və yarımadanın Gözleve adlı bölgəsində anadan olduğu qənaətinə gələnlərin də sayı çox olmuşdur. Qeyd edək ki, Azərbaycanda da Aşıq Ömərin irsini öyrənən və "Aşıq Ömərin yaradıcılığı" adlı kitabın müəllifi olan Mahmud Allahmanlı da onun Krımdan olmasını əsaslandırmış, daha doğrusu, onu bir Krım tatar şairi kimi qəbul etmişdir. Bu fikrin tərəfdarı olan tədqiqatçılardan biri də Zekeriya Karadavutdur və onun "Kırım tatar şair və yazarı Əşrəf Şəmizadə və onun "Şair Aşıq Umər və onun klassik ədəbiyyatımızdakı yeri" adlı məqaləsi" başlıqlı yazısından Aşıq Ömərin Krım tatarları arasında nə qədər məşhur olduğu, İsmayıl Qaspıralının "Tərcüman" nəşriyyatında çap edilən "Divan"ının əldən-ələ gəzdiyini, toylarda həmişə onun türkülərinin səsləndirildiyini öyrənirik: "Aşık Umer'in 105 şiirinden ibaret son şiirlerinden oluşan antolojisi, 1894 yılında Bahçesaray'da Divan Aşık Umer adıyla İsmail Gaspıralı tarafından neşredilmişti. Şairin okuna okuna yıpranan bu antolojisini, çocukluk çağlarımızda bizler de ellerimize alıp karıştırır, anladığımıza göre okuyup, onun saz çalıp söylemesi, halktan biri olan Nasreddin Hoca gibi hazırcevap, akıllı bir adam olduğunu ve aynı vakitte avam halk tabakaları içinde evliya, devletli sayıldığını, XIX. asır sonlarına kadar Közleve'de Kalentir Burnu (Karantinnaya kosa) denilen yerde mezarı ve çeşmesi bulunduğunu işitir, lakin bu alicenap simanın ta bu kadar mahsuldar şair, ta bu derece iktidarlı müzik ehli olduğunu bilmek değil, hatta aklımıza bile getirmezdik. Bu çocukluk çağlarımızda Aşık Umer'in adını, bir de düğünlerde çok duyardık. Düğünü dualayıp gelen appak sakallı, temiz pak yaşlılar Kuran hatminden sonra çalgıcıların yanına çıkar ve onlara, ekseri Aşık Umer türkülerini ısmarlar idiler. Yaşlı kemancı rahmetli Abdulla usta, gür sesiyle bu türküleri söylediğinde (bugünkü gibi gözlerimin önünde duruyor), bu sabırlı yaşlılar gözlerini yumup, başlarını aşağı eğerek, Abdulla ustanın ağzından çıkan beyitleri canı gönülden dinler ve haddinden ziyade coştuklarından, etkilendiklerinden olmalı, göstermeden gözyaşlarını silerlerdi. Umer Abdulla oğlu (AşıkUmer) 1621 yılı (Hicri hesapla 1030 senesi) Kırım'da Közleve şehrinde Abdulla Kence oğlu adlı bir kürkçü esnafının ailesinde dünyaya gelir. Ve ömrünün büyük bir kısmını burada geçirir". (Karadavut, 2015: 26)

Krım tatarları arasında bu qədər sevilən Aşıq Ömər, təbii ki, bu coğrafiyanın yerli xalqlarından olan karay türkləri arasında da məşhur olmuşdur. Buna görə də karay türklərinin "Məcumə" ("Məcmuə") adlandırdıqları toplulara baxdığımız zaman ən çox qarşımıza adı çıxan şair və ya aşıq olaraq Aşıq Ömər adı diqqəti cəlb edir.

Krım karaylarının məcmuə yaradıcılığı

Krımda yaşayan karaim türklərinin folklor örnəklərini, eləcə də digər türk xalqlarının aşıq ədəbiyyatını, el şairlərinin yaradıcılığını və dastanlarını əhatə edən külliyyatların ilk naşirlərindən biri V.Radlov olmuşdur. Görkəmli türkoloqa görə, "Məcumə"lər karaimlər arasında onlar rusların idarəçiliyinə keçənə, daha doğrusu, fərqli ədəbi-mədəni mühitə daxil olana qədər daha məşhur olmuşdur. Onun bildirdiyinə görə, "Məcumə"lər rusca təhsilə maraq göstərməyən karaimlərin

üzünü köçürərək nəsildən-nəslə ötürdükləri toplulardır və onların sayı çox deyil. Getdikcə gənc nəslin rusca kitablara daha çox meyl etməsi nəticəsində karaim ailələrindəki "Məcumə" ənənəsi zəifləmişdir. (Radloff, 2015: 33)

Karaim şairi Erakın üzünü köçürdüyü "Məcumə"ni Firkoviçdən aldığını qeyd edən Radlovdan sonra xüsusilə Türkiyədə bu topluların nəşri və öyrənilməsi sahəsində bir çox işlər görülmüşdür. Tülay Çulha, Gülayhan Aqtay kimi alimlər bu sahənin mütəxəssislərinə çevrilmiş və daha iki məcuməni çapa hazırlamışlar. Tülay Çulha tərəfindən "Krım karaycasının Katık məcuməsi", Gülayhan Aqtay isə "Eliyahu ben Yosef Kılıcının məcuməsi" kimi karaim əlyazma mətnləri ilə bağlı böyük əhəmiyyətə malik əsərləri nəşr etdirmişlər.

Məcumələrdə epik və lirik növün bir çox janrları – nağıl, dastan, xalq nəğmələri, qoşma, mani, divan, səmai kimi mətn formaları ilə bağlı nümunələr toplanmışdır. Bəzən isə Krımda baş verən mühüm hadisələrlə bağlı elegiya və xalq mahnılarına da yer verilmiş, sonda həmçinin rus ədəbiyyatından tərcümələr də öz əksini tapmışdır.

Aşıq Ömərin məcmuələrdəki şeirlərinin forma və məzmun xüsusiyyətləri

Aşıq Ömərin "Katık məcuməsi"ndəki şeirləri divan, türkü və səmai şəklindədir. Aşıq Ömərin adı çəkilən, təxminən, 13 şeir məcmuədə yer almışdır. Həmin şeirlər müxtəlif mövzulardadır: məhəbbət, dini və əxlaqi-didaktik məsələlər müxtəlif formalı şeirlərin məzmun xüsusiyyətlərini təşkil edir. Didaktik mahiyyət daşıyan bir türküdə Aşıq Ömər insanı ağaca bənzədir və kamil insanın da sağlam ağac kimi köklərinin möhkəm və hikmət dolu olmasından bəhs edir:

bir agaç kamil olunca
iptüda kökten yürür
nice yüz biŋ dalı vardır
hikmet[t]en suy yürür

*...**Asıq 'Ömer** bu dünyada*
ar çeker gam çeker
n'eyleyim dünyada
beş on arşın bez yeter
eki yaren suy ısıtır
birisi alup döker
tenim teneşirde gider yatar
ele hayranım bugün
tam tam tam (Çulha, 134-135)

Şeirin son bəndindən sonra verilən "tam tam tam" sözləri karay məcmuələri üçün xas olan bir poetik qəlibdir və bütün məcmuələrdə mətnin sona çatdığını bildirir. Didaktik vurğusu qabarıq olan bu şeirdə fani dünyanın sonunun beş-on arşın bezlə bitəcəyi vurğulanır və ölüm xatırladılaraq insan yaxşı əməl sahibi olmağa səslənilir.

Məhəbbət mövzusunda olan şeirlərdə isə çox zaman Məcnunun da adı yad edilərək həsrət duyğuları ilə sevgiliyə olan münasibət, onun yolunda çəkilən əzablar dilə gətirilir, bu yolun bəzən Hacc ziyarətindən belə güclü olduğu və aşiqi dindən-imandan da etdiyi bildirilir:

bugün 'asqıŋ bazarıdır bir nasip baştan geçer
'asıqga sadıq olğanım lebi güllerden geçer
geçip meyhane soqduqça aglar eyler ahi zar
'asqıla merd /hvvn'yy/ gülden geçer

ben bir garip Mecnunum ki seyr it sinem beni
raqibe azar iken ben de sinem dagını
yüz yasında bir rüsvan görse göksüŋ dagını
incileyin yare sürülir vaz gelir geçten geçer

*der ki **'Ömer** met ideyim gene dillere sağıs ...*
hacı hocalar gider {sen} görseler yolda seni
mecnın olur Sam'da qalır vaz gelir hacdan geçer
tam tam tam tam tam tam (Çulha, 143)

"Sultanımın" rədifli digər bir şeirdə isə ayrılıq və həsrətdən şikayət motivləri aparıcıdır və şair sevgiliyə müraciətlə uzaqlarda olsa belə varlığı ilə təsəlli tapdığını bildirməkdədir:

*'**Ömer** der ki göstü[r]me rebi ayrılıq güçdir bana*
merhamet qılqıl gel sultanım dön yüzüŋ benden yana
ben dilerim bin yaşasın seni doguran ana
kimseler taqat getirmez nazına sultanımıŋ (Çulha, 159)

"Məcmuə"yə nəzər saldığımız zaman Aşıq Ömərin dini mövzulara da müraciət etdiyini görürük. Divanlarından birində təlmihlərlə Aşıq Ömər Musa, Yusif, Süleyman, İbrahim, İsmayıl, Yəhya və Məhəmməd kimi peyğəmbərlərin adlarını çəkir:

söz Asıq Ahmed'iŋ kim cismimi üryan nereden
merhamet eyler sa/lylys/ derdime derman eder
***Musa**'nıŋ cevri cevası aşqı üryan eder*
***Yusuf**'uŋ hüsnü cemali beni de üryan eder*

***İsmail** bir qonca güldir yüzüne kar*
hüsnimiŋ sözler qıldı qalbime qarar
hüsnüŋe gönül virenler aglarım leyli nihar
***Süleyman**'ım ben nidaya b'azı bir ahsendir*

hep rakipler Osman'nıŋ da baglamıslar yolunu
Haq saqlasın gül yüzlü Abdirahim'i
*canım dilden aşıram ben severim **İbrahim**'i*
qorqtım dünyar Mehmid'im qatlime derman eder

v'eliniŋ fikiri hayali c'ame /qllry/ qazap
***Yahya**'yı candan eylerler bana /'vtb/*
sela sırası bagrımı qaldı sebeb
*ey '**Ömer** axirini kim **Mustafa** qurban eder*
tam tam tam (Çulha, 143)

Qeyd edək ki, V.Radlov tərəfindən nəşr edilmiş "Məcmuə"də Aşıq Ömərin şeirləri daha çox yer alır, onlar da aşıq şeirinin müxtəlif şəkillərindədir. Həmin şeirlərdən biri isə Məhəmməd peyğəmbərə həsr olunmuş nət səciyyəsində bir şeir kimi diqqəti cəlb edir və "Mustafa" rədifini daşıyır.

Həmin "Məcmuə"də eyni zamanda "Aşıq Ömərin məsəli" adlı rəvayət şəklində olan bir mətn də vardır. Həmin mətndən bəlli olur ki, Həyat və Məmat adlı iki qardaş Aşıq Ömərin ad-sanını eşidib onun yanına imtahan olunmağa gedirlər. Həmin vaxt Aşıq Ömər İstanbulda imiş. Qatırçı karvansarayına gəlirlər, aşığın hamamda olduğunu öyrənirlər. Kisəçi Aşıq Ömərə onların salamını çatdırır və soruşur ki, xınzır (hiyləgər) postu divanət ilə pak olarmı? Aşıq Ömər isə cavabında deyir: "Həyatı da haram, məmatı da haram!". Qardaşlar bu cavabdan heyrətlənirlər, Aşıq Öməri onları görmədən, sorğu-sual etmədən tanıdığına təəccüblənirlər və geri dönürlər. Halbuki aşıq həyatı və ölümü nəzərdə tutmuşdu. (Radloff, 2015: 317)

Radlovun "Məcmuə"sində də Aşıq Ömərin səmai, türkü kimi şeirlərini sayı daha çoxdur. Səmailərdə dünyanın gərdişindən bəhs edilərək, faniliyi vurğulanır:

***Ömer** der ki düşen ağlar*
Söze kamil olan sevler
Qatar qatar olmış begler

Beyaz gerdana yaslanmış (Radloff, 2015: 550)

Didaktik və sevgi mövzularının sinkretik bir örnəyi olan digər bir şeir isə "Ya gələm, ya gəlməyəm" rədifli mənzumədir:

Elvedayı ruhı alem ya gelem ya gelmeyem
Qaşları ince hilalim ya gelem ya gelmeyem
Gel otur qarşıma baqam bir doyunca yüzüne
Gider oldum selvi nazenim ya gelem ya gelmeyem

***...Ömer** derki bu derde sabur edmeli Ayub gibi*
Gitmeli darı fanide yatmalı garib gibi
Aqıtıp hasret yaşın dem be dem Yaqub gibi
Hoşça qal Yusuf cemalim ya gelem ya gelmeyem (Radloff, 2015: 721)

Yaqub və Yusif peyğəmbərlərlə bağlı qissəni təşbihlə nəzərə çatdıran aşıq Əyyub peyğəmbərin də səbr və mətanətini xatırladır və insanları dözümlü olmağa səsləyir.

Məhəbbət mövzusunda qələmə alınmış mənzumələrdə də aşıq dəfələrlə sınaqdan keçdiyini, yarın yolunda cövr və cəfaya tab gətirdiyini, lakin sevgisindən dönmədiyini vurğulayır:

Ben sana gönül vereli
Şu cihanda gülmedim
Çeçti ömrim muhannetle
Bir sefasın sürmedim. (Radloff, 2015: 757)

Məşuqunun yaşatdığı iztirablar nə qədər onu usandırmasa da, sədaqətli yarın əslində gün işığında şam ilə axtarıldığını, onun kimi aşiqlərin də tapılmadığını xüsusi qeyd edən aşıq yarı ilə qovuşmağından da nigarandır, ümid məşhər gününə qalmışdır:

Gene urdın sinem içre
Nece yüz binler yarayı
Vaqt ola ki bulmayasın
Mum yaqıp beni arayı

Gördigin bu gündir Ömer
Hep aşıqlıq biçareyi
Ta qıyamet mahşere dek
Sen bir yane ben bir yane. (Radloff, 2015: 762)

Nəticə

Aşıq Ömər Türk dünyasının ən çox sevilən, tanınan, şeirləri dillərdən-dillərə dolaşan şairlərindən olmuşdur. Hətta musəvilik inancında olan karay türkləri belə onun şeirlərini əzbərləmiş, ailə kitabları olan məcmuələrə daxil etmiş, islam dini ilə bağlı mənzumələrini belə mənimsəmişlər. Radlovun və Çulhanın nəşr etdirdikləri məcmuələrdə Aşıq Ömərin təxəllüsü ilə verilmiş nümunələrin sayı çoxdur. "Eliyahu Ben Yosef Kılcının məcmuə"sində bir yerdə aşığın adına təsadüf etsək də, bütün bunlar Krım coğrafiyasında Aşıq Ömər adının çox məşhur olduğunu göstərməklə yanaşı, onun əsl vətəninin də bura olacağı ehtimalını qüvvətləndirməkdədir.

Məcmuələrdə yer verilmiş şeirlər, əsasən, dini-didaktik və məhəbbət mövzusundadır. Şeirlərin forma xüsusiyyətləri isə rəngarəngdir.

İstifadə edilmiş ədəbiyyat

1. Aqtay Gülayhan. (2021). Eliyahu Ben Yosef Kılcı`nın Mecuması (Kırım Karay ve Türk Edebiyatı Mecmuası). Ankara, TDK Yayınları

2. Allahmanlı Mahmud (2008). Aşıq Ömərin yaradıcılığı. Bakı, ADPU-nun nəşriyyatı

3. Artun Erman (2021) Aşıklık Geleneği ve Aşık Edebiyatı. (Edebiyat Tarihi/ Metinler) Adana, Karahan Kitabevi, 12. Baskı) 314

4. Çulha Tulay. (2010). Kırım Karaylarının Halk Edebiyatı Kaynakları: "Mecumalar", folklor/edebiyat, cilt:16, sayı:61, 1, s. 34-42

5. Çulha Tülay. (2015.)Kırım Karaycasının Katık Mecuması (Metin, Sözlük, Dizin). Ankara, TDK Yayınları

6. Karadavut Zekeriya (2015). Kırım Tatar Şair ve Yazarı Eşref Şemizade ve Onun "Şair Âşık Umer Ve Onın Klassik Edebiyatımızdaki Yeri" Adlı Makalesi. Akademik Kaynak, 3(6), Aralık 2015, 13-39

7. Karasoy Yakub., & Yavuz Orhan. (2003). 17. Yüzyıl Saz Şâiri Âşık Ömer Üzerine Bazı Mülâhazalar. Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi, (13), 177-215.

8. Radloff W. (2015). Kuzey Türk Boylarının Halk Edebiyatından Örnekler. Haz.: Tülay Çulha, Ankara, TDK Yayınları

II QARABAĞ MÜHARİBƏSİ ZƏFƏRİ AZƏRBAYCANIN DAYANIQLI HƏRBİ İNKİŞAFININ NƏTİCƏSİ KİMİ

Asim Şəfayət oğlu Məmmədov
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
asim.mammadov@mdu.edu.az
https://orcid.org/0000-0001-9517-5214

Müstəqil Azərbaycan Respublikası dünyanın sürətlə inkişaf edən dövlətlərindən biri kimi dünya ictimaiyyətinin diqqət mərkəzində yer alır. Xüsusilə, transmilli neft və qaz layihələrinin reallaşmasında qətiyyətli mövqeyi ilə seçilən müstəqil Azərbaycan Respublikası, sahib olduğu geosiyasi mövqeyini xalqının və dünyanın rifah səviyyəsinin yüksəlməsi, bölgədə və dünyada sülh və əmin-amanlığın inkişafı doğrultusunda istifadə etmiş və Şərq ilə Qərbin, Şimal ilə Cənubun əməkdaşlığının inkişafında fəal rol alaraq dünyada etibarlı tərəfdaş kimi müsbət imic əldə etmişdir.

Azərbaycan Respublikası bütün enerjisini öz müstəqilliyini qorumağa, xalqının rifah səviyyəsinin inkişafına yönəldərkən, qarşıda duran mühüm problemlərdən biri kimi işğal altında olan torpaqlarının işğaldan azad edilməsi məsələsini də nəzəri diqqətdən kənarda qoymamış, əlindəki bütün riçaklardan bu məqsəd uğrunda istifadə etmişdir.

Bu gün geriyə dönüb baxdıqda görürük ki, 1990-cı illərdə əlində heç bir xarici siyasət vasitəsi olmayan, müstəqilliyi böyük təhlükə altında olan, suverenliyi işğal altındakı topraqları səbəbi ilə qəsb edilmiş gənc Azərbaycan Respublikası, 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə gələn Ümummilli lider, təcrübəli siyasətçi Heydər Əliyevin diqqətli və uzaqgörən siyasəti nəticəsində, həmin badirəli dövrdən yara almadan xilas olaraq, öz gələcək davamlı və dayanıqlı inkişafının əsasını qoymuş, durmadan, dönmədən bu yolda gələcəyə inamla irəliləməyə başlamışdır.

İstər Ulu Öndərin özünün, istərsə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında dəfələrlə səsləndirdiyi "biz lazım gəlsə öz torpaqlarımızı müharibə yolu ilə azad edəcəyik" açıqlamalarını eşitdikdə tərəddüd içində olan insanlar üçün bu şübhələrin demək olar ki, tamamilə ortadan qalxdığı, həmin günün dövlətin inkişaf edən hərbi qüdrəti ilə yaxınlaşdığını dərk etmələrini sürətləndirən hadisə ilə 2016-cı ilin aprel ayında baş verən, Azərbaycan üçün bir növ "sınama və yanılmama" xarakteri daşıyan "Aprel döyüşləri" oldu. Bu döyüşlər, ermənilər üçün dörd il sonra baş verəcəklərin ilk xəbərçisi olduğu halda, Azərbaycan xalqı üçün dövlət-millət-ordu vəhdətini daha da gücləndirən katalizator rolunu oynadı. Aprel döyüşləri 20 ildir böyük diqqət yetirilən ordu quruculuğunun "ilk bəhrəsi" olan Lələ təpə kimi bir sıra strateji əhəmiyyətə malik ərazilərin azad edilməsi ilə nəticələndiyi halda, hərbi qüvvələrin həm

silah-sursat, həm lojistika, həm də hərəkət qabiliyyəti sahəsində çatışmazlıqlarının müəyyən edilməsi, aradan qaldırılması, eyni zamanda müvafiq təkmilləşdirilmə işlərinin görülməsi baxımından da böyük təcrübə olmuşdur.

Ethical Leadership Behaviors, a scale developed by (Brown et al. 2005) was used. To measure *psychological safety perception* we used a scale recommended by Yener (2015), which was adapted to Turkish and tested for validity and reliability.

Conclusion

This section will be written after the data collected and the analyses are being done.

References

1. Walumbwa, F.O., Hartnell, C.A., & Misati, E. (2017). Does ethical leadership enhance group learning behavior? Examining the mediating influence of group ethical conduct, justice climate, and peer justice. *Journal of Business Research*, *72* , 14-23.

2. Shin, Y. (2012). CEO ethical leadership, ethical climate, climate strength, and collective organizational citizenship behavior. *Journal of Business Ethics* , *108* (3), 299-312.

3. Brown, M. E., & Treviño, L. K. (2006). Ethical leadership: A review and future directions. *The leadership quarterly* , *17* (6), 595-616.

4. Treviño, L. K., Hartman, L. P., & Brown, M. (2000). Moral person and moral manager: How executives develop a reputation for ethical leadership. *California management review* , *42* (4), 128-142.

5. Yener, S. (2015). Validity and Reliability Study of the Turkish Form of the Psychological Safety Scale. *Journal of Social Sciences Research* , (13), 280-305.

6. Walumbwa, F. O., & Schaubroeck, J. (2009). Leader personality traits and employee voice behavior: mediating roles of ethical leadership and work group psychological safety. *Journal of applied psychology* , *94* (5), 1275-1286.

7. Sağnak, M. (2017). Ethical Leadership and Teachers' Voice Behavior: The Mediating Roles of Ethical Culture and Psychological Safety. Educational Sciences in Theory and Practice, 17(4), 973-989.

SOFT SKILLS OF EMPLOYEES IN INTERNATIONAL ORGANISATIONS IN LATVIA

[1,2]**Lucija Rutka,** [1,3]**Ilmars Kreituss,** [1,4]**Kristians Maceraliks**
[1]RISEBA University of Applied Sciences, Latvia
[2]Dr.psych., professor
lucija.rutka@riseba.lv
https://orcid.org/0000-0001-6196-4573,
[3]Dr.chem., professor
Ilmars.kreituss@riseba.lv
https://orcid.org/0000-0001-8510-376X
[4]MBA
kristians.ma@inbox.lv
https://orcid.org/0009-0003-3966-9270

Introduction

In today's workplace the need for soft skills is widely considered as vital because of globalization, virtual offices, technology and increasing society diversity.

It is important to have the right set of soft skills to keep high level of employability because these are the skills that an individual uses to interact with, interpret or inform social and physical environments. (Dyson, 2021) In a competitive environment, job performance has continuously remained an important issue in many organizations. For example, the job performance of a leader indicates how well a leader accomplishes his job responsibilities in the working environment in order to achieve organizational goals and productivity. (Fletcher, 2023) Soft skills have a substantial influence on the accomplishment of job performance, and therefore soft skills are necessary for organizational success and wellbeing. (Seetha, 2014) Aim of the research - theoretically analyze and practically study the soft skills of employees in international organisations in Latvia.

Communication, partnerships, and presenting your company in a favourable light to the public and potential workers are all important in today's business world as the need for soft skills is widely considered vital because of globalization, virtual offices, technology and increasing society diversity.

Soft skills in the workplace enable businesses to use their technical talents and expertise more effectively and efficiently without being inhibited by interpersonal issues, infighting, or negative public and market impressions.

It is important to have the right set of soft skills to keep high level of employability because these are the skills that an individual uses to interact with, interpret or inform social and physical environments.

Research method and respondents

Research question: What are the most important soft skills of employees in their workplace?

Research method: Soft skills survey (Escola-Gascon & Gallifa, 2022)

Methodological choice – quantitative data – survey which was created with the help of a website called Webropol. Survey web link was sent to people electronically, publicized on Facebook using their ad service and posted on the platform Reddit, more specifically, the Latvian subreddit.

Primary data source - electronic survey on the Webropol platform.

Respondents – 121 employees from various international organisations in Latvia.

Method of primary data analysis - Quantitative data: descriptive statistics, Kolmogorov-Smirnov test, Wilcoxon signed-rank test, Cronbah`s alpha coefficient.

Theoretical background

Together with technical or hard skills and knowledge, basic skills (like reading, writing, and math), and personal values, soft skills are important for job performance.

Companies seem to think that hard skills, which are mostly shown by academic certificates, are less important to them. Employers tend to put more weight on the personal qualities and attitudes of candidates (called "soft skills"), which can't be shown or proven by traditional diplomas or certificates. Human resources are usually expected to have self-directed and self-motivated attitudes as well as personal responsibility, adaptibility, flexibility, innovation and creativity, and an entrepreneurial spirit (Doyle, 2022). People's soft skills depend more on who they are than what they know. As such, they include the personality traits that determine how well people get along with each other and are usually a fixed part of a person's personality. In a competitive job market, employees who show that they have a good mix of hard skills and soft skills are often in higher demand (Kenton, 2022).

When deciding who to hire, employers look for a good mix of hard skills and soft skills. For instance, employers like workers who are skilled and have a history of getting jobs done on time. Employers also look for people who can communicate well and know a lot about the products and services of the company. Even if their job isn't in sales or marketing, people with soft skills can put together convincing presentations when talking to potential clients. Another valuable soft skill is being able to teach new tasks to other people at work. (Kenton, 2022)

Researchers Álex Escolà-Gascón and Josep Gallifa (Gascón & Gallifa, 2022) define 14 soft skills:

1. Commitment - examines the degree to which a person can initiate, manage and complete a given task.
2. Originality – analyzes the degree to which a person has divergent ideas concerning traditional methods and procedures.
3. Integrity – describes the degree of moral or ethical balance between what a person feels, thinks and does.
4. Entrepreneurial Orientation - analyzes the degree to which a person wishes to initiate and develop new projects of their own.
5. Effectiveness – measures the degree to which a person feels capable and able to perform tasks.
6. Critical Thinking – examines the degree to which a person can logically question environmental inputs.
7. Rigorousness – describes the degree to which a person argues their ideas with rationale, pieces of evidence, and objective proofs.
8. Accuracy – analyzes a person's tendency to specify their ideas and to put them into practice.
9. Determination – measures the degree to which a person knows themselves or connects with their way of being.
10. Involvement – examines the degree of involvement of a person with the circumstances or situations that occur in their environment.

11. Environmental Awareness – explores the degree to which a person is aware of the sustainability of the planet's resources.

12. Teamwork – describes the extent to which a person knows how to work in a team and learns cooperatively.

13. Autonomy – analyzes the degree to which the student generates new learning from their resources.

14. Sincerity – measures the extent to which a person responds honestly. (Gascón & Gallifa, 2022)

Making good working relationships is one amongst the many things to do in the workplace. Leaders of companies are often at their best when they have strong "soft skills." For example, leaders are expected to be good speakers, but great leaders are also good at listening to their workers and to other leaders in their fields.

Results of the practical research

To research soft skills of employees in international organisations, a survey by Álex Escolà-Gascón and Josep Gallifa (Gascón & Gallifa, 2022) was used. In the beginning, the respondents evaluate their own 14 soft skills, noting their expressiveness on a Likert scale from 1 to 6. Fig. 1 shows the average ratings for all 14 soft skills (Q1-Q14). It can be concluded that the soft skill with the best answer average rating to statements is Q1 - commitment at 4.95, meaning most people chose either the answer "agree" or "completely agree." followed up by Q12 (teamwork) and Q13 (autonomy).

Involvement (10), Environmental Awareness (Q11), and Effectiveness (Q5) have the lowest average ratings, with Effectiveness (Q5) having a big difference between itself and the second lowest rated soft skill, Environmental Awareness (Q11) - a difference of 0.53.



Fig. 1. Self-assessment of the importance of soft skills

To answer the research question, "What are the most important soft skills of employees in their workplace?" The statistical indicators of soft skills (nine questions from Q1-Q14 and six questions from Q15) were initially calculated and summarized in Table 1.

Table 1

Statistical indicators of soft skill scales

Q16 n=121	Mean Statistic	Std. Deviation Statistic	Skewness (Std. Error=0,220) Statistic	Kurtosis (Std.Error =0,437) Statistic	K-S Test Statistic	Asymp. Sig. (2-tailed)
Commitment	5,10	1,036	-1,527	3,112	,247	,000c
Originality	4,24	1,176	-,573	,075	,221	,000c
Integrity	5,01	,871	-,786	,534	,265	,000c
Entrepreneurial_Orientation	4,19	1,120	-,420	,366	,201	,000c
Critical_Thinking	5,31	,847	-1,239	1,036	,295	,000c
Accuracy	5,30	,792	-,791	-,311	,300	,000c
Involvement	5,17	,879	-,780	-,227	,259	,000c
Teamwork	5,08	1,013	-1,048	,661	,247	,000c
Sincerity	5,15	1,038	-1,758	3,900	,269	,000c
Communication	5,51	,732	-1,537	2,061	,376	,000c
Leadership	4,52	1,042	-,371	,297	,220	,000c
Self-confidence	4,59	1,046	-,390	-,540	,224	,000c
Responsibility	5,58	,692	-2,126	6,292	,390	,000c
Diversity management	4,30	1,108	-,615	,298	,208	,000c
Emotional intelligence	4,97	1,095	-,902	,096	,232	,000c

As the calculations show, the subscales of Q16 do not correspond to a normal distribution (Kolmogorov-Smirnov test Sig <0.05). The negative coefficients of asymmetry, which in absolute value exceed the Std.Error of Skewness, indicate that the respondents more often showed higher values than the arithmetic mean of the group, i.e., they more often chose agreement as an answer (values 4 - 6).

The most important soft skills in the workplace, arranged in descending order, are visible in Fig 2.

The obtained research results show that all the mentioned skills (Figure 2) are highly rated - above 4 out of 6 possible expression levels. With an average of 5.58 the highest rated soft skill is responsibility and then followed by communication, critical thinking and accuracy. The least favourable soft skills are diversity management, originality and entrepreneurial orientation. Diversity management is one of the most underrated skills, but in the multicultural environment of today's organizations, it is very important. The obtained result could indicate that either the respondents do not understand the above-mentioned soft skills as relevant in today's organization or they have not encountered the difficulty of diversity management.

Conclusions and discussion

Respondents consider responsibility, communication, critical thinking, and accuracy to be the most important soft skills in the workplace, and entrepreneurial orientation, originality, and diversity management to be less important. One of the most underrated skills is diversity management, which is important in today's multicultural environment.



Fig. 2. Assessment of soft skills (Mean) in the workplace

Respondents believe that the soft skills they possess at a higher level are commitment, teamwork, autonomy, and rigorousness; at a lower level - entrepreneurial orientation, integrity, involvement, environmental awareness, and, least important - effectiveness. The low effectiveness self-assessment indicator is surprising because it is particularly important for achieving the organization's goals and promoting the employee's own work efficiency. Such an answer could be related to the fact that the respondents have low effectiveness motivation, or they do not understand its essence and importance.

Future studies could analyze the relationship of soft skills with work performance, quality of human life, professional burnout and other indicators important to personality and organization.

References

1. Doyle, A. (2022). *What Are Conflict Resolution Skills?*. Available at: https://www.thebalancemoney.com/conflict-resolutions-skills-2063739

2. Dyson, E. (2021). Soft Skills in the Workplace: why they Matter and how to Hire for them. Available at: https://www.peoplescout.com/insights/soft-skills-in-the-workplace/

3. Fletcher, J. (2023). *What Is Job Performance?*Available at: https://www.smartcapitalmind.com/what-is-job-performance.htm

4. Gascón, Á. E. & Gallifa, J. (2022). *How to measure soft skills in the educational context: psychometric properties of the SKILLS-in-ONE questionnaire.* Available at:

https://www.researchgate.net/publication/360288469_How_to_measure_soft_skills_in_the_educational_context_psychometric_properties_of_the_SKILLS-in-ONE_questionnaire

5. Kenton, W. (2022). *What Are Soft Skills? Definition, Importance, and Examples.* Available at: https://www.investopedia.com/terms/s/soft-skills.asp

6. Seetha, N., 2014. *Are Soft skills Important in the Workplace? A Preliminary Investigation in Malaysia.* Available at: https://www.researchgate.net/publication/269813457_Are_Soft_skills_Important_in_the_Workplace_a_A_Preliminary_Investigation_in_Malaysia

SOSİAL İŞ SOSİAL İNSTİTUTLARIN TƏRKİB HİSSƏSİ KİMİ

Fərəh Cabbar qızı Cəlil
filologiya elmləri doktoru, professor
Mingəçevir Dövlət Universiteti
farah.calil@mdu.edu.az
https://orcid.org/0000-0001-6894-4401

Bəşəriyyət öz inkişafının bir çox mərhələlərini keçdikdən sonra cəmiyyətdən ayrı yaşamağın mümkünsüzlüyünü və bu faktordan asılı olduğunu dərk etdi. İbtidai icma quruluşunun dağılması ilə müstəqilliyini əldə edən insan eyni zamanda fərd kimi azadlığını da qəbul etmiş oldu. Lakin azad insan cəmiyyətin dəstəyi olmadan yaşamağın nə qədər çətin olduğunun da fərqinə vardı. Zamanla inkişaf edən cəmiyyətdə, həmin cəmiyyətin qaydalarına uyğun davranış variantları formalaşır. Fərd bu cəmiyyətin subyekti kimi həmin normalara öz şəxsi münasibətini bildirməlidir. Buradan da aydın olur ki, insan ailələrə, qəbilələrə, icmalara, dövlətlərə, birliklərə və s. yaşamaq və ictimai təşkilatlarda özünü ifadə etməlidir.

Burdan da aydın olur ki, insan məhz sosiallaşma dövründə fərdə çevrilir. Belə ki, sosiallaşma fərdə həyatı boyu təsir edir və bu sosiallaşma prosesi cəmiyyətin fərdə təsiri nəticəsində formalaşır. Sosiallaşma, cəmiyyətin mədəni normalara uygun assimilyasiyası və ya bir cox ölkələrdə baş verən radikal dəyişikliklər ictimai münasibətlərin də xarakterini dəyişir. Bu mənada cəmiyyət və onun sosial institutlarının yenidən ictimai problemlərin yeni sosial institutların strukturunun yaradılmasını tələb edir.

Ümumiyyətlə, "sosial institut" termini ictimaiyyətlə əlaqələr hər növ sifarişlərin rəsmiləşdirməsi ilə bağlıdır. Bu prosesi müşahidə edərkən aydın olur ki, sosial insitut anlayışı Q.Spenserin düşüncələrinə çox yaxındır [5: s. 17].

Sosial institutların klassik konsepsiyası Talkott Parsonsun struktur-funksional nəzəriyyəsində ən aydın şəkildə ifadə edilmişdir. Sosial institutlar sosial sistemdə sosial hərəkətlərin koordinasiyasına təsir göstərir və onun davamlı işləməsini təmin edir. Sosial qarşılıqlı əlaqə hər zaman müəyyən bir sistemdə gerçəkləşdirilir. Bu insanlar arasında vahid informasiya və kommunikasiya məkanı kimi sosial-təşkilati şəraitdə ötürülən informasiya ilə bağlı münasibətlər sferasında həyata keçirilir.

Sosiallaşma zamanı baş verən disfunksiya prosesi fərdin düşdüyü çətin həyat tərzi hesab oluna bilər. Məhz bu baxımdan, sosial iş institutları sosiallaşma institutlarından hesab edilə bilər. Bu prosesdə isə sosial iş institutu, sosiallaşma institutlarından biri, sosial işçini isə sosiallaşma ağenti kimi dəyərləndirmək olar [2, s. 19].

Sosiallaşma zamanı baş verən disfunksiya prosesi fərdin düşdüyü çətin həyat tərzi hesab oluna bilər. Məhz bu baxımdan, sosial iş institutları sosiallaşma institutlarından hesab edilə bilər.

Bu prosesdə isə sosial iş institutu, sosiallaşma institutlarından biri, sosial işçini isə sosiallaşma ağenti kimi dəyərləndirmək olar [2, s. 19].

Sosial işçi insanların bacarıqlarını aktivləşdirir, fərdin problemlərini həll etmək və onu çətin situasiyadan çıxarmaq üçün Rusiyada mövcud vəziyyət strukturun dəyişməsi ilə xarakterizə olunur. Cəmiyyətin müəyyən problemlərinin həlli üçün nəzərdə tutulmuşdur. İnsanlar və onları resurslarla təmin edən sistemlər arasında əlaqələr yaradır [3, s. 27].

Bir çox ölkələrdə baş verən radikal dəyişikliklər ictimai münasibətlərin də xarakterini dəyişir. Bu mənada cəmiyyət və onun sosial institutlarının yeni strukturunun yaradılmasını tələb edir.

Peşəkar sosial sistemin əsas struktur elementləri kimi sosial iş və onun rolu sosial əlamətlərin funksiyaları ilə əlaqələndirilir.

Sosial institutların tərkib hissəsi kimi sosial iş cəmiyyətin əsas problemlərindən biri kimi əsasən fərdlərin problemlərini həll etməyə yönəldilmişdir. Bu prosesi yerinə yetirən sosial işçilər bir neçə vacib keyfiyyət göstəricilərinə sahib olmalıdırlar.

Sosil işçinin keyfiyyət göstəriciləri bir çox aspektləri ehtiva edir: təhsil səviyyəsi, problemləri aradan qaldırmaq və həll etmək bacarığı və problemin həlli istiqamətində nəticə əldə etmək bacarığı. Bununla yanaşı sosial işçilər daim yeni iş üsullarını öyrənirlər.

Sosial işçilərin ünsiyyət bacarıqları da əsas faktorlardan biridir. Sosial işçi istənilən insanla ünsiyyət qurmaq bacarığına sahib olmalıdır. Bu üsulla sosial işçi narahatlıq doğuran bütün problemləri öyrənə və ona kömək edə bilər.

Sosial işçi emosional sabitliyi qorumağı bacarmalıdır. Daim insanlarla əlaqədə olan peşədə emosional sabitlik olmadan heç nə əldə edilə bilməz. Bəzi insanlar mehriban ünsiyyətə və təmaslara meyllidirlər, bəziləri isə yox. Bu vəziyyətdə, emosional vəziyyəti tarazlıqda saxlamağı bacarmaq lazımdır. Bütün sosial xidmət alıcılarına qarşı həssas olmaq vacib şərtlərdəndir. Çünki bu insanların əksəriyyəti çətin həyat vəziyyətində olan və sosial işçidən kömək gözləyən pozisiyadadırlar.

Sosial işçi ilə müştəri arasındakı münasibətdə əxlaqi və etik standartlara riayət etmək lazımdır. Ünsiyyət etikasının formalaşması sosial işçi ilə onun himayədarı arasında etibarlı münasibətlərin qurulmasına xidmət edir. Empatiya duyğusu, məsuliyyət, vicdan kimi şəxsi keyfiyyətlər sosial işçi üçün tələb olunan əsas faktorlardandır.

Apardığımız təhlillərdən aydın olur ki, ictimai münasibətlərin formalaşmasında müxtəlif qruplar kimi formalaşan sosial institutlar özlüyündə sosial işin formalaşına səbəb olur. Sosial iş isə öz növbəsində sosial işçilərin formalaşmasına səbəb olur.

İstifadə edilmiş ədəbiyyat

1. Андреева Г.Н. Социальная психология: Учебник. М.: АСПЕКТ-ПРЕСС,-1998.176 с.
2. Е.И.Исаичева. Становление социальной работы как социального института. Вестник мгпу. серия «Философские науки» s.112-121
3. Кравченко А.И. Социология; Учебное пособие. М.: ACADEMIA, 2002. 414 с.
4. Курбатов В.И. Социальная работа: Учебное пособие. - Ростов-на-Дону: Феникс, 2004. -160 с.
5. Ядов В.А. Социальные институты Человек. Сообщество. Управление • № 1/2006

ФИЛОСОФИЯ ОПАСНОСТИ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

Хикмет Ниязи оглу Везиров
доктор физико-математических наук, доцент
Институт физики МНО
vezirov55@mail.ru
https://orcid.org/0000-0002-5156-0230

В любой стране, в любой области деятельности, даже в области науки и образования, на каждом шагу люди сталкиваются с опасностью возникновения ущерба или убытков, т.е. вреда, в том числе, окружающей среде. Недаром национальный лидер Гейдар Алиев своим Указом «Об обеспечении прав и свобод человека» от 22.02.1998 поднял институт прав человека до уровня государственной политики [1, с. 139]. Поэтому исследование онтологии опасностей считаем актуальнейшей задачей [2].

В гражданском праве под ущербом понимается невыгода, т.е. последствие или состояние, невыгодное для одного лица, возникшее в результате правонарушения, допущенного другим лицом. А убыток – это выраженный в денежной форме ущерб, причиненный одному лицу противоправными действиями другого лица. Убытки часто выражаются произведенными расходами, утратой или повреждением собственности, или доходами, которые неполучены. Поэтому, убытки обычно бывает удобно выразить уменьшением имущества. Но могут быть случаи неполучения или недополучения прибыли, которые могли бы быть получены, если бы не было правонарушения со стороны другого лица. Вред же – это общее наименование для обозначения ущерба или убытка, причиненного кому-либо или чему-либо, т.е., с философской точки зрения, это возникновение негативного изменения состояния человека, природы или чего-то, например, технической системы. В гражданском праве под вредом понимают уменьшение или потерю субъективного гражданского права. Отсюда вывод**:** вред не обязательно должен быть именно имущественным, он может быть и неимущественным. Такой неимущественный вред называется моральным вредом, который может выразиться, например, в подрыве авторитета, достоинства или здоровья личности, или в причинении психических или физических страданий. Иногда вред может обладать свойством накопляться. Такой вред называется накопленным. Он возникает в результате деятельности, осуществленной в прошлом. Это может стать возможным в случае неисполнения или ненадлежащего исполнения лицом обязанностей по недопущению или устранению вреда. Объектами накопленного вреда могут быть как люди, так и технические системы, или даже сама природа.

Необходимо понять, что для возникновения вреда обязательно должно наступить состояние, которое называется опасностью. Опасностью назовем объективный признак состояния, выражающий потенциальную возможность нанесения вреда лицу, обществу, государству или праву, т.е. возможность причинения вреда интересам, охраняемым законом. Для возникновения же опасности необходима угроза возникновения этой опасности. Поэтому угрозой назовем такое объективно возникшее состояние, когда наблюдается возможность наступления состояния опасности. Важно дать определение состояния. Состояние – это целокупность значений величин, связанных с объектом. Раздел же науки или техники, занимающийся опасностями называется ноксологией, пространство опасностей называется ноксосферой, а совокупность источников опасностей – полем опасностей. Если опасность исходит от человека, то, во-первых, такая опасность называется антропогенной, а, во-вторых, к этому состоянию приводят его деяния, т.е. действие или бездействие лица. И деяния, создающие опасность, подразделяются на преступления, административные проступки, гражданско-правовые или трудовые.

Итак, получается, что с философской точки зрения, антропогенная опасность выражает онтологию деяний человека, разрушающих или деградирующих онтологию чьего-то права. Отсюда приходим к социальной потребности в запрещении деяний, приводящих к опасности, в частности, опасности нанесения ущерба окружающей среде. Этот запрет осуществляет закон под угрозой применения соответствующих санкций. Таким образом, приходим к выводу, что опасность – это не способность чего-то или кого-то причинять вред, а негативное состояние (именно состояние) чего-то или кого-то, способное (именно способное) причинить вред кому-то или чему-то. Т.е., опасность – это вероятность (от нуля до 1) наступления негативного последствия для человека, технической системы, государства или природы. И в качестве этого «чего-то» могут выступать не только люди или техника, но также и объективные явления природы. И создавать, и подвергаться вреду могут не только люди, но и вся природа тоже. Поэтому опасности по происхождению можно подразделить на естественные, антропогенные, техногенные и смешанные. В настоящем исследовании нас будут интересовать лишь антропогенные опасности, вызванные неправильной или ошибочной деятельностью человека, т.е. нарушением положений нормативно-правовых или нормативно-технических актов, а в общем-то системы законодательства страны.

Техногенные же опасности, такие как загазованность, шумы, радиация и другие виды излучения технических систем, всевозможные поля или электрический ток, т.е. опасности не естественного происхождения, мы относим тоже к антропогенным, т.к. они возникают из-за неправильной эксплуатации технических систем или недостатков самих этих систем, разработанных опять же человеком. Доказательством может служить авария на Чернобыльской атомной электростанции, которая произошла именно из-за неправильной деятельности работников этой станции. Если, во-первых, конструкция этой станции и технология ее эксплуатации были бы правильными, и, во-вторых, не было бы нарушения этой технологии, то ничего бы и не случилось. Или, например, наезд на человека автомобилем, когда водитель поехал на красный свет светофора. Ударил, конечно же, автомобиль, но виновен же был водитель.

Таким образом, можно считать, что опасность – это потенциальная возможность (именно возможность) нанесения вреда. Для реального же нанесения вреда необходим перенос или вещества, или энергии, или информации, а, возможно, еще чего-то, от чего-то к чему-то. А если переноса не было, то, значит, опасность осталась не реализованной. Вывод: опасности бывают реализованными и нереализованными.

Обычно задача сводится не к тому, чтобы полностью устранить опасности, а всего лишь минимизировать их. Поэтому человечество должно сосредоточить свои усилия для защиты как человека, так и природы от опасностей, т.е. разработать такие методы научной и практической деятельности, которые исключают или само возникновение опасности, или же резко уменьшают их негативное влияние на человека и природу. Эта система мер, приводящая к состоянию защищенности человека и природы от возможного негативного воздействия опасностей назовем безопасностью, а одну из ее составных частей назовем охраной труда. Одной же из составных частей охраны труда является техника безопасности. Т.е. техника безопасности – это составная часть охраны труда, а охрана труда – это составная часть безопасности.

Статьи 39, 41 и др. Конституции Азербайджана [3] предоставили человеку и гражданину права для безопасного проживания. Поэтому для обеспечения этих прав и безопасности необходимы исследования окружающей среды. Система постоянного контроля свойств объекта называется мониторингом, а на государственном уровне – Единой системой государственного мониторинга. Мы предоставили пропедевтику опасностей.

Выводы

1. Главной ошибкой научных работников постсоветских республик является то, что они все еще пользуются устаревшей большевистской системой науки, противоречащей системам законодательств всех постсоветских республик, что и привело к деградации и ослаблению науки на постсоветском пространстве.

2. Предупреждение об опасности, в том числе, окружающей среде, должно стать обязанностью не только добросовестного исследователя, но и любого человека.

Использованная литература

1. Naxçıvan Ensiklopediyası. Bakı, AMEA, 2002, 598 s.
2. Х.Н.Везиров, Ф.Х.Везиров-Кенгерли. Проблемы философской и социологической категории актуальности. Журнал «Научные труды» Института философии НАНА, № 2, 2018, с. 29 – 48.
3. Конституция Азербайджанской публики. Баку, "Hüquq Yayın Evi", 2018, 84 с., с. 26.

SOSİAL VƏ HUMANİTAR ELMLƏRDƏ ŞƏXSİYYƏT VƏ LİDER İDEYASININ TƏQDİMATI

Esmira Hilal qızı Cəfərova
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
esmira.ceferova@mdu.edu.az
https://orcid.org/0000-0003-1549-6770

Bu gün Azərbaycan xalqı və Azərbaycan milli dövləti şanlı və möhtəşəm bir tarix yaşayır. Bu tarixin ərsəyə gəlməsində milyonlarla fədakar insanın, vətənini və torpağını canından çox sevən, hər an onun yolunda qurban verməyə hazır olan vətəndaşlar iştirak etmişlər. Lakin bu insanları səfərbər etmək, onları milli ideologiya ilə silahlandırmaq, istiqmətləndirmək və qələbəyə kökləmək seçilmiş insanların tarixi vəzifəsi və təyinatıdır. Elmi ədəbiyyatda "lider" və ya "öndər" termini ilə müəyyən olunan bu şəxslər tarixi zərurətin doğurduğu gerçəklikdir. Onlar seçilmiş insanlar olaraq lokal və ya qlobal miqyasda bəşəri missiyanın icraçıları, tərəqqinin lokomotivləri, tarixi prosesin avanqardları, dünya nizamının qurucuları, nəhayət, qlobal siyasətin aktorları kimi çox vacib personalar (ing. *Very important person*) hesab olunur. Bəşəriyyətin taleyi onların əlindədir və bu insanlar qlobal tarixin layihəsini yaradan və həyata keçirən, "fələyin çərxini şəxsi iradələrinin hökmü ilə tərsinə fırladan" insanlardır. Elmi ədəbiyyatlarda belə insanlar subyektiv volyuntarizm kateqoriyasına aid edilir [1].

Bu gün sosial və humanitar elmlər haqqında bu və yaxud digər səviyyədə anlayışı olan hər kəs yaxşı bilir ki, daim "Rubikonu keçməyə" hazır (qeyri-müəyyən, amma vacib nəticələrə gətirib çıxaran qəti addım) olan lider şəxsiyyətin iştirakı olmadan milli ideyanı gerçəkləşdirmək və milli layihəni reallığa çevirmək əsla mümkün deyil. Hazırda biz bu həqiqəti öz həyatımızda, tariximizdə və taleyimizdə yaşayırıq. XXI yüzilliyin 20-ci illərinin əvvəllərindən hər gün yeni-yeni uğurlara və qələbələrə imza atan, Azərbaycan xalqını qətiyyətlə arxasınca aparan və onu qalibiyyət kürsüsünə çıxaran Müzəffər sərkərdəmiz İlham Əliyevin timsalında milli lider oldu. O, əsl qəhrəman kimi Xankəndində müqəddəs bayrağmızı ucaltmaqla sübut etdi ki, o, "fələyin çərxini tərsinə fırlatmağa", "istədiyi vaxt Rubikonu keçməyə" hazır olan, dünya güclərinin planını pozmağa, qlobal layihədə korrektivlər etməyə qadir olan Böyük şəxsiyyətdir. Əsrlər boyu möhkəm və çözülməz düyünlər atılmış "Qordi düyünü"nü (əfsanəyə görə Finikiya dövlətinin hökmdarı Qordion tərəfindən vurulmuş müşkül bir düyün olub Makedoniyalı İsgəndər tərəfindən çözülmüşdür) bircə zərbə ilə

kəsən milli liderimiz öz intellekti, qətiyyəti və müdrik əməlləri ilə Azərbaycanı qalib dövlət, Azərbaycan xalqını qalib xalq kürsüsünə qaldırdı.

Onun müdrikliyi və qətiyyəti sayəsində sevinc göz yaşları və qürur hissi ilə yaşadığımız şanlı günlərin hər hansı ölçüyə sığmayan mənasını və əhəmiyyətini dərk etdikcə, lider şəxsiyyətin milli və ümumdünya tarixində oynadığı fövqəladə və əvəzolunmaz rolun mahiyyətini də daha yaxşı başa düşmək olur. Lider şəxsiyyətin ruhunda və potensialında apriori kök salmış unikal elementlərin olması şübhəsizdir. Lakin onun dahi şəxsiyyətə çevrilməsi və tarix yazması üçün bu kifayət deyil. Tarix yazan, dünya nizamını dəyişdirən, tarixi ssenaridə özünün və təmsil etdiyi toplumun maraqları naminə korrektivlər etməyə qadir olan lider şəxsiyyət həyat məktəbi və liderlik praktikası keçdikdən sonra möhtəşəmlik pilləsinə yüksəlir. Liderlik məktəbini uşaq yaşalarından keçən, bu məktəbdə baş verən proseslərin iştirakçısı olan və onları həyat tərzinə çevirən liderlər olduqca müdrik, uzaqgörən, tədbirli, qətiyyətli və çox uğurlu olurlar. Azərbaycan xalqının Milli lideri möhtərəm İlham Əliyev də məhz liderliyi uşaqlıqdan həyat tərzinə çevirmiş, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev kimi dahi şəxsiyyətdən ailə mühitində möhtəşəm liderlik dərsi almış bir fenomendir. Alimlər iddia edir ki, ailədə valideynlərin uşaqlara göstərdiyi qayğı və diqqət nə qədər "rəsmi" (valideynin professional keyfiyyətləri il bağlı olaraq, məsələn prezidentin övladına göstərdiyi qayğı) olursa, bu prosesdə uşağın qazandığı vərdişlər onun həyat təcrübəsinə və peşəkar bacarığa çevrilir [3].

Liderlik məsələsi insan idrakında həmişə qeyri-sabitliyin aradan qaldırılması, dövlətin idarə olunması, durmadan dəyişən sosial sferada insanları yönləndirmək və idarə etmək problemi ilə bağlı olmuşdur. İntibah dövründə və Yeni dövr tarixində liderlik məsələsinə yanaşma tamamailə fərqli xarakter kəsb etmişdir. O dövrün mütəfəkkirləri liderlik fenomeni haqqında orijinal ideyalara imza atmışdılar. *Erazm Rotterdamlı* (lat. *Desiderius Erasmus Roterdamus* – 1469-1536, - Niderland filosofu, teoloq bibleist) "lider" fenomeni haqqında yazdığı fikirlərində qeyd edirdi ki, ideal lider, birinci növbədə, müdrik, ədalətli, hər şeyin qədərini bilən və uzaqgörən olmalı, həmişə ümumi rifah haqqında düşünməlidir. *Tomas Kampanella* (lat. *Thomas Campanella* – 1568-1639, - İtaliya teoloqu və filosofu, "Günəş şəhəri" utopik əsərinin müəllifi) "Günəş şəhəri"əsərində kahinlərin timsalında lideri sosial sistemi qaydaya salan güc kimi qiymətləndirir. *Nikkolo di Bernardo Makiavelli* (1469-1527, - italyan mütəfəkkri, siyasi xadim və yazıçı) isə "Hökmdar" əsərində liderin başlıca əlamət və xüsusiyyətlərini əks etdirən bütöv konsepsiya yaratmış və orada aşğıdakı elementləri xüsusi olaraq qeyd etmişdi: 1) ümumdövlət maraqlarının daşıyıcısı kimi siyasi məqsədləri şəxsi məqsədlərdən, strategiyanı taktikadan üstün tutması; 2) situasiyaya mütləq şəkildə nəzarət etməsi; 3) duyğusal, səmimi, nəcib və qürurlu olması.

İngilis mütəfəkkiri *Tomas Hobbs* (1588-1679, - ingilis filosofu, siyasi fəlsəfənin banilərindən biri) "Vətəndaş haqqında" və "Leviafan" adlı fəlsəfi əsərlərində qeyd edirdi ki, tarixin hərəkətverici qüvvələri insanın liderliyə can atmasının nəticəsidir və o, güclünün hüququ üzərində qurulur. Şarl *Lui de Sekonda de Monteskye* (fransız filosofu və hüquqşünası - 1689-1755) isə hakimiyyət bölgüsü konsepsiyasının müəllifi [5] olmaqla yanaşı liderlik fenomeni haqqında da qiymətli sözlər demişdi. Monteskye "Qanunların ruhu" adlı əsərində yazırdı ki, "əgər liderin azad tərəfdarları və silahdaşları varsa, deməli, onun səmimi və sədaqətli təbəələri və dostları var, əks halda o, qulların lideri olmağa məhkumdur". Liderlik fenomenini təhlil edən *Volter* (*Fransua-Mari Arue* - 1694-1778, - Fransanın maarifçi-filisofu) antik müəlliflərin ideyalarını əsas götürərək ideal lider kimi "maarifçi monarx" konsepsiyasını təsdiq etməyə çalışmışdı. Filosof hesab edirdi ki, maarifçilik, intellekt və erudisiya liderin əsas vəzifəsi olmalıdır. Yalnız bu keyfiyyətlər onun hamıdan yüksək olmaq iddiasına haqq qazandırır. İdeala yaxın olan belə lider "qiyama və istibdada nifrət edən və durmadan ictimai rifaha can atan xeyirxah vətəndaşlar, sadiq dostlar və nəcib təbəələr (bir dövlətə tabe olan vətəndaşlar, adamlar) yetişdirir". Klassik alman fəlsəfəsinin görkəmli nümayəndələrindən biri olan *Georq Vilhelm Fridrix Hegel* (1770-1831) lider şəxsiyyətin iç dünyasının təhlilini apararkən qeyd edirdi ki, "dahilik" möhürü daşıyan lider elə unikal və sirli bir şeyin sahibidir ki, buna görə başqaları

könüllü şəkildə ona tabe olur. Hegelin fikrinə görə, liderin idealı sayılan "böyüklük" və ya "dahilik" onu tarixi şəxsiyyətə və həqiqi qəhrəmana çevirən, əsl təyinatını dərk etməyə sövq edən kriteriyalardır.

Şotlandiya filosofu və tarixçisi *Tomas Karleyl* (1795-1881) "Qəhrəmanlar. Qəhrəmanlara hörmət və qəhrəmanlıq tarixi" adlı kitabında şəxsiyyətlər və liderlər haqqında bir sıra tezislər irəli sürmüşdü. Həmin tezislər içərisində aşağıdakılar fövqəladə maraq kəsb edir:

- ümumdünya tarixi böyük və dahi insanların tarixidir;
- insanın təbitəində əzəli və əbədi olaraq qəhrəmanlara (liderlərə) sitayiş etmək tələbatı var;
- lider (qəhrəman) predmet və hadisələrin zahiri görkəmindən onun daxili quruluşuna nüfuz edən insandır. T. Karleyl iddia edirdi ki, unikal keyfiyyətlərin sahibi olan lider (qəhrəman) kütləyə nə edəcəyini göstərməyi çox yaxşı bacarır və "öz düşüncələri haqqında susmaq istedadına" malik olur.

Beləliklə, liderliyin sosial-fəlsəfi konsepsiyasının zəruriliyi aşağıdakı şərtlərlə diqtə olunur:

- liderlik təkcə sosial aktivliyin bir növü, yaxud forması deyil, həm də sonadək öyrənilməmiş varlıq üsuludur;
- liderliyin varlıq forması həmişə şəxsiyyətlə şərtlənir;
- liderlik müxtəlif növlərin konqlomeratı və reallığın müxtəlif səviyyələri kimi təzahür edir.

XIX əsrdə çoxlu sayda filosoflar, sosiloqlar və tarixçilər lider şəxsiyyətin tədqiqi məsələsinə böyük diqqət ayırmağa başladılar. Onlar lideri kütlənin lokomotivi kimi qiymətləndirərərk onun ən mühüm keyfiyyətlərinə aydınlıq gətirməyə çalışır, liderlik duyğularının mənbəyini müəyyən etməyə cəhd göstərirdilər. Bu sahədə ən populyar nəzəriyyələrdən birini ingilis antropolqu və psixoloqu, differensial psixologiyanın və psixometriyanın banisi *Ser Frensis Qalton* (1822-1911) yaratmışdı. F. Qalton iddia edirdi ki, "əsl (həqiqi) liderlik təbii və irsi istedadın nəticəsidir".

XIX-XX əsrlərdə "lider" fenomeninin tədqiqi ilə bağlı yaranmış çoxlu sayda konsepsiyalar içərisində "liderin ruhunda anadangəlmə nəcibliyin" olması ilə bağlı konsepseya daha populyar idi. Rus filosofu, ekzistensializm və personalizm sahəsində qiymətli əsərlər yazmış *Nikolay Berdyaev* (1874-1948) "Çarlığın ruhu və Kaysarın çarlığı" əsərində yazırdı ki, "nəcib insan hər vəchlə bütün üsul və vasitələrdən istifadə edərək yuxarı qalxmağa çalışan insan deyil, o, elə əvvəldən özünü hər kəsdən yuxarıda hiss edən insandır". N.A.Berdyaev iddia edirdi ki, "uğur üçün dəridən-qabıqdan çıxmaq nəcib insana - aristokrata yaraşan xüsusiyyət deyil"

Yəhudi mənşəli Avstriya psixoloqu və psixiatoru *Ziqmund Freyd* (1856-1939) psixoanalitika sahəsində apardığı tədqiqatlarda lider şəxsiyyətin insani təbiətində kök salmış dərin əsaslara nüfuz edərək orijinal müddəalar irəli sürmüşdü. O, iddia edirdi ki, insan cəmiyyəti, davamlı olaraq, lider şəxsiyyətə ehtiyac duyur və onu ailədə nüfuz sahibi olan atanın nümunəsində görmək istəyir. Məhz liderliyin başlıca sirri də elə liderin ata ilə eyniləşdirilməsi kimi duyğularda gizlənir. XX yüzillikdə sosial-humanitar elmlərdə harizmatik lider konsepsiyası geniş yaılmağa başladı. Bu konsepsiyanın banisi *Maks Veber* (alm. *Maximilian Emil Weber* - alman filosofu və sosioloqu) belə hesab edirdi ki, bu tip liderlər tarixin böhranlı məqamlarında ortaya çıxır və onaların əsas missiyası xilaskarlıq olur.

Hazırda dünyada dörd mindən çox xalq, millət və etnik qrup yaşayır. Onların bəzilərinin sayı milyonlarla ölçülür. Lakin planetdə dövlətçiliyi olan cəmi 200-ə yaxın dövlət var və onlardan yalnız 193-ü BMT-də təmsil olunur. Bu o demək deyil ki, digər xalqlar milli dövlət sahibi olmaq, siyasi müstəqillik qazanmaq və öz milli sərhədlərini müəyyən etmək arzusunda deyil. Bunun üçün onların müvafiq ideyası, şücaəti və şəhidliyi müqəddəs məqam kimi dərk etmək əqidəsi də var. Çatışmayan yeganə cəhət isə əbədi ideallar naminə mücəhidlik yolu seçmiş liderdir. Lakin bununla da hər şey bitmir. Beləki qurbanlara hazır olan mücəhid lider hələ topluma mütləq şəkildə qələbə zəmanəti verən lider deyil. Belə zəmanəti isə uzaqgörənlik, müdriklik, intellekt, qətiyyət, natiqlik, patriotizm və alicənablıq kimi dəyərlərin sintezindən formalaşan şəxsiyyət verə bilər. Belə şəxsiyyətin dahilik,

və harizmatizm kimi unikal keyfiyyətlər üzərində qurulan möhtəşəm obrazını dərindən dərk etmək üçün isə onun spesifik dünyasına nüfuz etmək şərtdir.

Elmi ədəbiyyatlarda lider şəxsiyyət sosial-mədəni sferanın subyekti kimi, öz indviduallığını və unikallığını sosial münasibətlər kontekstində, ünsiyyətdə və fəaliyyətdə qeyri-ordinar üsullarla nümayiş etdirən subyekt kimi qiymətləndirilir. Qədim miflərdən başlayaraq, real tarixi şəxsiyyətlərə qədər bəşəriyyət spesifik keyfiyyətlərə malik olan, toplumu arxasınca aparmaq gücü və qabiliyyəti olan, müdrikliyi, iradəsi, şücaəti və qətiyyəti ilə həm özü, həm də məsuliyyət daşıdığı toplum üçün yol açan "Böyük insan"a, onun tətənnüm etdiyi böyük ideallara fövqəldə məhəbbət bəsləmiş, onları fövqəlbəşər kimi qəbul etmiş, sitayiş obyektinə çevirmiş, müqəddəslik kürsüsünə qaldırmış, hətta ilahiləşdirmişdir [4].

Şəxsiyyət və liderlik problemləri bütün tarixi boyu tədqiqat obyekti olmuş və onların elmi və akdemik səviyyələrdə öyrənilməsi daim fövqəladə aktuallıq kəsb etmişdir. Hətta XIX əsrdən başlayaraq, psixologiyanın bu problemlərə həsr olunmuş xüsusi bir sahəsi də meydana gəlmişdi. "Personologiya" (lat. *persona* - şəxsiyyət, yun. *λόγος* - təlim) adlanan bu sahə şəxsiyyətin psixologiyasını, onun iç dünyasını detallı şəkildə öyrənən inteqral istiqamət kimi ifadə olunur. ABŞ psixoloqu *Henri Aleksander Mürrey* (1893-1988) tərəfindən yaradılmış həmin istiqamət şəxsiyyəti qnoseoloji, ontoloji və mədəni situasiyaların işığında və fonunda öyrənir. Personologiya təlimində mərkəzi problemlərdən biri "tələbat konsepsiyasıdır". Sözügedən bu konsepsiyada qarşıya qoyulan məqsədlərin əsasında sabit dəyərlərin və hərəkətlərin patternlərinin (nümunə, şablon) külliyatından ibarət tələbatlar və onların inteqratları (inteqrasiyanın nəticəsi) dayanır. Burada bəhs olunan tələbat şəxsiyyətin psixologiyası, potensiyası, intellekti, arzuları, məqsədləri, iradəsi, mübarizə əzmi, qalib gəlmək və məqsədə çatmaq meyllərilə bağlı məqamlara əsaslanır. Bu tələbatları reallaşdırmağa can atdığı zaman onun üzləşdiyi çeşidli mühit amilləri ona bəzən dəstək olur, bir çox hallarda isə onun hərəkəti və yüksəlişi qarşısında sədlər çəkir. Bu zaman şəxsiyyət tarixin sınağı qarşısında təkbətək qalır və bu vəziyyət onu ya məğlubiyyətə məhkum edir, ya da ucalması üçün daha da gücləndirir. Məhz bu məqamda şəxsiyyətin əsas mahiyyəti, onun qüdrəti və qətiyyəti aşkara çıxır.

Şəxsiyyətin yetişdiyi ən yüksək məqam liderlikdir. Sosial sferada liderlik toplumun içindən çıxmış və fövqəladə bacarıq və qabiliyyəti olan rəhbərin aparıcı, idarəçi və yönləndirici funksiyaları icra etməklə başçılıq etdiyi daxili iyerarxiyanı təmin etməsi kimi qiymətləndirilir. Lider, bir qayda olaraq, bütün mənalarda fövqəladə üstünlüyə sahib olsal da, bütün resursları idarə etmək kimi təbii legitim hüquq qazansa da, öz statusunu, şərəfini və adını qorumaq, rifahı üçün məsuliyyət daşıdığı xaqın təhlükəsizliyini təmin etmək kimi olduqca ağır yükü öz çiyinlərində daşıyır.

Qeyri-ordinar şəxsiyyətlər üçün xarakterik olan liderlik fenomeninin tədqiqi zamanı, adətən, analitik müstəviyə onların xarakterik cizgiləri, situasiya ilə bağlı çoxşaxəli əlaqələri, icra etdikləri mürəkkəb funksiyaları, davranışları, hakimiyyət məsələləri, uzaqgörənlik, harizma və intellekt kimi mühüm komponentləri çıxarılır və onlara xüsusi diqqət ayrılır [2].

Bu gün kəskin rəqabətin və qeyri-müəyyənliyin yüksək həddə çatdığı bir dövrdə liderin dəyər meyarları, fəaliyyət istiqamətləri və təyinatı haqqında məsələlər fövqəladə aktuallıq kəsb edir. Bu kontekstdə liderlik fərdi davranışın müasir idealı kimi çıxış edir və bu hər kəsin psixologiyasına və əməllərinə güclü təsir göstərir. Bununla bağlı lider fenomeni müasir sosiologiyanın, psixologiyanın, siyasi antropologiyanın, politologiyanın və mədəniyyətşünaslığın təsiri altında yaranmış inteqralist komsepsiyaların, nəzəriyyələrin və yanaşmaların predmetinə çevrilir. Bu isə ondan xəbər verir ki, həmişə olduğu kimi indi də lider şəxsiyyt və qəhrəman obrazı bəşər mədəniyyətinin ən populyar, arzu olunan və daim müzakirə obyekti sayılan subyekti olaraq qalır.

İstifadə edilmiş ədəbiyyat

1. Boucher Sandy. "Stances and Epistemology: Values, Pragmatics, Rationality" Metaphilosophy 49 (4), July, 2018. - pp. 521-522

2. Chin, Roger (2015). "Examining teamwork and leadership in the fields of public administration, leadership, and management". Team Performance Management. 21 (3/4): 199–216.

3. Prunas, Antonio; Di Pierro, Rossella; Huemer, Julia; Tagini, Angela (January 2019). "Defense mechanisms, remembered parental caregiving, and adult attachment style". Psychoanalytic Psychology. 36 (1): - pp. 64-65

4. Гущин А.А. Роль личности в истории // Модели, системы, сети в экономике, технике, природе и обществе. - 2013. - № 3 (7). - с. 233-234

5. Монтескьё / Голубков А.В., Кротов А.А. // Монголы - Наноматериалы. - М. : Большая российская энциклопедия. - 2013. - с. 70-71

NİZAMİ VƏ ANTİK DÖVR AZƏRBAYCAN TARİXİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ TƏNQİDİ BAXIŞ

Nizami Dilənçi oğlu Zeynalov
tarix üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
nizami.zeynalov@mdu.edu.az
https://orcid.org/0000-0003-4988-0515

Nizami yaradıcılığı, böyük şairin zəngin bədii irsi uzun illərdən bəri tədqiq olunmasına baxmayaraq, bu gün də öz aktuallığını itirməmişdir. Nəzərə almaq lazımdır ki, tarixi gerçəkliyə müraciət, tarixi hadisələrdən və personajlardan istifadə olunması bir çox klassiklərlə müqayisədə Nizami Gəncəvi yaradıcılığında daha zəngindir. Bu mənada Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan "İskəndərnamə" poeması müstəsna əhəmiyyət kəsb edir. Şübhəsiz, Nizami Gəncəvi bu poemanı yazarkən öz dövrü üçün Şərq aləminə məlum olan tarixi mənbələri diqqətlə araşdırmış, Makedoniyalı İskəndərin tarixini əks etdirən əsərlərə müraciət etmiş, eyni zamanda böyük fateh haqqında Şərqdə dolaşan rəvayətləri, nağılları - bir sözlə, şifahi xalq yaradıcılığını da gözdən keçirmişdir.

Dahi mütəfəkkirin "İskəndərnamə" poemasında vətənimizin antik dövrü ilə bağlı maraq doğuran məqamlar sırasına "Makedoniyalı İskəndərin Azərbaycana gəlişi", "Bərdə hökmdarı Nüşabə ilə görüşməsi", "Dərbənd şəhərinin ələ keçirilməsi" və "Dərbənd səddinin möhkəmləndirilməsi" ilə bağlı məqamları aid etmək olar [5, s.197-215, 224-231]. Əlbəttə, "İskəndərnamə" poemasında qeyd olunan bu məqamların heç biri ciddi mənbəşünaslıq bazasına əsaslanmır və birmənalı olaraq şairin yaradıcı təxəyyülünün nəticəsi kimi qəbul edilməlidir.

Lakin təəssüflə qeyd edilməlidir ki, son dövrlərdə vətən tarixşünaslığında Nizami Gəncəvinin "İskəndərnamə" poemasının motivlərinə istinad edən və tarixi reallığı olduğu kimi əks etdirməyən, Azərbaycanın antik tarixi ilə bağlı bir çox məqamları təhrif edən əsərlər meydana çıxmaqdadır. Bir çox vətən tədqiqatçıları məhz "İskəndərnamə" poemasına istinad edərək Makedoniyalı İskəndərin "Azərbaycana gəlişini" onun "Alban-Arrana" və "Şirvana gəlişi" kimi, "Bərdə hökmdarı Nüşabə ilə görüşü"nü amazonlarla görüşü kimi təfsir etmişlər [1; 2; 3; 4; 6].

Makedoniyalı İskəndərin "Azərbaycana gəlişi" məsələsinə toxunarkən qeyd etmək lazımdır ki, bu, heç bir ciddi mənbə ilə təsdiq olunmur. Birmənalı şəkildə qeyd etmək istərdik ki, böyük fatehin ayağı nəinki Azərbaycanın şimalına, bəzi tədqiqatçıların qeyd etdiyi kimi "Albaniya-Arran" ərazilərinə, heç Azərbaycanın cənubuna – Atropatenaya da dəyməmişdir. Azərbaycanın antik dövr hökmdarlarının "Makedoniyalı İskəndərlə görüşü" məsələsinə gəlincə isə qeyd etmək lazımdır ki, biliklərimizin hazırkı səviyyəsində həmin dövrdə Azərbaycanın şimalında – Albaniyada hansı hökmdarın hakimiyyətdə olması, onun böyük fatehlə hansı münasibətlərdə olması haqqında

əlimizdə heç bir mənbə məlumatı yoxdur. Atropatın İskəndərlə görüşərək ona "100 amazon qadını bağışlaması" haqqında məlumat isə, ehtimal ki, əfsanəvi məlumatların təsiri altında meydana gəlmişdir. Çünki Makedoniyalı İskəndərin real tarixini yazan Flavi Arrian özü də bu məlumata şübhə ilə yanaşır və bunun Ptolemey və Aristobul tərəfindən təsdiq edilmədiyini yazır [Arr., Anab., VII, 13, 2-3].

Bəzi tədqiqatçılar Nizami Gəncəvinin "İskəndərnamə"sində "Bərdə hökmdarı Nüşabənin İskəndərlə görüşü"nü böyük fatehin amazonlarla görüşü, daha dəqiq desək amazon qadın hökmdarı Falestris/Talestrislə görüşü kimi irəli sürürlər [1, s.40-41; 6, 166-167]. Məhz bu hadisənin motivləri əsasında Makedoniyalı İskəndər "Azərbaycana gətirilir". Lakin hesab edirik ki, bu hadisə də heç bir ciddi mənbəşünaslıq məlumatına əsaslanmır. Hələ antik müəlliflərə məlum idi ki, "böyük fatehin amazonlarla görüşü" Onesikritin şişirdilmiş məlumatına əsaslanır [Plut., Alex., XLVI,1]. Bu məlumata tənqidi yanaşmadan antik müəlliflərdən Siciliyalı Diodor və Kursi Ruf onu öz əsərlərində olduğu kimi vermişlər [Diod., XVII, 77, 1-3; Curt., VI, 5, 24]. Flavi Arrian və onun mənbələri isə "böyük fatehin amazonlarla görüşü"nü təsdiq etmir.

Nizami Gəncəvinin "İskəndərnamə" poeması əsasında Makedoniyalı İskəndərin "Dərbəndə tərəf hərəkət etməsi", "Dərbənd keçidində sədd çəkdirməsi", "Dərbənd qapılarını möhkəmləndirməsi", bir sözlə böyük fatehin Qafqazda olması haqqındakı məlumatlar da, əlbəttə ki, real tarixi ənənə ilə bağlı deyil. Məsələ burasındadır ki, Makedoniyalı İskəndərin real tarixini yazan Flavi Arrian antik coğrafiyada Parapamis dağları adlandırılan, əslində isə müasir coğrafi anlamda Hindiquş dağ silsiləsi ilə eyniləşdirilən dağları nəzərdə tutmuş, İskəndərin Baktriyada məhz bu dağlardan keçməsi barədə məlumat vermişdir. Makedoniyalı İskəndərin yürüşlərini antik qaynaqlar əsasında ciddi şəkildə araşdıran əksər tədqiqatçılar da bu qənaətdədirlər [7, s.21-22; 8, s.75; 9, s.286; 10, s.125; 11, s.118; 12, s.66].

Beləliklə, Nizami Gəncəvinin "İskəndərnamə" poemasının bəzi motivlərinin araşdırılması göstərir ki, dahi mütəfəkkir öz dövrünədək mövcud olan bir sıra qaynaqlardan, şifahi xalq yaradıcılığından, tarixi rəvayət və əfsanələrdən istifadə edərək böyük bir söz xəzinəsi yaratmışdır. Şair bu sənət əsərini yaratmaq üçün qarşısına qoyduğu məqsədlərə nail olmuşdur. Lakin böyük mütəfəkkirin bu əsərinə istinad etməklə təsvir edilən dövrün tarixi reallıqlarını tənqidi münasibət bəsləmədən qəbul etmək, əlbəttə ki, yolverilməzdir. Bu mənada Nizami Gəncəvi yaradıcılığının tarixi motivlərindən bəhrələnərkən, şairin əsərlərindəki tarixi hadisə və prosesləri şərh edərkən, onlara tənqidi yanaşmaq, dövrün tarixi məxəzləri ilə müqayisəli şəkildə tutuşdurmaq və obyektiv tarixi nöqteyi-nəzərdən qiymətləndirmək lazımdır.

İstifadə edilmiş ədəbiyyat

1. Atəşi N. Qafqaz amazonları. Miflər arxasındakı gerçək tarix. Bakı: AMEA, 2011, 56 c.

azaldığını belirtmiştir. Assaf ve Haddad (2014) tarafından alüminyum ekstrüzyon üretim bandı üzerinde uygulanan SMED çalışmasın nihayetinde, kurulumda ki zaman sürecinin daraltılmasının maliyetler üzerinde ortalama $9.000'lık pozitif bir etkisinin olduğunu tespit etmiştir. Henriques (2018) çalışmasında, ilaç endüstrisinde faaliyet göstermekte olan bir işletmenin üç adet ambalaj hattı üzerinde gerçekleştirilen SMED uygulaması ile yıllık 16.000 Euro'luk ilave kazanç elde ettiği tespit edilmiştir. Bir diğer örnek ise Meksika'da faaliyet gösteren 373 adet işletmeye yönelik olarak yapılan SMED çalışmasıdır. Bu çalışmada işletmelerin faaliyetlerinde iç ve dış olarak bir ayrıma gidilmiş ve sonucunda ise iç ayar sürelerinin dışa aktarımı sayesinde kalıp değişim sürelerinde %50 oranında tasarrufu sağlanmıştır (Da Silva ve Filho, 2019: 4292). Çelik ve Taşkın (2019: 97) bir işletmenin kabuk soyma bandı üzerinde yaptıkları çalışmada kurulum zamanlamasında %66'ya varan oranda azalma olduğu gözlemlenmiş ve bu azalışında birim maliyetlerde 0,85 TL'lik azalmaya neden olduğu tespit edilmiştir. Silva, Sa, Santos, Silva, Ferreira ve Pereira (2020) çalışmalarında üç kişilik personelin yardımları sonucunda 194 dakikada yapılan kurulumun SMED uygulaması akabinde 66 dakikaya indirildiğine ve yaşanan bu pozitif gelişmenin iki personel ile yapıldığına bilhassa dikkat çekmişlerdir.

4. Sonuç

Yalın üretimin ana destekleyicilerinden birisi olan SMED yönteminin uygulandığı işletmeler, maliyet azaltımı açısından önemli kazanımlar elde etmektedirler. Bu teknik sayesinde işletmeler hem zamandan hem de maliyetlerden ciddi bir tasarruf trendi yakalamaktadırlar. Bu iki etmen rekabetin yoğun olarak yaşandığı günümüz piyasalarında işletmelerin faaliyetlerini devam ettirebilmeleri için sahip olmaları gereken temel özelliklerden bazılarıdır.

Ülkemizde, bilhassa imalat sanayinde, SMED'in uygulanması sonucu alınan olumlu geri dönüşlere akademik anlamda yapılan çalışmalarda yer verilerek tekniği uygulanması teşvik edilmelidir.

Kaynakça

Adalı, M. R., Kiraz, A., Akyüz, U. ve Halk, B. (2017). Yalın Üretime Geçiş Sürecinde Değer Akış Haritalama Tekniğinin Kullanılması: Büyük Ölçekli Bir Traktör İşletmesinde Uygulama, *Sakarya Üniversitesi Fen Bilimleri Enstitüsü Dergisi*, 21(2), 242 – 251.

Agustiady, T. K. ve Cudney, E. A. (2016). *Total Productive Maintenance Strategies and Implementation Guide*. Boca Raton: CRC Press Taylor & Francis Group.

Akçacı, T. ve Özyurt, S. (2021). Yalın Üretime Geçiş: İplik Sektöründe Bir Uygulama. *İşletme ve İktisat Çalışmaları Dergisi*, 9(2), 85 – 103.

Arul, T. G., Manimaran, A. ve Ranjith, P. (2014). SMED Implementation in a Press Shop. IOSR Journal of Mechanical and Civil Engineering (IOSR-JMCE), 3, 36 – 41.

Assaf, R. ve Haddad, T. (2014). Performance Improvement Using the Single Minu- te Exchange of Die (SMED) Methodology in an Aluminum Profiles Extrusion Production System. Jordan: The 1st International Conference on Industrial, Systems and Manufacturing Engineering.

Barbosa, G., Andrade, F,.Biotto, C. ve Mota, B. (2013). Heijunka Systemto Level Telescopic Forklift Activities Using Tablets in Construction Site. Fortaleza: Proceedings IGLC-21.

Bulut, K. ve Altunay, H. (2016). Değer Akış Haritalama Yöntemi: Mobilya Sektöründen Bir Uygulama. *Uluslararası Mühendislik ve Araştırma ve Geliştirme Dergisi*, 8(1), 48 – 55.

Çelik, H. ve Taşkın, K. (2019). SMED Uygulamasının Ayar Süresine ve Birim Maliye- te Etkisi: Kabuk Soyma Parlak Çelik Üretim Hattı Uygulaması. İşletme Bilim Dergisi (JOBS), 7(1), 77 – 103.

Da Silva, I. B. ve Filho, M. G. (2019). Single-Minute Exchange of Die (SMED): A State-of-The-Art Literature Review. *The International Journal of Advanced Manufacturing Technology*, 102, 4289 – 4307.

Dehongade, P., Singh, M. ve Shrouty, V. (2013). A Review: Litrerature Survey for The Implementation of Kaizen. Interternational Journal of Engineering and Innovative Technology. 3(1), 57 – 60.

Gupta, S. ve Jain, S. K. (2014). The 5s and Kaizen Concept for Overall İmprovement of The Organisation: A Case Study. *International Journal of Lean Enterprise Research, 1*(1), 22- 40.

Henriques, A. R. P. (2018). Application of SMED concepts in packaging lines in the pharmaceutical industry. Erişim adresi https://fenix.tecnico.ulisboa.pt/down-loadFile/563345090416690/Extended%20Abstract.pdf

Kootanaee, A. J., Babu, K. N. ve Talari, H. F. (2013). Just in Time Manufacturing System From Introduction to Implement. *International Journal of Economics, Business and Finance, 1*(2), 7 – 25.

Ömürgönülşen, M. ve Çatman, R. (2018). Bir Kamu Kurumunda Değer Akış Haritalama ve Simülasyon Yöntemiyle Hizmet Sürelerinin Değerlendirilmesi. *Finans Politik ve Ekonomik Yorumlar*, 55(636), 47 – 70.

Rahman, N.A. A., Sharif, S. M. ve Esa, M. M. (2013). Lean Manufacturing Case Study With Kanban System Implmentation. Procedia Economicsand Finance, 7, 174 – 180.

Ribeiro, D., Braga, F., Sousa, R. ve Carma-Silva, S. (2011). An Application of The SMED Methodology in an Electric Power Controls Company, The Romanian Review Precision Mechanics, Optics & Mechatronics, 40, 115 – 122.

Shingo, S. (2018). Quick changeover for operator: The SMED System. Eds. USA: CRC Press.

Silva, A., Sa, J. C., Santos, G., Silva F. J. G., Ferreira, R. P. ve Pereira, M. T. (2020). Implementation of SMED in a Cutting Line. Procedia Manufacturing, 51, 1355 – 1362.

Stadnicka, D. (2015). Setup Analysis: Combining SMED With Other Tools. Manage- ment and Production Engineering Review, 6(1) :36– 50.

Terzi, A. (2022). Endüstri 4.0 ile Uyumlu Maliyet İyileştirme Çalışmaları ve Yeni Bir Kavram BonRocZen. TurkishStudies -Economy, 17(1), 181-205.

ƏHMƏD BAYTURSUNOĞLUNUN YARADICILIĞINA BİR NƏZƏR

Eşqanə Akif qızı Babayeva
filologiya elmləri doktoru, dosent
eshqane@mail.ru
https://orcid.org/0000-0002-4934-4168

Qazax dilçiliyinin inkişafında misilsiz xidmətləri olan Əhmət Baytursunoğlu (Baytursunov) ədəbiyyatşünas, yazıçı, şair, dilçi olmaqla yanaşı, önəmli ictimai-siyasi xadim olmuşdur. Rusiya imperiyasının inzibati ərazi bölgüsünə görə Turqay eli Sarıtübek kəndində doğulan Ə.Baytursunoğlunun doğum tarixi qaynaqlarda müxtəlif şəkildə göstərilmişdir. Maraqlıdır ki, yazıçının "Ömür bəyanı" adlı avtobioqrafik əsərində "1872-ci ildə meşin (meymun) ilində doğulduğu" (Didahmet, E., 1992, s.241) qeyd olunsa da, tədqiqatçılar yazıçının digər istinadlarına əsasən 1873-cü il 28 yanvar tarixi (TDV İslam Ansiklopedisi) (Emel, A., Banbergenova, R., 1996, s.374) üzərində dururlar. İlk təhsilini mədrəsədə alan Əhməd bir müddət Turqay ikisinifli rus-qazax məktəbində, sonra Orenburqda dördillik müəllimlər seminariyasında təhsilinə davam etmişdir. O, böyük maddi-mənəvi çətinliklərə baxmayaraq 1895-ci ildə məktəbi bitirmiş və o vaxtdan 1909-cu ilədək Aktübinsk, Kustanay və Qarqaralıda kənd və qəsəbə məktəblərində müəllim kimi fəaliyyət göstərmişdir. Kustanayda çalışdığı illərdə meşəbəyinin evində yaşayan Əhməd onun qızı

Aleksandra ilə ailə qurmuş, Müsəlmanlığı qəbul edən Aleksandra adını Badrisəfa Məhəmmədsadıq qızı Baytursunova kimi dəyişdirmişdir. Kustanayda məskunlaşan ailə sonradan Omska, daha sonra Qarqaralıya köçərək 1909-cu ilədək orada yaşamışdır.

Əhməd Baytursunoğlu 1907-ci ildə çar üsuli-idarəsini tənqid etdiyinə görə həbs olunur və iki ildən sonra isə məhkəməyə çıxarılmadan 8 ay müddətinə Semipalatinsk həbsxanasında saxlanılır. Qeyd edək ki, 1896-cı ildə müəllim kimi fəaliyyət göstərərkən qazax folklorunu araşdıran araşdıran məşhur rus alimi Alektorovla Omskda görüşür. Bu görüş onun həyatında önəmli dönüşə səbəb olur. Alektorovdan Qazaxıstandan kənarda yaşayan qazaxlar, onların həyat tərzi, siyasi durumu, narahatçılıq doğuran səbəblər haqqında məlumatlar alır. Bu görüş, onun üfüqünü genişləndirir, maarifpərvərlik addımlarını sürətləndirir. 1905-ci ildə siyasi fəaliyyətə başlayan Ə.Baytursunoğlu bir müddətdən sonra məsləkdaşı (Alıxan Bekeyxanov və şair, publisist Mirjakip Dulatovla) ilə Orenburqda "Kazax" qəzetini çıxarır. Onun redaktorluğu ilə dərc olunan bu qəzet milli ictimai-siyasi və elmi-ədəbi nəşr kimi tanınır. Qəzetdə Ə.Baytursunoğlunun maarifçi məqalələri ilə yanaşı, cəmiyyətdəki nöqsanları kəskin tənqid edən siyasi yazıları da çap olunur. 1914-cü ildə yazdığı "Qazax vilayətini idarə etmə üsulları" adlı tənqidi məqaləsinə görə isə məhkəməyə verilir. Məhkəmə böyük məbləğdə cərimə kəsir və "Kazax" qəzetinin oxucularının topladığı vəsait sayəsində redaktor həbsdən azad edilir. Qəzeti milli ziyalıların ideoloji mərkəzinə çevirən, ərəb əlifbasının türk dilləri üçün yaramadığını görüb yeni əlifba yaradan, ictimai-siyasi xadim kimi formalaşan Ə.Baytursunov qazax-qırğızların milli təşkilatı olan "Alaş" qazax partiyasının qurucularından olmuşdur (Şamil, Ə., 2014, s.3). 1917-ci ildə məhkəmə qərarı ilə "Kazax" qəzeti bağlandıqda o bütün gücünü "Alaş" hərəkatının təşkilatlanmasına yönəldir. "Rusiya Kommunist (bolşeviklər) Partiyasının üzvlüyünə namizəd qəbul edilən Əhməd Baytursunov 1919-cu il aprelin 24-də qurulan RSFSR Xalq Hərbi Komissarlığı yanındakı Qırğız (Qazax) bölgəsini idarə edəcək Hərbi İnqilab Komitəsinə üzv təyin olunur. Bolşeviklər hakimiyyətə gələndən sonra o, Qazaxıstan MSSR maarif naziri təyin olunur. Əhməd Baytursunov Mərkəzi Komitədə, Qazaxıstan MSSR Mərkəzi İcraiyyə Komitəsində müxtəlif vəzifələrdə və Türküstan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı "Ak jol" qəzetində işlədiyi vaxt, elmi-pedaqoji fəaliyyətini də davam etdirir" Şükürov, A., 2016, s.4). 1926-ci ildə partiya üzvlüyündən çıxarılır. Keçmiş siyasi fəaliyyəti nəzərə alınaraq, 1929-1934-cü illərdə həbsinə qərar verilir. 1934-cü ildə həbsdən azad edilsə də, 1937-ci il oktyabr ayından yenidən həbs həyatı yaşayan Ə.Baytursunoğlu bir neçə ay sonra, 8 dekabr tarixində "xalq düşməni" damğası ilə güllələnir. Olümündən 51 il sonra, yalnız 1988-ci ildə bu damğa üstündən götürülərək, bəraət qazanır.

Çoxsaylı təqiblərə məruz qalan Ə.Baytursunoğlu qazax xalqının ictimai-siyasi, ədəbi-mədəni inkişafında, maarifçilik ideyalarının təbliğində mühüm rol oynamışdır. Vətənini hədsiz məhəbbətlə sevən Əhməd xalqının yaşadığı çoğrafiyanı, millətinin yaşam tərzini öyrənir, folklorunu toplayır, uşaqların daha yaxşı təhsil alması, gəncliyin maariflənməsi üçün yeni üsullar axtarır. İlk gənclik illərindən dombra çalmağa maraq göstərən Əhməd qazaxların jır adlandırdığı xalq mahnılarının toplayıb dərc etdirir. Qazax dilçiliyinin qurucusu Ə.Baytursunoğlunun ən böyük xidmətlərindən biri qazax əlifbasının islahatıyla bağlıdır. O, 1912-ci ildə qazax dilində işlənməyən ərəb hərflərini əlifbadan çıxararaq onları doğma dilə uyğunlaşan hərflərlə əvəzləmişdir. Xatırladaq ki, 1926-cı ildə Bakıda keçirilən I Qurultayda o, da iştirak etmiş, 1928-ci ildə qazaxlar onun hazırladığı latın qrafikalı əlifbaya əsaslanan yeni əlifbaya keçid etmiş, uzun müddət sonra bu əlifba 1940-cı illərdə Sovet hökümətinin zorla qəbul etdirdiyi kiril əlifbasıyla əvəz edilmişdir.

Baytursunoğlu eyni zamanda tərcümə fəaliyyəti ilə də məşğul olmuş, A.Puşkin, Lermontov, Volter, Nadson kimi şairlərin əsərlərini rus dilindən qazaxcaya tərcümə etmişdir. O, Krılovun əsərlərindən seçmələri "Kırk misal" (1909) adı altında çap etmişdir. Qeyd edək əsər, tərcümədən daha çox, orjinal əsər təəssüratı oyadır. O, eyni zamanda gözəl şair idi. "Masa" ("Ağcaqanad", 1911) toplusu onun incə ruhundan xəbər verir. Yuxarıda qeyd etdiyimiz kimi, dilçi-alim Ə.Baytursunov müxtəlif qrammatika və oxu kitablarının da müəllifi olmuşdur. Onun "Okıv

Kural" (1912) əsəri qazaxlar üçün ərəb əlifbasıyla hazırladığı oxu kitabıdır. 1912-1915-ci illərdə 7 dəfə nəşr edilən əsərdən qazax ibtidai siniflərindən istifadə olunmuşdur. "Til Kural" (1914-1916) adlı üç hissəli əsəri isə qazax dil qaydalarından, qrammatikasından bəhs edən önəmli bir əsərdir. Əsərin birinci hissəsi fonetika (1914), ikinci hissə morfologiya (1915), üçüncü hissə sintaksisdən (1916) bəhs edir. On beş il boyunca orta məktəbdə qazaxlara ana dillərini tanıdan, öyrədən nadir əsərlərdəndir. Bu əsər qazaxcanın qrammatik quruluşundan bəhs edən ilk sistemli, elmi araşdırma hesab edilir. Qazax folkloruna böyük töhfə olan "Er Sayın Dastanı"nı (1923) isə şair 1915-ci ildə qələmə alsa da, naməlum səbəblərdən çapı gecikmişdir. Onun "Edebiyat Tanıtkış" (1926) yəni ədəbiyyatla tanışlıq əsərində isə Qazax ədəbiyyatşünaslığı, nəzəriyyəsi, ədəbi tənqidi ilk dəfə olaraq sistemləşdirilərək dəyərləndirilmişdir. Qazax folkloruna vurğun olan tədqiqatçı ağı nümunələrini "23 Joktav" ("23 ağı", 1926) adı altında toplayaraq, qazax oxucularına təqdim etmişdir. Qeyd edək, müəllifin "Aykap", "Kazak", "Jana Mektep" kimi müxtəlif jurnal və qəzetlərdə vaxtaşırı elmi-publisistik, ədəbi, siyasi yazıları da dərc olunmuşdur.

Ə.Baytursunoğlunun həyatı, yaradıcılığının bəzi məqamlarına nəzər saldıqda, repressiya qurbanı olan yazıçı, alim, publisist, tədqiqatçının qazax xalqının rifahı uğrunda necə böyük bir mücadilə apardığının, hətta repressiya qurbanına çevrildiyini görürük. Ömrünün sonuna qədər bu davasına sadiq qalan tədqiqatçının əsərləri öz fundamentallığı ilə diqqəti cəlb edir. Yazıçının evinin muzeyə çevrilməsi, bir sıra küçə, prospekt, məktəb və instituta onun adının verilərək əbədiləşdirilməsi onun yaradıcılığına, xidmətlərinə verilən sevgini, dəyəri ifadə edir. Haqqında keçirilən beynəlxalq konfrans, seminar və elmi disputlar Baytursunoğlu irsinin hər zaman aktuallıq və əhəmiyyət kəsb etdiyini göstərir.

İstifadə edilmiş ədəbiyyat

1. Didahmet Eşimhanov.Bes Arıs. Almatı: "Jalın", 1992.
2. Emel Aşa ve Roza Banbergenova. Kazak Türklerinin İlk Lengüist ve Metodist Bilgini Olan Ahmet Baytursunoğlu Hakkında Birkaç Söz. Türklük Bilimi Araştırmaları Dergisi II, 1996.
3. Şamil, Ə. Əlifba islahatçısı, folklorçu, pedaqoq, dövlət qurucusu Ahmet Baytursunov. Əli Şamil Türkçülüyün qurbanları (Qazaxıstan) Bakı 2014 Redaktor: Səfalı Nəzərli - səhifə 3 (muhaz.org)
4. Şükürov, A. Türk xalqlarının ədəbi-mədəni həyatında mühüm hadisə anl.az/down/meqale/525/2016/dekabr/520399.htm
5. TDV İslam Ansiklopedisi. Baytursunov, Ahmet maddesi. BAYTURSUNOV, Ahmed - TDV İslâm Ansiklopedisi (islamansiklopedisi.org.tr)

POSTKOLONİAL MÜHİTDƏ MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT FAKTORLARI

Nərgiz Cəlil qızı Nağıyeva
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti
nargiz_nagiyeva@mail.ru
https://orcid.org/0009-0001-1205-5864

Postkolonializm siyasi hadisəsi dünya siyasəti tarixində son dövrlərdə meydana gəlib və bu gün də aktuallığını qorumaqdadır. Postkolonializm, adından da göründüyü kimi, dünya kolonializminin davamı, daha doğrusu yeni mərhələdə onun ifadə formalarından biridir. Məlum olduğu kimi, XIX əsrin sonları – XX əsrin əvvəllərində artıq dünyada mövcud olan klassik, kolonial sistem böhran yaşamağa başlamış, sürətlə süqut etmiş və onun ilkin şəklində olan mövcudluğuna

son qoyulmuşdur. XV-XVI əsrlərdən etibarən həm Şərqdə, həm də Qərbdə kolonializm siyasəti öz klassik formasında yaranmağa başlamış və getdikcə genişlənərək böyük miqyasda inkişaf etmişdir. Əvvəlcə Osmanlı imperiyası Avropada və Yaxın Şərqdə (Balkan ölkələri, Misir və s.) sonra İngiltərə, daha sonra Fransa, nəhayət Avstriya. Macarıstan imperiyasının kolonialist siyasəti bu baxımdan daha səciyyəvidir. Rusiya imperiyasının da kolonial siyasətini xüsusi olaraq qeyd etmək lazımdır. Bu zaman kəsiyindən etibarən bir-birinin ardınca imperialist dövlətlər öz kolonialist siyasətinə son qoymağa başladılar.

XIX əsrin ortalarında artıq bir neçə koloniya ölkəsində milli – azadlıq hərəkatları, kolonistlərə qarşı etiraz aksiyaları başlandı və bu hərəkət sayəsində bəzi imperialist dövlətlər öz müstəmləkələrindən əl çəkməli oldular. Milli azadlıq hərəkatı həmin dövrdən etibarən getdikcə genişləndi və son nəticədə XX əsrin ortalarında demək olar ki, klassik kolonializm tarixə qovuşdu. Amma sonrakı tarixi hadisələrin inkişafı göstərdi ki, əslində ənənəvi kolonializm sadəcə öz formasını dəyişdi və yeni formada meydana gələn burjua-imperialist kolonializm postkolonial siyasət ilə əvəzləndi. Belə ki, defakto kolonializm sıradan çıxsa da, onun yerini həmin funksiyanı yeni şəkillərdə - de yuri- postkolonializm tutdu.

Postkolonializm, bir tərəfdən, xarici imperialist hökmranlığın sona çatmasından sonrakı dövrə və bunun nəticəsində mədəni, sosial və siyasi səviyyədə formalaşmalara aiddir. Digər tərəfdən, bu, (Avropa) müstəmləkəçilik tarixi ilə maraqlanan və sosiologiya, dilçilik və ədəbiyyat, mədəniyyət, tarix və siyasətin öyrənilməsindən müxtəlif impulslardan istifadə edən postmodernistlərin intellektual hərəkatı kimi başa düşülür. Müstəmləkəçilik kontekstində formalaşan millətlərin və ya əhali qruplarının mədəniyyətini və kimliyini araşdırmaq həyatın müxtəlif sahələrində imperialist strukturların qalıcılığını şübhə altına almaq məqsədi daşıyır.

Mədəniyyətin formalaşması, inkişafı, köçürülməsi və s. dilin funksiyasını və əhəmiyyətini müxtəlif prizmalardan asanlıqla görmək olar. Bir xalqın dili nə qədər zəngin və aktivdirsə, o xalqın mədəniyyəti də bir o qədər canlı və dinamikdir. Dilçilərin dili "sosial təsisat" kimi müəyyən etmələri onun cəmiyyətin mədəniyyətini, həyat tərzini əks etdirən mühüm alət olduğunu göstərir. Bir milləti millət edən onun dili və mədəniyyətidir. Millətlər ancaq öz dili və mədəniyyəti sayəsində varlığını qoruya bilir. Dilini, mədəniyyətini qoruyub saxlaya bilməyən xalqların dünya arenasında uzun müddət qala bilməyəcəkləri danılmaz faktdır. Belə ki, bir xalqın dilini qorumaq onun mədəniyyətini qorumaq deməkdir. Xalqın mədəniyyətinə yad olmamaq onun xarakterik həyat təzahürlərini yaşatmaq və bənzərsiz olanı unutmamaqdır. Bu keyfiyyətə malik olan xalqlar, assimilyasiya küləyinə məruz qalmadan öz varlığını davam etdirmək şansına malik olan xalqlardır. Öz mədəniyyətini itirmiş, başqa xalqın mədəniyyət dairəsinə girmiş xalqlar tarix səhnəsindən siliniblər. Dövrlərinin hərbi, siyasi və hətta iqtisadi cəhətdən ən güclü dövlətlərini quran şumerlər, assurlar, hetlər, finikiyalılar kimi min illər əvvəl mövcud olan xalqlar bu gün ancaq tarix kitablarında qalıb. Bu gün bu xalqların davamı olan xalq yoxdursa, bu, onların son fərdlərinə qədər başqaları tərəfindən öldürülmələri ilə deyil, öz mədəniyyətlərini itirərək başqa mədəniyyət dairəsinə daxil olmaları ilə izah edilə bilər. Bir sözlə, bir xalqın varlığı onun dilini, mədəniyyətini yaşatmaqdan asılıdır.

Cəmiyyətdə fərdlər arasında olması lazım olan birlik və bütövlük anlayışı dil və mədəniyyət dinamizmi ilə canlı tutula bilər. Dil və mədəniyyəti bir-birindən ayırmaq olmaz. Bu iki element bir-birinə o qədər bağlıdır ki, demək olar ki, bir-birini tamamlayır. Dil mədəniyyətin daşıyıcısıdır; Mədəniyyət həm də dilin mənbəyi olan mühüm ehtiyat sahədir. Dilin funksiyaları bir milləti yaradan maddi və mənəvi dəyərlərdən ibarət mədəniyyət və bu dəyərlərin qorunub saxlanmasında, qeydə alınmasında və gələcəyə ötürülməsində mühüm rol oynayan, o milləti əzəldən əbədiyyata daşıyan iki dinamik elementdir. İnsanın varlığı dillə mümkün olduğu kimi, cəmiyyətlərin də varlığı ancaq dillə mümkündür. Dil olmasa, cəmiyyət də olmaz. Dil bir cəmiyyətin mədəni kimliyidir" [4, s.14]. "Cəmiyyətin ədəbiyyatı, incəsənəti, fəlsəfəsi, texnikası və bütün mədəniyyəti, düşüncəsi,

adət-ənənələri dillə bağlıdır. Adət və ənənələrin nəsildən-nəslə ötürülməsi yalnız dil vasitəsi ilə, bildirişlə ola bilər. Buna ancaq dil nail ola bilər" [2, s.88-89].

Cəmiyyət dilini itirəndə mədəniyyətini, kimliyini, cəmiyyət olma keyfiyyətini itirir. Sovet Rusiyası əvvəlcə işğal etdiyi türk toplumlarının dili ilə manipulasiya etdi, məhz bu səbəbdən, tarix boyu bir cəmiyyəti assimilyasiya etmək üçün ilk olaraq onun dili ilə oynadı. Bu boyunduruq altında olan cəmiyyətlər işğalçı cəmiyyətin mədəniyyəti istiqamətində dırnaqarası inkişaf edərək öz dəyərlərini itirdilər. Bu səbəblərdən dil bir millətin kimliyi, yaddaşı və mədəniyyətidir. Bir sözlə, millət olmanın özəyi əslində dildə gizlənir. Dilimizi qoruyanda millətimizi, suverenliyimizi qoruyuruq.

Məlumdur ki, hərbi müstəmləkəçilik müstəmləkəçinin hegemonluğunun qurulmasında yalnız ilk addımdır. Bu həm də bahalı üsuldur və uzunmüddətli perspektivdə müstəmləkəçiyə o qədər də fayda vermir. Bu səbəbdən müstəmləkələrin vəziyyətlərini qəbul etmələri və müstəmləkəçilərə sadiq qalmaları üçün bir çox başqa strategiyalar irəli sürülmüşdür. Dil dominantlığının yaradılması, dil siyasətinin fəal şəkildə aparılması bu yollardan biridir. Müstəmləkəçi üçün işğal etdiyi ölkənin dilinin öz dili ilə əvəzlənməsi onun ekspansionizmində və yerinin möhkəmlətməsində mühüm faydalar verir. Tarixən Fransa, İngiltərə, Portuqaliya və İspaniya kimi dövlətlərin müstəmləkəçilik siyasəti dünyanın böyük bir hissəsinə yayılmışdır. Bu imperiyalar müstəmləkəyə çevirdikləri ölkələrin maddi sərvətlərini ələ keçirməklə yekunlaşmır, onların mədəniyyətləri üzərində də təzyiq tətbiq edirdilər. Müstəmləkəyə çevrilən dövlətlərin yerli dilləri öz yerini ingilis, ispan, portuqal, fransız dili kimi dillərə buraxdı. Bu gün Hindistan, Əfqanıstan, Pakistan, Malaziya, Filippin və demək olar ki, bir çox Asiya ölkələrində iki və daha çox rəsmi dövlət dili mövcuddur ki, bu da kolonializm siyasətinin nəticəsidir. Yeni müstəqillik qazanmış dövlətlərin bir çoxunda dövlət dili statusunda "ikinci ünsiyyət dili" faktoruna da yer ayrılmasına dair reallıqlar vardır. Bu daha çox Mərkəzi Asiya və Afrika ölkələrində müşahidə edilməkdədir.

Bu fenomen müəyyən mənada bəzi postsovet respublikalarınada aiddir. Məsələn, Qırğızıstanda qırğız dili dövlət dilidir, bununla belə rus dili də rəsmi dil statusuna malikdir. Bir ölkənin dilini dəyişmək onu ana dilindən uzaqlaşdırmaq və ona başqa, yad biri dilini qəbul etdirmək deməkdir, o ölkənin xalqının varlığını öz varlığı ilə əvəz etmək deməkdir. Edmund Spenser üçün dil şəxsiyyət və ölkəyə sadiqlik deməkdir; beləliklə, fəth edilənin dilini öyrənməyə məcbur etməklə onun şəxsiyyətini dəyişdirmək mümkün ola bilər [3, s.1].

Frans Fanonun müstəmləkəçilik əleyhinə yazılarına əlavə olaraq, fələstinli ədəbiyyat adamı Edvard Səidin post-müstəmləkəçilik yanaşmalarının əsas mətni sayılan məşhur "Orientalizm" (1978) əsəri post-müstəmləkəçilik nəzəriyyəsinin formalaşmasında yenilikçi bir əsər idi. Burada əsas tezis ərəb-islam dünyasına və mədəniyyətinə qarşı incə, davamlı avrosentrik ön mühakimələrin mövcudluğunu nəzərdə tutur.

Müstəmləkə ədəbiyyatı müstəmləkə dili, müstəmləkə varlığı və müstəmləkə mədəniyyətinin qarışığıdır. Postkolonial ədəbiyyat öz varlığını "müstəmləkəçilik hərəkatı"ndan götürür. Müstəmləkə ədəbiyyatı öyrənilən dil, mədəniyyət sayəsində ortaya çıxır. Müstəmləkə ərazisi, müstəmləkə dili yurisdiksiyasına aiddir. Təhsil müstəmləkə dilini və mədəniyyətini yerli xalqlara mənimsətməyin ən təsirli vasitəsidir.

Ədəbiyyat təhsili də bu baxımdan çox funksionaldır. Ədəbiyyat təhsili ilk növbədə dil təhsilidir. Hindistanda ingilis təhsilinin memarı Tomas Bobinqton Makolay 1835-ci ildə yazdığı "Hindistanda Təhsil Hesabatı" adlı məşhur əsərində o, ingilis təhsilinin qan və dəri rəngi kimi funksiyasını təsvir edərək ingilis dilində təhsilin əsas məqsədini zövq, fikir, əxlaq və zəka baxımından hindistanlı insanları britaniyalı etmək kimi müəyyən edir [5, s.109]. Kreol dili ingilis dili ilə yerli xalqın dilinin qarışığından ibarət yeni bir dildir. Bu, mədəni və ədəbi dildir, hibrid dildir. Müstəmləkə ədəbiyyatının xüsusiyyətlərindən biri də bu hibrid dildə yazılmış olmasıdır.

XXI əsr ədəbiyyatının əsas istiqamətlərindən biri də məhz postmüstəmləkəçilik hesab olunur. Postkolonial ədəbiyyatın iki tərifi var. Birinci (daha dar) keçmiş koloniyalardan olan bir şəxs

tərəfindən yazılmış və müstəmləkə təcrübəsindən bəhs edən hər hansı mətndir. İkinci (daha geniş) müstəmləkəçiliyi və müxtəlif təzahürlərdə metropol-müstəmləkə münasibətlərini araşdıran istənilən mətndir. Bu iki anlayışı birləşdirən roman Nigeriyalı yazıçı Çimamanda Nqozi Adiçinin "Amerikalı qız" əsəridir. Amerika Birləşmiş Ştatlarına təhsil almağa gedən və iki dünya: vətəni və Amerika arasında ilişib qalmış kimi görünən nigeriyalı qızın hekayəsindən bəhs edir. Müəllif eyni zamanda Amerika cəmiyyətində mövcud olan gizli irqçiliyi ortaya qoyur və Nigeriyanın problemlərindən bəhs edir.

Postkolonial romanın klassiki (dar mənada) nigeriyalı yazıçı Çinua Açebenin ağdərililərin gəlişindən bəhs edən "Və məhv oldu" kitabıdır. Digər bölgələrdən danışsaq, Hindistanın mühüm müəlliflərini – Salman Rüşdi və Arundhati Royunu qeyd edə bilərik.

Geniş mənada postkolonial romanlara Kazuo İşiquro və Zadi Smitin yaradıcılığında rast gəlmək olar. Onlar keçmiş müstəmləkələrin nümayəndəsinin nöqteyi-nəzərindən yazılmır və həmişə müstəmləkə keçmişindən danışmır, insanın özünü və mədəniyyətlərin qarşılıqlı təsirini araşdırır. Məsələn, İşiquronun "Günün qalıqları" romanında müstəmləkəçi dünyagörüşü, tabeçiliyə tabe olanla münasibətləri incə şəkildə təhlil edilir. Smit isə mətnlərində siyasi düzgünlüyü və gizli irqçiliyi təfərrüatlandırır.

İstifadə edilmiş ədəbiyyat

1. Akarsu B. Dil-Kültür Bağlantısı, İnkılâp Kitapevi S. 89 3. Basım: 1998,
2. Berk Ö. Sömürgecilik, Dil ve Brian Friel'in Çevirileri, 14 Ağustos 2010, http://www.littera.hacettepe.edu.tr/TURKCE/18_cilt/19.pdf
3. Said E. W. Orientalism. Harmondsworth: Penguin, 1978
4. Ünalan Ş. Dil ve Kültür, Ankara, Nobel. 2005
5. Loomba A. Kolonyalizm/Postkolonyalizm, (Çev. Mehmet Küçük), Ayrıntı Yayınları, İstanbul; 2000

MÜASİR AZƏRBAYCAN ETNOSUNDA MULTİKULTURAL DƏYƏRLƏRİN PSİXOLOJİ TƏHLİLİ

[1,2]**Günay Salman qızı Kazımova,** [1,3]**Günel Həsənbala qızı Aslanova**
[1]Gəncə Dövlət Universiteti
[2]psixologiya üzrə fəlsəfə doktoru, dosent
gunaykazimova55@gmail.com
https://orcid.org/0000-0003-0034-6389
[3]gunel.aslanova85@mail.ru
https://orcid.org/0009-0005-0987-4198

Qlobal sarsıntıların və sosial transformasiyaların baş verdiyi müasir dünyada milli kimliyin inkişaf xarakterini cəmiyyətin həyat əsaslarının qloballaşmaya, universallaşmaya və standartlaşmaya təbii cavab kimi xarakterizə etmək olar. Hazırda müasir dövlətin suverenlik səviyyəsi daha çox dövlətin əhalinin milli mənsubiyyət duyğusunun özünüdərkini nə dərəcədə inteqrasiya edə bilməsindən asılıdır. Azərbaycan etnosu davranış çevikliyi və dəyişən amillərə sürətli uyğunlaşma ilə xarakterizə olunur, eyni zamanda praqmatik qalır.

Azərbaycan etnosunun öz milli qrupu daxilində tolerantlıq və dözümlülüyü təsdiq etdiyini göstərən yazıçı A.Q.Nesterov müasir Azərbaycan ərazisində mövcud olan etnik və məzhəblərin multikultural mozaikasının humanist quruluşa malik olduğunu, burada yerli əhalinin digər millətlərə tolerant və hörmətlə yanaşdığını, ayrı-seçkiliyi istisna etdiyini və eyni zamanda ona ciddi riayət

etdiyini iddia edir. Azərbaycan etnosunun milli-mədəni özünəməxsusluğunun və müstəsnalığının qorunub saxlanmasını müdafiə edir [5].

Bütövlükdə Azərbaycan etnosunda gender fərqlərinin korrelyasiyası əvvəlki nəsillərin çoxəsrlik həyat tərzinə uyğun olaraq stereotip olaraq qalır. Buna uyğun olaraq, kişilər nikahda "qalib", sabitliyə, maddi sərvətlərə və öz ailəsinin qorunmasına cavabdehdirlər, qadınlar isə "evdar qadın, ailə ocağının qoruyucusu, anadır". Buna görə də nüfuzlu peşə təhsili və yüksək maaşlı bir iş əldə etmək qadınlar üçün kişilərə nisbətən daha az əhəmiyyət kəsb edir.

G.M.Mürsəlyeva bildirir ki, Azərbaycan yeniyetmələrində etnik kimliyin emosional-koqnitiv komponentinin inkişaf səviyyəsinin yüksək göstəricisi var ki, bu da Azərbaycan xalqının mənlik konsepsiyasının intensiv emosional ifadəsinə və mədəni biliklərin zənginləşməsinə təkan verir [3].

Müasir sivilizasiya qloballaşan dünyanın çətinliklərinə tab gətirə bilmir, lakin insan həyatının ən həssas sahəsi mədəniyyət, dəyərlər, nəsillərin davamlılığı və şəxsiyyətin formalaşmasıdır .

Müasir dövrdə multikulturalizm mədəniyyətlərin birliyi və müxtəlifliyi, milli, mədəni, şəxsi identikliyin dərk edilməsi, mədəniyyətlərin müxtəlifliyi ideologiyası kimi problemləri ehtiva edir. Mədəniyyətlərin və çoxsaylı şəxsiyyətlərin daxili dəyəri və bərabərliyi multikulturalizm konsepsiyasına xas olan prinsiplərdir.

Stabil inteqrasiya olunmuş multikultural cəmiyyətdə tolerantlıq səviyyəsi daha yüksəkdir. Mədəniyyətlərin qarşılıqlı əlaqəsi həm müvafiq dəyərlər sisteminin, ideyaların, estetik nümunələrin, həm də onların ötürülmə və assimilyasiya üsullarının daşıyıcısı olan nümayəndələri arasında tolerant ünsiyyət tələb edir. Multikultural cəmiyyətdə tolerantlıq təkcə başqa insanların dəyərlərinə hörmət etmək deyil, həm də yeni mədəni irs və digər sosial təcrübələrlə zənginləşmək deməkdir.

Multikultural cəmiyyətin üzvləri üçün mədəni identikliyin rolunu qiymətləndirmək olmaz. Mədəni kimlik həm obyektiv amillərə (tarixi irs, siyasi şərait, etnik mənşə, adət-ənənə, dil, din və s.), həm də eyni icma üzvlərinin şüurunda kök salmış subyektiv amillərə əsaslanır. Əvvəla, o, cəmiyyətin özünü müəyyən etməsinə imkan verən sosial təmsillər şəklində mövcuddur. Bu təsvirlər kollektiv şüurda "şəxsiyyət" və birlik obrazını yaradan obrazlar, simvollar, stereotiplər, miflər və tarixdən ibarətdir. Tolerantlıq, eləcə də sosial münasibətlərin psixi strukturlaşması müasir multikultural transformasiyaların çoxfunksiyalı aspektlərində postindustrial cəmiyyətin formalaşması üçün son dərəcə aktualdır [1].

Əslində multikulturalizm sosial-mədəni hadisədir və cəmiyyətin milli ideologiyasını əks etdirir. O, ictimai həyatın müxtəlif sahələrinə - "siyasət və sosiologiyadan tutmuş ədəbiyyat və incəsənətə qədər, sanki müxtəlif fənlərin: antropologiya, sosiologiya, politologiya, iqtisadiyyat, tarixşünaslıq, psixologiya, pedaqogika, ədəbiyyatşünaslıq, fəlsəfənin sərhədləri və qovşağında mövcud olan" təsir göstərir.

Multikulturalizm təkcə müasir milli cəmiyyətlərin etnik-mədəni plüralizminin yüksəlişinin, etniklərarası ünsiyyət problemlərinin, müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirinin nəzəri konseptuallaşdırılması forması kimi deyil, həm də müasir sosial-psixoloji mədəniyyətin inkişafında mühüm istiqamət kimi şərh olunur.

Multikulturalizm mədəniyyətlərin birliyi, müxtəlifliyi, fərqliliyi, milli, mədəni, şəxsiyyət böhranı, milli adət-ənənələrə yenidən baxılması kimi problemləri əhatə edir.

Azərbaycan xalqlarının əsrlər boyu birgə yaşaması, onların mənəvi həyatının həm ümumi, həm də xüsusi xüsusiyyətlərini, ümumi sosial-mədəni mental quruluşunu yaratmış, Azərbaycan dövlətinin formalaşmasında mühüm rol oynamışdır. Azərbaycan multikulturalizmi paradiqması Azərbaycan dövlətinin özünüifadə siyasətinə çevrilib [4].

Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub və bu gün milliyyətindən asılı olmayaraq hər bir ölkə vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Prezident İ.Əliyevin multikulturalizmin elmi tədqiqi və dünyaya yayılması ilə bağlı qarşıya qoyduğu konkret

hədəflərə çatmaq üçün atdığı səmərəli addımlar təkcə dövlət strukturlarının deyil, həm də hər bir vətəndaşımızın üzərinə mühüm vəzifələr qoyur [1].

Bu gün azərbaycanlılar üçün mentalitet, tolerantlıq, multikulturalizm məcburi statuslu əsas mənəvi kateqoriyadır. Azərbaycan xalqının mədəniyyət ənənəsində haqq, ədalət, mərhəmət anlayışları ilə bağlı əxlaq, vicdan, namus, dəyər yönümləri statusu xüsusi əhəmiyyət kəsb edir. Müasir Azərbaycan cəmiyyətində mentalitet, mentalizm, multikulturalizm ideyaları ona görə dəyərlidir ki, burada tarixən çoxmillətli quruluş olub, öz etnik-mədəni kimliyinə malik çoxlu xalqlar yaşayır. Müasir Azərbaycan cəmiyyətində tolerantlıq və multikulturalizm siyasəti hökm sürür. Ölkənin tolerantlıq və multikulturalizm nəzəriyyəsi və praktikası Azərbaycan multikulturalizmi geştaltının formalaşmasının obyektiv çətinliklərinə yad deyil və bu çətinlikləri Azərbaycan ərazisində yaşayan xalqların bütün çoxşaxəli mədəniyyətlərinin xüsusiyyətlərini nəzərə almaqla aradan qaldırmaq olar.

Odur ki, gənclərin milli kimliklərinin xüsusiyyətləri və formalaşma amilləri haqqında məlumatın olması danılmazdır. O, millətlərarası münaqişələrin həllinə, millətlərarası münasibətlərin tənzimlənməsinə, müharibə və iqtisadi təlatümlərin deyil, dövlətlərin toxunulmaz sərhədlərinin, dinc yaşamanın, iqtisadi rifahın və xüsusiyyətləri nəzərə alan tolerantlıq siyasətinin hökm sürdüyü sivil dünyanın qurulmasına kömək edir.

İstifadə edilmiş ədəbiyyat

1. Jeriborov D.S. Azərbaycanın müasir siyasətində multikulturalizm konsepsiyası // Elmi dialoq. 2017. № 7. s. 95-102.
2. Quliyeva Ş.K. Azərbaycanda qızların ailə həyatına hazırlanmasının etnopsixoloji xüsusiyyətləri // Azimut Elmi Tədqiqat: Pedaqogika və Psixologiya. 2016. № 5. s. 202-205.
3. Mursalyeva G.M. Müasir mədəniyyətlərarası məkanda yeniyetmələrin etnik kimlik quruluşu // Moskva Dövlət Regional Universitetinin bülleteni. Seriya: Psixologiya Elmləri. 2018. № 2. s. 102-113.
4. Zamanova M.A. Müasir dövrdə Azərbaycan təhsilinin metodoloji problemlərinin tədqiqi // Pedaqoji elmlər. 2009. № 1. s. 15-19.
5. Нестеров А.Г. Проблемы мультикультурализма в отечественной культурологии и политологии // Современная Европа. 2017. № 2. с.111 -120.

ƏHMƏD AĞAOĞLU YARADICILIĞINDA DİNİ, MİLLİYƏTÇİLİK GÖRÜŞLƏRİ

Sevda Fizuli qızı Abdullayeva
tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Aqrar Universiteti
sevda.abdullayeva.1986@mail.ru
https://orcid.org/0000-0003-1656-0945

Türkçülük və İslamçılıq Arasında Uzun və Dar Yollar II. Məşrutə monarxiyasının üç kimlik siyasətinin, yəni osmanlılığın, islamçılığın və türkçülüyün vahid adları ilə eyni siyasi kainatı paylaşdığı, bir-biri ilə əlaqəli olduğu, bir-biri ilə yarışdığı bir dövr idi. II əsrdə türklər, osmanlılar və islamçılar arasında danışıqlar başladı. Məşrutiyyətli monarxiya müasir türk düşüncəsinin canlı və məhsuldar tərəfini təmsil edir. 1904-cü ildə Yusuf Akçura ilə Əli Kamal arasında "Üç Siyasət" davası ilə başlayan Osmanlı-Türkiyə davası, Məşrutə monarxiyası illərində "Türk Vətəni" və "Pəyam" səhifələrində davam etdi. İslamçı Babanzadə Əhməd Nəimlə Türkist Əhməd Ağayev (Ağaoğlu) "İslamda türk "halqa" əsərində Osmanlı İmperiyasının islamçılıqla hibridləşmiş yeni

variantını səsləndirən Əhməd Ağaoğlu ilə Süleyman Nazifin mübahisəsi məşhurdur. Digər iki rəqib əməliyyatın hücumlarına müqavimət göstərərkən türkçülərin qondarma danışıqlarda ortaya atdıqları arqumentlər türkçülük ideyalarını anlamaq baxımından son dərəcə dəyərlidir. Xüsusilə islamçılarla müzakirələrdə türkçülərin sözçüsünə çevrilən Ağaoğlunun mətnləri Cümhuriyyətdə Türk-İslam sintezi, Türk İslamı kimi diskurslara çevriləcək xəttin kökləri baxımından təmsilçi və əhəmiyyətlidir. İslamçılıq və türkçülük arasında gərginlik və mübahisələr olsa da, bəzən qarşılıqlı təsirlər, qarışdurma, hibridləşmə, orta axtarışlar da baş verir. Hətta Sırat-ı Müstəkimdə islamçılarla türklər dost oldular [Mehmet Kaan Çalen & Haluk Kayıcı, Contemporary Turkish Thought from Constitusional Monarchy to Republic, Bilgeoğuz Yayınları, İstanbul 2014. Türkçülüyün İslamçılığa və Osmanlıya qarşı mövqeyi, bax: Mehmet Kaan Ç açıqca, Osmanlılar və İslamçılıq Antitürkizm, Ötüken Neşriyat, İstanbul 2017]. O, məşhur "İslamda Millət Davası" adlı məqaləsində orta qrup olaraq "Türkçü-İslamçılar"dan bəhs etmişdir. Hilmi Ziya Ülken də Şəmsəddin Günaltay, Şerefəddin Yaltkaya, Halim Sabit, Hüseyn Hüsaməttin kimi türbanlı türklərdən və türkçü-islamçılardan bəhs edir. Bu ara xarakterlər qarşılıqlı maraqları ortaya qoyur. Bununla belə, bəzi ümumi narahatlıqlar və həssaslıqlar və müvəqqəti yaxınlaşmalardan başqa, iki əməliyyat iki ayrı münaqişəni təmsil edir. Qarşılıqlı təsir və parçalanmaları düzgün izah etmək üçün xatırlamaq lazımdır ki, bu vadidə nə islamçılığın, nə də türkçülüyün yeknəsək bir təşkilatı yoxdur. Dini islahat, mənbələrin qeydiyyatı və dinin təbliğatdan təmizlənməsi kimi əsaslı və mübahisəli məsələdə modernist islamçılarla türkçülərin bir-birindən uzaq olmadığı görünsə də, bu məsələdə millətçilik məsələsi də yer alır. İslamçılar inanırlar ki, milliyyətçilik/millətçilik din tərəfindən haramdır, ona görə də türkçülük etmək insanları dindən uzaqlaşdıracaq, bütün müsəlmanlar bir millət təşkil edəcək, üstəlik, sədaqət qəlbinin qurulması müsəlmanlar arasında ixtilaflara səbəb olacaq. İslamdan, hətta Çingiz xandan əvvəlki türk tarixini mənimsəməklə bir növ cəhalət yaradır. Onlar Məhəmmədi hayqırmaq və buna görə də köhnəlmiş türk dini Şamanizmi İslamla əvəzləmək istədiklərini iddia ediblər. Türkçülüyün ateizmi də əhatə etdiyinə dair açıqlamalar və açıq və ya üstüörtülü təkliflər türkçülüyü müsəlman xalqının gözündə qanuniləşdirilmiş şəkildə qəzəbə salmaq məqsədi daşıyırdı Timurtaşın və güman edilən Gökalpın imzalı məqaləsindəki "Türklər günah işləmiş kimi dərdlərinə gizli çarə axtarırdılar" ifadəsi o dövrdə hökm sürən psixologiyanı ifadə edir [11].

Əslində islamçılıq da millətçiliyin bir forması idi, "İslam milləti" ifadəsi ənənəvi dini icmadan daha müasir "millətə" daha yaxın idi [Ernest Gellner, "Muslim 6 Mehmed Fahreddin, ibid., s. 262. 7 M. Fəhrəddin, "İslamda bir millət var" Sebilü'l-Reşad, 11-ci cild, Say: 279, 2 Kânûn-i Sâni 1329, səh. 297 8 M. Fəhrəddin, həmçinin, səh. 298. 9 İsmail Kara, The Thought of Islamism in Turkey, Cilt 1, İstanbul 2001, s. 45-47; Mehmed Akif, Nəsr Yazıları-Şərhər-Xütbələr, İstanbul 2011, səh. 401-403, 465-466. 10 Ağaoğlu Əhməd, "Tarixi Dönemler Arasında Millət", Türk Yurdu, Cilt 3, No. 17 mart 1926, səh. 537. 11 "Millətçilik Xəstəliyi", Sebilü'l-Reşad, 18-ci cild, Sayı: 453, səh. 131. 12 Timurtaş, "İslama qarşı Millətlər və Türklük", İctihad, No: 68, 30 may 1329, səh. 1493. Gökalpın dinlə bağlı fikirləri üçün bax: Erol Güngör, Sosial Problemlər və Aydınlar, İstanbul 2011, səh. 57-71].

Ziya Gökalp Kitabında bildirir ki, fundamentalizmin altında yatan anonim ümmətlərlə özünü eyniləşdirmə mexanizmi çağdaş millətçiliyin altında yatan mexanizmə bənzəyir". Bu çərçivədə Kamal Karpat II. Əbdülhəmidin siyasətini panislamizmdən çox islamçılıq kimi xarakterizə edir. İslamçılıq daxildə birləşdirici ideologiyadır, lakin xarici siyasətə çevrildikdə bəzən panislamizmə çevrilir. Bu məsələyə diqqət çəkən ilk şəxs Yusuf Akçura oldu. İslamın "din və millət birdir" prinsipini dilə gətirən Akçura İslamın da islamçılar kimi siyasi və ictimai həyata önəm verdiyini vurğuladı. Akçura görə İslamçılığın məqsədinin müasir anlamda yeni bir millət qurmaq olduğunu vurğulayıb. Aralarındakı fərqlərdən asılı olmayaraq bütün müsəlman üzvlərinin ortaq dini türkçülərin din-millət məsələsinin həlli üçün statistik əsaslar üzərində qurulmuşdur. İlk mərhələdə din və milliyyət arasında yaranmış gərginlik, milliyyətə dinin də daxil olduğu tərif verilərək terminoloji səviyyədə aradan qaldırılmağa çalışılmışdır. İkincisi, dindarlara da təsir edən bu xalqın

dini cəhalətdən qanuni olduğunu sübut etmək istənilir. Nəhayət, tarixi və cari hadisələrdən nümunələrlə millətin və millətçiliyin qaçılmaz tarixi-sosioloji faktlar olduğu nöqteyi-nəzərindən bəhs edilir. Bu çərçivədə türklərin İslama qarşı xidmətlərini vurğulamaq, onların İslamı qorumaq missiyasını işıqlandırmaq, ümmət və millət sözlərini həm anlayış, həm də təmsil etdikləri faktlar baxımından aydın şəkildə ayırd etmək müsəlmanlar arasında fərqli bir birlik yaratmaq səlib yürüşünə əsaslanır. İnsanlar türkçülük üçün ümmət proqramı hazırladılar, islam modelini inkişaf etdirmək, milliyyətçiliyi İslam dünyasını müstəmləkəçilikdən qurtarmaq üçün əsas təmələ çevirmək kimi hökumətyönlü vasitələrdən də əl çəkdilər. II. Məşrutə monarxiyası dövründə qurulan bu nəzəri çərçivə, Türk-İslam Sintezi Cümhuriyyət dövrünün türk milliyətçiliyini miras almış və bu günə qədər davam etmişdir [Milliyyətçiliyin Dini Legitimasiyası bı, Redaktorlar: Cevat Özyurt-Ahmet Tak, Ankara 2015, s. 207-234. 13 Millət anlayışının təkamülü üçün bax: Mehmet Kaan Çalen, Modern Türk Düşüncesi, Yusuf Akçura ve Ziya Gökalp, Ötüken Neşriyat, İstanbul 2018. 14 Ernest Gellner, Nationalistism Outlook, İstanbul 2009, s. 227. 15 Kemal Karpat, Osmanlı İmperator-luğunda Dəyişiklik, Modernləşmə və Milliləşmə, Ankara 2006, s. 434].

Türkçülərə qarşı hücumlarında islamçılar türkçülüyün dinsizlik, millətçiliyin isə küfr olduğunu bildirir, bununla da məsələni din və inanc müstəvisinə gətirir. Məsələn, Süleyman Nazif Ağaoğlu ilə söhbətində də eyni yolu tutaraq, "İslam dininin bağlarını qırıb, onların yerinə dini bağlar qoymaq" dediyi açıq-aydın görünür ki, tayfa-tayfa əlaqələri qurmağa və ya gücləndirməyə çalışanlar. O, bunu İslama zidd olmaqda ittiham edir. Əslində, "Bizim istəyimiz və məqsədimiz on üç yüz ildir ki, Məhəmməd peyğəmbərin şərəfinə nail olaq və onu Çingizlə məğlub edə bilmərik!" O, öz sözləri ilə iddiasını ifrata varır, türkləri sözün hərfi mənasında yeni dini təbliğ etməməkdə ittiham edir. Eynilə Əhməd Nəim deyir ki, "milli davanın müzakirəsində" millətçilik şəriətin əksinədir, "cinsiyyət səbəbi şəriət tərəfindən haramdır" və bu, "Allahın haram etdiyi" yoldur. O, müxtəlif misra və hekayələrlə öz iddiasını dəstəkləməyə çalışır. Ağaoğlunun bu iddialara cavabı isə səbat və millət/ekipaj arasında ayrı-seçkilikdir. Dinin haram etdiyi davranışdır, qrup/millət deyil. Ağaoğlu bu kontekstdə "İslamın bütün dini normaları ehtiva etdiyini" iddia edən Süleyman Nazifi İslamı yaxşı bilməməkdə ittiham edir. Çünki həddinə çatmaq hikməti üzərində qurulan İslam heç vaxt təbiətə və hətta əbədi iradəyə zidd olan qəbilələri nə sözlə, nə də şifahi olaraq məhv etmək və ya ləğv etməkdən ibarət olmayıb: "O, heç vaxt əməlləri ilə mübarizə aparmayıb və bacarmayıb. Kavlen buna cəhd etmədi, çünki millətçiliyi dəstəkləyən ayə və hədislər yox idi. Əslində buna cəhd olunmadı, çünki bütün monoteist dinlər kimi İslam da beynəlmiləl xarakter daşıyan bir din idi və bu səbəbdən də İslamla şərəflənmiş bütün xalqlar tarix boyu öz milli kimliyini qoruyub saxlamış, yatıb gizlətmişlər. Müsəlman xalqları arasında mənəvi qardaşlıq yaratmaq istəyən İslamın idealı bolluqda birlik, müxtəliflikdə birlik idi. İslamın haram etdiyi millilik deyil, milliyyətin əksi, libertarizm idi. İslam sülhü boğmaqla müsəlman xalqlarının ictimai-siyasi birliyinin ən böyük mənbəyini məhv etdi [Yusuf Akçura, "Üç Tarz-ı Siyaset", (Transkopi Recep Duymaz), Üç Tarz-ı Siyaset və Düşüncə Hərəkatları, Türk Dünyası Araşdırmalar Vəqfi Yayınları, İstanbul 2004, s. 171. 17 Süleyman Nazif, "Ahmed Agayef Beyefendiye", İctihad, No: 74, 1 avqust 1329, səh. 1622. 18 Süleyman Nazif, "Əhməd Ağayev bəyə cavab", İctihad, Nu: 76, 15 avqust 1329, səh. 1672. 19 Əhməd Naim, "İslamda Millətin Səbəbi", Səbilü'r-Reşad, Cild: 12, Sayı: 293, 10 Nisan 1330, səh. 114-128.səh. 115-117. Əhməd Ağayev, "Cavabın cavabı", səh. 826].

Ağaoğlunun Babanzadəyə qarşı cavab məqalələri qəbilə/millət və əsəbiliyin fərqli cəhətlərini ortaya qoyur. Ağaoğlu əvvəllər Əhməd Neminin ayə, hədis və rəvayətlərdən istifadə etməsini tənqid edib. İslamın millətçiliyi haram etdiyinə dəlil kimi göstərilən ayə, hədis və rəvayətlərin heç birində qabilə kəlməsi qeyd olunmamışdır. Qeyd olunan ayə və hədislərdə heç bir dəlil yox idi. Əhməd Naim asabiyyət sözünü milliyyət/komandanın sinonimi kimi götürərək səhv başa düşmüşdür. Millət ümumi dinə və dilə görə "eyni hiss edən" fərdlərdən ibarət bir cəmiyyət olduğu halda, onun əksi dar, məhdud, ailəvi bir cəmiyyət, eyni əcdaddan gələn bir qrup insan idi. İslam tarixini millilik və istiqlal baxımından oxuyaraq tarixin alətli istifadəsinə dair müstəsna nümunələr verən Ağaoğlu

İslamın mənşəyini açıqlayır,daha sonra Cəmələddin Əfqaniyə arxalanaraq türklərin islam və milliyyətçiliklə bağlı əsas tezisi olan İslam dünyasının ancaq öz milli birliyini qurmaqla güclənmək olar, sünnəyə də çevrildi: "Bir həqiqət var ki, onu inkar etmək, izah etmək mümkün deyil, yəni İslam dini milli prinsipi məhv etməklə yox, təmin etməklə ləğv edib!! Başa düşdülər ki, İslamı dünyaya gətirməzdən əvvəl İslamın başında duran ərəb milli birliyini, ərəb milli institutunu qurmaq lazımdır! İslam millətçiliyi əzmək deyil, onu gücləndirmək və dəstəkləmək idi. Və bu yolla İslamın banilərinə qarşı durmaq birinci və ən mühüm mənəviyyat idi. Ərəblərin milli qardaşlığına mane olsa da, ərəb milli vicdanının şüurlu şəkildə formalaşmasına mane olduğu üçün ərəblər arasında qəbilə və qəbilələrin də bəlası idi. [Əhməd Ağayev, "Cavabın cavabı", səh. 826-828. 22 Daha ətraflı məlumat üçün aşağıdakı araşdırmaya müraciət edə bilərsiniz: İsmail Yakıt, "Babanzadə Ahmet Naiminin türklərə qarşı yazılmış "İslam'da Dava-yı Kavmiyet" adlı kitabına tənqidi yanaşma", Türk Ocaqları Beynəlxalq Simpoziumunun materialları. Haqqında Yüz İllik Fikri Əməliyyat, İstanbul 2013, səh. 389-409].

İstifadə edilmiş ədəbiyyat

1. "Kavmiyetçilik Hastalığı", Sebilü'l-Reşâd, C. 18, Aded: 453, s. 131.

2. AĞAOĞLU AHMED, "Tarihî Devirler Arasında Milliyet", Türk Yurdu, C. 3, Nu. 17, Mart 3. 1926. AHMED AGAYEF, "Türk Alemi-3", Türk Yurdu, Y. 1, S. 3, 15 Kânûn-i Evvel 1327, s. 70-74. AHMED AGAYEF, "Türk Âlemi-4", Türk Yurdu, Y. 1, S. 5, 12 Kânûn-i Sânî 1327, s. 135-139. AHMED AGAYEF, "Türk Âlemi-5", Türk Yurdu, Y. 1, S. 7, 9 Şubat 1327, s. 195-200.

4. AHMED AGAYEF, "Türk Âlemi-6", Türk Yurdu, Y. 1, S. 10, 22 Mart 1328, s. 292-297.

5. AHMED AGAYEF, "Türk Âlemi-7", Türk Yurdu, Y. 1, S. 14, 17 Mayıs 1328, s. 424-428.

6. AHMED AGAYEF, "Türk Âlemi-8", Türk Yurdu, Y. 1, S. 18, 12 Temmuz 1328, s. 545-551.

7. AHMED AGAYEF, "Sâbık Trabzon Valisi Süleymân Nazîf Beyefendiye", Türk Yurdu, Y. 2, C. 4, S. 21, 25 Temmuz 1329, s. 702-714.

8. AHMED AGAYEF, "Cevâba Cevâb", Türk Yurdu, C. 4, S. 24, 5 Eylül 1329, s. 825-844.

9. AHMED AGAYEF, "İslâm'da Davâ-yı Milliyet", Türk Yurdu, Yıl: 3, Cild: 6, Sayı: 10 (70), 10 Temmuz 1330, s. 2320-2329 (304-313)

10. AHMED AGAYEF, "İslâm'da Davâ-yı Milliyet", Türk Yurdu, Y. 3, C. 6, S. 71 (11), 24 Temmuz 1330, s. 2381-2390 (335-344).

11. AHMED NAİM, "İslâm'da Davâ-yı Kavmiyet", Sebilü'r-Reşâd, Cild: 12, Aded: 293, 10 Nisan 1330, s. 114-128. 40 Çalen, Osmanlıcılık ve İslâmcılık Karşısında Türkçülük, s. 203-214. 114

12. AKÇURAOĞLU YUSUF, "Türklük", Salnâme-i Servet-i Fünûn, İstanbul 1328. AKÇURA, Yusuf, "Üç Tarz-ı Siyaset", (Yeni yazıya aktaran Recep Duymaz), Üç Tarz-ı Siyaset Ve Düşünce Akımları, Türk Dünyası Araştırmaları Vakfı Yayınları, İstanbul 2004, s. 167-192.

13. ÇALEN, Mehmet Kaan & Halûk Kayıcı, Meşrutiyet'ten Cumhuriyet'e Modern Türk Düşüncesinde Milliyetçilik, Bilgeoğuz Yayınları, İstanbul 2014.

14.ÇALEN, Mehmet Kaan, Osmanlıcılık ve İslâmcılık Karşısında Türkçülük, Ötüken Neşriyat, İstanbul 2017.

15.ÇALEN, Mehmet Kaan, Modern Türk Düşüncesine Bir Derkenar Yusuf Akçura ve Ziya Gökalp, Ötüken Neşriyat, İstanbul 2018.

16. GELLNER, Ernest, Milliyetçiliğe Bakmak, Çevirenler: Simten Coşar ve Saltuk Özertürk-Nalan Soyarık, İletişim Yayınları, İstanbul 2009.

17. GÜNGÖR, Erol, Sosyal Meseleler ve Aydınlar, İstanbul 2011.

18. KARA, İsmail, Türkiye'de İslâmcılık Düşüncesi, C. 1, İstanbul 2001. KARPAT, Kemal H., Osmanlı'da Değişim, Modernleşme ve Uluslaşma, Çeviren: Dilek Özdemir, İmge Yayınları, Ankara 2006.

19. MEHMED ÂKİF, Düzyazılar Makaleler-Tefsirler-Vaazlar, İstanbul 2011.

20. MEHMED FAHREDDİN, "Son Darbe Karşısında-2 İslâm'da Kaç Milliyet var?", Sebilü'l-Reşâd, C. 11, Aded: 277, 19 Kânûn-i Evvel 1329. M. FAHREDDİN, "Müslümanlıkta Bir Millet Var" Sebilü'l-Reşâd, C. 11, Aded: 279, 2 Kânûn-i Sânî 1329.

21. ÖZYURT, Cevat, "Gökalp Milliyetçiliğinde Kurucu Unsur Olarak Din", Ziya Gökalp Kitabı, Editörler: Cevat Özyurt-Ahmet Tak, Ankara 2015, s. 207- 234.

22. SÜLEYMAN NÂZİF, "Ahmed Agayef Beyefendiye", İctihâd, Nu: 74, 1 Ağustos 1329, s.

23. 1622. SÜLEYMAN NÂZİF, "Ahmed Agayef Beye Cevâb", İctihâd, Nu: 76, 15 Ağustos 1329, s. 1672. TİMURTAŞ, "İslâmiyet Karşısında Milliyetler Türklük", İctihâd, Nu: 68, 30 Mayıs 1329. 24. ÜLKEN, Hilmi Ziya, Türkiye'de Çağdaş Düşünce Tarihi, İstanbul 2001.

25. YAKIT, İsmail, "Babanzade Ahmet Naim'in Türkçülere Karşı Yazdığı 'İslam'da Da'va-yı Kavmiyet' Adlı Kitabına Eleştirel Bir Yaklaşım", Bir Fikir Hareketinin Yüz Yılı Türk Ocakları Uluslararası Sempozyumu Bildiriler, İstanbul 2013, s. 389-409.

ƏZİZƏ CƏFƏRZADƏNİN "MANAR SAHİLLƏRİNDƏ" ƏSƏRİNDƏ HİND XALQININ MİLLİ AZADLIQ İDEYALARININ BƏDİİ TƏCƏSSÜMÜ

Ayna Çingiz qızı Babazadə
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
https://orcid.org/0000-0002-7814-2522
ayna.babazada@mdu.edu.az

Müasir Azərbaycan ədəbiyyatında daha çox tarixi romanlar müəllifi kimi tanınan yazıçı Əzizə Cəfərzadə təkcə Azərbaycan xalqının tarixi ilə deyil, eyni zamanda digər xalqların tarixi ilə də tanış olmuşdu. Bir çox ölkələrə səyahətlər etməsi ona başqa xalqların tarixi ilə tanış olma imkanları yaratmışdı. Hind xalqının uzun illər müstəmləkə şəraitində yaşamasına biganə yanaşmayan yazıçı bu mövzunu "Manar sahillərində" əsərində qələmə almışdır[36]. Əsərin əvvəllində müəllif M.F.Axundovun "İran şəhzadəsi Cəlalüddövlənin Hindistan şəhzadəsi Kəmalüddövləyə yazdığı cavab məktubundan" epiqraf yazmışdır: *"... Külli-cəhaniyanə məlumdur ki, ingilis, Hindistan əhalisi ilə nə qism rəftar edir, məgər sivilizasion tapan ingilis Hindistan əhli ilə despotdan yaxşı müamilə edir!..."* [1, s. 221].

Tarixi mövzuda yazılmış əsərin ilk səhifələrindən İngilis müstəməkəçiliyi altında inləyən yoxsul hindlilərin ağır və məşəqqətli yaşam tərzini görürük. Onların bir hissəsi aclıqdan və silahlı qarşıdurmalar, iğtişaşlar zamanı ölmüşdü. Hindistan uzun müddət ingilislərin istismar etdiyi bir yer, necə deyərlər "yağlı tikə" olmuşdu. Hindli Tvasti dənizdən çıxardığı ağ inciləri müəyyən pul müqabildə ingilis ağalarına sataraq, gündəlik ruzusunu qazanır. Min bir əziyyətlə, həyati risklə çıxarılan bu incilər ingilis lordların xanımlarının boyun bəzəyi olmuşdur. Əsərdə sevgi motivlərinə qismən yer verilmişdir, hadisələr daha çox ictimai-siyasi fonda cərəyan edir. Müəllif dövrün ümumi mənzərəsinin təsvrini verərkən həmin dövrdə Hindistanda yerli məktəblərin olmadığını, mövcud məktəblərin də ingilislərə məxsus olduğunu, dövlət, ticarət, mədəni rabitə və digər yerlərdə əsas hakim dil olaraq ingilis dilindən istifadə olunduğunu qeyd edir.

İngilitərə üçün Hindistan əlverişli yer, xammal bazası idi. Hindliləri inci toplamaq işindən uzaqlaşdırmaq və daha çox gəlir əldə etmək məqsədilə ingilis cəvahirfüruşları inci çıxarılması

[36] Əsər 1948-49-cü illərdə qələmə alınsa da, Əzizə Cəfərzadənin ilk kitabı 1948-ci ildə yandırırldıqdan sonra onun əsərlərinin nəşrinə 15 il qadağa qoyulmuş və bu əsər 2021-ci ilə kimi dərc edilməmişdir.

işində draqalardan istifadə edirlər. Draqa - mirvari ovu üçün düzəldilmiş xüsusi makinadır ki, bunun vasitəsilə dənizin dibindəki molyuskalar torbavari metal qaba toplanır və çıxarılır.

"Manar sahillərində" əsərində həmin dövr üçün Hindistanın idarəçilik sistemində Mahatma Qandinin olduğunu görürük. Ona "ulu ruh" mənasını verən Mahatma adını məşhur hind yazıçısı, ictimai xadimi Rabindranat Taqor vermişdir. Qandi haqqında məlumat verərkən müəllif onun 1914-cü ildən bəri milli azadlıq hərəkatının banisi, həmçinin 1947-ci ilə Hindistan parçalanmasına qədər ümumhindistan milli konqresinin üzvü olmasını qeyd edir. Onun "qan tökməmək" ideyası Hindistanın bir neçə il əsarətdə qalması ilə nəticələndi.

Qandi qan tökülməsinin əleyhinə idi, düşünürdü ki, ingilislərlə mədəni şəkildə davranılsa, onlar da hind xalqının arzularını dərk edər, onun müstəqilliyini qaytarar, azadlığını verər. O, inqilabın əleyhinə olaraq, sülh yolu ilə məqsədə çatmaq istəyir. Geniş xalq kütlələrini bir araya gətirməyə çalışan Qandi xalqı bir bütöv olaraq siyasi mübarizəyə səsləyirdi. Siyasi mübarizədə "zor etmə, qan tökmə" prinsipini əsas hesab edirdi.

O, nümayişlər, silahsız üsyanlar və ingilis malını baykot etmək, ingilis qulluğundan imtina etmək və s. yolu ilə mübarizə edir, təbliğ edir, passiv müqavimətlə kifayətlənirdi [1, s.248]. Qandinin sakit həyat tərzi olmamışdır, ömrü daim təlatümlərdə keçən bu siyasi lider 16 dəfə həbs edilmiş, hər dəfə xalqa sevgisi, nüfuzu hesabına azadlığa buraxılmışdır. Qandi düşünmürdü ki, ingilislər heç vaxt könüllü şəkildə Hindistanı verməzlər. O, elə zənn edirdi ki, gec-tez ingilislər hind xalqının azadlıq istəyini görəcək, onlara müstəqillik verəcək. Qandi bilmirdi ki, ingilislər üçün özündən başqa "haqlı xalq" yoxdur. Bütün böyük müstəmləkəçi dövlətlərin siyasətlərinin əsasında duran "parçala, hökm sür" siyasəti Hindistanın müstəmləkədən azadlığa can atmasına bir əngəl şəklində ingilislər tərəfindən irəli sürülür. Xalqın parçalanmasında maraqlı olan ingilislərin gizli siyasətləri nəticəsində Hindistanda dini zəmində hindular və müsəlmanlardan təşkil olunan iki qarşı-qarşıya qoyulmuş cəbhə formalaşmışdır: "Müstəqil Pakistan" və "Müstəqil Hindistan". Bir qrup səadəti, xoşbəxtliyi ayrılmaqda, bir qrup isə bir olmaqda görürdü. Birtərəf mövqedə dayanan demək olar ki, yox idi. Hindistan Kommunist Partiyası, tələbə cəmiyyətləri, əsl xalq kütlələri ayrılmanın əleyhinə idilər. Onlar Hindistanın gələcəyini öncədən görərək anlayırdılar ki, ayrılmaq planı ingilislərin siyasi planlarından biridir. Çünki parçalanmadan sonra Hindistanı kölə halında saxlamaq daha rahat olacaqdı. Xalqın xilaskarı olan Qandi belə təlatümlü bir dönəmdə tez-tez xalq kütlələri qarşısına çıxaraq, Hindistanın parçalanmasının qarşısını yalnız birliklə almağın mümkünlüyünü qeyd edirdi. Əsərdə verilən həmin çıxışlardan birinə diqqət yetirək: *"...Bu fikri ilk dəfə ortaya atan cənabı mən tanıyıram. Lakin bilirəm ki, o, sənin rifahını yox, cibini güdmüşdür. Böyük və azadlıq eşqilə çırpınan Hindistan, mən çox danışmayacağam... Söz sənindir. Lakin yenə də deyirəm ki, mən sənin səadətini, azadlığını ayrılıqda görmürəm..."* [1, s.259]. Təbii ki, Qandinin bu çıxışlarını dəstəkləyənlər olduğu kimi, rədd edənlər də az deyildi.

Əsərdə İntelecens Servis adlı İngiltərə xəfiyyə idarəsinin adı çəkilir. Meredit və Bekker Hindistanda həmin xəfiyyə idarəsinə çalışan və onların "təcili aradan qaldırmaq" əmrini yerinə yetirən, həmçinin çaxnaşma salmağa meyilli casuslardır. "Hindu Mahasabha" adlı cəmiyyət Hindistanda hindlilər arasında düzədilmiş mürtəce və başıpozuqlar yığımı olan bir partiya idi. Onlar ingilislərə xidmət etməyə meyilli bir cəmiyyət kim göstərilir. Qandinin öldürülməsi işi bu cəmiyyətin Raştriya Sevak Sanq adlı hərbi orqanının nümayəndəsi olan Natxuram Vinayyak Hodeyə tapşırılır. Bəzi mənbələrdə onun adı Nathuram Qodse olaraq qeyd edilir və onun bir siyasətçi, ekstremist olduğu bildirilir [2]. Qandi Birl-hauza axşam duasına gedəndə silahdan açılan atəşlə öldürülmüşdür. Baş nazir Cəvahirləl Nehru səsini kütlələrə çatdıraraq, onları sakitləşdirməyə çalışırdı. Yazıçının qeyd etdiyi bütün bu faktlar tarixi mənbələrlə üst-üstə düşür. Müəllif Qandinin son xırıltılarının sanki "əfv edin, qan tökməyin, sülhü sevin övladlarım" dediyini qeyd edir. Qandinin ölümü bütün Hindistanı matəmə bürüdü. Xalqların birləşəcəyindən ehtiyat edən İngiltərə milli və dini ayrılıqdan bacarıqla istifadə etməyə başlamışdı.

Mahatma Qandi xalqı tərəfindən sevilən və dəstəklənən bir lider idi. Bir çoxları övladlarının adını onun şərəfinə Qandi qoyurdu. Əsərdə kiçik Qandi adlandırılan obrazın adı da belə qoyulmuşdur. Kiçik Qandinin təhsil və digər xərclərinin qarşılanmasını öz boynuna götürən Mahatma Qandi gənclərin təhsil almalarının, onların özlərini daha da inkişaf etdirmələrinin tərəfdarı kimi çıxış edirdi. Əsərdə kiçik Qandinin tələbə vaxtından Hindistan Fedarativ Gənclər təşkilatına qoşulduğunu, sonra isə milli azadlıq hərəkatının fəallarından biri olmasını görürük. Qandinin ölümündən sonra kiçik Qandinin ən son məqsədi qollarına ingilis buxovu, dodaqlarına ingilis qıfılı vurulan,alçalan məhkum vətənindən ingilisləri son nəfərinə qədər qovmaq idi [1, s.269]. Bu məqsədlə o, qüvvələri toplayaraq vahid xalq cəbhəsi yaratmağa başladı.

Yazıçı əsərdə tarixi gerçəkliklə yanaşı bədii təxəyyüldən də istifadə etmişdir. Tarixi şəxsiyyətlərlə yanaşı simvolik obrazlardan da istifadəni görürük. Əzizə Cəfərzadənin içində olduğu 1946-47-ci illərdə Cənubi Azərbaycan Demokratik Respublikasının İran-Rusiya tərəfiindən məhv edilməsi, pənahəndə və fədailərin Şimali Azərbaycana gəlməsi, Əzizə xanıma bu proseslərin təsiri bu əsərdə özünü göstərib.1948-cü ildə qələmə alınan, lakin müəllifin sağlığında çap olunmayan bu əsər müəllifin oğlu Turan İbrahimov tərəfindən ilk dəfə povest yazılandan 73 il sonra "Seçilmiş əsərləri"nə daxil edilərək çap edilmişdir. Düşünürük ki, sovet hakimiyyəti illərində qələmə alınan bu əsərdə azadlıq ideyalarının təbliği və Hind xalqının birliyinə səsləniş müəllifin eyni zamanda öz xalqına da bir çağırış nidası idi! Əslində belə bir çağırışı açıq şəkildə etmək yazıçı üçün təhlükəli idi. M.F.Axundov bildirirdi ki, təhlükə yaranacağı halda təsvir etmək istədiyin hadisələri ya qədim dövrə, ya da başqa məmləkətin üzərinə köçürmək lazımdır. Görünür Əzizə xanım bu yolla getmiş, Hindistanın milli azadlıq mücadiləsini qeyd etməklə eyni zamanda öz xalqını da mübariz olmağa səsləyirdi. Əsər 75 il öncə yazılsa da öz aktuallığını bu gün də itirməyib, çünki postsovet məkanında, keşmiş Yuqoslaviyada XX əsrin sonundan indiyə kimi gedən siyasi proseslərin sanki ssenarisi heç dəyişməyib.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərzadə, Ə. Seçilmiş əsərləri: [XVII cilddə] / Ə.Cəfərzadə. - Bakı: Elm və təhsil, - c. X. - 2021. - 418 s.
2. Rajmohan, Q. Patel a life / Q. Rajmohan. - İndia: Navjivan Trust, - 2011. - p.615

MULTILINGUALISM AS A SOCIOCULTURAL PHENOMENON

Aytan Allakhverdiyeva
Doctor of Philosophy, Ass.Prof.
Institute of Linguistics named after Nasimi of ANAS
a._ayten@mail.ru
https://orcid.org/0009-0000-6660-0357

According to the latest data, multilingualism is a sociocultural phenomenon, because about 75% of the world's population speak, to one degree or another, two or more languages (multilingualism, polylingualism, bilingualism). About one quarter of countries on Earth officially recognize two languages on their territory, and only a few countries - three or more languages, although the actual number of coexisting languages in many countries is significantly more [1].

The relevance of multilingualism as a sociocultural phenomenon is that the operation of several languages is a necessary condition for the successful life of people and communities in the era of globalization, since globalization assumes as its element the interpenetration of the material

and spiritual components of various social cultures. Therefore, the most important condition for mastering a foreign culture is mastering its forms, and, above all, languages.

The reasons for multilingualism as a sociocultural phenomenon are:

- Official status of languages in a multinational society;
- Intercultural integration in the era of globalization;
- Social prestige of languages;
- Genetic proximity of languages;
- Degree of impact of acculturation process;
- Social mobility.

Multilingualism (polylinguism) - the use of several (more than two) languages within a certain social community (primarily the state); use by an individual (a group of people) of several languages, each of which is selected in accordance with a specific communicative situation [2, p.45]. But this is not only the ability to speak several languages, it is also a special type of thinking that absorbs the cultural values of several civilizations, thinking that is open to dialogue. The method of assimilation distinguishes between spontaneous (natural) and pedagogical (cultural) ways of acquiring language.

A special case of the manifestation of multilingualism is bilingualism, i.e. (from Latin bis - twice and lingua - language), bilingualism, mastery of two languages [3, p. 20]; American sociology defines bilingualism as "the use of two languages with an equal share of legitimacy in the workplace or in educational institutions." However, the definition given by Schweitzer and Nikolsky seems more complete: "Bilingualism is the coexistence of two languages within the framework of one language (speech) team using these languages in various communicative spheres, depending on the social situation and other parameters of the communicative act. Both languages, serving a single team, form a single socio-communicative system and are in functional addition to each other " [4].

Bilingualism, as the process of mastering the second language and the second culture, is a kind of dominant of the process of gradual adaptation (accommodation) to the leading culture, and without the obligatory rejection of one's own linguistic identity, thereby offering the most subject-to-emulation social model for individuals included in the new culture.

Bilingualism, as the process of mastering the second language and the second culture, is a kind of dominant of the process of gradual adaptation (accommodation) to the leading culture, and without the obligatory rejection of one's own linguistic identity, thereby offering the most acceptable social model for individuals entering the new culture. People who speak two languages are called bilinguals.

The phenomenon of multilingualism is the phenomenon of the century. It is inherent in all regions of the world in different forms and in different respects. Mastering languages, which are means of communication and information exchange with the peoples of other countries, is becoming more and more important. The languages of interethnic communication fulfill an international mission, spiritually and morally bringing people of different nationalities closer together [5, p.110].

Multilingualism has always been and remains to this day a phenomenon necessary for the coexistence of various ethnic groups and cultures, however, carrying many contradictions and sometimes causing quite polar opinions: from alarmist greetings to fierce resistance and prejudice. It seems to undermine the very possibility of the existence of a monolingual culture and in this sense causes fear for its preservation, but at the same time expands the cultural range by introducing to the experience of foreign-speaking communities, "accumulates" the potential for assimilating universal human values. In the modern world, striving to find ways to achieve "global humanism," which creates the possibility of establishing a humanistic society with different national models, at

least it seems strange to be unwilling to notice the role of multilingualism in the formation of social heterogeneity and assess it as a positive factor in intercultural interaction.

Exploring the phenomenon of multilingualism, the system of modern education cannot be ignored, since foreign languages are included in the school minimum in many countries, and there may even be several of them. Knowledge of another or other languages to one degree or another is now impossible to do.

Multilingualism, as a sociocultural phenomenon, puts forward difficult tasks for education to prepare young people for life in a multinational and multicultural environment, to form skills to communicate and cooperate with people of different nationalities, races, faiths. The integration of the world community, the development of a planetary worldview assume the consideration of national traditions in the education of young students; creating conditions for the formation of the cultural identity of children; the formation of a diverse and complex cultural environment for the development of the individual. Thus, the social essence of modern multilingual education consists in the formation of not just linguistic, but wide sociocultural competence and authenticity of the contextual interpretation of the meanings of intersubjective communication of representatives of different cultures [6]. It solves the problems of deirarchization of ethnic statuses, critical awareness of the world with the development of communicative opportunities and a deeply reflective attitude to one's own culture and language - which makes the process of sociocultural translation of ethnic values more stable, protected and controlled, contributes to the conscious preservation of national culture by native speakers and sociocultural experience of a particular society.

Two languages are usually formed in a person to different degrees, since there are no two completely identical social spheres of action of languages and the cultures represented by them. Therefore, the definition of bilingualism does not require absolutely free proficiency in both languages. If one language does not interfere with the second, and the second is developed to a high degree close to language proficiency in a native speaker, then they talk about balanced bilinguism. The language that a person speaks better is called dominant; it is not necessarily the first language to be learned in time. The ratio of languages can change in favor of a particular language if appropriate conditions are created: one of the languages can partially degrade, negatively affect the other (interference), stop developing, be ousted from use (change of language), forget, go out of use (language death); or, conversely, language can be revived, bring positive, supported (preservation), brought to the level of official recognition and use. These provisions apply not only to individual speakers, but also to language communities [7].

Until now, it has not been established exactly how many languages a person can master. It is only known for sure that in the history of mankind there have always been people who could express themselves not only in their native, but also in many foreign languages. Thus, multilingualism as a sociocultural phenomenon is becoming an everyday reality all over the world. In particular, it was revealed that:

- multilingualism is a fact of real linguistic existence for the vast majority of the world's population, due to the increasing interaction of economic, scientific, cultural and political interests;
- multilingualism acts as a means of socialization of the individual, forms attitudes of empathy and tolerance as a result of the sociocommunicative process, organized and developed in a special way, within the framework of a bilingual approach to education;
- the phenomenon of multilingualism in its social essence does not cause the loss, but the expansion of cultural identity, an increase in reflective and value attitude to the achievements of one's own culture, an increase in cultural wealth and individual opportunities to enter into intercultural dialogue;
- the social multilingualism of the individual in a multicultural context is a prerequisite for achieving an adequate level of sociocultural competence to preserve cultural identity and enhance the potential for social mobility within the existing cultural environment. Polylingual adaptation to

a new sociocultural environment allows one to overcome cultural shock and marginal sociocultural states.

Based on this, careful attitude to one's own cultural heritage and perception of valuable elements of others through the dialogue of cultures is the main path for the development of human civilization in the era of globalization [8].

References

1. Haskelberg Maria Grigorievna. Bilingualism//[electronic resource]: http://www.log-center.ru/hints/dvuyazichie/bilingvizm
2. Zograf G. A. Multilingualism. Linguistic Encyclopedic Dictionary. M.: Soviet Encyclopedia, 1990. 303 p.
3. Vereshchagin E.M. Psychological and methodological characteristics of bilingualism (bilingualism). M.: Publishing House of Moscow State University, 1969. 160 s.
4. Schweitzer A.D, Nikolsky L.B Introduction to sociolinguistics. M.: Higher School, 1978. 215 p.
5. Ter-Minasova S. G. Language and intercultural communication. M.: Word, 2000. 624 p.
6. Shirin A. G. Pedagogical aspects of bilingualism: the development of a new scientific school//[electronic resource]: http://edu.novgorod.ru.
7. Online Encyclopedia Roundabout. Bilingualism//[electronic resource]: http://www.krugosvet.ru/enc/gumanitarnye_nauki/lingvistika / DVUYAZICHIE.html
8. Kulsarieva Aktolkyn Turlukanovna, PhD., Ass.Prof. Multilingualism as a condition for the dialogue of cultures//[electronic resource]: http://kazakheli.kz/publications/multilingvizm-kak-uslovie-dialoga-kultur

AZƏRBAYCAN MULTIKULTRALİZMİNİN KÖKLƏRİ BƏDİİ ƏDƏBİYYATDA TARİXİ QAYNAQ KİMİ

Günel Saleh qızı Hümmətova (Pəniyeva)
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
gunelpeniyeva@mail.ru
https://orcid.org/0000-0002-8916-3484

Azərbaycan şifahi xalq ədəbiyyatı öz janr fərqliliyi və məzmun rəngarəngliyinə görə Azərbaycan ədəbiyyatının yazılı növündən fərqlənir. Hər bir janr növü özünəməxsus mövzu, struktur fərqliliyi və özündə ehtiva etdiyi məna müxtəlifliyi ilə diqqət mərkəzində olmuşdur. Ədəbi fikrin daim diqqət mərkəzində olan folklor nümunələri daim müxtəlif aspektlərdən təhlil obyektinə çevrilmişdir.Zəngin nümunə çeşidinə malik olan folklor nümunələrində ədəbi fikrin diqqətini öz məna yükündə tolerantlılığın elementlərini təşkil etməsi olub.Beləki, bu izlər məhz folklorun ilk nümunəsi sayılan arxaik düşüncə tərzi, mifoloji görüşlərdə öznü biruzə verir. Hər bir mifoloji görüşlərin oxşar və ya eyni dərəcədə təsvir edilməsi və ya mənalandırılması bir-birindən uzaq məsafələrdə yaşayan və onlarn aralarında heç bir genetik bağların olmamasına baxmayaraq müxtəlif xalqların ətraf aləmə eyni və ya oxşar mifoloji münasibət bəsləməsi həm şifahi xalq yaradıcılığında, həm də insanlar arasında bəşəri ideyaların güclənməsinə gətirib çıxardıb. Bu da bir növ dinindən və irqindən, yaşadığı mühitindən asılı olmayaraq, ümumi düşüncə tərzinə malik olmalarında və hər bir canlı varlıqlara eyni tərzdə yanaşılmasından asılıdır. Belə ki, bütün xalqlar

mifologiyada mədəni qəhrəmanı ilahi mənşəyə bağlayıb. Varlıqları sehrli qüvvələrlə əlaqələndirərək, onları haqq-ədalətin təmsilçisi kimi təqdim edirdi.

Ümumilikdə götürsək, qeyd edə bilərik ki, folklorda təsvir edilən insanları dini və milli mənsubiyyətindən daha çox xeyiri və şəri nə dərəcədə təmsil edib-etməməsini,xeyirxah və bədxah olması kimi insani duyğuları əks olunur. Bu da yer üzündəki insanların və varlıqların ayrı-seçkilik deyil də birgə yaşamasının əsaslı olduğunu vurğulayır. Bu da folklor nümunələrinin hər bir növündə tolerantlılığın və multikultural dəyərlərin izlərinin olduğunun əsasını təşkil edir.Məhz bu kimi multukultural dəyərlər folklor nümunələrinin hər bir növündə bu və ya digər dərəcədə özünü biruzə verir. Ən çox məna yükünə malik olan özündə multikultural dəyərlərin elementlərini daşıyan atalar sözünü bir neçə mənada araşdıraraq müxtəlif kontekstdən yanaşaraq multikulturalizm izlərini təhlil etməyə çalışmışıq. Azərbaycan şifahi xalq yaradıcılığının nümunəsi olan atalar sözlərində multikultural dəyərlər bir neçə aspektdən diqqəti cəlb edir. Beləki, birlik, insan birliyin ifadə edən atalar sözlərinə rast gəlinir ki, burda da insanların birgə yaşaması və bir-birlərinə qarşı dözümlü olmalarının əsasını təşkil edir. Bu da insanlar arasındakı istər fikir, istər sə də hər hansısa məna ayrılığına hörmətlə yanaşılmasının vacibliyini özündə əks etdirir. *"El bir olsa dağı oynadar yerindən""Birlik harda dirilik orda", "Güc birlikdədir", "Tək əldən səs çıxmaz", "Palaza bürün elnən sürün", "El bir olsa dağı yerindən oynadar"* [2, 188,172; 1.62] və s. bu kimi nümunələrdə tolerantlığın izlərinə rast gəlinir. Həmçinin bu atalar sözlərində birlik, birləşmək mənalarını özündə birləşdirir və insanları daim tolerant olmağa səsləyir. Digər növlərə nəzər yetirəndə görürük ki,digər şəhərlərin adları çəkilərək oradan nələrinsə alınması və oranın məhsuluna olan dəyər qiymətləndirmə və başqa xalqın zəhmətini, mədəniyyətini, varlığına hörmətlə yanaşılma özünü göstərir. Məs.:*"Çanaxda balın olsun, Yəməndən arı gələr"* [2, s.73] *"Belə matahın var, Çəfərabad (Mazandaran) bazarına apar"* [1, s.53] *"Xandan gələn nökərəm dimmə gözünü tökərəm", "Kor ya burda ya Bağdadda"* [1, s.60] Bu tip atalar sözlərində eyni zamanda həmin bölgənin çox inkişaf etmiş olduğu və bu cəhətdəndə digər xalqların diqqətin cəlb edə bilməsi və bura axınların olmasına gətirib çıxardır. Birinci atalar sözünə eyni zamanda mifoloji anlayış yönündən yanaşsaq *"bal"* sözünün pul, mal, mülkün simvolu, *"arı"* sözünün isə tacirin simvolu kimi qiymətləndirsək yenə də tolerantlığa gəlib çıxdığının şahidi olarıq. İkinci atalar sözündə isə Mazandaran bazarının şöhrətindən bəhs edilməsi xalqlar arasında ticari-əlaqənin olmasına və qarşılıqlı ticari əlaqələr zamanı tolerant münasibətin yaranmasına gətirib çıxardır.

Atalar sözlərinin məna yükünə başqa yöndən yanaşsaq bəzi nümunələrində bölüşdürmə mənasını özündə ehtiva edən nümunələrə rast gələ bilərik.Bölüşdürmə mənasında işlənən atalar sözləri vardır ki bunlarda da yenə tolrantlıq hiss olunur. Əgər insanlar bir-birlərinə hörmətlə yanaşıb birgə yaşamasalar əllərində olan heç bir neməti bölüşə bilməzlər. Burdan da belə nəticəyə gəlmək olar ki, elinin qədrin bilməyən xalqının yükünü daşıya bilməz. Bu tip nümunələrdə insanlar arasında olan bölüşmək hissinin bərabər olma mənasına gətirib çıxardır.*"Bir çörək özün ye, birində Allah yolunda ver"* [1, s.57] *"Verən əl kəsad olmaz", "Sən birin ver Allah əvəzində minin verər","Bir mıx bir nalı, bir nal bir atı, bir at bir igidi, bir igid bir eli saxlar;* [1, s.59] kimi nümunələrdə xalqlar arasındak, insanlar arasındakı münasibətin bərabər olması və aralarında fərqin qoyulmamasına gətirib çıxardır və eyni zamanda da, milli mənəvi dəyərləri özündə cəmləşdirir.

Digər bir qisim atalar sözünə nəzər yetirdikdə də burda sadəcə irqindən, dinindən, cinsindən asılı olmayaraq insanlar arasındakı dostluq və əlaqələrin olmasına, milli mənəvi dəyərlərə üstünlük verilməsinin şahidi oluruq. Məsələn, *"Dost gəlişi bayram olar"*[1, s.60] burada dostun hər gəlişinin bayrama çevrilməsi mənası ifadə olunur. Ancaq onu da qeyd edək ki, dostluq özü elə bir anlayışdır ki, hər bir insan dost olacağı insanın hər bir xarakterinə hörmətlə yanaşmalı,hər bir nöqsanın qəbul etməlidir. *"Dost yaman gündə tanınar", "Vəfalı dost yad olmaz, görməsə yüz il səni", "Dostun min isə azdır, düşmən bir isə çoxdur", "Eyibsiz dost axtaran dostsuz qalar", "Dostu olan eyib görməz"* [1, s.60] və.s bu kimi atalar sözlərin nümunə gətirərək insanların birliyə çağrılması, dostluq ilə

aşılmayan çətinliklərə tab gətirildiyinin və bütün insanlara dost münasibət göstərilməsinin nümunəsidir.

Bir qisim atalar sözləri başqa xalqlara aid edilmişdir ki, *"Dəvəçi ilə dostluq edənin darvazası gen gərək"*atalar sözündə "dəvəçi"sözü ərəbləri ifadə edir və ərəblərlə dostluq münasibətindən bəhs edir. Belə ki, keçmişdə ərəblərə dəvə saxladıqlarına görə *"dəvəçi"* deyilirmiş. Burda da bir Azərbaycan xalqının tolerant olduğunun və tolerantlılığın qaynaqlarının keçmişə gedib çıxdığının təsdiqi olunur.

Monqollara aid edilən, Monqolların işğalı zamanı onlardan özünü müdafiəsi üçün yaranan *"Girdin bazara gördün hamı gözü cumuxdur, sən də ol gözü cumux*", [1, s.56] Azərbaycan ərazisində yaşayan digər etnik birliyin nümayəndəsinə həsr edilmiş *"Türk - türkü vurar, arada **'tat'** aparar" və "Çox öyünmə, **tat** qızı, pendirindən tük çıxır", "Türkün gəlişi, tatın görüşü", "Türkü at yıxar, tatı ət", "Ləzgiyə dedilər: can şirindir, bəkməz? Dedi: iki dostun arasına girmax olmaz", "Ləzgiyə dedilər: göyə çıxa bilərsənmi? Dedi: Bəkməz yesəm çıxaram", "Tat ata mindi, Tanrısın tanımadı"* [1, s.59-69] kimi atalar sözlərində də tolerantlılıq müşahidə olunur. Bu da Azərbaycan şifahi xalq ədəbiyyatındakı multikultural elementlərin varlığına və tarixinin qədimliyinə nümunədir.

İstifadə edilmiş ədəbiyyat

1. Atalar sözləri. - Bakı: Öndər nəşr, - 2004. - s.264
2. Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / Əfəndiyev, P. - Bakı: -1992, - s. 180

FEMİNİST ƏDƏBİ TƏNQİD VƏ QADIN TƏMSİLÇİLİYİ

Güntəkin Qəzənfər qızı Musayeva
filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
guntekin87@mail.ru
https://orcid.org/0000-0001-9341-3813

Feminist ədəbi tənqid feministik nəzəriyyə və siyasi baxımdan meydana gələn ədəbi təhlildir. Feminist ideologiya ilə meydana gəlmiş ədəbi mətnlərin tənqidi və qiymətləndirilməsi ədəbiyyatda elmi problem yaratmış və bu mətnlərin araşdırılması üçün yeni bir sahə kimi feminist ədəbiyyatşünaslıq yaranmışdır. "Ümumilikdə, feminist tənqid sosial ideologiyalara və təcrübələrə diqqət yetirdiyi halda, feminist ədəbi tənqid isə bu ideologiya və təcrübələrin ədəbi mətnlərə necə təsir etməyini araşdırır" [4, s.11]. Feminist ədəbi tənqidin əsas məqsədi həm feminist ideologiyadan, həm də ədəbiyyatdan bəhrələnməklə qadın mətnlərinin forma və məzmun xüsusiyyətlərini, ədəbiyyat tarixində yoxa çıxmış qadın yazıçılarını və əsərlərdəki qadın obrazlarının tip və xarakterlərini, xüsusiyyətlərini araşdırmaqdır. "Feminizm əsas məqsədi cəmiyyətdə qadının statusunu yüksəltmək, qadınlara da kişilər kimi eyni hüquqların verilməsini tələb etmək və əldə etdiyi hüquqlardan istifadə etməkdir. Ədəbiyyat isə bu formalaşma dövründə qadınların tərəfində mübarizədə iştirak edir. Yaxud hərəkatın nümayəndələri tərəfindən onların təlimlərini çatdırmaq üçün ən asan üsul ola bildiyi üçün istifadə olunur" [3].

Daim inkişaf edən feminizm müasir həyatın inkişafı və dəyişməsi ilə paralel olaraq öz qaydalarını da inkişaf etdirir, həyatın bütün istiqamətlərində öz tələblərini, qaydalarını yeniləyir və artırır. Feminist ədəbi tənqid isə bu inkişafların, dəyişmələrin ədəbiyyatda əks olunması ilə inkişaf edən bir prosesdir. Feminist düşüncənin inkişafı prosesində feminist ədəbiyyat meydana gəlmişdir. Beləliklə, feminist ədəbiyyatın inkişafı və yayılması ilə əlaqədar bu ədəbiyyatı tədqiq edən "feminist ədəbi tənqid" anlayışı meydana gəlmişdir.

Ədəbiyyatşünaslıqda feminist ədəbi tədqiqatları əsasən iki istiqamətdə yaranıb və inkişaf edirdi: fransız və ingilis-amerikan istiqamətləri. İngilis-amerikan və fransız feminizm tədqiqatları 1960-70-ci illərində Qərbi Avropa və ABŞ-da feminist hərəkatların nəticəsində meydana gəlmişdir. İngiltərədə Meri Uolstonkraftın "Qadın hüquqlarının müdafiəsi", Fransada Olimpiya de Qujun "Qadınların və qadın vətəndaşların bəyannaməsi", Almaniyada isə Teodor fon Qippelin "Qadınların vətəndaşlıq vəziyyətinin yaxşılaşdırılması barədə" adlı əsərləri feminist tənqidin yaranmasında və formalaşmasında əsas rol oynayır.

Şimali Amerikada müstəqillik uğrunda aparılan mübarizə qadınların öz hüquqlarının müdafiəsinə təkan verdi. ABŞ-dakı qadın azadlıq hərəkatının ilk fəalları arasında Abiqeyl Smit Adams (1744-1818) da var idi və onun fikirləri tarixdə feministlərin şüari kimi xarakterizə olunur. 1945-ci ildə Marqaret Fullerin "19-cu əsrdə qadın" əsəri ABŞ-da ilk feminist mətinlərdən biri hesab olunur. O, bu əsərində transandantalist düşüncədən yanaşaraq gender bərabərliyini müdafiə edirdi. "Yazıçıya görə, qadın ağlının inkişafına mane olan hər bir sistem onu cəhənnəmə məhkum edir. Qadın və kişinin fərqli düşüncə sahib olmasını qəbul etmirdi. Ona görə ağıl hər insanda eynidir. Əgər qadın fərqli və ya yanlış fikir yürüdürsə bunun səbəbi təhsilindəki əskiklikdir" [7].

Modernizmin görkəmli nümayəndəsi, feminist yazıçı Virciniya Vulf "Şəxsi bir otaq" (1929) əsəri ilə feminist ədəbi tənqidin ilk banisi hesab olunur. Qadınlar üçün iqtisadi müstəqilliyin əhəmiyyətindən bəhs edən bu kitabda müəllif XVI əsrdən bəri qadının cəmiyyətdəki sosial mövqeyini, ədəbiyyatdakı rolunu və qadın ədəbi ənənəsinin özünəməxsusluğunu araşdırır. 1929-cu ildə nəşr olunduğu gündən ədəbiyyatşünaslar tərəfindən dəfələrlə nəzərdən keçirilmiş və təhlil edilmişdir. Beləliklə, ilk feminist mətnlərdən birinə çevrilərək, feminist nəzəriyyəyə təsir edən "Şəxsi bir otaq" kitabı ədəbi sahədə qadınların yaradıcılıq uğursuzluqlarının və qadın yazıçılarının sayının az olmasının əsas səbəbini qadınların şəxsi otağı olmaması və eyni zamanda iqtisadi cəhətdən kişilərdən asılı olması səbəbi ilə izah edirdi. Müəllif təkcə problemin səbəbini yox, eyni zamanda çıxış yolunu da göstərirdi: "Odur ki, xahiş edirəm, yazın. Bəsitliyindən və dərinliyindən asılı olmayaraq, heç bir mövzudan çəkinməyin..." [8, s.205].

Fransız feminist yazıçısı və ekzistensialist filosof Simono De Bovuar XX əsrin intellektual həyatına həm ədəbi, həm də fəlsəfi səviyyədə təsir edən son dərəcə əhəmiyyətli qadın şəxsiyyətlərindən biridir. Xüsusilə 1949-cu ildə yazdığı və yalnız 1970-ci ildə ingilis dilində nəşr olunan "İkinci cins" adlı əsəri ilə həm XX əsr feminist ədəbi tənqidə, həm də müasir feminist fəlsəfənin bütün sahələrinə böyük təsir göstərmişdir. "Bu kitab, Meri Uolstonkraft, Marqaret Fuller və Virciniya Vulf kimi liberal-mədəni feminizm ilə Helen Siksu, Meri Deyli kimi radikal feministlər arasında körpü rolunu oynamışdır" [5, s.24].

İngilis-amerikan feminist tədqiqatçısı Keyt Millet "Seksual politika" əsəri ilə ilk dəfə olaraq patriarxallıq anlayışının nə olduğunu açıqladı. Keyt Millet də Simon de Bovuar kimi kişi yazıçıların əsərlərindəki qadın obrazlarının müxtəlif rakurslardan bir-birinə çox bənzədiyini qeyd etmişdir. Onun fikrincə, "dərin kök salmış gender siyasəti" [6] həyatın bütün sahələrinə təsir etdiyi kimi ədəbi sahədə də gender assimetriyasına yol açmışdır.

1960-1970-ci illərində feminist tədqiqatçılar daha çox qadınların sosial-tarixi və siyasi problemlərinin qabardılmasına üstünlük verirdilər. Betti Fridanın qadınların sosial cəhətdən məcburi asılılığını ifşa edən "Qadın Mistikası" (1963) əsəri ilə Amerikan feminizminə, Germaine Greer-in "Qadın-xacə" (1971) əsərilə İngilis feminizminə əsaslı təsir göstərmişdir. Germaine Greer-in "Qadın-xacə" əsərində qadınların mənəvi və emosional olaraq hər bir şeydən məhrum edildiyini və bu vəziyyətin dəyişməsi üçün radikal inqilaba ehtiyac olduğunu qeyd edirdi. Bu əsərlər ev işlərindən başqa nə edəcəyini bilməyən və buna görə də böyük bir boşluq hissi keçirən qadınların ümid yerinə çevrilir.

1972-ci ildə nəşr olunan ilk feminist ədəbi tənqid antologiyası hesab olunan "Qadınların bədii ədəbiyyatda təsvirləri" əsəri qadın yazıçılar haqqında ilk nümunəvi tədqiqatlardan biridir. Bir tərəfdən Annis Pratt, Eleyn Şoulter, Sandra Qilbert, Syusan Qubar və Elis Uoker kimi feminist

tədqiqatçılar diqqətdən kənarda qalan bir çox qadın yazıçıları yenidən kəşf edərkən, digər tərəfdən Ellen Moersin 1977-ci ildə nəşr olunan "Ədəbiyyatda qadın" əsəri ilə qadın ədəbiyyatının kişi ədəbiyyatından fərqliliyini irəli sürərək, qadın ədəbiyyatı ənənəsini formalaşdırır: "Qadınlara ədəbiyyatda nəyi bacara bilməyəcəklərini deməyin mənası yoxdur, çünki tarix göstərir ki, onlar hər şeyə qadirdir" [2]. Tənqidçinin fikrincə, qadın təhsildən, siyasətdən kənar yalnız ailə mühitində formalaşırdı. Onların sosiallaşmasında qadın yazıçılarının böyük təsiri olduğunu qeyd edirdi. Qadın yazıçılar onların hiss və duyğularının çatdırılmasında böyük rol oynayırdı.

Jozofin Donovan 1975-ci ildə nəşr olunan "Feminist ədəbi tənqid" əsərində maskulist dəyərlərin feminist tənqidin yeni formaları ilə əvəz edilməsi fikrini irəli sürürdü. Kitabda feminizm nəzəriyyəsi, dövrləri, feminist ədəbi tənqid, feminist yazıçılar və onların əsərlərindən bəhs edilir.

Tədqiqatçı Tıllie Olsenin "Səzsizlik", Adriena Riçin "Dilin ümumi arzuları", Dale Spenderin "İnsanın yaratdığı dil" kitabları ədəbiyyatda itirilmiş qadın yazıçılar və "qadın yazısı", "qadın dili" anlayışlarının öyrənilməsi baxımında olduqca əhəmiyyətlidir.

İngilis-amerikan istiqamətinin feminist ədəbi tənqidçisi Eleyn Şoulter 1979-cu ildə nəşr olunan "Feministik poetikaya doğru" adlı məşhur məqaləsində feminist düşüncələri ədəbiyyatda sistemləşdirməklə və inkişaf mərhələlərini göstərməklə, bir ilkə imza atır.

Azərbaycan ədəbiyyatında konkret olaraq feminist ədəbiyyatın və tənqidin olduğunu demək çox çətindir. Əgər dünya ədəbiyyatında feminizm və feminist ədəbi tənqid anlayışları XVIII əsrdən yaranmağa başlasa da Azərbaycan ədəbiyyatında bu proses çox gec müstəqillik dövründən sonra baş vermişdir. Müxtəlif dövrlərdə əsərlərdə güclü qadın obrazları yaradılıb, qadın hüquqlarının pozulmasından, gender ayrı - seçkiliyindən yazılıb, ancaq feminist mövqedən işlənməmişdir. Düzdür, sovet ədəbiyyatı dövründə də qadın ədəbiyyatı, qadın mövzusu Mirvarid Dilbazi, Əzizə Cəfərzadə, Nigar Rəfibəyli kimi yazıçıların yaradıcılığında vardır, ancaq bunlar feminist aspektdən yox, daha çox siyasi rejim çərçivəsində işlənmişdir. Feminizm və feminist tənqid, qadın ədəbiyyatı anlayışları müstəqillik dövründən sonra mühüm əhəmiyyət daşımağa başladı. Azərbaycan ədəbiyyatında qadın ədəbiyyatının feminist ideyaların ilk ifadəçiləri Afaq Məsud, Fəridə, Günel Mövludlu, Aysel Əlizadədir.

Ədəbiyyatşünas Maral Yaqubova feminizmin Azərbaycan ədəbiyyatında ilk təzahürlərinin Afaq Məsud yaradıçılığında baş verdiyini qeyd edir: "Ümumiyyətlə, Afaq Məsud yeni sosial iyerarxiyada qadını kişidən bir pillə öndə yerləşdirir. Bu, müəllifin feminist mövqeyindən irəli gəlirdi... Əslində, feminizmin Azərbaycan ədəbi fikrində təzahürünün hələ Sovet cəmiyyəti kontekstində baş verməsi Afaq Məsud yeniliyidir" [1].

Beləliklə, feminist ədəbi tənqid müxtəlif yanaşmalarla, nəzəriyyələrlə araşdırılaraq elmi-nəzəri tədqiqata cəlb olunmuşdur. Feminist tədqiqatlar, feminist ədəbi tənqid, feminist mətnlər, qadın ədəbiyyatı, kimi anlayışlar bu tədqiqatın ayrılmaz hissəsinə çevrilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərov, N. Afaq Məsud dünyası – İkinci yazı. [Elektron resurs]: URL: https://afaqmesud.az/az/posts/id:347

2. Ellen Moers. Literary Woman. Elektron resurs: URL: file:///C:/Users/Baku/Downloads/Literary%20Women.pdf

3. Feminist edebiyyat eleştirisi ve feminist eleştiri. [Elektron resurs]: URL: Feminist Edebiyat Eleştirisi ve Feminist Eleştiri (arsivbelge.com)

4. Humm, M., Feminist Edebiyat Eleştirisi, Çev: Gönül Bakay.- İstanbul, Say Yayınları, 2002, 416 s.

5. Kadınlar Dile Düşünce: Edebiyat ve Toplumsal Cinsiyet. [Elektron resurs]: URL: (80) Kadınlar Dile Düşünce: Edebiyat ve Toplumsal Cinsiyet. Ed. Sibel Irzık ve Jale Parla. İstanbul: İletişim Yayınları, 2004. | Sibel Irzik - Academia.edu

6. Millett, Kate . Cinsel Politika. Çev: Seçkin Selvi. İstanbul, Payel Yayınları, 1987, 508 s.

7. Sema Zafer. Tarih içində görünürlüktən, kadınların tarihinə: Amerikan kadın romanında feminist bilinc və politika. [Elektron resurs]: URL: Microsoft Word - SEMA_ZAFER_ SUMER_TEZ.doc (selcuk.edu.tr)
8. Vircinya Vulf. Şəxsi bir otaq. Bakı, TEAS Press Nəşriyyat evi, 2019, 216 s.

HUMANİTAR ELMDƏ ÇAĞDAŞ TENDENSİYA: MİRƏLİ SEYİDOVUN MİFOLOJİ TƏDQİQATLARINA İNTERDİSİPLİNAR YANAŞMA

Mətanət Qüdrət qızı Vahidova
filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
vahidovametanet@gmail.com
https://orcid.org/0009-0006-5594-4529

Bu gün dünyada gedən mədəni proseslər ambivalent xarakterlidir. Belə ki, bir yandan bütün dünya xalqları Yer kürəsini ümumi böyük ev sayaraq dünya insanı kimi müxtəlif mədəniyyətlərin bir arada mövcudluğunu vacib sayır, başqa bir tərəfdən isə hər bir xalq yalnız özünə məxsus olan soy-kök üzərində formalaşan mədəni, ictimai görüşləri təsdiqləməyə çalışır. Eyni proses həmçinin sənətlər arasında da baş verir: müxtəlif elm və sənətlərin bir bütünü, tamı əmələ gətirməsi məsələsi getdikcə daha çox tədqiqatların mövzu və predmetinə çevrilməkdədir.

Son illər multikulturallıq, sənətlərarası əlaqə, mədəniyyətlərarası dialoq və s. kimi fənlər birinin digərindən asılı olduğu və hətta tamamilə bir-birindən ayrı mövcudluğunun mümkünsüzlüyünü təsdiqləyir. Müxtəlif sənətlər arasında əlaqə qurulduqca onların sayəsində formalaşan, yaranan mədəni məkan genişlənir və bu genişlənmə, çoxalma mündəricəyə birbaşa təsir edir. Mirəli Seyidovun araşdırmalarında bu müasir düşüncə və qənaətlərin geniş şəkildə əksini tapdığını izləmək mümkündür. Beləliklə, onun yaradıcılığında interdisiplinar və qismən intermedial diskurs aktuallaşır. Qeyd edək ki, intermediallıq müxtəlif sənət sahələrinin məhz ədəbi müstəvidə estetik bütövləşməsidir; istər elmi, istər bədii əsərlər üçün ən başlıca xüsusiyyəti müxtəlif işarələr sistemi vasitəsilə kodlaşdırılmasıdır. Mirəli Seyidovun tədqiqatlarının ərsəyə gəldiyi dövr üçün ölkəmizdə qloballaşan dünya elminə xas olan "intermediallıq" termini, "interdisiplinarlıq" anlayışları və s. aktual deyildi. Lakin tədqiqatçı mahiyyət etibarilə predmetə bu üsul və metodla yanaşma sərgiləyir. Çünki müxtəlif sənət növlərinin qarşılıqlı əlaqələri tarixən bütün dövrlərdə elm və sənət adamlarının diqqətində olub.

AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi Mirəli Seyidov 40 illik elmi fəaliyyəti ərzində azərbaycanşünaslıqda zəngin irs qoymuş, ədəbiyyatımız və folklorşünaslığımızda mötəbər imzalar sırasında yer almış, milli mənlik şüurumuzun formalaşmasında müstəsna xidmət göstərmiş etimoloq, alim və sözün tarixini araşdırmış fenomenal şəxsiyyətdir. Mifologiyamıza, dilimizin tarixi coğrafiyasına, sözlərimizin qədim mənbələrdə əks olunan izlərinə əsaslanmaqla xalqımızın köklərini araşdıran M.Seyidov xüsusən "Azərbaycan mifik təfəkkürünün qaynaqları" (1983), "Qızıl döyüşçünün taleyi" (1984), "Azərbaycan xalqının soykökünü düşünərkən" (1989), "Yaz bayramı" (1990), "Qam-şaman və onun qaynaqlarına ümumi baxış" (1994), "Böri-qurt" (2006) kitablarında ümumtürk mədəni dəyərlər sistemi kontekstindən çıxış etmişdir. "*Təbii ki, ilkin insanın "həyatı dərk etməsində" onun bir etnik kollektiv kimi özünün özünə münasibəti də əsas yer tutmuşdur. Yəni M.Seyidov belə bir görüşdə olmuşdur ki, mif (mifologiya) ilkin insanın həm də özünə baxışını əks etdirən tarixdir. Alim bu amilə görə soy-kökün öyrənilməsini mifik düşüncənin öyərnilməsi məsələlərindən ayırmamışdır.*" [1, s. 145].

Ötən əsrin 60-ci illərinədək Azərbaycanda mifologiyanın öyrənilməsi ötəri, epizodik xarakter

daşıyırdısa, Mirəli Seyidov öz yaradıcılığı ilə bu sahəyə böyük maraq oyatdı. Onun tədqiqatlarında Azərbaycan türklərinin bəzi mifoloji obrazlarının (Oğuz, öləng, qam, Xızır, Kosa, keçi, varsaq, Qorqud və s.) mədəniyyət tarixində yeri və rolu öyrənilir, daha çox söz və ifadələrin miflər vasitəsilə etimoloji aspektdə izahına yer verilir. 30 illik elmi axtarışlarının, gərgin əməyin məhsulu olan "Azərbaycan xalqının soykökünü düşünərkən" monoqrafiyası istər mifologiyamızın tədqiq tarixində, istərsə də müəllifinin yaradıcılığında olduqca əhəmiyyətli hadisədir. Sovet dönəmində yazılmış bu fundamental əsər elmi dəyərini saxladığından 2018-ci ildə böyük alimin 100 illiyi münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yenidən çap edilmişdir. Kitaba ön söz yazan akademik İsa Həbibbəyli hazırda azərbaycançılığın milli ideologiya səviyyəsində qəbul olunduğu bir dövrdə professor Mirəli Seyidovun monoqrafiyasında elmi həllini tapan ideyaların xüsusi aktuallıq kəsb etdiyini vurğulayır. Qeyd edir ki, azərbaycançılığın yenidən konseptual şəkildə öyrənilməsi prosesində M.Seyidovun bu və digər tədqiqatları həm zəngin elmi mənbə, həm də etibarlı bələdçidir: "*Kitabda mifik qaynaqlarla, ayrı-ayrı söz və ifadələrin incələnməsilə açılan uzaq etnik-tarixi həqiqətlərlə yanaşı, bu mifik düşüncənin və sözün sahibi olan xalqın da keçdiyi yollar, qədim azərbaycanlıların təşkilat, dövlət quruluşu, dünyabaxışı, psixologiyası, bir sözlə, Azərbaycan kosmosunun bütün zənginliyi görünür.*" [2, s. 8] "Azərbaycan xalqının söykökünü düşünərkən" monoqrafiyasında mifik obraz və simvollar sisteminə əsaslanmaqla türk etnogenezisini araşdıran Mirəli Seyidov tarixi hadisə və sənət abidələrinin ümumi qanunauyğunluğunun ümumtürk mədəni-mənəvi dəyərlər sisteminə malik olduğu qənaətni hasil etmiş, çoxlu sayda məkan adlarını bir etnosistem çərçivəsində müqayisə edərək, xüsusiyyətlərini bir araya gətirmiş, ümumtürk mifologiyasının spesifik cəhətlərini üzə çıxarmağa nail olmuşdur.

"*Mifdə simvolizm həyatı birbaşa deyil, yozumlu şəkildə əks etdirdiyinə görə çox zaman kod müxtəlifliyi də meydana gəlir. Mif dünyanı simvollarla canlandırır, ona görə də insan təfəkküründə onun obrazı simvol kimi qalır.*" [4, s. 8] Mifologiya özündə fəlsəfi, psixoloji, tarixi, kulturoloji müddəaları; musiqinin, təsviri sənətin element və xüsusiyyətlərini cəmləşdirməklə interdisiplinarlıq qazanır. Dövriyyəyə ötən əsrin ikinci yarısında daxil olan interdisiplinarlıq (interdisciplinarity) anlayışı ümumi mənada, hər hansı bir problemin müxtəlif elmi aspekt və metodlardan öyrənilməsini nəzərdə tutur. Bununla belə, bir elmi yanaşma, metodologiya, paradiqma kimi, əsrimizin mürəkkəb problemlərinin kompleks həllinə çalışan interdisiplinarlığın məqsəd və mündəricəsi müxtəlif tədqiqatçılar tərəfindən fərqli şəkildə qəbul və izah edilməkdədir.

Müxtəlif strukturlu musiqinin təsiri ilə formalaşan mədəniyyət özlüyündə mənəvi məzmun, obraz və ideyalar, konsepsiyalar və s. daşıyıcısıdır. Başqa sözlə, musiqi vasitəsilə ünsiyyət mürəkkəb struktura malik vahid sistemdir və ümumi yaddaş, zaman məkanında səsli, verbal və vizual imkanlara malikdir. F.Şellinq deyirdi ki, mifologiya hər cür sənət növü üçün ilkin şərt və materialdır. Elə M.Seyidovun bu istiqamətdəki tədqiqatlarını da bu tezisin geniş şəkildə əksi kimi qəbul edə bilərik. Mirəli Seyidov xüsusən "Azərbaycan mifik təfəkkürünün qaynaqları", "Azərbaycan xalqının soykökünü düşünərkən" kimi tədqiqatlarında bir çox adət-ənənə və mərasimlərlə bağlı söhbət açarkən musiqidən də bəhs edir.

Qədim insan üçün dünyanı dərketmə vasitəsi olan mif kult ayinlərin formalaşmasında əsas rol oynayırdı. Mifoloji obrazın emosional-semantik məzmunu musiqi vasitəsilə insanın dünyaya münasibətini ifadə edir. Bu, insanın mənəvi inkişaf prosesində dünyanı dərketmə və əks etdirmənin unikal formasıdır. Ümumiyyətlə, folklorumuzu izləyərkən şahid oluruq ki, musiqi toplumun həyatında əhəmiyyətli rol oynayır. Mirəli Seyidov Bəhaəddin Ögelə istinadla yazır ki, 981-984-cü illərdə uyğurlar çöldə gəzərkən də, uzaq səfərə gedərkən də yanlarından musiqi alətlərini əskik etməyiblər. Ümumiyyətlə, dastanlarımızdan da göründüyü kimi, qədimdə musiqi alətlərinə hörmət elə dərəcədə idi ki, hətta xaqanlar rəsmi qəbullarda yanlarında silahla yanaşı, çalğı alətləri də saxlayırlarmış. Yəni musiqi yalnız əyləncə vasitəsi deyildi, hətta daha çox ayin və ritualların həyata keçirilməsi vasitəsi kimi müqəddəs idi. Məsələn, xeyir-duaların qopuz müşayiəti ilə verilməsi ("Kitabi-Dədə Qorqud" dastanları), düşmənə meydan oxuyanda sazı sinəsinə basıb sözünü musiqi

ilə çatdırmaq ("Koroğlu") və s. Tarixi kontekstdə dünyanın mənzərəsi kollektiv və fərdi düşüncə və obrazların dinamikasını əks etdirir. Dünyanın mənzərəsi etnos üçün xarakterik olan baxışlar sistemini (dil daşıyıcıları, dünyanın etnik, geomədəni mənzərəsi və s.) təcəssüm etdirir. Düşüncə sistemi kimi, mifin xalqın tarixi keçmişi ilə bu günü arasındakı körpü olduğu fikri Mirəli Seyidovun tədqiqatlarının əsas leymotividir. Emosional aləmin obyektiv gerçəkliyini doğuran bütün məsələlər musiqi diskursunda eynən mifoloji diskursun mənalar sistemindəki dərəcədə əks olunur.

Mirəli Seyidov yazır ki, "təbiətin asılılığından qurtarmaq cəhdi" insanı sonralar tədriclə mürəkkəbləşən yeni-yeni ibtidai görüşlərə aparıb çıxarırdı. M.Seyidovun tədqiqatlarında qədim adət-ənənələrimiz və mifoloji təfəkkürümüzdə musiqinin necə geniş yer qapsadığına şahid oluruq. Musiqi, demək olar, həyatın bütün sferalarına təsir edə bilirmiş: sevinc və şadlığını bildirmək üçün də, kədərini, qürurunu ifadə etmək üçün də xalq yalnız sözün gücünə sığınmayıb, həmçinin musiqiyə yer verib. Bunlara nümunə olaraq, həmin çağların dəfnetmə mərasimindən bəhs edən tədqiqatçı bu və digər inamların, mifoloji görüşün, qədim insanın həyata baxışlarının nümayişinə çevrildiyini qeyd edir. Bu mərasimlə bağlı görüşlər, inanclar, onların pantomim-rəqs, rəqs-söz sənəti ilə ifadəsi əski mifologiyanın, eləcə də incəsənətin müxtəlif sahələrinin, xüsusilə rəqs-musiqi sənətinin tarixini öyrənmək baxımından maraqlıdır. Həm də yalnız sənət görüşlərini deyil, əski insanın yaşayış tərzi, adət-ənənəsi ilə bağlı müəyyən təsəvvürə malik olmaq üçün sənətin ibtidai forması olan bu mərasimlər az əhəmiyyət daşımır.

Qeyd edək ki, musiqi kimi, təsviri sənət də özlüyündə multikultural, müxtəlif düşüncə və dəyərə malik insanları birləşdirə bilən fenomendir. Rənglər müxtəlif xalqların mifoloji dünyagörüşündə dərin simvolik anlamlar kəsb edir. Əsasən bir-birinə yaxın və oxşar mənalandırmalara malik olsa da, bu simvolika mədəni, dini, tarixi kontekstlərdən asılı olaraq dəyişə, fərqli şərhləndirilə bilər. Mifologiya ilə bağlı hər bir inamı, hətta ifadəni, sözü araşdırmağı xalqın tarixi, sənəti və təfəkkürünü öyrənməklə əlaqələndirən Mirəli Seyidov rənglərin mifoloji fikirdə yeri ilə bağlı yazır: "*Rənglər, onlara əski insan tərəfindən aid edilmiş anlamlar bəzi əski boyların, qəbilə birləşməsi silsilələrinin, nəhayət, xalqların dünyanı dərk etməsi, dünyanı hiss etməsi ilə az-çox dərəcədə bağlıdır. Biz heç də rənglə kainatı, dünyanı dərk etməyi geniş anlamda almırıq. Rəng və dünyanı dərketmə deyərkən onun yalnız insanı kosmoqonik – kainatın yaranması haqqında təfəkkürü ilə bağlılığını göz qarşısına gətiririk.*" [2, s. 136] Bu məqamda müəllif rənglərin ictimai anlam daşıdığını, xalqın təfəkkürü ilə bağlılığını gözəl duyduğunu qeyd etdiyi Rəsul Rzanın "Rənglər" şeirindən bir bəndi də nümunə gətirir.

Mirəli Seyidov tədqiqatlarında əski türklərin inancında rəng məsələsinə geniş yer verərkən onlarda ağ, göy, sarı (altun, qırmızı) rənglərin mifoloji inamlarla bağlılığını qeyd edir. Məsələn, qırmızını günəşin rəngi olaraq qəbul edərək xoşbəxtlik və əbədiyyətin rəmzi kimi izah edir. "Kitabi-Dədə Qorqud" dastanında Beyrəyə adaxlısından gələn qaftanı nümunə gətirərək oğuzlarda bəyin (oğlanın) geyiminin qırmızı olduğunu bildirir. Həmçinin tədqiqatçı XV-XVI yüzilliklərin Azərbaycan və Orta Asiya miniatürlərinə istinad edərək, döyüşçülərin dəbilqələrində ağ, göy, qırmızı, sarı rəngli kiçik bayraqcıqların olduğunu vurğulayır. Bu bayraqcıqların, ola bilsin, müəyyən əsgəri rütbəni fərqləndirmə əlaməti ilə bərabər, döyüşçünün Günəşə (qırmızı, sarı), Göy tanrısına (göy), ülgenə (ağ) sığındığını bildirdiyi ehtimalını da irəli sürür: qeyd edir ki, xəstəlikdən qurtulmaq, sağalmaq üçün də Ülgenə, Göyə-Günəşə pənah gətirərmişlər. Bu baxımdan kazakların əski bir qəm-şaman ayinini anan tədqiqatçı xəstənin sarı-ağ başlı qoyuna baş əyib ona tapındığın yazır. Həmin qoyunun boynuna göy (və ya ağ) parça bağlayar və onu yeməzlər (yalnız xəstə ölən kimi qoyunu yeyərlər). Mirəli Seyidov bu ayində iki güclü inamın qaynayıb-qarışdığını qeyd edir: "*Xəstənin ağ qoyuna baş əyməsi, sözsüz ki, ağ qoyun onqonuna inamla bağlıdır. Deməli, bu ayini icra edənlərdə ağ qoyun onqonu olmuşdur. Tapınılan qoyunun başının sarı olması da mifoloji baxımdan maraqlıdır. Sarı (qırmızı-oxra) rəngi Günəş tanrısının rəngidir. Xəstə, başı sarı-ağ qoyuna baş əyməklə Günəşə və qəbilə birləşməsinin onqonu bizi maraqlandıran başqa bir mifoloji hadisə də vardır. Xəstənin, başı sarı-ağ qoyunun boynuna göy və ağ parça bağlaması təsadüfi*

deyildir. Ağ-Ülgenin, göy isə - Göy tanrısının rəngidir. Bununla da xəstə hər iki tanrıya sığındığını bildirirmiş." [2, s. 150] Eyni zamanda İsgəndərin ölümünün təsvir edildiyi bir miniatürdə ağlayanların yalnız birində ağ, qalanlarında göy rəngli dəsmal olmasını da rəssamın matəm rənginə vurğu etməsi kimi izah edir. Tədqiqata görə, ağ bayraq asmaq adəti hakimliyin, xaqanlığın, xanlığın əlamətlərindən biri sayılırmış və XX əsrin əvvəllərinə qədər Azərbaycanın bir sıra yerlərində qalırmış.

Nümunələrdən göründüyü kimi, əski inanclarda rənglərin istifadəsi həlledici rol oynayır. Təbii ki, bunların çoxu zamanın sınağından keçib dövrümüzə elə olduğu kimi inteqrasiya etmiş, bəziləri isə aktuallığını itirərək sıradan çıxmışdır. Bu gün də dəyişməyən ağ və qaraya münasibətin əski çağlardan gəldiyi danılmazdır. Mirəli Seyidov yazır ki, əski insan ağı yaxşılığın, qaranı isə şərin əlaməti kimi qəbul etmiş, hərdən isə açıq (ağ) rəngli zərrəciklərdən xeyir başlanğıcının, tünd (qara) rəngli zərrəciklərdən pislik başlanğıcının yarandığına inanmışdır – elə bu təsəvvürə görə də vahidliyin, eyni şeyin parçalanmasından sonra əksliyin meydana çıxdığını qeyd edir. Tədqiqatçı bu məsələ ilə bağlı maraqlı sual qoyur: nə üçün işığın, xeyirxahlığın ifadəçisi olan ağ və göy rəngləri həm də matəm əlaməti sayılıb? Bunun başlıca səbəbini əski xalqların kosmoqonik görüşlərində, kainatın yaranması ilə sıx bağlı olan mifoloji inamlarda axtarmalı olduğumuzu bildirən müəllif əski inanclara görə, mətnlərdə rənglərin işlənmə yeri barədə çoxsaylı nümunələr gətirərək sualına cavab tapır. Ümumiləşdirsək, deyə bilərik ki, "Yerə nemət yollayan, yeri dölləndirən" Göy (səma) müqəddəsdir və onun rəngi də bu müqəddəsliyi rəmzləşdirir; ağ – yaxşılıq tanrısı Ülgenin rəngidir; Qara isə şər işlərin yaradıcısı Erlikin rəngidir. Mifologiyada bu üç rəng üzərinə bina olunmuş üçlü başlanğıc müqəddəs sayılırmış. Həm də matəm rəngi olmaları isə əski insanın təsəvvürünə görə, ölüm aktının həyatın başqa şəkildə davamı demək olduğu ilə bağlıdır: "*Onun ruhu göyə uçurdu və əski insan maddi (quş və başqa şəkildə təsəvvür olunan ruh) şəkildə qəbul etdiyi ruhun hər üç balanğıcın ixtiyarında olduğuna inanırdı. Buna görə də üç başlanğıcın rəngini matəm – yas rəngi kimi də qəbul etmişdir... Deməli, ağ, qara, göy rəngləri əski insanın ibtidai yaradılış, əksliklər və üçlü başlanğıc, həyatı dərketmə təsəvvürləri ilə sıx bağlı olmuş, zaman keçdikcə onlar tədricən ilkin mifoloji və bundan doğan anlamlarını hərdən qismən, hərdən də tamamilə itirmişdir. Bu tarixi-ictimai proses uzun müddət davam etmişdir. Həmin rənglər indi də hərdən lap keçmiş inamın müəyyən çalarını, məzmununu dəyişmiş şəkildə az da olsa qoruyur*." [2, s. 156-157]

Mirəli Seyidovun tədqiqatları həmişə elmi ictimaiyyətin diqqətində olub, haqqında monoqrafiyalar, onlarla məqalələr yazılıb. Araşdırmalarının yalnız müxtəlif elm sahələrinin deyil, həmçinin fərqli sənət sahələrinin də qovuşma nöqtəsi olan alimin əsərlərində interdisiplinar aspektin önə çəkilməsi elmdə müasir tendensiyaların izlənməsi baxımından aktualdır. Nəticə olaraq, izlədiyimiz qədərincə, Mirəli Seyidovda musiqi, təsviri sənət və ənənə; musiqi, təsviri sənət və ədəbiyyat məsələləri qismən intermedial müstəvidə əksini tapsa da, əsasən interdisiplinarlıq səviyyəsində gerçəkləşir. Alimin tədqiqatlarının bu aspektdən incələnməsi mifin yalnız keçmiş deyil, həmçinin bu gün olduğu, möhkəm zəmin üzərində çağdaş dünyagörüş sisteminin inşası və intişarını gün üzünə çıxarır. Bu cür çoxtərəfli yanaşma nəticə olaraq predmetin estetik xüsusiyyətlərinin kompleks formalaşmasını izləməyə imkan verir.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayev E. Azərbaycan mifologiya elmi və Mirəli Seyidov. Bakı: MBM, 2008, 200 s.
2. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Elm və təhsil, 2018, 217 s.
3. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı:, Yazıçı, 1983, 326 s.
4. Vəliyev İ. Mif: keçmişdən gələcəyə. Bakı: Nurlan, 2013, 308 s.

ƏDƏBİYYAT VƏ HƏYAT HƏQİQƏTLƏRİ

Rahilə Mirzəli qızı Məmmədova
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
rahila.mammadova@mdu.edu.az
https://orcid.org/0000-0002-9237-3626

Bəşər övladı olan insan daim axtarışdadır. Dünyanın, təbiətin, Yer kürəsinin gizli sirlərini anlamaqda çətinlik çəkən insan hər zaman həqiqət axtarışındadır. Həqiqət yalnız gözlə görə bildiklərimiz deyildir. Həqiqət ətraf mühitin, canlıların, hadisələrin görülə bilən hissəsidir. Onun görülə bilinməyən hissəsi isə bədii sözün, söz sənətinin, sənətkarın yaradıcı təxəyyülünün vasitəsilə göstərilir. Həyat həqiqətləri söz sənətkarlarının yaradıcı təxəyyülündən, onların düşüncə süzgəcindən emal olunaraq, bədii ədəbiyyatın poema, hekayə, novella, povest, roman, dram, komediya, faciə kimi janrlarında oxuculara təqdim olunur. Həmin bədii əsərlərin özəyi, mayası həyatdan götürülür, onu müəyyən formaya, quruluşa salan isə sənətkarın fikirləri, yaradıcı təxəyyülüdür. Həyata və ədəbiyyatda həqiqət mözusunda danışılanda fransız yazıçısı və ədəbiyyatşünası Jül Renarın bu qeydi yada düşür: "Həqiqət heç də həmişə sənət deyil. Sənət də heç də həmişə həqiqət deyil. Lakin həqiqətdə və sənətdə ümumi cəhətlər var ki, onları axtarıram" [1, s.88].

Mühit, ətraf aləm ədəbiyyatın, incəsənətin əsas meyarıdır. Bitkilər torpaqdan, sudan qidalandığı kimi, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız da həyatı, müşahidə etdiklərini bədii boyalarla incəsənətə gətirməyə çalışır. Hər bir yazıçı, bəstəkar, rəssam müxtəlif üsullarla, fərqli metodlarla bu məqsədə nail olur.

Həyatı olduğu kimi təsvir etmək oxucu, dinləyici üçün mənasız gələ bilər. Elə insanlar var ki, insan gözəlliyindən, təbiət hadisələrindən – suyun şırıltısı, quşların oxumasından zövq almağı bacarır. Sənətin əsas özəlliklərindən biri də gözlə görülə bilinməyəni, dərk edilə bilməyəni oxucuya hiss etdirməkdir. "Əsl ədəbiyyat həyati həqiqətləri əks etdirməklə yanaşı cəmiyyəti, xalqı qabaqcıl ideyalarla silahlandırmalıdır, onun azadlıq mübarizəsinə köməklik etməlidir: həqiqi şair millət və vətən yolunda canlar fəda etmək lazım isə vətən oğullarının ürəyinə yandırıcı od salıb, onları hər qisim fədakarlığa və cannisarlığa şövqmənd etməlidir" [2, s.37].

Belə nəticəyə gəlirik ki, bütün ədəbi əsərlərin əsasını həyat həqiqətləri təşkil etsə də, onu ərsəyə gətirən, müəyyən formaya, quruluşa salan yaradıcı insandan çox şey asılıdır. Öz zəngin düşüncələri, bacarığı ilə həyat həqiqətlərini bədii həqiqət səviyyəsinə qaldıran sənətkarlar xalq arasında daim sevilir və yaşayır.

Həyat olmasa, bədii yaradıcılıqdan danışmaq mənasız olar. Cəmiyyətdə, təbiətdə baş verənləri bütün incəlikləri ilə müşahidə etməyi bacaran və bunu əsərlərində əks etdirən sənətkar oxucular tərəfindən daim maraqla qarşılanır. Məşhur rus yazıçısı Lev Tolstoy yazır ki, sənətkar daim el içində olmalı, hətta, səfərə çıxanda belə ümumi vaqonda getməlidir [1, s.90]. F.Dosteyevski gənc yazıçılara məsləhət verir ki, özünüzdən süjet, fabula uydurmayın, həyat bizim üçün təxəyyülümüzdən qat-qat zəngindir.

Həyatı, həyat hadisələrini dərindən qavrayıb, yüksək yaradıcılıqla onu bədii həqiqət səviyyəsinə qaldırmaq ədəbiyyatın uğurlarından biridir. Həyat həqiqətləri isə yalnız sənətkar yaradıcılığı yolu ilə bədii həqiqətə çevrilir. Fikirlərimizi əsaslandırmaq üçün ədəbiyyatdan nümunələr misal gətirək: Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvan xan qızı olmasına baxmayaraq, həyatından o qədər də razı qalmamışdır. Uşaq yaşlarından xanlığın iflası, uğursuzluqlar, ailədə olan pərişanlıq ona təsir etmişdir. Daha sonra ölkədə başverən siyasi hərc-mərcliyin, ədalətsizliyin şahidi olmuş, dövründən, taleyindən narazılığını öz şeirlərində bildirmişdir:

"Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı!
Nə də bu aləm əra dil müqəyyədi-qəm olaydı!" [3, s.87]

Şəxsi həyatında da uğursuzluqlarla qarşılaşan şairəni oğlunun ölümü lap çox sarsıdır. Övladının vaxtsız ölümü ananın ürəyinə od salmış, bu əzabları öz şeirlərində özünəxas tərzdə ifadə etmişdir. Həyat həqiqətlərini bədii həqiqət səviyyəsində əks etdirmişdir. Şairə oğlunun ölümündən təsirlənərək bu misraları qələmə almışdır:

"Nə hicrü yarə taqətü halım vəfa edər,
Nə vəslə çatmaz əl, edibən dad, ağlaram." [3, s.290]

Həyat hadisələrini necə var elə qələmə almaqla uğur qazanmaq qeyri-mümkündür. Hadisələri sənətkarın necə təqdim etməyindən çox şey asılıdır. Nizami dahi sənətkar Firdovsinin əks etdirdiyi hadisələri yenidən işləyərək bənzəri olmayan sənət əsəri yaratmışdır. Faktlar, hadisələr eynidir, sənətkar baxışı, münasibəti fərqlidir. "İsgəndərnamə" poemasından danışarkən Bertels Firdovsi ilə Nizamini müqayisə edərək bu fikirləri söyləmişdir: "Firdovsi öz qəhrəmanlarının psixolojisi üzərində düşünməmişdir. O, özünə məlum olan əfsanələri vicdanla ifadə etmişdir, lakin bu ifadədə ştamp halına gəlmiş adi sözlərə müraciət etmişdir ki, bu da şairin ziddiyyətlərə düşməsinə səbəb olmuşdur. Nizami öz qəhrəmanının qəlbinə girir, onunla birgə düşünür və ən xırda cizgilərdə belə qəhrəmanın xarakterinin ümumi quruluşuna müvəffəq olur... Firdovsidə sözdən ritorik istifadə başlanğıcları vardır, lakin Nizamidə söz bütün qüdrətiylə parlayır" [1, s.92].

Bu fikirlər həyat həqiqətləri ilə bədii həqiqətin qarşılıqlı əlaqəsini öyrənmək baxımından çox dəyərlidir. Həyatdan götürülən hər hansı faktı, hadisəni, oxucunu düşünməyə vadar edən, onda maraq doğuran bədii həqiqət səviyyəsinə qaldırmaq, hər şairə, yazıçıya qismət olmur.

Bu fikirlərə aydınlıq gətirmək üçün misallar göstərək. "Xosrov və Şirin" poemasında Fərhadın sevgisi üçün Bisitun dağını külünglə çapması, "Yeddi Gözəl poemasında Fitnənin özündən qat-qat ağır öküzü çiyinlərində pilləkənləri qalxması həqiqətə uyğun deyil. Yazıçı öz düşüncələrini, fikirlərini çatdırmaq üçün, var olmayan hadisəni bədii həqiqət kimi təsvir etmişdir.

Klassik ədəbiyyatın görkəmli nümayədəsi M.Füzulinin yazdığı əsərlərə diqqət yetirikdə görürük ki, həyatda olan və olmayan hadisələri özünəməxsus tərzdə işləyərək, yeni həyat vermiş, əsrarəngiz sənət əsərləri yaratmışdır. Misal üçün, Leyli və Məcnun mövzusuna bir çox sənətkarlar müraciət etmişlər. M.Füzuli də Leyli və Məcnun mövzusuna toxunmuş hadisələrə öz gözü ilə baxmış, özünəxas şəkildə təkrarı olmayan əsər yaratmışdır. Sənətkarın öz düşüncəsi, yaradıcılıq təxəyyülü, hadisələrə münasibəti yeni bədii həqiqətlərin yaranmasına gətirib çıxarmışdır. Əsərdə Məcnunun anadan olanda ağlamsı həyat həqiqətidir. Bu normal hadisədir. Füzuli isə həmin həyat həqiqətinə özünəxas çəkildə don geyindirərək bədii həqiqət səviyyəsində əks etdirmişdir:

"Ol dəm ki, bu xakidanə düşdü,
Halını bilib fəğanə düşdü." [4, s.108]

Ədəbiyyat elə bir sehrli dünyadır ki, orada körpə uşaq dil açıb danışa bilir, heyvanlar insan dilini başa düşür, həyatda olmayan hadisəni ədəbiyyatda görmək mümkündür. Ədəbiyyatın bu xüsusiyyətləri bədii yaradıcılıq məhsulu, sənətkar təxəyyülü sayəsində baş verir.

Bədii əsərlərin də əsas əlaməti sənətkar niyyətini, məramını bədii həqiqət yolu ilə dinləyiciyə çatdırmaqdır. Ədəbiyyatımızın qüdrətli söz sənətkarları həyati faktları, həqiqətləri bədii sözün bütün imkanlarından, bədii təsvir və ifadə vasitələrindən, sənətkarlıq xüsusiyyətlərindən istifadə etməklə bədii həqiqət səviyyəsinə qaldırırlar.

Hər şair, yazıçı hadisələrə müxtəlif şəkildə yanaşır və qiymət verir. Sənətkarın öz fərdi üslubundan asılı olaraq bədii həqiqətlər yaranır. Misal üçün, insanın qocaldıqca saçının ağarması həyat həqiqətidir. Hər bir şair bu həqiqəti öz üslubuna uyğun şərh edir. Bəxtiyar Vahabzadənin "qara saçlarımı mənə təbiət verib, ağ saçlarımı özüm qazanmışam" fikrini Fikrət Qoca belə qiymətləndirir:

"Başıma gəlib
yağdıqca yağışlar,
yuyulub ağarıb
qara saçlar, qara qaşlar..." [5, s.98]

Sənətkarın bir-birindən gözəl sənət əsərləri yaratmasında həyatın mühitin rolu böyükdür. Həyat insanı düşünməyə, yaradıcılığa həvəsləndirir. Ədəbi prosesin yaranmasında mühitin rolu əvəzedilməzdir. Mühit insanın formalaşmasında, dünyagörüşünün genişlənməsində, psixologiyasında böyük əhəmiyyətə malikdir.

Dünyada ad-san qazanmış sənətkarlar ilk öncə öz yaşadıqları dövrün nümayəndəsi olmuş, gördüklərini, yaşadıqlarını yaradıcılıqlarında əks etdirmişlər.

İstifadə edilmiş ədəbiyyat

1. Aslanov Y. Ədəbiyyatın tədrisi: Ənənə və müasirlik. Bakı: ADPU, 2011, 420 s.
2. Jul Renar. Gündəlik. Bakı, 1974, 44 s.
3. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar. Bakı, 2009, 200 s.
4. Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı: Maarif, 1992, 202 s.
5. Yusifoğlu R. Bədii əsərin strukturu anlayışının mahiyyəti. Azərbaycan dili və ədəbiyyatın tədrisi, № 4, 33 s.

BƏDİİ MƏTNİN ANTROPOLOJİ METODLA TƏDQİQİ VƏ SÜNİ İNTELLEKT

Şəhanə Urfan qızı Əliyeva
filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
shahane89@gmail.com
https://orcid.org/0000-0002-3592-1579

Bədii mətnə yanaşmaların müxtəlifliyi insanın dünyanı müxtəlif cür şərhindən irəli gəlir. Hələ ibtidai mərhələdən başlayaraq ən son elmi-texnoloji inqilablara qədər uzanan yolda fərdin və cəmiyyətin şüurunda, yaşayış tərzində, vizual görünüşündə baş verən dəyişikliklər öz əksini müxtəlif tipli yazılı mətnlərdə tapıb. Mədəni inkişafın əsas göstəricilərindən olan yazılı mətn ortaya qoymaq, artıq cəmiyyətin mədəni kanonlar vasitəsilə düşünmək cəmiyyətin hadisə və prosesləri özünəməxsus şəkildə qavraması və paylaşmaq, gələcək nəsillərə ötürmək ehtiyacının yaranmasının sübutu idi.

Günümüzdə mədəni faktların, o cümlədən bədii mətnlərin insan təxəyyülünün nəticəsi olmaqla yanaşı, özündə sıxılmış informasiya saxlayan bir sistem kimi tədqiqi geniş yayılmışdır. Bədii mətnin antropoloji tədqiqi də məhz belə bir ehtiyacdan – insan şüurunun və təxəyyülünün məhsulu olan bədii mətnin informativ yükünü – böyük mənada bəşəriyyətin keçdiyi mərhələlərin poetik təhkiyəsinin arxasında duran real prosesləri və impulsiv təkanları öyrənmək ehtiyacından yaranmışdı. Bədii mətnin antropoloji tədqiq metodu vasitəsilə təhlili tarixi, sosial, psixoloji, mədəni aspektləri nəzərdə saxlayaraq tədqiqat predmetindən asılı olaraq bir və ya bir neçə aspekti kompleks şəkildə tətbiq edə bilər.

Antropoloji tədqiq metodu da digər tədqiq metodları kimi mövcud məlumat bazaları əsasında işləyir: bir cəmiyyətin, millətin xalqın etnoqrafik xüsusiyyətləri, keçdiyi tarixi yol və bu zaman cəmiyyətin şüurunda gedən proseslər ilkin məlumat bazası rolunda çıxış edir.

Qeyd etdiyimiz kimi, insan daim ona məlum informasiyanı (o cümlədən şüuraltı informasiyanı) təkmilləşdirir və dövrünün qazanılmış təcrübə və yeni bilikləri ilə zənginləşdirir. Ən son texnoloji nailiyyətlərdən sayılan süni intellektin (bundan sonra Sİ) mahiyyəti və onun elmin müxtəlif sahələrinə tətbiqi günümüzün ən aktual məsələlərindəndir. Sİ-nin tətbiqi təkcə texniki elm sahələrini yox, humanitar düşüncədə gedən prosesləri, ictimai, sosial, mədəni həyatı da əhatə edir. Antropologiya elmi də, təbii ki, bu prosesdən kənara qala bilməzdi: axı Sİ-nin daha çox təsir sahəsi

məhz sosial varlıq olan insanı əhatə edir. Müasir antropologiya elmi də nə qədər etnik, daha çox keçmişə dair məlumatlara söykənsə də, müasir informasiya inqilabını nəzərə alsaq əminliklə demək olar ki, bu elmin gələcəyi birbaşa Sİ ilə bağlı olacaq.

Süni intellekt mövcud informasiya bazasına əsaslanaraq, açar sözlərin köməyilə daha genişmiqyaslı axtarışlar apararaq müəyyən qanunauyğunluqların müəyyənləşməsi və qruplaşdırılmasında mühüm rol oynayır. Bu baxımdan mətnlərin antropoloji tədqiqində Sİ-dən istifadə işi asanlaşdırmağa, vaxtdan səmərəli istifadə etməyə yardımçı olur. Sİ-dən istifadə iki istiqamətdə fokuslana bilər:

1. bədii mətnlərin;
2. ədəbiyyatşünaslığa dair tədqiqatların təhlilində.

Artıq yeni bir eraya qədəm qoyduğumuz məlumdur: sərhədsiz informasiya axını, texnogen inqilablar, insan faktorunun sıxışdırılaraq robotlaşdırılması, bir düymədən asılılıq təbii surətdə mövcud olan və ya insanın fiziki və şüurlu fəaliyyətinin nəticəsində meydana çıxan nəsnələrin elektron variantlarının meydana gəlməsi ilə nəticələndi. Bu inqilab təkcə informasiya inqilabı yox, həm də mədəni inqilab oldu: bədii yaradıcılığın klassik anlamda qavradığımız mahiyyəti dəyişərək alternativ yaradıcılıq üsulları meydana gəldi. "...bu gün çox danışmaq, informasiya ötürmək, təsvir və təqdim etmək nəsr narrativlərinin gündəmdə qalmasını artıq təmin edə bilmir. Bunları artıq süni intellekt də edə bilir" [1] fikri də Sİ-nin çevik informasiyaötürmə qabiliyyətinin klassik təhkiyəni sıxışdırdığını təsdiqləyir. Demək olar ki, əksər koqnitiv funksiyaların Sİ tərəfindən yerinə yetirilməsi onu hesabat xarakterli, sırf informasiyayönümlü mətnlər müəllifi olması ilə yanaşı yaradıcı təfəkkürün də istehsalçısına çevirdi. Bədii yardıcılığın yeganə istehsalçısı kimi qəbul edilən müəllif öz yerini proqramlaşdırılmış maşına vermiş, beləliklə ədəbiyyatşünaslığın, o cümlədən antropoloji təhlil metodunun ən mühüm halqalarından olan müəllifin mövqeyini sual altında qoymuşdur. Bu səbəbdən Sİ və müəlliflik haqları, Sİ-nin yaradıcı zəkaya alternativliyi ən yeni ədəbiyyatşünaslığı məşğul edən məsələlərdəndir.

Necə adlandırılmasından – "intellekt gücləndiricisi", "məsələlərin kollektiv həlli sistemi" (hər iki termin Vannevar Buşa məxsusdur), "süni intellekt" (Con Makkarti) – asılı olmayaraq alternativ zəka anlayışı dünyada yeni düşüncə tərzini formalaşdırdı. Yuval Noy Harari gələcəkdə Sİ-nin insanı tamamilə əvəzləyəcəyi müddəaları ilə çıxış edəndə [3] cəmiyyətdə kifayət qədər şübhə ilə qarşılanmışdı. Amma günümüzün reallığına baxanda Sİ-nin təkcə maddi yox, mənəvi istehlak vasitələrini də ələ keçirdiyinin şahidi oluruq. Kitab satışı səhifələrində tamamilə Sİ tərəfindən yazılmış kitabların maraq doğurması və kütləvi şəkildə satışı, kitab resenziyalarının tamamilə xüsusi proqramla hazırlanması bu sahədə yeni tendensiyalara gətirib çıxarıb.

Sİ-nin "əlinin altında olan" baza sərhədsiz hipermətn əsasında təşkil olunub. Bu da Sİ-nin insan təxəyyülünə nisbətdə intertekstual əlaqələr qurma qabiliyyətinin yüksək olmasından qaynaqlanır. Müəllif tərəfindən yaradılan intertekstuallıq bədii mətnin xüsusiyyətlərindən biri kimi çıxış edərək müəllif üslubuna çevrilə bilir. Sİ-nin isə intertekstuallıqdan başqa yolu yoxdur. Bu baxımdan fərdi üslub yaratma, orijinallıq və eksperimentallıqdan məhrum Sİ mətnləri şablonlar çərçivəsindədir.

Sİ-nin iş prinsipi mümkün məlumat bazaları, sonsuz sayda informasiyanın toplanıb qorunduğu data mərkəzlər əsasında qurulduğundan struktur baxımından daha çox eyni və ya oxşar mətnlər istehsal edir. Bu da hər hansı etnik-psixoloji detal və motivin işlənmə ehtimalını azaldır. Həmçinin, mövcud məlumat bazası əsasında verilmiş situasiyalara uyğun süjet quran Sİ hazır sxemlər üzərində işlədiyindən finalların təkrarı qaçılmazdır. Bütün bu çatışmazlıqların aradan qaldırılacağı, daha təkmil mətn istehsal edən proqramların meydana çıxacağı da istisna deyil. Amma bu mətn istehsalı proqramları bədii düşüncə tarixini, daha geniş yanaşsaq humanitar fikri zənginləşdirəcəkmi? Real müəllifin robot müəllifə çevrilməsi, yaradıcı insan faktorunun aradan qalxması və nəticədə heç bir tarixi-mədəni yaddaşa söykənməyən mətnlərin istehsalı onsuz da günümüzdə bol olan informasiyanın yükünü daha da artırmağa gətirib çıxarır. Hələ 1945-ci ildə

"Biz necə düşünə bilirik" məqaləsində görkəmli Amerika alimi Vannevar Buş "bəşəriyyətin təcrübələr məcmusunun ağlagəlməz sürətlə artdığı və bu mənbələrdən fayda götürmək qabiliyyə-timizin sərhədlərini ötüb keçdiyini" qeyd edirdi" [2].

Mümkündür ki, Sİ mütəxəssisləri mütləq nəticəyə çatmaqdan ötrü həqiqətən heyrətamiz bədii mətn kodlaşdıra, orijinaldan seçilməyən nüsxə ortaya qoya bildilər. Amma bu addım nəyi sübut edəcək? İnsan təxəyyülünün mənasızlığını, ali şüurlu varlıq kimi insana xas təsəvvür və təxəyyül bacarıqlarının bir düymə ilə əvəz olunmasınımı? Əgər müəllif kimliyi, milli mənsubiyyət, irqi, dini faktorlar məlum olmayacaqsa, hansı mədəni faktdan söhbət gedə bilər? Artıq burda mətnin antropoloji tədqiq üsulu öz əhəmiyyətini itirir: yerinə yalnız sxemlər, bədii yaradıcılığın məhdud çərçivədə mövcudolma faktı gəlir. Mümkündür ki, Sİ tərəfindən yazılmış mətnlərdə mükəmməl cümlə quruluşları, obraz və hadisələrin qarşılıqlı şəkildə vəhdəti, mövcud üslubları yamsılamaq bacarığı aldadıcı təsir bağışlasın. Amma burada fərdi üslub hadisəsindən söz açmaq mümkün deyil: Sİ mövcud üslublara parodiya yolunu seçərək fərdiliyin, orijinallığın üzərindən xətt çəkir. Təbii ki, digər mətnlərdən təsirlənmədən, qarşılıqlı münasibətdə olmadan heç bir mədəni fakt üzə çıxa bilməz. Amma bu təsirlənmənin belə özünəməxsus mədəni-tarixi, psixoloji əsasları olur. Sİ-nin təsirə məruz qalması isə təkrarlanan kodlar tezliyinə müraciətdən başqa bir şey deyil və düşünürük ki, bu səbəbdən Sİ tərəfindən istehsal olunan mətnləri ənənəvi ədəbiyyata alternativ kimi götürmək lazım deyil.

Müasir dünyanın yeni quruluşunun əsas meyarlarından olan qloballaşma, mədəniyyətlərarası yaxınlaşma və inteqrasiya surroqat mədəniyyətlərin meydana çıxmasını şərtləndirdi. Sİ-nin məhz belə bir dönəmdə geniş yayılması da müvafiq olaraq surroqat ədəbiyyatın yaranmasına gətirib çıxartdı. Bu mətnlər "Sİ yeni xarakter yarada bilərmi?", "Sİ-də müəlliflik hüququ varmı?" kimi sualları aktuallaşdırır. Antropoloji təhlilin əsas məsələlərindən olan müəllif kimliyi Sİ mətnlərinin sayəsində sıradan çıxır. İnsanmərkəzçi bir "məkan" olan bu "qurama bədii mətnlər" Rolan Bartın "müəllifin ölümü" konsepsiyasının əyani nümunəsinə çevrilir.

Sİ ilə istehsal olunan mətnlər iki səviyyədə qurulur:

1. Cümlə quruluşunun qrammatik cəhətdən düzgünlüyünə nəzarət edən sintaktik səviyyə.
2. Cümlənin mənası, daşıdığı məna yükünə cavabdeh olan semantik səviyyə.

Proqram təminatı cümlənin qrammatik qaydalara uyğunluğunu mövcud lüğət bazası və qrammatika normativləri əsasında müyyənləşdirə bilər. Ancaq frazeoloji birləşmələrin istifadəsi, bədii mətnin əsas göstəricilərindən olan poetik detallar, bədii təsvir və ifadə vasitələrindən istifadə Sİ-nin zəif cəhətlərindəndir. Həmçinin, Sİ nəsr və poeziya sahəsində kifayət qədər hazırlıqlı görünsə də dramaturgiya barəsində bunu demək olmur. Dram əsərinin daha çox dialoqlar üzərində qurulduğunu nəzərə alsaq, Sİ-nin remarkalardan və kulisarxası səsdən daha çox istifadə etməsi mətnin çoxsəsliliyinin (hərfi mənada) təmin olunmamasına gətirib çıxarır.

Hal-hazırda müəyyən kitab haqqında ədəbi resenziya yazan Reseach Rabbit, Semantic Scholar, Rayyan, Iris.ai, SciSpace, tədqiqatçılar üçün IBM Watson, Google Scholar, Elicit, Consensus, ReadCube Paper kimi proqramların meydana çıxması müəyyən mətn haqqında ətraflı məlumat hazırlamaq qabiliyyətinə malikdir. Faktdır ki, Sİ akademik yazı qaydalarının təşkilini mükəmməl surətdə həyata keçirir: xüsusilə tədqiqatın strukturu baxımından hətta real tədqiqatçının nəzərindən qaçan məqamları diqqətlə işləyir, verilənlərdən çıxış edərək müəyyən elmi nəticəyə gəlir. Lakin internet məkanında düzgün, etibarlı mənbələrlə yanaşı çox sayda etibarsız, yanlış informasiyalar da mövcuddur. Bu baxımdan Sİ tərəfindən yazılan resenziyaların hansı datalara müraciət edəcəyi etibarlı-etibarsız mənbələr arasında seçimi kifayət qədər mübahisəlidir. Daha bir məsələ Sİ tərəfindən istehsal olunan mətnlərin plagiyatlıqda istifadə olunması faktı ilə bağlıdır. Çünki Sİ orijinal elmi-tədqiqat işi yaratmır, mövcud tədqiqatlardan ortaq nəticələri ümumiləşdirərək təqdim edir. Sİ birbaşa internet məkanında mövcud datalara – informasiya yuvacıqlarına istinad etdiyinə görə ən müxtəlif dillərdə ədəbiyyatımıza dair fundamental araşdırmaların elektron variantlarının internetdə yerləşdirilməsinə böyük ehtiyac var. Məsələn, əgər azərbaycandilli internet

məkanında Nizami Gəncəvinin Azərbaycan şairi olduğu qeyd olunmasına rəğmən ingilisdilli və rusdilli mənbələr fars ədəbiyyatı nümayəndəsi kimi təqdim edir ki, bu da Sİ-nin yanlış mənbələrə müraciətinə gətirib çıxarır.

Göründüyü kimi, istər bədii mətnin yaranması, istərsə də təhlili metodları alternativ zəka sayəsində yeni bir mərhələyə qədəm qoyur. Bu gün Si-nin hətta humanitar elmlərə də tətbiqi texniki və humanitar elmlərin sərhədində yerləşən Rəqəmsal humanitar elmlər (Digital humanities) kimi yeni sahələrin yaranmasını labüd edir.

İstifadə edilmiş ədəbiyyat

1. Yaqubova Maral. Texnologiya çağı, şifahi mədəniyyət və bizim nəsr. [Elektron resurs] : https://edebiyyatqazeti.az/news/edebi-tenqid/10553-texnologiya-cagi-sifahi-medeniyyet-ve-bizim-nesr

2. Bush Vannevar. As we may think [Electronic resource] https://web.mit.edu/STS.035/www/PDFs/think.pdf

3. Harrari Yuval Noah. Homo Deus: A Brief History of Tomorrow [Electronic resource] https://readandlaugh.files.wordpress.com/2018/04/homo_deus_a_brief_history_of_tomorrow_pdf.pdf

ƏXİ EVRƏN YOXSA MOLLA NƏSRƏDDİN?

Pərvin Ağabala qızı Hüseynova
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
parvin.huseynova@mdu.edu.az
https://orcid.org/0000-0002-0599-7247

XIII əsrdə Abbasi xəlifəsi Nasir Li-dinillah tərəfindən yaradılan təsəvvüfdə yeni bir təriqət olan Fütüvvətin əsas prinsipi Allahın əmrlərinə, Peyğəmbərin sünnətinə görə yaşamaq, başqalarını sevmək, dünya malına önəm verməmək, təvazökar və xoşgörü sahibi olmaq idi. Xəlifə Fütüvvətin yayılması və təbliği üçün qüdrətli şəxsləri dövlətin müxtəlif bölgələrinə göndərirdi. Bu şəxslərdən biri də görkəmli təsəvvüf şeyxi Əvhədəddin Kirmani idi. Xəlifə onu Azərbaycana və Anadoluya göndərmişdir. O türkmən olduğu üçün türkmənlər və türklər tərəfindən qəbul edilmiş, sevilmişdi.

Ə.Kirmani ilə Anadoluya gələn ən yaxın müridi və kürəkəni Əxi Evrən və ya digər adı ilə Molla Nəsrəddin Anadoluda Türk Fütüvvətini - Əxiliyi yaratdı. Əxiliyin təməlində dayanan Fütüvvətə bir sıra türk adət-ənənələri də əlavə edilmişdi ki, bu da türkmənlər, türklər kimi igid, ərən xalqların tezliklə təşkilatlanmasına səbəb oldu. Əxi sözünün ərəbcədə qardaş mənasında işlədilən "ahi" sözündən yarandığı deyilsə də sözün əsas kökünün "Divani lüğət-it türk" başda olmaqla bir çox türk mənbələrində əliaçıq,mərd, igid mənalarında işlədilən "akı" sözündən olduğu açıq aşkar bilinir. Türk Fütüvvətinin, əxiliyin əsas şərtlərinin səxavətli, əliaçıq,igid, mərdlik olduğunu düşünsək "akı" sözündən gəldiyi öz təsdiqini tapmış olur. Əxi ifadəsinin daha geniş yayılmasının səbəbi dlçilərin fikrinə görə, bölgənin dil xüsusiyyətlərini qəbul edərək, dəyişikliyə uğrayaraq, diləyatımlı 1 halda işlədilməsidir.

Türk əxiliyi digər təriqət və axınlardan fərqlənirdi. Əxilik prinsiplərinə görə hər kəs təşkilata qəbul edilə bilməzdi. [1] Əxilər mütləq bir sənət, peşə sahibi olmalı və yaxşı işlər görməli idilər. Əxilikdə ədalətli olmaq, bərabərlik vacib şərtlərdən idi. Həyatlarının müxtəlif mərhələlərində dərslər alan əxilər fütüvvət yolunu tutub ədəb-ərkan sahibi olurdular.

Əxilik XIV əsrə qədər olduqca güclü və rəğbət görən təşkilat idi. Osmanlı dövlətinin qurulmasında əxilərin rolu danılmazdı. Bir çox Osmanlı sultanı və şahzadələri əxi olmuşdular.

Əxilik təşkilatının qurucusu Əxi Evrən və ya digər adı ilə Molla Nəsrəddinin əsl adı Şeyx Mahmud Nəsirəddin Xoyi "Əbül-Həqaiq" idi. O, Cənubi Azərbaycanın Xoy şəhərində anadan olmuş, uşaqlıq illərini və ilk təhsilini burada almışdır. Daha sonra təhsili üçün səyahətlərə çıxmış, Xorasan və Orta Asiya sufilərinin müridi olmuş, Fəxrəddin Razi, Əhməd Yəsəvinin tələbələri və Əvhədəddin Kirmanidən dərs almış, İslamın sirlərinə, dərinliklərinə yiyələnmişdir. Molla Nəsrəddinin dünyagörüşünün formalaşmasında həmmüasirlərinin də rolu danılmazdır. Sədrəddin Konevi ilə məktubları günümüzə qədər gəlib çatmışdır. Əxiliyin təbliğinə, monqol əleyhinə çıxışlarına görə həmişə təqiblərə məruz qalmış və 93 yaşında öldürülmüşdür.

Öldürülənə qədər Haqq yolundan dönməyən Əxi Evrən elmli olması ilə yanaşı güclü sənətkar da olmuşdur. Dabbaqçılıqla yəni dəriçiliklə məşğul olan Əxi Evrəni "Dabbaqçıların piri" adlandırırdılar. İslamda bir çox sahələrin qoruyucusu,hamisi olduğuna inanılır. Məsələn, "Tacirlərin piri" Məhəmməd peyğəmbər, "Çobanların piri"nin isə Musa peyğəmbər olduğuna inanılırdı. 32 sahədən tacir və sənətkarların bir yerə toplandığı Əxilik təşkilatının əsas prinsiplərindən biri təşkilata- ocağa daxil olmaq istəyənlərin mütləq bir peşəsi olması idi. Əxi Evrən deyirdi ki, insanlara, insanlığa xidmət üçün hər kəsin halal qazancı olması üçün mütləq bir peşəsi olmalıdır. Çünki halal qazanc insanın zəhmətinin qarşılığı nəticəsində olur.

"Haqq ilə səbir diləyib
Bizə gələn bizdəndir.
Ağıl-əxlaq ilə çalışıb
Bizi keçən bizdəndir." (Əxi Evrən) [5]

Mənbələrdə Əxi Evrənin filosof, təriqət şeyxi, qazi, dabbaq olması ilə yanaşı həkim olduğu da qeyd olunub. Evində emalatxana olduğu və burada kimyəvi qarışıqlar, dərmanlar hazırladığı məlumdur. Hətta adındakı "Evrən" sözünün mənası "ilan", "böyük ilan", "əjdaha" deməkdir. İnsanlar onun ilanlarla danışdığına, özünə tabe etdiyinə inanmışlar. Bu da emalatxanasında çoxlu ilan saxlayıb onların zəhərindən dərman hazırlayarkən isitfadə etməsi ilə əlaqədardır.

Professor Mikail Bayram azərbaycanlı mütəfəkkirin 20-dən çox əsərinin olduğunu müəyyənləşdirib. Onun araşdırmalarının nəticəsində Əxi Evrənin Molla Nəsrəddin ilə eyni adam olduğu öz təsdiqini tapmışdır. "Lətaiful-Hikmət" və "Lətaiful-Qiyasiyyə" adlı əsərlərinin hər iki şəxsə aid edilməsi, bir çox mənbələrdə onların eyni şəxs olduğunun [2] qeyd edilməsi professorun tədqiqatının nəticəsidir. Hekayələrdə verilmiş kəlamların, hikmətli sözlərin bir-birinə həm oxşarlığı və təkrarı müəllifin eyni adam olduğunu göstərir. Əxi Evrən fəlsəfi görüşlərini xaqlın başa düşəcəyi formada sadələşdirmiş, güldürərək düşündürməyə sövq etmək üçün lətifələr (hekayələr) kimi təqdim etmişdir.

Əxi Evrən "Mətaliul-iman", "Mənahüci səyfi", "Tabsirətül-mübtədi və Təzkirətül-münhəci", "Yəzdani-şenaxt", "Mürşidil-kifayə", "Ağazu -əncam", "Mədhi-fəqr və Zəmmi-dünya", "Risaleyi-ərz", "Cihadnamə", "Lətaif-i Hikmət", "Mürşidül-Kifayə", "Tercümeyi Əlvahi-İmadi", "ət-Təvəccühül-Ətəmm" , "Məktubatı- Beyne Sədrəddin Konevi [2] və s. əsərlərin müəllifidir. Əsərlərində Əxi Evrənin müxtəlif peşə və sənət sahələrinə, peşə əxlaqına, insan anatomiyasına, həkimliyə aid tibbi, İslamın əsasları, dini-fəlsəfi görüşləri, dövlətin idarə edilməsinə dair məsləhətləri öz əksini tapmışdır.

Əxiliyin təməl prinsiplərini özündə əks etdirən çoxsaylı əsərlərin müəllifi Əxi Evrən mənbələrdə "Danişməndani-Rum" ("Rum-Anadolu bilgəsi,müdriki") olaraq xatırlanır. Bilikli, elmli, ensiklopedik şəxsiyyət olduğuna görə sultanların danişməndanı , müxtəlif dövrlərdə isə vəziri olmuşdur."Lətaifi-Qiyasiyyə" və "Lətaifi- Hikmət" adlı irihəcmli əsərlərini Anadolu Səlcuqlu sultanı II Qiyasəddin Keyxosrova ithafən yazan müəllifin burada dövlətin idarə olunmasına dair sultana müxtəlif məsləhətləri öz əksini tapmışdır.

"Yəzdani-şenaxt", "Mürşidil-kifayə" adlı fəlsəfi əsərlərini Sultan Əlaəddin Keyqubada təqdim etmişdir. Həmçinin sultanın tələbi ilə İbn Sinanın "Nefsün-Nâtıka" əsərini də tərcümə etmişdir.

Əxi Evrənin tibbə- anatomiyaya aid "İlmüt-Təşrih" adlı kitabının olduğu mənbələrdə qeyd olunmuşdur. "Cəvahirnamə" əsərində qiymətli daşların müxtəlif xəstəliklərin müalicəsində faydalarından və istifadəsindən danışılır. "Tabsirətül-mübtədi və Təzkirətül-münhəci", "Kitabül-əfai" adlı əsərlərində zəhərli ilanlardan panzəhər hazırlamağa dair məlumatlar yazılmışdır.

Əxi Evrən yəni Molla Nəsrəddin və Mövlanə Cəlaləddin Rumi münasibətlərindəki münaqişənin başlanğıcı bir az fərqlidir. Əxi Evrənin müəllimi Fəxrəddin Razi ilə Mövlanənin atası Bahəddin Vələd arasında başlayan mübahisələr, sonradan Molla Nəsrəddinin (Əxi Evrən) həm müəllimi, həm də qayınatası Əvhəddədin Kirmani ilə Şəms Təbrizi arasındakı toqquşmalar da əlavə olununca Mövlanə və Əxi Evrən arasındakı gərginliyi daha da dərinləşdirmişdir. Şəms Təbrizinin öldürülməsindən sonra daha da alovlanan, açıq düşmənçiliyə çevrilmişdir. Bunu bir çox mənbələrlə yanaşı Mövlanənin öz "Məsnəvi"sində də görə bilirik .

Əxi Evrən haqqında "Xacə", "Cüha", "İlan (Mar), "Əjdəha", "dabbi" (dabbaq) [3] kimi təhqiramiz ifadələr işlədən Mövlanə Monqolların Anadoluya yürüşünü də fürsətə çevirmiş çox sayda əxini və Əxi Evrəni öldürtmüşdür.

Monqol orduları Anadoluya hücum edib dəhşətli qırğınlar törədən zaman Əxi Evrən başçılığı ilə əxilər şəhərin mühafizəsinə çalışmışdılar. Mənbələrdə Mövlanə və müridlərinin monqollara şəhərlərin işğalı üçün kömək etdikləri qeyd olunur. Əxilərin, türklərin monqollara qarşı çoxsaylı toqquşmalarından birində Əxi Əvrənlə yanaşı Mövlanənin oğlu Əxi Əlaəddin Çələbi və minlərlə əxi Mövlanənin monqol əsilli müridi Nurəddin Caca tərəfindən şəhid edilir. Öldürülməsinə baxmayaraq Əxi Evrənin ideayaları yaşadılmış və özündən sonrakı yüzilliklərə işıq tutmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Bayat F. Türk Təkkə ədəbiyyatı. Bakı. 2011
2. Bayram M. Ahi Evren ve Ahi teşkilatının kuruluşu. Konya. 1991
3. Bayram M. Ahi Evren-Mevlana Mücadelesi. Konya. 2012
4. Nəsirov E. Orta əsrlərdə yaşamış Azərbaycanlı alimlər (fəqihlər, müfəssirlər, mühəddislər, mütəkəllimlər, ravilər, qarilər...). Bakı 2011
5. https://www.ahilik.net/ahi-evran/

DİJİTALLEŞME KAPSAMINDA SANAL MÜZELER İLE İLGİLİ BİR DEĞERLENDİRME

Asena Kurt Dündar
Arş. Gör.
Ondokuz Mayıs Üniversitesi, Türkiye
asena.kurt@omu.edu.tr
https://orcid.org/0000-0002-8337-6155

Giriş

Teknolojik ilerlemelerin etkisiyle kültür endüstrisinin bir sonucu olarak müzecilikte de değişimler yaşanmıştır. Sanal müze veya e-müze, 1990'lı yılların başlarından itibaren teknolojinin gelişimiyle birlikte, müzelerin kullanıcılarla iletişimini farklı araçlarla zenginleştiren bir kavram olarak ortaya çıkmıştır. Sanal müzeler, uluslararası düzeyde mekân ve zaman kısıtlamalarını aşarak sınırsız bilgiye erişim sağlayan alanlara dönüşmektedir (Zülfikar ve Ediz, 2020:84). Müzecilik anlayışının değişimi ve internet uygulamalarının müzecilikte kullanılmasıyla ortaya çıkan sanal

müzeler, özellikle turizm sektöründe tanıtımı açısından rol oynayan önemli araçlardan biri olarak kabul edilmektedir. Turizm sektörünün gelişimi, modern teknolojinin etkili bir şekilde kullanılmasına bağlıdır (Al-Makhadmah, 2020: 273). Bununla birlikte, sanal müze ve turların popülerliğini arttıran temel etken, toplumların karşılaştığı salgın, kriz gibi olaylardır (Barlas Bozkuş, 2014; Okumuş, 2021). Örneğin Covid-19 salgını sonrasında tüm dünyada sanal müzeler etkili olmuş ve yüz yüze gerçekleştirilen rehberlik uygulamaları da sanal turlar aracılığıyla gerçekleştirilmeye başlamıştır (Ortaç, 2021). Türkiye'de sanal müze ziyaretleri ile istatistiklere bakıldığında Kültür ve Turizm Bakanı Mehmet Nuri Ersoy, Mart 2020'de hizmete sunulan sanal müzelerin 2021'de 11,6 milyon kez, 2022'nin ilk 6 ayında ise 23,7 milyon kez ziyaret edildiğini ifade etmiştir (Evrensel, 2022).

Turizm sektörünün konaklama, yiyecek işletmeleri vb. çeşitli alanların gelişmelere uyum sağlaması kritik bir faktör olup aynı zamanda turistlerin beklentilerini de belirleyen önemli bir etkendir. Turistlerin turizm faaliyetlerine farklı beklentilerle katılmasından dolayı günümüz rekabet koşullarında öne çıkmak isteyen işletmeler, teknolojinin sunduğu olanaklardan faydalanarak turistlere beklenen hizmet standartlarını sunmak durumundadır (Yıldız vd., 2022). Bilgi ve iletişim teknolojisinin yaygın olarak kullanıldığı sanal ortamlarda, turizm faaliyetlerine katılmak isteyen fakat zamanı kısıtlı veya yeterli bütçeye sahip olmayan tüketicilere yönelik sanal turlar düzenlenmektedir. Bu kapsamda önemli bir hizmet sunan sanal müze gezintileri ile toplumların tarih, inanç, kültür, sosyal yaşantı, gelenek ve görenekleri hakkında görsel ve işitsel öğelerle bilgiler sunularak, teknolojinin katkısıyla daha geniş bir kitleye ulaşabilir hale gelinmekte ve tanınırlıkları artmaktadır (Erbay, 2001). Bu kapsamda çalışmada, çağın teknolojik gelişmelerine paralel bir gerekliliği şeklinde oluşan "sanal müzecilik" anlayışı ve yapılanması incelenmiştir.

Literatür

Bilgi ve iletişim teknolojilerindeki ilerlemeler, müzecilik anlayışının evrim geçirmesine neden olmuştur. Teknolojik gelişmelerle birlikte müzeler, yeni bir müzecilik türü olan sanal müzelere dönüşmüştür. Tarihsel süreç içinde sürekli değişen müzeler, 19. yüzyılda "soylu" mekanlarının modern müzeler olarak yeniden işlevlendirilmesinden, 20. yüzyılın ortalarından itibaren çağdaş malzemeler ve formlarla üretilen müze yapılarına dönüşerek köklü bir değişim geçirmiştir (Okumuş, 2021). Sanal müzeler, bilgisayar destekli sanal alanlarda oluşturulan mekânlar ya da fiziksel bir mekânın bilgisayar teknolojisi ile sanal bir ortama dönüştürülmesi esasına dayanmaktadır. Bu sayede, sanal müze içindeki eserleri ve müze mekânını ziyaret etmek, fiziksel olarak müzeye gitmeden de mümkün hale gelebilmektedir. Genel anlamda bu teknolojik uygulamalara "çevrimiçi müze", "dijital müze", "3D sanal müze" ve "web tabanlı sanal müze" gibi isimlerle de tanımlanmaktadır (Aytekin ve Aktaş, 2023). Sanal müzelerin temeli, 1950'li yıllarda Andre Malraux tarafından ortaya atılan "duvarsız müze" kavramına dayanmaktadır (Kahraman, 2021). Sanal müze, çeşitli medya imkanları kullanılarak oluşturulmuş sayısal nesneleri ve bu nesnelere ait bilgileri içeren, geleneksel iletişim yöntemlerinin ötesine geçerek ziyaretçi ile kesintisiz etkileşim kurmayı ve farklı erişim biçimlerini desteklemeyi hedefleyen, fiziksel bir mekâna ihtiyaç duymadan dünya çapında erişimi mümkün kılan müzeler olarak ifade edilmektedir (Schweibenz, 2004). Başka bir tanımda ise "elektronik medya aracılığıyla ulaşılabilen, dijital olarak kaydedilmiş görüntüler, ses dosyaları, metin belgeleri ve diğer tarihsel, bilimsel veya kültürel verilerin bir derlemesi" olarak belirtilmiş olup ayrıca, sanal müzelerin, kullanılan koleksiyonun geleneksel müzeye bağlı olmasına rağmen gerçekte var olmadığı için "müzenin kalıcılığından ve eşsiz özelliklerinden yoksun olduğu" ifade edilmiştir (Lewis, 2023). McKenzie de (1995) dijitalleştirilebilen hemen her şeyi içeren, elektronik eserlerin ve bilgi kaynaklarının bir derlemesi şeklinde tanımlamıştır. Bir müzenin sanal müze olarak nitelendirilebilmesi için yerine getirmesi gereken bazı şartlar şunlardır: "müzenin tüm eserlerinin internet üzerinde erişilebilir olması", "öğretmenler, öğrenciler ve uzmanlar için hizmet sayfalarının oluşturulması" ve "ziyaretçilere özel bağlantıların sağlanması"dır (Tepecik, 2007).

McKenzie'ye (1997) göre, iki temel türde sanal müze bulunmaktadır: öğrenim müzeleri ve tanıtım müzeleri. Öğrenim müzeleri, ziyaretçilere koleksiyonlar hakkında bilgi vererek ve onları yeni şeyler öğrenmeye teşvik ederek bir eğitim misyonu taşımaktadır. Diğer yandan, tanıtım müzeleri, gerçek müzeleri ve bu müzelerin her türlü içeriğini ziyaretçilere tanıtmak gibi bir misyonu üstlenmektedir. Schweinbenz'e (2004) göre ise sanal müze türleri şu şekilde tanımlanabilmektedir:

- Broşür Sanal Müzeler: Temel bilgileri içeren ve potansiyel ziyaretçilere müze hakkında bilgi sağlamayı amaçlayan web siteleridir. Bu tür müzeler, genellikle koleksiyonları sınırlı bir şekilde tanıtan bir internet sayfası niteliğindedir.
- İçeriksel Sanal Müzeler: Müze koleksiyonlarının detaylı tasvirini sunarak sanal ziyaretçilere keşif imkânı tanıyan web siteleridir. Bu siteler genellikle uzmanlar için daha faydalı olabilir ve temelde koleksiyon veri tabanıyla aynı bilgileri sunmaktadır.
- Eğitsel (Öğrenme) Sanal Müzeler: Sanal ziyaretçilere kişisel erişim noktaları sunan, yaşları, geçmişleri ve bilgileri gibi faktörlere göre değişen web siteleridir. Bilgiyi bağlam odaklı olarak sunar ve ziyaretçinin bir konu hakkında daha fazla bilgi edinmesine yardımcı olacak ek bilgiler içerir. Amacı, sanal ziyaretçinin çevrimiçi koleksiyonla kişisel bir bağ kurmasını ve nesneleri görmek için müzeye gerçek ziyaretini teşvik etmektir.
- Sanal Müzeler: Eğitsel sanal müzelerden daha ileri düzeyde olan bu web siteleri, sadece koleksiyon hakkında bilgi vermekle kalmaz, aynı zamanda diğer müze koleksiyonlarına bağlantı sağlamayı amaçlar. Bu müzeler, André Malraux'un "duvarsız müze" vizyonunu gerçekleştirerek eşi benzeri olmayan dijital koleksiyonlar oluşturur. Dünya genelinde sergilenen koleksiyonlara erişim imkânı sunar ve koleksiyonlar, fiziksel dünyanın kopyaları olmaktan çıkarak evrensel bir gerçeklik kazanır.

Sanal müzelerin dijital ortamda var olan özgün gerçekliklerini geliştirmelerine dair ilk örneklerden biri, 1999'da Guggenheim Vakfı tarafından kurulan Guggenheim Sanal Müzesi'dir. Bu müze, üç boyutlu dijital bir tasarımı temsil etmektedir ve Guggenheim ailesinin dünya genelindeki tüm sanat kuruluşları ve müzeleri için bir merkezi rol üstlenmektedir (Bianchini, 2019). Sanal müzeler, yerel kültür kurumları tarafından oluşturulabileceği gibi, uluslararası nitelikteki sanal müzeler de bulunmaktadır. Avrupa Birliği'nin dijital kütüphane ve müze girişimi olan Europeana, birliğe üye ülkelerin katılımıyla hayata geçirilmiştir. Europeana'nın 30 milyondan fazla dijital materyal içeren koleksiyonu, birliğe üye ülkelerin kütüphaneleri, müzeleri ve arşivlerinden elde edilen nesneler ve kayıtlardan oluşmaktadır. Europeana'nın interaktif projesi olan Europeana1989, 2014 yılında Berlin Duvarı'nın yıkılışının 25. yıl kutlamaları çerçevesinde gerçekleştirilmiştir (EuropeanaPro, 2023). Modern müzeciliği günümüzde en etkili bir biçimde temsil eden ve sürekli olarak kendini geliştiren sanal müzecilik anlayışı, Londra British Museum ve New York Metropolitan Müzesi gibi kurumlar üzerinden kendini göstermektedir. Bu müzeler, teknolojinin sunduğu imkanları kullanarak sadece yerel anlamda değil, dünyanın dört bir yanından ziyaretçi çekmektedir. Bu sayede müzeler, koleksiyonlarını ve sergilerini hızlı bir şekilde küresel çapta tanıtabilmektedir (Derman, 2012).

Türkiye'de 1990'lı yılların başlarında, devletin desteklediği sanal müze projelerine başlanmıştır. İlk olarak, Topkapı Sarayı koleksiyonu için bir sanal müze oluşturma girişiminde bulunulmuş; ancak yetersiz sponsorluk ve teknolojik destek nedeniyle proje başarılı olamamıştır. Ardından, İstanbul Resim ve Heykel Müzesi, 1993 yılında müze web sitesi uygulamalarının öncüsü olmuştur. Özel sektör tarafından kurulan ilk sanal müze olan Eczacıbaşı Sanal Müzesi ise 1999 yılında faaliyete geçirilmiştir. Sabancı Vakfı tarafından desteklenen Sakıp Sabancı Müzesi ise 2003 yılında ziyaretçilere açılmıştır. Sonrasında, Eczacıbaşı Vakfı'nın desteklediği ve İstanbul'un ilk modern sanat müzesi olma özelliğini taşıyan İstanbul Modern Müzesi 2004 yılında ziyaretçilerine kapılarını açmıştır. Daha sonra, Suna-İnan Kıraç Vakfı'nın destekleriyle 2005 yılında Pera Müzesi kurulmuştur (Barlas Bozkuş, 2014). Türkiye'de sanal müze uygulamalarının yer aldığı bir diğer

web site ise Kültür ve Turizm Bakanlığı tarafından oluşturulan "*sanalmuze.gov.tr"* adresindeki 56 farklı sanal müzedir. Tablo 1'de bu müzelere yer verilmiştir.

Tablo 1

Kültür ve Turizm Bakanlığı'nın Web Sitesinde Yer Alan Sanal Müzeler

Adana Arkeoloji Müzesi	Adıyaman Nemrut Ören Yeri	Aksaray Ihlara Vadisi Ören Yeri	Ankara Anadolu Medeniyetleri Müzesi	Ankara Cumhurbaşkanlığı Milli Mücadele Sergisi	Ankara Cumhuriyet Müzesi	Ankara Etnografya Müzesi
Ankara Kurtuluş Savaşı Müzesi	Ankara Polis Müzesi	Ankara Ünv. Oyuncak Müzesi	Antalya Müzesi	Bayburt Kenan Yavuz Etnografya Müzesi	Bitlis Ahlat Selçuklu Mezarlığı	Çanakkale Assos Ören Yeri
Çanakkale 1915 Hilal İ Ahmer Hastanesi Canlandırma Alanı	Çanakkale Anadolu Hamidiye Tabyası Çanakkale Savaşları Tarih Müzesi	Çanakkale Bigalı Kalesi	Çanakkale Destanı Tanıtım Merkezi	Çanakkale Kilitbahir Kale Müzesi	Çanakkale Mehmetçik Feneri	Çanakkale Troya Müzesi
Çocukça Şeyler: Geçmişten Günümüze Çocuk Oyuncak Sergisi	Çorum Müzesi	Çorum Boğazköy Müzesi	Çorum Boğazköy Hattuşa Örenyeri	Denizli Hierapolis Ören Yeri	Denizli Laodikeia Ören Yeri	Diyarbakır Gre Filla Örenyeri
Eskişehir İlk Halk Kütüphanesi Sanal Tur	Eskişehir Odunpazarı Modern Müze	Efes Müzesi-İzmir	Erzincan Müzesi	Erzurum Müzesi	Gaziantep Zeugma Mozaik Müzesi	Gaziantep Arkeoloji Müzesi
Gökyay Vakfı Satranç Müzesi	Hacı Bayram Veli Müzesi	Hatay Arkeoloji Müzesi	Hazine Müzesi	İstanbul Arkeoloji Müzeleri	İstanbul Türk ve İslam Eserleri Müzesi	İstanbul Havalimanı Müzesi
Konya Boncuklu Höyük	Konya Çatalhöyük Örenyeri	Malatya Arslantepe Örenyeri	Mersin Müzesi	Nevşehir Göreme Örenyeri	Samsun Gazi Müzesi	Şanlıurfa Göbeklitepe Örenyeri
Şanlıurfa Karahantepe	Şanlıurfa Müzesi	Uşak Müzesi	"an Müzesi			

Sanal müzeler, kültürel eserler ve veri tabanlarının dijital temsillerini oluşturan, güvenilirliği ve arkeolojik doğruluğu estetik ile bir araya getirerek halka erişilebilir kılan ve kültürel nesnelerin

dijital temsillerini daha geniş kitlelere gerçekçi ve kullanıcı dostu bir şekilde sunan araçlardır. Ziyaretçilere bir nesneyi her açıdan inceleme imkânı tanıyarak deneyimlerini de derinleştirmelerine olanak sağlamaktalardır (Styliani vd., 2009). Fiziksel mekânların dijital ortama aktarılmasıyla oluşturulan sanal müzeler, geleneksel nesne koleksiyonlarından farklıdır; zira bilgiye ve görselliğe dayanmaktadır. Bu sanal müzeler, müze ziyaretine zaman ayıramayan veya uzakta bulunan ziyaretçiler için sanatı ve kültürü erişilebilir kılar, aynı zamanda sağlanan sürekli iletişim ile bilgi akışını sürdürerek ziyaretçilere etkileşimli bir deneyim sunmaktadır (Barlas Bozkuş, 2014). Çolak (2006), sanal müzelerin sunduğu avantajları şu şekilde sıralamıştır: Sanal müzeler, dünya genelinde erişim sağlayarak bir müzenin birikiminin sadece kendi toplumuna değil, tüm dünyaya ait olduğu fikrini benimsemektedir. Ziyaretçilerle kesintisiz iletişim kurma imkânı sunar. İletişimin önem kazandığı dönemlerde müzeler, geleneksel medya araçlarını kullanmışlardır. Ancak bu medya araçlarının kısıtlı ve yavaş olması, müzelerin ihtiyaçlarını tam olarak karşılayamamalarına neden olmuştur. İnternet aracılığıyla müzeler, ziyaretçileriyle kesintisiz ve hızlı iletişim kurma fırsatı bulmuşlardır. Sanal müzeler, doğru bir şekilde tasarlandığında uzaktan eğitim ve hayat boyu eğitim amacıyla kullanılabilmektedir.

Sonuç

Kültürel aktarımın önemli temsilcilerinden biri olan müzeler, zaman içerisinde birçok değişikliğe uğramıştır. Müzecilik, çok yönlü bir yapıya sahip olup sürekli olarak yeniliklere açık bir anlayışı yansıtmakta ve teknolojik ilerlemelerle birlikte müzecilik de değişmiştir. Çağdaş müzecilik anlayışında, sanal müzeler, dijitali bir iletişim aracı olarak kullanmakta, koleksiyonlarını sergilemekte ve ziyaretçilerin müze deneyimine erişimini iyileştirip yeni ziyaretçilere de ulaşabilmektedir (Barton, 2005; Kayakıran, 2022). Ziyaretçilerin sanal müzelere ilişkin gezileri kapsamında memnuniyet düzeylerinin incelendiği çalışmalara bakıldığında Kıvılcım ve Çalışkan'ın (2022) turizm eğitimi alan öğrenciler üzerine yaptıkları çalışmada öğrencilerin sanal müzeye yönelik görüşlerinin ve memnuniyet düzeylerinin olumlu olduğunu, kendilerine fayda sağladığını ve tekrar ziyaret etme niyeti üzerinde olumlu etki bıraktığını ifade etmişlerdir. Benzer şekilde El-Said ve Aziz de (2022) ziyaretçilerin sanal gezileri benimseme niyetinin, gerçek siteyi ziyaret etme eğilimi üzerinde olumlu bir etkiye sahip olduğunu ifade etmiştir.

Sanal müzelere ziyaretlerin, turizm eğitimi alan öğrencilere gerçekleştirilmesi önemli olacaktır. İlhan ve Dolmaz'ın (2022) çalışmasında eğitsel anlamda sanal müzelerin aktif öğrenmeyi sağladığı, öğrenmenin kalitesini arttırdığı, bireysel öğrenmeyi de desteklediği; faydasal anlamda zaman ve mekandan bağımsız olduğu, pratik ve eğlenceli olduğu; sosyal anlamda kültürel mirası koruduğu, yaşama yakın olduğu; ekonomik anlamda ücretsiz olması ve tasarruflu olduğu; teknolojik anlamda ise etkileşimli ortamları desteklediği, dijitale olan ilginin arttığı gibi nedenlerle sanal müzelerden yararlanılması gerektiğini ifade etmişlerdir. Turizm eğitimi alan öğrencilerde de eğitsel anlamda pek çok olumlu etki bırakacağını söylemek mümkündür. Aynı zamanda turist rehberliği eğitimi alan öğrencilerin de rehber olduklarında bu bilgileri turlarında kullanması, söz konusu müzelere aşina olması, bir yeri (destinasyonu) anlatma kabiliyetinin gelişmesi mümkün olacaktır.

Kaynakça

Al-Makhadmah, I. M. (2020). The role of virtual museum in promoting religious tourism in Jordan, *Geojournal of Tourism and Geosites,* 28(1), 268–274.

Aytekin, H. ve Aktaş, G. (2023). Türkiye'de Sanal Müze Araştırmaları: Bibliyometrik Analiz. *Journal of Business in The Digital Age*, 6(1), 76-85

Barlas Bozkuş, Ş. (2014). Kültür ve Sanat İletişimi Çerçevesinde Türkiye'de Sanal Müzelerin Gelişimi. *The Journal of Academic Social Science Studies,* 26, 329-344.

Barton, J. (2005). Digital libraries, virtual museums: same difference? Library Review. 54(3), 149-154.

Bianchini, R. (2019). When Museum Became Virtual. Erişim adresi: https://www.inexhibit.com/case-studies/virtual-museums-part-1-the-origins/ Erişim tarihi: 01.11.2023

Çolak, C. (2006). Sanal Müzeler. INET-TR'06- XI. Türkiye'de İnternet Konferansı 21-23 Aralık 2006. TOBB Ekonomi ve Teknoloji Üniversitesi, Ankara.

Derman, E. (2012). *360 Derece Panoramik Sanal Tur Uygulaması (Dumlupınar Üniversitesi Örneği).* Yüksek Lisans Tezi, Dumlupınar Üniversitesi, Kütahya.

El-Said, O. ve Aziz, H. (2022). Virtual tours a means to an end: An analysis of virtual tours' role in tourism recovery post COVID-19. *Journal of Travel Research*, 61(3), 528-548.

Erbay, F. (2001). Sanat eğitiminde müze ve sanat galerilerinin önemi. *Türkiye'de Sanat Plastik Sanatlar Dergisi,* (48), 26-29.

EuropeanaPro. (2023). Europeana 1989. We Made History! Erişim adresi: https://pro.europeana.eu/project/europeana-1989 Erişim tarihi: 01.11.2023

Evrensel. (2022). *Sanal müzeleri 23 milyon 714 bin kişi ziyaret etti.* Erişim adresi: https://www.evrensel.net/haber/469907/sanal-muzeleri-23-milyon-714-bin-kisi-ziyaret-etti Erişim tarihi: 25.10.2023

İlhan, G. O. & Dolmaz, M. (2022). Covid-19 Pandemisi Sürecinde İngilizce Öğretmen Adaylarının Sanal Müze Deneyimleri. *Bolu Abant İzzet Baysal Üniversitesi Eğitim Fakültesi Dergisi*, 22(4), 1313-1337.

Kahraman, Z. (2021). Sanal Müzecilikte Yeni Yaklaşımlar. *Ankara Üniversitesi Güzel Sanatlar Fakültesi Dergisi,* 3(2), 145-160.

Kayakıran, G. (2022). *Sanal Müze Ziyaretçilerinin Memnuniyet Düzeyi ve Gerçek Zamanlı Müze Ziyaretlerine Etkisi*. Yüksek Lisans Tezi, Mersin Üniversitesi Sosyal Bilimler Enstitüsü, Mersin.

Kıvılcım, B. ve Çalışkan, A. S. (2022). Turizm Eğitimi Alan Öğrencilerin Sanal Müze Turlarına Yönelik Görüşleri. *Journal of Tourism Intelligence and Smartness*, 5(3), 219-229.

Lewis, G. D. (2023). *"Museum".* Encyclopedia Online Britannica. Erişim adresi: https://www.britannica.com/topic/museum-cultural-institution Erişim Tarihi: 28.10.2023

Gökdoğan, Mehmet. "Halk Anlatılarında Tek Gözlü Dev Tipi", Motif Uluslararası Genç Halkbilimciler Ve Türk Dünyası Kongresi Bildiri Tam Metinleri Kitabı, Ed. Sezen Güngör, 15-16 Mayıs, Eskişehir 2019, Ss. 330-346.

Günay, U. (1992). Masal. Türk Dünyası El Kitabı. Ankara: Türk Kültürü Araştırma Enstitüsü Yayınları, C. 3.

Kara, Ö. T. (2011). Dramayla Öykü Oluşturma Yönteminin Türkçe Dersi İkinci Kademe Öğrencilerinin Tutumlarına Etkisi, Mustafa Kemal Üniversitesi Sosyal Bilimler Enstitüsü, 8(16), 239-253.

Özcan, D. & Erdik, Ş. (2021). Türk Halk Masallarında İmtihan Motifi . Korkut Ata Türkiyat Araştırmaları Dergisi , (6) , 285-297 . Doı: 10.51531/Korkutataturkiyat.1023944

San, İnci (1990) Eğimde Yaratıcı Drama, Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Dergisi, Cilt 23, Sayı 2, S.573–582.

Şimşek, E. (2001). Yukarı Çukurova Masallarında Motif Ve Tip Araştırmaları. Ankara, C I-Iı. Türkçe Sözlük. (1998). Ankara: Tdk Yayınları.

Tanrıkulu, F., & Yoğurtçu, M. (2018). Özel Yetenekli Öğrencilerin Eğitiminde Masalları Drama Yöntemiyle İşlemenin Türkçe Dersine Etkisi. Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, 7(4), 2572-2590.

Yayla, E. (2019). Nardaniye Hanım Masalı`nı Psikanalitik Halk Bilimi Kuramı Çerçevesinde İnceleme Denemesi. Uluslararası Çocuk Edebiyatı ve Eğitim Araştırmaları Dergisi (Çedar), 3(2), 57-66. URL: https://Dergipark.Org.Tr/En/Pub/Chedar/İssue/50049/597735

Yılmaz, A. (2018). *Türk Halk Edebiyatında Mekânsal Bir Hatırlama Figürü Olarak Mısır Ve Aşık Esrarî'nin Vehhâbî Destanı* (Master's Thesis, Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü).

İNSAN HƏYATINDA MÜHÜM ƏHƏMİYYƏT KƏSB EDƏN MUSİQİLİ-RİTMİK HƏRƏKƏTLƏR

Faiq Mübariz oğlu Yusifli
Mingəçevir Dövlət Universiteti
faiq.yusifli@mdu.edu.az
https://orcid.org/0000-0003-3656-0993

Musiqi bəşər mədəniyyətinin ayrılmaz hissəsidir və müxtəlif məqsədlər üçün, o cümlədən əyləncə, ünsiyyət və emosiyaların ifadəsi üçün istifadə edilmişdir. Musiqinin vacib elementlərindən biri ritmdir ki, bu da musiqiyə özünəməxsus xarakterini verən döyüntülərin və vurğuların nümunəsinə istinad edir. Musiqili-ritmik hərəkətlər ritmin fiziki ifadələridir və onlar bizim musiqini necə yaşayıb şərh etməkdə mühüm rol oynayır [2, s.41-42].

Musiqili-ritmik hərəkətlər - hərəkətlərin müəyyən hissəsinin ciddi və dəqiq musiqi səsi altında qanunauyğun şəkildə bir-birini əvəz etməsi deməkdir. Musiqili-ritmik hərəkətlər musiqi və hərəkətin birləşməsidir. Bu, musiqiyə uyğun olaraq, zərbli və ritmik şəkildə daha yaxşı ifa olunur. Musiqili-ritmik hərəkətlər əllərin və ayaqların musiqiyə uyğun olaraq müxtəlif paylanma hərəkətlərini əlaqələndirməyi tələb edir. Bu hərəkətlər ritmik və ahəngdar hərəkətin yayılmasını və musiqiyə uyğun ifa etməyi tələb edir. Musiqi ilə ritmik hərəkətlər insanların həm sürəti, həm də zehni inkişafını inkişaf etdirməyə imkan verən əyləncəli və yaradıcı fəaliyyətdir. Bu hərəkətlər insanlara musiqilərini hiss etməyə və ifadə etməyə və birlikdə əylənməyə imkan verir. Musiqidə ritmik hərəkətlər ritmə uyğun müxtəlif hərəkətlərin edilməsi deməkdir. Bu cür hərəkətlər rəqs, gimnastika və ya idman kimi fəaliyyətlərdə istifadə olunur. Musiqinin ritminə uyğun hərəkətlər

genişlənməni artırır, əzələləri genişləndirir və enerji səviyyəsini artırır. O, həm də ritmi dəyişmək və musiqi ilə harmoniyada hərəkət etmək qabiliyyətini təmin edir. Ritmika insanlarda özünəinamı formalaşdırır. Dərslərin musiqi ilə müşahidə olunması hər bir insanda əhval-ruhiyyəni yüksəldir. Musiqili-ritmik hərəkətlərdə musiqi seçiminə də diqqət etmək lazımdır [3, s.5-15].

Musiqili-ritmik hərəkətlər öyrədilərkən ilk olaraq bəzi anlayışları bildirmək mütləq formada lazımdır. İlk olaraq nəzəri biliklərin çatdırılması praktika zamanı işin daha da keyfiyyətli olması ilə nəticələnəcəyinə gətirib çıxaracaq. Qeyd etdiyimiz anlayışlar aşağıdakılardır:

1. İlk olaraq xarakter haqqında danışmaq lazımdır. Yəni, hərəkətin xarakteri haqqında danışarkən onun musiqi xarakteri ilə əlaqəsinin olduğunu da qeyd etməliyik;
2. Hər bir musiqi əsərinin öz forması olur. Bu formanı dərs zamanı şagirdlərə izah etmək lazımdır. İzahla bərabər eyni zamanda bütün musiqilərin janrı, tempi, ritmi və dinamikası haqqında da məlumat verməliyik;
3. Rəqs elementlərinə başlamadan əvvəl onlar haqqında məlumat verməliyik: hansı hərəkətlə başlamalı, keçid olaraq hansı hərəkətlərdən istifadə olunacağı və yekun oalraq hansı hərəkət ilə tamamlanacağı.

Bu məlumatlar proqramda verilməklə, həm də praktik yolla göstərilməsi işin şüurlu həll olunmasına geniş yol açır [2, s.50-51].

Musiqili-ritmik hərəkətlərin mədəni əhəmiyyəti var. Fərqli mədəniyyətlərin musiqilərində özünəməxsus mədəni kimliklərini əks etdirən fərqli ritmik nümunələr var. Məsələn, Afrika musiqisi mürəkkəb poliritmik nümunələri ilə tanınır, hind klassik musiqisi isə mürəkkəb ritmik dövrlərlə xarakterizə olunur. Ritmik hərəkətlər də ənənəvi rəqs formalarının vacib hissəsidir, burada duyğuları çatdırmaq və hekayələr danışmaq üçün istifadə olunur. Məsələn, İspaniyanın flamenko rəqsi sevgi, qəzəb və kədər kimi müxtəlif duyğuları ifadə edən gərgin və ehtiraslı ritmik hərəkətləri ilə tanınır [3, s.10-15].

Musiqili-ritmik hərəkətlər insanların bədən quruluşunun inkişafına böyük təsir göstərə bilər. Onlar musiqinin ritminə təbii və instinktiv reaksiyalar olan ayaqları döymək və ya başını tərpətmək kimi fiziki reaksiyalara səbəb ola bilər. Müəyyən ritmlər tempindən və intensivliyindən asılı olaraq istirahət və ya həyəcan verə bilər. Məsələn, yavaş və sabit ritmlər sakitləşdirici təsir göstərə bilər, sürətli və yüksək ritmlər isə enerji və canlandırıcı ola bilər. Ritmik hərəkətlər də tənəffüs və ürək dərəcəsi ilə sinxronlaşa bilər, bədəndə harmoniya və tarazlıq hissi yaradır. Musiqili-ritmik hərəkətlər müxtəlif sahələrdə fərqli rol oynayır. Musiqi-ritmik hərəkətlərin bəzi nümunələri:

1. *Bədii gimnastika:* Bədii gimnastika musiqi ilə bağlı həyata keçirilən məşq növüdür. Bu, yeni musiqi ritmi və melodiyasına uyğunlaşan ritmdir.
2. *Azərbaycan xalq musiqisi:* Azərbaycan xalq musiqisi metroritmik təşkilatlanma əsasında iki müxtəlif formatda ifadə olunur. Birincisi, aydın metrik musiqi, ikincisi isə müəyyən metrli musiqidir.
3. *Bədii gimnastika:* Bədii gimnastika musiqinin ritmi ilə ritmik fiziki ritmik düsturdur.
4. *Uşaq təhsili:* Musiqili-ritmik hərəkətlər şagirdlərin təhsil proseslərində mühüm rol oynayır. Bu, çox yaxşıdır, insanlar üçün motor bacarıqlarını, koordinasiyanı və ritmik hissləri idarə etmək üçün bir yol var.
5. *Dramatik mahnı:* Musiqi partituraları teatr və dramatik səhnələr üçün əla elementdir. Bu, əgər oyun oynanılırsa və tamaşaların cəlbediciliyini artırmaq üçün istifadə edilərsə, daha yaxşı olar.

Musiqili-ritmik hərəkətlər insanlara əhəmiyyətlərindən biri də insanların fiziki formasını artırmasıdır. Musiqi ilə yerinə yetirilən ritmik hərəkətlər əzələləri gücləndirməyə və onların elastikliyini artırmağa kömək edir. Bununla belə, musiqi həm də ritmik tempi, koordinasiyanı və balans hissini yaxşılaşdırmağa kömək edir. Musiqinin ritm və melodiyasına uyğun hərəkət etmək və lazımi anda reaksiya verə bilmək bədənin koordinasiyasını və tarazlıq qabiliyyətini təmin edir.

Musiqili-ritmik hərəkətlərin insan beyninə təsiri çox vacibdir. Bunlardan aşağıdakı bəzi nümunələri qeyd edə bilərik:

1. *Emosional şəfa:* Musiqidə emosional dalğalanmalar baş verə bilər və müsbət təsir göstərə bilər. Musiqi ritmik hərəkətlərlə birləşdirildikdə təsir gücü daha da güclü ola bilər. Musiqi ilə ritmik hərəkətlər stressi idarə edə, endorfin ifrazını idarə edə və ümumiyyətlə əhval-ruhiyyəni yaxşılaşdıra bilər.

2. *Motor bacarıqlarının inkişafı:* Musiqi ilə ritmik hərəkətlər inkişafı və motor bacarıqlarını inkişaf etdirə bilər. Ritmik hərəkətlərlə uyğunlaşdırılan rəqs və ya idman fəaliyyəti müxtəlif hissələrin yenidən təqdim edilməsini tələb edir.

3. *Beyin və yaddaşın İnkişafı:* Musiqi ilə ritmik hərəkətlər beyin funksiyalarını yaxşılaşdıra və yaddaşı gücləndirə bilər. Musiqi sinir sistemi arasında əlaqəni yaxşılaşdıra və sinir sisteminin müxtəlif hissələri arasında sinir əlaqələrini tənzimləyə bilər. Bu, beynin tutumu azaldıqda baş verir.

Musiqili-ritmik hərəkətlər insanların sürətini və zehni inkişafını dəstəkləyən əyləncəli və yaradıcı fəaliyyətdir. Bu hərəkətlər insanlara musiqiləri hiss etməyə, ifadə etməyə və birlikdə əylənməyə imkan verir. Bu, bütün yaş qruplarından insanların iştirak edə biləcəyi və hər kəsin öz üslubunu əks etdirə biləcəyi bir fəaliyyətdir. Musiqili-ritmik hərəkətlər müxtəlif musiqi janrları və ritmləri ilə əlaqələndirilərək formalaşır və bu, insanların musiqinin ritminə uyğun hərəkət etməli, rəqs etməli, musiqi ilə daim əlaqə saxlamalı və təcrübələr ilə inkişaf etməli olduğu bir nüansdır. Musiqili-ritmik hərəkətlərin əhəmiyyətini aşağıdakı bəzi nümunələr ilə göstərə bilərik:

1. *Sağlamlıq üçün:* Musiqili-ritmik hərəkətlər fiziki sağlamlığı artırmağa və mövcud sağlamlığı qorumağa kömək edir. Bunu düzgün etmək əzələ sistemini və həzm orqanlarını gücləndirir.

2. *Psixologiya:* Musiqi və ritmik hərəkətlər insanların əhval-ruhiyyəsini yaxşılaşdırır və stressi azaldır. Bu serotonin kimi "söhbət hormonlarının" sərbəst buraxılmasını təmin edir.

3. *Sosial media:* Musiqili-ritmik hərəkətlər qrup hərəkətlərini və ya rəqsləri təşviq etməklə münasibətləri yaxşılaşdırmağa kömək edir. Bu tip sosial əlaqələr zamanı insanlar bir araya gəlir.

4. *Yaradıcılıq və koordinasiya:* Musiqili-ritmik hərəkətlər insanlara yaradıcılıq və koordinasiya bacarıqlarını inkişaf etdirməyə kömək edir. Bu, beyin fəaliyyətini yaxşılaşdırmağa kömək edir.

5. *Ritm və koordinasiya:* Musiqili-ritmik hərəkətlər ritm və bədənin koordinasiyasını yaxşılaşdırır. Rəqs etmək və ya hər hansısa bir musiqi alətində ifa etmək kimi fəaliyyətlər ritm və zamanlama bacarıqlarını inkişaf etdirərək, müxtəlif hissələrin ahəngdar işləməsini təmin edir.

6. *Ruhani istirahət:* Musiqili-ritmik hərəkətlər stressi azalda və mənəvi rahatlıq verə bilər. Musiqili ritmik hərəkətlər zamanı orqanizmdə endorfin adlanan xoşbəxtlik hormonlarının ifrazı artır. Bu, insanın əhvalını yüksəldir və stressi azaldır.

7. *Musiqi tamaşaları* insanların bir-birinə hörmət və ünsiyyət qurmasına kömək edir. Bu o deməkdir ki, insanlar bir daha araşdırma edir və onu daha da artırırlar.

8. *Ədəbiyyat və tarix:* Musiqili-ritmik hərəkətlər – musiqi ədəbiyyatı və tarixlə əlaqə yaratmağa kömək edir. Folklor və musiqi birləşərək daha çox anlaşır və daha aydın olur.

9. *Özünəgüvən və özünəinam:* Musiqili-ritmik hərəkətlər insalarımənəvi gücləndirir və özünə inamlarını gücləndirir. Rəqs etmək və ya musiqi aləti fia etmək kimi fəaliyyətlər insana özünü ifadə etməyə və nümayiş etdirməyə imkan verir.

Musiqili-ritmik hərəkətlər idman hərəkətləri ilə birlikdə icra edildiyində, performans daha da effektiv olur. Bəzi idman növləri musiqi ilə yanaşı ritmik hərəkətləri də tələb edir. Bunlardan bədii gimnastikanı misal göstərə bilərik. Təlim məşqlərində istifadə olunan ritmik hərəkətlər və fiziki fəaliyyətlər həmin məşqin maraqlı olması ilə nəticələnir. Musiqi ritmik-hərəkətlər sürəti tənzimləyir və idmançıya daha da çox enerji verir. Bu hərəkətlər idmançıların koordinasiyasını və izdihamı qazanmaq üçün tələb olunan sərbəstlik və rəqabət ruhunu inkişaf etdirir [1, s.49-50].

Nəticə olaraq, musiqili ritmik hərəkətlərin insanlara bir çox faydaları var. O, həm fiziki, həm də əqli rifahı təşviq edir, sosial əlaqələri dəstəkləyir və ümumi sağlamlığı və rifahı artırır.

Musiqili-ritmik hərəkətlər bizim musiqini necə yaşadığımız və şərh etdiyimizin vacib hissəsidir. Onlar müxtəlif formalarda olur, hər biri özünəməxsus xüsusiyyətlərə malikdir və

əhəmiyyətli mədəni əhəmiyyətə malikdir. Ritmik hərəkətlər fiziki reaksiyalara səbəb ola bilər və tənəffüs və ürək döyüntüləri ilə sinxronlaşaraq bədəndə harmoniya və tarazlıq hissi yarada bilər. Ritmik hərəkətlərin müxtəlif növlərini və onların təsirlərini başa düşmək musiqiyə olan qiymət və həzzimizi artıra bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Məmmədova, İ. Azərbaycan musiqisi zövq mənbəyidir / İ.Məmmədova. –Bakı, -2005
2. Məmmədova, İ. Musiqi pedaqogikası / İ.Məmmədova. – Bakı, -2009
3. Vəliyeva, A., Mayılova, Z., Əliyeva, N. Uşaq bağçalarında musiqi / proqram və müntəxəbat – A.Vəliyeva, Z.Mayılova, N.Əliyeva. –Bakı, -2006

QURBAN YAQUBOĞLUNUN "MƏN YOXAM" ROMANINDA YADDAŞIN NİSGİLİ

Fəxriyyə Nail qızı İsayeva
Mingəçevir Dövlət Universiteti, Azərbaycan
Azərbaycan Dillər Universitetinin dissertantı
faxriyya.isayeva@mdu.edu.az
https://orcid.org/0009-0009-5534-0129

Ekzistensializm fəlsəfəsinin əsas simalarından sayılan Sartr mövcudluğu insanın azadlığında, onun azad iradəsində görürdü. Onun "Varlıq və Yoxluq" əsəri birbaşa azadlığı təlqin edən fikirləri əks etdirir. Filosofa görə, əgər dünya dərkolunmazdırsa, kimsə insana nə əmr edə bilər, nə də haqlı olduğunu sübut edər. Azad insan üçün xeyir və şər mövcud deyil, çünki insan ancaq xeyri seçər. Azad insan cəmiyyətdən təcrid olunub, özgələşən, yadlaşan insandır.

Elnarə Akimova 2018-ci ilin ədəbi yekunlarına həsr olunmuş məqaləsində qeyd edir ki, çağdaş ədəbiyyat daha çox simvolların dili ilə danışır. Tarixə dönüş, mifolojiyə meyil, irreal aləmlər, fantastik dünyalar, fövqəltəbii qüvvələrin aparıcı olması buna misaldır. Ədəbiyyat daha çox təhtəlşüura enib, ədiblərimizin yaradıcılıq ruhu daha dərinlərə varıb, mifoloji kontekstin fərqli təzahürləri verilir. Meydana qoyulan romanlarda arxetipik motivlər, fləşbek elementləri, retrospeksiya halları, intertekstuallıq öndə idi. Bu cəhət roman janrında yazılan nümunələrdə daha aparıcıdır [1].

Qurban Yaquboğlunun "Mən yoxam" romanında özgələşən, yadlaşan qəhrəmanın taleyindən bəhs olunur. Ucqar kənd həyatı, yarım qalmış talelər, qovuşmayan sevgililər, Qəribə adamın yaddaşının nisgilindən süzülüb axır. Tənqidçi İradə Musayeva haqlı olaraq qeyd edir ki, "Roman bir insanın yaddaş, xatirə, vurhavurlar və sıxıtılar burulğanının hekayəti, nəqli kimi yazılıb" [3].

Əsərdə yox olma, qeybə çəkilmə, yadlaşmaya səbəb olan hadisələr var. Əsər Məchul şəxsin dilindən nəql olunur. Unudulmuş, yaddan çıxmış kənd və onun insanlarının taleyi... Buradakı insanlar xoşbəxt deyillər və ən pisi də odur ki, xoşbəxt olmadıqlarının fərqində də deyillər. Ölməyi səbirsizliklə gözləyirlər, ölənlərə həsrətlə baxırlar...

"- Hər ölənin paxıllığını çəkirəm, hə, ay bala. Neynim, necə eləyim, ay oğul, qaldım bir dağın dibində, boz düzəngahda. Ölən vaxtım çatdı, gözlədim, əcəl gəlib çıxmadı... Vaxtında qolumdan yapışıb, böyrünə salıb məni özgə şəhərə aparanım olsaydı, bəlkə əcəlimi özüm tapardım. Uzaqdadı, şəhərdədi, iraq yerdədi, Allah bilir, hardadı əcəlim. Mən gözlədim, o gəlmədi.

- Gələr, baba, gələr...

- Getdiyin yerdə Əhmədşah oğlu Alcanın ölümü qənşərinə çıxsa, göndər bəri" [4, s. 27]

Cahillik, geridə qalmış adət-ənənə, kibir, kin-küdurət xoşbəxtliyə asanlıqla mane olur. Nə qədər ki, cahillik hökmran olacaq, belə cılız düşüncələr xoşbəxtliyə mane olacaq, insanları yer-yurdlarından didərgin salacaq.

E.Akimova bildirir ki, romanda bir şəxsin düşüncələri, mənəvi aləmi ötən illərin yaddaş qarışımında açılır. Dünyanın faniliyinə köklənmək, ömrü boyu xatirə yığa-yığa qurulan ömür hekayətləri romanın sətirləri arasından ovuc-ovuc tökülür. Qurban Yaquboğlu indinin içində keçmişi konkretləşdirir. Müəllif obrazları, onların müxtəlif tale yollarını, aqibət və yaşantılarını çərçivələnmiş nəql strukturunda birləşdirməyə nail olur [1].

Əsərin qəhrəmanlarından olan Talıb beş günlük olanda ata-anasını avtomobil qəzasında itirir. Onun bədbəxtliyi beş günlüyündən başlayır. Əmisinin himayəsində böyüyür, 15 yaşına çatıb əmisi qızı bilib sevdiyi Sənubərin doğma bacısı olduğunu biləndə artıq ailəyə, doğmalarına qarşı yadlıq başlayır, özünə qapanır. Əkiz qardaşı bildiyi Şahıdan (Şahmar) da uzaqlaşır. Sonra Çəmənə vurulur. Sevginin gözü kordu deyirlər. Axı Talıb hardan biləydi ki, Çəmənin əmisi Talıbın dədəsini qəzaya salan İsmayılın qardaşı İsrafildir. İyirmi il əvvəl olmuş hadisə, bugün sevgililərin qovuşmasına mane olur. "...dədəm üzünü Talıba çevirdi:

- Talıb, İsmayılın qızını yox bil... – Yenə susdu, sonra yenə danışdı, daha dayanmadı:- İsmayılın qızı yoxdu! Bundan savayı söz deməyəcəm. Sevərsən, evlənərsən, kimi istəyərsən alarıq, İsmayılın qızını unut! Bu hadisədən sonra doğmalarından küsən Talıb işsizlik bəhanəsilə kənddən ayrılıb uzaq Sibirə gedir. İllər sonra arvadı və oğlu ilə kəndə qayıdanda bütün kənd üçün doğma, əziz olan insan hamıya yadlaşır. Heç kimlə görüşmür. Buz kimi soyuq münasibət qarşı tərəfə də keçir.

"- Talıb gələndə ...Bəs kənd camaatı darvazadan içəri təpilmədi Talıb gələndə? - İndi mən bağıırdm.

- Basırıq düşmədi? Ayaq altda qalıb ölən olmadı? O dərədən bu dərəyə neçə ildi qohum-əqraba, yad, özgə, hamı Talıbı gözləyir. Gələndə necə dinc dayandılar? Bu el bir qara qəpiyə dəyməz.

- Nə qışqırırsan?! Ölən olmadı, gələn oldu.....yola-irizə xoşgəldinə çıxdılar. Əl uzadıb çəpərədən görüşdülər. Nə istəyirsən camaatdan? Baxdılar Talıb soyuqdu, çıxdılar, getdilər. Əcəb elədilər" [4, s. 66].

Əsərdə eyni sevgi xətti Həmid və Yasəmən obrazlarının talelərində də görünür. "Böyüklər" bu sevgiyə də xitam verirlər. Həmidin dədəsi ilə Yasəmənin dədəsi dalaşır, aralarındakı münasibət pozulur və bu hadisə gənclərin sevgisinə mane olur. "... bir şeyi bilirdim (Həmid) – bizim sevgimizə başqaları hökm kəsəcəkdi" [4, s. 142] Sonralar Həmid xalası qızı ilə evlənir,Yasəmən isə başqa kəndə köçür. Yasəmən Həmidlə görüşəndə başqasıyla ailə qurmasının səbəbini açıqlayır: "Kənddən diplomu almağa çıxdığım gün sənlə avtobus dayanacağında qarşılaşdıq. Neçə müddətdi üz-üzə gəlmirdik. Düşündüm, hə, hər şey indi əyan olur, hamı Alı meydanındadı. Uzun illərdən sonra ilk dəfə sənlə salamlaşdıq, baxışdıq. Həmid, sevən qızın sevdiyi oğlanla baxışması nədi, bilirsən? Ən böyük kədər odu, daha heç vaxt olmayacaq... Baxışımız keçmişdə qaldı. Sən Bakı yolunda düşdün, heç nə demədin, yolpulumu da verdin, getdin."

Əsərdəki Həmid, Yasəmən sevgi xətti İlqar Fəhminin "Akvarium" əsərinin qəhrəmanlarının taleləri ilə bənzərlik təşkil edir. "Hətta dünən gecə onu (Sahibi) möhkəm ağlamaq tutmuşdu. Fikrindən keçmişdi ki, Aybənizin yaxşı təravətli vaxtında özü bilərəkdən onu başqasına verib [2, s.111]. Həm Həmid, həm də Sahib sonralar sevdikləri ilə qovuşsalar da artıq əvvəlki sevgi qalmamışdı. "Akvarium" əsərinin qəhrəmanı Sahib özünə qapanır, hər şeyə sahib olsa da həyatda tənha olduğunu anlayır. Boşluq, tənhalıq içində boğulan qəhrəman intihar edir. "Mən yoxam" əsərinin qəhrəmanı Həmid isə qeybə çəkilir.

Yasəmənin dədəsi onların sevgilərinə mane olduğu üçün ölüm ayağında qızından halallıq istəyir, Həmidə də məktub yazıb onu bağışlamasını xahiş edir. Yasəmən illərlə kənd, yurd həsrətində olur. Qonşu kənd idarəsində mühasib işləsə də illərlə kəndlərinə ayaq basmır. Özünün də

xəbəri olmadan içində dağ boyda həsrət varmış. Həmid qeybə çəkiləndə, arvadı, oğlu onu axtarmaq üçün bura gələndə Yasəmən onlarla öz doğması kimi görüşür. "O, (Yasəmən) kəndlilərindən ötrü həmişə qəribsəyir, qayıdıb doğulduğu kəndə köçəcəyini deyir" [4, s. 256]

Həmid əvvəldən özünə vaxt təyin edir, qeybə çəkiləcəyini əvvəlcədənYasəmənin oğlu Mədədə xəbər verir, onu bu hadisəyə hazırlayır. O dediyi vaxt Mədəd onun qaldığı daxmanı ələk-vələk edir, yaşıl üzlü dəftərini tapır. "Ora təzə xətlə beş-alti söz qeyd olunub: "Məni kim soruşsa, bilsin: Mən yoxam. Mənim yoxluğum xoşbəxtlik gətirəcək" [4, s.251].

"Mən yoxam" romanında oxucu daim "tale" problemi ilə üzləşməli olur. İtirilmiş talelər, yaddaşın nisgili, cəmiyyət və ruh aləminin təzadları, insan özünüdərkinin sərhədsizliyi əsərdə fərdi ömürlərin timsalında əksini tapsa da, bütünlükdə XX-XXI əsr dalğasının gətirdiyi təklik, yadlıq sindromunun təzahürü olaraq mənalanır.

İstifadə edilmiş ədəbiyyat

1. Akimova, E. "2018 – "Tarixin sonu"nu inkar edən daha bir il" // "Ədəbiyyat qəzeti". 2019, 9 sentyabr
2. Fəhmi, İ. Akvarium / İ.Fəhmi. – Bakı: Xanı, - 2017. - 198 s.
3. Musayeva, İ. "Mən yoxam" romanındakı Qurban Yaquboğlu // "525-ci qəzet". 2018, - 9 oktyabr
4. Yaquboğlu Q. Mən yoxam / Q.Yaquboğlu. - Bakı: Qanun, - 2018. - 296 s.

ŞƏXSİYYƏTİN FORMALAŞMASININ SOSİAL-PSİXOLOJİ FAKTORLARI

Gülnar Saday qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
gulnar.mammadova@mdu.edu.az
https://orcid.org/0009-0001-5782-5420

Hazırda şəxsiyyət psixologiyası sahəsində biliyə sahib olmaq çox vacibdir, bu bilikləri mənimsəmək bir fərd kimi insanın inkişafında böyük rol oynayır. Şəxsiyyət psixologiyası mövzusu çox aktualdır, çünki həyatımız özümüzü nə qədər yaxşı tanıdığımızdan və dərk etməyimizdən asılıdır. Psixologiyanın bu sahəsi şəxsiyyəti və onun insanlar arasında nə qədər dəyişdiyini, eləcə də insanların şəxsiyyət baxımından nə qədər oxşar olduğunu öyrənməyə çalışır. Şəxsiyyət psixologiyasının bu aspektlərini tədqiq etməklə həyatımız daha rahat və ahəngdar olacaqdır. Şəxsiyyət inanılmaz dərəcədə mürəkkəb bir anlayışdır ki, psixologiya sahəsində həqiqətən konkret tərifi yoxdur.

Sosial mühitə xas keyfiyyətləri özündə formalaşdıran və davranışında nümayiş etdirməyi bacaran sosial varlığa şəxsiyyət deyə bilərik. Şəxsiyyət anlayışı inasanı sosial varlıq kimi təmsil edir. Şəxsiyyət sözü müxtəlif dillərdən məsələn, rus. Лицо - üz, lat. Persona - maska tərcümədə sosial rolu daşıyan, oynayan mənasını verir: hər bir insan şəxsiyyət statusunu ətraf mühitin tələb etdiyi qaydalara uyğunlaşaraq, öz üzərinə düşən rolu oynayaraq əldə edir. psixologiya elminin inkişafında əhəmiyyətli rolu olmuş tədqiqatçılar elmi əsaslarla dəfələrlə sübuta yetirmişlər ki, insanın şəxsiyyət kimi inkişafında sosial faktorların (sosial fəaliyyət, sosial ünsiyyət, sosial normalar, sosial tələblər və s.) təsiri böyükdür. Hətta insanın yetişməsinə təkan verən, baza məkan hesab edilən ailənin də təsiri kiçik sosial qrup kimi sosiumun ümumi tələblərindən qaynaqlanır. [5, s.203]

Ümumiyyətlə, şəxsiyyət insanın özünəməxsus xüsusiyyətləridir, ona inanclar, motivasiya, duyğular, davranış və hətta ətraf mühit təsir edir. Psixologiya ilə əlaqəli şəxsiyyətin öyrənilməsi

illər ərzində çoxsaylı nəzəriyyələr vasitəsilə qəbul edilmişdir. Bu nəzəriyyələr şəxsiyyət psixologiyası mövzusunun öyrənilməsi ilə bağlı fərdi praktikantların və tədqiqatçıların baxışlarına təsir edir və formalaşdırır. Müəyyən bir nəzəriyyə bir mütəxəsisin təcrübəsi kimi xidmət edə bilsə də, əksər psixologiya mütəxəssislərin şəxsiyyəti başa düşmək və insanlara psixoloji sağlamlığa nail olmaqda kömək etmək üçün nəzəriyyələri birləşdirir. Tədqiqatçıların şəxsiyyət psixologiyasının necə öyrəndiyini başa düşmək üçün şəxsiyyətin daha təsirli nəzəriyyələrini araşdırmaqdan başlamaq vacibdir. Şəxsiyyətin müxtəlif aspektlərini izah etmək üçün çoxlu sayda nəzəriyyələr ortaya çıxdı. Bəzi nəzəriyyələr şəxsiyyətin necə inkişaf etdiyini şərh etməyə diqqət yetirir, digərləri isə şəxsiyyətdəki fərdi fərqlərlə maraqlanır.

Şəxsiyyətlə bağlı psixoloji nəzəriyyələr çoxdur, lakin onların hamısı nəzəriyyə növlərinin ümumi çərçivəsinə düşür. Bu növlərə xüsusiyyət nəzəriyyələri, tip nəzəriyyələri, psixoanaltik nəzəriyyələr, davranışçı nəzəriyyələr və humanist nəzəriyyələr daxildir. Xüsusiyyət nəzəriyyələri zamanla, ümumiyyətlə sabit olan psixoloji xüsusiyyətlərə diqqət yetirir. Bu xüsusiyyətlər ətrafımızdakı dünya ilə anlaşma və ünsiyyət qurmağın fərdi modelləridir. Xüsusiyyətlər bütün insanlara xasdır və onların davranışlarına təsir göstərir. Tip nəzəriyyələri şəxsiyyət tipini və ya insanların necə təsnif edildiyini təhlil edir.

Məşhur amerikalı psixoanaltik K.Horni şəxsiyyətin formalaşmasına sosiumun təsirini "Mən" obrazlarını təhlil etməklə izah edirdi. O, bildirirdi ki, hər bir insanda bir neçə "Mən" obrazı mövcuddur: real mən, ideal mən və "Mən" başqalarının gözü ilə yəni, sosial mən. Bu üç "Mən" arasında insan tarazlıq yarada bilmədikcə onda nevroz halları müşahidə olunacaqdır. Insan özü üçün bir ideal seçir (ideal mən) və daim bu ideala çatmaq üçün öz üzərində işləyərək inkişaf edir, sosiallaşmaq üçün isə öz ideal mənini formalaşdırır, lakin ətraf mühitin təsiri insanın iç dünyasından, yəni real mənindən kəskin fərqlənəcəksə, təbii ki, psixoloji gərginliklər qaçılmaz olacaqdır. Ona görə də hər üç "Mən" arasındakı əlaqələndirmə tarazlığı gözləməklə həyata keçirilməlidir. "Mən"lərin formalaşmasında insanın tərbiyəsinin, təhsilinin, dünyagörüşünün, genetikasının və digər faktorların rolu böyükdür, məsələn, sosial mühitə bələd insanlardan alınan düzgün örnəklər və dəstəklər sayəsində insan öz "Mən"ləri arasında tarazlıq yarada, rahat şəkildə sosiallaşa və komplekslərsiz şəxsiyyətə çevrilə bilər.

Şəxsiyyətin yüksək səviyyədə formalaşması onun struktur komponentlərinin təkmilləşməsini təmin edir. Şəxsiyyətin strukturuna daxil olan komponentlərin səciyyəsi növbəti potensialların keyfiyyət göstəriciləri ilə analoji bağlılığa malikdir: koqnitiv, kommunikativ, kreativ, aksioloji, estetik, etik. Şəxsiyyətin struktur komponentləri bialoji və sosial amillərin təsirindən qaynaqlanır. Bialoji amillər dedikdə temperament, adi hisslər, ibtidai tələbatlarını cinsi və yaş fərqlərini özündə əks etdirən xüsusiyyətlər nəzədə tutulur. Sosial amillər dedikdə isə dünyagörüş, maraqlar, sosial mədəni tələbatlar, motivasiya, arzular, vərdişlər, bacarıqlr, adətlər, iradə, ali hisslər nəzədə tutulur.

Şəxsiyyətin strukturu haqqında vaxtilə Z.Freydin və K.Yunqun təklif etdiyi nəzəriyyələrdə də üst-üstə düşən əsas məqam məhz tərkib elementlərinin sosial təsirə məruz qalması ilə bağlı idi.

Freyd bildirdi ki, şəxsiyyətin strukturu bir-birilə qarşılıqlı əlaqədə olan 3 tərkibdən ibarətdir: İd, Eqo və Super Eqo. İddə insanın real dünyasına aid, Eqoda insanın sosiallaşmasına təkan verən, Super Eqoda isə insanın sosial mühitdə daha layiqli status qazanmasına səbəb olan keyfiyyətləri cəmlənib. Məsələn, İd maşın almaq arzulayır, Eqo maşın almaq üçün sosial mühitin tələblərindən qaynaqlanan addımlar atır, Super Eqo maşınla ehtiyacı olanlara da yardım edir. [6, s.168]

Şəxsiyyətin inkişafında sosial fəaliyyətin və ünsiyyətin də mühüm rol var. Ünsiyyət fəaliyyətin ayrılmaz komponentidir, hətta insan həyatının müəyyən mərhələsində (yeniyetməlik dövrü) aparıcı fəaliyyət növünə də çevrilir. Insanlar bir-birilə əməkdaşlığa daxil olmaq məqsədilə ünsiyyət qururvə ünsiyyət prosesində bir-birini qavrayır, təcrübələrini bölüşərək inkişaf etdirlər. Insanın özünüdərki, özünüqiymətləndirməsi, sosial təcrübəyə yiyələnməsi, mənəvi cəhətdən zəngin-ləşməsi, ləyaqətli və qürurlu olması eləcə də sosial tələbatların ödənilməsinə xidmət edəcək bir çox keyfiyyətləri məhz ünsiyyət sayəsində formalaşır. Qarşılıqlı münasibətlərdə sosial normalar, rol

gözləmələrinə əməl edilmədikdə isə şəxsiyyətlərarası konfiliktlər qaçılmaz olur. Bu prosesin həlli sosial persepsiyanın (*lat.* socialis-ictimai, perseptio-qavrayış) uğurundan asılıdır. Sosial persepsiya-insanların bir-birini qavraması və bu qavrayışa əsaslanaraq, bir-birini anlaması prosesidir. Insanların sosial dayanıqlığı, yüksək səviyyədə sosial normaları mənimsəməsi və onlara əməl etəsi, ünsiyyətdə olduğu insanları düzgün qavraya bilməsi isə sosial yetkinliyi ifadə edir. Sosial-yetkinlik-şəxsiyyətin sosial müstəqilliyini, tamlığını şərtləndirən inkişaf həddidir.

Psixi inkişaf və psixi sağlamlıq göstəricisinin yüksək olması sosial yetkinliyin formalaşması prosesi ilə düz mütənasibliyə malikdir. Lakin, genetik faktorların təsirini də inkar etmək olmaz, çünki şəxsiyyətin inkişafı ilə bağlı istənilən prosesdə genetik kod, genetik yaddaş da özünəməxsus rol oynayır.

Empriik tədqiqatın nəticələri müasir gəncin şəxsi yetkinliyinin formalaşması üçün sosial-psixoloji amillərin yəni, ətraf mühit, yaşayış yeri, ailədəki mövqeyi və maddi vəziyyətinin təsiri olduğunu iddia edir. Bununla belə, hər bir amil şəxsiyyətin yetkinliyində müxtəlif dərəcədə təsir göstərir. Bəzi hallarda inkişafın hərəkətverici qüvvəsi kimi çıxış edir, bəzən isə prosesin ləngiməsi kimi özünü göstərir. Bu zaman hər bir fərdin inkişafının dinamikasını, problemlərini, ümumi mənzərəsinin təhlilini şəxsiyyət kimi nəzərə alınmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. - Bakı: Çinar-çap, - 2002
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. - Bakı: Qapp-Poliqraf, - 2003
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / - Bakı: Ozan, - 1998
4. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları / L.M.Qurbanova. - Bakı: Bilik, -2013
5. Qurbanova L.M. Psixi sağlamlıq / L.M.Qurbanova. –Bakı: Azəri poliqrafiya, - 2019
6. Seyidov S.İ., Həmzəyev M.Ə. Bakı. Nurlan - 2007
7. Яровичкий В.А. Психологический лечебник. М., Рипол Клласик, - 2002
8. Горбунова О.В.Социальная зрелость и черты характера личности.

MÜASİR FƏLSƏFİ BAXIŞLAR VƏ DAVAMLI İNKİŞAF KONSEPSİYALARI

Gülnar Fərhad qızı Nuriyeva
Heydər Əliyev adına Hərbi İnstitut
gulnar_nuriyeva_84@mail.ru
https://orcid.org/0009-0005-0596-6888

Giriş

Davamlı inkişaf konsepsiyası cəmiyyətin rifahı üçün xüsusi istinad nöqtəsinə çevrilmişdir. Bu bir çox cəhətdən klassik qədim yunan filosoflarının "arche" anlayışına və ya başlanğıcına istinad edir. Davamlı inkişaf konsepsiyasının üzləşdiyi problemlər, nəticələr və qiymətləndirmə kimi dünyada insanların hərəkətləri və ya təbii sərvətlərə münasibəti və gələcək nəsillər üçün qorunub saxlanması, dünyada məsuliyyətli mövcudluğu və s. əsaslı şəkildə müxtəlif fəlsəfi nəzəriyyələrlə bağlıdır. Buna görə də müxtəlif fəlsəfi nəzəriyyələri və onların davamlı inkişaf anlayışı ilə əlaqəsini araşdırmaq vacibdir.

Davamlı inkişafa dair müxtəlif fikirlər və yanaşmalar haqqında daha dərindən anlayış vermək, həm davamlı inkişafla bağlı, həm də bəzi nəzəri perspektivlərin müxtəlif fəlsəfi nəzəriyyələr və

onların davamlı inkişafla necə əlaqəli olduğu haqqında şərhi olacaq. Bu klassik fəlsəfi dəyərin üstünlüyünü müzakirə etmək üçün klassik fəlsəfi etik nəzəriyyələr üzərində prioritetləri və daha əhatəli bir anlayışı inkişaf etdirmək, davamlı inkişafı təmin etmək üçün hansı zehni dəyişikliklərin tələb olunduğunu araşdırmaq lazımdır.

Məqsəd

Tədqiqatın əsas məqsədi davamlı inkişaf anlayışının fəlsəfi əsaslarını açmaqdır.

Problem

Davamlı inkişaf konsepsiyası təkcə insanların rifahı ilə bağlı deyil, həm də insanın yaşadığı dünya üçün dayanıqlı inkişaf anlayışı klassik fəlsəfi perspektivləri özündə birləşdirən, eyni zamanda bir-biri ilə uyğunlaşdıran və birləşdirən vahid fəlsəfə kimi iqtisadi, sosial-siyasi və ekoloji sistemin fəaliyyəti kimi başa düşülə bilər.

Obyekt

Bu tədqiqatın əhatə dairəsinə etik və ekoloji sinergiyanın aşkarlanmasına diqqət yetirərək, davamlı inkişaf anlayışının fəlsəfi mənasının təhlili daxildir

Tapşırıqlar

Davamlı inkişaf anlayışının formalaşmasının fəlsəfi kontekstini açmaq; klassik etik fəlsəfi nəzəriyyələri təhlil etmək, davamlı inkişaf konsepsiyası və onların əhəmiyyətini müzakirə etmək; vahid fəlsəfi yanaşmanı təhlil etmək və onun davamlı inkişaf konsepsiyası üçün əhəmiyyətini mübahisə etmək.

Metodlar

Bu məqalədə nəzəri fəlsəfi metodlar tətbiq olunur: sistemli elmi ədəbiyyat təhlil; nəzəri müqayisəli təhlil metodu; tənqidi mətnin yenidən qurulması metodu; nəzəri ümumiləşdirmə metodu. Bu üsullar məqalənin məqsədinə çatmasını və qarşıya qoyulan vəzifələrin həyata keçirilməsini təmin edir.

1. Davamlı inkişaf konsepsiyasının fəlsəfi mənasının əsaslandırılmasına dair

Davamlılıq və inkişaf arasındakı gərginlik qədim mədəniyyətlərin müdriklərinin, antik filosofların və müasir mütəfəkkirlərin düşündüyü ən mühüm fəlsəfi ideyalardan biridir. Davamlı inkişafın təməli ilk növbədə ahəngdar, uzunömürlü insandır. Davamlı inkişaf konsepsiyasının əsas mahiyyəti, xüsusilə, insan təfəkkürünün özünün yalnız fəaliyyət göstərmək qabiliyyətinə görə mümkün olduğunu xatırladıqda aydın olur. Davamlı inkişaf konsepsiyasının başlanğıcını artıq qədim mədəniyyətlərdə görmək olar, hansı ki, daimilik və qeyri-sabitlik və nizamın ziddiyyətləri arasındakı əlaqəni görmüş və bir növ məhdudiyyət kimi qavramışdır. XX əsrin əvvəllərində psixoanaliz mövzunun əqli bütövlüyü və dayanıqsızlığı, psixikanın müxtəlif təbəqələri arasında köklü fərqlər, psixoanalizlər arasında yeni şüur və şüuraltı bölgü haqqında düşünülməyə başlanıldı [1]. Təfəkkür, davamlılıq və inkişaf problemləri dilin təbiətinə dair düşüncələrdə də görünə bilər, dil bizə müəyyən şeyləri açmaqda köməklik göstərir, eyni zamanda başqa şeyləri də gizlədə bilir, başqa sözlə, dil davamlı inkişafımızın mənbəyidir. Dil bizə dünyagörüşü verməklə yanaşı, eyni zamanda dilin yaradılmış varlıqları kimi davamlılıq inkişaf hüdudları da verir. 20-ci əsrin son üç onilliyi postmodernizmin fəlsəfi çağırışları ilə əlamətdardır. Bu məqalənin əvvəli bəhs etdiyimiz kimi, postmodernizm, xüsusən onun aqressiv formaları təkcə ənənəvi metafizikada yox, həm də düşüncənin özünə qarşı üsyan etmək, düşünmənin əsas güclərinə qarşı sərhədləri görməklə də əlaqədardır [2].

2. Klassik fəlsəfi etikanın utilitar və deontoloji təsiri. Davamlılıq Konsepsiyasına dair nəzəriyyələr

Davamlılıq məsələləri müxtəlif fəlsəfi nəzəriyyələrlə bağlıdır. Normativ nəzəriyyələr iki əsas qrupa bölünür. Normativ etika necə yaşamaq prinsiplərini araşdırır. Əsasən də yanlış və doğru hərəkətlərin prinsiplərini, həyatın dəyərini nə təşkil edir və ədalətli cəmiyyət necə olar fikirlərini təhlil edir [3].

Beləliklə, normativ etik nəzəriyyə nəinki tədqiq edir, həm də riayət edilməli olan ən ümumi əxlaqi prinsipləri təqdim edir. İnsan fəaliyyətinin konkret sahələrində yaranan müxtəlif problemləri özündə ehtiva edən müasir, tətbiqi etika təbii olaraq, normativ etikadan irəli gəlir. Teleoloji etika əsasən bildirir ki, nə edirsən et, ən yaxşı nəticələri təmin edən nədirsə onu et. Deontoloji etikanın əsas prinsipi (vəzifə etikası) müəyyən hərəkətlərin (məsələn, qətl, yalan və s., daha doğrusu, onların növləri) pis nəticələrə səbəb olduğu üçün deyil, özlüyündə pisdir. Normativ etikanın bu iki nəzəriyyəsi arasındakı əsas fikir ayrılığı yalnız nəticələrin doğru və yanlış olduğunu müəyyən edib-etməməsi məsələsidir? Bu, problemlərin həlli üsullarının etikadan asılı olaraq, tətbiq olunduğu normativ etikanın əsas məsələsidir [4].

Utilitar nəzəriyyələr daxilində mütləq bir davamlı inkişafla ümumi faydalılığı maksimuma çatdırmaq məqsədi daşıyır. Çünki utilitarizm nəzəriyyəsinə görə bütün insanların qeyri-insani varlıqlarla bərabər fayda daşıyıcıları kimi, eyni məsuliyyət daşıdığını da iddia etmək olar [5]. Zəif və güclü davamlılıq haqqında danışarkən, təbii sərvətləri texnogen kapitalla utilitar həll yolu vasitəsilə əvəz etməyin mümkün olub-olmaması üçün faydalı hesablamalar aparmaq məqsədəuyğun olardı.

3. Davamlı inkişaf konsepsiyasına fəlsəfi vahid yanaşmanın mənası

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf üzrə Ümumdünya Komissiyası dayanıqlı inkişafın tərifini irəli sürmüşdür ki, bu tərif yəqin ki, bütün ədəbiyyatlarda ən məşhurdur: "davamlılıq inkişafı gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki ehtiyaclarını qarşılayan inkişafdır". Son zamanlar davamlı inkişaf anlayışı çox geniş yayılmışdır, lakin praktikada onun üç ölçüsü var - iqtisadi, ekoloji və sosial [6].

Dayanıqlı inkişaf konsepsiyası kimi, davamlılığın cəmiyyətin gələcək inkişafı üçün normativ etik prinsiplərin iqtisadi, sosial və mədəni məhdudiyyətlərlə üzləşdiyini demək olar. Ekoloji etikanı yaradanlar bunu dərk ediblər ki, ənənəvi etika nəzəriyyələri insan və təbiət arasındakı əlaqəni əsaslandırmaq üçün kifayət deyil. Bu kontekstdə insanın təbiətə yanaşmasının bütöv bir şərhi meydana çıxır ki, bu da bu əlaqənin təhlili üçün ekoloji etikanın yeni prinsiplərini təklif edir [7].

İnsanlar həm fərdi, həm də kollektiv olaraq, daima davamlı inkişaf prosesində və ya insan axtarışında iştirak edirlər. Buna görə də dayanıqlı inkişaf konsepsiyasının dərin fəlsəfi mənası iqtisadi, sosial-siyasi və ekoloji sistemlərin fəaliyyətini harmonizasiya edən və birləşdirən vahid etikadır [8].

Nəticə

Davamlı inkişaf əsas insan ehtiyaclarının ödənilməsi, inteqrasiya baxımından təyinetmə və mədəni müxtəlifliyin təmin edilməsi, ekoloji bütövlüyün qorunması, ətraf mühitin inkişafı və mühafizəsi, bərabərliyə nail olmaq üçün öz sosial müqəddəratının həllini təmin etməlidir. Baxmayaraq ki, keçmişdə müəyyən dəyişikliklərə məruz qalmış davamlı inkişaf konsepsiyası var, onun fundamental fəlsəfi prinsipləri və məqsədləri ətraf mühitin məhdudiyyətlərinə uyğunlaşdırılmış daha şüurlu davranışa kömək etmişdir. İnsan fəaliyyətinin müxtəlif sahələrində konsepsiyanın qəbul edilməsinin səbəbi budur. Davamlı inkişaf, bütövlükdə cəmiyyətin sosial rifahını və davamlılığını təmin edən etik dəyərlər olmadan mümkün deyil.

Klassik etik nəzəriyyələr davamlı inkişafı təmin edən konkret qərarlar qəbul etməyə kömək edə bilər. Davamlı inkişaf həmişə bütün xalqların rifahının yüksəldilməsini nəzərdə tutur. Davamlı inkişaf harmonizasiya edən vahid fəlsəfədir və iqtisadi, sosial-siyasi və ekoloji sistemlərin fəaliyyətini birləşdirir.

İstifadə edilmiş ədəbiyyat

1. A Holistic Approach to Sustainable Community Development in the Developing World. / [Electronic resource] // URL: https://www.diva-portal.org/smash/get/diva2:833344/FULLTEXT01.pdf

2. Cesar Cuello Nieto. TOWARD A HOLISTIC APPROACH TO THE IDEAL OF SUSTAINABILITY. / [Electronic resource] // URL: https://scholar.lib.vt.edu/ejournals/SPT/v2n2/pdf/cuello.pdf

3. Davamli inkişafin sosial və fəlsəfi problemləri. (Kollektiv monoqrafiya). Bakı, "Elm və təhsil", -2019, -312 səh.

4. Happiness: towards a holistic approach to development. / [Electronic resource] // URL: https://www.un.org/esa/socdev/ageing/documents/NOTEONHAPPINESSFINALCLEAN.pdf

5. İNSAN İNKİŞAFI. Tədris vəsaiti. / BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNKİŞAF PROQRAMI / / [Electronic resource] // URL: https://www.undp.org/sites/g/files/zskgke326/files/migration/az/1.pdf

6. RAFAŁ BAUM. SUSTAINABLE DEVELOPMENT – A MODERN UNDERSTANDING OF THE CONCEPT. / [Electronic resource] // URL: file:///C:/Downloads/Sustainable_development_a_modern_un.pdf

7. SUSTAINABLE DEVELOPMENT AND ENVIRONMENTAL PROBLEM: A PHILOSOPHICAL ANALYSIS. / [Electronic resource] // URL: https://hrcak.srce.hr/file/376700

8. Tomasz Zygmunt. Philosophy of Sustainable Development, Polish Perspective / [Electronic resource] // URL: https://intapi.sciendo.com/pdf/10.1515/dcse-2016-0015

YAZILI İŞGÜZAR KOMMUNİKASİYADA PUNKTUASİYANIN İŞLƏNMƏ MƏQAMLARI

Gülnar Adil qızı Vəliyeva
Mingəçevir Dövlət Universiteti
abbasovagulnar1986@gmail.com
https://orcid.org/0000-0001-8214-5235

Dil yarandığı dövrdən etibarən öz daxili qanunları, başqa xalqlarla qarşılıqlı əlaqəsi əsasında inkişa edərək formalaşır. Bütün dünya xalqlarında olduğu kimi, Azərbaycan xalqının da dili onun milli kimliyini, varlığını müəyyən edən başlıca amillərdən və şərtlərdən biridir. Azərbaycan dilini mükəmməl bilmək hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Mükəmməl bilmək dedikdə adi ünsiyyət səviyyəsində deyil, akademik səviyyədə olması nəzərdə tutulur. Doğma dilimizin akademik səviyyədə öyrədilməsi Azərbaycan məktəblərinin qarşısında duran ən böyük vəzifədir. Akademik nitqə malik olmaq üçün ədəbi dilin normalarına düzgün riayət edilməsi başlıca şərtdir. A.Qurbanov Azərbaycan ədəbi dilinin normalarını aşağıdakı şəkildə təsnif etmişdir. [2, s.20]

1) Fonetik normalar,
2) Leksik normalar,
3) Morfoloji normalar,
4) Sintaktik normalar,
5) Onomastik normalar,
6) Semantik normalar,
7) Frazeoloji normalar,
8) Derivatoloji normalar,
9) Üslubi normalar

Qrammatik normaların tərkibə daxil olan hissələrdən biri də punktuasiyadır.

Punktuasiyanın əsasını məna, qrammatik quruluş və intonasiya təşkil edir. Q.Kazımov doğru olaraq "Müasir Azərbaycan dili" dərsliyinin sintaksis bölməsində dilçiliyin durğu

işarələrindən bəhs edən hissəsini ümumiləşmiş şəkildə punktuasiya adlandırır, onun durğu işarələrindən istifadə qaydalarının cəmi kimi orfoqrafrafiya və kalliqrafiya ilə birlikdə yazı qaydalarının nizama salınmasında xüsusi qiymətini qeyd edir. Bununla yanaşı o, punktuasiyanın əsaslarının izahında üç istiqaməti əsas götürür: məna, sintaktik quruluş, intonasiya.

1.Birinci istiqamət durğu işarələrinin işlədilməsi, mətnin mənalı hissələrə bölünməsi.

2. İkinci cümlənin sintaktik quruluşu.

3. Üçüncü nitqin ritmik-melodik axını.

Durğu işarələrinin dilin qrafik sistemində mühüm yer tutduğunu, hərflər, rəqəmlər və digər vasitələrlə verilə bilməyən cəhətlərin ifadəsinə, beləliklə, mətnin düzgün anlaşılmasına, mühüm kommunikativ funksiyaya xidmət etdiyini bildirir. [3, s.486] Bəzi dilçilər punktuasiyanı "qaydaların məcmusu" və ya "qaydalar sistemi" adlandırırlar.

Durğu işarələri yazılı nitqin düzgün formalaşmasında böyük rol oynayır. Durğu şərti işarələrdən biridir, ayırıcı və fərqləndirici funksiyalar daşıyır.

Azərbaycan dilinin yazısında ən çox işlədilən durğu işarəsi nöqtədir. **Nöqtə** adi intonasiya ilə deyilən, hər hansı bir fikrin və ya məlumatın bitdiyini göstərən bütün növ cümlələrin sonunda qoyulan bir işarədir. Nöqtədən sonra bir qayda olaraq fasilə edilir. Bu da onun ayırıcı funksiyaya sahib olduğunun bariz göstəricisidir. Yazılı kommunikasiya prosesində nöqtənin ən çox işləndiyi məqamlar aşağıdakılardır:

1. Nəqli cümlənin sonunda: *Pələngin dəhşətli və həyəcanlı nərəsi gecənin sükutunu pozdu.*
2. Əmr, istək, arzu, xahiş, məsləhət mənalarında işlənən əmr cümləsinin sonunda: *Doğma vətənimizi göz bəbəyimiz kimi qoruyaq.*
3. Şəxsiz cümlələrin sonunda: *Dünən həftənin son günü idi.*
4. Qeyri-müəyyən şəxsli cümlələrin sonunda: *Yaxınlığımızada yeni binalar tikirlər.*
5. Adlıq cümlələrin sonunda: *Dağın ətəyində gözəl bir mənzərə.*
6. Yarımçıq cümlələrin sonunda: - *Haralısan?* - *Qarabağlı.*
7. Təktərkibli cümlələrin sonunda: *Dərs ilinin sonudur.*
8. Tabesiz mürəkkəb cümlələrin sonunda: *Həsən bu işə qol qoyub, Vüsal isə tərs öküz kimi yola gəlmir.*
9. Tabeli mürəkkəb cümlələrin sonunda: *Məhkəmədən xahişim bu oldu ki, məni haqsız təhqirlərdən qorusun.*
10. İnisial yazılarkən ad və ata adının qısaltma formalarında: *M.S.Ordubadi, M.F.Axundzadə, İ.N.Məmmədli*
11. *və sair, və ilaxir, və başqa, bu kimi, və habelə* sözləri ixtisar şəklində yazıldıqda həmin sözlərin sonunda: *və s., və i., və b., bu k. və h.* Bu ixtisarlar cümlənin sonundan savayı istənilən yerdə işləndikdə durğu yox, orfoqrafik funksiya daşıyır. Cümlənin sonunda işləndikdə təkrar nöqtə qoymaq lazım deyil.Məsələn: *Konfransa bizim universitetdən də qatılmışdılar: Ayna, Səadət, Nigar və s.*
12. Gizli saxlanılan adların yazılışında: *D. (Dəli), A. (Avara), Ö. (Öksüzlər)* və s.
13. Rəqəm və hərflə bildirilən bölgülərdə: *1. , 2. ,3., a., b., c.* və s.
14. Söz və rəqəm kombinasiyasında: *Maddə1., Maddə2., Cədvəl1., Cədvəl 2.* və s.

Vergül cümlə daxilində kiçik fasiləli ayırmadır. Yazılı kommunikasiya prosesində vergülün işləndiyi əsas məqanlar aşağıdakılardır:

1. Cümlənin sadalama intonasiyası ilə deyilən həmcins üzvlər arasında qoyulur: *Sabahkı seminarda Anarə, Tural, Vəfa çıxış edəcəklər.*

2. Tabesiz mürəkkəb cümlənin tərəfləri arasında qoyulur: *Asim diqqətlə qulaq asırdı, ancaq heç nə başa düşmürdü.*

3. Tabeli mürəkkəb cümlələr arasında qoyulur: *Ancaq indi yadıma düşdü ki, Əli dünən axşam şəkil göstərəcəkdi.*

4. Cümlə üzvünün əlavəsindən qabaq qoyulur: *Dünən, yəni martın 8-də onu gördüm.*

5. Xitabları cümlənin başqa üzvlərindən ayırmaq üçün qoyulur:

Oğul, yaxına gəl. Nə olub , ana, niyə belə narahatsan?

6. Ara sözləri cümlənin başqa üzvlərindən ayırmaq üçün qoyulur: *Sözsüz ki, sən də ora getməlisən. O, əlbəttə, gələcək. Bu işdə tələsmək uduzar, məncə.*

7. Mübtəda vəzifəsində işlənən *o, bu* əvəzliklərindən sonra qoyulur: *O, Türkiyəyə getməyim üçün göstəriş verdi. Bu, maraqlı filmdir.*

8. Qarşılaşdırma, bölüşdürmə, aydınlaşdırma və səbəb bildirən çünki bağlayıcısından əvvəl qoyulur: *Özün söz vermisən, ancaq əməl etmirsən. Arif heç bir söz demədi, çünki nə deyəcəyini bilmirdi. Ya məni, ya da onu seç.*

9. Kiminsə fikrinə və ya mövqeyinə istinad olduqda *görə* qoşmasından sonra qoyulur: *Arif müəllimin dediyinə görə, heç kəs dərsə hazır deyildi.*

Nöqtəli vergül fasiləyə görə nöqtə ilə vergül arasında mövqe tutur. Mürəkkəb və ya sadə cümlələrin nisbətən müstəqil hissələrini bir-birindən ayıraraq cümlədə ayırıcı funksiyanı yerinə yetirir. Yazılı kommunikasiya prosesində nöqtəli vergülün işləndiyi əsas məqanlar aşağıdakılardır:

1. Mürəkkəb cümləni əmələ gətirən sadə cümlələrdə həmcins üzvlər olduqda mürəkkəb cümlənin tərkib hissələri arasında qoyulur: *Uzun qış axşamı idi; külək əsir, üzü qılınc kimi kəsirdi.*

2. Rəsmi və işgüzar sənədlərin dilində istifadə olunur:

Kafedra müdirinin səlahiyyətlərinə aşağıdakılar daxildir:

a) açıq dərslər keçirmək;

b) davamiyyəti nəzarətə almaq;

c) simpoziumlar keçirmək; və s.

İki nöqtə cümlədə fikri aydınlaşdırmaq, ümumi fikirdən sonra onun izahını vermək məqsədi ilə istifadə edilir. Yazılı kommunikasiya prosesində nöqtəli vergülün işləndiyi əsas məqanlar aşağıdakılardır:

1. Cümlənin həmcins üzvlərindən əvvəl ümumiləşdirici söz işləndikdə ondan qabaq qoyulur: *Azərbaycanın hər yerində: Bakıda, Şəkidə, Gəncədə onu sevirlər.*

2. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlənin tərəfləri arasında qoyulur: *Hamını bir şey düşündürürdü: ermənilər Qarabağdan nə vaxt çıxaracaqlar.*

3. Vasitəsiz nitq müəllif sözlərindən sonra gələrsə, o zaman qoyulur: *O ötkəmlə bildirdi: "Mən cəbhəyə gedirəm".*

4. Dialoqda və "Məsələn" sözündən sonra qoyulur: Dilimizdə vurğunun yerinə dəyişməklə leksik mənası dəyişən sözlər var . *Məsələn: gəlin, alma, alın, şaxta və s.*

5. Toplantı, görüşlərin sonunda bəyannamənin qəbul edilməsi mərhələsində və sadalama ehtiyacı duyulan rəsmi sənədlərdə, sərəncamlarda qoyulur: *Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin 1-ci hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq qərara alıram:*

6. Konfransın plenar iclasında:

Konfransın mövzusu:

Konfransın işçi dili:

Üç nöqtə cümlənin bitmədiyini, emosional gərginliyi bildirir. Yazılı kommunikasiya prosesində üç nöqtənin işləndiyi əsas məqanlar aşağıdakılardır:

1. Fikrin bitmədiyini bildirən aydınlaşdırma əlaqəsindən sonra qoyulur: *Qarşıda gözəl bir mənzərə açılmışdı: bir tərəfdən doğan günəs..., o biri tərəfdən dənizin sərin mehi...*

2. Vasitəsiz nitqlərdə qoyulur: *Elə bilirsən ki, bu əl boyda kağız məni xoşbəxt edəcək...*

3. Hiss və həyacan bildirən xitablardan sonra qoyulur: *Əzizim..., həyatım..., ömrüm...*

4. Sitatın həcmi çox olduqda, qısaltmalar zamanı istifadə edilir. Əgər sitatın əvvəlini qısaldırıqsa üç nöqtə əvvəldə qoyulur. Sitatın sonunu qısaldırıqsa üç nöqtədən sonda istifadə edilir.

5. Dialoqlar zamanı müsahib verilən suala cavab vermədikdə qoyulur: *Müəllim uşaqdan soruşdu: - Dərsə hazırsan?*

...

Tire cümlələrdə sintaktik konstruksiyaları bir-birindən ayırmaq, fərqləndirmək məqsədilə istifadə olunur. Bəzən tire defislə səhv salınır. Onu da qeyd edik ki, defis durğu işarəsi deyil. Defis orfoqrafik norma sisteminə daxil olunur. Həm də, tire defisdən uzun işarələnir. Yazılı kommunikasiya prosesində tiredən istifadə olunan məqanlar aşağıdakılardır:

1. Dialoqda iki və daha artıq şəxsin danışığı (replika) verildikdə də cümlənin əvvəlinə tire qoyulur:

– Səncə, bu gövdəli, qollu-qanadlı palıd nəyə görə yerə yıxılıbdır?

– Yəqin ki, bu gecə güclənən küləyə görə.

2. Cümlə üzvünün əlavəsində istifadə olunur: *Telefonun dəstəyini ağayana – ötkəm bir əda ilə qaldırdı...*

3. Əlavə cümlənin hər iki tərəfində tire qoyulur: *Bir gün – o günü mən həsrətlə gözləmişdim–arzularım çin oldu.*

4. Vasitəsiz nitq işlənən cümlədə müəllifin sözü vasitəsiz nitqdən sonra işləndikdə ondan əvvəl tire qoyulur: *"Tural gəlir" , – deyə Günel sevindi.*

5. Vasitəsiz nitq müəllifin sözlərindən əvvəl və sonra gəldikdə hər iki tərəfdə tire işarəsi qoyulur: *"Universitetə gedək, – dedi, – orada vacib işim var".*

6. Müəllifin sözləri ilə vasitəsiz nitq ardıcıl işləndikdə də tire eyni qayda ilə qoyulur: O, əlini masaya vurub: *"Olmaz, –dedi, buna siz qarışmayın".*

7. Ayların qeyri-müəyyən zamanla ifadə olunması zamanı istifadə edilir: *Yanvar–fevral aylarında*

8. Rum rəqəmlərinin arasında qoyulur: *XI–XII əsrlərdə*

Mötərizə əsas fikri tamamlamaq, vacib tarixi hadisəni, cümləni izahla nəzərə çatdırmaq funksiyası daşıyır. Yazılı kommunikasiya prosesində mötərizədən istifadə olunan məqanlar aşağıdakılardır:

1. Əsasən, əlavə cümlələri fərqləndirmək üçün onlar mötərizədə verilir: *Dostumun üzündəki çapıq (uşaq vaxtı yıxılanda olmuşdu) onun sifətinə xüsusi yaraşıq verirdi.*

2. Bədii və elmi əsərlərdə sitatın mənbəyini göstərəndə istifadə edilir: *Ay Xudayar bəy, başına dönüm, axı eşşəyi neylədin? Axı sabah züvvar çıxır (CMəmmədquluzadə).*

3. Aydınlaşdırma, əlavə izah məqamında istifadə olunur: *Onun məqsədi Azərbaycan (və Azərbaycan xalqı) haqqında ümumi təsəvvür yaratmaqdır.*

4. Tarixi illəri qeyd edəndə də istifadə edilir: *Nizami Gəncəvi (1141-1209) dünyada xəmsəsi ilə tanınır.*

Dırnaq işarəsi mətndə vasitəli və vasitəsiz nitqi, sitatları, məcazi və ya şərti mənada işlədilən sözləri, qəzet, jurnal əsər, kinofilm, opera, nəşriyyat və s. adları fərqləndirir: *Müəllim bizə üzünü tutub dedi: "Dərslərinizi yaxşı oxuyun".* Yazılı kommunikasiya prosesində dırnaqdan ən çox istifadə olunan məqam elmi əsərlərdəki sitatlardır.

Sual işarəsi sual əvəzliyi, sual ədatı işlənən cümlələrin və sual cümlələrinin sonunda işlədilir. Əsasən cavab almaq məqsədi ilə işlədilir. Sual səsləndirilirsə, intonasiya ilə deyilir, yazılırsa, sonunda sual işarəsi qoyulur. *Sən onu tanıyırsan? O, tələbədirmi? Onu kim tanıyır?*

Nida cümlənin hiss və həyacanla ifadə olunduğunu bildirir. Şifahi nitqdə intonasiya ilə, yazılı nitqdə isə mətn vasitəsilə müəyyən edilir. Subyektin daxili aləminin ifadəsi olan nida işarəsi, adətən, cümlənin sonunda qoyulur: *Sən insan oğlunun taleyinə bax! Qarabağ Azərbaycandır!*

Hiss-həyəcanla deyilən xatabdan, nidalardan, bəli, xeyr ədatlarından sonra da nida işarəsi qoyulur: *Xuraman, Xuraman! Gör nəyin xəyalındasan! Bəh, bəh! Afərin sənə! Xeyr! Bu, sənin işin deyil!*

Romandakı üçüncü dil təsvir edilən məkanın özünəməxsus sintaksisinə uyğun gələnləri görükdürür, həmin dünyanın görünməyən yönlərinə işıq salır. Yazıçı məkanın əsrarəngiz mənzərələrini, keşməkeşli olayları sanki cümlələrin konstruksiyasına yığır. "Daha dağların başından çən – duman çəkilmirdi. Çobanların cürcənəsi, igidlərin yapıncısı çiyinlərindən düşmürdü. Axşamlar alaçıqlarda, komalarda ocaq qalanırdı. Hər səhər otların üstünə şeh-qırov düşürdü. Nəhayət, bir axşam alaçıqlar, komalar söküldü. Geçələr, alaçıq çubuqları, dolu fərməşlər, motallar, yağ çirişləri dəvələrə yükləndi. Atlar yəhərlənib dayandılar. Ay doğanda el tərpəndi arana". Muradın təsəvvüründə Fatma nənəsinin "gödək ilan" ifadəsi mamasının əri Əbdüləzizi əvəz edir. Romanda Qaçaq Xanmuradın, Qaçaq Məşədi Təhməzin adları da dastanlarda olduğu kimi epitetlərlə birgə çəkilir. Romandakı hər bir başlıq əsərin əsas süjeti ilə bağlanır: "Muradın söylədikləri", "Cavan tacirlə pristav qızının əhvalatı", "Bayram babama güllə atılması və qoca qaçaq" və s.

Romanda dördüncü dil gerçəkliyi birbaşa, açıq-saçıqlıqla görükdürən, daha doğrusu gerçəkliyin adından çıxış edən dildir ki, bəzi detalları ilə öncəkilərlə ilgilənir. Burada folklor simvolu ilə kəskin dialoqlara da yer verilir. Muradın düşüncəsində mif və folklor dili anasının, babasının, Əhmədalının, Qaracanın və s. səsi ilə uzlaşır.

İlyas Əfəndiyev yaradıcılığında folklordan və mifoloji ünsürlərdən də məharətlə istifadə etmişdir. Romanda təsvir edilən Gödək Nisə surəti nağıllarımızdakı qarıları xatırladır. O, nağıllarda evlər yıxan, xoşbəxt ailələri faciələrə düçar edən cadugər, ifritə qarılara bənzəyir. Gödək canıyla aranı qızışdırır, acı diliylə bir elin-obanın cavanlarının arasına qan salır. Onun atdığı böhtan nəticəsində onlarla igid oğlan bir-birinin qanını tökür və bu qan iki nəsil arasında düşmənçilik toxumu səpir.

İlyas Əfəndiyev yaradıcılığı üçün səciyyəvi olan bir çox cəhətlərdən biri də onun təbii və canlı bir dildə yazmasıdır. Bədii üslubu formalaşdırıb, dolğunlaşdıran mənbələr cərgəsində folklor poetikasının, folklor ənənə və motivlərinin rolu İlyas Əfəndiyevin yaradıcılığında olduqca güclüdür. Tənqidçi-ədəbiyyatşünas, professor Yaşar Qarayev yazırdı ki, "Əlbəttə, mübahisə etmək olar ki, İlyas Əfəndiyev daha çox nasirdir, ya dramaturq? Hətta mübahisə etmək olar ki, nəsrdə də, daramaturgiyada da o, daha çox ədibdir, yoxsa şairdir? Lakin bir şey mübahisəsizdir: İlyas Əfəndiyev hər şeydən əvvəl, bir lirikdir, şairanə istedada və üsluba malikdir." [1, s.85]

İlyas Əfəndiyev əsərlərinin bədii siqlətinin məna çalarını onun özünəməxsus fərdi üslubu təşkil edir. Yazıçı təbiətdə də, cəmiyyətdə də, insanda da gözəlliyin vurğunudur; bu gözəlliyi tapa və görə bilir. Gözəlliyin də lirika ilə dil açması təbiidir. Buna görə də İlyas Əfəndiyevin dilində güclü şeiriyyət var. Bu şeiriyyət təkcə sevgi səhnələrinin təsvirində, lirik qəhrəmanların emosional söhbətlərində deyil, bütövlükdə İlyas Əfəndiyevin bədii sənətindədir, nəsrində və dramaturgiyasındadır.

Ustad sənətkar insan qəlbinə və mənəviyyatına dərindən nüfuz etdiyindəndir ki, hər bir obrazın daxili hiss və həyəcanlarını, həyata və insanlara baxışını incə, psixoloji çalarlarla üzə çıxarır. İlyas Əfəndiyevin nəsr əsərlərinə məxsus emosionallıq, dərin psixologizm, incə lirizm və təzad ayrı-ayrı obrazların mürəkkəb və ziddiyyətli xarakterləri vasitəsilə açılır. Parlaq istedadı və çoxçeşidli yaradıcılığı ilə ədəbiyyat tariximizdə xüsusi bir mərhələ təşkil edən unudulmaz sənətkarın heç zaman təravətini və bədii siqlətini itirməyən əsərləri əsrlər boyu yaşayacaq.

İstifadə edilmiş ədəbiyyat

1. Abbaslı R. «İlyas Əfəndiyevin yaradıcılığı» (Yeni nəşrlər) Ə.Əfəndiyevin eyni adlı kitabı haqqında //Azərbaycan. - 2000. - 3 oktyabr.
2. Abdullazadə A. Bir Ömrün poeziyası və ya yubiley təntənələrindən sonrakı düşüncələr. (İ.Əfəndiyev-80) //İncəsənət. - 1994. - 6 sentyabr.
3. Bayatlı Ö. V. Talecə incimiş insanların yazıçısı. (İlyas Əfəndiyev - 80) //Ədəbiyyat qəzeti. - 1994. - 27may.
4. Əfəndiyev İ. Seçilmiş əsərləri. Üç cilddə. I cild Bakı, "Avrasiya Press", 2005, 280 səh.

AZƏRBAYCANIN UĞUR MODELİ – DEMOKRATİYA PLYUS

Gülər İlham qızı Əjdərzadə
Mingəçevir Dövlət Universiteti
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
https://orcid.org/0000-0002-6992-6325
gular.ajdarzada@mdu.edu.az

İki əsrlik məcburi fasilədən sonra yenidən özünün müstəqil dövlətini quran Azərbaycan xalqı onun formasını da seçməyə çox məsuliyyətlə yanaşmışdır. Bu zaman gündəlik həyatın normaları xalqın tarixi təcrübəsindən və dünya sivilizasiyasının ən parlaq nailiyyətlərindən maksimum istifadə edilməklə müəyyənləşdirildi. Bu model isə hüquqi dövlət, azad sahibkarlığın inkişafı, müasir prinsipli vətəndaş cəmiyyətinin bərqərar olunmasına istiqamət, sosial məsələlərin priotetliyini nəzərdə tutur. Ən əsası isə onun reallaşması üçün optimal mühitə - demokratiyaya bağlılıq qətiləşmiş, onun Azərbaycanda bərqərarlığı üçün əməli işlər görülməyə başlanmışdır.

Demokratiyanın respublikamızda kök salması isə heç də asan və rəvan olmamışdır. Onun asan olmayacağını cəmiyyətin mütərəqqi qüvvələri yaxşı dərk edirdilər. Dünyanın heç bir ölkəsində

müasir demokratik cəmiyyət birbaşa yüksək səviyyəsinə çatmamış, çətinlikləri kifayət qədər ciddi olmuşdur. Məsələdə vacib şərt, ilk növbədə, demokratik dəyərlərin ölkəmizə gəlməsi, bərpası və inkişafıdır. Çünki demokratiya həm insan azadlığı haqqında prinsiplər toplusu və praktiki şəkildə bəşəriyyətin topladığı müsbət birgə yaşayış təcrübəsidir [3]. Lakin bütün dövrlərdə mahiyyətcə ona zidd olan qüvvələr daim onu gözdən salmağa çalışmışlar. Həmçinin demokratiyanın universallığının və hər bir ölkədə spesifikliyinin olmasının nəzərdən qaçırılması da bu mühitin bərqərarına müvafiq maneçilik törətmişdir. Bununla belə təcrübə sübut etmişdir ki, heç bir ölkədə, heç bir qüvvə onun inkişafının qabağını ala bilməmiş, o tədricən dünyanın inkişafını təmin edən aparıcı faktora çevrilmişdir.

"Demokratiya" yunan sözü olub, "xalq hakimiyyəti" (demos - xalq, kratos - hakimiyyət) deməkdir. Onun əsas elementləri qədim Yunanıstanda meydana gəlsə də, müxtəlif formalarda bütün xalqların tarixində olmuşdur. Eyni zamanda tarixin bütün inkişaf mərhələlərində demokratiya anlayışı daha yeni və daha dərin məzmunda cəmiyyətin diqqətini cəlb etmişdir. Ölkələrin tarixi, oradakı sosial qruplar və xalqlar arasındakı qarşılıqlı münasibətlər bu işdə mühüm rol oynamışdır. Bir sözlə, demokratiya tədricən tarixin çətin sınaqlarında formalaşan praktiki münasibətlər toplumuna çevrilə bilmişdir [1].

Demokratiya maksimum dərəcədə xalqın hakimiyyətin formalaşmasına və idarə edilməsinə cəlb edilməsi deməkdir. Xalq hakimiyyətin mənbəyidir. Ancaq bu heç də hakimiyyətin və dövlətin bütün əhali tərəfindən idarə olunması demək deyildir, çünki bu, praktiki cəhətcə mümkün deyildir. Dövləti azad seçki sistemində xalqın seçdiyi nümayəndələr idarə etməlidirlər. Bu baxımdan da, demokratiyanı çoxluğun hakimiyyəti adlandırmaq olar. Eyni zamanda bu prinsip azlıqların azad şəkildə fikir söyləmək hüquqlarının qorunması prinsipinin gözlənilməsi ilə də sıx bağlıdır.

Demokratiya tarixi inkişafın məhsuludur. Cəmiyyətin inkişafı ilə əlaqədə o da dəyişmiş və hər dövrdə daha da yüksək səviyyəyə qalxmışdır. Bu proses indi də getməkdədir. Demokratiyanın gücü qanundan əlavə kimlərinsə hüquqlarının məhdudlaşdırıla bilinməməsindədir [4]. Həmçinin heç kəsin qanundan yuxarı dura bilməməsi də vacib şərtlərdəndir.

Demokratiyanı sözdən fəaliyyətə keçirən əsas vasitə dövlətin ali qanunu olan Konstitusiyadır. Demokratik cəmiyyətin bütün mahiyyəti qanunların rəsmi ifadəsi olan bu sənəddə açılır. Konstitusiya, həmçinin demokratiyanın mövcudluğunun və inkişafının təminatçısı rolunda çıxış edir. Bu ali qanunda hakimiyyət orqanlarının formalaşdırılması, vəzifəsi və səlahiyyətləri, məhkəmələrin fəaliyyəti, vətəndaşların hüquq və azadlıqlarının dövlət tərəfindən təminatı aydın göstərilir. İstənilən konstitusiyanın demokratiklik ölçüsü kimi isə hakimiyyətin idarəolunanların rəyi əsasında qurulması götürülür. Cəmiyyətin inkişafı çox halda əsas qanunun keyfiyyətindən və günün tələblərinə cavab verə bilmək qabiliyyətindən asılıdır. Buna görə də konstitusiyanın doğma olmayıb ehtiyac olduqda dəyişə bilməsi də normal haldır. Düzdür, onun tez-tez dəyişilməsi də müsbət effekt vermir. Və burada onun müddəalarının uzun ömürlülüyü ilə təkamülünün vacibliyi arasında optimal "qızıl" orta xəttin tapılması vacib şərt sayılır [3].

Konstitusiyanın dəyişilməsində dünya ölkələrində iki təcrübə variantı qərarlaşmışdır. Birində ali qanuna ya parlamentdə, ya referendumda müvafiq dəyişiklik edilir. Bu zaman onun tərəfdarları olduğu kimi, etiraz edənlərin də sayı az olmur.Bunun açıq şəkildə getməsinin özü də ölkədə demokratiyanın mövcudluğu kimi əsaslandırıla bilər.

İkinci varintda isə, sadəcə bəyannamədən ibarət olan Konstitusiyanın özünə heç bir dəyişiklik edilmir, ya da bu nadir halda olur. Dövlətin idarə olunması və cəmiyyətin inkişafı üçün tələb olunan yeni konstitusion müddəalar isə məhkəmə qərarları, etiraz doğurmayan prezident fərmanları, ən əsası isə ənənələr vasitəsilə əldə edilir.

Konstitusiyanın dəyişməsi və ya hansı formada dəyişməsi demokratiya üçün əsas məsələ deyildir. Başlıca qayə ali qanunun və onu tamamlayan qanunların demokratiyanın mövcudluğuna, inkişafına və cəmiyyətin aparıcı fəlsəfəsi olmasına şərait yaratmasıdır.

Demokratiya doğma deyil, o daima dəyişən, zənginləşən, yeniliyə meyillənən bir prosesdir. O reallığa və obyektivliyə əsaslanır. O hər gün sınaqdan keçirilir, hər bir kəsin ona şübhə ilə yanaşmaq hüququ vardır, onun toxunulmazlıq və ya bütpərəstlik imici yoxdur [2].

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi prosesi daha yüksək inkişaf pilləsinə qalxır. Bu proses özündə xalqımızın milli dövlətçilik ənənələrini yaşatmaqla yanaşı, dünyanın qabaqcıl ölkələrinin təcrübəsini də əks etdirməyə meyllidir.

Azərbaycanın inkişaf prosesinin təhlili göstərir ki, ölkənin tərəqqisi əldə edilmiş müsbət təcrübənin qorunmasında, hüquqi dövlətin təkmilləşdirilməsində, demokratiyanın inkişafında, bazar iqtisadiyyatının bərqərar olmasında, beynəlxalq birliyə inteqrasiyada və gələcəyimizin məsuliyyətinin dərk edilməsindədir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev V. Müstəqilliyimizin strategiyası. Bakı, 2002
2. Məmmədov A. Beynəlxalq münasibətlər. Bakı, 2002
3. Mirzəzadə A. Demokratiya plyus. Bakı, 2004
4. Hüseynova İ. Azərbaycan dövlətçiliyinin bu gününün və sabahının qarantı.- "Yeni Azərbaycanın qurucusu". Bakı, 2002

MULTİKULTURAL DƏYƏRLƏRİN MÜASİR CƏMİYYƏTİN İNKİŞAFINDA ROLU

Kəmalə Cahangir qızı Hüseynova
Mingəçevir Dövlət Universiteti
kemalehuseynova62@gmail.com
https://orcid.org/0009-0007-1806-4028

Multikulturalizm – çoxmədəniyyətli cəmiyyətin təşkili və inkişafında müxtəlif mədəniyyət və dinlərə, adət-ənənələrə sahib insanların bir arada milli-mədəni özünəməxsusluğunu qoruyub saxladığı birgəyaşayış tərzidir. Əsasının XIX əsrdə Qərbdə qoyulduğu və XX əsrdə formalaşaraq, günümüzdə də davam etdirilən qloballaşma təəssüf ki, bəzi Avropa ölkələri tərəfindən müxtəlif dövlətlər arasında sədlərin dağıdılması, mədəniyyətlərin özünəməxsusluğunun, rənarəngliyinin aradan qaldırılması, ayrı-ayrı mentalitetləri bir qəlibə salmaq, qərbləşdirmək məqsədi güdür. Lakin XXI əsrin əvvəllərindən etibarən dünyada bu istiqamətdə müşahidə olunan siyasi-mədəni dözümsüzlük multikulturalizm siyasətinin iflasa uğraması və bunun əksinə olaraq respublikamızda aparılan uğurlu daxili və xarici siyasət məsələyə yeni baxış və yanaşmaların meydana gəlməsinə səbəb olmuşdur.

Müasir dövrdə getdikcə daha da qloballaşan sivilizasiyalararası ziddiyyətlər xalqların milli-mənəvi dəyərlərinin qorunub saxlanılması zərurətini daha da aktuallaşdırır. Hələ İkinci dünya müharibəsinin ardınca Avropada və dünyanın müxtəlif bölgələrində başlanan "soyuq müharibə" təhlükəsi, keçmiş Sovet imperiyasının dağılması fonunda postsosialist Avropa dövlətlərində (məs., Polşa, Rumıniya, Macarıstan, Çexoslovakiya) etnosların suverenlik uğrunda mübarizəsi dünyanın siyasi səhnəsi və dövlət idarəçiliyinə yeni yanaşmaların formalaşmasına gətirib çıxardı. Artıq cəmiyyətdə siyasi-ideoloji fərqlər aradan qalxır və miqrasiya proseslərinin də sürətlənməsi çərçivəsində multi-etnik cəmiyyətlərin sayı xüsusən Avropada getdikcə daha da artırdı. Bu isə öz növbəsində yeni münaqişə mərkəzlərinin yaranmasına səbəb olurdu. Bu baxımdan 90-cı illərin əvvələrindən Yuqoslaviyada və Bosniya-Hersoqovinda baş verən müstəqil və eyni zamanda etno-siyasi münaqişələr, XXI əsrin ikinci onilliyində islam ölkələrini (məs.Suriya və Yəmən) bürümüş və kökündə sünni-şiə qarşıdurmasının dayandığı münaqişələr bir daha məsələnin aktuallığını gündəmə

gətirmişdir. 2001-ci il 11 sentyabr hadisələrindən sonra dünyanın siyasi mənzərəsi əhəmiyyətli dərəcədə dəyişmiş, Qərb ölkələri, eyni zamanda Amerikada miqrasiya məsələsinin geniş miqyas alması islamafobiyanın və irqçi meyllərin genişlənməsi ilə multikultural dəyərlərə yanaşma yeni rəng almağa başlamışdır. Avropa ölkələri, xüsusən Böyük Britaniya, Almaniya və Fransa multikulturalizmdən imtina etdiklərini açıq şəkildə bəyan etməkdən çəkinməmişlər. 2010-cu ildə Almaniyada hakim Xrisian-Demokratik İttifaqının qurultayında kansler Angela Merkel bildirmişdir ki, Almaniyada multikultural cəmiyyətin qurulması prosesi iflasa uğramış, etnik və dini müxtəlifliyin ölkədə birgəyaşayış modelini və hüqiqi mexanizmlərini qurmaq mümkün olmamışdır. Lakin eyni zamanda o öz çıxışı zamanı bu siyasətin uğursuzluqlarına baxmayaraq, ölkədəki çoxsaylı mühacirlərin bundan sonra alman mədəniyyətini səylə mənimsəməli olduğunu və yerli cəmiyyətə sürətlə inteqrasiya etməli olduqlarını vurğulamışdır. Eyni fikrin daha sonra Böyük Britaniyanın Baş naziri Devid Kemeron və Fransa prezidenti Nikola Sarkozi tərəfindən də səsləndirilməsi birmənalı şəkildə Avropa dövlətlərinin bu məsələyə radikal münasibət nümayiş etdirdiyini göstərirdi. Bəs Avropanın inkişaf etmiş dövlətlərinin siyasi liderlərinin bu cür fikirlər səsləndirməsi nə ilə bağlıdır? Yaxın Şərqdə baş verən siyasi münaqişələr fonunda Avropaya miqrant axını və islam dininin Avropa ölkələrində geniş yayılması, 2011-ci ildə Münhendə keçirilmiş konfransda D. Kemeronun da dediyi kimi Avropaya mühacirət etmiş insanların yeni nəslinin nə Qərb mədəniyyətinə, nə də atalarının ənənəvi islam mədəniyyətinə uyğunlaşa bilməməsi problemin bir tərəfidirsə, digər məsələ miqrantların öz dini etnik görüşlərinin Avropada dövlət siyasətinə təsir göstərməsi idi. Bu isə onu göstərir ki Avropa multikultural dəyərlərin tətbiqini qarşıya məqsəd olaraq qoysa da, onun həlli mexanizmlərini düzgün işləyə bilməmiş və bu da mövcud problemlərin daha da geniş miqyas almasına səbəb olmuşdur.

Tarixən ölkəmizdə müxtəlif dinlərin və mədəniyyətlərin daşıyıcıları birgə yaşamışlar və bu Azərbaycan cəmiyyətinin zənginliyinə səbəb olmuşdur. Azərbaycan xristianların da, yəhudilərin də uzun əsrlərdir birgə yaşadığı müsəlman ölkəsidir. Fərqli dəyər daşıyıcılarının qarşılıqlı hörmət əsasında birgəyaşayışına əsaslanan multikulturalizm Azərbaycanda həyat tərzi kimi qəbul olunur. [2, s. 45] Multikulturalizmin "Azərbaycan modeli" tarixi kökləri baxımından uzun əsrlərə dayansa da, onun bir prinsip olaraq inkişafı Ümummilli Lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və bu gün də ölkəmizdə uğurla davam etdirilir. Hələ ötən əsrin 70-80-ci illərində dahi liderin ölkəyə ilk rəhbərliyi dövründən etibarən ölkəmizdə yaşayan müxtəlif azsaylı xalqlara dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsi olaraq müxtəlif folklor ansambllarının yaradılması, tarixi şəxsiyyətləri ilə bağlı kitabların yazılması, tarixi və mədəniyyət abidələrinin təmir və bərpa edilməsi, müxtəlif səpkili mədəni festivalların keçirilməsini göstərə bilərik. Heydər Əliyevin azərbaycançılıq ideologiyasının kökündə də məhz milli dəyərlərin bəşəri prinsiplərlə birləşməsi, vəhdəti dayanırdı. Bu gün Azərbaycan kimliyi öz gücünü şanlı tarixlə ruhani zənginlik və müxtəliflik arasındakı əlaqədən alır. Bu əlaqə daha düşünülmüş və məqsədyönlü olduqca, şüurlarda hökm sürən xaos tədricən aradan qalxır, mütərəqqi ideoloji konstruksiyanın formalaşdırılması isə daha xoşbəxt gələcəyə daim can atan müasir mədəni kimlik yaradır [3, s. 156]. Təsadüfi deyil ki, 1995-ci ildə ümumxalq səsverməsi-referendum yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında (maddə 25. Bərabərlik hüququ, maddə 44. Milli mənsubiyyət hüququ və s.) da ətraflı şəkildə işlənib hazırlanmışdır. Bu gün Qərb dövlətlərinin ehtiyatla və hətta dövlətçiliyin mövcudluğu üçün təhlükə mənbəyi kimi yanaşdığı multikultural dəyərlər ölkə Prezidenti İlham Əliyev tərəfindən də uğurla davam və inkişaf etdirilir. Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla üzv və əməkdaşlıq çərçivəsində fəaliyyəti, nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da "Heydər Əliyev Fondu" vasitəsilə müxtəlif mədəniyyət abidələrinin təmir və bərpa işlərində yaxından iştirakı da bunun bariz nümunəsidir. Lakin qloballaşma heç də Azərbaycan xalqının öz milli mənəvi dəyərlərindən uzaqlaşması və ya Avropa mədəniyyəti və dəyərlərinin ölkəmizdə qeyd-şərtsiz qəbulu kimi dəyərləndirilməməlidir. Vaxtilə Heydər Əliyev azərbaycançılığın əsas prinsiplərinə diqqəti cəlb edərək göstərirdi ki, "biz azərbaycanlıları

birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir-ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımız, xalqımıza mənsub olan adət-ənənələrdir. İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın..." [1, s.7].

2010-cu ildə ölkəmizdə "Qloballaşma, din, ənənəvi dəyərlər" mövusunda keçirilmiş sammit zamanı Azərbaycan dövləti başçısının da ifadə etdiyi kimi " Qloballaşma prosesi bizdən də yan keçə bilməz. Sadəcə olaraq biz elə etməliyik ki qloballaşma adı altında öz milli dəyərlərimizi unutmayaq. Biz milli dəyərlərimizə sadiq olmalıyıq. Hər bir ölkə, hər bir xalq üçün onun milli dəyərləri hər şeydən üstün olmalıdır. Bu dəyərlər, müxtəlif xalqların dəyərləri bir-biri ilə ziddiyyət təşkil etməməlidir. Ona görə də biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, dostluğu nəzərdə tuturuq. Qloballaşma adı altında xalqlara zidd olan, milli mentalitetə xas olmayan dəyərlər aşılanmamalıdır" [4, s. 2]. Bütün bu deyilənlərin davamı olaraq, 2016-cı ilin ölkə Prezidentinin məlum fərmanına əsasən "Multikulturalizm ili" elan edilməsi və bu istiqamətdə görülən çoxsaylı işlərin ardıcıl nəticəsidir ki, ərazisində müxtəlif din və adətlərə malik udin, ləzgi, rus, yəhudi və digər milli etnos və dini qruplar yaşayan ölkəmizdə dinc və təhlükəsiz şəraitdə birgəyaşayışın mümkünlüyünün "Azərbaycan modeli" bir çox ölkələrdə tədqiq olunur və hətta Ali məktəblərin dərsliklərində də tədris vəsaiti kimi istifadə olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Bakı: Elm və təhsil, 2019
2. Azərbaycan qəzeti, 2010-cu il 16 may
3. Hacıyev, A., Cəfərova, E., Məmmədov, İ. Multikulturalizmə giriş / A.Hacıyev, E.Cəfərova, İ.Məmmədov. – Bakı: Mütərcim, - 2018
4. Həbibbəyli, Ə. Geosiyasi reallıqlar və multikultural dəyərlər / Ə.Həbibbəyli. – Bakı: Elm və təhsil, - 2017

HUMANİTAR VƏ SOSİAL FƏNLƏRİN TƏDRİSİNDƏ YENİ TEXNOLOGİYANIN ROLU

Lalə Fizuli qızı Abdullazadə
Azərbaycan Dövlət Aqrar Universiteti
laleabdullazada@gmail.com
https://orcid.org/0009-0002-1827-685X

XX-XXI əsrlərdə texnologiyanın inkişafının sürətlənməsi ilə paralel olaraq dünyada sosial və iqtisadi sahələrdə bir çox yeniliklər müşahidə edilmişdir. Kompüter texnologiyalarının və daha sonra internet texnologiyalarının təsiri ilə dünyanın bir çox yerində iş və təhsil fərqli bir forma aldı. Qlobal bazarda şirkətlər işi səmərəli şəkildə bölüşdürmək və işçiləri arasında yeni üsullarla ünsiyyət qurmaq üçün internet texnologiyalarından istifadə edirlər. İnkişaf etməkdə olan texnologiya ilə, təhsil mühitlərində ünsiyyəti artırmaq üçün istifadə olunan kompüter əsaslı kommunikasiya vasitələri - xüsusən də distant təhsildə istifadə olunan məktub təhsilinə alternativ olaraq - Rapaport tərəfindən müəyyən edildiyi kimi e-poçt, forumlar və ya video konfransla məhdudlaşmır. (Rapaport, 1991). Bu gün bunlarla yanaşı, kompüter əsaslı Facebook, Twitter və Blog internet proqramları dünyada olduğu kimi ölkəmizdə də populyardır. Bunun ən bariz xüsusiyyəti ondan ibarətdir ki, siniflərdə müəllimlər artıq yazı lövhəsi ilə kifayətlənməyib, həm də proyektorlardan istifadə etməklə daha çox əyani dərslər keçirlər və şagirdlərə kompüterdə ev tapşırıqları verirlər ki, bu da onlara müxtəlif və daha geniş resurslara çıxış imkanı yaradır.

Bununla belə, əvvəlki başqa bir araşdırmada (Baytak, 2010) qeyd edildiyi kimi, müxtəlif təhsil sistemlərinə, xüsusən də Azərbaycanda keçidə baxmayaraq, yeni təhsil sisteminə uyğun olaraq kompüterlərlə həyata keçirilən təhsil fəaliyyətlərində çatışmazlıqlar var. İnkişaf edən texnologiya ilə adət etdiyimiz sinif mühitləri tədricən yeni öyrənmə mühitləri ilə əvəz olunur. Əvvəllər təbaşir və lövhə ilə məhdudlaşan təhsil zaman keçdikcə ağ lövhələr və ağıllı lövhələrlə əvəz olundu (Tarman, 2011). Bu dəyişikliklər bəzən ehtiyacları ödəməyə, bəzən yeniliklərlə ayaqlaşmağa, bəzən də rəqabət mühitində geri qalmamağa yönəlib. Təhsil tədqiqatçıları hesab edirlər ki, istifadə olunan müxtəlif texnologiyaların əsas məqsədi öyrətməkdir.Tarman, B. və Baytak, A. razılaşırlar ki, bu, öyrənməyi asanlaşdırmalı və artırmalıdır (Teo & Lee, 2010).

Texnologiyadan təhsildə səmərəli istifadə etməyə başlayan inkişaf etmiş ölkələrin təcrübələrinə əsasən; Müəllimlərin və müəllim namizədlərinin daha səmərəli istifadəsi üçün bu istiqamətdə hazırlanması əsas tələb kimi qəbul edilmişdir (Yücel et al., 2010; Tarman, 2010). Bu kontekstdə beynəlxalq təhsil təşkilatları və qurumları öz akademik bəyannamələrində bildirirlər ki, yeni yaş müəllimləri müəyyən avadanlıq və bacarıqlara malik olmalıdırlar (Becker & Ravitz, 2001; ISTE, 2008). Müəllim və namizədlərin peşə həyatına başlamazdan əvvəl bu bacarıqlara yiyələnmələrinin əsas səbəbi tələbələrin hər il yeni texnoloji cihazlar və bu sahədə yeni bacarıqlarla dərsə gəlməsidir. İndiki sinif mühitini 10 il əvvəlki sinif mühiti ilə müqayisə etsək, görərik ki, cəmi bir neçə il əvvəl dəbdəbə hesab edilən mobil telefonlar və noutbuklar indi tələbələrin geniş istifadə etdiyi texnoloji cihazlara çevrilib və gündəlik həyatımızın bir parçasına çevrilib. Bu gün bu cihazlar lüksdən daha çox həyat tərzidir. Bu kontekstdə yeni təhsil almış şagirdlər kompüterdən istifadədə bilik və tətbiq baxımından müəllimlərini qabaqlaya bilirlər. Bundan əlavə, kompüter qiymətləri orta təbəqənin iqtisadi gəliri olan ailələr üçün münasib səviyyəyə düşdüyü üçün bir çox müəllim və tələbə kompüter əldə edib. Bundan əlavə, müxtəlif yerlərdə (kitabxanalar və internet kafelər) təklif olunan İnternetə çıxış imkanları əsasən müəllim və tələbələrə yeni texnologiyalardan istifadə etmək imkanı verir. Tədqiqatçılar təhsil sahəsindəki müxtəlif sahələr üçün məktəbəqədər müəllimlərin texnologiyaya əsaslanan dərsləri necə öyrətdiklərini araşdırdılar. Bu akademik araşdırmalardan bəzilərini aşağıdakı kimi sıralamaq olar; xarici dil (Wildner, 1999), elm təhsili (Valanides & Angeli, 2006), Türk təhsili (Önkaş, 2008), sosial elmlər (Gülbahar & Güven, 2008).

Bundan əlavə, humanitar və sosial elmlər təhsili sahəsində bir çox tədqiqatçı texnologiya və kompüterlərin rolunu vurğulayır və onların tələbələrin tənqidi düşünmə, problem həll etmə və qərar vermə bacarıqlarını inkişaf etdirdiyini ortaya qoyur (Açıkalın, 2010; Açıkalın & Duru, 2005; Bennett & Pye , 1999; Berson, 1996; Berson və Balyta, 2004; Dils, 2000; Fontana, 1997; Larson, 1999; Rays və Wilson, 1999). Buna görə də, tədris texnologiyası və onun məhsulları humanitar və sosial elmlər müəllimlərinin şagird uğurlarının artırılmasında nəzərə almalı olduğu mühüm məsələdir.

Tədris texnologiyaları sosial elmlər müəllimlərinə tələbə mərkəzli və aktiv öyrənmə mühitlərinin hazırlanması kontekstində mühüm töhfələr verir. Simulyasiya, proqram təminatı, multimedia, məlumat bankları və telekommunikasiya kimi texnologiya məhsulları texnologiya ilə dəstəklənən humanitar və sosial elmlər sinfi yaratmaq üçün istifadə edilə bilər (Tarman, 2011; Tarman & Yüksel, 2010). Humanitar və sosial elmlər tədrisində kompüter inteqrasiyası artsa da,humanitar və sosial fənlər dərslərində kompüter dəstəkli təhsildən istifadə səviyyəsi ilə bağlı çox da tədqiqat aparılmayıb. Əvvəlki tədqiqatlarda müəyyən edilmişdi ki, söz emal, simulyasiya, məşq və təcrübə kimi kompüter proqramları humanitar və sosial elmlər müəllimləri tərəfindən ən çox istifadə edilən tətbiqlərdir (Northup & Rooze, 1990; Pye & Sullivan, 2001), lakin sonradan "məlumat əldə etmək" və "İnternet" istifadə edilmişdir. Humanitar və sosial elmlər təhsilində kompüterlərdən ən çox istifadə edilən sahə olmuşdur. (Whitworth & Berson, 2003; Pye & Sullivan, 2001). Bu dəyişikliyi kompüter və internet texnologiyalarının sürətli və yeni inkişafı ilə izah etmək olar. Müxtəlif keyfiyyətlərə malik və müxtəlif baxış nöqtələrini özündə əks etdirən mənbələr,

məsələn, birinci əldən mənbələr, fotoşəkillər, surətlər və nüsxələr, İnternet vasitəsilə əyani materiallar şagirdlərin bilik yaratmaq qabiliyyətinə müsbət təsir göstərə bilər.

Texnologiyanın Təhsildə Rolu humanitar və sosial həyatda və sinif otaqlarında kompüter texnologiyalarının istifadəsi ilə paralel olaraq, təhsil tədqiqatçıları tərəfindən akademik tədqiqatlar aparılmağa başlanmışdır. Təhsil texnologiyaları sahəsinin ayrıca bir sahəyə çevrilməsi ilə texnologiya dəstəkli təhsil daha çox müzakirə edilməyə başlanmış və bu sahədə akademik jurnalların nəşri ilə istifadə olunan texnologiyaların təhsildə pedaqoji struktura necə təsir etdiyi bir çox sahələrdə müzakirə edilmişdir. Başqa bir araşdırmaya görə, müəllimlərin tələbələrin öyrənmə qabiliyyətlərini təkmilləşdirmək üçün sinifdə tədris strategiyası kimi texnologiyadan istifadə etməsi zəruri hesab edilmişdir (Şura, 1988).

Sadalanan iki fərqli baxış bucağını qəbul edən bəzi tədqiqatçılara görə, öz sahəsində özünə güvənən müəllimlərin texnologiyadan təkcə bir vasitə və ya dərs strategiyası kimi deyil, həm də hər iki şəkildə istifadə etmələri lazım olduğu bildirilir (Ivers, 2002). Schoepp (2004) texnologiyanın necə inteqrasiya olunacağına dair vizyonu və biliyi olmayan müəllimlərin perspektivlərinə görə təhsildə texnologiyanın rolunun fərqli qəbul edildiyinə diqqət çəkməyə çalışmışdır.

Ölkəmizdə müəllim namizədləri üzərində aparılan başqa bir araşdırmanın nəticələrinə görə, şagird mərkəzli dərs metodunu mənimsəyən namizədlərin kompüterdən istifadəyə daha çox meylli olduğu, eyni zamanda, yüksək əsas kompüter bacarıqlarına malik müəllim namizədlərinin də bu mövzuya daha müsbət yanaşdığı müəyyən edilmişdir (Şahin və Toy, 2009). Yuxarıda qeyd edildiyi kimi, bu sahədə əvvəlki tədqiqatlar ümumiyyətlə müəllimlərin texnologiya ilə dəstəklənən tədrisə necə baxdıqlarını araşdırıb sınaqdan keçirib. Bununla belə, digər son araşdırmalar araşdırıldığında, gələcək müəllimlərin, xüsusən də humanitar və sosial elmlər müəllimi namizədlərinin texnologiya ilə dəstəklənən təhsili funksional olaraq necə təyin etmələrinin müəyyən edilmədiyi görüləcək. Bundan əlavə, bu tədqiqatın məqsədlərindən biri də namizədlərdən təhsil texnologiyalarını müəyyənləşdirmək və bu konsepsiyanın onlar üçün nə demək olduğunu, üstünlükləri və çatışmazlıqlarını və bu konsepsiyanın gələcəkdə öz sinif kontekstində necə qəbul ediləcəyini ortaya qoymağı xahiş etməkdir.

İstifadə edilmiş ədəbiyyat

1.Açıkalın, M. (2010). Nümunəvi sosial elmlər müəllimlərinin sinifdə kompüter dəstəkli tədrisdən istifadə etməsi, Türk Onlayn Təhsil Texnologiyaları Jurnalı, 9 (4), 1-17. Açıkalın, M., & Duru, E. (2005).

2. Sosial elmlər dərsində kompüter texnologiyalarından istifadə. Turkish Online Journal of Educational Technology, 4(2), 18-26. 26 noyabr 2010-cu ildə http://www.tojet.net/volumes/v4i2.pdf saytından alınıb Baytak, A. (2010).

3.Türkiyədə K-12 səviyyəsində elektron təhsilin mümkünlüyü və Tövsiyələr. G. T. Yamamota, U. Demiray, M. Kesim Türkiyədə E-Öyrənmə İnkişafları və Tətbiqləri. Ankara- s.295-314. 4.ISBN: 978- 605-88891-2-5 Becker, H, J., & Ravitz J. L., (2001).

5.Müəllimlərin kompüterdən istifadəsi: Kubanın proqnozları doğrudurmu? Konfransın təqdimatı, AERA, ABŞ. Bennett, L. və Pye, J. (1999).

6.Tədris texnologiyası dünya tarixini öyrənmək üçün bir vasitə kimi. Beynəlxalq Sosial Təhsil Jurnalı, 14(1), 111-117. Berson, M. J. (1996).

7.Sosial tədqiqatlarda kompüter texnologiyasının effektivliyi: Ədəbiyyata baxış. Journal of Research on Computing in Education, 2(4), 486-499. Berson, M. J. və Balyta, P. (2004).

8.Sosial tədqiqatlarda texnoloji düşüncə və təcrübə: İslahatın gurultulu yeniyetməlik dövrünü aşmaq. Müəllim Təhsilində Hesablama Jurnalı, 20(4), 141-150. Bogdan, R. C. və Biklen, S. K. (1998).

9.Təhsil üçün keyfiyyət tədqiqatı: Nəzəriyyə və metodlara giriş (3-cü nəşr). Boston: Allyn və Becon. Chan-Lin, L. Hong, J. Horng, J. Chang, S. & Chu, H. (2006).

10. "Tədrisdə texnologiya inteqrasiyasına təsir edən amillər: Tayvan perspektivi. Təhsil və Tədrisdə Beynəlxalq İnnovasiyalar. 43-1,(57-6). Clark, R. E. (1994).

11.Media heç vaxt öyrənməyə təsir etməyəcək. Təhsil Texnologiyaları Araşdırma və İnkişafı, 42(2), 21-29. Cohen. D.K. (1988). Təhsil texnologiyası və məktəb təşkili. R. S. Nickerson və P. Zodhiates (Red.), Təhsildə texnologiya: 2020-ci ilə baxırıq (səh. 231-264). Hillsdale, NJ: Erlbaum. Çağıltay, K., Çakıroğlu, J., Çağıltay, N. və Çakıroğlu, E., (2001).

12. Tədrisdə kompüterdən istifadə ilə bağlı müəllimlərin fikirləri. Hacettepe Təhsil Fakültəsi Jurnalı (Journal of Education), 21, p19-28 Dils, A. K. (2000). Orta məktəb sosial elmlər sinfində texnologiyadan istifadə. Beynəlxalq Sosial Təhsil Jurnalı, 15(1), 102-112. Fontana, L. A. (1997). 13.Onlayn öyrənmə icmaları: Sosial tədqiqatlar üçün təsirlər. P. H. Martorella (Red.), İnteraktiv Texnologiyalar və Sosial Tədqiqatlar (səh. 1-25). Albany, NY: New York Dövlət Universiteti Mətbuat. Gülbahar, Y. & Güven, İ. (2008).

14.Türkiyədə İKT İstifadəsi və Sosial Elmlər Müəllimlərinin Qavramalarına dair Sorğu. Təhsil Texnologiyası və Cəmiyyəti, 11 (3), 37-51. Tarman, B. və Baytak, A. / Sos. Bilin. D. 10(2) (2011):xxx-xxx 905 Ivers, K. S. (2002).

15. Müəllimlərin qavrayışlarını və sinifdə texnologiyadan istifadəni dəyişdirmək. Amerika Təhsil Tədqiqatları Assosiasiyası, New Orleans, LA, 20 sentyabr 2006-cı ildə ERIC verilənlər bazasından əldə edilmişdir. Kozma, R. B. (1994).

16.Media öyrənməyə təsir edəcəkmi? Müzakirənin yenidən qurulması. Təhsil Texnologiyaları Araşdırma və İnkişafı, 42(2), 7-19. Kozma R. B. (2003).

17. Texnologiya və Sinif Təcrübələri: Beynəlxalq Tədqiqat. Təhsildə Texnologiya üzrə Araşdırmalar Jurnalı. 36- 1. (1-14) Kuo. M. (2008). Öyrənəndən Müəllimə: EFL Tələbə Müəllimlərinin İnternet Yardımlı Dil Öyrənilməsi və Tədrisi üzrə Qavrayışları. Larson, B. E. (1999). Cari hadisələr və İnternet: "başlıq xəbərlərini" çoxillik məsələlərə qoşmaq. Sosial Tədqiqatlar və Gənc Tələbə, 12(1), 25-28. Merriam, S. B. (1988).

18.Təhsildə Case study tədqiqatı: Keyfiyyətli yanaşma. Kaliforniya: Jossey-Bass Publishers. Mistler-Jackson, M. & Songer, N. B. (2000).

19.Tələbə Motivasiyası və İnternet Texnologiyası: Tələbələrin Elm öyrənmək səlahiyyəti varmı? Elm Tədrisində Araşdırma Jurnalı, 37(5), 459-479. Northup, T. və Rooze, G. E. (1990).

20.Sosial elmlər müəllimləri kompüterdən istifadə edirmi?: Milli sorğu. Sosial Təhsil 54(4), 212-214. N.R Şurası (1988).

21.Milli Elm Təhsil Standartları.Vaşinqton D.C. Önkaş Flow, N. (2009). Türk dili tədrisində texnologiyadan istifadə və daimi öyrənmə. ietc2008.home.anadolu.edu.tr (04.09.2009)

22. Pye, J., & Sullivan, J. (2001). Orta məktəbdə sosial elmlərin tədrisində kompüter əsaslı təlimdən istifadə. Beynəlxalq Sosial Təhsil Jurnalı, 15(2), 92-102. Rapaport, M. F. (1991). 23.Kompüter vasitəsi ilə rabitə; bülleten lövhələri, kompüter konfransı, elektron e-poçt və məlumat axtarışı. Nyu York: Wiley Race, M. L., & Wilson, E. K. (1999).

23. Texnologiya sosial elmlər sinfində konstruktivizmə necə kömək edir. Sosial Tədqiqatlar, 90(1), 28-33. Schoepp, K.W. (2004)

24."Texnologiya ilə zəngin bir mühitdə texnologiya inteqrasiyası maneələri: CBAM perspektivi". Magistrlik dissertasiyası. ERIC verilənlər bazasından 25 sentyabr 2006-cı ildə alınıb. Susskind, J.E. (2005).

25. PowerPoint-in sinifdə gücü: tələbələrin öz effektivliyini və münasibətini artırmaq. Kompüterlər və Təhsil. 45-2, (203-215) Şahin, İ. & Toy, S. (2009).

26. Türkiyəli tələbə müəllimlərin ABŞ-da təcrübə proqramı zamanı pedaqogika və təhsil texnologiyaları üzrə təcrübələri. Türk Onlayn Təhsil Texnologiyaları Jurnalı. 8(4) 16-21 Şimşek, N. (2005).

27. Təhsil texnoloqunun təhsil texnologiyası ilə bağlı təsəvvürləri və fikirləri. Educational Technology & Society, 8(4), 178-190 Tarman, B. (2003, iyul).

28. Təhsildə Rəqəmsal Bölünmə, Təhsil Tarixi Beynəlxalq Konfransının iclasında sənəd təqdimatı, ISCHE XXV, Sao Palo, Braziliya. Tarman, B. (2010).

29. Türkiyədə Müəllim Təhsili üzrə Qlobal Perspektivlər və Çətinliklər, Beynəlxalq İncəsənət və Elmlər Jurnalı (IJAS), 3(17): 78-96, Amerika Birləşmiş Ştatları. 906 Təhsildə Texnologiyanın Yeni Rolü: Sosial Elmlər Müəllim Namizədlərinin Perspektivləri Tarman, B. (2011).

30. Sosial elmlər təhsilində yeni yanaşmalar II,(Sosial elmlər təhsilində yeni yanaşmalar II) Sosial elmlər tədrisində sosial elmlər laboratoriyalarının yeri və əhəmiyyəti,(Sosial elmlər tədrisində sosial elmlər laboratoriyalarının əhəmiyyəti) Red.: R. Turan, A.M. Sünbül & H. Akdağ, Ankara: PegemA Yayınları. Tarman, B & Yüksel, Z. (2010).

31. Sosial Elmlər Təhsilində Virtual Laboratoriyaların və WEB Saytların Rolları və İstifadəsi. 4-cü Beynəlxalq Kompüter və Tədris Texnologiyaları Simpoziumu, Konya / TÜRKİYƏ (24-26 sentyabr). Teo, T. & Lee, C. B. (2010).

32. Tələbə müəllimlər arasında texnologiyadan istifadə etmək niyyətinin izahı: Planlı Davranış Nəzəriyyəsinin tətbiqi. Kampus Geniş İnformasiya Sistemləri. 27(2). 60-67 TÜİK, (2010) 33.Türkiyə Statistika Təşkilatı İnformasiya Texnologiyalarından İstifadə Anketi. http://www.tuik.gov.tr/VeriBilgi.do?tb_id=60&ust_id=2 Valanides, N., & Angeli, C., (2006). 34.Kompüter modelləri vasitəsilə elmləri öyrətmək üçün müəllim hazırlığı. Texnologiya və Müəllim Təhsilində Müasir Problemlər. 6(1) 87-98. Whetstone, L. və Carr-Chellman, A. A. (2001).

35. Müəllimlərin texnologiyadan istifadə etməyə hazırlanması: sorğunun nəticələri. TechTrends, 45(4), 11-17. Wildner, S. (1999).

36. Xarici dil müəllimi hazırlığı proqramlarına texnologiyanın inteqrasiyası. CALICO Journal 17(2). 223-251. Yücel, C., Acun, İ., Tarman, B. və Mete, T. (2010).

37. Müəllimlərin İKT İnteqrasiya Mərhələlərini Tədqiq etmək üçün Model. The Turkish Online Journal of Educational Technology, 9 (4)1-9 Tarman, B. and Baytak, A. / Sos. Bilin. D. 10(2) (2011):xxx-xxx 907

I İBRAHİM DƏRBƏNDİNİN XARİCİ SİYASƏTİ

Leyla Sahib qızı Babayeva
Mingəçevir Dövlət Universiteti
leyla.babayeva@mdu.edu.az
https://orcid.org/0000-0001-5955-0857

Şirvan feodalları Kəsranilər sülaləsindən sonuncu nümayəndə olan Huşəngin ölümündən sonra onun əmisi oğlu İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubadı hökmdar seçdilər. Sara Aşurbəyli Münəccimbaşıya istinad edərək yazır ki, Şeyx İbrahim Məzyədilər sülaləsinin bir qolu olan Dərbəndilərin ilk nümayəndəsi idi. Şirvanşah Kavus və Huşəngin təqibindən ehtiyat edən İbrahim və atası Sultan Məhəmməd ibn Keyqubad Şəki kəndlərinin birində gizlənmişdir [1]. Şeyx İbrahimin atası Şəkidə ölmüş, özü isə Şirvan feodalları onu Şirvanşahlar taxtına sahib çıxmağa dəvət edəndən qədər orda gizlənmişdir. Beləcə, İbrahim Dərbəndi 1382- ci ildə hakimiyyətə gəlmiş və 1417- ci ilə qədər Şirvanda hökmranlıq etmişdir.

Şeyx İbrahim ağıllı, müdrik hökmdar idi. O, ilk növbədə ölkə daxilində qayda-qanunu bərpa etdi, vergi və mükəlləfiyyətləri qaydaya saldı. İbrahim ticarət və sənətkarlığa da qayğı göstərir, quruculuq işlərinə böyük əhəmiyyət verirdi. Onun tədbirləri sayəsində Azərbaycanın şimalında Şirvanşahlar dövləti müəyyən siyasi-iqtisadi tərəqqiyə nail olmağa başladı.

Ancaq Şeyx İbrahimin xarici siyasəti Azərbaycana, o cümlədən Şirvanşahlar dövlətinə qarşı yönəlmiş təhdidlər, hücumlar və işğalçılıq müharibələri ilə bağlı olaraq dəyişkən xarakter daşımışdı.

O, qüvvələrin real nisbətini dəqiq qiymətləndirərək özündən güclü düşmənlərlə silahlı mübarizəyə aparmır, çox zaman bir işğalçıdan digər işğalçıya qarşı mübarizədə istifadə edirdi. Hətta bu və ya digər işğalçının hakimiyyətini qəbul etməyə məcbur olduqda belə, Şirvanın müstəqilliyini qoruyub saxlamağa çalışırdı [3].

XIV əsrin II yarısında Azərbaycanı, eləcə də Şirvanı şimaldan Qızıl Orda xanı Toxtamış, cənubdan isə böyük fateh Əmir Teymur təhdid edirdi. Ağıllı hökmdar, mahir diplomat olan Şeyx I İbrahim hər iki təhlükənin Şirvana hansı nəticələr verəcəyini uzaqgörənliklə qiymətləndirdi. O, yaxşı başa düşürdü ki, Azərbaycanda vahid mərkəzləşdirilmiş dövlətin olmadığı bir şəraitdə eyni zamanda tərəflərin hər ikisinə qarşı mübarizə aparmaq mənasızdır. Hətta onların hər hansı biri ilə də qarşıdurma olarsa işğalçı orduya qarşı mübarizə aparmağın çətin olacağını, Şirvanın viran ediləcəyini və əhalinin qırılacağını öngörən I İbrahim mütləq bu qüvvələrdən biri ilə yaxşı münasibətlər qurmaq, sonra isə onun dəstəyi ilə digər təhlükəni dəf etmək qərarına gəldi. Şirvanşahın qəti qərarı Teymura itaət göstərərək ona tabe olmaq oldu. Ərəbşah və Cənnabinin məlumatına görə İbrahim bundan əvvəl ən yaxın adamı- böyük vəzir qazı Əbu Yəzidlə məşvərət etmiş və vəzir Şirvanşaha qaçıb dağlarda gizlənməyi məsləhət görmüşdü. Lakin İbrahim Teymurla ittifaqı seçdi, Teymurun adına xutbə oxunmasını və sikkə kəsilməsini əmr etdi və itaətini bildirmək üçün bahalı hədiyyələrlə istilasının qərargahına yollandı. O, monqol-türk qəbilələrində dəbdə olduğu kimi hər hədiyyədən doqquz ədəd təqdim etdi. Lakin yalnız qulları səkkiz nəfər bağışlamaqla bildirdi ki, "doqquzuncu mən özüməm". Bu Teymurun çox xoşuna gəldi və İbrahimi Şirvanın hakimi təyin edərək öz torpaqlarına qayıtmasına icazə verdi. I İbrahimin Teymur və Toxtamış arasındakı seçimini Teymurdan yana etməsinin səbəbi Şirvanın Qızıl Orda ilə həmsərhəd olması idi. O bilirdi ki, Toxtamışla yaxınlaşmaq Şirvanşahların süqutuna gətirib çıxara bilər. Teymur isə xeyli uzaqdan gəlir və əgər o, Şirvanı ələ keçirsə belə, burada uzun müddət möhkəmlənə bilməyəcək. I İbrahimin Teymurla ittifaq qurmaq qərarını verməsində Teymur və Toxtamışın şəxsiyyətlərini düzgün qiymətləndirmək bacarığı da böyük rol oynadı. Toxtamış ona böyük yaxşılıqlar etmiş, onu taxta çıxarmış Teymura da xəyanət etmiş və Teymurun hakimiyyəti altında olan ərazilərə hücum etmişdir. İbrahim Toxtamışın heç vaxt verdiyi vədə, bağladığı müqaviləyə əməl etmədiyini də yaxşı bilirdi. Toxtamışın Təbrizə yürüşü də bunu sübut edirdi. O vaxt Qızıl Orda xanı Təbrizlilərin şəhərin müdafiəsinə qalxdığını görərək danışıqlar aparmağa məcbur oldu, Təbriz əhalisini sülh müqaviləsi bağlamaqla aldatdı. Əhali sülhə inanıb silahı yerə qoydu. Bundan sonra hiyləyə əl ataraq qoşunu şəhərə yeridən Toxtamış öz vədini xaincəsinə pozdu. Əmir Teymur isə əksinə sözü bütöv və müdrik bir hökmdar idi. O, dostluğu qiymətləndirməyi də, xəyanəti cəzalandırmağı da bacarırdı.

İbrahimin müdrik siyasəti Şirvanı fəlakətdən və dağıntılardan xilas etdi. 1385/86 –cı ildə Toxtamışın 90 minlik ordusu Dərbənd keçidindən Şirvana hücum etdi, oranı qarət edib geri qayıtdı. 1387- ci ildə Toxtamış yenidən Şirvana soxulub Kür çayına çatdıqda Teymur qoşun göndərərək Şirvanşaha kömək göstərdi. Teymurun oğlu Miranşahın və Şirvanşahın qoşunları Toxtamışı məğlub edib Dərbənddən qovub çıxardılar. Şirvanşah I İbrahim də Toxtamışa qarşı mübarizədə Teymura kömək edirdi. 1395- ci ildə Teymur Toxtamış üzərinə yürüşə gedərkən Şeyx İbrahim Şirvanşah qoşunları ilə onu müşayiət edirdi.

Teymurun dostluğunu və etimadını qazanmış Şeyx İbrahimin çevik siyasətini Şirvanın yalnız xalq kütlələri deyil, feodal sinfi də müdafiə edirdi. Ön Qafqaz və Azərbaycanın bir sıra vilayət hakimləri, o cümlədən Şəki hakimi Seydi Əhməd I İbrahimin vasitəçiliyi ilə Teymurla ittifaq bağladılar. Teymurun Gürcüstana 1399 və 1400- cü illərdəki yürüşlərində onu İbrahim və Seydi Əhməd öz qoşunları ilə müşayiət etmişdilər. Teymur gürcülərə amansız divan tutdu. O qiymətli hədiyyələr göndərərək bac və xərac verməyi boynuna götürməklə bağışlanmasını diləyən gürcü hökmdarı Georginin elçilərini rədd etdi. Yalnız Şeyx İbrahim gürcü hökmdarı Georgiyə zamin durduqdan sonra Teymur onu bağışladı.

Mənbələrdə İbrahimin başqa vassallar kimi Teymurun xəzinəsinə verdiyi xərac barədə məlumat yoxdur. Böyük ehtimal ki, o xəracdan azad olunmuş, qiymətli hədiyyələr verməklə kifayətlənmişdir. Bu onu göstərir ki, I İbrahim Teymura tabe olan feodallar arasında xüsusi mövqe tutmuşdur.

Teymurun 1405-ci ildə ölümü və bundan sonra Teymurilər arasında baş verən çəkişmələr nəticəsində I İbrahim asılılıqdan çıxdı [2]. Teymurilərin daxili çəkişmələrindən və Şirvanda xalq kütlələrinin yadelli hökmranlığına qarşı mübarizəsindən istifadə edən I İbrahim Azərbaycanı öz hakimiyyəti altında birləşdirməyə çalışırdı. Şəki hakimi Seydi Əhməd, gürcü hökmdarı İbrahimlə birləşdilər. İbrahim öz müttəfiqləri ilə birlikdə Kür sahillərinə gəldi. Dövrün tədqiqatçısı Sara Aşurbəyli yazır ki, Mirzə Ömər I İbrahimin öz dəstələri ilə Kürün sahilində yerləşərək istehkamlar qurduğunu eşidib sürətlə çayın qarşı sahilində düşərgə saldı. Bir həftə ərzində qarşı-qarşıya dursalar da, onların arasında hərbi əməliyyat baş vermədi. Mirzə Ömər Şirvanşahla barışaraq, Qarabağı tərk etdi.

Hadisələrdən istifadə edən və Teymurilərin asılılığından çıxmış Şeyx İbrahim ölkəni vahid bir dövlətdə birləşdirmək məqsədilə Cənubi Azərbaycanı ilhaq etməyə can atırdı. 1406-cı ilin mayın axırlarında Şeyx İbrahim Təbrizə daxil oldu. O burada özünü ədalətli və müdrik hökmdar kimi göstərdi. Bu vaxt Cəlairi Sultan Əhmədin Azərbaycana gəldiyini eşidən Şirvanşah əmrlərini yığıb dedi: "Biz bu alihəzrət xanədanla (Cəlairilərlə) uzun müddət dostluq etmişik. Ölkə (Azərbaycan) başçısız qaldığından biz bura yalnız zalımlar təbəələri incitdiklərinə görə gəlmiş və onları məmurların azğınlığından xilas etmişik. İndi isə evin əsl sahibi gəldiyi üçün biz öz ölkəmizə qayıdırıq".

Əvvəlki müttəfiqlər olan Qara Yusiflə Sultan Əhməd arasındakı münasibətlər pozulduqda isə sonuncu İbrahimdən yardım istədi. Şeyx İbrahim Sultan Əhmədin tərəfini saxlamağı üstün tutdu, çünki o, Şirvanşahlar dövləti üçün təhlükə törətmirdi. 1410-cu il avqustun 30-da Əhməd və Qara Yusifin qoşunları arasında baş verən şiddətli vuruşma nəticəsində Sultanın qoşunları darmadağın edildi. Bundan sonra Sultan Əhməd öldürüldü. Cəlirilər dövləti süqut etdi və Qaraqoyunlular dövləti yarandı. Dövlət qurduqdan sonra Qara Yusif Şeyx İbrahimin yanına elçi göndərərək tabe olmasını təklif etdi. Müstəqilliyini itirmək istəməyən İbrahim Şəki hakimi Seydi Əhməd və Gürcü hökmdarı II Konustantinlə ittifaq bağlayaraq, on iki minlik süvari ilə Qara Yusifin üzərinə hücuma keçdi. 1412-ci ildə Kür sahilində Şirvanşahın ordusu məğlubiyyətlə uğradı.[4] İbrahim əsir götürüldü. Sonra Qara Yusif əsir Şirvanşah İbrahim ilə danışıqlar aparmağa başladı. O, İbrahimdən 1200 tümən can bahası tələb etdi. Təbrizlilər Şirvanşahın can bahasını ödəməyə hazır olduqlarını bildirdilər. Bu fakt Təbrizlilərin Şirvanşaha böyük hörmət və rəğbət bəslədiklərini göstərir. Şirvanşah Qara Yusifin vassallığını qəbul etdi və ondan Şirvan vilayətini idarə etmək hüququnu təsdiq edən fərman aldı .

Şeyx İbrahim qonşu ölkələrlə, Gürcüstan və Dağıstanla da müttəfiqlik və dostluq münasibətləri saxlayırdı. I İbrahim diplomatik istedadı və hərbi bacarığı sayəsində Şirvanı güclü və müstəqil dövlətə çevirə bildi, hətta ərazisini də xeyli genişləndirdi. Beləcə I İbrahimin xarici siyasətinin əsas düsturu bundan ibarət idi ki, Beynəlxalq vəziyyətə uyğun olaraq dövlətin mövqeyi, fikirləri, hətta dostları və düşmənləri də dəyişə bilər. Dəyişməyən tək şey – Dövlətin mənafeyidir.

İstifadə edilmiş ədəbiyyat

1. Aşurbəyli. S Şirvanşahlar dövləti / S.Aşurbəyli. - Bakı: - 2006. 277 s.
2. Azərbaycan tarixi. XIII-XVIII əsrlər, III cild. – Bakı: - 2007. - 88 s..
3. Bünyadov Z., Yusifov Y. Azərbaycan tarixi / Z.Bünyadov, Y.Yusifov. - Bakı: - 2007, - 363 s.
4. Əliyarlı, S. Azərbaycan tarixi / S.Əliyarlı. – Bakı: - 2009. – 304 s.

SOSİAL İDARƏETMƏ VƏ ONUN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Naibə Sabir qızı Şəmşiyeva
Heydər Əliyev adına Hərbi İnstitut
naibashamshiyeva04@mail.ru
https://orcid.org/0009-0002-2078-3332

Giriş

XXI yüzillik dünya tarixinə sosial-iqtisadi və qlobal-ekoloji dəyişikliklərin baş verdiyi tarixi mərhələ kimi daxil olmuşdur. Bu dövr dünyada baş verən qloballaşma, inteqrasiya və innovasiya prosesləri ilə, xalqların azadlıq və müstəqillik uğrunda apardıqları mübarizələrlə, milli özünüdərklə, tolerantlıq və plüralizm ideyaları ilə, cəmiyyətin intellektual səviyyəsinin yüksəldilməsi və vətəndaş cəmiyyətinin yeni dəyərlər əsasında yenidən təşkili ilə, insan amilinin ön plana keçməsi ilə səciyyələnir. Cəmiyyətdə baş verən bu sürətli dəyişikliklər fonunda sosial idarəetməyə dair baxışlar sistemi də daim yenilənir, müasir tələblərə cavab verəcək istiqamətdə dəyişilir. Məhz sosial idarəetmənin əsas məqsədlərini, funksiyalarını və prinsiplərini dərk etməklə, mənimsəməklə, insanların, sosial qrupların və müxtəlif növ birliklərin, əmək kollektivlərinin üzərində bir parktik fəaliyyət sahəsi kimi formalaşan cəmiyyəti idarəetmənin ümumi sosial xassələrini reallaşdırmaq olar.

Tədqiqatın əsas istiqamətləri

Sosial idarəetmənin mahiyyəti. Cəmiyyət - insanların məqsədyönlü fəaliyyətinin nəticəsidir. O, yarandığı vaxtdan idarə olunmağa ehtiyac hiss edir. Cəmiyyətin hər bir sahəsində idarəetmə fəaliyyəti ictimai münasibətlərin xarakterindən asılı olaraq formalaşmış və inkişaf etmişdir. İdarəetmə dedikdə mütəşəkkil sistemin öz keyfiyyət müəyyənliyini saxlamağa, onun mühit ilə dinamik münasibətlərini qorumağa və sistemi inkişaf etdirməyə yönələn fəaliyyəti başa düşülür. İdarəetmə - cəmiyyətdə daha yaxşı yer və yüksək status əldə etməyə can atan insanların qarşılıqlı fəaliyyətini tənzimləmə mexanizmidir [1, s. 15].

İdarəetmənin mahiyyəti, sistemin hissələrinin, elementlərinin vahid bir sistem kimi düzgün qarşılıqlı təsirlərini təmin etməkdən, idarəetmə fəaliyyəti sahəsində qarşıda duran vəzifələri yerinə yetirməyə yönələn, səmərəliliyini təmin etmək məqsədilə idarəetmə sisteminə və onun struktur bölmələrinə iradəli təsir göstərilməsindən ibarətdir. İdarəetmənin mahiyyətinin aydınlaşdırılması üçün idarəetmənin növlərə bölgüsü mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmin üç inkişaf sahəsinə – ***cansız təbiətə, canlı təbiətə*** *və* ***insan cəmiyyətinə*** bölünməsinə müvafiq olaraq, idarəetmənin aşağıdakı üç növü fərqləndirilir: **texniki; bioloji; sosial**.

1) Cansız təbiətdə idarəetmə, yəni texniki sistemlərin, istehsal-texniki proseslərin, maşın sistemlərinin, əşyaların idarə edilməsi əsasən texniki elmlər tərəfindən öyrənilir. Texniki idarəetmə obyektləri qismində, məsələn, enerji sistemi, qaz kəməri, informasiya-hesablama şəbəkəsi, dəzgah kompleksi, texnoloji proseslər və s. çıxış edə bilər.

2) Orqanizmlərdə idarəetmə, yəni bioloji idarəetmə, daha çox təbii elmlərin tədqiqat predmetidir. İnsanlar, bioloji qanunları dərk etməklə, bitki və heyvanlar aləminə təsir göstərirlər. Bu idarəetmə növünün obyekti şüura və iradəyə malik olmayan bitki və canlı orqanizmləridir.

3) Sosial idarəetmə texniki (cansız təbiətdə) və bioloji (canlı təbiətdə) idarəetmədən fərqli olaraq, mürəkkəb sosial sistemlərin idarə olunması zamanı, insanların birgə məqsədyönlü fəaliyyəti tənzimlənməsini təmin edir. Sosial idarəetmə insanların birgə fəaliyyətinin bir növüdür. İdarəetmənin qeyd olunan hər üç növü bir-biri ilə sıx əlaqədardır. Bəzən bir sıra müəlliflər tərəfindən sosial idarəetmə sahəsi yanlışlıqla idarəetmə sosiologiyası ilə qarışdırılaraq təhlil edilir. Lakin bu tamamilə yanlış bir yanaşmadır. Çünki idarəetmə sosiologiyası elmi, sosial idarəetmə isə praktik fəaliyyət sahəsidir. İdarəetmə sosiologiyası - sosial sistemlərdə insanların effektiv və optimal idarə olunmasının qanunauyğunluqlarını öyrənir, habelə sosial idarəetmənin problemlərini

aradan qaldırır. Sosial idarəetmə isə sosial sistemlərdə insanların effektiv və optimal idarə olunmasının qanunauyğunluqlarını öyrənir, habelə sosial idarəetmə problemlərini aradan qaldırır [1, s. 24].

Sosial idarəetmə ictimai münasibətlər sisteminin məqsədyönlü, şüurlu, sistemli tənzimlənməsi vasitəsidir. "Sosial idarəetmə" anlayışına elmi ədəbiyyatda iki mənada yanaşılır: *geniş* və *dar* mənalarda. Geniş mənada o, bioloji və texniki sistemlərdəki idarəetmədən fərqli olaraq, cəmiyyətdə mövcud olan bütün birliklərin, həmçinin müəyyən çərçivə daxilində sosial hadisə və proseslərin idarə edilməsi anlamını verir. Bu zaman idarəetmə o, sosial sistemə xas olan, onun bütövlüyünü, keyfiyyət xüsusiyyətlərini, çoxalma və inkişafını təmin edən üzvi bir hadisə kimi qavranılır. Dar mənada sosial idarəetmə ictimai həyatın sosial sferasında hadisə və proseslərin idarə edilməsi, sosial siyasətin həyata keçirilməsi vasitəsidir. Bu baxımdan sosial idarəetmə sosial birliklərə onların ictimai-fəaliyyət strukturunu tənzimləmək və təkmilləşdirmək üçün yönəldilmiş şüurlu, sistemli, məqsədyönlü təsirdir [1, s. 27].

Sosial idarəetməyə sosioloji yanaşmanın mahiyyəti. İdarəetməyə sosioloji yanaşmanın mahiyyəti onun üç komponentini müəyyən etməkdən ibarətdir. Birinci komponent – idarəetmə mexanizminin nüvəsidir. Bu, *məqsədqoyma* və *məqsədəçatma* da daxil olmaqla, *məqsədyönlü nəzarət* təsiridir. Belə təsir nəzarət orqanı obyektlərin özündən kənarda olduqda xarici formada, eləcə də obyektin özünün bir hissəsi olan bölmə və ya subyekt tərəfindən həyata keçirildikdə özünüidarəetmə formasında ola bilər. İkinci komponent sosial özünütəşkil, yəni kollektivdaxili tənzimləmənin kortəbii proseslərdir: liderlik, prestij şkalası, qeyri-rəsmi qrup formalaşması, sosial normalar. Sosial özünütəşkil - bütövlükdə cəmiyyətdən tutmuş ilkin sosial qruplara qədər ictmai təşkilatların bütün səviyyələrində mövcuddur. Onun fərqləndirici xüsusiyyəti spontanlıqdır - yəni kortəbiilik, vahid subyektiv başlanğıcın olmamasıdır. Hər iki komponent üçüncü - təşkilati nizam adlanan komponenti əmələ gətirir. Sosial idarəetmənin bilavasitə vəzifəsi sosial sistemdə, təşkilatda sosial nizam yaratmaqdır. Sosial nizam - sosial sistemin mütəşəkkilliyini, sosial hərəkətlərin qaydaya salınmasını ifadə edir. Təşkilati nizam - təşkilatlar, habelə idarələr və təşkilatların üzvləri kimi insanlar arasında öz funksiyalarının həyata keçirilməsi ilə bağlı yaranan münasibətləri tənzimləyən uzunmüddətli, nisbətən sabit məqsədlər, əlaqələr və normalar sistemidir. Bu komponentə həm keçmiş idarəetmə işinin məhsulları (qərarlar, sərəncamlar və s.), həm də kollektivdə kortəbii şəkildə formalaşan qayda və münasibət normaları sistemi daxildir. Bu o deməkdir ki, sosial təşkilatlarda ümumi fəaliyyəti tənzimləyən sosial nəzarət sistemi mövcuddur, müəyyən məhdudiyyətlər, sanksiyalar, normalar fəaliyyətdədir, sosial hərəkətlərin uyğunluğu, əlaqələndirilməsi, sabitliyi təmin edilmişdir [2, s. 50].

İdarəetmənin məqsədləri. Sosial idarəetmə fəaliyyət kimi idarəetmə əməliyyatlarının və psixoloji qüvvələrin aparılması üçün insanların əmək şəraitini nəzərdə tutur. İdarəetmənin məzmunu idarəetmənin məqsədlərindən asılıdır. İdarəetmə subyektləri qabaqcadan müəyyən məqsədlər irəli sürür və sonra şüurlu şəkildə ona çatmağa cəhd edirlər, öz hərəkətlərinin bu məqsədlərə uyğunluğunu nəzarətli formada həyata keçirirlər. Nəticə etibarilə idarəetmə müəyyən məqsədlərə yönəldilmiş fəaliyyətdir. Əgər qarşıda dərk edilmiş və əsaslandırılmış məqsəd qoyulmayıbsa, idarəetmə müvəffəqiyyətə ümid bağlaya bilməz. Məqsədlər *subordinasiya* münasibətlərində olurlar. Sosial idarəetmənin başlıca məqsədləri bunlardır: - cəmiyyətdəki sosial birlik formalarının (siniflər, sosial qruplar, təbəqələr, şəhər və kənd əhalisi) mənafelərini müdafiə edən, onların cəmiyyətin ümumi mənafeyi ilə əlaqələndirilməsini təmin edən düzgün sosial siyasət işləyib hazırlamaq və həyata keçirmək; - ölkə əhalisini təşkil edən millətlərin və etnik birliklərin mənafelərini ahəngdar əlaqələndirməyə xidmət edən, milli azlıqların, dilini, mədəniyyətini və ənənələrini qoruyan milli siyasəti reallaşdırmaq; - iş qüvvəsinin tələbatına uyğun olaraq əhalinin normal artımı, onun cinsə, yaşa görə bölgüsü nisbəti ilə bağlı məsələləri həyata keçirən demoqrafiya siyasəti yeritmək [2, s. 51].

Sosial idarəetmənin əsas prinsipləri. Sosial idarəetmə prinsipləri dedikdə, bütün idarəetmə mexanizminin səmərəli işləməsini təmin edən ilkin fundamental tələbləri, idarəetmədə rəhbər

tutulan ideyaları, ümumi müddəaları başa düşmək olar. Sosial idarəetmə prinsipləri sistemində ümumi (əsas, başlıca, fundamental) idarəetmə prinsiplərini ayırmaq olar. Ümumi prinsiplərlə yanaşı idarəetmənin yalnız ayrı-ayrı sistemlərinə, sahələrinə və ya funksiyalarına aid olan prinsiplər də mövcuddur (kadrların seçilməsi və yerləşdirilməsi prinsipi).

Sosial idarəetmənin növləri. Sosial idarəetmənin növlərinə adətən aşağıdakılar daxildir:

Strateji idarəetmə, operativ idarəetmə, dövlət idarəçiliyi, rəhbərlik və menecment. Elmi ədəbiyyatda tez-tez "qlobal idarəetmə" terminindən istifadə olunur. Bu termin özlüyündə qlobal proseslərin idarə edilməsi anlamına gəlir. Strateji (yunan dilindən *strategos* - general sənəti) idarəetmə - cəmiyyətə öz məqsədlərinə çatmaqda kömək etmək üçün nəzərdə tutulmuş xüsusi strategiyaların işlənib hazırlanmasına yol açan, rəhbərlik tərəfindən qəbul edilən tədbir və qərarların məcmusudur. Strateji idarəetmənin *subyekti* sosial institut kimi dövlətdir. Bununla belə, təşkilatlar səviyyəsində ayrıca strategiyalar hazırlana bilər. Peter Loranss strateji idarəetmə çərçivəsində idarəetmə fəaliyyətinin dörd əsas növü fərqləndirirdi: *resurs bölgüsü, xarici mühitə uyğunlaşma, daxili koordinasiya və təşkilati strategiyalardan xəbərdar olmaq*.

Operativ idarəetmə prosesində strateji planlar həyata keçirilir. Operativ idarəetmə sisteminin məqsədi idarəetmə strategiyalarının həyata keçirilməsini və təşkilatın məqsədlərinə nail olmanı təmin etməkdir. İstənilən əməliyyat idarəetmə sistemi aşağıdakı əsas elementləri ehtiva edir:

İdarəetmə dövrəsi (proses) **-** hərtərəfli şəkildə sistemləşdirməni nəzərdə tutur.

Əks-əlaqə - idarəetmə prosesinin effektivliyini təmin edən tədbirlər sistemini əhatə edir.

Müqayisə. Məsələn, müəssisələrdə faktiki məhsuldarlığın səviyyəsi əvvəlcədən hesablanmış norma və ya prosesin effektivliyi ilə müqayisə edilir.

Korreksiyaedici amil. İnkişaf planından məqbul hüdudlardan kənara çıxma barədə siqnal aldıqda qabaqlayıcı tədbirlər reallaşdırmaq imkanına malik struktura sahib olmaq lazımdır.

Planlaşdırma sistemi. Nəticəyə nail olmaq üçün idarə olunan prosesin təxmini səmərəlilik dərəcəsini müəyyən etməyi nəzərdə tutur [3, s. 14].

Sosial idarəetmənin strukturunda ***dövlət idarəçiliyi*** xüsusi yer tutur. Hökumətdən söhbət gedəndə, bir qayda olaraq, **"dövlət siyasəti"** anlayışından istifadə olunur. Dövlət siyasətini hakim sinfin, sosial təbəqənin, sosial qrupun, bəzən də *fərdin* (məsələn, şəxsiyyətə pərəstişdə) ***siyasi xətti*** kimi xarakterizə etmək olar.

Dövlət idarəçiliyi - informasiya-nəzəri, kibernetik, iqtisadi, hüquqi, sosioloji və digər inkişaf meyllərini nəzərə almaqla cəmiyyətdə inkişaf etdirilən və qanunla təsbit olunmuş sosial institutlara (konstitusiya, qanunlar, fərmanlar və s.) əsaslanan dövlət siyasətinin sahələrindən biridir [4].

Sosial idarəetmənin strukturu. İdarəetmə strukturu adı altında idarəetmə səviyyələrinin aşağıdan yuxarıya doğru nizamlı şəkildə təşkilini başa düşmək lazımdır. İdarəetmə strukturu ən aşağı səviyyədən başlayır, sonra ən yüksək səviyyəyə doğru yüksəlir. Əgər böyük şirkətlərdə idarəetmənin ən azı beş səviyyəsi - aşağı, kiçik, orta, böyük və daha yüksək səviyyələri varsa, bundan fərqli olaraq, cəmiyyətdəki mürəkkəb quruluşlu sistemlərdə daha çox səviyyə mövcuddur (məsələn, silahlı qüvvələrdə). Əgər icraçılar (fəhlələr, qulluqçular) ilə yüksək rəhbərlik (direktor) arasında çoxlu səviyyələr olarsa, belə idarəetmə strukturu ***şaquli struktur*** adlanır. Rəhbərlik səviyyəsi məhdudursa (səviyyə dərəcəsi üçdən artıq deyilsə), buna ***üfüqi struktur*** deyilir.

Nəticə

Bütün deyilənləri ümumiləşdirərək sonda onu demək olar ki, sosial idarəetmənin funksional-tətbiqi imkanları və reallaşdırma mexanizmləri demokratik cəmiyyətlərdə daha genişdir, rəngarəngdir, antidemokratik cəmiyyətlərdə isə bu sahə həm praktik göstəricilərinə, həm də elmi-nəzəri inkişaf səviyyəsinə görə reqlamentləşdirilmiş bir fəaliyyət sahəsi kimi çıxış edir.

İstifadə edilmiş ədəbiyyat

1. Qəmbərov B, Baxışova A, Şəmşiyeva N, Əliyeva A. İdarəetmə psixologiyası və sosiologiyası. Dərs vəsaiti. B., 2023

2. Гладышев А, Иванов В, Патрушев В. Основы социального управления: Учебное пособие / М., 2001. с.50-51.
3. Козбаненко В., Государственное управление: основы теории и организации. Учебник. М., 2002. с.14
4. Рейхерт Е. Социальное управление как особая разновидность управления. М., 2023

MEDIA DISCOURSE AND ITS CHARACTERISTIC FEATURES

Nargiz Kerimova
Mingachevir State University
PhD student at Khazar University
nargiz.karimova@mdu.edu.az
https://orcid.org/0000-0001-7360-3951

The great interest of linguists is the English-language media discourse, actualized by the totality of oral and written texts created by journalists, which are distributed in English-speaking countries through newspapers and magazines, television and radio, and the Internet. The significant role of Great Britain, the USA and other English-speaking countries, their priority positions in the world attract attention to the English-language media discourse. Interest in this type of discourse is also due to the expansionism of the English language, its status as "the language of international communication, which is constantly used by speakers of various (other) languages and linguistic cultures all over the world" [1, p. 45].

The most important feature of the language of English-language media discourse is the dialectical combination of standard and expression, the interaction of neutral and expressive-evaluative language units. This is due to the fact that the language of media discourse should be "communicatively clear, but at the same time expressive, bright, attractive" [3, p.12]. Phraseological turns, proverbs, sayings, catchphrases are important components of English-language media discourse, a source of its expressive and emotional saturation, an essential means of realizing its functional potential. Expressive semantic and stylistic qualities of phraseological units refresh the broadcast of TV and radio broadcasts, newspapers and magazines, making it casual, juicy, capacious, witty and apt. These units give the media discourse a certain influence, help create a specific imagery. The expressiveness of idiomatic expressions, their metaphorical nature gives expressiveness and energy to the language of mass media

As for the language trends of the English-language mass media, it is worth noting that the American mass media strive for brevity and simplicity of the language in which the material is presented, the British mass media also try to soften the зlanguage of the material presentation, which is observed even in "serious" or solid English newspapers (quality papers).

Describing public life and scandals, using colloquial and often slang expressions, the serious British press is more closely related to the mass press or tabloids. By resorting to pejorative words, stylistically reduced in color, journalists and editors of "serious" English newspapers try to expand their circle of readers (the so-called target group), attracting the attention of readers of less authoritative newspapers. It can be assumed that such shifts occur as a result of the fact that the language itself in everyone, even in the most conservative circles of society, tends to be simplified under the influence of the "global" American variant of the English language, which is more common in the global information space. It is believed that the American variant of English began to exert its influence on British English from the time of the Second World War, when American troops were spread over the territory of Great Britain, waiting to be sent to continental Europe. The

editors of the American newspaper The New York Times have developed their style of presenting material in the press, known as "timestyle". Thus, mass media in the 21st century are closely intertwined with all spheres of society, not only changing the culture in it, but also creating its own culture — mass media culture, which is a new milestone in the history of social relations and information transmission. When influencing culture, it is difficult to ignore language. Mass media, in their desire to get away from the outdated, in their opinion, norms of literary language, deviate to create their own style, which is close to the colloquial and absorbs all the new trends in society, giving them a linguistic embodiment and popularity in the use of words. The language of mass media is a set of certain linguistic and semi-linguistic objects that form certain rules of conducting mass communication. Over time, the strict bar of requirements for the literary language will decrease, meeting the norms and demands of society, and the mass media, which act as the so-called The "linguistic flagship" will dictate the conditions of norms for all styles, including literature. The English-language mass media is the dominant force in the global media space: they are quite influential, having their divisions in most non-English-speaking countries of the world, the main working principles and techniques of modern mass media originated there, the largest global media empires are located in the USA and Great Britain. Among the structural features of the English-language mass media, one can distinguish a functional orientation (observing the functions of attracting attention, creating and forming the point of view of the reader / listener / viewer / subscriber, etc.) and a clearly structured table of age ratings, a widespread concept of info drives and innovative methods material submission.

Modern mass media, through their influence on people's consciousness and behavior, influence the processes of transformation of socio-cultural reality, affecting all spheres of society. Many modern experts in the field of mass media talk about a powerful trend of merging social and mass communication [2, p.14].

The participants of the mass media discourse are journalists, TV/radio presenters, TV/radio commentators, all personnel who generate, broadcast and retransmit texts, as well as those who consciously or involuntarily perceive information coming into their field of vision. An extremely important aspect of the mass communication process is the multi-stage nature of the passage of any information, as it freely or involuntarily correlates with the opinions, assessments, judgments (real or 36 assumed) of other people, and this sometimes determines the attitude to the received information.

The editors of the American newspaper The New York Times have developed their style of presenting material in the press, known as "timestyle". Thus, mass media in the 21st century are closely intertwined with all spheres of society, not only changing the culture in it, but also creating its own culture — mass media culture, which is a new milestone in the history of social relations and information transmission. When influencing culture, it is difficult to ignore language. Mass media, in their desire to get away from the outdated, in their opinion, norms of literary language, deviate to create their own style, which is close to the colloquial and absorbs all the new trends in society, giving them a linguistic embodiment and popularity in the use of words. The language of mass media is a set of certain linguistic and semi-linguistic objects that form certain rules of conducting mass communication. Over time, the strict bar of requirements for the literary language will decrease, meeting the norms and demands of society, and the mass media, which act as the so-called The "linguistic flagship" will dictate the conditions of norms for all styles, including literature.

As for the language trends of the English-language mass media, it is worth noting that the American mass media strive for brevity and simplicity of the language in which the material is presented, the British mass media also try to soften the language of the material presentation, which is observed even in "serious" or solid English newspapers (quality papers).

References

1. Crystal D. Language and the Internet / D.Crystal. - C. : Cambridge University Press, 2001. - 272 p., p. 45
2. Артемова А.Ф. Английская фразеология: учебное пособие Москва: Высшая школа, 2015. 208 с., с. 14
3. Васильєва Л.В. Исследование модусньїх категорий в зволюции медиадискурса : на материале американской прессьі XX века : автореф. дис. ... канд. филол. наук : 10.02.04 / Людмила Витальевна Васильєва. - Владивосток, 2010. - 24 с.

LAKUNA KONSEPSİYASININ MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏTDƏ ROLU

Nigar Mustafa qızı Məhərrəmova
Mingəçevir Dövlət Universitet
nigar.maharramova@mdu.edu.az
https://orcid.org/0009-0009-1528-7685

Məlumdur ki, insan ikinci dili öyrənərkən öz fikirlərini ona tanış olan dil mədəniyyəti əsasında qurur. Hər hansı bir şəxsin ünsiyyət prosesində yaxşı bacarıqları olsa belə, yad, xarici linqvomədəni aspektlər ünsiyyəti çətinləşdirə bilər. Yeni dilin başa düşülməyən quruluşunu, yerləşmə xüsusiyyətlərini doğma leksik-qrammatik quruluş sisteminə münasibətdə olan elementlər, insana tanış olan ifadələrlə aydınlaşdırmaq linqvistik pedaqogikanın tipik problemidir. Müasir dilçilikdə rast gəlinən ikinci dil qavrayışı ilə bağlı uyğunsuzluqlar aydın və mütəşəkkil yanaşma tələb edirdi. Buna görə də alimlər "lakuna" terminini işlətmişdilər. Rus dilçisi Stepanov lakunaları "dilin semantik xəritəsində ağ ləkələr" kimi adlandırmışdır [6, s. 120].

Yeni konsepsiya mövcud linqvistik bilikləri sistemləşdirməyə, həmçinin konkret dilin millimədəni xüsusiyyətlərini müəyyən etməyə imkan verdi. Tədqiqatçılar boşluğun 2 şərhi ilə çıxış edirlər:

1) dar mənada - bir dildə sözün olmaması və başqa bir dildə olması;

2) dillər və onların mədəniyyətləri içində geniş mənada boşluq, müqayisə olunanlar arasında fərqlər toplusudur. Belə fərqlərə linqvistik səviyyədə lüğət, toplu ifadələr və qrammatik kateqoriyalar aid edilə bilər.

Mədəniyyət baxımdan boşluqlar hadisələrin, obyektlərin və abstraksiyaların qavranılmasını əks etdirir. Başqa sözlə, ana dilini və onun mədəniyyətini bilmək üçün lakunaların linqvistik tərəfi insanın təxəyyül qabiliyyətinə əsaslanaraq qavradığının dizaynına cavabdehdir. Buna görə də bir və eyni şeyi başa düşmək üçün müxtəlif xalqların nümayəndələri arasında eyni sözlər çox fərqli ola bilər. Bunun əsasında mədəni lakunaların mətn strukturu dəyişir. Ayrı-ayrılıqda lakunanın tipi bütün alimlər tərəfindən nəzərə alınmır, çünki elementləri ehtiva edən boşluqların ilk və ya ikincisi qeydə alınır.

Müasir elmdə dillərin müqayisəsi ilə bağlı suallar kifayət qədər fəal şəkildə araşdırılır. Hər şeydən əvvəl problemin aktuallığı müxtəlif mədəniyyətlərin qarşılıqlı zənginləşməsi imkanından yaranmışdır. Lakunalar ünsiyyət prosesinin daxili və ya gizli xüsusiyyətlərini əhatə edir və həm şəxsi, həm də sosial səviyyədə tanınır. Dilçi alim V.G.Qakanın fikrincə, həqiqətən, hər hansı adlandırılmış obyektin saysız-hesabsız xüsusiyyətləri, elementləri və aralarında əlaqələri vardır [1, s. 25].

İnsan hadisələri ümumiləşdirəndə və onların fərqli xüsusiyyətlərini müəyyən etdikdə, obyektiv reallığın müvafiq zaman dövrlərinə avtomatik adlar verir. Eyni zamanda, tədqiqatçılar qeyd edirlər ki, nominativ funksiya dillərdə kifayət qədər istifadə olunur, çünki yalnız müəyyən bir

cəmiyyət və ya etnik qrup üçün funksional əhəmiyyətli olan aspektlər adlandırılır. Xatırlamaq lazımdır ki, həmişə ad müxtəlif dillərdə eyni xüsusiyyətlərə görə obyektə verilmir. Ona görə də elə olur ki, reallığı olmayan hadisələr və seqmentlər var ki, müəyyən bir dildə ad yoxdur, çünki onlar onun mədəniyyəti üçün tipikdirlər. Dünyanın şəkillərinin diaxronik təhlili müxtəlif ölkələrin dil mədəniyyətlərinin və ya bir dövlətin regionlarının mənəvi dəyərlərinin müxtəlifliyini nəzərdə tutur. Beləliklə, boşluqlar artıqlığın nəticəsi adlandırıla bilər və ya əksinə, insanların dil və mədəni birliyinin təcrübəsi natamamdır, ona görə də bir mədəniyyəti digəri ilə tamamlamaq bütün hallarda mümkün deyil. Lakunalar linqvistik vahidin müşayiət edən mənasına aiddir: müəyyən bir cəmiyyətin mədəniyyətinə xas olan əlamətlər, hadisələr və linqvistik davranış və s. Müxtəlif dillərdə danışan insanlar arasında adekvat qarşılıqlı anlaşma problemi bu günlərdə də az əhəmiyyət kəsb etmir. Bu, insanın cəmiyyətdə rahat və dolğun yaşaması ilə sıx bağlıdır.

Alimlər inanırlar ki, həqiqətən də başqa bir ölkənin mədəniyyətini başa düşmək üçün dili yaxşı nəzəri bilmək kifayət deyil, onun mədəniyyətinin və vətəndaşlarının milli qavrayışının xüsusiyyətlərini başa düşmək lazımdır.

Ünsiyyətdə müqayisəli linqvokulturoloji tədqiqatlar əvvəlcə bəzi sözlərin tərcümə oluna bilməməsi və onların ekvivalent əvəzlənməsinin axtarışı ilə bağlı problemləri nəzərdən keçirmək üçün aparılmışdır. Alimlərin fikrincə, dil bütün milli-mədəniliyi, xalqın sərvəti və baxışını əks etdirmək iqtidarında deyil, lakin insanların həyatını bəlağətlə təsvir etməyi bacarır.

Vaxtilə təzadlı dilçiliyin banilərindən olan R.Lado qeyd edirdi: "Elə bir illüziya var ki, bəzən sanki bütün dillərdə mənalar eynidir və dillər yalnız fərqlidir. Əslində, təcrübəmizin təsnif olunduğu mənalar mədəni cəhətdən müəyyən edilir, buna görə də mədəniyyətdən mədəniyyətə əhəmiyyətli dərəcədə dəyişirlər." [2, s. 34].

Kanada tədqiqatçıları da öz nəşrlərini kommunikativ hadisə kimi lakunarlığa həsr etmişlər. J. Darbelne və J.P.Vine "Lacuna" terminini ilk dəfə təqdim edən elm adamları bunu çox sadə şəkildə müəyyən etdilər: bu, hər bir dildən olan sözün digər dildə analoqu olmayan hal.

Maraqlı simvolik şəkillər ölkələrin həyat tərzi və mədəni ənənələri ilə əlaqəlidir. Uğurlu tərcüməni əldə etmək üçün isə tərcüməçi hədəf dilin normalarına riayət edərək, məxəz dildə olan mətnin mənasını dəyişmədən hədəf dilə transformasiya etməlidir. Məxəz və hədəf mətnləri arasında mümkün qədər forma və məzmun uyğunluğunun yaradılmasına ekvivalentlik deyilir. Yəni, məxəz dildə olan bir söz hədəf dildə forma və məzmun uyğunluğu olan digər bir sözlə ekvivalent olur. Bəs tərcümə etmək istədiyimiz sözün hədəf dildə ümumiyyətlə qarşılığı olmadıqda necə? Bu sözlərə "lakunalar" deyilir və onların elə ingilis dilində mənası da "a blank space or a missing part" deməkdir.

Nümunə:

Yaponiyada olan "Hanami" adlı qədim adət vardır ki, buna görə çiçək açmış sakura (gilas) və ya prunus mume (gavalı) ağacının altında çay içmək həmin şəxsə ruhi dinclik bəxş edir. Adət səkkizinci əsrdə meydana çıxmışdır. İlk başlarda sadəcə kübarlar tərəfindən icra edilsə də sonradan əhalinin əksər zümrələri tərəfindən də yerinə yetirilməyə başladı. Hazırda da Yaponiyada məktəblərin, ictimai tikililərin həyətlərində gilas ağacları kifayət qədər çoxdur və bu ağacların çiçək açma dövrü aprel ayının əvvəllərinə təsadüf edir. Hanafubuki sözünün də meydana çıxması məhz bu adətlə əlaqədardır. Bu söz adətən gilas çiçəklərinin ləçəklərinin toplu halda yerə tökülməsini təsvir etmək üçün istifadə olunur və həmin ləçəklər qar çovğununda uçuşan qar dənələrini xatırladır.

Çoxsaylı lakuna növləri (boşluqlar) arasında etnoqrafik olanlar xüsusi yer tutur. Onlar dildənkənar milli-mədəni fərqlər ilə birbaşa əlaqəli leksik "boşluqları" təmsil edirlər.

Bəzi mənalar bir mədəniyyətdə olan başqa bir mədəniyyətdə olmaya bilər. Etnoqrafik boşluqlar da ekvivalent mənası olmayan söz və ifadələr kimi başa düşülür, müqayisə edilən dillərdə "gündəlik, sosial-mədəni və əxlaqi xarakterli" elementlərdir [3, s. 46].

Məcazi mənalı mütləq etnoqrafik olanlar ən çox müəyyən hadisələri bildirən lüğətlər arasında rast gəlinir. Nisbi etnoqrafik boşluqlar aşkar edildikdə heyvanların, bitkilərin və təbiət hadisələrinin adlarının hər iki dildə istifadə xüsusiyyətlərinin müqayisəsi nəzərdə tutulur.

"Qar" sözü Azərbaycan dilində bir neçə frazeoloji vahid əmələ gətirir – bunlar, əsasən, məlumdur:

"Uca dağların başı üstündən qar olar";

"Dəvə oynayanda qar yağar".

Rus dilində "qar" sözü daha çox başqa mənalarda yayılmışdır:

снежки, снежок – qartopu,

снежинки, снежинка - qar dənə(ləri)si, снежина- böyük qar dənəcəyi,

Снеговик, Снеговичок - Qar adamı,

Снегурочка, Снегурка - Qar qızı,

Снежник - qar sahəsi, снежница - buz səthində baharda əmələ gələn ərimiş su,

заснеженность - qar örtüyü, снегопад - qar yağması,

снеготаяние - qarın əriməsi,

снежный, заснеженный - qarlı, перистый снег, пушистый снег - tüklü qar;

снег идет, снега намело, снег падает, снег выпал - qar yağır (b).

Beləliklə, "qar" sözü Azərbaycan dilinə münasibətdə eyni zamanda iki növ boşluğu ifadə edir:

- assosiativ;
- nisbi.

Rus dilində təbii hadisəni ifadə edən çoxlu sözlər var, güclü küləklər yağan və ya yağan qar mənası daşıyır. Bunlara daxildir: метель, метелица, вьюга, пурга, поземка, буран, вихрь. Azərbaycan dilindəki bütün bu isimlər bir adla deyilir – qar fırtınası.

"Бабье лето" ifadəsinin semantikası maraqlıdır, "бабье лето" payızın gəlişi ilə, yarpaqların düşməsi zamanı başlayır. Bu hadisənin Azərbaycan dilində heç bir uyğunluğu yoxdur.

Bəzən yorğun olmağımız və ya digər səbəblərə görə evdə olduğumuz halda qapının zənginə cavab vermirik. Bu halın dünyanın, demək olar ki, hər yerində baş tutmasına baxmayaraq sadəcə "irusu" sözü bu vəziyyəti izah edir.

Beləliklə, linqvokoqnitiv və mədəni konsepsiyaların əsas müddəaları boşluqların mahiyyətini müəyyən etmək üçün əsas rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Акай О.М. Интерпретации лакуны и лакунарности как системного явления-Астана, 2019.

2. Ладо Р. Лингвистика поверх границ культур. // Новое в зарубежной лингвистике. Вып. XXV. -М., 1989.

3. Мубаракова Д.К. Лакуны как явление межкультурной коммуникации -Астана, 2016.

4. Муравьев В.Л. Проблемы возникновения этнографических лакун. -Владимир, 1980.

5. Полянская Л.П. Этнографические лакуны в русском и французском языках (Язык и культура. -М., 2003.)

6. Хакимова, Ш.Р. Лакуны как лингвистическое явление // Молодой ученый. —2015. — № 1 (81). - с. 420-422

ARİF ABDULLAZADƏNİN "SINAQ KÜRƏSİ" ROMANI HAQQINDA

Pakizə İsrayıl qızı Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
Azərbaycan Universitetinin dissertantı
aliyeva.pakize.filolog@mail.ru
https://orcid.org/0000-0003-3769-6198

Təqdim olunan məqalədə alim-şair Arif Abdullazadənin (1940-2002) "Sınaq kürəsi" romanı tədqiqata cəlb olunmuşdur. Arif Əbdürrəhman oğlu Abdullazadənin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Abdullazadənin keçən əsrin 60-cı illərindən başlayıb 2000-ci illərin əsrin əvvəllərinədək dək olan zaman kəsiyinə təsadüf edən bədii və elmi yaradıcılığı geniş məzmunlu araşdırmalar üçün materialla zəngindir. Ədibin müxtəlif illərdə işıq üzü görən "Arzular", "Könüllərin dünyası", "Hər yerdə, hər zaman", "Ana dünyamız", "Vseqda i vsyudu", "Sevin Azərbaycanı!", "Sənlə sənsiz", "Svet Abşerona", "Duyum", "Bəxtimizin kitabı", "Seçilmiş əsərləri", "Ulu Qorqud", "Tövbə duaları", "Qanlı yaddaş", "Qatarla uçmaqdan yorulan durna" kitablarında müxtəlif janrlı bədii əsərləri – şeir, poema, roman və pyesləri yer almışdır. Bunlardan əlavə, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor A.Abdullazadə "Novatorluq və üslüb", "Şair Cəfər Cabbarlı", "Od nə çəkdi", "Şairlər və yollar" adlı monoqrafiyaların və çoxsaylı elmi və publisistik məqalələrin müəllifi, "Azərbaycan ədəbiyyatı tarixi" V cildinin, "Ədəbiyyatda şəxsiyyət konsepsiyası" kitablarının həmmüəlliflərindən biridir.

Ədibin bədii, eləcə də publisitik yaradıcılığı mövzu baxımından rəngarəng olub, Vətən, doğma yurd, milli kimlik, mənəvi dəyərlər, insan yaşantıları, Yaradan və insan münasibətləri və s. kimi istiqamətlər daha çox diqqətimizi çəkir. Arif Abdullazadə yaradıcılığı üçün xarakterik və sevilən mövzulardan biri Türkiyə mövzusudur ki, müəllifin əksəriyyəti 70-90-cı illərdə yazılmış fərqli janrlı əsərlərində qarşımıza çıxır. O, qardaş Türkiyənin həyatı, mədəniyyəti, incəsənət xadimləri ilə bağlı olan əsərlərində Türkiyə sevgisini ifadə etməkdən yorulmur.

Altmışıncılar ədəbiyyatı üçün xarakterik olan forma axtarışları, eksperimentçilik, intellektual və fəlsəfi poeziyanın üstünlüyü Arif Abdullazadənin yaradıcılığı üçün də keçərlidir. Ədib məhdud mövzu seçmir. Vətən, doğma yurd, milli kimlik, mənəvi dəyərlər, insan yaşantıları, Yaradan və insan münasibətləri, həyat və ölüm, tənhalıq və təklik Arif Abdullazadənin əsərlərində maraqlı poetik dillə oxucuya çatdırılır. Həmçinin ədibin poetik istedadı mövzular arasında kəskin fərqin ortaya çıxmasına imkan verməmiş, bəzən bir nümunə daxilində bir neçə mətləbi ustalıqla birləşdirməyə nail olmuşdur. A.Abdullazadənin 60-cı illərdən başlayan ədəbi fəaliyyəti sonrakı onilliklərdə yüksələn xətlə inkişaf etmiş, əsərlərinin mövzu və mündəricəsində nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Xüsusilə, 80-ci illərdən başlanan milli azadlıq uğrunda mübarizə, Meydan hərəkatı, 1990-cı ilin 20 Yanvar hadisəsi, ermənilərin ərazi iddiaları, həmvətənlərimizin Qərbi Azərbaycandan dədə-baba torpaqlarından didərgin düşməsi, Qarabağ müharibəsi Arif Abdullazadənin yaradıcılığında əsas xətti – Vətən xəttini təşkil etmişdir. Onun son dövr yaradıcılığında peşmançılıq və kədər notlarının üstünlüyü Azərbaycan ədəbiyyatının həmin zaman kəsiyində tipik durumundan kənarda qalmır. Ənənəvi, çoxlarının müraciət etdiyi mövzularda yazmaq heç bir halda Arif Abdullazadənin yaradıcılığında təkrarçılıq və yeknəsəqliyə səbəb olmamış, şair özünəməxsus poetik təhkiyəsi ilə lirik və epik poeziya nümunələri yaratmışdır.

Qeyd etdiyimiz kimi, Arif Abdullazadənin yaradıcılığı çoxşaxəli olub, poeziya, nəsr, dramaturgiya kimi istiqamətləri özündə birləşdirir. Lakin nədənsə müəllif daha çox şair kimi tanınmış, yaradıcılığına münasibət əksər hallarda poeziyasına əsasən formalaşdırılmışdır. Abdullazadənin roman yaradıcılığı dağınıq da olsa tədiqata cəlb olunmuş, romanları haqqında ümumilikdə onun yaradıcılığından bəhs olunan məqalələrdə və romanların ayrılıqda təhlili verilmişdir. Məs, H.Nəsibova, V.Yusifli, K.Hacının məqalələrində əsasən yazıçının "Duyum"

romanına yer ayrılmışdır. [7; 8] Araşdırmamız müddətində XX əsrin 80-ci illərindən sonrakı Azərbaycan romanının tədqiqinə həsr olunmuş samballı monoqrafiyalara müraciət etsək də, təəssüflə qeyd etməliyik ki, həmin istiqamətli tədqiqatlarda Arif Abdullazadənin romanlarının nəinki təhlili yer alır, ümumiyyətlə, dövrə aid icmal xarakterli məlumatlarda da nadir hallarda hansısa bir romanının sadəcə adı çəkilir.

Arif Abdullazadənin roman yaradıcılılığı 1980-2000-ci illərdə çap olunmuş beş romanı əhatə edir: "Bir ovuc torpaq" [1], "Duyum" [2;3], "İşıq zolağı" [2], "Sınaq kürəsi" [5; 6], "Qanlı yaddaş" [4]. Demək olar ki, heç bir mənbədə qeyd olunmasa da, müəllifin az sayda və ədəbi fakta çevrilməyən və tədqiqatçıların diqqətini cəlb etməyən hekayələri də var ("Ağ yaylıq", "Toy", "İçərişəhər yuxusu" və s.). Ümumilikdə, romanlarla tanışılıq zamanı diqqəti çəkən aparıcı iki məqamdan söz açmağımız yerinə düşərdi ki, bunlardan birincisi, ədibin roman yaradıcılığında yer alan bütün mövzuların onun poeziyasında dəfələrlə müraciət etdiyi məsələlərlə bağlı olması, poeziyasını nəsrə daşımasıdır. İkinci diqqəti çəkən məqam isə bundan ibarətdir ki, mövzusunun nə ilə bağlı olmasından asılı olmayaraq, romanlarda ana xətti tənha qəhrəmanın taleyi – insan təkliyi təşkil edir.

Yazıçının 1984-1986-cı illərdə qələmə aldığı "Sınaq kürəsi" romanı müəllifin izahına görə, uzun müddət nəşriyyatların diqqətini cəlb etməmiş, əsərdə səsləndirilən fikirlər redaktorlar tərəfindən birmənalı qarşılanmamışdır. Bu səbəbdən də roman yalnız 2000-ci ildə "Azərbaycan" jurnalında işıq üzü görmüşdür. [5; 6] Qeyd edək ki, "Sınaq kürəsi" romanı müəllifin kitab halında çap olunmayan yeganə və tədqiqatçıların ən az müraciət etdiyi əsəridir. "Azərbaycan" jurnalında romanın ilk hissələri çap olunarkən verilmiş "Müəllifdən" hissəsində oxuyuruq: *"Oxucuların müzakirəsinə təqdim edilən bu roman 1984-86-cı illərdə qələmə alınıb. Burada müzakirə sözünü mən təsadüfən işlətmirəm. Çünki janr baxımından ənənəvi roman kanonları qəliblərinə o qədər də uyuşmayan bu əsərdə bir neçə ədəbi meyil və formaların müəyyən elementləri yanaşı şəkildə təzahür olunur".* [5, s.44] Həqiqətən də, əsrlə tanış olduqda tarixi, fantastik, psixoloji roman kimi bir neçə roman tipinin təzahürlərinə rast gəlirik. Eyni zamanda, Sınaq kürəsinin əhalisinin məskunlaşması, zaman-zaman daha təkmil həyat tərzinə nail olması, çoxsaylı savaşlar, hakimiyyət iddiaları, dinlərə və fəlsəfəyə münasibət və zamanla kürə sakinlərinin yarılarını axtarmaq uğrunda çabalarının tükənməsi, tənhalaşma kimi məsələlər sanki Yer kürəsində bəşəriyyətin keçdiyi "təkamül" prosesini xatırladır. Müəllif bunu belə əsaslandırır: *"Romandakı hadisələr Yer kürrəsinə bənzər başqa bir planetdə cərəyan edir. Ancaq kainatda hələ ki, belə bir insan məskəni qeydə alınmadığına və təbii ki, hamı kimi mənim də onu yaxından müşahidə etmək imkanım olmadığına görə doğma planetimizdə baş verən və ya baş verə biləcək hadisə və faktlardan istifadə edilib . Bəli, məhz istifadə, məlum və qeyri-məlum faktların təkrarı yox".* [5, s.44] Müəllifin özünün də həmin hissədə verdiyi açıqlamadan bizə aydın olur ki, məhz Yer kürrəsində baş verənlərə yaxın hadisələrin əks olunduğu əsas gətirilərək nəşriyyatlarda əsərin çapa qəbul olunmadığı da faktdır. Fikrimizcə, ədəbiyyatşünas alim olan Arif Abdullazadə bədii əsərlərdə təxəyyül sərbəstliyi və elmi fantastikanın incəliklərinə yaxından bələd idi və hər şeyi "uydura" bilərdi. Lakin onun məqsədi sakini olduğumuz planetin taleyi, gələcəyi ilə bağlı narahatlığı dilə gətirməkdən ibarət idi. Belə ki, o yazır: "...roman konkret bir məqsədə - ümumbəşəri miqyasda təcili tədbirlər görülməsə, bizim planetimizi də gözləyə biləcək faciələrin dəhşətlərini göstərmək təşəbbüsünə yönəldiyindən, buradakı hadisələrin inkişaf istiqamətini müəyyənləşdirən daxili mexanizmin sükanını öz əlində saxlamağı zəruri hesab etmişəm". Planeti gözləyən təhlükənin xəbərdarlığı şəklində qələmə alınan roman ideyası fikrimizcə, ideya olaraq müsbət qarşılanmalı idi, lakin roamanın işıq üzü gördüyü zaman kəsiyində dövri mətbuatı araşdırsaq da, roman haqqında hansısa bir şəkildə söylənən fikirlərə rast gəlmədik. Halbuki, Abdullazadən daha əvvəl çap olunmuş "Bir ovuc torpaq", "Duyum", "İşıq zolağı" romanları haqqında "Ədəbiyyat Qəzeti"ndə ("Ədəbiyyat və incəəsənət") məqalə-resenziyalarla rastlaşırıq. [7; 8]

"Sınaq kürəsi" romanına Aristotelin məşhur *"Sənət həqiqəti uydurmaqdan ibarətdir"* fikri epiqraf olaraq seçilmişdir. [5, s.44] Hadisələr Səslər ulduzunda küləkdən doğulan Görünən səslər barəsində xəbərin yayılması ilə başlanır. Bu planetdə yağışdan, küləkdən, zəlzələdən, vulkandan doğulan səslər var, yağışa, vulkana və s.bənzərlər: *"Bu səslər təkcə doğulduqları təbiət hadisələrinə görə bir-birindən seçilir, çox güclü, az güclü, zəif və gücsüz. Səəslər ayrılır, zəiflər güclülüərə tabe olur, çünki əks halda güclü Səslər zəif Səsləri boğa və ya uda bilərdi..."* [5, s.45]

Elə buradaca qeyd etmək yerinə düşərdi ki, SƏS-ə biz müəllifin "Duyum" (1982) romanında da rast gəlirik. Romanda adsız qəhrəmanın 4 gecəsi, 4 yuxusu və 4 gündüzü verilmişdir ki, bunların əksər hissəsi SƏS-lə həmsöhbət olduğu zamanlarda söylədiyi xatirələrdən ibarətdir. Zamanına görə psixoloji nəsrin yaxşı nümunələrindən biri kimi dəyərləndirilən romanda SƏS bir vasitə olaraq seçilmişdir. Qərhrəmanın iç səsi və daxili duyumu şəklində təzahür edir. [2; 3] Həmçinin SƏS-lə dialoqlardan birində insan nəslinin nə vaxtsa başqa planetdən gəlməsi və ya gətirilməsi barədə fikirlərin səslənməsidir ki, bu fikirləri daha sonra A.Abdullazadə "Sınaq kürəsi" adlı romanınında inkişaf etdirmişdir.

Diqqət çəkən məqamlardan biri də küləkdən doğulan səslərdir ki, sanki dini ədəbiyyatda Adəmə verilən nəfəsi, ruhu yadımıza salır (ruh-səs görünmür, ruh Görünən səsə çevriləndə insan yaranır?). Görünən səslərin yeni bir planetə - Sınaq kürəsinə göndərilməsi yaradılarkən Cənnətdə olan, lakin günınaha görə Yerə sürgün olunan Adəm nəslini xatırladır: *"Məsələ burasında idi ki, Görünən Səslərin hamısı onları eyni dərəcədə eşitmir, eşidənlər bəzən tam anlamır, anlayanlar isə çox vaxt bu idarə istiqamətindən yayınırdılar"*. Roman boyunca Sınaq kürsəinə göndərilən Görünən səslərin bu planetdə sabitləşməsi, tənha səslərin öz "yarı"larını axtarıb-tapması, doğub-törəməsi, zamanla güclənən səslərin digərlərini boğması, hakimiyyət iddiaları və s. əks olunub. Səslər ulduzunda səslər doğulur və zəifləyir, səslər ölmür, Sınaq kürəsindəki səslər isə ölləridir və çox vaxt biri digərinin ölüm səbəbidir. Abdullazadə yazır ki, Səslər ulduzundakı səslər görünən səslərə öz törəmələri kimi baxırdılar, lakin bir zaman sonra Görünən səslər nəzarətdən çıxmağa başladı.

Min illər ərzində səslərin eksperimentləri nəticəsində formalaşmış Sınaq kürəsinin məhv olma səbəbi isə tənhalaşmadır. Xoşbəxt olmayan, öz içinə qapanıb tənha qalan səslərin nifrəti günü-gündən artır və Sınaq kürsəi məhv olur. Roman bu fikirlərlə tamamlanır: *"Və yenicə partlayıb son zərrələri kainatın boşluqlarına səpələnən Sınaq kürəsi özünün şüurlu-şüursuz canlıları, məskənləri, topluları, kəşfləri, ixtiraları, tapıntıları, tarixi və bu tarixin yollarında səpələnmiş ömür taleləri, insan, heyvan, təbiət adları, uğurları, uğursuzluqları, sevgiləri, həsrətləri, sevincləri, qüssələri...ilə necə də bizim ana yer kürrəmizə bənzəyirdi..."* [6, s.109] Deməli, müəllif Yer kürəsini də məhvə aparacaq tək şeyin tənhalaşma, yadlaşma olduğuna əmindir.

Ümumiyyətlə, roman müəllifin də qeyd etdiyi kimi, olduqca mürəkkəb struktura və məzmuna malikdir. Əsərdə Yer kürrəsinin tarixinə sanki improvizələr var, bəzi ölkə, şəhər, yer, xalq, eyni zamanda şəxs adları qismən uyğunlaşdılrılmışdır: Perro – Pyotr, Azak dənizi – Azov dənizi, Musra Keyhar – Mustafa Kamal, Altaran – Atatürk, İnirsələ – İngiltərə, Suraba – Stalin, Hamer – Hitler, Anraka – Amerika və s. Diqqətli oxucu əksər adlarla müəllifin kimlərə işarə etdiyini anlaya bilər. Fikrimizcə, müəllifin məqsədi tarixi roman yazmaqdan daha çox, dəyişdirilmiş adlarla təqdim olunan bir çox tarixi hadisələrə fərdi və fərqli mövqeyini ifadə etməkdən ibarətdir. Geniş şəkildə olmasa da, əsərdə Azərbaycan tarixi ilə bağlı müəyyən məqamlara eyham var.

Romana janrın tələbləri baxımından diqqət yetirdikdə tarixi təfəkkür məcrasında hadisələrə baxış diqqəti çəkir, lakin daha əvvəl də qeyd olunduğu kimi, Yer planeti ilə analogiya aparılsa da, sözün həqiqi mənasında tarixi romanın tələblərinə, ilk növbədə tarixi həqiqətlərə sədaqət prinsipinə əməl olunmamışdır. Lirik-psixoloji məqamlar əsərdə yetərincədir.

A.Abdullazdənin bütün romanlarında tez-tez onun poeziyası üçün xarakterik olan lirik-psixoloji məqamlar yer almaqdadır. Məs, *"Bu tərddüdlər, fikir qarışıqlığı içində bir də gözünü açıb gördü ki, yenidən yay gəlib, lakin nədənsə günlər ikiqat uzanmayıb, gecələr ikiqat qısalmayıb, dünya ikiqat isinməyib, ayılar hələ yuxudan oyanmayıb. Uzun gündüzlər, qısa gecələr, yuxusuz*

aylar axtarmaq niyyətiylə məzuniyyətə çıxdı"..; "Axı kimin, nə vaxt, haradan ağlına gəlib və bəşəriyyət üçün belə bir adət, qayda yaradıb ki, gecələr yatmaq üçündür?"; "...Bu qayğısız, qarşılıqlı anlayışsız kimləsə birlikdə eyni tavan altında yaşamaq özünü də, başqalarını da aldatmaq deməkdir"...kimi fikirlər Abdullazadənin poeziyasının mövzuları, ümumi ruhu ilə həmahəngdir. Romanda insan və cəmiyyət, insanın varlığı və mövcudluğu, əqidə və məqsəd, vətənə bağlılıq, milli kimlik, azadlıq uğrunda mübarizə kimi məsələlərə yer ayrılsa da, ana xətti tənhalıq təşkil edir

Romanın dili obrazlılıqdam məhrum olmasa da, sanki fikir poeziyasının təmsilçisi olan ədib romanda da bəzi təsvirlərdə quruluğa yol verir, uzun-uzadı bənzətmələrdən qaçır. Ümumilikdə, müəllifin yeni roman yaratmaq cəhdi uğursuz hesab oluna bilməz. Və elmi-nəzəri ədəbiyyatda yeni romanlardan söz açıldıqda "Sınaq kürəsi" romanına da müraciət olunmasında fayda var.

Beləliklə, "Arif Abdullazadənin "Sınaq kürəsi" romanı və müəllifin roman eksperimenti" mövzusu üzərində tədiqiqat zamanı gəldiyimiz qənaəti qısaca belə ifadə etmək mümkündür:

- Abdullazadənin romanları 80-90-cı illərində Azərbaycan romanının ümumi inkişaf qanunauyğunluqları ilə səsləşir;
- "Sınaq kürəsi" romanının tədqiqi həmin zaman kəsiyində nəsrdə baş verən yeni meyilləri dərk etmək baxımıdan maraq doğurur;
- əsərin əvvəlində verilən "Müəəlifdən" hissəsi romanın açarı hesab oluna bilər və oxucuda yaranacaq sualların açılmasına xidmət göstərir;
- romanda Sınaq kürəsində baş verən hadisələr misalında bəşəriyyəti gözləyən ən böyük faciənin – tənhalaşmanın qorxunc fəsadları qələmə alınmışdır;
- tarixi təfəkkür məcrasından hadisələrə baxış əsas alınsa da roman bütün tələblər baxımından tarixi roman sayıla bilməz;
- romanlarda insan və cəmiyyət, insanın varlığı və mövcudluğu, əqidə və məqsəd, vətənə bağlılıq, milli kimlik, azadlıq uğrunda mübarizə kimi məsələlərə yer ayrılsa da, ana xətti insanın təkliyi təşkil edir;
- roman üçün dərin psixologizm xarakterikdir;
- bir sıra hallarda Abdullazadə poeziyasının xüsusiyyətləri nəsrə də sirayət etmişdir, romanda yer alan lirik-psixoloji məqamlarda şairin poeziyasının ruhu duyulmaqdadır və s.

Əlavə olaraq qeyd etmək istərdik ki, A.Abdullazadənin romanları, o cümlədən "Sınaq kürəsi" romanı haqqında mövcud araşdırmalar onların mövzu və janr rəngarəngliyi baxımından geniş təhlili üçün yetərli deyil və gələcəkdə daha genişplanlı aşdırmalara ehtiyac var və bu istiqamətdə araşdırmamızı dərinləşdirmək qənaətindəyik.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullazadə A. Bir ovuc torpaq: roman. Red. S.Zeynalova. Bakı: Gənclik, 1982, 286 s.
2. Abdullazadə A. Duyum (roman və şeirlər). Bakı: Aspoliqraf, 2022, 352 s.
3. Abdullazadə A. Duyum. Red. V.Quliyev, Bakı: Gənclik, 1986, 365 s.
4. Abdullazadə A. Qanlı yaddaş: roman. Red. S.Qasımlı. Bakı: Elm və təhsil, 2010, 398 s.
5. Abdullazadə A. Sınaq kürəsi: roman. "Azərbaycan" jurnalı, 2000, № 3, s.44-89
6. Abdullazadə A. Sınaq kürəsi: roman. "Azərbaycan" jurnalı, 2000, № 4, s.56-110
7. Nəsibova H. 1970-1980-ci illər Azərbaycan romanında insan və cəmiyyət (Arif Abdullazadənin "Duyum" romanı əsasında). Filologiya məsələləri, 2016, № 5, s. 277-285
8. Yusifli V. Döngələr, dayanacaqlar. "Ədəbiyyat və incəsənət" qəzeti, 20 mart 1987, № 12, s. 6

AZƏRBAYCAN DİASPORUNUN MULTİKULTURALİZM VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ İSTİQAMƏTİNDƏ ROLU

Pərvanə İsmayıl qızı Məmmədova
Gəncə Dövlət Univesiteti
mammedovaparvane@gmail.com
https://orcid.org/0000-0003-0330-3683

Multikultualizm dünya əhalisinin sosial-iqtisadi həyatının ayrılmaz tərkib hissəsi sayılır. Qloballaşan dünyada müxtəlif məkanlardan gəlmiş müxtəlif mədəniyyətlərin, dini konfessiyaların, etnosların nümayəndələri yanaşı yaşamaq zərurəti qarşısında qalmışdırlar. Multikultural modelin qəbul edildiyi ölkələrdə milli mədəni ənənələr və dəyərlərə hörmətlə yanaşılır, bu modelin qəbul edilmədiyi digər ölkələrdə isə, əksinə sıxışdırılır.

"Multikulturalizm" anlayışı nisbətən yenidir və elmi dövriyyəyə yalnız ötən əsrin 70-ci illərində daxil olmuşdur. Bu, qərbin inkişaf etmiş ölkələrində cərəyan edən dəyişikliklərə "multikulturalizm konsepsiyası" olaraq, cavab kimi meydana çıxmışdır. Multikulturalizmi şərtləndirən dəyişikliklər əsasən keçmiş metropoliyaları əhatə etmişdir. Yəni əvvəllər koloniyalara malik olmuş dövlətlər istər-istəməz müxtəlif mədəniyyətlərin uzlaşdırılması problemi ilə üz-üzə qalmışlar. Belə ki, bu ölkələrə keçmiş koloniyalardan kütləvi əmək miqrantları gəlməyə başlamışlar. Sözsüz ki, bunun səbəbi hər şeydən öncə, ondan ibarət idi ki, koloniyalara malik olan ölkələrdə sosial-iqtisadi vəziyyət, ümumiyyətlə, həyat şəraiti əhəmiyyətli dərəcədə yüksək idi. İlkin vaxtlarda metropoliyalar miqrant axınına qarşı çıxmırdılar. Çünki, sürətlə inkişaf etməkdə olan sənaye istehsalına ucuz işçi qüvvəsi tələb olunurdu. Bu baxımdan, bir çox hallarda metropoliyaların özləri əmək miqrantlarının gəlməsində maraqlı idilər. Sonrakı mərhələdə isə, onlar multikulturalizm siyasətinin konseptual əsaslarının işlənib hazırlanması və reallaşdırılması zərurəti ilə üz-üzə qalmışlar. Qeyd edək ki, "multikulturalizm" anlayışının elmi dövriyyəyə daxil olmasınadək "polimədəniyyət" və "çoxmədəniyyətlilik" anlayışları işlədilirdi. [2, s. 37]

Multikulturalizm – cəmiyyətin mədəni müxtəliflik əleyhinə etirazını səngitmək üşün alternativ siyasət kimi meydana gələn, mədəni müxtəlifliyi qoruyub saxlamaq və zənginləşdirmək, mədəniyyətlərarası dialoqun qurulması ilə yeni formaların axtarışıdır. Mədəni məxtəliflik digər dövlətlərin ərazilərinə, xalqların mədəni irsinə iddiaları, etnik təmizləməni, assimilyasiya və ksenofobiyanı tamamilə rədd edir. Müasir dövrün yeni dünya nizamının tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş beynəlxalq siyasəti, xalqımızın tarixən yaratdığı və yaşatdığı multikultural ənənə verdiyi önəm ölkəmizi dünyanın mədəniyyətlərarası dialoqun episentrinə çevirmişdir. 2008-ci ildə mədəniyyətlər arasında dialoqun qurulması məqsədilə ölkə başçısı tərəfindən irəli sürülən "Bakı prosesi" təşəbbüsü xalqımızın çoxəsrlik tolerant, birgəyaşama mədəniyyətinin dünya mədəniyyətləri arasında münasibətlərin tənzimlənməsi və inkişafında nümunə kimi təqdim edilmişdir. Bu isə bəşəriyyətin plüralizm, mədəni müxtəlifliyin dəstəklənməsi çərçivəsində təhlükəsiz və birgəyaşayış mədəniyyətinə dəstəyin ən bariz nümunədir. Eyni zamanda "Bakı prosesi"nin davamı olaraq Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə 2011-ci ildən başlayaraq YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, BMT-nin Ümumdünya Turizm Təşkilatı (BMÜTT), Avropa Şurası, İSESKO və digər beynəlxalq təşkilatların tərəfdaşlığı ilə iki ildən bir paytaxt Bakı bəşəri sülhə, əmin-amanlığa, bütövlükdə sağlam dünya nizamının qurulmasına xidmət edən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarına yüksək səviyyədə ev sahibliyi etmişdir. Forumlarda çıxış edən Azərbaycan Respublikasının Prezidenti bildirir ki, Forumda aparılan müzakirələrin məqsədi "necə edək ki, xalqlar bir-birinə daha da yaxın olsunlar [3].

Və beləliklə, artıq Azərbaycan Respublikası ikitərəfli və çoxtərəfli münasibətlərdə etibarlı tərəfdaş, beynəlxalq təhlükəsizlik və enerji sektorunda mühüm söz sahibi, dünyada multikulturalizm və tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınır və qəbul edilir [1, s.8]. Bütün bu proseslərlə yanaşı, Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi, xüsusilə də ölkə xaricində yaşayan həmvətənlərimizdə ruh yüksəkliyi yaradır. Xaricdə müxtəlif millətlərin nümayəndələrinin əhatəsində olan soydaşlarımız yüksək əhval-ruhiyyə ilə milli-mədəni dəyərlərin təbliğində iştirak edirlər, ölkəmizi fəal şəkildə və qürur hissi ilə təmsil edirlər. Tolerant ruhlu Azərbaycan diasporunun nümayəndələri müxtəlif xalqların nümayəndələri ilə dinc və sülh şəraitində yaşayırlar. Azərbaycanın diaspor təşkilatları və xarici ölkələrdəki səfirliklərimiz dünya ölkələri ilə mədəni əlaqələrimizin inkişafına mühüm töhfələr verirlər. Milli mədəniyyətimizin dünyaya inteqrasiyası istiqamətində son dövrlərdə Azərbaycan diasporunun müstəsna fəaliyyəti danılmazdır. Azərbaycan diasporunun mədəniyyətimizin təbliği ilə bağlı gördüyü işlərin nəticəsində dünyanın əksər ölkələrində görkəmli elm və mədəniyyət xadimlərimiz barədə ətraflı məlumat yaranıb və onların əsərləri geniş təbliğ edilib.

Bu cəhətdən Fransa ilə əlaqələrin inkişafı daha təqdirəlayiqdir. Strasburqdakı "Azərbaycan evi" cəmiyyəti ölkənin məşhur Mark Blok Universiteti ilə əlaqələr qurub. "Nizami Gəncəvi və Dünya mədəniyyəti" mövzusunda keçirilən konfrans əlaqələrin inkişafı baxımından əhəmiyyətli idi. Tədbirin təşkilatçıları Strasburqda fəaliyyət göstərən "Azərbaycan evi" və Strasburq Türkologiya Departamenti olub. Avstriyanın paytaxtı Vyana şəhərində Avstriya-Azərbaycan Akademik Birliyinin təşəbbüsü və Avropa Komissiyasının dəstəyi ilə gənclər proqramı həyata keçirilib. Proqramda Portuqaliya, Slovakiya, Almaniya, Türkiyə və Azərbaycan gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər. Proqram çərçivəsində "Azərbaycan gecəsi" təşkil olunub [4].

Dünyada mövcud olan 500-dən зox Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərdikləri dövlətlərdə mədəniyyətlərarası tədbirlərə təşkilatçılıq edirlər və yüksək fəallıq nümayiş etdirirlər. Nümunə olaraq qeyd etmək olar ki, Kanadanın Alberta vilayətinin Kalqari şəhərində ənənəvi olaraq hər il təşkil edilən Kinqslend-Triko multikultural festivalında "Alberta Azərbaycan Mədəniyyət Cəmiyyəti" iştirak edib. Bu festivalın keçirilmə məqsədi çoxsaylı müxtəlif icmaların mədəni dəyərlərinin nümayiş etdirilməsi və yerli cəmiyyətin maarifləndirilməsidir. Bu festivalda Azəbaycan diaspor nümayəndələrinin təşkilatçılığı ilə yaradılmış Azərbaycan guşəsində milli mədəniyyətimizin əks olunduğu əl işləri , suvenirlər sərgilənib. Azəri rəqs qruplarının ifasında milli rəqslərimiz ifa edilib. Azərbayacn guşəsi festival ziyarətçilərinin ölkəmizə marağını yüksəldib.

Bu ilin birinci yarısında "Heydər Əliyev İli" çərçivəsində diaspor təşkilatları tərəfindən Azərbaycanda və müxtəlif ölkələrdə 100-dən artıq tədbir keçirilib. 2023-cü il hələ başa çatmayıb, ilin əvvəlindən bu günədək təxminən 41 ölkədən olan diaspor təşkilatlarının 470 layihəsi komitə tərəfindən dəstəklənib. Bu tədbirlər ilin sonunadək davam edəcəyi gözlənilir.

Əlbəttə, diaspor təşkilatlarımızın gördüyü tədbirlərin tam siyahısını sadalamaq mümkün deyil. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti və diaspor təşkilatlarına göstərdiyi dəstək nəticəsində milli-mədəni dəyərlərimiz xarici dövlətlərdə təbliğ olunur və əvvəlkindən daha çox tanınır.

İstifadə edilmiş ədəbiyyat

1. Həsənli Anar. Müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri. Bakı: – 2014
2. Левикова С.И. Мультикультурализм как социальная проблема, или чем отличается «мультикультурализм» от «поликультурности» // Известия Волгоградского государственного педагогического университета, № 3 (88), 2014.
3. Kaspi 2018.- 7-9 aprel. - s.20-21.
4. Xalq qəzeti, 2015 – 7 yanvar

MÜASİR İŞGÜZAR KOMMUNİKASİYA VƏ KONFLİKT MENECMENTİNİN TƏHLİL XÜSUSİYYƏTLƏRİ

Svetlana Arif qızı Balakişiyeva
Mingəçevir Dövlət Universiteti
svetlana.nasibli@mdu.edu.az
https://orcid.org/0000-0003-4886-8856

"Kommunikasiya" [latınca "communikato" – "rabitə, əlaqə, ünsiyyət"] sözü bir çox mənalarda istifadə olunur. Bunlardan daha geniş yayılmış mənası "məlumat mübadiləsi, informasiyanın müzakirəsi" olan ünsiyyət formasıdır. Kommunikasiyanın bir sıra tərkib hissələri vardır: akademik, işgüzar, semantik və s. Biz bunların daxilindən işgüzar ünsiyyət haqqında geniş bəhs etməyə nəzər yetirək [2, s.5].

Azərbaycan xalqı və dünyanın müxtəlif qütblərində yaşayan azərbaycanlılar əldə edilmiş bütün uğurlara görə ulu öndər Heydər Əliyevə minnətdar olmalıdırlar və fəxr etməlidirlər ki, onların Heydər Əliyev kimi dünya şöhrətli siaysətçisi və əbədiyaşar ümummilli lideri vardır. Fəxr etməlidirlər bir də ona görə ki, ulu öndərin siyasi varisi və qüdrətli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Ümummilli Liderin mirası və şah əsəri olan müstəqil Azərbaycan bu gün xoşbəxt gələcəyə doğru inamla irəliləyir və yeni-yeni zirvələr fəth edir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan qəzeti, 23 dekabr 2021-ci il
2. Azərbaycan qəzeti, 23 dekabr, 2022-ci il
3. Azərbaycan qəzeti, 30 sentyabr, 2022-ci il
4. Azərbaycan tarixi 7 cilddə, VII cild, - Bakı, 2007
5. Əsrlərə bərabər illər. 1969-1999
6. Heydər Əliyev. İnkişaf məqsədimizdir. - Bakı, 2020
7. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 42 cilddə, 1997-2012
8. İradə Hüseynova. Müstəqilliyimizin təminatçısı, - Bakı, 2003

XX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ YARADILMIŞ HƏRBİ-SİYASİ LAYİHƏNİN MƏZMUNU, XARAKTERİ VƏ MÜASİR DÜNYA NİZAMI İLƏ ƏLAQƏSİ

İlham Mabud oğlu Məmmədov
Mingəçevir Dövlət Universiteti
ilham.mammadov@mdu.edu.az
https://orcid.org/0000-0003-4703-7241

Bu gün dünyada baş verən hərbi-siyasi proseslərin yeni konfrontasiya müstəvisinə çıxarılması II Dünya müharibəsindən dərhal sonra başlanmışdı. Yaşadığımız günlərdə şahidi olduğumuz dünya senarisi ilə 77 il əvvəl hazırlanmış dünya nizamı layihəsi arasında paralellər apardıqda heç də bütün baş verənlərin təsadüf olmadığını başa düşürsən. II Dünya müharibəsindən sonra 1946-cı il 5 mart

tarixində Böyük Britaniyanın keçmiş Baş naziri *Uiniston Leonard Spenser Çerçillin* (1874-1965, - 1940-1945 və 1951-1955-ci illərdə Böyük Britaniyanın Baş naziri) ABŞ-ın Missuri ştatının Fulton şəhərciyində yerləşən Vestminster kollecində etdiyi çıxışdan (ing. *Sinews of Peace*) sonra dünyanın konfrontasiya tarixində indi də davam edən yeni dövr başlandı. "Soyuq müharibə" kimi xarakterizə olunan bu dövrün məzmununa nəzər saldıqda dünyanın fövqəlgüclərinin heç vaxt bitməyən və heç vaxt bitməyəcək dünya savaşının yeni taktiki üsullarla aparılmasına start verdi. Sözügedən dövrdə baş verən hadisələr, dünyanı idarə edən siyasi liderlərin bəyanatları və reallaşdırdıqları siyasi kurs sübut edirdi ki, dünya heç vaxt müharibəsiz və münaqişəsiz yaşaya bilməyəcək. Bəşəriyyətə tarixdə misli görünməmiş bədbəxtliklər gətirən, milyolnlarla insana faciə yaşadan II Dünya müharibəsindən sonra baş verən hadisələrin xronikasına nəzər salsaq bu həqiqətin şahidi ola bilərik. O, zaman ABŞ və SSRİ-nin rəhbərliyi altında dünya dövlətlərindən ibarət bloklar və qurumlar yaradıldı. Bununla da iqtisadi rəqabət və hərbi-siyasi münaqişə daha aktiv fazaya qədəm qoydu.

1949-cu ildə Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) yardıldı. 1949-1991-ci illərdə fəaliyyət göstərən QİYŞ SSRİ-nin və Avropanın sosialist dövlətlərinin təmsil olunduqları hökumətlərarası iqtisadi təşkilat idi. Sözügedən qurum Albaniya, Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya və SSRİ dövlət rəhbərlərinin qərarı ilə 18 yanvar 1949-cu il tarixində yaradılmış, 28 iyun 1991-ci il tarixində ləğv edilmişdi. Mənzil qərargahı Moskva şəhərində yerləşirdi. Sosializm birliyinin bu təşəbbüsünə cavab olaraq Qərbi Avropa dövlətləri Avropa İqtisadi Birliyi (AİB) adlanan iqtisadi təşkilat yaratdı. 12 Avropa dövlətini (Belçika, Yunanıstan, Danimarka, Böyük Britaniya, Qərbi Almaniya, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən regional inteqrativ birlik 1957-ci ildə yaradılmış və 1993-cü ildə faəliyyətini dayandırmışdı. Beləliklə, dünyada qlobal hərbi, siyasi, iqtisadi və ideoloji qarşıdurma kimi xarakterizə olunan yeni tarixi dövr var gücü ilə dünyanın simasını dəyişməyə başladı. Bu dövrdə ideoloji hücum qlobal mücadilənin əsas strategiyası olsa da, onun aktorları ayrı-ayrı məhəlli münaqişələrdə dolayı yolla iştirak edirdilər. Tərəflər bu mücadlədə öz maraq dairələrinə sahib olmaq üçün hərbi-siyasi bloklarda birləşməyə başladı. Beləliklə, 1949-cu il 4 aprel tarixində ABŞ-ın və Kanadanın başçılığı ilə NATO hərbi təşkilatı, 1955-ci il may ayının 14-də isə Varşava Müqaviləsi Təşkilatı (VMT - SSRİ, Albaniya, Polşa, Bolqarıstan, Çexoslovakiya, Macarıstan, Almaniya Demokratik Respublikası, Rumıniya kimi Şərqi Avropa dövlətləri təşkilatda təmsil olunurdu, təşkilat 1991-ci il iyulun 1-də ləğv edilmişdi) yaradıldı. XX yüzilliyin əvvəllərində dünya sosializm sisiteminə daxil olan Çin Xalq Respublikası Sovet ittifaqı ilə çox isti münasibətlərə baxmayaraq, ona qarşı ərazi iddiaları irəli sürdü. Beləliklə, tərəflər arasında çox ciddi konfrontasiya yaşanmağa başladı. 1969-cu ildə Damansk (çin. *Çjenbao dao* - Qiymətli ada, Xabarovskdan 230 km cənubda, Ussuri çayının ortasında yerləşir. 1991-ci ildən ÇXR-ə məxsusdur) adasında baş vermiş hərbi insidentdən (1969-cu il martın 2-də və 15-də SSRİ ilə ÇXR orduları arasında baş verən silahlı toqquşma) sonra sosialist blokunun mövqeyini xeyli zəiflətdi. Beləliklə, "Soyuq müharibə" adlanan dövr təkcə ideoloji qarşıdurma və informasiya müharibəsi ilə bitmirdi. Onu da qeyd etmək lazımdır ki, "Soyuq müharibə" ifadəsini, ilk dəfə 1945-ci il oktyabrın 19-da B.Britaniya yazıçısı, jurnalist və publisist Corc Oruel (əsl adı Erik Artur Bler - 1903-1950) "Tribune" adlanan həftəlik jurnalda nəşr etdirdiyi "Sən və atom bombası" adlı məqaləsində işlətmişdi. Rəsmi adı "Trumen doktrinası" (ing. *Truman Doctrine* - 1945-1953-cü illərdə ABŞ prezidenti olmuş Harri Trumenin 1947-ci il 12 mart tarixində ABŞ Konqresi qarşısında çıxışı zamanı elan etdiyi hərbi və siyasi xarakterli müddəalar) elan edildikdən sonra start verilmişdi. "Trumen doktrinası"ında qeyd edilirdi ki, "Dünyanın bir çox xalqlarına II Dünya müharibəsindən sonra onların istəyinin əleyhinə olaraq, zorla totalitar rejimlər sırımışdır. ABŞ hökuməti bununla əlaqədar qorxutmaq və məcbur etmək aktlarına, Bolqarıstanda Polşada və Rumıniyada Yalta müqaviləsinin pozulmasına qarşı etirazını bildirmişdir" [3]. Trumen doktrinası, həmçinin, SSRİ təcavüzü qarşısında Türkiyəyə [1] və Yunanıstana lazımi iqtisadi, hərbi və siyasi yardım göstərilməsini elan etmişdi [4]. O, II Dünya müharibəsi dövründə və müharibədən sonra SSRİ rəhbəri İ.V. Stalinin, Böyük Britaniya Baş naziri U.S. Çerçillin (II Dünya müharibəsinin sonunda Klement Riçard Ettli) və ABŞ prezidenti F.D. Ruzveltin (II Dünya müharibəsinin sonunda

Harri S.Trumen) iştirakı ilə yaradılmış beynəlxalq münasibətlərə yenidən baxılması işini gündəmə gətirdi. Trumen doktrinasının yaradılmasında ABŞ diplomatı və kəşfiyyatçısı, 1953-1961-ci illərdə ABŞ MKİ-nin (***CIA*** -ing. *Central Intelligence Agency,* - Mərkəzi Kəşfiyyat İdarəsi) direktoru *Allen Uelş Dalles* (1893-1969), ABŞ siyasətçisi, H.S.Trumen administrasiyasında 1949-1953-cü illərdə Dövlət katibi olmuş *Din Açeson* (1893-1971), ABŞ diplomatı, SSRİ və Yaxın Şərq ölkələri üzrə mütəxəssis *Loy Henderson* (1892-1986), tanınmış ABŞ politoloqu, "çevrələmə siyasətinin" (ing. *Containment policy*) əsasını qoymuş *Corc Kennan* (1904-2005) və baş. iştirak etmişdilər.

"Soyuq müharibə" adi silahlarla, həm də nüvə silahı ilə silahlanma şəraitində daha da gərgin və təhlükəli xarakter alırdı. Bəzən hətta III Dünya müharibəsi təhlükəsi də yaranırdı və 1962-ci ildə baş vermiş Karib böhranı buna sübut idi. 1989-cu ildə SSRİ rəhbəri Mixail Sergeyeviç Qorbaçovla (1931-2022 - 1985-1991-ci illərdə SSRİ rəhbəri) ABŞ prezidenti *Corc Herbert Uoker Buş* (Böyük - 1924-2018,- 1989-1993-cü illərdə ABŞ-ın 41-ci prezidenti) arasında Maltada (1989-cu il 2-3 dekabr tarixində Malta adasında keçirilən sammit) keçirilən konfransda əldə edilmiş razılığa əsasən "Soyuq müharibə"yə son qoyuldu. "Soyuq müharibə"nin rəsmi şəkildə başa çatması haqqında sənəd 1990-cı il 21 noyabr tarixində ATƏT-ə daxil olan ölkələrin dövlət və hökumət başçılarının müşavirəsində imzalanmışdı (Yeni Avropa üçün Paris xartiyası).1992-ci ilin əvvəllərində Rusiya prezidenti *Boris Nikolayeviç Yeltsin* (1931-2007, - 1991-1999-cu illərdə Rusiya Federasiyasının prezidenti) elan etdi ki, onun ölkəsinə məxsus nüvə başlıqlı raketlər artıq ABŞ-a və onun Avropdakı hərbi müttəfiqlərinə deyil, Yer kürəsinin insanlar yaşamayan ərazilərinə tuşlanmışdır. Nəhayət, 1992-ci il fevral ayının 1-də *Kemp-Deviddə* (ing. *Camp David* - ABŞ prezidentinin şəhərkənarı rezidensiyası, rəsmi adı - *Naval Support Facility Thurmont,* Vaşinqtondan 100 km şimal-qərbdə Merilend ştatında yerləşir və ABŞ prezidentinin istirahət yeri kimi nəzərdə tutulmuşdur. Kemp-Deviddən bir neçə km aralı "*Site R*" adı ilə də tanınan "*Raven Rok*" sığınacağı yerləşir) ABŞ-la (C.Buş Böyük) Rusiya (B.N. Yelsin) arasında imzalanmış qətnamə rəsmi səviyyədə ABŞ-Rusiya qarşıdurmasına son qoydu. Lakin 2013-2014-cü illərdə Ukraynada baş vermiş böhran, Krımın Rusiyaya ilhaq edilməsi, nəhayət, 2022-ci il fevral ayının 24-də Rusiya ordusunu müasir dünya tarixində "İkinci soyuq müharibə" adlanan yeni qarşıdurmaya start verdi və II Dünya müharibəsindən sonra başlanmış mücadilə yeni və daha kəskin temlərlərlə inkişaf etməyə başladı. Bu gün dünyada baş verən hərbi-siyasi proseslər konfrontasiyanı günü-gündən daha qaynar fazaya çıxarır, bəşəriyyəti sürətlə apokaliptik apofeoz məqamına aparır. Bu gün də olduğu kimi II Dünya müharibəsindən sonra ABŞ-da və Qərbi Avropada baş verən hərbi və siyasi proseslər Şərq ölkələrində də əks-sədasını verirdi. Bununla bağlı XX əsrin 50-ci illərində Yaxın və Uzaq Şərqdə bəzi önəmli hadisələr baş verdi. Məsələn, 1950-1951-ci illərdə Tibet Çinin tərkibinə qatıldı. 1954, 1955, 1958-ci illərdə Tayvan körfəzində böhranlar yaşandı. 1957-ci ildə Çin Kommunist Partiyasının rəhbəri *Mao Tzedun* (çin. *Mao Zedonq* - 1893-1976,- 1943, 20 mart - 1976, 9 sentyabr tarixində Çin KP MK-nın 1-ci sədri) "Qoy yüz gül çiçək açsın yüz məktəb bir-biri ilə yarışsın" (çin. *Bayhua yundun*) şüarı altında aşkarlıq və tənqid kampaniyası elan etdi, 1957-ci ilin fevralında Çin ziyalılarına müraciət edərək fikir azadlığı, tənqid və ideyaların plüralizmini bəyan etdi. Bundan sonra Çində "Böyük sıçrayış" (çin. *Dayuejin* - 1958-1960-cı illərdə həyata keçirilən və ölkənin industrial bazasının möhkəmləndirilməsinə istiqamətlənən bu avantürist tədbir nəticəsində 40 mln çinli həlak olmuşdu) adı almış iqtisadi-siyasi kampaniya başlandı. Bu kampaniya XX əsrdə baş vermiş ən dəhşətli sosial fəlakət (II Dünya müharibəsindən sonra) hesab olunur.

XX yüzilin 50-ci illərində ABŞ və Qərbi Avropa dövlətlərinin Yaponiya ilə münasibətlərinin qaydaya salınmasında çox ciddi irəliləyişlər baş verdi. 1951-ci il sentyabrın 8-də San-Fransiskoda Yaponiya ilə keçmiş antihitler koalisiyasına daxil olan ölkələrin bir qismi arasında yeni müqavilə imzalandı. Bu müqavilə Yaponiya ilə Qərb dövlətləri arasında müharibə vəziyyətinə həmişəlik son qoydu. Yaponiyanın reparasiya ödəməsi məsələsini qanuniləşdirdi. SSRİ, Çexoslavakiya və Polşa nümayəndələri müqaviləni imzalamaqdan imtina etdilər. Onu da qeyd etmək lazımdır ki, mərasimə Çin nümayəndə heyəti dəvət edilməmiş, Çinin Tayvana, Peskador və Parasel adalarına iddası nəzərə alınmamış, SSRİ-nin Cənubi Saxalin və Kurill adaları üzərində hakimiyyəti qeyd edilməmişdi. San-

Fransisko müqaviləsindən sonra Yaponiyanın 1945-ci ildən davam edən işğalı (yap. *Renqo kokuqun sepe ka ho Hixon, ing. Japan under Allied Occupation*) başa çatmışdı (1952). 1954-cü ildə II Dünya müharibəsindən sonra, ilk dəfə olaraq, Yaponiyada özünümüdafiə qüvvələri (hazırda bu qüvvələrin sayı 247 746 nəfərdir) yaradılmışdı. 1953-cü il avqust ayının 19-da ABŞ MKİ-nin gördüyü tədbirlər nəticəsində 1951-1953-cü illərdə İranın Baş naziri olmuş Məhəmməd Mossadık (1882-1967) İranın neft sənayesinin milliləşdirilməsi haqqında layihə irəli sürdüyü, ABŞ və Böyük Britanayaya məxsus konsessiyaları ləğv etmək çağırış etdiyi üçün ("Ayaks" əməliyyatı) devrilmiş və onun yerini general Fəzlulla Zahidi (1897-1963, - 1953-1955-ci illərdə İranın Baş naziri) tutmuşdu.

XX əsrin 50-ci illərində Qərbin təsiri alrtında baş vermiş mühüm hadisələrdən biri də "Süveyş böhranı" (Süveyş müharibəsi, Sinay müharibəsi və ya İkinci Ərəb-İsrail müharibəsi. Münaqişə həm də "Kadeş" əməliyyatı və ya "Üçlü təcavüz" kimi yadda qalmışdı) idi. 1956-cı ilin oktyabr ayından 1957-ci ilin mart ayınadək davam etmiş bu münaqişə nəticəsində Misirin Baş naziri Abdül Nasir Süveyş kanalı üzərində Misir dövlətinin administrativ statusunu təsdiq etməyə nail olmuşdu.

1958-ci il iyul ayının 14-də Əbdül Kərim Qasımın (1914-1963, - 1958-1963-cü illərdə İraqın Baş naziri və Hərbi naziri) rəhbərliyi altında baş vermiş üsyan və dövlət çevrilişi nəticəsində 1932-ci ildən İraqda hakimiyyətdə olmuş Haşimilər sülaləsinin (1932-1958) monarxiya rejimi devrildi və kral II Seyfəl (1935-1958, 1939-1958-ci illərdə İraq kralı) ailəsi və əyalı ilə birlikdə qətlə yetirildi. 1955-ci il fevral ayının 24-də Böyük Britaniyanın, ABŞ-ın və Türkiyənin təşəbbüsü ilə Yaxın və Orta Şərqdə CENTO (ing. *The Central Treaty Organization,* digər adı isə *The Baghdad Pact,* türk. *Merkezi Antlaşma Teşkilatı, Bağdat Paktı*) kimi tanınan hərbi-siyasi qruplaşma yaradıldı. 1979-cu il 26 sentyabr tarixinədək fəaliyyət göstərən Bağdad paktında İran, İrak, Pakistan, Türkiyə və Böyük Britaniya təmsil olunurdular.

Bu zaman Avropada da ciddi dəyişikliklər baş verirdi. 1954-cü il oktyabr ayının 23-də Fransa, Böyük Britaniya, ABŞ, İtaliya, Kanada, Belçika, Niderland, Lüksemburq və AFR nümayəndələrinin imzaladığı Paris razılaşmasına əsasən AFR-də və Avstriyada işğal rejiminə son qoyuldu (1955). Bu dövlətlərin (NATO bloku üzvlərinin) qəbul etdiyi birgə qətnaməyə əsasən AFR-in NATO blokuna qoşulması haqqında qərar da edildi. AFR ordusu (alm. *Bundeswehr* - "*bund*" - federasiya, "*wehr*" - silah, müdafiə və ya müqavimət) 1955-ci ildə NATO-nun üzvü oldu. Bundan sonra AFR-in Şərqi Avropadakı sosialist rejimlərinə münasibəti kəskinləşdi.

1957-ci ildə Nüvə enerjisi üzrə beynəlxalq agentlik (ing. *International Atomic Energy Agency - IAEA*) yaradıldı. Bu gün agentliyin mənzil-qərargahı Avstriyanın paytaxtı Vyanada yerləşir. Hal-hazırda 173 dünya dövlətinin təmsil olunduğu IAEA-ya Argentina diplomatı Rafael Mariano Qrossi (1961) rəhbərlik edir. XX yüzilliyin 50-ci illərində Avropada baş vermiş vacib hadisələrdən biri də Fransada Beşinci Fransa Respublikasının (fra. *la Cinquième République*) yaradılması oldu. Beşinci Respublikanın əsasını Əlcəzair müharibəsi (fra. *Guerre d'Algérie* - 1954-1962-ci illərdə Fransanın Əlcəzairdəki müstəmləkəçi hökuməti ilə ölkənin siyasi müstəqilliyini tələb edən qüvvələr arasında mübarizə. 1962-ci il martın 18-də Fransa ilə Əlcəzair arasında bağlanmış Evian müqaviləsi əsasında başa çatmış, 1962-ci il iyulun 5-də Əlcəzair müstəqillik əldə etmişdi) dalğasında hakimiyyətə gələn *Şarl de Qol* (1890-1970) qoymuşdu.

XX əsrin 50-ci illərində "Soyuq müharibə" dalğasında "Qırmızı təhlükənin" (ing. *Red Scare* - antikommunist ideologiyası) ikinci dövrü (1947-1957) özünün pik nöqtəsinə çatdı və ABŞ-da daha geniş yayıldı. Bu dövrdə ABŞ-da geniş yayılmış antikommunist və antisovet hərəkatı ABŞ senatoru *Cozef R. Makkartinin* (1908-1957, - ABŞ konqresində respublikaçı-senator) adı ilə "makkartizm" (antikommunist və antiamerika ruhlu insanlara qarşı repressiyaları ilə seçilirdi) adlanırdı. O zaman makkartizm hərəkatı dalğasında baş vermiş ən qalmaqallı hadisə isə "Rozenberqlərin işi" (SSRİ-nin xeyrinə cəsusluqda günahlandırılan ABŞ kommunistləri *Yulius Rozenberqə* - 1918-1953, - və onun həyat yoldaşı *Etel Qrinqlass-Rozenberqə* - 1915-1953, - qarşı ittiham qaldırılması və onların 1953-cü il iyunun 19-da edam olunmaları) olmuşdu [2].

1952-ci ildə Böyük Britaniya nüvə silahının ilk sınağını keçirdi. Həmin il ABŞ-da və 1953-cü ildə SSRİ-də termonüvə bombasının sınaqları keçirildi. 1952-ci ildə ABŞ-da keçirilən seçkilərdə *Duayt Eyzenhauer* (1890-1969, - Respublikaçılar partiyasından ABŞ-ın 34-cü prezidenti (1953, 20 yanvar - 1961, 20 yanvar) seçildi. 1957-ci il yanvarın 5-də Duayt Eyzenhauer Konqressə növbəti müraciətində "Eyzenhauer doktrinası" adı almış xarici siyasət proqramını elan etdi. Bu doktrinaya görə, ehtiyacı olan və hərbi təcavüzə məruz qalan hər bir dövlət ABŞ-dan kömək istəyə bilərdi. Bu doktrinada ABŞ prezidenti sovet təhlükəsini xüsusi qeyd etmişdi. Bu hadisələrin fonunda isə sürətlə silahlanma prosesi sürətlənirdi. 1957-ci ildə SSRİ-də, 1958-ci ildə isə ABŞ-da qitələrarası ballistik raketlər sınaqdan çıxarıldı.

II Dünya müharibəsindən sonra qlobal miqyasda baş verən proseslərdən belə məlum olur ki, bu gün dünyada mövcud olan və durmadan artan gərginliyin layihəsi hələ o dövrdə hazırlanmış və işə salınmışdır. Bununla əlaqədar hadisələri nəzərdən keçirərəkən qarşımızda canlanan mənzərədə müharibə və mühaqişə ideyasının əbədi və dəyişməz olduğunu da açıq-aydın görmək olur.

İstifadə edilmiş ədəbiyyat

1. Barın Kayaoğlu, "Strategic imperatives, Democratic rhetoric: The United States and Turkey, 1945-52." Cold War History, Aug 2009, Vol. 9 (3). - Pp. 321-322

2. Deborah Friedell, "How Utterly Depraved!" (Review of Anne Sebba, Ethel Rosenberg: A Cold War Tragedy, Weidenfeld, 2021, 288 pp.), London Review of Books, vol. 43, no. 13 (July 1, 2021). - Pp. 11-13

3. Gleason, Abbott. "The Truman Doctrine and the Rhetoric of Totalitarianism." in The Soviet Empire Reconsidered (Routledge, 2019). - Pp. 11-12

4. Gerolymatos, André (2017). An International Civil War: Greece, 1943-1949. Yale University Press. - Pp.100-101

MUZEY FONDLARININ AZƏRBAYCAN CƏMİYYƏTİNİN DAVAMLI İNKİŞAFINDA ƏHƏMİYYƏTLİ ROLU

Aygün Raqif qızı Qədirova
Mingəçevir Dövlət Universiteti
aygun.qadirova@mdu.edu.az
https://orcid.org/0000-0003-4506-8626

Mədəniyyət ocağı olan muzeylərimiz elm və incəsənət mərkəzləri olaraq tariximizin hər bir dövrünün öyrənilməsində xüsusi əhəmiyyət daşıyır. Fondlar əsasında təşkil olunan muzeylərin fəaliyyəti tariximizin kompleks şəkildə sənədləşdirmək və mövcud inkişaf səviyyəsinə uyğun, elmi əsaslarla təşkil etməkdir. Müasir dövrümüzdə müzey fondlarımızın azərbaycançılıq məfkurəsinə və dünya standartlarına uyğun qurulması Azərbaycan Muzeyşünaslıq elmində vacib məsələlərdən biridir. Müstəqilliyimizin bərpasından sonra bu sahədə bir çox işlər görülmüşdür.

Ümummilli lider Heydər Əliyevin və Cənab Prezidentimiz İlham Əliyevin qayğısı nəticəsində Azərbaycanda muzey işinə diqqət göstərilir.

Ali Baş Komandan İlham Əliyevin siyasəti və Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində reallaşan qələbimizin nümayiş etdirilməsi və şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yeni muzeylərin və ya yeni fondların yaradılması bu gün Mədəniyyət Nazirliyinin Muzey, qalerera və sərgilər şöbəsində qarşıda duran əsas prioritet vəzifələrdən olmalıdır. Ölkə başçısı 2020-ci il dekabr ayının 3-də Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi,

şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində "Vətən müharibəsi memorial kompleksi" və "Zəfər muzeyi"nin yaradılması haqqında sərəncam imzalamışdır [1].

Paytaxta yerləşən bir çox muzeylərdə Qarabağ müharibəsi ilə bağlı fondlar fəaliyyət göstərir. Bunlardan 2021-ci ildən fəaliyyət göstərən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondu [2], İstiqlal Muzeyinin 5-ci zalında şəhid olmuş milli qəhrəmanlarımızın şəkilləri, şəxsi əşyaları və s qeyd edə bilərik. İstiqlal muzeyində 10 nəfərdən artıq milli qərəmanlarımızın fondları yaradılmışdır.

Bundan başqa, bölgələrdə 1997-ci ildən Qubada fəaliyyət göstərən Şəhidlərin Xatirəsi Muzeyi, 1995-ci idən yaradılan Mingəçevirdə Şəhidlərin xatirə müzeyi yerli əhali və gələn qonaqlar tərəfindən tez-tez ziyarət edilir. 28 il fəaliyyət göstərən Mingəçevirdə Şəhidlərin xatirə müzeyində 2 mindən artıq şəhidlərimizə məxsus əşyaları qorunur.

Vətən müharibəsində əldə edilən zəfərdən sonra paytaxtda, həm də bölgələrimizdə mövcud olan muzeylərimizdə Milli Qəhrəmanlarımızın və şəhidlərimizin adını daşıyan fondlar və ya ev muzeylərinin sayı artırılmalıdır.

1941-45-ci illər Böyük Vətən Müharibəsində iştirak etmiş iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Lənkəranda 1969-cı ildən xatirə ev-muzeyi və 1985-ci il may ayının 6-da ictimai əsaslarla 17 sentyabr 1990-ci il dövlət muzeyi kimi fəaliyyətdə olan Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun ev-muzeyi bu gündə özündə qururlu tariximizi yaşadır. Xatirə muzeyi (memorial muzey, ev-muzeyi, mənzil-muzey də adlandırılır) adətən şəxsin doğulduğu, bütün ömrünü və ya həyatının müəyyən illərini yaşadığı, yaxud həmin şəxslə bağlılığı olan yerdə (evdə, mənzildə, iş otağında və s.) yaradılır [3]. Mingəçevirdə Əli Əhmədov və İslam Əhmədov qardaşlarının ev muzeyi, Cüməzadə Təbriz İldırım oğlunun ev muzeyi, Yevlax şəhərindəki baş leytenant Ceyhun Əyyubovun ev muzeyi, Cəlilabad rayonunda Rəşad Abdullayevin ev muzeyi, Fətəlizadə Rüfət Nazim oğlunun Ağsunun Padar kəndində ev muzeyi, Gəncədə 1200 şəhidin eksponatlarının qorunduğu Qarabağ igidləri muzeyi və bir çox başqa şəhid ev muzeylərini qeyd edə bilərik ki, onlar artıq ev muzeyləri kimi fəaliyyət göstərirlər. Yaradılan şəhid ev muzeyləri xalqımız tərəfindən tərəfindən rəğbətlə qarşılanmışdır.

Beləliklə, Böyük qələbimizin nümayiş etdirilməsi və şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yeni muzeylərin və ya yeni fondların yaradılması baxımdan apardığımız araşdırmalar göstərir ki, bu sahədə az-çox dərəcədə işlər görülsə də, əlbəttə, bunlar heç də yetərli deyildir. Buna görə də bu mövzuya müraciət etməyimizin səbəbi də bununla izah olunur.

Qarabağ müharibəsində göstərdikləri böyük qəhrəmanlığa görə indiyə qədər Azərbaycanda 221 nəfərə Milli Qəhrəmanı fəxri adı verilib. Bunlardan 4 nəfəri Mingəçevir şəhərindəndir.

Mingəçevir Milli Qəhrəmanları aşağıdakılardır:

1. Malik Hamil oğlu Əsədov;
2. Ruslan Həmid oğlu Muradov;
3. Dilqəm Heydər oğlu Nağıyev;
4. Rəşad Akif oğlu Mirabov.

Mingəçevir Milli Qəhrəmanlarının şəxsi əşyaları bu gün Mingəçevirdə Şəhidlərin xatirə müzeyində qorunur. Milli qəhrəmanlarımızla bağlı vahid bir fondun yaradılması aktualdır. Həmçinin onu da qeyd etməliyik ki, Mingəçevirdə Şəhidlərinin xatirə müzeyinin yeni binaya ehtiyacı var. Bu istiqamətdə dövlətimizin qayğısı həm Azərbaycanda muzey işinin təkmilləşməsinə həmdə şəhidlərimizin xatirəsini əbədiləşdirmək üçün daha çox xidmət edər.

Azərbaycanda Milli Azərbaycan Tarixi Muzeyi və Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi muzeyi istisna olmaqla muzeylərimizdə elmi-tədqiqat işləri yerinə yetirilmir. Azərbaycanda muzeylər eksponatları nümayiş etdirmək və gələcək nəsillərə ötürmək üçün mədəniyyət ocaqları kimi fəaliyyət göstərirlər. Hesab edirəm ki, muzeyin fəaliyyəti həm də elmi fəaliyyətlə bağlı olmalıdır. Həmçinin yeni yaradılan Şəhid ev muzeyləri və şəhid fondlarının fəaliyyəti elmi fəaliyyətlə əlaqəli olarsa zəfərimizdə əməyi olan bütün Azərbaycan iğidlərinin

yetişməkdə olan gənc nəsil tərəfindən tanınmasında, vətənpərvər kimi tərbiyə olunmasında da mövzunu aktual edər. Vətən müharibəsində misilsiz qəhrəmanlıq göstərən əsgərlərimizi, zabitlərimizi, şəhid olmuş igidlərimizi uşaq və gənclərimizə geniş şəkildə tanıtmaqda vizual vasitələrin mühüm rolu vardır [4].

Bu gün şəhidlərimiz üçün yeni ev muzeylərinin və ya yeni fondlarının yaradılması vacibdir və gələcək nəsillərin vətənpərvər ruhda tərbiyə olunmasında onların böyük rolu vardır.

İstifadə edilmiş ədəbiyyat

1. 8 Noyabr - Zəfər Günü: metodik vəsait / tərt. ed. A.Məmmədova; ixtisas red. K.M.Tahirov; red. L.Əhmədova.- Bakı, 2021. -11s.- 55 s.

2. http://azhistorymuseum.gov.az/az/fond/14.

3. İradə Sariyeva Böyük şəxsiyyətlərin xatirə-memorial kompleksləri və ev muzeyləri. "Bakı Xəbər".-2015.-2 mart.-N 38.-S.11.

4. Şəhidlərimizi ehtiramla yad edirik! : metodik vəsait: İkinci Qarabağ müharibəsi zamanı canlarından keçən şəhidlərimizin əziz xatirəsinə həsr olunur / tərt. ed. L.Əhmədova; ixtisas red. K.Tahirov.- Bakı, 2021.- s. 62.

AZERBAIJANISM AS ONE OF THE MOST IMPORTANT POLICIES OF HEYDAR ALIYEV

Ayshan Rzayeva
Baku Business University
https://orcid.org/0000-0003-2117-810X
rn.ayshan@gmail.com

"Azerbaijanism" is a historical treasure that our people have achieved with great pain. It is a means to achieve real independence, to preserve and strengthen a united, indivisible Azerbaijan. Today, "Azerbaijanism" is a centuries-old tradition of national life, harmony of religions, brotherhood of all nations and ethnic groups living in the country, the history of interaction and influence, their common destiny and the historical experience of joint struggle for the integrity of independent Azerbaijan.

As a result of the far-sighted policy of national leader Heydar Aliyev, today Azerbaijan is recognized worldwide as a civilized, legal, democratic, secular republic and is recognized as a country with great prospects. Thanks to the direct leadership and care of Heydar Aliyev, the rise of national self-consciousness began in Azerbaijan in the 70s and 80s of the twentieth century. A lot of work has been done in this direction. After the restoration of state independence of our republic, ensuring national unity, uniting the Azerbaijanis of the world around a single national interest emerged as one of the main tasks of state building. Azerbaijan is the homeland of every Azerbaijani, regardless of religion, race or nationality. The unity of all Azerbaijanis living in the world today can have a positive impact on the solution of a number of problems, especially the Karabakh conflict within the territorial integrity of our country. The most important and effective tool that can ensure the unity of Azerbaijanis around the world is the existence of a single ideology. Realizing this very well, the great leader Heydar Aliyev chose the ideology of "Azerbaijanism" to unite the people around one idea, one goal.

The ideology of Azerbaijanism, which promotes the political, economic, social and cultural development of the Azerbaijani people, is the basis of the history of the struggle for national

liberation. In other words, the struggle of the Azerbaijani people for national liberation is connected with the formation and further development of the historical Azerbaijani ideology.

From ancient times to the present day, the idea of Azerbaijanism has been formed on the basis of a system of views that embodies and combines the traditions, national and spiritual values, polyethnic richness of the Azerbaijani people. Azerbaijan has historically been known as a multi-ethnic country, a place of national and religious tolerance, and these advantages have formed the basis of the Azerbaijani ideology. This idea has manifested itself from time to time in the activities of great thinkers, statesmen and public figures.

Thus, our people gave the world Zoroaster and the book "Avesta", "Kitabi-Dada Gorgud" and the ideology of fear, "Koroglu", which, on the one hand, formed the all-Azerbaijani ideology, special common values, common thinking and social behavior and He gave impetus to the establishment of the system of traditions, and on the other hand, played an important role in laying the foundations of a similar spiritual world in the East. The national idea, national aesthetic thinking is increasingly manifested in the works of the great Azerbaijani classics N. Ganjavi, I. Nasimi, M. Fuzuli, in the oral folk literature of the XVII-XVIII centuries, in the epics of love and heroism [1, p.6].

In the following periods, the idea of Azerbaijanism, which formed the main line of Shah Ismail Khatai's work, also influenced, developed, improved and became a systematic national idea of the national enlighteners of the late 19th and early 20th centuries [1, p.6].

During the Soviet era, the idea of Azerbaijanism also developed, a number of departments and institutions were established to promote this idea, in early 1923, the Azerbaijan History Museum, the Committee for the Protection of Material and Cultural Monuments of Azerbaijan, the Azerbaijan Research and Study Society began to operate. In 1924, patriotic intellectuals created a course on Azerbaijani studies. On September 21, 1924, the Society for the Study and Study of Azerbaijan convened the First All-Azerbaijani Congress of Country Studies in Baku. Prominent Azerbaijani writer, public and political figure N.Narimanov also took part in the congress. The congress approved the involvement of young people, especially schoolchildren, in the study of the country, and the work to be done in this area was expanded [1, pp.6-7].

While highlighting the important issues facing each state that took its first steps on the path to independence, the great leader Heydar Aliyev emphasized national unity and solidarity. As one of the main components of foreign policy, the close unity of our compatriots scattered around the world around the idea of Azerbaijanism was set as an important task. At the initiative and under the direct leadership of the great leader, a concept of ensuring the unity and solidarity of the people, which was important for the solution of difficult and vital issues at that time, was developed.

Despite all the trials it has been subjected to, "Azerbaijanism" as a national state ideology stands before us today as a clearly articulated idea. This idea has its own division, conditioned by history and the fact that dozens of peoples have lived in the same area since ancient times, based on a common psychology based on their common mentality and structure of needs.

The ideology of Azerbaijanism is rich in important functional elements. The essence of this is to protect the country from attempts to weaken it morally and physically. This ideology is aimed at strengthening and developing Azerbaijan as a unitary, legal and democratic state. "Azerbaijanism" is a way to bring independent and unique Azerbaijan to the ranks of civilized states.

The work done by the First Lady of Azerbaijan, President of the Heydar Aliyev Foundation, Goodwill Ambassador of UNESCO and ISESCO Mehriban Aliyeva in promoting the idea of Azerbaijanism is a great contribution to the promotion of Azerbaijani culture and history. Proper presentation of Azerbaijan's rich cultural heritage at the international level, as a result, serves the international reputation of our country. As a goodwill ambassador of two influential international organizations, Mehriban Aliyeva has implemented several large-scale projects in this direction. Azerbaijan's tangible and intangible cultural monuments are already on the UNESCO World

Heritage List. Icheri Sheher is included in the list of the most beautiful monuments in the world by UNESCO, and Azerbaijani mugam is included in the list of Intangible Cultural Heritage. At the same time, important educational projects for refugee and IDP children, restoration of the Ateshgah temple, inclusion of Gobustan in the World Cultural Heritage List, etc. have been developed together with UNESCO.

"Our greatest asset is our cultural heritage: our literature, poetry, music, unique, unique school of carpet weaving, fine arts, architectural monuments. This cultural heritage introduces us as a nation all over the world. Today, each of us must protect, preserve and promote this culture. is a moral duty" [1, p.11]. These words of advice of the First Lady of Azerbaijan are and should be the basis of the national ideology of each of our worthy compatriots.

References

1. Alışova, N. Kitabxanalarda Heydər Əliyev irsinin və Azərbaycançılıq ideyasının təbliği: metodik tövsiyələr / N.Alışova. - Bakı, - 2013. - 59 s.
2. Mehdiyev, R. Yeni dünya düzəni və milli ideya / R.Mehdiyev. - Bakı, - 2017. – 78 s.
3. Məmmədzadə, İ. Müasir milli ideologiyanın banisi // Xalq qəzeti. – 2018, 12 dekabr. № 280. - s. 8.

HUMANİTAR ELMLƏRİN ƏHƏMİYYƏTİ VƏ MÜASİR CƏMİYYƏTİN İNKİŞAFINDA ROLU

Aynur Zahir qızı Bədəlova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
badalovaaynurrr@gmail.com
https://orcid.org/0009-0002-9288-6218

Humanitar elmlər bütün elmlər üçün açardır, bizi keçmişimizlə birləşdirən, bu günümüzü formalaşdıran və gələcəyimizi göstərən körpüdür. Onlar bizim münasibət qurmaq, nə isə yaratmaq, inkişaf etmək və ən əsası insan olmaq qabiliyyətimizi inkişaf etdirir. Okean kimi, humanitar elmlər də geniş, dərin və kəşf olunmağı gözləyən sirlərlə doludur.

Humanitar elmlər indiki zamanda hərəkət etdiyimiz və gələcək üçün planlaşdırmış olduğumuz bir dəryadır. Onlar bizə insan təcrübəsini anlamağa kömək edən, yaradıcı sual vermək və dərin əlaqə qurmaq qabiliyyətimizi inkişaf etdirən təməldir.

Humanitar elmlər dünyamızı məlumatlardan kənarda işıqlandırır, cəmiyyətimizi formalaş-dıran duyğuları, motivasiyaları və hekayələri ortaya qoyur. Onlar texnologiyanın etik tətbiqində bizə bələdçilik edir, insan olaraq məsuliyyətimizi bizə xatırladır.

Humanitar elmlərin tarixi və təkamülü dünyamızı, mədəniyyətimizi və nəhayət özümüzü daha yaxşı başa düşə biləcəyimiz obyektivdir. İnsanın intellektual səylərinin bu mürəkkəb hissəsini gəzərkən, humanitar elmlərin kollektiv insan təcrübəmiz üçün niyə bu qədər vacib olduğunu aydınlaşdırmağa ümid edirik.

Humanitar elmlərin tarixi və öyrənilməsi haqqında danışarkən deməliyik ki, başlanğıc nöqtəsi Qərb sivilizasiyasının doğulduğu yer olan qədim Yunanıstandır. Burada humanitar elmlər anlayışı ilk dəfə yarandı, baxmayaraq ki, bu adla xatırlanmadı. Bunun əvəzinə, vətəndaşın intellektini və xarakterini inkişaf etdirməyə yönəlmiş hərtərəfli təhsil kimi özünü ifadə etdi. Bu, təkcə bacarıqları öyrətmək və ya məlumat vermək məqsədi daşımamış, həm də cəmiyyətdə tam şəkildə iştirak edə bilən hərtərəfli fərdi inkişaf etdirməyə yönəlmiş bir təhsil forması idi. Yunanlar ağılın və

intellektual mübahisənin gücünə inanırdılar. Onlar fəlsəfə, ritorika, tarix və ədəbiyyat kimi mövzuları öyrənərək, ətrafdakı dünyanı və onun içindəki yerini anlamağa çalışırdılar.

Orta əsrlərə doğru irəliləyərkən humanitar elmlərin fərqli bir forma aldığını görürük. Bütöv təhsil ideyası hələ də var idi, lakin o, çox vaxt dini təlimlərə aparıb çıxarırdı. Əsas diqqət Tanrının öyrənilməsinə və onun dünya ilə əlaqəsinə yönəlmişdi, lakin fəlsəfə, ədəbiyyat və incəsənət kimi digər mövzular da unudulmamışdı. Bunun əvəzinə, onlar dini anlayışları daha yaxşı başa düşmək və ifadə etmək üçün vasitə kimi qəbul edilirdi. Sonra böyük mədəni dəyişikliklər və intellektual yüksəliş dövrü olan İntibah dövrü gəldi. Məhz bu dövrdə "humanitar elmlər" termini ilk dəfə istifadə edildi. Humanitar elmlər ilahi məsələlərdən fərqli olaraq insan mədəniyyətini və təcrübəsini araşdıran mövzular kimi qəbul edilirdi. Bu dövr Yunanıstan və Roma klassik əsərlərinə yenidən maraq artmağa başladı, alimlər orijinal mətnlərə qayıtdılar və ənənəvi şərhləri şübhə altına aldılar.

Müasir dövrdə humanitar elmlər daha da geniş vüsət almışdır. Humanitar elmlər sırasına insan davranışını və sosial strukturları anlamağa çalışan antropologiya, sosiologiya və psixologiya kimi yeni sahələr daxil edilməyə başladı.

XX əsrdə humanitar elmlər getdikcə artan texnoloji dünyada "praktiki" və ya "yersiz" olaraq bəzi tərəflərdən hücuma məruz qalır. Lakin qeyd edilməlidir ki, sürətli dəyişiklik və qeyri-müəyyənlik dövründə insan təcrübəsini dərk etmək həmişəkindən daha vacibdir. Bizim humanitar elmlərə ehtiyacımız var ki, bizə indiki çətinliklərin öhdəsindən gəlməyə və gələcəyin imkanlarını təsəvvür etməyə kömək etsin.

Sürətlə inkişaf edən dünyamızda elm və texnologiya cəmiyyətimizi formalaşdıran hər yerdə mövcud olan qüvvələrə çevrilmişdir. Humanitar elmlərdən əldə edilən mədəni, etik və fəlsəfi anlayışlar bu texnoloji irəliləyişlərin daha geniş nəticələrini və təsirlərini başa düşmək üçün vacibdir. Elm və texnologiyaya insan siması verən, onlara məna və kontekst qatan humanitar elmlərdir. Texnologiya bizim humanitar elmləri öyrənmə və onlarla əlaqə qurma tərzimizi kökündən dəyişdirdi. Rəqəmsal humanitar elmlərlə biz böyük həcmdə məlumatları artan səmərəliliklə təhlil edə bilərik, bu da bizə yeni anlayışlar toplamağa və fənlərarası əməkdaşlığı inkişaf etdirməyə imkan verir. İndi humanitar elmləri daha geniş auditoriyaya çatdıra, mədəniyyət və tarix üçün daha dərindən anlayış və qiymətləndirməni gücləndirə bilərik.

Humanitar elmləri öyrənmək təkcə şəxsi həyatımızı zənginləşdirmir, həm də cəmiyyəti formalaşdırır, qərar qəbul etməyimizə kömək edir və kollektiv gələcəyimizə təsir göstərir.

Siz özünüzü humanitar elmlərə qərq etdiyiniz zaman sadəcə köhnə mətnləri oxumursunuz və ya bədii əsərləri təhlil etmirsiniz. Hər bir ədəbiyyat, hər bir tarixi hadisə və hər bir fəlsəfi arqument həllini gözləyən tapmacalar təqdim edir. Siz mürəkkəb fikirləri təhlil etməyi, tədqiq etməyi və şərh etməyi öyrənirsiniz. Bu bacarıqlar birbaşa problem həll etmə qabiliyyətlərinə çevrilir.

Şekspir sonetinin müxtəlif təfsirləri ilə tanış olarkən və ya tarixi hadisənin nəticələrini açarkən, əslində, düşünmək, tənqidi yanaşmaq bacarığınızı inkişaf etdirirsiniz. Bu o deməkdir ki, siz özünüzə şəxsi və peşəkar həyatınızdakı vəziyyətləri təhlil etmək üçün daha yaxşı imkan yaratmış olursunuz.

Bildiyimiz kimi, ədəbiyyat, tarix və digər fənləri araşdırarkən bizdən mətnləri oxumaq, təhlil etmək və şərh etmək, həmçinin yazılı və şifahi vasitələrlə öz fikir və mülahizələrinizi ifadə etmək tələb olunur və ya effektiv ünsiyyət üçün esse və ya müzakirələrdə yaxşı strukturlaşdırılmış, ardıcıl arqumentlərin formalaşdırılması təcrübəsi əlbəttə ki, vacibdir. Özümüzü aydın və inandırıcı şəkildə ifadə etmək bacarığını inkişaf etdirməklə şəxsiyyətlərarası münasibətləri və digər perspektivləri qazanmış olacayıq. Güclü ünsiyyət və yazı bacarıqları demək olar ki, hər bir peşədə mühüm əhəmiyyət kəsb edir və bu, bizə birgə işləməyə, fikir mübadiləsi aparmağa və başqalarını inandırmağa imkan verir.

Humanitar elmlərin öyrənilməsi tarix boyu və mədəniyyətlər arasında insanların müxtəlif təcrübələrini və perspektivlərini daha dərindən dərk etməyə kömək edir. Mənbələrin birində qeyd edilir: "Etiraf etmək lazımdır ki, humanitar elm sahələrinin zamanla lazımi səviyyədə ayaqlaşa

bilməməsi, ictimai-iqtisadi formasiya dəyişikliyinin doğurduğu mənəvi-psixoloji problemlərə, deformasiyalara açıq elmi təhlil və müzakirə kontekstində yanaşmadan konservativcəsinə uzaq olması son 15 ildə özünü qabarıq göstərən problemlərdəndir" [3].

Mədəni və tarixi məlumatlandırma yalnız tarixləri bilmək və ya sənət əsərlərini qiymətləndirmək deyil. Bu, indiki anımızın zəngin və mürəkkəb keçmişin məhsulu olduğunu, kollektiv və fərdi şəxsiyyətimizin əlaqə saxladığımız mədəni təsirlərlə formalaşdığını qəbul etməkdən ibarətdir.

Biz hamımız müxtəlif köklərdən gəlmişik və unikal dünyagörüşlərimiz var. Humanitar elmlər bizə bu müxtəlif perspektivləri anlamağa kömək edir. Ədəbiyyat, fəlsəfə, tarix və incəsənət vasitəsilə biz müxtəlif mədəniyyətlərdən, dövrlərdən və yerlərdən olan insanların inanclarına, dəyərlərinə və təcrübələrinə məruz qalırıq.

Azərbaycanda humanitar elm sahələrinin inkişafında Ümummilli liderimiz Heydər Əliyevin əvəzedilməz rolu vardır. O, hər bir elm sahəsinə ayrıca maraq göstərmiş və humanitar elmlərin daha dərindən öyrənilməsi və mənimsənilməsi sahəsində bir sıra tədbirlər görmüşdür. Heydər Əliyevin folklorşünaslıq sahəsinin inkişafı istiqamətində gördüyü işlərlə bağlı mənbələrin birində qeyd edilir: "Ümummilli öndər Heydər Əliyevlə başlanan mənəvi quruculuq dövrü geniş araşdırmanın mövzusudur. Məhz bu dövr milli humanitar sahənin, o cümlədən folklorşünaslığın inkişafında xüsusi mərhələdir" [2].

Həmçinin, məqalələrinin birində Hadi Rəcəbli qeyd edir: "Respublikamızda elmin, təhsilin inkişafı sahəsində mövcud ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin çağdaş dövrün tələbləri səviyyəsində inkişafı istisnasız olaraq müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, böyük öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan elminin, təhsilinin, ümumilikdə mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olmuş ulu öndər ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, xalqın nicatını məhz intellektual tərəqqidə görmüşdür" [1].

Beləliklə, ədəbiyyat və dillərin öyrənilməsi humanitar elmlərin vacib hissəsidir. Məhz bu obyektiv vasitə ilə biz müxtəlif dövrlərdən və mədəniyyətlərdən olan insanların şüurları, düşüncələri və emosiyaları haqqında məlumat əldə edirik. Ədəbiyyat bizə insan təcrübəsinə bir pəncərə təqdim edir. Duyğularımızın, motivasiyalarımızın və mübarizələrimizin mürəkkəbliklərini üzə çıxarır.

İstər Tolstoyun romanları, istər Şekspirin pyeslərindən danışaq ədəbiyyat bizi zaman və məkan arasında daşımaq gücünə malikdir, bizim ümumi insanlığımızla əlaqə saxlamağa kömək edir. Dillər isə bu təcrübələri ifadə etdiyimiz vasitələrdir. Dillərin öyrənilməsi təkcə müxtəlif mədəniyyətlərdən olan insanlarla ünsiyyət qurmağa imkan vermir, həm də onların düşüncə və perspektivlərinin nüanslarını anlamağa imkan verir. Yeni dili öyrənməklə biz onun danışanlarının mədəniyyətini, tarixini və dəyərlərini daha dərindən dərk edir, dünyagörüşümüzü daha da genişləndirir və zənginləşdiririk.

İstifadə edilmiş ədəbiyyat

1. Hadi Rəcəbli. Elmi-intellektual inkişaf cəmiyyətdə mənəvi dəyərlərin yüksəlişinə xidmət etməlidir//- Bakı, "Azərbaycan"qəzeti,-2009. 22 dekabr. - s.8
http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2009/100850.htm

2. Paşazadə, T.A. Heydər Əliyev və Azərbaycan xalq yaradıcılığı [Internet resursu]: https://lib.aliyev-heritage.org/az/82554091.html

3. Məhərrəmov, A. Humanitar elmlərin inkişaf strategiyası milli ideologiyaya cavab verməlidir [Internet resursu]: http://www.anl.az/down/meqale/azerbaycan/2010/mart/110657.htm

THE GEOPOLITICAL ROLE OF THE KOREAN PENINSULA IN THE INTERNATIONAL BALANCE OF POWER

Barish Adibelli
Dr.
Dumlupınar University, Turkey
baris.adibeli@dpu.edu.tr
https://orcid.org/0000-0002-4270-9312

Hillary Clinton wrote in Foreign Policy magazine in November 2011 that the future of geopolitics will be determined in Asia, not Afghanistan or Iraq, and that the United States should be at the center of this movement. It is clear that Secretary of State Clinton pointed out that the greatest phenomenon of the XXI century is the rise of Asia. However, Asia's rise in world politics will bring with it opportunities as well as significant risks and challenges. The emerging Asia reality forces all global and regional powers to focus on the Asia-Pacific region. For this reason, a dangerous competition has emerged between local power centers and power centers outside the region. On the other hand, the competition between power centers in the region has created a complex threat and security spiral.

In the shadow of this threat and security spiral, the USA, together with its partners and allies, has established its own axis of power in the Asia-Pacific Region, and even started to build a new geopolitical order with itself at the center by classifying the region with a different nomenclature in the quest to establish its own Asia-Pacific order. This new geopolitical order, called the Indo-Pacific, is trying to build a new Asia-Pacific security architecture. This new security architecture will rise on pillars such as South Korea, Singapore, the Philippines, New Zealand, Japan, India and Australia. However, the asymmetric situation between the pillars of this security architecture brings with it some concerns for the future.

September 15, 2021, the QUAD Security Dialogue - QUAD and AUKUS, which were established by the USA, the UK and Australia and acquired a military identity unlike the QUAD, are challenging the status quo in the Asia-Pacific, while the historical problems, disagreements and prejudices experienced with the Korean problem and Japan, including South Korea, are among the countries that will join the alliance chain in the second wave of expansion, constitute the biggest obstacles to this new security architecture. Dec.15, 2021, the QUAD security Dialogue and the AUKUS, which were established by the USA, the UK and Australia.

Because the fact that the South Korean President appealed to North Korea from the United Nations podium Decrying the Deconfliction between them and the positive response from North Korea and the fact that the winds of peace are blowing between the two countries again means a crack in one of the legs of the new US security architecture. On the other hand, the establishment of the AUKUS and the delivery of nuclear submarines to Australia pose a clear challenge to the environment and system provided by the nuclear non-proliferation treaty, as well as creating a major conflict with the United States itself, signaling the start of a new nuclear race in the region.

As the US-China relations continue to be strained, the medium-sized states of the Far East have realized that they can't really rely on either the US or China to deal with urgent and global problems such as COVID-19 and climate change.

As one of such states, South Korea plays an important role in questions discussed globally on various topics and supports the liberal global economic order. As a small state of the Korean Peninsula, the importance of South Korea depends not only on its willingness to take a more active role in global governance, but also on its efforts to become an effective power in the geographical region where it is located. As a result of South Korea's increasing importance on the international stage, South Korea was also invited to one of the most prestigious meetings held in 2008 to

eliminate the global economic crisis. President George W. Twenty states with the most developed and powerful economies in the world have been invited to this meeting organized by Bush in Washington. This invitation, which took place for the first time, G. It shows that Korea has now acquired the highest-level seat for itself in the global economy and economic diplomacy. Therefore, G, which has been pursuing export-oriented economic development policies since the 1960s and has created well-known brands all over the world thanks to this.Korea has strengthened its position on the international stage today and has reached the level of taking a place at the same table with major states.

However, the increasing tension between the United States and China has Decoupled South Korea, which cannot Decouple from either country, between the two great powers. This squeeze started with the Obama period, when the United States turned its foreign policy lens from the Middle East to the Asia-Pacific with the definition of the "Pacific Century", and it has continued to increase during the Trump period. It can be said that the most important difference between the two eras is that during the Obama Decadence, there were only disputes with China due to US-South Korean relations, while during the Trump era there were also confrontations with the United States. In this context, South Korea is caught between security and economy. Dec. For example, the deployment of the Terminal High Altitude Area Defense (THAAD), a ballistic missile defense system belonging to the US Air Force, to South Korea has caused tension in China-South Korea relations.

Although China has not officially decided to impose sanctions on South Korea against the deployment of THAAD, it has begun to impose informal economic sanctions. Due to the allocation of space for THAAD, 87 of the 99 stores of the South Korean company Lotte located in China have been closed under audit. Although the CEO of Lotte defended himself by saying, "We could not go against the decision of the state," China did not back down. As a matter of fact, Lotte, the largest retailer in Korea, has decided to withdraw from China in 2022. South Korea has been one of the countries most seriously affected by the trade war due to its large exports to the two superpowers.

In 2018, when the trade war and related sanctions came to the agenda, South Korea's exports to the United States and China accounted for 26.8 percent and 12.1 percent of its total exports, respectively.

Another area where informal sanctions have been applied has been tourism. Chinese tourism companies have canceled their tours to South Korea. Evaluating the data in the report published by the US-China Economic and Security Review Commission in 2017, Yul Sohn calculated the damage of South Korea from these practices. Accordingly, according to 2016 data, tourists from China to South Korea make up 47 percent of all tourists, while 70 percent of purchases made from duty-free shops where customs-tax-free products are sold are made by Chinese. in 2017, there was a 66 percent decrease in these figures.

July January 2017 to July 2017, South Korea's exports to China decreased by 11 percent. Foreign direct investment from China decreased by 43.7 percent compared to the same period last year. The loss caused by all these sanctions in the Chinese economy amounted to $ 880 million, while the loss caused in the South Korean economy amounted to $ 7.5 billion.

While THAAD has caused such damage to the South Korean economy by China, on the other hand, Trump, who came to the presidency in the United States, has asked South Korea to pay $ 1 billion for THAAD. This request was immediately rejected by South Korea. In other words, THAAD has caused South Korea's relations with China to deteriorate, while it has also been the subject of a dispute with the United States.

Trump has also announced that the free trade agreement (KORUS-FTA) signed between the United States and South Korea will Decertify and, if necessary, terminate. As a matter of fact, the leaders of the two countries sat down at the negotiating table for the agreement and some of the terms of the agreement were changed in such a way as to close the US trade deficit. South Korea

did not want to lose its closest security ally when there was a North Korean threat, and arrangements were made in favor of the United States in the steel, heavy industrial products and automotive sectors in the agreement. In addition, the Trump administration has raised customs duties not only for China, but also for countries such as South Korea, Japan, the EU, Canada, Mexico.

South Korea has been both a direct Decider of the protectionist economic policies of the United States, has been subjected to sanctions by China, and has been stuck in a narrow diplomatic space in the struggle between the two great powers. Although the protectionist policies of the Trump era were continued during the Biden era, some changes have been made in method and style. The governments of the United States and South Korea, as well as the companies of the two countries, have begun to update their relations to adapt to the new realities of global trade.

As a result, when medium-sized states such as South Korea act alone, their mobility is limited and it is difficult for them to direct major powers in their own interests. The South Korean economy also forms the axis of its foreign policy and is based on the free trade paradigm. For this reason, the restrictions imposed on free trade have become detrimental to national interests. As a Dec, it is unrealistic to expect South Korea to change the dynamics of world politics and economy alone, and to expect it to make a choice between China and the United States.

References

1. Brattberg, Erik. 2021. "Middle Power Diplomacy in an Age of US-China Tensions." The Washington Quarterly 44 (1): 219-238.

2. Bryne, Tom. 2022. "South Korea-US Economic Ties Are Changing." The Diplomat, 8 Şubat 2022,

3. Ikenberry, John. 2016. "Between the Eagle and Dragon: America, China, and Middle State Strategies in East Asia." Political Science Quarterly 131 (1): 9-43.

4. Jozuka, Emiko, Sol Han. 2017. "Why South Korean companies, entertainers are getting cold shoulder in China." CNN, 23 Şubat 2017.

5. Lee, Hangyong, Changyong Rhee. 2012. "Lessons from the 1997 and the 2008 Crises in the Republic of Korea." Asian Development Bank Working Paper Series (298), Ocak 2012.

6. Min-hee, Jung. 2019. "US-China Trade War Seriously Affecting South Korean Industries", Business Korea, 4 Haziran 2019.
http://www.businesskorea.co.kr/news/articleView.html?idxno=32500

7. Mo, Jongryn. 2017. "South Korea's Middle Power Diplomacy: A Case of Growing Compatibility Between Regional and Global Roles." International Journal 71 (4): 587-607.

8. Mullen, Jethro, Paula Hancocks. 2017. "South Korean company to China: Don't blame us for THAAD missiles." CNN, 4 Nisan 2017.

9. Pearson, James, Ju-min Park. 2017. "Trump's demand Seoul pay for THAAD will test ties as Moon presidency looms." Reuters, 28 Nisan 2017.

10. Shuquan, He, Sora Ju. 2020. "The Impact of China-US Trade Conflict on Korean Economy." SocioEconomic Challenges 4 (4): 18-28.

11. Sohn, Yul. 2019. "South Korea Under the United States-China Rivalry: Dynamics of the Economic Security Nexus in Trade Policymaking." The Pacific Review 32 (6): 1019-1040.

12. USCC. 2017. "USCC 2017 Annual Report." US-China Economic and Security Review Comission, 2017. https://www.uscc.gov/sites/default/files/2019-09/2017_Annual_Report_to_Congress.pdf.

13. Widakuswara, Patsy. 2018. "Trump and Moon Sign Revised Trade Agreement." VOA News, 24 Eylül 2018.

M.Ə.SABİR VƏ MÜASİRLƏRİNƏ NƏZİRƏ (QIZDIRMALI İMZALI ŞAİR M.H. ZEYNALLI)

Ulduz Fərhad qızı Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ulduzkahraman1@gmail.com
https://orcid.org/0009-0003-4418-9319

Giriş

Qeyd edək ki, Sabirin Rəcaizadə Mahmud Əkrəm yaradıcılığına nəzirə yazdığı şeirlərdən biri də "Yad et!" adlı məşhur şeiri idi. Bu şeir 2 iyul 1907-ci ildə "Füyuzat" jurnalının 27-ci nömrəsində çap olunduqdan bir neçə gün sonra "Molla Nəsrəddin" jurnalının 1907-ci ildə çıxan 20 avqust tarixli 31-ci nömrəsində Sabirin nəzirəsi çap olunmuşdur" [4, s.333-334].

Araşdırma

M.Ə. Sabirin "Vəqta ki, qopur bir evdə matəm" adlı həmin satirası ilk dəfə "Molla Nəsrəddin" jurnalında 20 avqust 1907, № 31-də imzasız çap olunmuşdur. Bütün nəşrlərə daxil edilmişdir. Üçüncü və dördüncü nəşrdə bu satira "Ehsan" adı ilə verilmişdir. İstər jurnalda, istərsə birinci və ikinci nəşrdə şeirdən əvvəl belə bir qeyd vardır: Rəcaizadə Mahmud Əkrəm bəy əfəndi həzrətlərinin "Yad et" ünvanlı əşarına nəzirə" [6, s.355].

Müqayisədə Rəcaizadə Mahmud Əkrəm bəy əfəndinin şeiri fərdi hisslərin tərənnümünə, M.Ə.Sabirin şeiri isə ictimai satirik ideyaların təbliğinə həsr olunmuşdur. Rəcaizadə Mahmud Əkrəm bəy əfəndi romantik, Sabir isə realist üslubda yazmışdır. Ona görə də biri tərənnüm, o biri ifşa edir. "Birində təbii mənzərə, o birində cəmiyyətin faciəli həyatından canlı bir lövhə nəzəri cəlb edir. Şeirlərin birində kədərli aşiq və onun məhbubəsinin xəyalı, digərində ölüm və onunla əlaqədar olaraq təşkil olunmuş ehsan mərasimlərində iştirak edən və ancaq yemək xatirinə gələn acgöz adamların tipik surətləri canlanır. Nəhayət, hər iki şeirdə təkrar olunan "Yad et" rədifinin məzmunu və doğurduğu təəssürdə başqadır" [4, s.335].

Rəcaizadə Mahmud Əkrəm:

Vəqta ki, gəlib bəhar...yeksər
Əşyadə əyan olur təğəyyür;
Vəqta ki, həzar eşqpərvər
Yarpaqlar ilə edib təsəttür,

M.Ə.Sabir:

Vəqta ki, qopur bir evdə matəm,
Təşkil edilir büsati-ehsan,
Məlumlər əyləşir müəmməm,
Təfrih ilə əllərində qəlyan,
Ev sahibinin xəyalı bərhəm,
Əfkarı qonaqların fisincan,
Bişdikcə qazan-qazan mütəncəm,
Gəldikcə tabaq-tabaq badımcan-
Yad et məni, yağlı-yağlı yad et!

Hissləri ifadə edən Rəcaizadənin şeiri gözəl bir sənət nümunəsidir. Təsadüfi deyil ki, Sabirlə yanaşı Abbas Səhhət, Abdulla Şaiq və başqa şairlərimiz də bu gözəl şeirə nəzirələr yazmışlar. Sabirin nəzirəsi bu nəzirələrin hamısından fərqlənir. O, bu lirik şeirdən satirik məqsəd üçün istifadə etmiş, onun lirik romantik ruhunu tamamilə dəyişdirərək satirik ruhda bir sənət əsəri yazmışdır.

Ə.Cəfərə görə, "Üç bəndlik bu şeirdə üç zümrənin: "rəhmsiz zənginlərin, müxtəxor ruhanilərin və ac-yalavac yoxsulların yaşayış tərzi" ümumiləşmiş obrazı oxucunun nəzərində

canlanır. Hətta Sabir öz şeirinin ikinci və üçüncü bəndlərindəki son misraları Rəcaizadədən təxmis etməsinə baxmayaraq, bu iki şeir yalnız ideya və ictimai mündəricəsi ilə deyil, yeniləşdirmək Sabirin parodiya sənətkarlığının mühüm məziyyətidir" [3, s.15].

Yeri gəlmişkən onu da deyək ki, Sabirin bu şeiri uzun zaman Rəcaizadə Əkrəmin həmin şeirinə nəzirə hesab edilmişdir. Halbuki, qeyd edildiyi kimi bu şeiri (Hophopnamənin üçüncü və dördüncü nəşrində "Ehsan" adı ilə gedib) "Yad et" şeirinə nəzirə adlandırmaq düzgün olmazdı.

Doğrudur, şeirlərin arasında forma bənzəyişləri vardır. Belə ki, hər ikisinin vəzni eynidir: məf'Ulü, MəFA'ilün, fə'Ulün (əruzun həcəz bəhrinin onuncu növü), ikisi də şəkilcə müəşşərdir, (müsəmmət tiplidir) bəndlərin son misraları eyni "Yad et" sözləri ilə rabitələnir. Lakin Rəcaizadənin şeirinin bütün bəndləri üzrə doqquz misradan ibarətdir. Sabir isə bu prinsipə tabe olmamış, onun şeirinin birinci bəndi doqquz, ikinci və üçüncü bəndləri isə on bir misradır.

Rəcaizadədə bəndlərin son misraları qafiyəsizdir. Sabirdə isə iki sonuncu misraları Rəcaizadədən alınmışsa da, yenə bu ahəngdar sözlər qafiyə üçün nisbətən məqbul sayıla bilər. Deməli, hər iki şeirdə qafiyə baxımından müəyyən sərbəstliyə yol verilmişdir. Bütün bu cəhətlər bu şeirlərin yalnız formal tərəfini təşkil edir. Məzmun tərəfinə baxdıqda Rəcaizadənin əsəri bir lirik sentimental şairin təbiət lövhələri qarşısında incə və həzin duyğularını, əndişələrini müxtəlif rənglərdə təsvir etməkdən irəli getmir. Sabirin əsəri isə bir realist mübariz xalq şairinin ictimai həyatımızda olan kəskin ziddiyyətlər, böyük ədalətsizliklər qarşısında yaşadığı dərin əzablı hiss və fikirlərini bütün çılpaqlığı ilə ifadə edir. Üç bənddən ibarət olan Sabir şeirində üç ictimai təbəqənin: rəhmsiz zənginlərin, müftəxor ruhanilərin və ac-yalavac yoxsulların yaşayış tərzi qüdrətli qələmi ilə öz canlı lövhələrini tapır.

Bu iki şeir ideya və ictimai mündərəcə etibarı ilə yalnız bir-birinə zidd deyil, bəlkə ikincisi birincisinə güclü bir satiradır, onu təhzildir.

Mahmud Əkrəm Rəcaizadənin haqqında danışılan həmin bu "Yad et!" şeirinə Sabirdən təxminən bir il sonra, yəni 1908-ci ildə bir çox şairlərə nəzirə yazmışlar. Bunlardan Abbas Səhhət, Abdulla Şaiq, Məşədi Həbib Zeynalov da "Qızdırmalı" imzası ilə "Aqilanə yad et" adlı bənzətmə yazıb və Hophopa təqdim edib.

Ə.Cəfər göstərir ki, "Qızdırmalı" imzası ilə "Aqilanə yad et" adlı şeirini həm Sabirə bənzətmə, həm də Rəcaizadəyə təhzil saymaq mümkündür. Sabir isə Qızdırmalının bu bənzətmə-sinə cavab olaraq, "Madam ki, Hamiyani-zülmət" misrası ilə başlayan şeirini yazır. Həm Sabirin, həm də "Qızdırmalı"nın şeirləri ictimai məzmun cəhətdən eyni mahiyyətli, eyni üslubludur. Lakin "Qızdırmalı" çirkin, cahil, qaranlıq bir ictimai mühitdən çox asanlıqla gözəl, cənnət kimi bir aləmə keçir. Qızdırmalı da M.Hadi kimi parlaq istiqbaldan danışır, dünyanın cənnətə dönəcəyinə inanır, Sabir isə həyat hadisələrinə daha açıq gözlə baxır. Sabir dərk edirdi ki, Qızdırmalının görüb duyduğu yaralar çox asanlıq və tezliklə sağala bilməz. "Kafir sözünün lüğətdən silinməsi, mollanüma mirzə qənbərlərin aradan qaldırılması, habelə adət şəkli alan bir sıra yaramazlıqların sıradan çıxması bu günün və sabahın işi deyildir. "Bu nöqtəni qanə-qanə xab et!" deyən şairin mənalı ifadəsindəki ictimai motivi oxucunu xəyallara daldırır, düşündürür və hətta mübarizəyə ruhlandırır" [4, s.328-329].

Qızdırmalı:

Vaxta ki, cahanda ləfzi-kafər
Bir-bir pozular hamı lüğətdən,
Nə Mollanüma, nə Mirzə Qənbər,
Yox, rənci məlal bir cəhətdən
İnsanlar olur çü cismi-vahid,
Aləm dəxi bir vətən ki, cənnət...

M.Ə.Sabir:

Aldanma quzum ki, ləfzi-kafər
Təshih olunub çıxa lüğətdən;

Madam ki, sağı Mirzə Qənbər,
Eymən deyilik bu mələnətdən;
Qoymaz ki, bu xəlqi cismi-vahid
Hökmündə olub edə məişət.

Nəticə

M.Ə.Sabir "Qızdırmalı" imzası ilə yazan M.H.Zeynalova "Madam ki, Hamiyani-zülmət" adlı satirası ilə cavab vermişdir. Bu satira ilk dəfə "Molla Nəsrəddin" jurnalında 30 mart 1908, № 13-də imzasız çap olunmuşdur. Dördüncü nəşrdən başqa, bütün qalan nəşrlərə daxil edilmişdir. Üçüncü nəşrdə "...Qafilanə xab et!" adı ilə verilmişdir. Jurnalda şeirdən əvvəl belə bir qeyd vardır: "Molla Nəsrəddin"in 10-cu nömrəsində Qızdırmalı imzalı yazılan əşara cavab" [6, s.368].

Sabirin bu satirası M.H.Zeynalovun 1908-ci ildə "Molla Nəsrəddin" jurnalının 9 mart tarixli 10-cu nömrəsində dərc edilmiş bir şeirinə cavabdır. Şeirin başında yazılan "Şairimiz "Hop-hopa" təqdim olunur" sözləri nəzərə alınmamış və bu əsər səhv olaraq Sabirə istinad ilə ilk dörd nəşrə daxil edilmişdir. [6, s.368]

M.Ə.Sabir "Madam ki, Hamiyani-zülmət" adlı təhzilində "Qızdırmalı"ya cavabında özünə xas bir müdrikliklə bildirir ki, heç vaxt cəmiyyət rəzil qüvvələrdən mübarizəsiz xilas olub, xoş günə çıxa bilməyəcək.

Hər iki təhzil arasındakı fərqi göstərməklə yanaşı, həm də Sabirin müasirindən ("Qızdırmalı"dan) çox yüksəkdə dayandığını qeyd etməliyik. Sabirin şeiri zahirən nəzirəni yada salsa da, o daha çox təhzildir. Nəzirədə əsas şeirə həm forma, həm məna cəhətdən təqlidçilik, ona müəyyən dərəcədə tabelilik şərtdir. Təhzildə əsas şeirin ruhu ilə uzlaşmamaq, ona müxtəlif şəkil və dərəcədə etiraz və ya müxaliflik tələb olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Ağamirov M., Sabirin dünyagörüşü, Azərb.SSR.EA nəşriyyatı, Bakı, 1962.
2. Axundov N.F., Bəzi türk mənbələri M.Ə.Sabir haqqında, Azərb.SSR.EA-nın xəbərləri, ictimai elmlər seriyası, 1962, № 5.
3. Cəfər Ə., Sabirin yaradıcılığında təhzil, nəzirə və bənzətmələr, Azərb.SSR.EA-nın xəbərləri, ictimai elmlər seriyası, 1962, № 5.
4. Əli A., M.Ə.Sabirin satira sənətkarlığı, Bakı, 1999.
5. Əlimirzəyev X., Klassiklərimizin ideal və poetik sənət dünyası, II cild, Elm və təhsil, Bakı, 2009.
6. Hophopnamə, Şərq-Qərb, I, II cild, Bakı, 2004.
7. Xəndan C., Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1962.
8. Xəyal S., Mirzə Ələkbər Sabirə yeni nəzər, Azərb. Milli Elmlər Akademiyası, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, 2002.
9. Lukyanova A., Sabir yaradıcılığının əsas nöqtələri, Bakı, Nurlan, 2002.
10. Nəbiyev B., Seçilmiş əsərləri, I cild, Bakı, Çinar-Çap, 2009.
11. Novruzov T., Mirzə Ələkbər Sabir: axtarışlar, tapıntılar, Bakı, Elm, 2009.
12. Paşayeva N., Sabir novatorluğu, Mütərcim, Bakı, 1997.

ABDULLAH ŞAİK'İN "MƏKTUB YETİŞMEDİ" ADLI ESERİNİN ÇEVİRİSİ VE EDEBİ TAHLİLİ

Mediha Akpulat
Doktora Öğrencisi
Niğde Ömer Halisdemir Üniversitesi, Türkiye
medihaakpolat01@gmail.com
https://orcid.org/0000-0006-5544-4487

Giriş

Azerbaycan hikâyeciliğinin modern sahada önemli temsilcilerinden birisi Abdullah Şaik`tir. Yazar, 1881 yılında Tiflis'te eğitimci bir ailenin çocuğu olarak dünyaya gelir. İlk eğitimini babasının öğretmenlik yaptığı okulda almış, dini ilimler, Arapça, Farsça ve Rusçayı ileri seviyede öğrenmiştir. 1893 yılında annesiyle beraber Horasan'a yerleşen yazar, eğitimine burada devam etmiştir. Burada Yusuf Ziya adlı öğretmeninin himayesinde edebi ve ilmi anlamda kendini daha iyi geliştirme fırsatı yakalamış, psikolojik, edebiyat, mantık ve dil alanında kapsamlı çalışmaya başlamıştır (Halil ve Esgerli, 2007: 167).

Horosan'da aldığı eğitim sanat hayatının büyük bir bölümünü etkileyen yazar, edebi yaratıcılığına ilk olarak şiirle başlamıştır. Horasan'daki eğitimini tamamladıktan sonra Tiflis'e dönmüş, ardından Bakü'ye giderek Neriman Nerimanov'un yardımlarıyla öğretmenlik sınavlarına hazırlanmıştır. 1903 yılından itibaren Bakü'de öğretmenlik yapmaya başlamıştır. Bakü'de devrin maarifçi aydınlarıyla yakın ilişki içerisinde olan Şaik, edebi ve pedagojik faaliyetlere burada başlamıştır.

Romantizm etkisinde kaleme aldığı şiir, hikâye, povest ve masallarıyla yaşadığı devirde nesir türünde en fazla eserler vermiş yazarlardan birisi olmuştur. Edebi yaşamına şiir ile başlayan Abdullah Şaik, özellikle çocuk edebiyatında meydana getirdiği eserlerle tanınır. Çocuklara yönelik hazırladığı ders kitapları ve masalların yanı sıra çocuk şiirlerinde de kayda değer eser vermiştir.

İlk ve ortaokullarda okutulmak üzere İkinci Yıl, Gülşeni Edebiyat, Gülzar, Milli Kıraat, Çocuk Çeşmesi, Kıraat Kitabı, Dördüncü Yıl gibi ders kitapları yazmış, Bakü'de şimdiki adıyla Azerbaycan Devlet Pedagoji Üniversitesinin kuruluşu için aktif bir şekilde çalışmıştır. Edebi faaliyetlerini çalıştığı yıllarda sürdürmeye devam eden Şaik'in eserleri birçok kez toplanmış ve basılmıştır. 1959 yılında vefat ettikten sonra Azerbaycan edebiyatı ve eğitimi için yaptıklaryla hafızalara kazınmıştır.

Abdullah Şaik'in Məktub Yetişmədi Hikâyesi

Azerbaycan edebiyatının 20. yüzyılda nitelik ve nicelik bakımından en çok eser veren yazarlarından biri olan Abdullah Şaik, hikâye, masal, dram, poema ve şiir alanında kaleme aldığı eserleriyle meşhurdur. Özellikle hikâye yazarı olarak tanınan Şaik, eserlerini yetişkin ve çocuk edebiyatı olmak üzere iki koldan sürdürmüştür. Çocuk edebiyatında didaktik, eğitici ve terbiyevi esaslar ön plana çıkarken yetişkin edebiyatında kaleme aldığı hikâyelerinde toplumsal problemler, işçi hakları, cehalet gibi konular irdelenir. Özellikle işçilerin uğradığı haksızlıklardan duyduğu rahatsızlığı kaleme aldığı Mektup Yetişmedi adlı hikâyesi, trajik sonla biten bir hikâyeyi konu alır.

Yazar 1908 yılında kaleme aldığı hikâyede, Azerbaycan'da henüz keşfedilen petrol yataklarında meydana gelen talihsiz maden kazalarını ve maden işçilerinin maruz kaldıkları problemleri Mektup Yetişmedi hikâyesinde dramatik ve eleştirel bir şekilde işlemiştir.

"Məktub Yetişmedi" Hikayenin Çevirisi ve Edebi Tahlili

Mektup Ulaşmadı

Dondurucu bir kış günüydü. Soğuk bir kılıç gibi kesti. Gökler yas tutan adamlar gibi kara bir örtüyle, dağlar ve kırlar da beyaz bir örtüyle örtülmüştü.

Kurban, Şeytanpazar'ının ucunda mektup yazan hemşerisi Molla Ferzali'nin yanına oturmuş, Soğuktan elleri ve yüzü bozarmış, bir eliyle eski ve yırtık giysisinin yakasını tutarak:

- Molla bana bir mektup yaz! Sana her yıl ne kadar hayır ettiğimi bilirsin.

Memleketimden geleli bir yıl bile olmadı, artık sana beş mektup yazdırırım, dedi.

Molla Ferzali soğuktan donmuş ellerini ovuşturdu. Esneyerek bir kağıt parçasını dizinin üstüne alarak:

- Hemşeri, ne yazılacak? – dedi.

Kurban Molla, Ferzali'ye biraz daha yaklaştı. Gizli bir söz söyler gibi fısıldayarak şöyle dedi:

- Molla, öncelikle çocukların annesine benden selam yaz. Annemin ve Mamish'in gözlerinden benim adıma öpsün, onlara göz kulak olsun. Sonra yaz ki, ben de çok şükür iyiyim. Gulam Rıza ile birlikte size on beş manat gönderdim. Çocukların gözleri kalmasın diye bayramandan önce tekrar göndereceğim ve yazın son ayında ben de geleceğim.

Molla Ferzali kalemi mürekkebe batırıp ve yazmaya başladı. Kurban dedi :

Molla amca, ben kötü bir kuyuda çalışıyorum, kuyu şimdi 30 metrenin altına inip. "Hakkımızı biraz artırın, Çünkü aşağı inmek çok zor, petrol ve gaz kokusu nefesimizi kesiyor", zalimin oğlu razı olmuyor. "Önceki şartımıza göre kazacaksınız yoksa hakkınızı vermem", - diyor. Molla burada para kazanmak çok zor.

Molla Ferzali mektubu yazıp bitirdikten sonra katlayıp zarfa koydu ve yüzünü Kurbana dönerek: - Hemşeri zarfın yüzü kimin adına olacak? – diye sordu.

Kurban eliyle boynunu ovuşturur:

- Evet, Molla, Kurbanın çocuklarının annesine ulaşacağını yaz.

Kurban mektubu eliyle göğsünde tutarak yürüyordu. O şimdi hemşerisi Gulam Rıza'nın dairisine gidip, mektubu ona vermek ve onu cesaretlendirmek için birkaç söz söylemek istiyordu. Birden ayakalarının altında hışırdayan karların üzerine yüz üstü düştü, ölü ve üzgün halde başını kaldırdı. Kalabalığın arasında geçen faytonlara, sıcak giysiler içindeki insanlara neşeli yüzlere, o kayanr hayat sahasını gazaplı bir nazarla süzdü. İstemsizce solgun dudaklarından bütün ıstırap ve kederlerine tercüman olan bir "of" çıktı. Kendini doğrultarak düştüğü yerden kalktı. Hemen elini koynuna soktu ve mektubu yanık yüreğinin üzerine bastırarak yürüdü. Biraz sonra Gulam Rıza' nın dairesine geldi. Kapı kapalıydı… Üzgün ve düşünceli bir halde arkasını döndü ve yolda hemşerisi Sefer'i gördü. Ona yaklaşarak halini sordu. Gulam Rıza' nın şehre gittiği ortaya çıktı.

Kurban Sefer`e şunları söyledi:

- Gulam Rıza'ya döndüğünde benim geldiğimi söyle, beni görmeden gitmemesini söyle. Emanetim ve istek siparişim var.

Kurban bunu söyledikten sonra dairesine döndü.

… - Pislikler, alçaklar, kuyu derinleşmedikçe, ben baştım, onlar kuyruk. Hangi yöne dönsem, onlar da o yöne doğru sürünürlerdi. Şimdiki kuyu derinleştiğine göre, benim başım olmak istiyorlar. "Kuyu derinleşti, ölüm ayağı var", diyorlar her gün.

Tanrıverdi ve Sefer çektikleri toprağı boşaltıp dolu kuyuya geri bıraktıktan sonra Tanrıverdi:

- Ya Rabbi, - dedi, biliyorsun ki kuyu için artık zor bir zaman, ejder gibi ağzını açar ve kurban ister.

Sefer Tanrıverdi'nin sözünü kesti:

- Bak, bu yerlerin her köşesine ayak bassan, her bir avuç toprağı kazsan, işçilerin kemiklerini göreceksin, işçilerin feryatlarını duyacaksın.

Hacı Gülü ayaklarını yere vurarak bağırdı:

- Canınız çıksın, - dedi, "para kazanmak kolay mı?" Siz hayatınızdan geçiyorsunuz, biz de paramızdan geçiyoruz.

Tanrıverdi heycanla bağırdı:

- Sefer! Sefer! Kurban ipi hareket ediyor.

Sefer ve Tanrıverdi hızla kuyunun ağzına koştular. Başları öne eğik bakarken kuyuda patlayan gazın uğultusuyla irkildiler. İkisi de heyecanlı bir sesle:

Allah kendisi bağışlasın. Kurban da böyle gitti, - diyerek bağırdılar.

Hacı Kulu, sanki hiçbir şey duymuyormuş gibi korkarak kuyunun başına geldi ve çekine çekine kuyunun yanına uzanıp dikkatlice baktı. Birden bire gözlerinde ve yüzünde neşe kıvılcımları, dudaklarında memnuniyeti andıran bir tebessüm olduğu halde:

- Çeşmenin başı açıldı, petrol yavaş yavaş kaynıyor, - dedi.

Tanrıverdi soğuk ve lakayt bir tavırla :

- Hacı, Kurba'nın cesedi kuyuda mı kalacak? – diye sordu.

Hacı Kulu tatlı bir rüyadan uyanmış gibi oldu. Göz kapakları iri iri açıldı. Kesesinden iki yirmi beşlik çıkarıp:

"Bu işi kim yaparsa, bu elli manat onundur" – dedi.

Tanrıverdi kuyuya yaklaştı ve neftin kaynayıp çıktığını görünce:

"Zavallı Kurban, kendi mezarını kendi elinle kazdın" – dedi.

Hacı onlara elli manat verip dedi:

Bu elli manat sizin olsun, bölüşün, ancak bu işi ağzınızdan kaçırmayın.

Safar sordu:

- Efendim, giysiler ne olacak?

Hacı elini onun omzuna koyarak, yalan bir dil ile:

- Onu da buralarda bir yer kazıp gömün, - dedi.

Seferle Tanrıverdi Kurbanın kıyafetlerini toplayıp götürürken yere bir mektup düştü. Mektubun üzerinde: "Bu mektup Kurban'ın çocuklarının annesine ulaşacaktır" cümlesi yazıyordu.

Sefer ve Tanrıverdi mektuba bir süre acı gözlerle bakıp inlediler: "Zavallı Kurban, mektup ulaşmadı" – diye sızlandılar.

Hikaye Özeti

Hikâye, Kurban adlı bir neft işçisinin soğuk bir kış gününde Molla Ferzalii'ye, çocukları ve eşi için mektup yazdırmaya gitmesiyle başlar. Kurban, Molla Ferzali'nin mektup yazmasını beklerken petrol işçiliğinin ne kadar tehlikeli olduğundan bahseder. Mektubunu yazdırıp çalıştığı yere dönüş yolunda memleketini, çocuklarını, eşini hayal eder. Mektubu gönderteceği Gulam Rıza'nın yanına giden Kurban, Gulam Rıza'yı burada bulamayınca çaresizce iş yerine gider.

Petrol kuyularının başında işçileri çalıştıran Hacı Kulu, yanında bulunan Sefer ve Tanrıverdi'nin patlama olacağı ikazlarına kulak asmaz. Çalıştığı yerde mecburiyetten petrol kuyusuna inmek zorunda olan Kurban, bir süre sonra kuyudaki patlamayla olduğu yerde can verir. Hacı Kulu, Kurban'ın ölümüne hiçbir tepki vermezken kuyunun petrolle dolmasından fazlasıyla memnun kalır. Kurban'ın ölümünde ihmali büyük olan Hacı Kulu, elli manat karşılığında Sefer ve Tanrıverdi Kurban'ın eşyalarını alırken ceketinden çıkan mektubu görürler ve "Mektup Yetişmedi" diyerek ağlarlar.

Eserin Kişiler, Zaman, Mekân ve Yapı Bakımından Edebi Tahlili

Mektup Yetişmedi hikâyesi 1900'lü yılların Azerbaycan'ını konu alan, bir dönem Azerbaycan'a bağlı Tiflis'te meydana gelen olayları ele alan kısa bir eserdir. Hacim itibariyle küçük hikâye örneği olan eserde konunun işleniş biçimi, dar bir alanda verilmek istenen mesaj, geniş çaplı bir romanla eşdeğerdir. Yazar, tabiatta tasvirlerinden sıklıkla istifade ettiği hikâyede, nesir türüne farklı bir bakış açısı kazandırmıştır. Eleştiri ve dram temelli bir hikâye olan Mektup Yetişmedi, yazarın roamntizm etkisinde yazdığı bir hikâyedir.

XIX yüzyılın başlarından itibaren aktif şekilde çalışmaya başlayan petrol madenleri, Azerbaycan'ın ekonomik, sosyal ve siyasi durumunu da fazlasıyla etkilemiştir. Neft işçisi olarak çalışan Kurban gibi yüzlerce Azerbaycan işçisinin karşılaştığı haksızlıkları, rüşveti, liyakatsizliği Şaik bu eserinde gün yüzüne çıkarma imkânı bulmuştur.

Kurban, memleketinden para kazanmak için ayrılmış, fakir, çocuklarına ve eşine bakabilmek için amacıyla petrol madeninde çalışmak zorunda olan bir adamdır. Eserde, Kurban'ın çaresizliği, yalnızlığı önemli yer edinirken yazar, gerçekçi ve acı örneklerle petrol işçilerinin durumunu trajik bir biçimde ortaya koymuştur. Ailesine göndermek üzere Molla Ferzali'ye mektup yazdıran Kurban'ın fakirlik ve çaresizlik içinde olduğu durum yazar tarafından gerçekçi bir biçimde sunulmuştur:

"Kurban, Şeytanpazarı"nın ucunda mektup yazan hemşerisi Molla Ferzali"nin yanına oturmuş, soğuktan elleri, yüzü bozarmış, bir eliyle eski ve yırtık kıyafetinin yakasını tutarak, diğer eliyle de ayaklarına buz gibi yapışan yırtık ayakkabısının çamurunu temizleyerek: -Molla, bana bir mektup yaz! Bilirsin her yıl sana ne kadar hayır ettiğimi. Vatandan gelişim bir yıl olmadı ama bununla beraber sana beş mektup yazdırıyorum" (Şaik, 2005: 29).

Çalıştığı yerin zorluğundan, maaşının yetersiz olduğundan ve yöneticilerin acımasızlığından hemşerisi Molla Ferzali'ye bahseden Kurban, içinde bulunduğu durumun ve şartların ağır olmasına rağmen vatana döneceği, çocuklarına kavuşacağı günü sabırsızlıkla beklemektedir. Öyle ki mektubu alıp yırtık ceketinin cebine koyarken duyduğu sevinç; köyüne, çocuklarına ve vatanına kavuşma hayaliyle tüm dertlerini unutturmuştur. Bu yönüyle masumiyeti temsil eden Kurban, aynı zamanda dönem toplumun çaresizliğinin de simgelerinden biri olmuştur.

Kurban, mektubu alıp yola koyulduğu esnada köyünün bahar aylarında ne kadar güzel olduğunu, tarla işlerinin başlayacağının, balık tutacağını, çocuklarına ve eşine kavuşacağını hayal ederken, onu buralara sürükleyen fakirliğin üzerinde yarattığı ağırlığı kaldıramaz:

"Ah, beni bu güzelliklere, ev-eşiğime, çocuklarıma hasret koyan fakirlik! Bu kederli düşünce Kurban"ın vücudunun her yerine süratle yayılarak, bütün bedenini titretti. İçerisinde ezici bir sızı duydu. Sanki bir anlığına kalbi durdu. Artık dizlerinde takat, vücudunda güç kalmamıştı. Birden bire ayaklarının altında hışırdayan karın üzerine yüzükoyun düştü; ölgün ve üzgün bir halde başını kaldırdı. Önünde, izdihamı yarıp geçen arabaları, sıcak giyimli, şen suratlı insanları, o kaynar hayat sahasını gazaplı bir nazarla süzdü, gayri ihtiyari soğuk 138 dudaklarından bütün ıstırap ve kederlerine tercüman olan "of" çıktı, kendini doğrultarak düştüğü yerden kalktı. Hemen elini koynuna soktu ve mektubu yanık yüreğinin üzerine bastırarak yürüdü" (Şaik, 2005:31).

Kurban'ın çevredekiler tarafından yok sayılması, eserin bu ve ilerleyen bölümünde yer alan en önemli noktalardan birisidir. İnsan hayatının değersizleştirilmesi sorunu Kurban'ın düştüğü yerden kendisinin kalkamsıyla, insanların duyarsızlığıyla örneklendirilmiştir. Kurban gibi fakir, kimsesiz ve herhangi bir güce sahip olmayan insanlar, verdikleri yaşam mücadelesinde daima yalnızdırlar.

İki bölümden oluşan hikâyede ilk bölümde, Kurban'ın kişiliğinin, hayatının ve verdiği zorlu mücadelenin tasviri yer alırken ikinci bölümde, onun ölüme adım adım gidişinin, rüşvetle ölümünün üzerinin kapatılmasının ve bu şekilde hayattan kopuşunun anlatımı yer almaktadır.

Kurban mektubunu vermek üzere gittiği hemşerisi Gulam Rıza'nın yanında onu bulamadığı için geri dönerken, mektubuyla beraber çalıştığı neft kuyusuna gider. Burada başlayan ikinci bölümde kuyuya inen Kurban'ın trajik ölümü ve bu ölümle birlikte meydana gelen yolsuzlukların eserin ana temasını oluşturur.

Açılan Petrol kuyusunun derinleşmesi ve petrol çıkarımı için çalışan Hacı Kulu, madenin o ara patlayacağını ve bu patlamaların daha öncede onlarla cana mâl olduğunu bildiği halde kazanacağı paranın hesabıyla işçilerin ölmesinden rahatsızlık duymaz. Hacı Kulu'yu kararından döndürmek, Kurban'ın ölümünü engellemek isteyen Sefer ve Tanrıverdi adlı iki işçi de burada ne gibi ölümlerin meydana geldiğini bilmektedir. Bütün çabalara rağmen Hacı Kulu'yu ikna edemeyen Sefer ve Tanrıverdi, patlamadan sonra kuyuda can veren Kurban'ın ölümünü para karşılığında sakladıkları için en az Hacı Kulu kadar suçlulardır.

"Hacı Kulu tatlı bir rüyadan uyanmış gibi oldu. Göz kapakları iri iri açıldı. Kesesinden iki yirmi beşlik çıkarıp:

"Bu işi kim yaparsa, bu elli manat onundur" – dedi.
Tanrıverdi kuyuya yaklaştı ve neftin kaynayıp çıktığını görünce:
"Zavallı Kurban, kendi mezarını kendi elinle kazdın, " – dedi.
Hacı onlara elli manat verip dedi:
Bu elli manat sizin olsun, bölüşün, ancak bu işi ağzınızdan kaçırmayın" (Şaik, 2005:32).

İnsan hayatının paranın yanındaki değersizliği, hikâyede bu şekilde aksettirilirken Kurban ve onun gibi onlarca insanın yıllar boyunca aynı haksızlıklara maruz kalmaları, bu gibi çarpıcı örneklerle sunulmuştur. Para kazanma uğruna insanların canlarının hiçe sayılması Hacı Kulu gibiler için oldukça normal karşılanmaktadır. Hatta Hacı Kulu`nun Sefer ve Tanrıverdi'nin uyarılarına karşı "Canınız çıksın, dedi, para kazanmak kolay iş mi? Siz canınızdan geçiyorsunuz biz de paramızdan" (Şaik, 2005: 32) şeklinde verdiği cevap da bunu kanıtlar niteliktedir. Hacı Kulu'nun Kurban'ın na'şına soğukkanlılıkla ortadan kaldırmak istemesi, dönem işçilerinin maruz kaldığı şiddetin boyutunu gözler önüne sermektedir. Kurban'ın ölümünde birebir paya sahip Hacı Kulu, hem cinayet hem de rüşvetle toplumdaki ahlaki kırılmanın boyutunu gözler önüne sermiştir.

Hacı Kulu'nun yanı sıra ondan Kurban'ın cesedini ve eşyalarını para karşılığını ortadan kaldırma teklifini kabul eden Sefer ve Tanrıverdi gibi karakterler de suçludur. Kurban'ın ölümüne, eşyalarının arasında buldukları mektuba her ne kadar üzülseler de rüşvet karşılığında örtbas etmişlerdir. Bu noktada ahlaki yozlaşmanın toplumun hemen her tabakasına yayılmış olduğu gözlemlenmekte, bu ve bunun gibi hikâyelerle sosyal, ahlaki, siyasi vb. problemlere dikkat dikkat çekilmeye çalışılmaktadır. Hem eğitimci, hem pedagog hem de yazar olan Abdullah Şaik'in yetişkin ve çocuk edebiyatında satirik ve didaktik ögeleri bu gibi hikâyelerle ön plana çıkardığı görülmektedir.

Sonuç

Oldukça köklü tarihe sahip olan hikâye türü, Azerbaycan edebiyatında geleneksel ve modern sahadaki gelişimini asırlarca sürdürmüştür. Tarihi destan dönemine kadar dayanan bu tür, şekil ve içerik özellikleri bakımından periyodik olarak değişim ve gelişim içerisinde olmuştur.

Bu çalışmada Oğuz kökenli batı kolunda yer alan Azerbaycan Türkleri hakkında bilgiler verilmiştir. Abdullah Şaik'in "Mektub Yetişmedi" hikâyesinden çeviri yapılmıştır.

Çalışmanın son bölümü, Məktub Yetişmedi hikâyesinin edebi tahlilinden oluşmaktadır. Konunun daha iyi anlaşılabilmesi için metin içerisinden örnek cümleler verilmiştir.

Kaynakça

ALTAYLI, S. (1994). Azerbaycan Türkçesi Sözlüğü, Cilt 1, İstanbul: Meb Yayınları.
ALTAYLI, S. (1994). Azerbaycan Türkçesi Sözlüğü, Cilt 2, İstanbul: Meb Yayınları.
BURAN, A., ALKAYA, E. (2020). Çağdaş Türk Lehçeleri, Ankara: Akçağ Yayınevi.
ELMAS, N. (2019). Hikâyenin Öyküsü, Ankara: Peğem Akademi.
ŞAİK, A. (2005). Seçilmiş Eserleri 1, Bakü: Avrasya Pres.
ŞAİK, A. (2005). Seçilmiş Eserleri 3, Bakü: Avrasya Pres.
TDK (Türk Dil Kurumu) (1988). Türkçe Sözlük 1-2, Ankara: TDK Yayınları.

QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN ƏSAS MEYDANI KİMİ

Türkan Yusif qızı Əhmədova
Azərbaycan Dövlət Aqrar Universiteti
Lənkəran Dövlət Universitetinin doktorantı
turkan_ahm@mail.ru
https://orcid.org/0000-0002-9797-2716

Dünya dövlətlərində irqçilik, millətçilik, ksenofobiya və islamafobiyanın genişləndiyi, etnik və milli dözümsüzlüyün az qala həyat tərzinə çevrildiyi bir reallıqda Azərbaycan Respublikasında multikulturalizm, dinlərarası və mədəniyyətlərarsı dialoq, tolerantlıq və harmonik etnik müxtəliflik birgəyaşayışın Azərbaycan modelinin formalaşmasını şərtləndirmişdir. Ümumiyyətlə, qloballaşan dünyada xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoq dərin məna kəsb etməkdədir. Qloballaşma insanları bir-birlərinə yaxınlaşdırdıqca, onlar arasındakı dini fərqlilik dərinləşir.

Mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər dinlərin nümayəndələrinin adət-ənənələrinə, həyat tərzinə və düşüncələrinə hörmətlə yanaşılmayan cəmiyyətdə sabitliyə və inkişafa nail olmaq qeyri- mümkündür. Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin qovuşduğu məkan olmuş, ayrı-ayrı dinlərə etiqad edən insanlar ölkəmizdə daima sülh və əmin-amanlıq şəraitində yaşamış, Azərbaycan xalqının ictimai-siyasi həyatında mühüm rol oynamış, etnik xüsusiyyətlərini, dinlərini, adət-ənənələrini qoruyub saxlamışlar. Ölkəmizdə milli zəmində hər hansı ciddi problem yaşanmaması onu digər dövlətlərdən fərqləndirmişdir. Azərbaycanda hansısa xalqın nümayəndəsinə qarşı ayrı-seçkiliyə yol verilmir və onların dini inancları, siyasi və mədəni hüquqları yüksək səviyyədə qorunur. Həmçinin ayrı-ayrı dinlərə və xalqlara məxsus tarixi abidələr, mədəniyyətlər qorunub saxlanılır.

Mədəniyyətlər adətən milli zəmində yaranır, formalaşdıqları bölgənin və xalqın sərhədlərini aşdıqda ümumbəşəri dəyərlər sisteminə daxil olurlar. Azərbaycan xalqının min illər ərzində formalaşdırdığı mədəniyyətə də bu prizmadan yanaşılmalıdır. [3, s.138]

Etnologiyada yayılmış fikrə görə, "mədəni birlik" dedikdə, müəyyən etnosu təşkil edən müəyyən toplum başa düşülür və burada mədəniyyət sosial həyatın bütün tərəflərini (siyasət, iqtisadiyyat və s. sahələrə ayrılmadan) əhatə edir. [5, s.323]

Ümummilli lider Heydər Əliyev tolerantlığın, birgəyaşayış mədəniyyətinin İslam dininin və Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu belə ifadə etmişdir: "Hesab edirəm ki, Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var ". [4, s.88-89]

Multikultural və tolerant dəyərlərin Azərbaycan kimi kiçik, amma dərin tarixə, milli-mənəvi ənənələrə malik qürurlu bir ölkə üçün son dərəcə vacib həyati şərtlər olduğunu Ulu Öndər yaxşı bilirdi. Və o, bu dəyərləri yaşatmaq naminə Azərbaycan multikulturalizminin siyasi əsaslarını sistemli şəkildə, əzmlə qurdu və qəbul edilmiş siyasi bəyanat və sənədlərdə, fərman və sərəncamlarda, Konstitusiya bəndlərində bunu addım-addım, geridönməz şəkildə həyata keçirməyə başladı. Zəngin mənəvi xəzinənin sistemli, özündə aydın perspektivlər ehtiva edən siyasi bünövrəsi belə yarandı. [2]

Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan istər sosial-iqtisadi, istərsə də milli-mənəvi dəyərlərin qorunub saxlanılması, tarixi-dini abidələrin bərpası baxımından regionun lider dövlətinə çevrilmiş, dünya birliyinin layiqli hörmətini qazanmışdır. Cənubi Qafqaz regionunun lider dövləti olan, dünyada böyük etimad qazanan və etibarlı tərəfdaş olaraq tanınan Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Son illərdə mədəniyyətlərarası dialoqun təşviqi və inkişafında Azərbaycan

əhəmiyyətli rol oynayır. Bu çərçivədə müxtəlif konfranslar təşkil olunmuş, onlarla məqalə və elmi iş yazılaraq mədəniyyətlərarası dialoqa töhfələr verilmişdir. Bu ənənənin əsası 2011-ci il mayın 27-də Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili barədə" fərmanla qoyuldu. Təsadüfi deyil ki, Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər mühüm tədbirlər məhz ölkəmizdə keçirilir.

Mədəniyyətlərarası dialoq prosesində əvvəlcə müxtəlif mədəniyyətlər arasında qarşılıqlı anlaşma yaranır, sonra isə birgə əməkdaşlığa doğru fəaliyyət birliyinə səy göstərilir. Müasir dövrdə mədəniyyətlərarası dialoq zərurətinin ən başlıca səbəblərindən biri sivilizasiyalar arasında yarana biləcək mümkün münaqişələrin qarşısının alınması, eyni zamanda mədəniyyətlərarası və dinlərarası dialoqun həyata keçirilməsindən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi: "Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir".

Məlum olduğu kimi, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu 2024-cü ilin mayında Bakıda keçiriləcək. Bu forumun keçirilməsi mədəniyyət sahəsində mövcud əməkdaşlıq istiqamətlərinə yeni üfüqlər açacaq.

Müşahidələr əsasında deyə bilərik ki, Azərbaycan Respublikası mədəniyyətlərarası dialoqa öz töhfələrini verməkdədir. Azərbaycanın həm müxtəlif tədbirlərə ev sahibliyi etməsi, həm də dünyanın ayrı- ayrı ölkələrində keçirilən beynəlxalq konfransların təşəbbüskarı və təşkilatçısı kimi çıxış etməsi sivilizasiyalararası dialoqun genişləndirilməsinə, bu istiqamətlərdə səmərəli fikir mübadiləsinin aparılması və işbirliyinin gücləndirilməsinə fundamental töhfələr verir. Bu baxımdan Azərbaycan dünyanın ən nümunəvi ölkələrindən biridir.

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Namiq Mədəniyyət siyasəti və mənəvi dəyərlər, Bakı, 2009, 444 s.
2. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bakı, 2016.
3. İsmayılov Gündüz, Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz, Bakı, "Tuna" Nəşriyyat, 2019, 240 s.
4. Qurbanlı Mübariz, Din və siyasət, Bakı,2019, 114 s.
5. Niftiyev Niyaz, Azərbaycanda birgəyaşayış və multikulturalizm, Bakı, 2015. 408 s.

AZƏRBAYCANIN XƏZƏR DƏNİZİ HÖVZƏSİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA

[1,2]**Taleh Vasif oğlu Əliyev,** [1,3]**Aliyə Rzaqulu qızı Adgözəlova**
[1]AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
[2]tarix üzrə fələfə doktoru, dosent
taleh.ali@mail.ru
http://orcid.org/0000-0003-0519-69370
[3]http://orcid.org/0000-0001-5879-6337

Təbii iqlim şəraiti və coğrafi mövqeyi cənub-şərq bölgəsinin qədim zamanlardan insanların yaşaması üçün əlverişli şərait yaratmışdır. Xəzər dənizi hövzəsi və onun ətraf rayonlarında aparıl-

mış arxeoloji tədqiqatlar uzaq daş dövründən başlayaraq burada insanların məskunlaşdığını söyləməyə imkan verir.

Bölgənin arxeoloji abidələrinə maraq hələ XIX əsrin 80-90-cı illərindən yaranmış və bu günə qədər diqqət mərkəzində olmuşdur. XIX əsrin 90-cı illərində Fransadan gəlmiş Morqan qardaşları Lənkəran çökəkliyində və Lerikdə arxeoloji kəşfiyyat işləri aparmış, əsasən, son tunc – ilk dəmir dövrünə aid qəbir abidələrində tədqiqatlar aparmışlar (şək. 4).

XX əsrin birinci yarısından başlayaraq bölgənin arxeoloji cəhətdən tədqiqinə xüsusi əhəmiyyət verilir, əsasən, düzənlik, dağlıq və dağətəyi ərazilərə arxeoloji və etnoqrafik səfərlər təşkil olunur. Əsas məqsəd Xəzər dənizi hövzəsinin Azərbaycana aid olan hissəsində qədim dövrün yadigarlarını üzə çıxarmaq olmuşdur. Arxeoloji tədqiqatların miqyası XX əsrin 60-cı illərindən başlayaraq daha da genişlənir. Düzənlik ərazi ilə dağlıq ərazi arasında üzvi bağlılığın olması, məskunlaşma, miqrasiya, arxeoloji mədəniyyətlərin formalaşması kimi mühüm məsələlər ön plana çəkilir. Keçən əsrin 80-ci illərindən başlayaraq bölgəni tədqiq edən xüsusi arxeoloji ekspedisiya yaradılır. Bu ekspedisiyanın əsas məqsədi cənub bölgəsinin, o cümlədən, Xəzər dənizi hövzəsinin arxeoloji xəritəsini hazırlamaqdan ibarət olmuşdur. Ötən illər ərzində bölgədə aparılan arxeoloji tədqiqatlar nəticəsində onlarla yeni abidə müəyyən edilmiş və elmi dövriyyəyə gətirilmişdir. Bu abidələr əsasən yaşayış yerlərindən, qəbir abidələrindən, qala və müdafiə istehkamlarından və digər abidələrdən ibarətdir.

Lənkəran, Astara, Masallı və Cəlilabad rayonları ərazisində aparılan arxeoloji araşdırmalar bu ərazilərin hələ Eneolit-Tunc dövrlərindən məskunlaşdığını söyləməyə imkan verir. Cəlilabad rayonunda Əlikömək tə pə, Polutəpə, Alxantəpə, Xudutəpə, Oğlantəpə abidələrində aparılan arxeoloji tədqiqatlar hələ Neolit dövründən başlayaraq, burada ilkin əkinçilik mədəniyyətinin formalaşdığını göstərən dəlillər verir.

Xəzər dənizinin qabarması və çəkilməsi bölgənin relyefinə, flora və faunasına öz təsirini göstərmişdir. Nəzərə alsaq ki, bu qabarma və çəkilmələr dəfələrlə olmuşdur, Lənkəran çökəkliyi nəticədə bataqlığa çevrilmişdir. Lakin dağlıq və dağətəyi ərazi bu təsirdən kənarda qalmışdır. Belə ki, bu ərazilərdə biz tarixin müxtəlif dövrlərinə aid arxeoloji abidələrə və maddi mədəniyyət nümunələrinə rast gəlirik.

Bu gün bölgənin arxeoloji cəhətdən tədqiq olunması prioritet məsələlərdən birinə çevrilmişdir. Heç də təsadüfi deyil ki, son illərdə fəaliyyət göstərmiş Azərbaycan-Fransa Birgə Beynəlxalq Arxeoloji Ekspedisiyasının adı yeniləşərək Xəzər dənizi hövzəsinin son tunc - ilk dəmir dövrü abidələrini öyrənən ekspedisiya adlandırılmışdır. Lerik rayonu ərazisində Kraveladi, Cucutuk və digər yerlərdə aparılan arxeoloji tədqiqatlar nəticəsində ərazidə son tunc - ilk dəmir dövrünə aid abidələr tədqiqata cəlb edilmişdir [2] (şək. 5).

Babazanlı arxeoloji ekspedisiyası Salyan rayonunun eyniadlı ərazisində antik dövr küp qəbirlər nekropolunda arxeoloji qazıntı işləri professor Arif Məmmədov tərəfindən aparılmışdır. Nəticədə 3 qazıntı sahəsi açılaraq 50-dən çox küp qəbir öyrənilmişdir (şək. 3; Tablo 1). Rayonun Qırxçıraq yaşayış yerində isə orta əsr şəhərtipli yaşayış yerində arxeoloji kəşfiyyat işləri həyata keçirilmişdir [1; 3] (Tablo 2). Qeyd edək ki, A.M.Məmmədov Qırxçıraq yaşayış yerini orta əsr Mahmudabad şəhəri ilə eyniləşdirir.

Xəzər sahili boyu ərazilərdə sualtı arxeoloji tədqiqatlar V.A.Kvaçidze tərəfindən aparılmışdır. Nəticədə Salyan rayonu ərazisində Bəndovan 1 və Bəndovan 2 yaşayış yerləri tədqiq edilmişdir. Abşeron yarımadasında isə Şəhri-Gürkan yaşayış yeri tədqiqata cəlb edilmişdir. Orta əsr mənbələrində adı keçən bəzi şəhər yerlərinin lokalizasiyası da bu qazıntıların nəticələrinə əsasən aparılmışdır. Bəndovan 1 yaşayış yeri IX-XIII əsrlərə, Bəndovan 2 yaşayış yeri isə XI-XII əsrlərə aiddir [4; 5] (şək. 1-2). V.A.Kvaçidze Bəndovan 1 yaşayış yerini orta əsr Guştasfi şəhəri, Bəndovan 2 yaşayış yerini isə orta əsr Muğan şəhəri ilə eyniləşdirmişdir. Şəhər yerlərinin su altında qalmasını isə XIV əsrin əvvəllərində baş verə biləcəyini qeyd etmişdir.

Şək. 1. Xəzər dənizi sahili boyu Bəndovan yaşayış yerinin xəritə-sxemi (V.A.Kvaçidze)

Şək. 2. Bəndovan yaşayış yerindən şirli saxsı nümunəsinin təsviri (MATM-V.A.Kvaçidze)

Şək 3. Babazanlı nekropolunda I qazıntı sahəsi (A.M.Məmmədov)

1

2

3

4

5

Tablo 1. Babazanlı nekropolundan küp qəbirlərdən aşkar olunmuş maddi mədəniyyət nümunələri (1-2-saxsı qablar; 3-dəmir metal silah və alət hissələri; 4-5-Parfiya hökmdarı II Ardabana aid gümüş sikkə (I əsr) (numizmat Akif Quliyev təyin edib)
(A.M.Məmmədov, Ə.H.Babayev, T.V.Əliyev, M.İ.Rəcəbov, A.R.Adgözəlova)



1 **2**

Şək. 4. Kraveladi daş qutu qəbirlərinin təsviri (1-2: Jak de Morqan)

1 **2**

Şək. 5. Kraveladi daş qutu qəbirləri (1-2: Ələkbərov A., Kasanova M., Əliyev T.)

1

2

3

4

Tablo 2. Qırxçıraq yaşayış yerindən aşkar olunmuş saxsı qab nümunələri (A.M.Məmmədov, T.V.Əliyev, A.R.Adgözəlova)

Abşeron yarımadasının Zirə qəsəbəsindən 5 km şərqdə Gürkan burnunda yerləşən sahilboyu yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində abidənin XI-XIII əsrlərə aid olduğu müəyyən olunmuşdur. Mənbələrdə adı keçən Şəhri-Gürkan yaşayış yerinin məhz həmin əraziyə uyğun gəldiyi şübhəsizdir.

Bölgədə aparılan arxeoloji və paleontoloji tədqiqatlar daxili su hövzələrinin tematik problemlərinin Xəzər dənizi hövzəsi məsələlərinə uyğun gəldiyindən çox aktualdır. Belə hesab edirik ki, bu sahədə birgə fəaliyyət və multidissiplinar tədqiqat işin xeyrinə ola bilər. Ona görə də gələcəkdə coğrafiya, geologiya və geofizika və digər sahədə mütəxəssislərin birlikdə bu cür tədqiqatlar aparması vacibdir.

Arxeoloji qazıntıların nəticələri əsasında son tunc – ilk dəmir, antik, ilk orta əsrlər və klassik orta əsrlərə aid yaşayış yerlərindən, qalalardan və digər məntəqələrdən bitki qalıqları, heyvan sümükləri, müxtəlif gil nümunələri və s. əldə olunmuşdur. Analizlər həmin nümunələrin yerli iqlim şəraitinə müvafiq olduğunu söyləməyə əsas verir. Bu baxımdan arxeoloji tədqiqatların tarixi-coğrafi, paleobotanik, geoloji və digər təbiət elmləri ilə qarşılıqlı əlaqələrinin güclənməsini gələcəkdə zəruri hesab edirik. Multidissiplinar araşdırmaların məhz bu yöndə inkişafı Xəzər hövzəsinin müxtəlif problemlərinin təhlilinə təkan verəcəkdir.

Bölgədə aparılan arxeoloji və paleontoloji tədqiqatlar buranın unikal bir ərazi olduğunu söyləməyə əsas verir. Azərbaycanın dünyada on bir iqlimdən doqquzunun yerləşdiyi ölkə olması qeyd olunan bölgənin də rəngarəngliyində özünü göstərir. Meşə örtüyü, su arteriyaları, xüsusilə Xəzər dənizi və onun ətrafındakı resursların tədqiqi olduqca lazımlıdır. Göründüyü kimi bölgə arxeoloji abidələrlə çox zəngindir. Eneolit dövründən başlayaraq bu ərazilərin məskunlaşmasını göstərən əlamətlərin üzə çıxması, tunc, ilk dəmir, antik, ilk orta əsr və orta əsrlərə aid qəbirlər və digər arxeoloji abidələr tarixin çox mühüm problemlərini, təsərrüfat həyatını, insanların əsas məşğuliyyətini və s. məsələləri öyrənməyə kömək edir.

Azərbaycanın Xəzər sahili ərazilərində Qafqaz Albaniyası və Atropatena dövlətlərinin tarixi ilə səsləşən abidələrin tədqiqata cəlb olunması da tarix və arxeologiya elmlərinin aktual məsələlərindəndir. Gələcək tədqiqatlarda bu cür elmi tədqiqat işlərinin aparılması ölkəmizin prioritet elm sahəsi kimi arxeologiyada zəruri planlardandır.

İstifadə edilmiş ədəbiyyat

1. Babayev Ə.H. Muğan arxeoloji ekspedisiyasının 2018-ci ildə apardığı arxeoloji qazıntı və çöl-tədqiqat işlərinin hesabatı // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Arxivi, Bakı: 2019, 42 s.
2. Ələkbərov A.Ə. Lerik rayonunda 2014-cü ildə aparılmış arxeoloji tədqiqat işlərinin hesabatı // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Arxivi, Bakı: 2014, 46 s.
3. Məmmədov A.M. Babazanlı arxeoloji rkspedisiyasının 2015-ci ildə apardığı arxeoloji qazıntı işlərinin hesabatı // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Arxivi, Bakı: 2016, 57 s.
4. Квачидзе В.А., Мамедов Р.А. Гидроархеологические исследования поселения Бяндован // Археологические открытия 1971 года, Москва: Наука, 1972
5. Квачидзе В.А. Подводная экспедиция на городище Бяндован // Археологические открытия 1975 года, Москва: Наука, 1976

VİRTUAL SOSİALLAŞMANIN SOSİAL FƏLSƏFİ TƏHLİLİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Üzeyir Ələmşah oğlu Zeynalov
fəlsəfə üzrə fəlsəfə doktrou
Mingəçevir Dövlət Universiteti
uzeyir.zeynalov@mdu.edu.az
http://orcid.org/0000-0002-3664-7418

Çağdaş dövrümüzdə sosial inkişaf, əsasən yeni informasiya-kommunikasiya texnologiyaları sayəsində sosial dəyişikliklərin miqyası və sürəti ilə xarakterizə olunur. İnternet məkanında insan təkcə izləyici, oxucu və dinləyici deyil, eyni zamanda hadisələrə təsir etməklə yanaşı onun həm təşkilatçısı, həm də iştirakçısı ola bilir. İlk dəfə ötən əsrin 80-ci illərin işlədinlən "Kiberməkan" ifadəsi qlobal çoxistifadəçili virtual mühit kimi xarakterizə olunmuş və elm adamları tərəfindən kompüter qrafikası və insan-kompüter interfeysləri üzərində işləyən süni dünya kimi təsvir olunmuşdur. Lakin başlanğıcını Aristotel və orta əsr latın dilindən götürən virtuallıq anlayışı ənənəvi olaraq, xəyali görünən, həqiqətdən məhrum kimi mənalarda şərh olunur. Ancaq sosial məkan ən radikal şəkildə dəyişdirən yüksək texnologiyaların mühüm naliyyətləri həm virtuallıq fenomenin özünə, həm də məzmununa yenidən baxılmasına vadar etmişdir. Virtual reallığın prototipi olan internetin fiziki mövcud olub olmadığı mübahisə predmeti olsa da, onun təmiz informasiya məkanı, ünsiyyət məkanı olması artıq heç kimdə şübhə oyatmır. İnternet müxtəlif sosial intitutların (dövlət, elm, təhsil, kütləmi kommunikasiya və s.) bir hissəsinə çevrilmiş, bir çox insanlar üçün çox böyük əhəmiyyət daşımaqla və onların həyatlarının mühüm bir hissəsinə çevrilmişdir. Müxtəlif səbəblərdən internet bu gün iş, pul qazanmaq, tanışlıq, ünsiyyət, eyni zamanda məlumat və xəbər axtarışı üçün istifadə olunur və müasir sivilizasiyanın ən parlaq naliyyətlərindən birinə çevrilməklə insan həyatının ayrılmaz hissəsi olmuşdur.

Əvvəlki sosial formalarla müqayisədə, müasir sosial münasibətlərin və proseslərin özünəməxsusluğu cəmiyyətin təşkilatlanmasını ərazidən şəbəkə əsaslı dəyişənə transformasiyası ilə xarakterizə olunmaqla, fiziki məkan və kiberməkanın bir-birnə qarışması və qarşılıqlı asılılığındadır. Bu mənada, yalnız ərazi hərəkətini nəzərə alan və şəbəkə fəaliyyətinə məhəl qoymayan ənənəvi sosial hərəkəti izah edən anlayışlar bu gün qeyri-adekvatdır. Eyni zamanda müasir cəmiyyətin son dərəcə qeyri-sosial olması haqqında mübahisəli nəticələr də müzakirə edilməkdədir. Təqdim edilən araşdırmada əsas məqsəd məhz bu baxımdan sosiallığı araşdırmaq və sosial dinamikanın kiberməkanda sosial-fəlsəfi təhlilini verməkdir.

İnformasiya texnologiyaların müasir cəmiyyətdə insanların gündəlik həyatına təsir göstərməsi artıq heç kimdə şübhə oyatmır. Tədqiqatçıların böyük əksəriyyətinin fikirincə, bu təsir xüsusilə də sosiallıq sahəsində özünü bariz şəkildə göstərir və üzbəüz ünsiyyət tədricən İKT-nin vasitəçiliyi ilə yeni formalara çevrilir. Yeni formalar yeni imkanlar yaratmaqla yanaşı, insanlar arasında birbaşa ünsiyyətin azalmasına, sosiallığın zəifləməsinə gətirib çıxarmış və nəticədə fərdiliyin, tənhalığın əsas səbəbkarına çevrilməsi fikirini yaratmışdır.

Bəşər tarixində qarşılıqlı ünsiyyət və şəbəkələşmə üçün insanlar arasında bu qədər resurs olmadığı halda, heç vaxt da şəxsiyyətlərarası münasibətlərin keyfiyyətində bu qədər böhran olmamışdır. Tədqiqatçıların bir qismi belə hesab edir ki, müasir inkişaf etmiş cəmiyyətlər insanların sosiallıq səviyyəsinin son dərəcə aşağı və fərdlərin sosial mühitdən təcrid olunması ilə xarakterizə olunur. Hansı yanaşmanı qəbul etməyimizdən asılı olmayaraq bir reallığı qəbul etməliyik hər iki vəziyyətin yaranmasında İKT xüsusi rol oynayır.

Yuxarıda qeyd etdiyimiz kimi, müasir sosial münasibətlərin və proseslərin özünəməxsusluğu fiziki məkanın və kiberməkanın bir-birinə qarışması və qarşılıqlı asılılığıdır. Kiberməkan cəmiyyətin təşkilinin əsas xarakteri ərazidən şəbəkə əsaslıya dəyişməsidir. Yalnız fiziki ünsiyyəti nəzərə alaraq sosial hərəkəti izah etməyə çalışan konsepsiyalar bu gün öz aktuallığını itirməkdədir.

Elmi ədəbiyyatlarda sosiallıq anlayışı fərdin fərdilik vəziyyətindən sosiallıq və dostluq fazasına keçid, sosial davranışların məcmusuna aiddir. Bəzən ünsiyyət anlayışı sosiallığın sinonimi kimi işlədilir.

Texnologiyanın "hakim olduğu" müasir cəmiyyətdə sosiallığı başa düşmək üçün bu fenomenin klassik sosioloji tərifləri diqqət yetirmək lazım gəlir. M.Veberə görə "fərdin hərəkəti yalnız digər fərdlərə yönəldikdə sosial olur" . M.Veber fikirini belə ifadə edirdi: "Hər cür hərəkət, hətta aşkar hərəkət də" sosial" deyildir. Subyektiv münasibət yalnız başqalarının davranışına yönəldiyi müddətdə sosial fəaliyyəti təşkil edir" [1, c.172-173]. Sitatdan göründüyü kimi, sosial davranış insanlar arasında hər cür təmas ilə xarakterizə olunmur, çünki iştirakçının davranışı mənalı şəkildə digər fərdlərə yönəldilməlidir. Sosiallığı tədqiq edən digər tədqiqatlarda sosiallıq öz saf formalarında fərdin şəxsiyyətlərinə yönəldiyi üçün heç bir real məqsədə, məzmuna və sosial məqamdan kənar nəticəyə malik olmamalıdır. "Sosiallaşma" və "ünsiyyət" arasında paralellik aparılır ünsiyyətin insanların əyləncə və sevgi ruhunda birləşərək, aralarında hər hansı bir narahatedici maddi vurğu olmadan təmiz qarşılıqlı əlaqə yaratması ideyası irəli sürülür. Buradan belə başa düşmək olar ki, ünsiyyət ən azı iki iştirakçı arasında ünsiyyətin məqsədə çevrildiyi bir vəziyyətdir.

M.Veber, D.Bell, M.Kastels və digərləri müasir cəmiyyətdən çox fərqli olan cəmiyyətlərdə yaşadıqlarından, fərqli olan sosio-münasibətləri və prosesləri təsvir etmişlər. Kastelsin fikirincə "müasir cəmiyyətin əsasını "şəbəkə" strukturları təşkil etdiyinə görə müxtəllif sosial institutların, qurumların formaları məhz şəbəkələr vasitəsilə formalaşır" [5, c.507]. D.Bell isə belə hesab edirdi ki, "qarşıdan gələn əsrdə iqtisadi və sosial həyat, kommunikasiya üzərində qurulmuş yeni soail mühit yardacaq" [2, c.53].

Sosial dinamikalar zamanla dəyişmişdir. Kiberməkan getdikcə gündəlik qarşılıqlı əlaqənin mühüm aspektinə çevrildiyi üçün bu vəzifə son vaxtlar daha da əhəmiyyətli olmuşdur. Sosial qarşılıqlı əlaqələr kontekstində İKT-nin istifadəsi ünsiyyət təcrübəsini birmənalı şəkildə dəyişdirdi. Kiberməkanın müəyyən etdiyi yeni şərtlər daxilində ənənəvi sosial hadisələrin intensiv keçidinin şahidi oluruq. Biz faktiki olaraq sosial yenidənqurma ilə üz-üzə qalmışıq. Bu sürətli dəyişikliklər müəyyən sosial hadisələrin izah edilməsini çətinləşdirir.

Müasir dövrdə sosiallığı araşdıran bir sıra tədqiqatçılar belə hesab edirlər ki, iştirakçılar üz-üzə ünsiyyəti azatmaqla potenisal olaraq iştirakçıların sosial şəbəkələrini genişləndirirlər. Təcrübədə bu o deməkdir ki, sosial şəbəkə üzərində (misal olaraq, Facebook-da) məzmunu "bəyənmək" sosiallıq aktıdır. Bu mənada sosiallıq ərazi əsaslıdan, şəbəkə əsaslıya çevrilən qurumdur.

İnsanlar texnologiyaları yaradır və ona müəyyən təsirlər göstərdiyi kimi, texnologiyalar da fərdləri formalaşdırır. Buna görə də texnologiyanın daha sosial, cəmiyyətin isə texniki xarakter aldığını iddia edənlərə də rast gəlmək olur. Bu nöqteyi-nəzərə görə texnologiya düşüncələrə elə təsir edib ki, artıq iştirakçıların fiziki mövcudluğu əhəmiyyət daşımır. Artıq biz kiberməkanda baş verənləri real hadisələr kimi qəbul edir və İKT artıq iştirakçılar arasında üzbəüz, qarşılıqlı əlaqə illüziyası yarada bilir.

Müasir texnologiyalardan istifadə edənlər – kibersosiallşma prosesində müxtəlif keyfiyyət dəyişikliklərinə (koqniiv, emosional, fərdi xüsisyyətlər və s.) məruz qalırlar. Kibersosiallaşma prosesində fərdin inkişafına xüsusi təsiri əsasında insan yeni gözləntilərin və maraqların, moivlərin və məqsədlərin, ehtiyacların sahəsinə çevrilir.

Şəxsiyyətin kibersosiallaşmasının məzmunu və mexanizmlərindəki dinamik dəyişiklik daha çox sosial institutların virtuallaşdırılması, ətrafdakı reallığın adi qavrayışını kompüter sistemi ilə inteqrasiya olunmuş məlumatlarla əvəz etməklə yeni dünyanın yaradılması ilə bağlıdır. Bu baxımdan kibersosiallıq bir sıra xüsusiyyətlərlə xarakterizə olunur:

- anonimlik;
- bərabərlik;
- sərhədllərin olmaması;

- əlaqələrin limtsiz xarakteri;
- daimi qeydəalma;
- xüsusi vaxt xüsusiyyətləri və s.

Kibersosiallığın yuxarıda göstərilən xüsusiyyətləri insanların virtual aləmdə aktivliyini daha da şərtləndirir.

İstifadə edilmiş ədəbiyyat

1. Макс, В. Избранные произведения / – Москва: Прогресс, – I990. – с.808.
2. Белл, Д. Грядущее постиндустриальное общество / Д. Белл. - М. : Академия, 1999. - 949 с.
3. Гидденс, Э. Социология / Э. Гидденс. - М. : Эдиториал УРСС, 1999. - 704 с.
4. Бабаева, Ю.Д. Психологические последствия информатизации // Психологический журнал. - 1998. №1. - С. 89-100.
5. Кастельс, М. Становление общества сетевых структур// Новая постиндустриалная волна на Западе: Антология М. "Academia", 1999
6. Плешаков, В.А. К вопросу об определении понятия «социализирующая среда» в социальной педагогике // Актуальные проблемы профессионально - педагогического образования - 2000. - Вып. 4 - С. 107-109.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜDRİKLİK ZİRVƏSİNİN İŞIĞINDA

Zenfira Mirsəfər qızı Əzizova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
zenfira.azizova@mdu.edu.az
http://orcid.org/0000-0001-9607-8934

Tarixdən bizə məlumdur ki, azərbaycanlılar öz doğma məkanlarında – Odlar yurdu Azərbaycanda öz milli mentalitetlərinə uyğun həyat tərzi keçirmiş, çox dəyərli və dünya əhəmiyyətli tarixi abidələr yaratmışlar. Milli koloritimizin zənginliyi, diyarımızın əsrarəngiz gözəlliyi daim dünyanı özünə cəlb etmiş, ölkəmizi ictimai-siyasi proseslərin mərkəzi etmişdir. Bütün bu proseslər Azərbaycanın parçalanması ilə nəticələnir. 1937-ci il sürgünləri azərbaycanlıların bir qisminin deportasiyasına səbəb olur. 1918-1948-1988-ci illərdə azərbaycanlılar I Pyotorın vəsiyyətinin nəticəsi olaraq öz doğma yurdlarından didərgin salınır və İrəvan xanlığından qovulurlar. Xalqımız Mircəfər Bağırovun Stalinlə şəxsi münasibətləri nəticəsində deportasiyadan güc-bəla ilə yaxa qurtara bilir. Xalqımızın oğul və qızları yzun müddət yad baxışlar altında yaşamış, dillərində və son nəfəslərində Azərbaycan, Vətən sözləri ilə gözlərini əbədiyyətə yummuşlar. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı dünyanın böyük xalqlarından biri olaraq qalır. Əsrlərlə işğal və xarici təzyiqlərə məruz qalmış xalqımız bu gün də Şərqlə Qərbi, Şimalla Cənubu, Avropa ilə Şərqi birləşdirən ərazini öz əlində qoruyub saxlaya bilmiş, suveren dövlətdə yaşamaq arzusunu gerçəkləşdirə bilmişdir. Sinəsi hərbə meydan olan bu şanlı vətən öz genofonunu minlərcə can qurbanlarının hesabına saxlaya bilmişdir.

Azərbaycan Respublikası suverenlik əldə etdikdən sonra xarici qüvvələr və daxili düşmənlər Azərbaycanı vətəndaş müharibəsinə sürükləməyi və müstəqilliyimizi məhv etməyi qarşılarına məqsəd qoydular. 1993-cü ildə H.Əliyev böyük siyasi xadim xalqımızın nicat yeri oldu. XX əsrdə milli varlığımızın ehtiyac duydyğu əsl lider şəxsiyyət məhz H.Əliyev olmuşdur.

"Güclü məntiqi, vətəndaşlıq əqidəsi olan, ziyalıların psixologiyasını və həyatını dərindən bilən Heydər Əliyev mənəvi-psixoloji vəziyyəti dəyişdirməyə, dövlətə və sabahkı günə, elmin, təhsilin, mədəniyyətin yenidən dirçəlməsinin çox da uzaqda olmadığına insanlarda inam yaratmağa nail oldu." [1, s.14]

Sovet rejimi dövründə yetişib formalaşmasına baxmayaraq H.Əliyevin bütün şüurlu həyatı içərisindən çıxdığı xalqa xidmətdən ibarət idi. Dövlət mənafeyi ilə milli mənafeyi bacarıqla əlaqələndirən H.Əliyev istər Bakıda, istərsə də Moskvada işləyib yaşayarkən əleyhdarları tərəfindən, xüsusilə ermənilər və onların deputatları tərəfindən bir sıra hallarda, hətta ciddi imtahan qarşısında durmalı olurdu. [2, s.113-124]

H.Əliyev həqiqətən də xalqımızı sehrli, uzaqgörən siyasəti ilə birləşdirdi, qara buludları başımızın üzərindən yox etdi, azərbaycanlıları həmrəyliyə çağırdı. Bütün ölkələrdə azərbaycanlıları toplaya bildi, dünya azərbaycanlılarının diasporalarını yaratdı və eyni zamanda 1989-cu ildə 31 dekabr günü Naxçıvanda baş vermiş hadisəni əsas götürərək 31 dekabrı Dünya Azərbaycanlılarının həmrəylik günü elan etdi. 31 Dekabr 1989-cu ildə Naxçıvanda sərhəd dirəklərini yıxaraq millətimiz bu taleyüklü missiyanın başlanğıcını qoydu. Qardaş-qardaşla qovuşdu. Bu gün Azərbaycan Respublikasının xarici ölkələrdə yaşayan 40 milyondan artıq soydaşı vardır ki, onların da Vətəni Azərbaycandır. Heydər Əliyev Azərbaycanı bütün dünya Azərbaycanlılarının Vətəni elan etdi və onların müxtəlif qurumlarının rəhbərləri ilə görüşdü. Bu məqsədyönlü görüşlər Azərbaycan Lobbisini formalaşdırdı və bu yolda hələ də yeni-yeni addımlar atılır. Məhz bunun nəticəsində dünyanın müxtəlif ölkələrində Azərbaycan dilində onlarca qəzet və jurnal nəşr olunur, bir çox ölkələrin radio və televiziyalarının proqramlarında Azərbaycan dilində mütəmadi olaraq verilişlər səslənir. Hazırda dünyanın müxtəlif ölkələrində yüzlərlə Azərbaycan Milli-mədəniyyət mərkəzi, cəmiyyət assossiasiyası fəaliyyət göstərir. Azərbaycanın Milli-mədəniyyət mərkəzləri çox işgüzar və intensiv fəaliyyət göstərərək kütləvi informasiya vasitələri ilə çıxışlar edib Azərbaycan həqiqətlərini Dünyaya çatdırırlar. Bu gün milyonlarla Azərbaycanlı dünyanın müxtəlif ölkələrində toplum halında yaşayır. Onlar bu ölkələrin ictimai-iqtisadi-siyasi həyatında fəal iştirak etməklə, elminin, mədəniyyətinin inkişafına töhfələr verməklə yanaşı, həm də Azərbaycan xalqının, millətimizin milli-mənəvi dəyərlərini, dilini özündə yaşadır, onun tarixi mədəniyyəti, mütərəqqi ənənələri ilə fəxr edir. Hər bir azərbaycanlı bilir ki, o, yaşadığı ölkənin layiqli vətəndaşı olmaqla yanaşı, həm də Azərbaycanı - onun mədəniyyətini, milli xüsusiyyətlərini təmsil edir. Bu gün Azərbaycanımız Avropa Şurasının üzvüdür. Ana diyarımız artıq öz fəaliyyət dairəsini xeyli genişləndirmişdir. Dünyaya ana dilimizin izahlı lüğəti ayaq açdı.

Hər bir siyasi lider, hər şeydən, öz milli reallıqlarının ideal məhsuludur, əgər sosial-siyasi kontekstdən yanaşsaq, öz ölkəsinin siyasi quruluşunun və siyasi mədəniyyətinin bilavasitə təsiri altında formalaşan şəxsiyyətdir. Daha geniş mənada yanaşılsa, hakimiyyətin konkret cəmiyyətdə şəxsiyyətləndirilməsi, yəni personofikasiyası sosial gerçəklikdə hakimiyyət funksiyaları ilə elektoratın münasibətlərini əlaqələndirməsi milli liderin fəaliyyəti sayəsində baş verir. [3, s.1]

"Kitabi-Dədə Qorqudun"un 1300 yaşını təntənə ilə qeyd edən xalqımız dünyaya bir daha kim olduğunu açıqladı. Oğul və qızlarımızın səyi nəticəsində Avropa Şurası 5 maddədən ibarət ən əsası isə Qarabağın statusunun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi barədə qətnamə qəbul etdi. Respublikamızda minilliklərin yadigarı olan İçəri şəhərin, Şirvanşahlar Sarayı və Qız qalasının adları 2000-ci ildə YUNESKO-nun Dünya mədəniyyəti inciləri siyahısına daxil edildi. Azərbaycan dünyada yaradılmış bütün elektron versiyası xətlərinə və internetə qoşulmuşdur.

Azərbaycan öz müstəqilliyi dövründə əsrin kontraktını bağlamış (1994-cü il) Bakı-Supsa neft kəmərini işə salmışdır. Dünyəvi əhəmiyyəti olan "İpək" yolunun çəkilişinə başlamışdır. Azərbaycan öz Milli strategiyası və konsepsiyasını həyata keçirməyə başlamış, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələr bağlayaraq, dünya iqtisadiyyatına qovuşmasını təmin etmişdir. Azərbaycanın təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası baş vermişdir. H.Əliyev siyasi kursu bu gün Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirib. Bu gün Azərbaycan dünya dövlətləri ilə

bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurub, onların bəziləri ilə strateji müttəfiqdir. Bu Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini daha da gücləndirir.

H.Əliyev dünyanın ən mötəbər tribunalarından dəfələrlə bəyan etmişdir ki, müstəqilliyini ikinci dəfə əldə etmiş Azərbaycan öz inkişafında bazar iqtisadiyyatı, demokratiya, hüquqi, dünyəvi dövləçilik, plüralizm, Avropaya inteqrasiya yolu ilə gedəcəkdir. Bu gün xalqımız milli müstəqillik yolunda mətin addımlar atmaqdadır. Artıq müstəqil Azərbaycan Respublikası dünya şöhrəti və etibarı qazanmaqdadır. Bu möhtəşəm uğurlar Ümummilli lider H.Əliyevin müdrik siyasətinin parlaq nəticələridir. O, müstəqil dövlətçiliyimizin sosial-siyasi mədəni amillərini, inkişaf istiqamətlərini ideoloji təminatını müəyyən etmişdir. [4, s.150-155]

Siyasətdə müdriklik, həyatda praqmatizm məktəbi, dövlət idarəçiliyində ustalıq - bu böyük siyasətin ana xəttini təşkil edir. Azərbaycan siyasətçiləri içərisində heç kimə bu qədər siyasət Olimpinin zirvəsində qalmaq və Vətəninə, xalqına xidmət etmək və heç kəsə ürəklərdə sağlığında özünə heykəl ucaltmaq da nəsib olmayıb. Heydər Əliyev özü şəxsiyyət kimi tarixi hadisədir. Tarix şəxsiyyəti yaradır, bu cür şəxsiyyətlər isə tarixi.

Azərbaycan xalqı və dövləti mövcud olduqca Heydər Əliyevin dövlətçilik irsinə daim müraciət ediləcək. Onun nurlu adı, Vətəni naminə gördüyü böyük işlər insanların yaddaşında əbədi yaşayacaqdır. Heydər Əliyevin duhası ilə tarixinin şanlı səhifələri yazılan Azərbaycanı işıqlı və daha qüdrətli sabahlar gözləyir. Çünki onun başladığı və uğurla həyata keçirdiyi siyasi kursu Heydər Əliyev məktəbinin layiqli davamçısı prezident İlham Əliyev uğurla reallaşdırır. Və 2020-ci ilin axırlarında torpaqlamızda gedən 44 günlük Vətən müharibəsində, 2023-cü il 19 sentyabrda 24 saat davam edən Azərbaycanın Müdafiə Nazirliyinin Anti-terror əməliyyatı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə təkcə Qarabağı deyil, Azərbaycan dövlətinin əzəməti və xalqın dövlətinə olan inamı geri qayıtdı.

Öz müdrik dövlətçilik siyasəti ilə yeni Azərbaycan tarixinin qurucusu olan Ulu öndər Heydər Əliyevin şəxsiyyətinə xalqımızın ehtiramı ölçüyəgəlməzdir və bu şəxsiyyətin parlaq və unudulmaz xatirəsi qədirbilən xalqımızın qəlbində həmişə yaşayacaq və onun dühası ölkəmizin gələcək inkişaf yollarını daima işıqlandıracaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Naxçıvanlı A. Heydər Əliyev: təhsil, bilik, məktəb. Bakı 2006, s.14
2. Əliyev Q.Ş. Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri. B. 1997, s.113-124
3. Рыбаков А.В. Политическое лидерство: теория и современная практика. Автограф. Канд. дисс. М.,М, 1996; с.1
4. İsayev N.M. Azərbaycan milli ideologiyasının formalaşmasında H.Əliyevin rolu. Sosial-siyasi problemlər toplusu. "Təbibi", 1998, s.150-155

QEYRİ-VERBAL ÜNSİYYƏTİN XÜSUSİYYƏTLƏRİ

Türkan Səyavuş qızı Ağayeva
dissertant
Gəncə Dövlət Universiteti
turkan.agayeva.92@mail.ru
http://orcid.org/0000-0002-4298-8673

Mimikamız, jestlərimiz, duruşumuz və səs tonumuz güclü ünsiyyət vasitələridir. Evdə və işdə daha yaxşı münasibətlər qurmaq üçün bədən dilini necə oxumaq və istifadə etmək olar? Bədən dili qeyri-şifahi ünsiyyət üçün fiziki davranış, ifadə və davranışlardan istifadədir, çox vaxt şüurlu deyil,

instinktiv şəkildə edilir. Bunun fərqində olub-olmamağımızdan asılı olmayaraq, başqaları ilə ünsiyyət qurarkən, davamlı olaraq sözsüz siqnallar verir və qəbul edirik. Bütün qeyri- verbal davranışlarıız - etdiyimiz jestlər, duruşumuz, səs tonumuz, nə qədər göz təması qurduğumuz - güclü mesajlar göndərir. Onlar insanları rahatlaşdıra, inam yarada və başqalarını sizə tərəf çəkə bilər və ya onları incidə, çaşdıra bilərlər. Biz danışmağı dayandırdığımız zaman da bu mesajlar dayanmır, susduğumuzda da hələ də qeyri-verbal ünsiyyət qururuq.

Bəzi hallarda ağzımızdan çıxan və bədən dilimizlə danışdığımız iki şey tamamilə fərqli ola bilər. Bir şey deyiriksə, ancaq bədən dilimiz başqa bir şey deyirsə, dinləyicimiz çox güman ki, qeyri-səmimi olduğumuzu hiss edəcək. Bu cür qarışıq siqnallarla qarşılaşdıqda dinləyici ya verbal, ya da qeyri-verbal mesajımıza inanmağı seçməlidir. Bədən dili sizin həqiqi hisslərinizi və niyyətlərinizi yayımlayan təbii, şüursuz bir dil olduğundan, onlar çox güman ki, qeyri-verbal mesajı seçəcəklər.

Bununla belə, qeyri-verbal ünsiyyəti başa düşməyimizi və istifadə etməyimizi təkmilləş-dirməklə, həqiqətən nə demək istədiyimizi ifadə edə, başqaları ilə daha yaxşı əlaqə saxlaya və daha güclü, daha faydalı əlaqələr qura bilərik. [3]

Qeyri-verbal ünsiyyət siqnallarımız - dinlədiyimiz, baxdığımız, hərəkət etdiyimiz və reaksiya verdiyimiz şəkildə - ünsiyyət qurduğumuz insana əhəmiyyət verib-vermədiyimizi, doğru danışdığımızı və nə qədər yaxşı dinlədiyimizi göstərir. Qeyri-verbal ünsiyyət siqnalları dediyimiz sözlərlə üst-üstə düşdükdə etibar, aydınlıq və əlaqəni artırır. Əks halda, onlar gərginlik, inamsızlıq və çaşqınlıq yarada bilər. Daha yaxşı ünsiyyətçi olmaq istəyirsinizsə, təkcə başqalarının bədən dilinə və qeyri-vebal işarələrə deyil, həm də özünüzə qarşı daha həssas olmaq vacibdir. [6]

Qeyri-verbal ünsiyyətin beş rolu ayırd edilir:

1. Təkrar: Şifahi olaraq verdiyimiz mesajı təkrarlayır və tez-tez gücləndirir.

2. Ziddiyyət: Bu, çatdırmağa çalışdığımız mesajla ziddiyyət təşkil edə bilər, beləliklə, dinləyicimizə həqiqəti söyləmədiyimizi göstərir.

3. Əvəzetmə: Şifahi mesajı əvəz edə bilər. Məsələn, üz ifadəmiz tez-tez sözlərdən daha parlaq bir mesaj verir.

4. Tamamlayıcı: Şifahi mesajımızı əlavə edə və ya tamamlaya bilər. Məsələn, bir müdir olaraq, tərif etməklə yanaşı, bir işçinin kürəyinə vursanız, mesajınızın təsirini artıra bilər.

5. Vurğu: Şifahi mesajı vurğulaya bilər. Məsələn, masanı döymək mesajınızın əhəmiyyətini vurğulaya bilər.

Qeyri-vebral ünsiyyət və ya bədən dilinin növlərinə aşağıdakılar daxildir:

Üz ifadələri. İnsan siması son dərəcə ifadəlidir, bir söz demədən saysız-hesabsız duyğuları çatdıra bilir. Qeyri-verbal ünsiyyətin bəzi formalarından fərqli olaraq, üz ifadələri universaldır. Xoşbəxtlik, kədər, qəzəb, təəccüb, qorxu və ikrah üçün üz ifadələri mədəniyyətlər arasında eynidir.

Bədən hərəkəti və duruş. İnsanların oturuşu, yeriməsi, durması və ya başını tutma şəkli başqalarının onlarla bağlı təsəvvürlərinə böyük təsir göstərir. Hərəkət etməyimiz və özümüzü necə aparmağımız dünyaya çoxlu məlumat ötürür. Bu tip qeyri-verbal ünsiyyətə duruşumuz, etdiyimiz incə hərəkətlər daxildir.

Jestlər. Mübahisə edərkən və ya danışarkən əllərinizi yelləyə, işarə edə bilərsiniz. Bununla belə, bəzi jestlərin mənası müxtəlif mədəniyyətlərdə çox fərqli ola bilər. Məsələn, əl ilə edilən "OK" işarəsi adətən ingilisdilli ölkələrdə müsbət mesaj ötürsə də, Almaniya, Rusiya və Braziliya kimi ölkələrdə bu, təhqiramiz hesab olunur. Beləliklə, yanlış anlaşılmadan çəkinmək üçün jestlərdən necə istifadə etdiyimizə diqqət yetirmək vacibdir.

Göz kontaktı. Vizual duyğu əksər insanlar üçün üstünlük təşkil etdiyindən, göz təması qeyri-verbal ünsiyyətin xüsusilə vacib növüdür. Kiməsə baxmağınız bir çox şeyi, o cümlədən maraq, sevgi, düşmənçilik və ya cazibəni ifadə edə bilər. Göz təması həm də söhbətin gedişatını saxlamaq və digər insanın maraq və reaksiyasını ölçmək üçün vacibdir. [8]

Toxunuş. Toxunma vasitəsi ilə çox ünsiyyət qururuq. Məsələn, zəif əl sıxma, qucaqlama, başı sığallamaq və ya qolu tutmağın da mehribançılıq, dostluq mesajı verdiyi hər birimizə məlumdur.

Səs. Yalnız nə dediyimiz deyil, necə dediyimiz də vacibdir. Biz danışdığımız zaman başqa insanlar sözlərimizi dinləməklə yanaşı, səsimizi də "oxuyurlar". Onların diqqət yetirdikləri şeylərə vaxtımız və tempimiz, nə qədər yüksək səslə danışdığımız, tonumuz və fleksiyonumuz, "ahh" və "uh-huh" kimi anlayışı çatdıran səslər daxildir. Səs tonumuz sarkazm, qəzəb, sevgi və ya özünə inamı göstərir.

Bədən dilini öz xeyrimizə istifadə etmək üçün məsləhətlər verən bir çox kitab və vebsayt var. Məsələn, inamlı görünmək və ya üstünlüyünü təsdiqləmək üçün bizə müəyyən bir şəkildə necə oturmaq, barmaqlarımızı bükmək və ya əl sıxmaq barədə göstəriş verə bilərlər. Ancaq həqiqət budur ki, bu cür fəndlərin işə yarama ehtimalı yoxdur (əgər siz həqiqətən inamlı və məsuliyyətli hiss etməsəniz). Bunun səbəbi odur ki, həqiqətən düşündüyümüz və hiss etdiyimiz şeylər haqqında daim göndərdiyimiz siqnalların hamısını idarə edə bilmirik.

Bununla belə, bu o demək deyil ki, qeyri-verbal işarələrimizə nəzarət edə bilmərik. Məsələn, kiminsə dedikləri ilə razı deyilsinizsə və ya bəyənməsəniz, qollarınızı çarpazlaşdırmaq, göz təmasından qaçmaq və ya ayaqlarınıza toxunmaq kimi mənfi bədən dilindən istifadə edə bilərsiniz.

Bədən dilimiz və qeyri-verbal siqnallar vasitəsilə ünsiyyət qurmağımız başqalarının bizi necə gördüyünə, bizi nə qədər bəyənib hörmət etdiklərinə və bizə etibar edib etməmələrinə təsir göstərir.

Effektiv ünsiyyət qurmaq, anlaşılmazlıqlardan qaçmaq və həm sosial, həm də peşəkar baxımdan möhkəm, etibarlı münasibətlərdən həzz almaq istəyirsinizsə, bədən dilindən necə istifadə etməyi və şərh etməyi başa düşmək və şifahi olmayan ünsiyyət bacarıqlarınızı inkişaf etdirmək vacibdir.

Stress ünsiyyət qabiliyyətini pozur. Stressli olduğu zaman, insanların digər insanları səhv başa düçmək, çaşdırıcı və ya qeyri-verbal siqnallar göndərmək ehtimalı daha yüksəkdir. Əgər bir insan əsəbidirsə, bu, çox güman ki, başqalarını əsəbləşdirəcək və beləliklə, pis vəziyyəti daha da pisləşdirəcək.

Bu cür halları dəf etmək və stressdən uzaqlaşmaq üçün, sevdiyimiz uşağın fotosuna baxmaqla, sevimli qoxunu iyləməklə, müəyyən musiqiyə qulaq asmaqla və ya stress topunu sıxmaqla, tez bir zamanda istirahət edə və diqqətimizi cəmləyə bilərik.

Stressi idarə etmək və emosiyaları tanımaq bacarıqlarımızı inkişaf etdirdikdən sonra başqaları tərəfindən göndərilən qeyri-verbal siqnalları daha yaxşı oxumağa başlayacağıq.

Nəticə

Bu işi araşdırarkən aşağıdakı nəticələrə gələ bilərik:

1. Üz ifadələrimiz, jestlərimiz, duruşumuz və səs tonumuz güclü ünsiyyət vasitələridir.

2. Qeyri-verbal ünsiyyət işarələrimiz – dinlədiyimiz, baxdığımız, hərəkət etdiyimiz və reaksiya verdiyimiz üsul – ünsiyyətdə olduğumuz insana əhəmiyyət verib-vermədiyimizi, doğru danışdığımızı və nə qədər yaxşı dinlədiyimizi bildirir.

3. Göz təması həm də söhbətin gedişatını saxlamaqda və digər insanın maraq və reaksiyasını ölçmək üçün vacibdir. [9]

İstifadə edilmiş ədəbiyyat

1. Бахтин М.М. Эстетика словесного творчества. — М.: Художественная литература, 1979. - 341 с.

2. Буева Л.П. Человек: деятельность и общение. - М.: Мысль, 1978. - 216 с.

3. Крюков Р.В. Версии смысла философской категории «Общение» // Идеи и идеалы. 2014. № 4 (22). Т. 2. С. 48-52

4. Крюков В.В. Общение как субстанция личности // Личность в диалоге: сборник научных трудов по материалам Международной научно-практической конференции (г.

Хабаровск, 17-18 февраля 2009 г.); под ред. Е.Н. Ткач. — Хабаровск: Изд-во ДВГГУ, 2009. — 372 с.

5. Майданский А.Д. Общение: опыт логико-семантического анализа. Человек в пространстве образования. — Таганрог, 2003. — С. 72—78.

6. Маклюэн М. Осмысляя средства коммуникации: новые измерения человека (Выдержки из книги Understanding Media: the Extensions of Man. N.Y, 1964) // Искусство кино. 1994. — № 2. — С. 67—74.

7. Резаев А.В. Homo philosophians. Сборник к 60-летию профессора К.А. Сергеева. Серия «Мыслители», выпуск 12. - СПб.: Санкт-Петербургское философское общество, 2002. - С. 375-395.

8. Barnes S.B. Computer-Mediated Communication: Human-to-Human Communication Across the Internet. Boston, MA:Allyn & Bacon, 2002. 347 p.

9. Карасик В.И. Этнокультурные типы институционального дискурса // Этнокультурная специфика речевой деятельности: Сб. обзоров. М.: ИНИОН РАН, 2000. С. 37 - 64

10. https://www.studysmarter.co.uk/explanations/business-studies/organizational-communication/oral-communication/

11. https://www.indeed.com/career-advice/career-development/nonverbal-communication-skills

12. https://www.verywellmind.com/types-of-nonverbal-communication-

MƏRKƏZİ ASİYA VƏ QAFQAZ REGİONUNDA QONŞU DÖVLƏTLƏRİN GEOSİYASİ MARAQLARI HAQQINDA

Mətanət Rizvan qızı Yusifova
Mingəçevir Dövlət Universiteti
matanat.yusifova@mdu.edu.az
http://orcid.org/0000-0002-6000-4340

Giriş

SSRİ-nin dağılması və onun yerində beş müstəqil türk dövlətinin yaranması ilə Türkiyə, Rusiya və İran kimi böyük dövlətlər Qafqazda, eləcə də Mərkəzi Asiyada öz təsir dairələrini genişləndirməyə çalışdılar və bu ölkələrin siyasi-ideoloji konsepsiyaları arasında rəqabət başladı. XX əsrin son rübündə baş vermiş bu qlobal hadisə Türkiyədə böyük sevinclə qarşılandı və türklərin Türkiyə himayəsi altında birləşdirilməsi məsələsi gündəmə gətirildi. Türkiyə Qafqazda və Mərkəzi Asiyada siyasi, iqtisadi və mədəni mövcudluğunu inkişaf etdirmək üçün yeni imkanlar qazandı. Türkiyə Cümhuriyyəti İran İslam Respublikasından (İİR) qaynaqlanan islam fundamentalizminə qarşı çıxmaq üçün öz inkişaf modelini Mərkəzi Asiya ölkələrinə tətbiq etməyə çalışır, demokratiya və bazar iqtisadiyyatının inkişafı sahəsində əldə etdiyi təcrübəni Azərbaycanla, eləcə də Mərkəzi Asiya ölkələri ilə bölüşməyi planlaşdırırdı. Öz növbəsində Rusiya da sovet dövrünün bu böyük regionda yaratdığı "sistem"in tamamilə dağılmasının qarşısını almaq üçün siyasi-ideoloji mübarizəsini davam etdirirdi.

Bəzi politoloqlar dünya geosiyasi sisteminin mərkəzinin Avrasiya olduğunu, digərləri isə bütün geosiyasi proseslərin mərkəzində Rusiyanın durduğunu və buna görə də beynəlxalq münasibətlər sistemində xüsusi diqqətə layiq olduğunu iddia edirlər. Dünya səhnəsində Mərkəzi Asiyanın da müəyyən yeri vardır və "böyük oyun" bu region üçün bir platformadır. Hazırda regiona daha çox iqtisadi təsir göstərən "böyük oyun"un iştirakçılarından biri Çindir. Digər iştirakçı Xəzər

dənizinə çıxışı olan və buna görə də hövzənin təbii sərvətlərini istismar etmək hüququna malik olan İrandır ki, o da enerji bərabərliyində iştirak etməklə yanaşı, həm də ərazidəki siyasi proseslərə əhəmiyyətli dərəcədə təsir göstərir (xüsusən də Tacikistana). Bu regionda SSRİ ilə müqayisədə təsirini itirmiş Rusiya bəzi obyektiv amillərə görə hələ də əsas oyunçu olaraq qalır: region ölkələrində baş verən siyasi proseslərdə Rusiyanın təsirini də, digər tərəfdən, bu təsirin davamlı olmasında regiondakı rusların da mühüm rolu danılmaz faktdır. Bütün bunlara görə bölgə Rusiyanın tarixi təsir dairəsi hesab olunur. Və nəhayət, "böyük oyunun" növbəti iştirakçısı Türkiyə hesab edilir. Belə ki, Ərdoğanın yeni xarici siyasəti və beynəlxalq münasibətlərdə daha fəal rol oynaması bu məsələni bir az da aktuallaşdırır.

XX əsrin axırlarında İran öz növbəsində SSRİ-nin dağılmasına son dərəcə mənfi münasibət bəslədiyini gizlətmirdi və düşmən kimi qəbul etdiyi ABŞ, İsrail, Türkiyə, Əfqanıstan, Səudiyyə Ərəbistanı və onun himayə etdiyi radikal sünni hərəkatlarının da bu fikirdə olduqlarına inandığını bildirirdi. İranın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrini inkişaf etdirməkdə əsas məqsədi İran ərazisindən Fars körfəzinə neft və qaz kəmərləri çəkmək və bu ölkələrdən neft, qaz almaq idi. Lakin onun bu iddiaları Xəzər dənizi vasitəsilə "enerji dəhlizləri"nin tikintisinə üstünlük verən ABŞ və Türkiyə kimi ölkələrin maraqlarına zidd idi.

1997-ci ilin dekabrında Türkiyə Türkmənistanla transxəzər qaz kəməri layihəsinin həyata keçirilməsinə dair memorandum imzaladı. 1999-cu ilin mayında əlavə olaraq Ankara və Aşqabad arasında 30 il müddətinə Transxəzər marşrutu ilə Türkiyəyə ildə 16 milyard kubmetr Türkmənistan qazının tədarükü haqqında çərçivə sazişi də qəbul edildi. Lakin layihənin həyata keçirilməsinə onun baha başa gəlməsi haqqında fikirlər, digər tərəfdən, Azərbaycanla Türkmənistan arasında Xəzərdəki Sərdar (Kəpəz) yatağının mülkiyyəti ilə bağlı mübahisə və Bakıdan Aşqabadın qaz kəmərinə əlli faizlik kvotanın ayrılması ilə bağlı tələb mane oldu.

Türkiyəyə gəldikdə, bəzi politoloqlar hesab edirlər ki, bu dövlətin əsas məqsədi Azərbaycandan və Mərkəzi Asiya dövlətlərindən ucuz neft və qaz almaq istəyi deyil. Türkiyə həm də Qafqazda Rusiya və İrandan daha çox geosiyasi və strateji üstünlük əldə etmək istəyir. Belə bir üstünlüyə malik olmaq perspektivdə bölgədən keçən ticarət və nəqliyyat yollarına nəzarət etməyə imkan verə bilər ki, bu da onun bu regionda şəksiz hökmranlığını təmin edər. Yəni hazırda görünən odur ki, İranın bütün səylərinə baxmayaraq, Sovet İttifaqının dağılmasından sonra demək olar ki, bütün Orta Asiya respublikaları, eləcə də Azərbaycan son nəticədə Türkiyə inkişaf modelini seçdi.

Şübhəsiz, bu, çətin seçim idi. Müstəqilliyin ilk illərində Azərbaycanda, Özbəkistanda, Qazaxıstanda və xüsusən də Tacikistanda islamyönümlü hərəkatlar xeyli fəallaşmışdılar. Azərbaycan İslam Partiyası, Özbəkistan İslam Hərəkatı, Tacikistan İslam İntibah Partiyası və s. öz dövlətlərinin və xalqlarının həyatının bütün sahələrini islamlaşdırmaq zərurətindən çıxış edirdilər (islamı dövlət dini səviyyəsinə qaldırmaq, qanunvericiliyi islamlaşdırılmaq, məhkəmə icraatı, təhsil və s.). Yəni, İran öz siyasətində Orta Asiya respublikalarının və Azərbaycanın islami və mədəni-tarixi keçmişini, Türkiyə isə onların ortaq türk mənşəyini vurğulayırdı- eyni zamanda Türkiyə keçmiş SSRİ-nin bütün türk respublikaları ilə iqtisadi və siyasi siyasətdə yaxınlaşmağa çalışırdı [5, s.37].

Türkiyə bu regionda özəl biznes sahəsini də inkişaf etdirirdi. O dövrdə Orta Asiya ölkələrinin liderləri Türkiyənin "böyük qardaş" rolunu oynamaq istəyindən getdikcə narahat olmağa başlayırdı. Türkiyə bu respublikaların maraqlarını xaricdə təmsil edə biləcəyini vurğulayırdı. Buna baxmayaraq, müstəqillik qazanmış türk dövlətləri öz milli kimliklərini inkişaf etdirməyə və gücləndirməyə çalışırdılar.

1992-ci ilin fevralında Davosda keçirilən Dünya İqtisadi Forumunda Türkiyənin baş naziri S.Dəmirəlin "Adriatikdən Çin səddinə qədər böyük bir türk dünyası yarandı" fikrini dilə gətirməsi, üstəlik, tez-tez səsləndirilən "XXI əsr türklərin əsri olacaq" deyimi Rusiyanı və İranı narahat etməyə bilməzdi. O dövrdən etibarən həm yerli, həm də beynəlxalq mətbuatda, eləcə də kütləvi informasiya vasitələrində Türkiyənin pantürkizm siyasəti yeritməsi haqqında fikirlər artmağa başladı [6, 91]. Lakin 1990-cı illərin ortalarına qədər bu dövlətin türk dünyasında siyasi-iqtisadi

lider olması imkanı məhdud idi. "Böyük Turan" layihəsi də beynəlxalq reallıqlarla uzlaşmırdı. Digər tərəfdən 1994, 2000 və 2001-ci illərin maliyyə böhranları Türkiyə iqtisadiyyatı üçün ciddi sarsıntıya çevrildi ki, bu da "fəal xarici siyasəti reallaşdırmaq üçün əhəmiyyətli maddi xərclərə ehtiyac olduğunu" bir daha aşkara çıxardı. Eyni zamanda Çinin Avrasiya məkanında artan rolu və Rusiyanın keçmiş sovet məkanında sarsılmış mövqeyini dirçəltmək istəyinin artması, Türkiyənin isə bunların fonunda texnoloji cəhətdən zəifliyi, resurs çatışmazlığı və s. onun türk dövlətlərinin iqtisadi inkişafında həlledici rol oynaya bilməyəcəyini göstərirdi [8, s.80].

Doğrudur, İranın Mərkəzi Asiya ölkələrindəki siyasəti də böyük uğur qazanmadı. XXI əsrin ilk onilliyində Tacikistan və Türkmənistanla, eləcə də Ermənistanla (Türkiyədən fərqli olaraq) müəyyən yaxınlaşma müşahidə edildi [6]. İran-Qazaxıstan münasibətləri kifayət qədər sabit inkişaf etsə də [7], Özbəkistan-İran münasibətləri müəyyən dərəcədə gərgin idi. Nəticədə Türkiyə və İranın Mərkəzi Asiya və Qafqaz regionlarında həyata keçirdiyi siyasət iki regional güc arasında geosiyasi mübarizənin klassik nümunəsi sayıla bilər. Nəzərə alınmalıdır ki, İranın Mərkəzi Asiya ölkələri ilə siyasi və iqtisadi inteqrasiyasına mane olan əsas amillərdən biri ABŞ və İsrailin regiondakı proseslərə təsirinin nəticəsi idi.

Politoloq K.S. Hacıyevin fikrincə, Türkiyə və İranın Qafqazda və Orta Asiyada rəqabət aparması təbii hadisədir [3,189]. Təsadüfi deyil ki, 2006-cı ilin payızında Antalyada keçirilən türkdilli dövlətlərin 8-ci Zirvə toplantısının qəbul etdiyi Birgə bəyannamədə Əfqanıstan, İraq, Fələstin və Livandakı vəziyyətlə bağlı, Kipr və Qarabağ problemlərinin həllində türk dövlətlərinin ümumi siyasətinin işlənib hazırlanmasına çağırış qətnamələrinə yer verildi. Bundan əlavə, sammitdə iştirak edən ölkələr bu cür xarici imkanların əldə edilməsində bir-birini dəstəkləməyə söz verdilər.

2011-ci ildə Almatıda baş tutmuş Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının (TDƏŞ) Zirvə toplantısında beynəlxalq və regional səviyyədə əməkdaşlığın aktual məsələləri, o cümlədən türkdilli ölkələr arasında ticarət-iqtisadi, mədəni-humanitar əlaqələrin gücləndirilməsi məsələləri müzakirə olundu. Tərəflər arasında Türkdilli Dövlətlərin İşgüzar Şurasının yaradılması haqqında saziş imzalandı ki, bu da türkdilli dövlətlərin inteqrasiyası istiqamətində daha bir addım oldu. Mövcud gömrük maneələrinin aradan qaldırılması və əməkdaşlıq üçün yeni layihələrin hazırlanması Şuranın əsas vəzifəsi elan olundu və qeyd edildi ki, Türk Şurası regional birlikdir və məqsədi türk xalqlarının birliyini gücləndirməkdir.

Uzun müddətdir ki, Türkiyə Transqafqaz siyasətində Azərbaycanın mövqeyini qeyd-şərtsiz dəstəkləyir. Bu dəstəyi ölkələr arasında tarixi, etnik, mədəni, dil və dini komponentlərin yaxınlığı şərtləndirir. Rusiya isə əksinə, Azərbaycanla qonşuluq münasibətləri saxlamaqla yanaşı, Qafqazda forpostu-müttəfiqi sayılan Ermənistanın tərəfində yer alır. 2020-ci ilə qədər Qarabağ münaqişəsinin həlli ilə bağlı yaranmış geosiyasi vəziyyətdə Rusiya, ya problemin diplomatik, qeyri-hərbi yolla həllinin, ya da dondurulmasının tərəfdarı olmuşdur. Türkiyə tərəfi də Dağlıq Qarabağ münaqişəsinin həllinin yalnız sülh yolu ilə mümkünlüyünü dəstəkləyirdi.

2011-ci ilin fevralında Rusiya və Türkiyə Qarabağ münaqişəsinin həlli ilə bağlı məsləhətləşmələr apararaq (Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin və Türkiyə xarici işlər nazirinin birinci müavini F.Sinirlioğlu) bütövlükdə Qafqazdakı vəziyyəti və bir sıra beynəlxalq və regional məsələləri müzakirə etdilər [4]. Nəticədə etiraf olundu ki, Qafqaz regionu həm Türkiyə, həm də Rusiya üçün strateji əhəmiyyət daşıyır. Türkiyənin, eləcə də Qafqazın maraqlarının Rusiyanın maraqları ilə sıx təmasda olduğu Mərkəzi Asiya dövlətləri ilə bağlı siyasət indiki hakim Ədalət və İnkişaf Partiyasının Proqramında da kifayət qədər aydın təsvir olunmuşdur. Maraqlıdır ki, bu Proqramda Türkiyənin 1990-cı illərdəki siyasəti tənqid olunur: "Orta Asiyanın türk respublikaları ilə tarixi, mədəni və sosial yaxınlığımıza baxmayaraq, Türkiyə bu ölkələrlə münasibətlərdə mövcud gözləntiləri qarşılaya bilmir. SSRİ-nin dağılmasından sonra türk respublikaları, Mərkəzi Asiya ictimaiyyəti iqtisadi problemlərin həllində və yeni müstəqil ölkələrin dövlət quruculuğunda Türkiyənin köməyinə böyük ümid bəsləyirdi. Amma o zaman Türkiyənin bu məsələləri həll etmək üçün lazımi resursları və siyasi iradəsi yox idi. Hazırda AKP bölgəni geniş

əməkdaşlıq zonasına çevirmək üçün bütün səylərini əsirgəmədən, Türk Cümhuriyyətləri ilə əlaqələri ən yüksək səviyyəyə qaldırmaq üzrədir" [2].

Rusiya, Çin, İran, Bolqarıstan, Yunanıstan və Əfqanıstanda xeyli sayda türk azlıqları var və onlar türklərin birləşməsi istiqamətində istənilən hərəkəti öz ərazi bütövlüyünə təhlükə kimi qiymətləndirəcəklər, bunun əsas səbəbi "pantürkizm" ideyasıdır ki, bu da türk dünyasını əhatə edən bütün ölkələrin düşmənçiliyi ilə qarşılaşır.

Bundan başqa, 1990-cı illərdə Dağlıq Qarabağda baş vermiş qanlı Ermənistan-Azərbaycan müharibəsi Türkiyə və Rusiyanın Qafqaza olan iddiası çərçivəsində ən ciddi qarşılıqlı ittiham və açıq tənqid mənbəyinə çevrildi. Qeyd olunmalıdır ki, bu münaqişə Rusiya və Gürcüstanın maraqlarına birbaşa toxundu. Eləcə də Türkiyə, İran həm geosiyasi səbəblərə görə, həm də zəngin enerji potensialı ilə Xəzər dənizinin bilavasitə yaxınlığında olduğu üçün Qərb dövlətlərinin diqqətini cəlb edirdi. Bu münaqişənin özəlliyi ondadır ki, 2020-ci ildə baş vermiş 44 günlük müharibədən sonra da Moskvanın mühüm hərbi-siyasi tərəfdaşı olan Azərbaycanla Ermənistan arasında münasibətlərin yenidən qurulmasına mane olur.

Adları çəkilən və bir-biri ilə rəqabət aparan böyük dövlətlər Aralıq dənizinin şərqində də Qafqazda və Orta Asiya regionundakı siyasətlərini davam etdirməyə çalışırlar. Məsələn, Rusiyanın Şərqi Aralıq dənizinə marağına baxaq: 2022-ci ilin iyulunda Rusiya Federasiyasının Dəniz Doktrinası qəbul edildi - Aralıq dənizinin şərq hissəsinin Rusiyanın milli maraqlarının, milli təhlükəsizliyinin təmin edilməsində, eləcə də strateji və regional təhlükəsizliyinin qorunmasında əhəmiyyəti vurğulandı. Sənəddə bildirilir ki, bu region da ölkənin iqtisadi inkişafına böyük təsir göstərir. Hazırda Rusiyanın xarici siyasətində çətin transformasiya dövrü başlamışdır: Rusiya-Ukrayna münaqişəsi kontekstində Şərqi Aralıq dənizi ölkələrinin regional siyasətinin sistematik şəkildə dərk edilməsinə ehtiyac artır.

Qeyd etmək lazımdır ki, Şərqi Aralıq dənizinin bir səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, burada müxtəlif ölkələrdən olan müsəlmanların regional birlikləri mövcuddur və onlar regionda nüfuz sahibi ola bilirlər [7].

Bu regionda əsas münaqişə problemi Kipr məsələsidir. Problem Türkiyə və Yunanıstan arasındakı ziddiyyətlərin ikitərəfli münasibətlər çərçivəsindən kənara çıxmasıdır. Tədqiqatçıların fikrincə, belə şəraitdə iki ölkə arasında dialoq davam etdirilməlidir.

İranın Şərqi Aralıq dənizindəki siyasətinin əsasında bölgənin Türkiyə və Səudiyyə Ərəbistanı ilə potensial və ya real maraqların toqquşduğu zona olması qəbul edilir. Tehran regional siyasətin Avropa istiqamətinə xüsusi diqqət yetirir. Çox güman ki, nüvə sazişinin bərpası regionda İranın Şərqi Aralıq dənizinin Avropa ölkələri ilə ikitərəfli münasibətlərini yaxşılaşdıra bilər.

Maraqlıdır ki, Şərqi Aralıq dənizi ABŞ üçün də əhəmiyyətlidir, belə ki, Rusiya və Çinlə rəqabət, beynəlxalq terrorizmlə mübarizə, Amerika biznesinə dəstək (xüsusilə enerji istehsalı sahəsində) nöqteyi nəzərindən ABŞ-dakı müttəfiqlərlə tərəfdaşlıq əlaqələrinin inkişafı prioritet sayılır [1].

Nəticə

Yekun olaraq qeyd etmək lazımdır ki, Mərkəzi Asiya və Qafqaz regionlarında Türkiyə, Rusiya, İran arasında geosiyasi qarşıdurma hələ də davam edir, lakin 1990-cı illərdən fərqli olaraq, hazırda bu qarşıdurma bariz xarakter daşımır. Bu prosesin gecikməsi, bir tərəfdən, ölkələr arasında təsir dairələrinin bölünməsinin sona çatması ilə, digər tərəfdən isə Ankara, Moskva və Tehran arasında müasir ikitərəfli və çoxtərəfli münasibətlərin özəllikləri ilə bağlıdır.

Ədəbiyyat siyahısı

1. Аксенёнок А. Фактор США на Ближнем Востоке в новых условиях. https:russiancouncil.ru

2. Adalet ve Kalkınma Partisi Programı. Bölüm 6: Dış politikası // http://www.akparti.org.tr/parti

3. Гаджиев К.С. Введение в геополитику. М.: Логос. 2000

4. Гурьев А.А. Ситуация в Турции: февраль 2011 г. // http://www.iimes.ru/rus/stat/2011

5. Дружиловский С.Б., Хуторская В.В. Политика Турции и Ирана в Центральной Азии и Закавказье // Иран и СНГ. Сборник статей. ИИИБВ. М., 2003

6. Колобов О.А., Корнилов А.А., Озбай Ф. Современные турецко-российские отношения: проблемы сотрудничества и перспективы развития. — Нижний Новгород; Стамбул: ИСИ ННГУ, 2004. — С. 91.

7. Кортунов А.В. «Борьба за Восточное Средиземноморье: интересы и амбиции». Институт мировой экономики и международных отношений (ИМЭМО) им. Е.М. Примакова РАН

8. Пылев А.И. Взаимоотношения Турции и тюркского мира СНГ// Вестник Пермского университета. 2009. Выпуск 4 (8)

THE CHALLENGES OF STUDENT-CENTERED LEARNING IN HIGHER EDUCATION

Sanan Mehdi
Mingachevir State University
sanan.mehdi@mdu.edu.az
http://orcid.org/0000-0002-7966-0479

Leading of the education system of higher education is a vital part of education activity. So student-centered or lecturer-centered education became a serious issue for the decades.

Kember (1997) demonstrated two orientations in teaching: the teacher-centered/content-oriented conception and the student-centered/learning-oriented conception. In so beneficial deterioration of these orientations, Kember supports many other authors' approaches to the student–centered views including that knowledge are constructed by students and that the lecturer is a facilitator of learning rather than a presenter of information. [1]

Mauri Marin-Garcia (2008) ensures a forcing description of a lecture conducted within the model of traditional teaching. Teachers were demanded to present the materials and estimate the students over a written test of some type. Depending on the subject's nature and constraints, a practical component would be added to the syllabus. [2]

According to Brandes and Ginnis (1986), some main principles of student-centered learning are:

a) The learners have full responsibility for their learning.
b) Involvement and participation are important for learning.
c) The relationship between learners is more equal, enhancing growth, and development
d) The teacher becomes a facilitator and resource person
e) The learner experiences intervention in his education
f) The learner himself differently as a result of the learning experience. [3]

Characteristics of Student-Centred

Sreelakshmamma mentions according to Weimer and Maryellen, there are five characteristics of student-centered teaching.

- student-centered teaching dealing with students in the hard, messy work of learning.
- student-centered teaching includes explicit skill instruction.

- student-centered teaching motivates students to reflect on what they are learning and how they are learning it.
- student-centered teaching motivates students by giving them some control over the learning processes.
- student-centered teaching encourages collaboration. [4]

For Weimer and Maryellen, there are five features of student-centered teaching.

1. Student-centered teaching busies with students in the difficult, messy work of learning.
2. Student-centered teaching includes clear skill instruction.
3. Student-centered teaching helps students to reflect on what they are learning and how they are learning it.
4. Student-centered teaching encourages students by giving them some control over learning processes.
5. Student-centered teaching motivates collaboration [5].

According to Weimer (2002), five practices need to be altered to enhance learning and teaching:

- The functions of content
- The role of the teacher
- The responsibility for learning
- The processes and purposes of evaluation
- The balance of power. [6]

School administrators need to contribute to student-centered management and ensure training and capability to their teachers as teachers and their students will have higher results and luck. As classrooms are different and have students of all learning styles and learning needs, teachers need to realize individualized student-centered classroom management techniques to ensure all students will be lucky in their learning. Teacher-centered classroom management, such as utilizing classroom-wide behavior management systems or following scripted lessons are not effective ways to meet the needs of individual students. [5, pp.3-4]

One student–centered approach to curriculum design, Problem–Based Learning (PBL), lets for some alternatives within a program of spheres that students can study. It lets students to set some of their learning objectives/outcomes, dependent on prior knowledge. Problem-based learning, through the use of problems/issues/triggers, motivates the students to improve their own learning targets, thereby filling in the gaps in their knowledge or understanding. [7]

The instructors are also concerned about using the SCL views in online teaching due to online assessment, compatibility, and teaching style. They were most worried about how to teach laboratories or practical classes online so many agreed that certain topics cannot be taught online. [8]

Students' reluctance to take responsibility for conducting projects; and activities in the classroom and outside the classroom. Preparing for classes requires more teachers' time. [9]

To adapt the teaching methodology and to enhance the workgroup methodology, lecturers need to be motivated and some of their needs must be covered. Some of these necessities are the need for training in working groups and reducing their insecurity in their capacity and their knowledge about these techniques. [2, 7]

Student–centered learning, instead of its popularity, is not without its critics. The important critique of student–centered learning is its focus on the individual learner. Additionally, there are some problems in its realization, i.e. the resources needed to implement it, the thought system of the students and staff, and students' lack of familiarity with the term.

As **a result,** we would like to mention that the need for active learners who have acquired the skills of problem-solving, critical and independent thinking, also the ability to work cooperatively

must be the main part of learning in higher education, and these issues are increased in student-centered education.

References

1. Kember, D., (1997). A Reconceptualisation of the Research into University Academics' Conceptions of Teaching, Elsevier Science Ltd.

2. Mauri, J. L., Marin-Garcia, J, A., (2008). Comparing Novel and Stable Lecturers' Point of View when they Use University Students Working Groups in Their Classrooms.

3. Brandes, D., & Ginnis, P. (1986). A Guide to Student-centered Learning. Black Well.

4. Sreelakshmamma K., (2020). Challenges of Student-Centered Learning – A Note, Research Journal of English Language and Literature (RJELAL).

5. Kumar, M.K., (2016). Challenges of Implementing Student-centered Strategies in Classrooms, International Research Journal of Engineering and Technology (IRJET).

6. Weimer, M. (2002). Learner-Centred Teaching: Five Key Changes to Practice. San Francisco, CA: Jossey-Bass.

7. O'Neill G., McMahon T. Student–Centred Learning: What does it mean for students and lecturers?

8. Adedoyin, O.B., Soykan, E., (2020). Covid-19 pandemic and online learning: the challenges and opportunities.

9. Yelena M., Larissa S., Lyazat S., Aiman O., (2022). Student-Centered Learning: Teachers' Readiness and Challenges. International Conference on Research in Education and Science.

HEYDƏR ƏLİYEVİN İDEOLOGİYASINDA DİL SİYASƏTİ

Aynur Murad qızı Namazova
doktorant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aynamaz@mail.ru
http://orcid.org/0009-0001-2498-8880

Hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamışdır. Əsrlər, qərinələrdir ki, xalqımızın əbədiyaşarlığına xidmət edən ana dilimiz qədim tarixə malik olan, min illərin burulğanlarından alnıaçıq, üzüağ çıxaraq müasir dövrə gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir.

Azərbaycan dilinin ölkənin dövlət dili elan edilməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Bəlli olduğu kimi, dövlət dili sahəsindəki fəaliyyətə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldiyi ilk günlərdən başlamışdır.

1970-ci illərin ortalarından başlayaraq SSRİ-yə daxil olan respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirilmişdir. Rus dilinin hüquqlarının genişləndirilməsi ilə əlaqədar "vahid dil" siyasəti daha geniş şəkildə təbliğ olunurdu. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq çox riskli və qorxulu idi. Dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə

aciz idilər. Çünki bu, onlardan ötrü tale məsələsi ola bilərdi. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdi. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü.

1977-1978-ci illər respublika rəhbərini çətinliklər qarşısında qoydu. Məlum olduğu kimi, 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edildi. Həmin Konstitusiya bütün respublikalarda hazırlanan yeni konstitusiyalar üçün baza rolunu oynamalı idi və faktiki olaraq oynayırdı. Həmin Konstitusiyada isə elə əvvəldən dövlət dili haqqında maddə yox idi. Ayrı-ayrı respublikalarda qəbul edilmiş konstitusiyaların heç birində həmin maddə öz əksini tapmamışdı.

Azərbaycanda isə vəziyyət başqa cür idi. Heydər Əliyev ana dilinin dövlət dili olması uğrunda mübarizəsini davam etdirirdi. De-fakto dövlət dili uğrunda ardıcıl mübarizə aparan respublika rəhbəri həmin dilin Konstitusiyada qeyd olunmamasına dözə bilməzdi. Respublikanın rəhbəri ziyalıları, bütün xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvəsi ilə mübarizə aparmış, bütün çətinliklərə və maneələrə böyük hünərlə sinə gərmişdi.

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir."

1978-ci il Konstitusiyası həqiqətən Heydər Əliyevin öz xalqı, öz vətəni qarşısında göstərdiyi böyük xidmət idi. Nəticədə Azərbaycan Konstitusiyası böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusu aldı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu öndər bununla gələcək müstəqil dövlətçiliyin milli atributlarından birini məharətlə qorumuşdur. Bundan sonra isə ana dilimizin inkişafı və qorunması sahəsində mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail olmuşdur.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra hakimiyyətə gələn naşı və səriştəsiz şəxslərin idarəetmədəki təcrübəsizliyi müstəqilliyimizi uçuruma aparır, ölkəni məhvə sürükləyirdi. AXC-Müsavat hakimiyyəti dövründə bu uçurum özünü daha qabarıq şəkildə büruzə vermişdir. Onlar heç bir məntiqi əsasa söykənmədən dövlət dilinin adının dəyişdirilməsini və "türk dili" adlandırılmasını təklif edirdilər.

Xalqın təkidli tələbi və xahişi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm yetirən Ümummilli Lider ana dilimizin - Azərbaycan dilinin adını özümüzə qaytarmışdır.

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Bu təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdir. Bir-birinin ardınca fərmanlar imzalanmış, qanunlar qəbul edilmişdir.

Ana dilinə həmişə xüsusi diqqətlə yanaşan, dilimizin dərin bilicisi ulu öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır.

Fərmanda dilimizin öz tarixi inkişafı boyu əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sahəsində yaranmış problemlər də geniş təhlil edilmiş və həmin problemlərin həlli yolları göstərilmişdir. Tarixi əhəmiyyət kəsb edən bu sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. Həmin Fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdır. Dünyanın heç bir dövlətində analoqu olmayan belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı.

Müstəqilliyimizin ilk ilində - 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbası qəbul olunsa da, bu qərar kağız üzərində qalmışdı. Yalnız Ümummilli Liderimiz Heydər Əliyevin müvafiq Fərmanından sonra ana dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə başlanmışdır. Məhz bundan sonra respublikada bütün yazılı sənədləşmə işləri latın qrafikası ilə aparılmışdır.

Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir.

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ QƏLBƏN BAĞLI LİDER

Aynur Yusif qızı Məhərrəmova
Mingəçevir Turizm Kolleci
meherremovresad03@gmail.com
https://orcid.org/0009-0007-7745-8553

Milli kimliyi ifadə edən milli-mənəvi dəyərlər hər xalqın toxunulmaz əmlakıdır. Çünki bir xalqın keçmişi onun milli-mənəvi dəyərlərində öz əksini tapır. Milli mənəvi dəyərlərə dil, din, ədəbiyyat, mədəniyyət, incəsənət, adət-ənənələr, tarix və s. amillər aid edilir. Bir millətin milliliyini qorumaq onun gələcək inkişafını da təmin edir. Bir xalqın qədim ideyalarını əks etdirən adət-ənənələrini çağdaş dövrdə də həyata keçirmək həmişə mümkün olmur. Bu qeyri-mümkünlük ya millətin özünün biganəliyindən, ya da həmin dönəmdə bu xalqın rəhbərliyində dayanan insanların kortəbii yanaşmasından irəli gəlir. Belə bir vaxtda insanlar öz milliliyini, dəyərlərini müdafiə edə bilməz. Əgər rəhbər vəzifə tutan şəxs millətçiliyi, milli siyasət anlayışını müdafiə etməyi özünə şüar etsə, o zaman xalq mövcud dövrdə özünün uğurlu gələcəyini tənzimləyə biləcək. Ayrı-ayrı şəxslər, xüsusən də görkəmli liderlər xalqın mənəvi tərəqqisində böyük rol oynayırlar. Türkiyənin ulu öndəri Mustafa Kamal Atatürk demişdir: "Böyük şəxsiyyətləri olmayan bir xalq, iqtisadi cəhətdən nə qədər güclü olsa da, ən kiçik sarsıntıdan məhv olar. Böyük və görkəmli şəxsiyyətlər kütlənin mənəvi-siyasi birliyinə nail olmağa qadir olanlardır" [4]. Bəli, bu şəxsiyyətlərdən biri də Heydər Əliyev idi.

Milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşan, onları müdafiə və mühafizə edən liderin düşüncəsi yalnız Azərbaycançılıq ideyalarını ön planda saxlamaq idi. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideologiyasının formalaşması dövlətçiliyimizin və xalqımızın inkişafında mühüm rol oynamış, milli ruhun dirçəlişinə səbəb olmuşdur. Müəllifi Ulu Öndər olan Azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan xalqlar üçün deyil, dünyanın hər yerində yaşayan azərbaycanlılar üçün milli ideologiya halına gəlmiş, bütün azərbaycanlılarını eyni məqsəd ətrafında birləşdirmişdir. Ulu Öndər qeyd edirdi ki, milli

ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimiz, dinimiz və mədəniyyətimizi əhatə etməli, bu dəyərlərin qorunub saxlanmasına və inkişafına xidmət etməlidir.

Sovet rejiminin milli-dini dəyərlərimizi tamam məhv etməyə yönəlmiş iyrənc antimilli siyasət yeritdiyi bir vaxtda Heydər Əliyev bu siyasəti mümkün qədər neytrallaşdırmağa, türkçülük ideyalarını qorumağa çalışırdı. O, ölkədə mütərəqqi İslam dəyərlərinin inkişafına ayrıca diqqət yetirməklə yanaşı, digər dinlərin də inkişafına tolerant mühitin yaradılmasını təmin etmiş, dini konfessiyalar arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin formalaşmasına çalışmışdır. Ulu Öndər o zamanlar fəaliyyəti çərçivəsində dilimizi qorumaq üçün mübarizə aparırdı. Rəhbərin mübarizliyinin bariz göstəricisi dövlət tədbirlərində, iclaslarında ana dilində danışmağa üstünlük verməsi idi. O, dilimizin dərinliklərinə o qədər yaxşı bələd idi ki, hər sözün tarixini demək olar ki, bütünlüklə, təfərrüatlı şəkildə danışa bilirdi. Ulu Öndər ana dilimizin azadlığı uğrunda iki cəbhədə mübarizə aparmşdır. Birinci cəbhə xalqın öz ana dilində danışması, ikinci cəbhə qanunvericilik və rəsmi vasitələrlə dilimizin statusunun yüksəldilməsi xəttidir. Lakin sovetlərin sərt siyasi rejimi dövründə rəhbər bu fəaliyyəti çox diqqətlə həyata keçirirdi. Çünki o, çox gözəl bilirdi ki, irtica bu yolda fədakarlıq edən ziyalıları, şairləri, yazıçıları məhv edir. Onların məhv edilməsi təkcə özlərinə, ailələrinə, yaxın qohumlarına deyil, həm də Azərbaycançılıq ideyasının hakim olduğu Azərbaycanın gələcəyinə böyük zərbə idi. Buna görə də böyük siyasətçi son dərəcə ehtiyatlı davranırdı.

Heydər Əliyev elə bir siyasətçi idi ki, çətin şəraitdə belə təslim olmamış, öz məqsəd və məramı yolunda var gücü ilə çalışmış, "Azad Azərbaycan" arzusunu gerçəkləşdirmək ideyaları ilə yaşamış, özünün dediyi kimi, bütün həyatını bu yola həsr etmişdir. Dövlət siyasəti əsasında milli dəyərləri qoruyub saxlayan Ulu Öndər Azərbaycan mədəniyyətinin köklərinin qədim olduğunu çox gözəl bilir və bütün dünyaya çatdırmağa çalışırdı. Mədəniyyətimiz milli köklər üzərində doğulub formalaşıb. Gələcək nəsillərin öz köklərinə şüurlu sahib çıxması üçün onları indiki zamanda yaşatmaq vacibdir. Ona görə də milli dövlətçiliyimizin formalaşmasında və qorunub saxlanmasında şifahi ənənəmizin böyük rolu və əhəmiyyəti olduğundan Heydər Əliyev bu sahədə görülən işləri yüksək qiymətləndirir, qarşıda duran vəzifələrin həllində mütəxəssislərə səmimi rəhbərlik qayğısı göstərirdi.

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi Heydər Əliyevin milli ruha, qədim etnik fikrə bağlılığını və bu kökə sədaqətini əyani şəkildə nümayiş etdirdi.

Xalq yaradıcılığı nümunələrinin toplanıb qeydə alınması, elmi tədqiqatlara cəlb edilməsi millətçilik siyasətini həyata keçirmək deməkdir. Çünki bu nümunələr, sözün əsl mənasında, milli düşüncədən qaynaqlanır. Xalqın milli-mənəvi sərvəti olan folklor toplusu milli mədəniyyətimiz, tariximiz üçün çox zəruri idi. Folklor nümunələrinin toplanmasınI özlərinə prioritet məsələ hesab edən ziyalılar - qanında əsl türk qanı axan alimlərimiz folklorun toplanmasına xüsusi diqqət yetirmişlər. Çünki yaşlı nəslin yaddaşında elə dəyərli nümunələr yaşayır ki, onların vaxtında toplanması bəzən bir çox tarixi həqiqətlərin üzə çıxmasına böyük töhfə verə bilir. Mədəniyyətimizi, millətimizi formalaşdıran folklor nümunələrinin elmi səviyyəyə çatdırılmasının bütün yükü təkcə alimlərin - folklorşünasların üzərinə düşə bilməzdi. Onların fəaliyyətinin uğurlu olması üçün dövlətin böyük qayğısı lazım idi. Məhz Ulu Öndərin folklor elminə diqqət yetirməsi təşəbbüsü bugünkü Folklor İnstitutunun yaranmasına səbəb oldu.

Məlumdur ki, Heydər Əliyevin milli kimliyimizə verdiyi böyük xidmətlərdən biri də milli ritual düşüncəmizin bərpasıdır. Bunu təkcə Novruz bayramı ilə təqdim etsək, Ulu Öndərin milli düşüncəmizin bərpası istiqamətində fəaliyyətinin mahiyyətini aydın görərik. Bilirik ki, sovet dövründə milli və dini bayramlarımızın, ayinlərimizin keçirilməsinə ciddi qadağalar var idi. Bu bayramlar, mərasimlərimiz gizli keçirilirdi. Toy məclislərimizdə aşıqlarımızın milli düşüncəmizi təbliğ edən çıxışlarına çox vaxt qadağa qoyulurdu. Bütün bunları rəhbər mövqedən çox diqqətlə müşahidə edən Ümummilli Lider millətçilik siyasəti çərçivəsində aşıq yaradıcılığının inkişafına qayğı göstərmişdir. Bu qayğını dahi şəxsiyyətin aşıqların dövrün tələblərini ifadə edən şənlik və tədbirlərdə iştirakını təmin etməsində, onlara fəxri adlar verməsində, Azərbaycan aşıqlarının

sütunları olan görkəmli aşıqların yubiley tədbirlərinin, yaradıcılıq gecələrinin keçirilməsinə şərait yaratmasında və aşıqların xaricə səfərlərdə iştirakını təmin etməsində görürük.

"Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub saxlamalıyıq" deyən Heydər Əliyev Azərbaycançılığı milli ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təbliğ edərək, onu təkcə milli varlığımızın deyil, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi qiymətləndirərək bildirir ki, biz gənclərimizi azərbaycanlılara xas olan əxlaqi və milli ənənələr əsasında tərbiyə etməyə çalışmalıyıq.

Bu gün gənclərimiz müstəqil Azərbaycanın milli dəyərlərə əsaslanan dövlət quruculuğunda, ərazi bütövlüyünün təmin edilməsində aparıcı rol oynayır. Ölkəmizin Ulu Öndərin zamanında doğulub boya-başa çatmış, istiqamətlənmiş, cənab İlham Əliyevin rəhbərliyi ilə yetişib formalaşmış gənclər 2016-cı ilin aprel döyüşlərində, 2018-ci ildə Naxçıvanda keçirilən Günnüt əməliyyatında və 2020-ci ildə Tovuz döyüşlərində Ermənistan ordusu ilə bağlı geniş yayılmış mifi darmadağın etdilər. 2020-ci il sentyabrın 27-də başlayan və Azərbaycanın Böyük Qələbəsi ilə başa çatan 44 günlük Vətən Müharibəsində işğalçı dövlətin ordusu fiziki və mənəvi cəhətdən məğlub edildi, torpağımız işğaldan azad edildi, tarixi ədalət bərpa edildi.

Dillərdə dastan olan, qəhrəmanlığın zirvəsi sayılan Şuşa əməliyyatı ordumuzun gücünü və yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirdi. Ölkə Prezidenti cənab İlham Əliyev 2021-ci ildə Cıdır düzündə Şuşalılara müraciəti zamanı - "…Mən dəfələrlə demişəm ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə gənc nəslin təlim-tərbiyəsi istiqamətin-də məqsədyönlü siyasət aparıldı və elə bir gənc nəsil yetişdi ki, tərəddüd etmədən torpaq uğrunda canını fəda etdi. Elə bir gənc nəsil yetişdi ki, öz qanı bahasına torpağımızı düşmən işğalından azad etdi" sözləri Ümummilli Liderin 1994-cü ildə nitqlərinin birində uzaqgörənliklə ifadə etdiyi - "Əminəm ki, bu çətin dövrdə doğulub böyüyən uşaqlar cəsur, qətiyyətli və vətənpərvər olacaq. Onlar Azərbaycanın xoşbəxt gələcəyi naminə öyrənəcək, inkişaf edəcək və gələcəkdə cəmiyyətdə layiqli yer tutacaqlar" fikrinin təsdiqi oldu.

Ulu Öndər Heydər Əliyevin dediyi kimi, biz ancaq milli birliyi və həmrəyliyi təmin etməklə üzləşdiyimiz bütün çətinliklərin öhdəsindən gələ bilərik. Biz 2020-ci ildə, 44 günlük Vətən müharibəsində bunun şahidi olduq və bütün dünya etiraf etməli oldu ki, milli həmrəyliyimiz, xüsusilə dövlət-xalq-ordu birliyi Qələbəmizi şərtləndirən amillərdən biri, bəlkə də birincisidir!

İstifadə edilmiş ədəbiyyat

1. Abbasbəyli, A.N. Azərbaycan mənim ürəyimdir (Heydər Əliyevin siyasi tərcümeyi-halından səhifələr) / A.N.Abbasbəyli - Bakı, Azərnəşr, - 2002. - 517 s.

2. Hüseynova, İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.Hüseynova. - Bakı: Təhsil, - 2004. - 472 s.

3. Mərdanov, M. Azərbaycan təhsil tarixi. II cild (1920-1991-ci illər) / M.Mərdanov. - Bakı, Təhsil, -2011. - 704 s.

4. Orucov, H. Heydər Əliyev və Azərbaycanda milli siyasət / H.Orucov. - Bakı, Şərq-Qərb, - 2001, - 324 s.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İNSAN ƏMƏYİNƏ YANAŞMASI

Ləman Yamən qızı Nəbiyeva
Mingəçevir Turizm Kolleci
lemannebiyeva2023@gmail.com
https://orcid.org/0009-0007-4378-0536

Dünya tarixinin dahi şəxsiyyətlərindən olan, Azərbaycanın unudulmaz siyasi, dövlət xadimi Heydər Əliyev azərbaycanlılara həmişə yüksək xidmətlər göstərmiş, azərbaycançılıq məfkurəsinin, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, tarixi yaddaşın qaytarılması, müstəqil dövlətçilik ideyalarının möhkəmlənməsi, həyata keçirilməsi üçün mühüm işlər görmüşdür. Bütün bunlarla yanaşı Ümummilli Lider Heydər Əliyev insan amilinə, əməyə böyük önəm verirdi. İnsan əməyini yüksək qiymətləndirən, zəhmətə dəyər verən şəxsiyyət hər cür möcüzələr yaratmağı bacarır. Rəhbərlik fəaliyyətində bu həqiqəti nəzərində saxlayan, yaradıcılığı, zəhməti, fədakarlığı daim qiymətləndirən, zəhmətkeş, təşəbbüskar insanları qarşıya qoyulan ən çətin, mürəkkəb vəzifələrin öhdəsindən uğurla gəlinməsi üçün səfərbər edən Heydər Əliyev həmişə haqqın, ədalətin tərəfində olmuşdur. Hər zaman zəifi güclüdən, haqlını haqsızdan qoruyan, həmişə və hər yerdə öz müdrikliyini, üstünlüyünü sübut edən bu dahi şəxsiyyət harda olursa olsun, hətta totalitar sovet rejimində də, müstəqillik- ölkəmizdə dövlət quruculuğu dövründə də insanın, vətəndaşın hüquq və azadlıqlarının tam təmin edilməsində həqiqi ədalətin təntənəsini axtarmışdır.

Əməyə, əməkçiyə qarşı həssas münasibəti, sadə insanlara səmimi yanaşması, onların yüksək, ülvi arzularının gerçəkləşməsi istiqamətində göstərmiş olduğu müstəsna xidmətlərin Öndərimizə tükənməz xalq məhəbbətini qazandıran amillər sırasında mühüm yeri vardır.

Heydər Əliyev tükənməz təşkilatçılıq qabiliyyəti ilə dövlət orqanlarında yüksək vəzifə tutmuş, komandir qüdrəti ilə respublikamızın inzibati sistemində dəmir nizam-intizam yaratmış, cəmiyyətin, vətəndaşların konstruktiv potensialının, yaradıcılıq səriştəsinin üzə çıxarılmasına və onlardan məqsədyönlü, səmərəli istifadə edilməsinə nail olmuşdur. İqtisadiyyatın inkişafı nəticəsində əhalinin sosial problemlərinin həlli üçün geniş imkanlar və maliyyə resursları əldə edilmişdir. Bu imkanlar əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, mədəniyyət, təhsil, səhiyyə, bədən tərbiyəsi sahələrində tərəqqiyə, istirahətə, boş vaxtın səmərəli təşkilinə yönəldilmişdir. Vətəndaşların qanuni mənafelərinin, əmək hüquqlarının qorunmasında, sosial problemlərinin həllində vacib yerə malik zəngin tarixi olan həmkarlar ittifaqı təşkilatının fəaliyyətinə Öndərimiz hər zaman diqqət, qayğı ilə yanaşmışdır. O hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Dünyanın tanınmış siyasətçiləri bu dahi şəxsiyyətlə görüşdən sonra onu yüksək qiymətləndirmişlər. Heydər Əliyevin dərin düşüncəsi, qətiyyətli məntiqi, hadisələri düzgün təhlil, qiymətləndirmək səriştəsi, xüsusi uzaqgörənliyi həmişə ona tarixin gedişatını öncədən görməyə, hadisələri şəxsi planları üzrə istiqamətləndirməyə imkan verirdi.

Azərbaycanlılar haqlı olaraq özünü xoşbəxt hesab edirlər. Təbii ki, eyni fikri onu şəxsən tanıyan, ünsiyyətdə olan dünya siyasətçiləri də bölüşürlər. E.Şevardnadze demişdir: "20-ci əsr liderlər əsridir, əsrin lideri Heydər Əliyevdir" [6]. Ümummilli Lider Azərbaycan dövlətini qurdu və inkişaf etdirdi, onu öz fikrini ifadə etməyə qadir olan qabaqcıl dövlətlər sırasına çıxardı. Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi illərdə komitəni xalqımızın düşmənlərindən təmizlədi. 1969-cu ildən sonra isə ümumiyyətlə Azərbaycanda eyni siyasət aparılmağa başlandı. Heydər Əliyev bu məqsədlə bağlı çıxışlarının birində deyirdi: "Mən Dövlət Təhlükəsizlik Komitəsində işləyərkən çox şey görmüşəm. İlk gündən Moskvanın türk millətini əsarət altına almaq üçün birtərəfli siyasət yürütdüyünün şahidi oldum. Mən buna daxilən qarşı çıxsam da, normal həyatda müqavimət göstərmək imkanım yox idi, Moskvaya müqavimət göstərmək mənim üçün mümkünsüz idi. Əgər mən onlara qarşı çıxsaydım, bunun bir əhəmiyyəti olmazdı, Əliyev də ölkənin digər katibləri kimi məhv olardı. Xalqımın milli hisslərini, Azərbaycan türklüyünün milli oyanışını

reallaşdırmaq istəyirdim. Mən bunları Moskvaya hiss etdirmədən, narahat etmədən etmək istəyirdim" [3, s. 39].

Heydər Əliyev rəhbərliyə təyin olunandan sonra hər kəsə bəlli oldu ki, yeni rəhbər hər işdə xalqına, ziyalısına arxalanır, hər şeydə onlarla məsləhətləşir. Ümummilli Lider həmişə xalqın arasında olurdu, proqramların həyata keçirildiyi yerlərdə olur, problemləri öyrənir, konkret tapşırıqlar verirdi. Azərbaycanlılar tərəfindən müsbət qarşılanan ən mühüm məsələ rəhbərin Azərbaycan dilində təmiz danışması idi. Ən vacibi, Heydər Əliyev elə bir mühit yaratdı ki, dövlət idarələrində, dövlət tədbirlərində azərbaycanca danışan insanlara artıq pis baxılmır, "rus dilində müraciət et" tələbi olunmurdu. Digər tərəfdən, rəhbərliyin öz xalqının dilinə, tarixinə, mədəniyyətinə bu qədər önəm verməsi çoxları tərəfindən paxıllıqla qarşılanırdı. Moskvaya göndərilən donoslarda Heydər Əliyevi millətçi adlandırırdılar, lakin bu güclü şəxsiyyətin məntiqi qarşısında Moskva susmalı, geri çəkilməli idi. Nəhayət, 1978-ci ildə qəbul edilmiş "Azərbaycan SSR Konstitusiyasında" xalq üçün çox mühüm və qürurverici bir müddəa öz əksini tapdı: "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir". Bu, böyük bir qələbə idi. Bu, Heydər Əliyevin ağlının, zəkasının, möhkəm iradəsinin, milli xalqa məhəbbətinin, uzaqgörənliyinin qələbəsi idi.

SSRİ-nin süqutundan sonra Azərbaycan milli müstəqilliyini bərpa etmiş və qısa müddətdə demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti yaratmaq yolunda böyük addımlar atmışdır. Müstəqil Azərbaycan dövləti sovet sistemindən miras olan totalitarizm buxovlarından qurtularaq dünya ölkələrində mövcud olan hüquq normalarına uyğun sivil cəmiyyət, liberal iqtisadi sistem və beynəlxalq münasibətlər qurmaq yoluna qədəm qoydu. Sovetlər İttifaqının dağılmasından sonra Ulu Öndər Azərbaycan xalqının köməyinə gəldi, yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan ağır vəziyyətdən çıxmağa başladı. 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini geri qaytardı.

Müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə mühüm uğurlara nail olmuş, sürətli iqtisadi inkişafla dünyada öz siyasi mövqeyini qoruyub saxlamış və bu, ötən illər ərzində uğurla inkişaf etdirilən mükəmməl mexanizmlərə əsaslanan dövlət idarəçiliyi nəticəsində reallaşmışdır. Ümummilli Lider Heydər Əliyevin ciddi elmi əsaslara söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddət ərzində Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə nail oldu. Son illərdə ölkənin dinamik sosial-iqtisadi inkişafı ölkə başçısına keyfiyyətcə yeni mərhələdə insan, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunmasına xidmət edən islahatları uğurla davam etdirmək imkanı yaratmışdır. Prezident İlham Əliyevin ictimai həyatın bütün sahələrində, o cümlədən hüquqi dövlət quruculuğu istiqamətində yürütdüyü islahatların əsasında insan və şəxsiyyət amili dayanır. Azərbaycanda son 20 ildə həyata keçirilən milli demokratik keçidin mahiyyətini də iqtisadi tərəqqi müəyyənləşdirir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti nəticəsində çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan daha da inkişaf etmişdir. Heydər Əliyevin qurduğu dövlətimizin atributu Azərbaycanın silahlı qüvvələri və şanlı ordusudur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun erməni faşistləri üzərində qələbəsi sayəsində doğma Qarabağımız düşmən tapdağından azad edilib, dövlətimizin ərazi bütövlüyü təmin edilib, ölkə sərhədləri bərpa olunub. 44 günlük Vətən Müharibəsindəki qələbədən sonra erməni vandalları tərəfindən dağıdılmış şəhər, qəsəbə və kəndlərimizin bərpasına başlanılıb. Demokratik, hüquqi və dünyəvi dövlət olan Azərbaycan Respublikasında Ümummilli Liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı İlham Heydər oğlu Əliyevin nəzəri ideyaları uğurla həyata keçirilir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Xalq Cumhuriyyətinin Ensiklopediyası. 2 cilddə. I cild. Bakı: Lider. 2004, 440s.

2. Cəfərov Z. Hüquqi dövlət ideyasını gerçəyə çevirən lider // Azərbaycan qəzeti, 20 aprel 2013, №83
3. Əbilov İ. "Deyilən söz yadigardır." Bakı, MM-S, 2019, 293 s.
4. Əsgərov M. Ümummilli Liderimiz humanizmi dövlət siyasətinin mühüm tərkib hissəsinə çevirdi // Xalq qəzeti, 2008, 7 may, № 97
5. Mehbalıyev S. Əməyə və Əməkçiyə yüksək dəyər verən dahi rəhbər // Respublika, 10 may 2008, №100
6. http://zaqatala-ih.gov.az/az/news/xx-esr-liderler-esri-idi-esrin-lideri-ise-heyder-eliyev-olmusdur.html

ULU ÖNDƏRİN AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINDA GƏNCLƏR SİYASƏTİ

Məleykə Əlcəzair qızı Vəliməmmədova
Mingəçevir Turizm Kolleci
vlimmmdovamleyk@gmail.com
https://orcid.org/0009-0001-4488-6240

Gənclərə, onların cəmiyyətdəki mövqelərinə münasibət hər zaman çoxmənalı olmuş, sözügedən məsələ müxtəlif dövrlərdə müəyyən qruplar tərəfindən birqütblü qiymətləndirilmişdir. Çar Rusiyasının vaxtında gənclərdən yalnız şəxsi çıxarlarında istifadə olunub. Belə münasibət eyni zamanda sovet totalitar rejimi dönəmində olub. Odur ki, gənclərə münasibət respublikamız müstəqillik əldə etdikdən sonra tamamilə kökündən dəyişdi. Belə ki, gənclərin, onların ictimai mövqelərinin, siyasi hərəkat və təşkilatlarda təmsil olunmalarının hansı dərəcədə əhəmiyyətli olduğunu həmin dövrün siyasi hakimiyyəti müəyyən edirdi.

Müasir dövrdə gedən ictimai-siyasi proseslər həmçinin Azərbaycanda gənclərlə bağlı ümumi strategiyanın, ideologiyanın formalaşmasına önəmli, önəmli təsir göstərir. 20-ci əsrin əvvəllərində olduğu kimi, həmin əsrin sonlarında da gənclər müxtəlif təşkilatlarda təmsil olunurdular. Onlarda milli şüurun təşəkkül tapması, inkişaf etməsində həmin dərnəklərin önəmi çox vacib idi. Gənclər müxtəlif dövrlərdə olan problemlərlə maraqlanır, həmin problemlərin aradan qaldırılması, yox edilməsi yollarını birlikdə həll etməyə cəhd edirdilər. Bu, xalqın maarif-lənməsində və mətbuatın inkişafında müstəsna rola malik olub, tərəqqisinə təkan vermişdir. Bütün bunlar Azərbaycanın gənc ziyalılarında azadlıq uğrunda mübarizəni sistemləşdirmişdir.

Qerd olunan məsələləri daim nəzərində saxlayan Ulu öndər Heydər Əliyev gəncləri ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməyə, respublikada baş verənlərə biganə qalmamağa çağırmışdır.

Heydər Əliyev gənclərlə iş sahəsində dövlət siyasətini həyata keçirmək məqsədilə 1994-cü ilin 26 iyulunda yeni dövlət qurumunun - Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Gənc nəslin vətənpərvərlik tərbiyəsində Heydər Əliyevin gənclər siyasətindəki mühüm amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Gənclərin mənəvi tərbiyəsində fəal həyat vərdişlərinin formalaşdırılması;
2. Gənclərin fəal həyat tərzinə yiyələnməsi və vətəndaşlıq mövqeyinin qiymətləndirilməsi;
3. İctimai mənafe ilə şəxsi mənafe arasında vəhdət yaradılması;
4. Əməkdə, təhsildə, ailə-məişət münasibətlərində nümunəviliyin göstərilməsi;
5. Asudə vaxtdan səmərəli istifadə edilməsi;
6. Əqidəsində möhkəmliyin, ideya-mənəvi keyfiyyətlərində dözümlülüyün yaradılması;
7. Yeni-yeni məsələləri həll etməkdə təşəbbüskarlıq göstərməklə nailiyyətlərin qazanılması;
8. Çətin məsələlərin həllində qətiyyətli hərəkət edilməsi;

9. Gənclərin mənəvi tərbiyəsində azərbaycançılıq məfkurəsinin bərqərar edilməsi;

10. Azərbaycançılıq məfkurəsi timsalında gənclərə sərbəst düşüncə, nümunəvi əxlaq, bir-birinə inam, sədaqət, vətənpərvərlik hisslərinin təlqin edilməsi;

11. İctimai həyatın hər sahəsində-iqtisadiyyatda, mədəniyyətdə, elmdə, təhsildə, təsərrüfatda, ictimai həyatda sərbəstlik, azadlıq, müstəqillik ideyalarının formalaşdırılması, bu ideyaların həyata keçməsində Azərbaycanın müstəqil dövlət olaraq formalaşmasının düşüncə bazasının təmin edilməsi;

12. İctimai təfəkkürün sosial həyatla vəhdəti bazasında azərbaycançılıq ideyalarının mənimsənilməsi;

13. Vətənpərvərlik tərbiyəsində gənclərə, gəncliyə yaradıcı və aparıcı bir qüvvə kimi yanaşılması;

14. Müstəqil, azad, demokratik, şəxsi müqəddəratını həll edə bilən dövlətin bünövrəsinin yaradılmasında gəncliyin əməyinin qiymətləndirilməsi.

Gənclər müstəqil, azad cəmiyyətin qurulmasında yalnız vasitə kimi nəzərə alınmır, onlar eyni zamanda bu cəmiyyətin varisləri, davamçıları, prosesin iştirakçıları olaraq qiymətləndirilirlər. Gənclər gələcəyin aparıcı qüvvəsi sayılırlar. Dövlət gənclər siyasətinin ən ümdə tərkib hissəsi gənclərin vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsidir. Məhz bu məqsədlə aidiyyatı dövlət orqanlarının (təhsil, müdafiə nazirliklərinin) təşkilatçılığı və iştirakı ilə müxtəlif tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. 1998-ci ilin martında "Gənclərin vətənpərvərlik tərbiyəsinin olduqca yaxşılaşdırılması yolları" mövzusunda respublika elmi-praktik konfransı keçirilmiş, müvafiq mövzuda 1999-cu ildə xüsusi proqram qəbul edilmişdir. Böyüyən gənc nəslin ordu sıralarında xidmətə hazırlanması məqsədi ilə orta məktəblərin IX-XI sinif şagirdləri arasında "Şahin", "Cəsurlar", "Marş irəli!", "Vətənin müdafiəsinə hazıram!" hərbi idman oyunlarının keçirilməsi ənənə halını almışdır.

Yeniyetmələrin, gənclərin sosial problemlərinin həlli də gənclər siyasətinin mühüm istiqamətini təşkil edir. Gənclərlə aparılan işin vacib istiqamətlərindən biri də hüquq pozuntularının, cinayətkarlığın, narkomanlığın qarşısının alınmasıdır.

Azərbaycan dövlətinin apardığı gənclər siyasətinin tərkib hissəsini bədii yaradıcılığa, ədəbiyyata, incəsənətə maraq göstərən gənclərin üzə çıxarılması, onlar üçün əlverişli yaradıcılıq mühitinin formalaşdırılmasıdır.

Gənclərlə iş sahəsində beynəlxalq əlaqələrin qurulması da əsas fəaliyyət istiqamətlərindən biridir. Heydər Əliyevin Prezidentliyi dövründə gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təşkilatların yaradılması prosesi sürətləndirilmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək edilmişdir. Məhz Heydər Əliyevin azərbaycançılıq ideologiyasının formalaşmasında gənclərin də müstəsna fəaliyyəti olmuşdur. Dövlət quruculuğu işlərində gənclərin potensialından istifadə olunması sözügedən siyasətin ən əsas nümunəsidir.

Heydər Əliyev fəlsəfəsinə bələd olduqca, görürsən ki, onun tarixi gerçəklərinin ana xəttini hər dönəmdə vətənə məhəbbət və milli qeyrət tamamlayır. Ulu öndərin apardığı dövlətçilik siyasəti nəticəsində Azərbaycanın mövqeyi daha da möhkəmlənmiş, iqtisadi-siyasi demokratlaşma uğurla aparılmış, nəticədə Azərbaycan güclənmiş və gələcəyə doğru uğurla inkişaf edən bir ölkəyə çevrilmişdir. Heydər Əliyevin dövlət quruculuğu fəaliyyətinin dəyəri, ucalığı, aliliyi ondadır ki, o bu vəzifəyə, sadəcə olaraq, adi siyasətçi kimi yanaşmamış, bir mütəfəkkir kimi işin fəlsəfəsinə, ideya əsaslarına varmağı, dünya xalqlarının, o cümlədən, xalqının tarixi təcrübəsini öyrənərək həyata tətbiq etməyi, zamanın və siyasi-ictimai reallıqların xarakterinə uyğun addımlar atmağı bacarmışdır.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsi nəzəri cəhətdən tamamlanmış bir təlim olmasına baxmayaraq, praktik olaraq zaman etibarı ilə daim inkişaf etmək, təkmilləşmək, reallığa uyğunlaşmaq qüdrətinə malikdir.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərov Z. Hüquqi dövlət ideyasını gerçəyə çevirən lider // Azərbaycan qəzeti, 20 aprel 2013, № 83.
2. Xudiyev N. YAP dünənin, bu günün sabahın partiyasıdır. Bakı, Nurlar, 2007, 272 s.
3. Rzayev R. Ümummilli Liderin hüquqi baxışlarının Azərbaycan Respublikası Konstitusiyasında təzahürü // Respublika, 10.05.2013, №99.
4. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001, 324 s.

ÜMUMMİLLİ LİDER, DAHİ ŞƏXSİYYƏT

Xəyalə Sərdar qızı Ramazanova
Cəlilabad rayonu Uzuntəpə kənd R.Hüseynov adına 2 saylı orta məktəb
xeyaleramazanova88@gmail.com
https://orcid.org/0000-0002-8558-5858

Dünya liderləri içərisində öz xüsusi imzasını dünyaya bəyan edən, Azərbaycanı dünyaya tanıdan, Türk Dünyasının böyük liderlərindən biri, dahi şəxsiyyət Heydər Əliyev olmuşdur. Dünyanın bir sıra tanınmış dövlət xadimləri Ulu öndər Heydər Əliyevi "Dünya lideri", "Dahi şəxsiyyət", "Böyük siyasi xadim", "Türk Dünyasının sevilən lideri" adlandırmışlar. Məsələn, Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton Heydər Əliyev haqqında danışarkən qeyd etmişdir ki, Heydər Əliyev səinki Azərbaycanı idarə etmək, hətta bütün dünyanın idarə etmək qabiliyyətini malik bir liderdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan idə Ulu öndər Heydər Əliyev haqqında belə demişdir: **"**Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq".

Müstəqil Azərbaycan Respublikasının qurucusu, memarı Ümummilli liderimiz Heydər Əliyevin ürəyi hər zaman Azərbaycan sevgisi ilə döyünmüşdür. Ona görə də biz Heydər Əliyevin əsəri olaraq Azərbaycanın müasir yüksəlişini onun fəaliyyəti ilə əlaqələndiririk. Ulu öndərimiz hər zaman Azərbaycan xalqının inkişafı, rifahı və tərəqqisi üçün çalışmışdır. Biz bu günki sabitliyimizi, müstəqilliyimizi, azadlığımızı, demokratik, humanist bir ölkədə yaşamağımızı və qələbələrimizin rəhninin təməlini dahi şəxsiyyət, ulu öndər Heydər Əliyev dühasında görürük.

Bu gün sürətlə inkişaf edən, çiçəklənən, qüdrəti hər keçən gün daha da artan, qələbədən-qələbəyə gedən Azərbaycanı multukultural, tolerant ölkə kimi dünyaya tanıdan Heydər Əliyev ideyaları olmuşdur.

Heydər Əliyevin Azərbaycan xalqı üçün etdiklərini tək-tək sadalamaqla onları kitaba, dəftərə sığışdırmaq qeyri-mümkündür. Çünki bütöv irs olaraq, Azərbaycan dövlətinin varlığı Heydər Əliyevlə bağlıdır.

Heydər Əliyev siyasi rəhbər, humanist dövlət qurucusu, tarix yazan və tarix yaradan dahi şəxsiyyətdir. Heydər Əliyev XX əsrin dünya lideridir. O qürurla deyirdi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"! Hər hansısa dünya lideri öz milli mənsubiyyəti və nümayəndisi olduğu xalq haqqında bu qədər səmimi şəkildə "fəxr edirəm" deməmişdir. Bunun əsasını dahilik, liderlik, yüksək mənəvi keyfiyyətlər, ən əsası isə güclü aidiyyət duyğusu, vətənpərvərlik hissləri tutur. Dahi şəxsiyyət Azərbaycan xalqının keçmişi, bu günü, gələcəyi ilə hər zaman öz işlərini müncər etməyə çalışmışdır. Onun uzaq görən siyasəti nəticəsində biz bu gün müstəqil, azad və suverən bir ölkəyik.

Öz valideynlərinə layiq övlad olmaq hamıya nəsib olan xoşbəxtlik deyil. Ulu öndər Heydər Əliyev irsini, siyasi kursunu uğurla davam etdirən cənab Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, "Dəmir yumruğ"u, xalqın birliyi, ordumuzun şücaəti, fədakarlığı və vətənpərvərliyi sayəsində 30 il işğal altında qalan torpaqlarımız cəmi 44 gün ərzində işğaldan azad olundu. Dahi şəxsiyyətin varisi, müdrik davamçısı olan İlham Əliyev ulu öndərin açdığı işıqlı yolla irəliləyərək dünya liderləri arasında öz layiqli yerini tutdu və artıq bütün dünya onu qalib sərkərdə, müzəffər komandan kimi tanıyır.

Dahi rəhbərin zəngin nəzəri irisndə təhsil, mənəviyyat, şəxsiyyətin hərtərəfli ahəngdar inkişafı məsələləri, xüsusilə müəllimə hörmət, diqqət və qayğı əsas yer tutur. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Ulu Öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmışdır. Ulu öndər, dahi rəhbərin həyat və fəaliyyəti mənəvi zənginliyi, əxlaq və əqidə saflığı, vətənə, xalqa sadiqliyi, fədakarcasına çalışması gənc nəsillərə nümunədir.

Ulu öndər Heydər Əliyevin elmə, təhsilə göstərdiyi diqqət və qayğı nəticəsində bu gün Azərbaycan təhsili və elmi sürətlə inkişaf edir, dünya təhsil mühitinə, dünya elmi mühitinə sürətlə inteqrasiya edir. Çünki uzun illər sovet dövrünün neqativ cəhətlərindən arınmaq və həmin təhsil sisteminin müsbət çalarları ilə yeni dövrün masir, mütərəqqi təhsil çalarlarını inteqrasiya edərək, öz milli təhsil sistemini qurmaq üçün ilk növbədə Ulu öndərin gələcəyə işıq saçan təhsil ideyaları və bu ideyalara əsaslanan milli təhsil siyasətinin formalaşdırılması və həyata keçirilməsi vacib məqamlardı. Məhz geçmişlə gələcəyin vəhdətini, köhnə ilə yeninin səmərəli inteqrasiyasını biz bu gün öz təhsilimizin timsalında görürük. Həm orta təhsil sistemimiz, həm də ali təhsil mühitimiz dünyadan geri qalmamaq, dünya təhsil mühitinin mütərəqqi cəhətlərindən faydalanmaq və onu inteqrasiya olmaq üçün bütün səylərini ortaya qoyur. Bu da öz növbəsində ölkəmizin təhsil sisteminin daim təkmilləşməsi məqsədinə xidmət edərkən, həm də onun ideya əsaslarının ulu öndərin qoyduğu cizgidən kənara çıxmamasını şərtləndirir.

Nəticə etibarilə, onu qeyd etmək olar ki, dünya lideri olmaq təkcə dünyanın tanıdığı lider olmaq mənasına gəlmir. Tarixdə elə liderlər olmuşdur ki, onlar bütün dünyanın tanıdığı lider olsalar da, onlar öz müsbət cəhətləri, səmərəli siyasəti, sülhə verdiyi töhfələr ilə deyil, ölkəsində, bölgəsində, dünyada sülhün pozunmasına, müharibələrə gətirib çıxaran addımlar atmış və yaxud xalqına qarşı amansız daxili siyasət həyata keçirmişdir. Sözün həqiqi mənasında dünya lideri olmaq isə, məhz Ulu öndər Heydər Əliyev nümunəsində, onun həyata keçirdiyi siyasətin timsalında olduğu kimi ölkəsinə, dünyaya əmin-amanlıq gətirən, inkişafa hesablanan siyasət həyata keçirən liderlər kimi olmalıdır. Lider əgər xalqına, dövlətinə xidmət etməklə dünyada tanınmırsa, dünyada sülhə və əmin-amanlığa xidmət etməklə özünü tanıtmırsa onu dünya lideri adlandırmaq olmaz. Heydər Əliyev, Azərbaycan xalqının inkişafına, Azərbaycan dövlətinin müstəqilliyinə, suverenliyinə, eyni zamanda bölgədə və dünyada sülhə göstərdiyi xidmətlərə görə sözün əsl mənasında dünya lideridir. Bu gün Cənubi Qafqaz regionuna Azərbaycan Respublikasının qətiyyətli siyasəti sayəsində sülh və əmin-amanlıq gəlmişdir. Bu isə bir daha Ulu öndər Heydər Əliyevin ideya və əsasını qoyduğu daxili və xarici siyasi kursun nəticəsində, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu siyasi kusru bütün əsasları ilə həyata keçirməsi ilə mümkün olmuşdur.

Azərbaycan xalqı üçün bu gün nə xoş haldır ki, artıq onun Heydər Əliyevdən sonra, bütün dünyanın tanıdığı bir lideri – dünya lideri daha var!

İstifadə edilmiş ədəbiyyat

1. Novruzoğlu, R. XXI əsr... Azərbaycan dövlətçiliyinin təhlükə mənbələri. Milli təhlükəsizlik kontekstində / - 5 cilddə. – Bakı: NUR-A, - 2004, - 492 s.

3. Novruzoğlu, R., Oğuz, Y. Qarabağ: nəzarətsiz zona / Bakı: Ozan, - 2002, - 252 s.
4. Orucov, H. Heydər Əliyev və Azərbaycanda milli siyasət / Tbilisi: İntelekti, - 2003, - 172 s.
5. Piriyev, A. Siyasi strategiya və milli təhlükəsizlik / Bakı, - 2005, - 544 s.
6. Ruintən, K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti / Bakı: Adiloğlu, - 2008, - 260 s.

AZƏRBAYCANDA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ

Nuridə Qalib qızı Zülfüqarova
Mingəçevir Turizm Kolleci
tanirverdiyevairade94@gmail.com
https://orcid.org/0009-0003-4029-2298

Müasir ictimai inkişaf dövrünün əsas xüsusiyyətlərindən biri yer üzündə monokultural ölkələrin azalması, etnik müxtəlifliynin əksər insan icmaları üçün xarakterik olmasıdır. Buna səbəb olan əsas amillər arasında miqrasiya (məcburi və ya könüllü) böyük əhəmiyyət daşıyır. Hazırda müxtəlif milli, mədəni, dini qruplara mənsub olanlar eyni yaşayış massivində və ya yaxınlıqda dinc yaşayırlar. Bu amillərlə yanaşı, sosial-psixoloji amillər (məsələn, qarşılıqlı təhlükəsizliyin təmin edilməsi, millətlərarası münasibətlərin formalaşması, tərəflərin multikultural ideologiyanı qəbul etməyə meylliliyi və s.) və digər etnososial gözləntilər nəzərə alınır; qarşılıqlı mədəniyyət qəbul edən tərəfin (yerli əhalinin) və qəbul olunan tərəfin (miqrantların) münasibətinə əhəmiyyətli təsir göstərir. Digər tərəfdən, müxtəlif sahələrdə qeyri-sabitliyin çoxalması, cinayət nisbətlərinin artmasında adətən mədəniyyətlərarası fərqlər, dini fərqlər, eləcə də təhsil, intellectual səviyyə fərqləri əsas gətirilir. Beləliklə, belə nəticəyə gəlmək olar ki, miqrantlarla yerli əhali arasında münasibətlərin yaxşılaşdırılması üçün atılan addımlar hər iki tərəfin əsas təhlükəsizlik hissini, multikultural ideologiyanı qəbul etmələrini artırmağa yönəlməlidir.

Multikultural siyasətin əsas məqsədi hər hansı səbəbdən eyni icma daxilində yaşamağa məcbur olan müxtəlif mədəni və milli qrupların nümayəndələri arasında qarşılıqlı anlaşmanın qəbulunu gücləndirməkdir. Sözügedən məqsədə bir sıra mühüm komponent vasitəsilə nail olunur:

1) bütün etnik qrupların mədəni dəyərlərinin qorunub saxlanması və inkişafının dəstəklənməsi;

2) insanların, yəni müxtəlif etnomədəni qrupların nümayəndələrinin birgə, qarşılıqlı müsbət fəaliyyətinin mümkünlüyünü əks etdirən qruplararası ünsiyyətin təmin edilməsi, qrupların gündəlik həyatda bərabər iştirakına mane olan maneələrin yox edilməsinə yönəlik fəaliyyət göstərən mədəniyyətlərarası icmaların yaradılması;

3) mədəniyyətlərarası ünsiyyət.

Cəmiyyətin gündəlik həyatında etnik qruplara daxil olanların bərabər iştirakını təmin etməkdən ötrü rəsmi dilə də tələb yaranır. Qeyd edilən komponentlər arasında əlaqənin həyata keçirilməsi multikulturalizm fərziyyəsinin mahiyyətini açıqlayır. Multikulturalizm fərziyyəsi mədəni xüsusiyyətlərin və təhlükəsizlik hisslərinin qorunmasını müsbət mədəniyyətlərarası münasibətlərlə əlaqələndirir. Bu fərziyyəyə görə, əgər müəyyən etnik qrupun üzvlərində təməl təhlükə hissi varsa, onlar fərqli olanları qəbul edəcəklər. Əgər fərdlər və ya etnik qruplar (əhalinin miqrasiya olunmuş hissəsi nəzərdə tutulur) qəbul etdiyi cəmiyyətin həyatına daxil olsalar, eyni zamanda öz mədəniyyətlərindən qopmasalar, daha çox nailiyyətlərə nail ola bilərlər. Beləliklə, mədəniyyətlərarası münasibətlərin öyrənilməsinə həsr olunmuş tədqiqatların nəticələrindən məlumdur ki, "ikili əlaqələr"ə malik olanlar hər iki mədəniyyətdən həm dəstək, həm də resurslar alır və hər iki mədəniyyətin nümayəndələri ilə qarşılıqlı əlaqəyə girirlər. Bu vəziyyət psixoloji,

sosial, mədəni, həm də dini uyğunlaşma ilə müsbət əlaqəyə malikdir. Multikultural cəmiyyətdə müxtəlif etnik qrupların nümayəndələrinin qarşılıqlı tolerantlığına əsaslanan millətlərarası, qruplararası münasibətlər vacib şərtlərlə (xüsusən də hüquq bərabərliyi) qarşılıqlı qəbul əsasında həyata keçirilməlidir. Beləliklə, multikultural siyasətin yuxarıdakı komponentləri onun ən önəmli məqsədinə- multikultural cəmiyyətdə millətlərarası münasibətlərin təkmilləşdirilməsinə xidmət edir. Ümumiyyətlə, belə nəticəyə gəlmək olar ki, qəbul edən tərəf konkret icma daxilində dominant mövqe tutur və müsbət mədəniyyətlərarası münasibətlərin formalaşmasının əsas şərtləri təhlükəsizlik hissini təmin etmək, qəbul edən tərəfin multikulturalizm ideologiyasını qəbul etməkdir.

Azərbaycanda çoxmədəniyyətli mühit qədim zamanlardan formalaşıb. Nəticədə milli adət-ənənələrimiz, dini inanclarımız, ədəbiyyatımız, musiqimiz, yeməklərimiz, əşyalarımız etnik deyil, ümumbəşəridir.

Multikultural münasibətə radikal mövqedən yanaşan, şər toxumu səpən ermənilər belə bu anlayışın beynəlxalq əhəmiyyətini azalda bilməyəcək. Çünki zərdüştilik, yəhudilik, xristianlıq, pravoslavlıq, katoliklik, protestantlıq və islam dinlərinin Azərbaycanda geniş yayılması ölkəmizin tolerantlıq mədəniyyətini, Azərbaycanın mədəniyyətlərin qovşağında olmasını şərtləndirir. Tolerantlığa mənəvi borc, siyasi və hüquqi tələb kimi baxmaq lazımdır. Ulu öndər Heydər Əliyev demişdir: "Dünyada çoxlu böyük dinlər vardır. Hər dinin öz yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edirik, amma eyni zamanda heç vaxt başqa dinlərə mənfi münasibət bəsləməmişik, heç vaxt düşmənçilik etməmişik, düşmənçilik etməmişik və heç vaxt başqa insanları öz dinimizə tabe olmağa məcbur etməmişik" [2, s. 41].

Ümumiyyətlə, başqa dinlərə qarşı tolerantlıq, digər dinlərlə birgə, qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda və Qafqazda öz əksini tapmışdır. Azərbaycanda əsrlər boyu İslam dini ilə yanaşı, xristianlıq və yəhudilik də yaşamış və hər zaman yaşamaqdadır. Hesab edirik ki, insanlar dinindən və mədəniyyətindən asılı olmayaraq, bütün digər mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə hörmət etməli, bu dinlərin bəziləri üçün xoşagəlməz adət-ənənələrinə, qaydalarına qarşı dözümlü lmalıdırlar. Bütün bu qeyd olunanlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, ermənilərin Qafqaza gəlişindən sonra erməni xisləti, riyakarlığı və satqınlığı nəticəsində Qafqazın mənzərəsi dəyişib.

Azərbaycanda multikulturalizm ən qədim dövrlərdən mövcud olmuş, sonradan Sovetlər ölkəsinin mövcudluğu dönəmində müxtəlif xalqların nümayəndələrinin birgə inkişafı baxımından insanlar bir sıra təzyiqlərə məruz qalırdılar. Lakin, xalq öz kökünə dərindən bağlı olduğundan streotipləri qırmaq uğrunda mübarizəni davam etdirməklə, qədim ənənələri qoruyub saxladı. Nəhayət, Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra, onun adət-ənənələrinə qəlbən bağlı olan Ulu Öndər, cənab Heydər Əliyev multikulturalizmi dünyaya tanıtmaqda əvəzsiz işlər gördü. Azərbaycan xalqının keçmişini dərindən bilən siyasətçi Ümummilli lider Heydər Əliyev birinci növbədə xaricdə yaşayan soydaşlarımızı bir araya yığmağı, onlarla mütəmadi olaraq bu aspektdə iş aparmağı zamanın vacib probleminə çevirdi, eyni zamanda müstəqilliyimizin milli tellərinin bir-birinə bağlılığı üçün çox önəmli işlər gördü. Hər bir azərbaycanlının da ümdə vəzifəsi öz vətəninin sərvətlərini göz bəbəyi kimi qorumaq, xalqının keçmişini, mədəniyyətini, dinə sadiqliyini dünyaya sübut etməkdən ibarət olmalıdır. Ulu Öndərin layiqli davamçısı İlham Əliyev demişdir: "Multikulturalizmin alternativi yoxdur… Bizim üçün multikulturalizm dövlət siyasətidir və bizim həyat tərzimizdir" [1, s. 7]. Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq sözügedən sahə üzrə Azərbaycanda sivilizasiyalı dialoqlar aparılır, sülh və əməkdaşlıq haqqında müqavilələr bağlanır, beynəlxalq əhəmiyyətli tədbirlər keçirilir.

Azərbaycan öz tolerant ənənələrinə sadiq qalaraq mədəniyyətlərarası və millətlərarası gərginliyi aradan qaldırmış və multikultural dəyərlərə malik demokratik, hüquqi dövlətə çevrilmişdir. Qərbdə multikulturalizmdən, demokratiyadan millətçiliyə keçidin baş verdiyi, ksenofobiya, islamofobiyadan bəhs edildiyi bir zamanda Azərbaycan multikulturalizm modeli dünyaya örnək sayılır. Ölkəmizdə multikulturalizm milli və ümumbəşəri dəyərləri, mədəni

bərabərliyi, humanizmi, ədalət və mərhəməti, tolerantlığı, mədəni müxtəlifliyi və plüralizmi, birgəyaşayışı özündə əks etdirir. Ulu Öndər Heydər Əliyev qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif millətləri respublikamızın ən başlıca sərvəti kimi səciyyələndirirdi.

Özünəməxsus multikultural dəyərlərə malik qədim Azərbaycan özünü Şərqlə Qərbin mədəni-mənəvi sərvətlərin müxtəlif sivilizasiyaları və mədəniyyətləri ilə birləşdirir. Buna görə də müasir dövrdə ölkəmizdə multikulturalizm və tolerantlıq praktiki əhəmiyyət kəsb etmiş, demək olar ki, artıq həyat tərzinə çevrilmişdir. Təbii ki, bu keyfiyyətlərin qazanılmasında və yaşadılmasında ədəbi-bədii əsərlərimizin, Azərbaycan şair və yazıçılarının, eləcə də kütləvi informasiya vasitələrinin də payı az olmamışdır. Tarixə nəzər salsaq, görərik ki, multikultural həyat tərzinin Azərbaycanda qədim ənənələrə söykənən dərin kökləri vardır. Burada müxtəlif kökənli xalqlar dostluq və qardaşlıq mühitində humanizm şəraitində yaşamışlar və yaşayırlar.

İstifadə edilmiş ədəbiyyat

1. Abdulla K. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı, 2017. - 422 s.
2. Əbilov İ. Deyilən söz yadigardır. - Bakı, MM-S, 2019, 293 s.
3. Hacıyev A., Cəfərova E., Məmmədov İ. Multikulturalizmə giriş. – Bakı: - 2018. -372 s.
4. Niftiyev N. Multikulturalizm birgəyaşayışda stimul kimi / N. Niftiyev // 525-ci qəzet.- 2015.- 10 aprel.- № 62.- 4 s.

UĞURLU NİTQİN KOMPONENTLƏRİ VƏ ONLARIN ÜNSİYYƏTƏ POZİTİV-DƏYİŞDİRİCİ TƏSİRİ

Aygün Qnyaz qızı Əzizova
Mingəçevir Turizim kolleci
aygunazizova86@gmail.com
https://orcid.org/0009-0000-7562-2961

Bu gün milli təhsilin qarşısında duran əsas vəzifə müasir dövrün ruhuna və tələblərinə uyğun düşünməyi və yaşamağı bacaran, yüksək intellekt və qabiliyyət sahibi olan gənc nəslin, yeni kreativ ideyaların müəllifi olan, xalqını və vətənini böyük məhəbbətlə sevən vətəndaşın, nəhayət, həyatın, bu günün və gələcəyin qayğısını çəkən fədakar şəxsiyyətin yetişdirilməsidir. Belə şəxsiyyətin daha bir vacib əlaməti isə onun nitqi və bu nitqin sayəsində fikrini, düşüncələrini və ideyalarını tərənnüm etmək bacarığıdır.

Yaşadığımız müasir informasiya cəmiyyəti saysız-hesabsız məlumatlar toplumu kimi bizdən xüsusi, hətta fövqəladə əqli-intellektual hazırlıq tələb edir. Lakin "informasiya" (lat. *informatio* – izah etmək, təqdim etmək) anlayışının daxili quruluşuna nüfuz edəndə məlum olur ki, o, son dərəcə mürəkkəb elementlərdən ibarətdir. Hadisə və predmetlərin əlamətlərini "izah etmək" və "təqdim etmək" kimi prinsipial elementlərə əsalanan informasiya, həm də sözlərin və nitqin vasitəsilə onlara müvafiq görkəm və forma vermək, həmçinin onları dəyərləndirmək, izahat vermək, düşündürməyə sövq etmək, nəhayət, abstrakt anlayışlar haqqında təsəvvürlər yaratmaq kimi mürəkkəb missiyanı icra edir. Belə məlum olur ki, müasir dünya informasiyaların üzərində bərqərar olub. Bu dünyanı düzgün tərənnüm etmək üçün isə bizə, ilk növbədə, yüksək səviyyəli, anlaşılan, cazibədar, diqqəti cəlb edən, nəhayət, ifadələrlə zəngin və obrazlı nitq lazımdır. Məhz gözəl və səlis dilin sayəsində adekvat məzmun və məna kəsb edən, auditoriyanı cəlb edən və onda müvafiq motivasiya yaradan emal edilmiş, təşkil olunmuş və bir-biri ilə əlaqəsi olan verilənlərin külliyatından ibarət mahiyyət yaratmaq mümkündür. Bu vəzifənin yüksək səviyyədə həyata keçirilməsindən fərdin, şəxsiyyətin və

kollektivin uğuru asılıdır. Çünki bu gün intellektual-mədəni səviyyəsindən asılı olmayaraq, hər bir auditoriyanı, hər hansı tema ilə maraqlandırmaq və konkret zaman çərçivəsində dinləməyə məcbur etmək böyük əmək, bacarıq və qabiliyyət tələb edir. Məlumdur ki, informasiyanı vizual şəkildə və ya heç bir əyani kontakt olmadan əldə etmək imkanı qazanmış müasir insan canlı auditoriyaya əsla maraq göstərmir. Onu bu cür rejimdə "könüllü ünsiyyətə" cəlb etməyə isə yalnız fövqəladə ustalıq qabiliyyəti, çox gözəl nitqi, xarizması və aktyorluq bacarığı olan natiq nail ola bilər. Bu zaman onun təkcə predmet və hadisə haqqında lazımi biliklərə, faktlara və ideyalara mükəmməl səviyyədə sahib olması, təqdimat predmeti olan mövzunu, onun müxtəlif element və detallarını konstatasiya etməsi kifayət deyil. Ünsiyyətin uğurlu olması və auditoriyanın maraqlı tərəf kimi səmimi şəkildə prosesdə iştirak etməsi üçün onu, bir növ sehirə salan, zamanı unutmağa vadar edən, pozitiv intriqa yaradan kəlmələrdən, çağırış və iddialardan, lazım gəldikdə isə söz oyunundan, aforizmlərdən, məcazlardan, bədii ifadələrdən, nəhayət pafosdan və intonasiyadan istifdə edilməsi şərtdir. İnformasiyanın təqdim edilməsi prosesində gərəkli olan mühüm elementlərdən biri də interpretasiya, yaxud təfsirdir. Nitq söyləyən şəxsin bu elementdən istifadə etməsi, adətən təfəkkürdə kök salmış stereotipləri metodiki və məqsədyönlü şəkildə sındırmaq anlamına gəlir. Bu isə daim yeniliyə və emosionallığa can atan insanı cəlb edən əlamətdir. İnterpretasiya nəzəri-idraki və elmi kateqoriya kimi obyektlərin xarici əlamətlərinin öyrənilməsi sayəsində onların daxili quruluşunun dərk edilməsinə istiqamətlənir. Bu əlamətlərin açılması isə spesifik izahat gücü sözlərdən və ifadələrdən istifadəni nəzərdə tutur [3]. Tanınmış ABŞ yazıçısı, ədəbiyyatçısı və filosofu Syuzan Zontaq (əsl adı Rozenblatt - 1933-2004) iddia edirdi ki, nitq söyləyərkən interpretasiya etmək "sehrli mahiyyətlər dünyası yaratmaq naminə real dünyanı yoxsullaşdırmaq və qurutmaq" deməkdir. Müəyyən mənada Syuzan Zontaqın iddiaları həqiqətə uyğun gəlsə də, intrepetasiyanın nitqə və ünsiyyətə verdiyi səmərə daha mühüm əhəmiyyət kəsb edir. S.Zontaq öz müddəalarında interpretasiyanın əksi olan üsulların natiq üçün daha böyük uğur gətirəcəyini sübut etməyə çalışırdı. Bununla əlaqədar nitq söyləyən təmiz və məqsədli element və vasitələrdən, xüsusi müraciət formalarından elə ustalıqla istifadə etməlidir ki, "dinləyicilər istər-istəməz onun təzyiqi altına düşsünlər və öz iradələrini onlara tabe etsinlər" [5].

Nitqin leksik və qrammatik zənginliyini təmin edən vacib elementlərdən biri də məcaz və ya metaforadr. Məcaz dolayı mənada işlənilən söz və yaxud ifadə deməkdir. O, sözün məzmununu və xarakterini predmetin və ya hadisənin digər predmet və ya hadisələrlə onların ümumi əlamətləri əsasında müqayisə edir. "Metafora" formasında "məcaz" anlayışını elmi dövriyyəyə qədim yunan filosofu Aristotel (e.ə. 384-322) daxil etmişdir. O, əsərlərində həmin anlayışı həyat situasiyalarının təqlidi sənəti kimi təqdim edirdi. Aristotelin məcazları *sinekdox* (müştərək anlayışlar, variant və ya versiya, - trop, metonimiyanın bir növü, ümumi olanın adının xüsusi olanın adına köçürülməsi kimi təzahür edən stilistik üsul), *hiperbola* (şişirtmək - söylənilən fikrə məqsədyönlü şəkildə əlavə, daha sanballı ifadəlilik qatmaq məqsədi ilə tətbiq edilən stilistik üsul), müqayisə (bir predmetin və yaxud hadisənin ümumi əlamətlərinə görə digər predmetə və ya hadisəyə öxşadılması) və ya cildləşdirmə (təbiət qüvvələrinin, obyektlərin və mücərrəd anlayışların insan timsalında təqdim olunması) kimi anlayışlardan, demək olar ki, seçilmirdi. Bütün dünya dillərində, o cümlədən Azərbaycan dilində istifadə olunan məcazlar, bir qayda olaraq, nitq və ünsiyyət prosesində estetik məqsədlərə xidmət edir və ünsiyyət zamanı sözün ilkin mənasını arxa plana keçirir. Məcazların əsasında predmet və hadisələrin müxtəlif əlamətləri (forma, rəng, həcm, təyinat, vəziyyət və s.) durur. Bu baxımdan məcazlar aşağıda göstərilən fərqli kateqoriyalara bölünür:

1. Nominativ məcaz - omonimləşmənin mənbəyi kimi çıxış edən bir deskriptiv (predmetin və yaxud hadisənin əlamət və xarakterinin dəqiq təsviri) işarətin digəri ilə əvəz edilməsi.

2. Obrazlı məcaz - fiqural anlayışların və sinonimlik vasitələrinin inkişafına xidmət edir.

3. Koqnitiv məcaz - polisemiya yaradan predikat sözlərin yerinin dəyişdiriləməsi nəticəsində yaranır. Qeyd edək ki, dilçilikdə və ədəbiyyatda obrazyaradan və ya obrazlı məcazların xüsusi rolu və əhəmiyyəti var. Təsadüfi deyil ki, ədəbi planda məcaz obyektiv həqiqətin düzgün əks etdirilməsi vasitələrindən biri kimi çıxış edir. Rusiyalı linqvist və leksikoqraf İlya Romanoviç Qalperin (1905-

1984) məcazların insanın nitq mədəniyyətində oynadığı rolun əhəmiyyətini qiymətləndirərək qeyd edirdi ki, dildəki mücərrəd anlayışların konkret obrazlarını yaradan məcazlar ünsiyyət zamanı real mesajların müxtəlif şəkildə interpretasiya (təfsir) edilməsinə imkan yaradır. Məcazlar təkcə obrazlı (poetik) nitqin resursu rolunu oynamır, onlar həm də sözlərin yeni mənasının mənbəyi kimi çıxış edir. Bu zaman məcaz obyekti xarakterizə etməklə yanaşı, onlara münasibətdə nominativ (kimliyini müəyyən edən və sinifləşdirən) funksiyanı da icra edir. Bu halda məcazlaşma bir mənanın digəri ilə əvəz olunması kimi təzahür edir.

Müasir linqvistik nəzəriyyələrdə məcazların bir sıra fərqli növlərini də ayrıd edirlər:

- diafora - kəskin və təzadlı məcazlar, məna cəhətdən bir-birindən uzaq olan bəzi anlayışları uzlaşdırır;
- epifora - silinən məcaz, adətən hamıya məlum olan obrazsız ifadə şəklində təqdim olunur (məsələn, küt balta);
- ümumi poetik məcazlar (məsələn, qızıl payız);
- fərdi-müəllif məcazları - cəmi bir dəfə konkret müəllif tərəfindən ifadə olunur (məsələn, dünyanın çətiri);
- oxşar əlamətlərinə görə ifadə olunan məcazlar: məsələn, formal oxşarlıq (qızıl zəncir), rəng oxşarlığı (gümüş üzük - gümüş göl), yerləşmə oxşarlığı (quş qanadları - şəcərə qanadı), funksional oxşarlıq (quş dimdiyi - təyyarənin dimdiyi), qiymət oxşarlığı (aydın səhər - aydın baxış), təəssürat bağışlayan oxşarlıq (isti gün - isti münasibət), hərəkətin icra üsulu oxşarlığı (otağı tüstü bürüdü - içimi qorxu bürüdü).

Yuxarıda qeyd etdiyimiz kimi, məcazlar bədii fikrin ifadə olunmasında effektli vasitə rolunu oynayır. Müəllif (şair, yazıçı, ədib, aşıq, natiq və s.) bədii əsərdə və yaxud xüsusi pafosla söylənilən nitqdə bir sıra məcazlardan istifadə edir: koqnitiv məcaz, ekspressiv-obrazlı məcaz, ekspressiv-qiymətverici məcaz, indikativ məcaz, dil məcazları, poetik məcaz. Ədəbi əsərlərdə geniş istifadə olunan dil məcazları aşağıda qeyd edilmiş əlamətləri ilə seçilir:

1. Obrazla mənanın qovuşması.
2. Obyektlərin trivial taksonomiyalarının kontaktı.
3. Kateqoriyaların yerdəyişməsi.
4. Təsadüfi əlaqə və münasibətlərin aktuallaşdırılması.
5. Müxtəlif interpretasiyalardan (təfsir) istifadə olunması.
6. Motivasiyanın yoxluğu.
7. Obyektin mahiyyətinə nüfuz edilməsinin qısa yolu.

Linqvistikada məcazların ifadə olunan fikri alleqorik, dolayı, mücərrəd və müqayisəli şəkildə ifadə edən digər dil kateqoriyaları ilə yaxın və uzaq oxşarlıqları, həmçinin fərqləri mövcuddur. Bu kateqoriyalar içərisində tropu, litotanı, epiteti və ritorikanı xüsusi olaraq qeyd etmək lazımdır.

Trop - stilistik fiqur kimi təzahür edən, dilin obrazlılığını və nitqin bədii ifadəliliyini daha da gücləndirmək məqəsdi ilə istifadə olunan söz, yaxud ifadədir. Linqvistlər tropları "sözlərin mənası haqda təkrar düşünmək aktı" kimi qiymətləndirirlər. Bu baxımdan onlar tropu ironiya (predmet və hadisələrin həqiqi mənasının gizlədilməsi və onların təsadüflərlə əlaqədə olan işarətlərinin ön plana çəkilməsi, ironiyalar özündə istehza və hiylə xarakterli elementləri birləşdirir və bu zaman ironiya vasitəsi ilə müəyyən olunan obyektlər gülüş hədəfinə çevrilir, şübhə altına alınır, təqdir və ya tərif pərdəsi altında ifşa olunur və inkar edilir) və məcazın müxtəlif növləri ilə eyniləşdirirlər. Tropların çoxsaylı növlərindən biri də metonimiya hesab olunur. Metonimiya ("ad dəyişdirmək") - tropun bir növü kimi qəbul olunsa da, onun çoxlu sayda özünəməxsus əlamətləri də vardır. O, predmeti və ya hadisəni bildirən bir sözün predmet, yaxud hadisə ilə zaman, məkan və s. baxımdan əlaqəsi olan digər sözlə əvəzlənməsi kimi ifadə olunan söz birləşməsi kimi çıxış edir. Metonimiya predmet və ya hadisələri ifadə edən bütövlüyü hissə ilə, məcaz isə onları oxşarlıq əlamətlərinə görə bir-birilə əvəz edir [4].

Epitet - nitq prosesində sözlərə əlavə olunan xüsusi emosional-psixoloji xarakterli semantik yükdür. Ədəbiyyatda epitetlə bağlı təsdiq olunmuş vahid müəyyənlik yoxdur. Bəzi ədəbiyyatçılar onu nitq fiqurlarına (ritorikada və ya stilistikada müxtəlif nitq konstruksiyalarını ifadə edən termin, nitqə obrazlılıq yaradır, ona stilistik məna verir və emosional rəngini dəyişir) aid edir, digərləri isə poetik təsvirin müstəqil vasitəsi hesab edir. Natiqlik sənətində "bəzək vuran" epitetlərdən də geniş istifadə olunur. Ümumi mənada epitet təkcə sifətlərlə deyil, həm də isimlərlə, saylarla və zərflərlə ifadə oluna bilir [2].

Qeyd etmək lazımdır ki, metaforik epitetlərin geniş yayılmış növlərindən biri də animalistik (zooepitetlər) epitetlərdir. Bu cür epitetlərin köməkliyi ilə insan və ya insan qrupları heyvanlarla müqayisə olunur (məsələn, "dəvə kimi kinli", "fil kimi hafizəli", "qatır kimi tərs", "tülkü kimi hiyləgər", "dovşan kimi qorxaq"). Zooepitetlərdən peyrotivlər (predmetə və yaxud hadisəyə münasibətdə mənfi qiymət, - qınaq, tənbeh, lənət, ironiya, lağ, nifrət və s. ifadə edən söz və ya söz birləşməsi) kimi də istifadə olunur [1].

Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində "dil və nitqin sirlərini öyrənən tələbələrin yüksək nitq qabiliyyətinə və dil kompetensiyasına yiyələnmələri üçün müxtəlif təlim texnologiyalarından, effektli üsul və vasitələrdən istifadə olunur. Təlimlər zamanı tələbələrin ifadəli nitqinin davamlı inkişafı, onların nitq mədəniyyətinin və dil üzrə adekvat kompetensiyasının formalaşdırılması aktual məslə kimi daim diqqət mərkəzində saxlanılır. Tələbələrin ifadəli nitqinin inkişafında çox mühüm rol oynayan elementlər sırasında təsviri vasitələrin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu prosesdə təhsilalanlar təsviri vasitələri yeninin dərk edilməsi üsulu kimi mənimsəyir, ətraf mühitə fərqli baxmaq imkanı qazanır və məntiqə uyğun şəkildə dil strukturlarını quran köməkçi elementlərə sahib olurlar. Obrazlı və ifadəli vasitələrin spesifik xüsusiyyətləri bu zaman təhsilalanlarda adekvat motivlər yaradır. Həmin motivlərin təsiri altında tələbə dil və onun incəlikləri ilə bağlı mühüm elementlərə yiyələnir və bu sahədə şəxsi əqidə sahibi olur.

Belə məlum olur ki, bu gün informasiya cəmiyyətində spesifik zərurətə çevrilmiş düzgün nitqi üç vacib əlamətin vəhdərindən yaranmış bütövlük kimi təzahür edir:

1. Zənginlik (leksik baxımdan),
2. Dəqiqlik (qrammatik baxımdan),
3. İfadəlilik (məcazlaşma və ya müqayisə imkanları baxımından).

Beləliklə, nitqin ifadəli və yüksək səviyyədə cazibədar olması üçün, ünsiyyətin və ya verbal kommunikasiyanın tələblərinə cavab verən xüsusi dil vasitələrindən istifadə olunması əsas şərt kimi ortaya çıxır.

İstifadə edilmiş ədəbiyyat

1. Campbell, Gordon Lindsay. The Oxford Handbook of Animals in Classical Thought and Life.-
Издательство Оксфордского университета, - 2014. - p. 145-147
2. Москвин В.П. Язык поэзии. Приёмы и стили: Терминологический словарь / В.П.Москвин. - Москва: -2017. - с. 448-451
3. Россиус, Ю.Г. Учение о ценностях в теории интерпретации Эмилио Бетти // История философии. - 2015. - Т. 20. – 141 с.
4. Səfərli, E., Bayramova K. Bədii Təsvir və ifadə vasitələrinin tədrisi / E.Səfərli, K.Bayramova; - Bakı, Gənclik, -2020. – 536 s.
5. Зонтаг, С. Против интерпретации и другие эссе / С.Зонтаг. – М.: «Ад Маргинем Пресс», - 2014. – 14 с.

CƏMİYYƏTİN İCTİMAİ MÜNASİBƏTLƏRİNİN İDARƏÇİLİK TRANSFORMASİYASINDA HEYDƏR ƏLİYEVİN MİSİLSİZ ROLU

[1,2]**Ülviyyə Babək qızı Məmmədova,** [1,3]**Əminə Salman qızı Məmmədova**
[1]Mingəçevir Turizm Kolleci
[2]ulviyyememmedova729@gmail.com
http://orcid.org/0009-0003-9664-9636
[3]emine.memmedova@gmail.com
http://orcid.org/0009-0001-8270-0195

Heydər Əliyev idarəçilik məktəbinin nəzəri və praktiki əsasını onun Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi siyasi-iqtisadi fəaliyyət və prinsiplər təşkil edir. Heydər Əliyevin inzibati fəaliyyətinin əsas istiqamətləri və prioritetləri təhlil edilmiş, onun dövlət idarəçiliyi sahəsində həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas istiqamətləri və strateji hədəfləri elmi və praktiki cəhətdən əsaslandırılmışdır. Bu məqsədlə Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə ümumi daxili məhsulun artım templəri, sənaye məhsullarının istehsalının göstəriciləri (mülkiyyət növləri üzrə), eləcə də sənaye məhsullarında özəl bölmənin artım dinamikası təhlil edilib. Bu təhlillərdən belə nəticəyə gəlmək olar ki, Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi inkişafın əsas xəttini ümumi daxili məhsulda özəl sektorun çəkisinin artırılması təşkil edirdi.

Ulu Öndərin siyasi kursunun davamçısı kimi İlham Əliyevin siyasi dövlət idarəçilik fəaliyyətinin uğurla davam etdirilməsi iqtisadi sahədə makroiqtisadi göstəricilərin uğurlu dinamikasından aydın görünür. Bu, möhtərəm Prezidentimiz İlham Əliyevin Ümummilli Liderin siyasi və iqtisadi xəttinin layiqli davamçısı olması ilə bağlıdır. Bu cür davamlı fəaliyyət, təbii ki, ölkəmizin siyasi və sosial-iqtisadi fəaliyyətinin inkişafının əsasını təşkil edir [1, s.100-107].

Azərbaycan dövlətçiliyinin memarı Ulu öndər Heydər Əliyev dövlət idarəçiliyi sahəsində özünün misilsiz xidmətləri və əməlləri ilə idarəçilik praktikasında yeni məktəbin əsasını qoydu. Biz bu məktəbi Ulu Öndərin idarəçilik fəaliyyətində özünəməxsus strategiyaları, hədəfləri, missiyaları, gələcəyə baxış konsepsiyalarını özündə birləşdiən müasir idarəçik nəzəriyyələrinin məcmusu kimi dəyərləndirə bilərik. Çoxəsrlik dövlət idarəetmə ənənələrinə malik olan xalqımızın idarəçilik tarixində Heydər Əliyevin siyasi fəaliyyəti əvəzsis yer tutur. Fəxrlə deyə bilərik ki, xalqımız özünün ümummilli dövlətçilik amallarına Ümummilli lider Heydər Əliyevin sayəsində nail ola bildi. Sözsüz ki, bu nailiyyətin əsasını Heydər Əliyevlə xalqın vəhdəti və birliyi təşkil etmişdir. Bu təcrübədən yararlanmaqla gənclərimizin idarəçilik və yaradıcılıq təşəbbüslərinə yiyələnməsi onların gələcək idarəçilik perspektivlərinin əsasını təşkil edir. Gənclərimizin bu ruhda tərbiyələnməsi vətəndaş cəmiyyətimizin inkişafı üçün xeyli əhəmiyyət kəsb edir. Ölkəmizin makroiqtisadi mühitini müəssisələrin strateji fəaliyyəti və təkmil rəqabət strategiyası üçün münbit hesab etmək olar. Ümummilli lider Heydər Əliyev Azərbaycanda iqtisadi tərəqqinin mənbələrindən biri hesab edilən sahibkarlıq mexanizminin, respublikaya investisiyaların cəlb edilməsinin iqtisadi sahədə qanunvericilik bazasını yaratmış, yeni yaranmış dövlətdə istehsal münasibətlərinin əsasını qoymuşdur. Heydər Əliyevin münbit iqtisadi mühitin formalaşması və inkişafında xüsusi rolu ondan ibarət olmuşdur ki, o, Azərbaycanın bütün sahədə inkişaf strategiyasını müəyyənləşdirdi, rəqabətədavamlı iqtisadiyyatın əsasını qoydu, əsrin müqaviləsinin bağlanmasına, özəlləşdirməyə dair Dövlət Proqramının hazırlanması və həyata keçirilməsinə nail oldu.

Xarici siyasətin Azərbaycan modeli Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz beynəlxalq aləmdə tanınmağa başladı. Xarici siyasətin Azərbaycan modeli kimi tanınan siyasət mexanizmi Azərbaycanın diplomatik siyasətini öz milli maraqlar çərçivəsində qurdu. Azərbaycanın Xarici siyasətində mövcud reallıqlar nəzərə alınmaqla, ölkənin siyasi, iqtisadi, ərazi mənafelərinin qorunmasına yönəldilmiş bir sıra əməli dəyişikliklər edildi. Ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri, habelə Avropa ölkələri, ABŞ-la, post

sovet ölkələri, Türkiyə və türkdilli dövlətlərlə, müsəlman dünyası ilə prioritetləri müəyyənləşdirildi. 80-ci illərin sonlarında ərazilərimiz erməni qəsbkarlarının işğalçılıq siyasətinə tuş gəlməklə, həmvətənlərimiz ev-eşiklərindən didərgin düşmüş, doğma torpaqlarından qaçqın düşərək çox böyük və dözülməz sosial problemlərlə rastlaşdılar. Öz doğma torpaqlarından qovulmuş soydaşlarımız ev-eşiklərindən daimi yaşayış yerlərindən məhrum olaraq, respublikamızın bir sıra rayon və şəhərlərində məskunlaşdılar. Ümummilli Liderimiz Heydər Əliyevin sosial-iqtisadi strategiyasının və uzaqgörən siyasətinin sayəsində həmvətənlərimiz məskunlaşdıqları ərazilərdə qışlaq və yaylaq sahələri, əkin yerləri ilə təmin olundular. Heydər Əliyevin apardığı xarici siyasətin və hərbi strategiyanın məntiqi nəticəsidir ki, Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi və ordumuzun rəşadəti nəticəsində işğal altında olan torpaqlarımız azad olundu. Qarabağ münaqişəsinin həlli istiqamətində Ulu Öndər Heydər Əliyev problemin beynəlxalq normalar çərçivəsində həllinə istiqamətlənmişdir [2, s.1].

Azərbaycan dünya informasiya blokadasında idi. Bu informasiya blokadasını yarmaq, həqiqəti dünyaya bəyan etmək, Azərbaycanın hərbi-siyasi potensialını artırmaq prosesi müəyyən zaman və işlərin həyata keçirilməsini tələb edirdi. Bu cür strateji fəaliyyətin bünövrəsi və başlanğıc mərhələləri Heydər Əliyevin rəhbərliyi ilə başladı. Lakin strateji fəaliyyətin növbəti mərhələsi İlham Əliyevlə uğurla davam etdirildi, nəticədə torpaqlarımız işğaldan azad edildi. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı səmərəli və məqsədyönlü siyasət özünün nəticələrini verdi. Azərbaycan dövlətinin iqtisadi prioritetləri Heydər Əliyevin idarəetmə prioritetlərindən biri ölkəmizi qlobal məkanda iqtisadi cəhətdən güclü dövlətə çevrilməsindən ibarət idi. Bu məqsədlə o, ölkənin iqtisadi inkişafına yönəlməklə, makroiqtisadi göstəricilərin inkişafını, sənayenin, eləcə də emal sənayesinin inkişafını hədəf seçmişdir. Sovetlər məkanının dağılması ilə müstəqil dövlətə çevrilən, Qarabağ müharibəsinin ağrıacısından iqtisadi zərər çəkən respublikamız özünün çətin dövrlərini yaşayırdı.

Məhz Heydər Əliyevin hakimiyyətə gəlişi və qayıdışı xalqa bu iqtisadi böhrandan çıxmaq ümidini verdi. Çox keçmədi ki ölkəmizdə iqtisadi tənəzzülün qarşısının alınması və islahatların aparılması məqsədilə düzgün iqtisadi siyasət aparmaqla Ümummilli Liderimiz iqtisadi inkişafın əsasını qoydu. Bu inkişaf ümumi daxili məhsul göstəricisinin dinamikasından da aydın görsənir.

Ulu öndər Heydər Əliyevin iqtisadi siyasəti geniş izah olunmuş, onun hakimiyyəti dövrü üçün ölkənin makroiqtisadi göstəricilərinin təhlili aparılmaqla, siyasi liderin idarəçilik fəaliyyətinin uğurlu nəticələri müzakirə olunmuşdur. Bu məqsədlə də biz Heydər Əliyevin hakimiyyəti illərində ümum daxili məhsulunun artım templəri, sənaye məhsulunun istehsal (mülkiyyət növlərinə görə) göstəricilərinin, habelə özəl sektorun sənaye istehsalındakı xüsusi çəkisininin artım dinamikası təhlil olunmuşdur. Bu cür təhlillər deməyə əsas verir ki, Heydər Əliyevin idarəçilik fəaliyyəti dövründə iqtisadiyyatın inkişafının əsas xəttini ümumdaxili məhsulda özəl sektorun xüsusi çəkisinin yüksəldilməsi təşkil etmişdir [1-5].

Ulu öndər Heydər Əliyev Azərbaycanda milli enerji strategiyasinin banisidir. "Azərbaycanda energetika sahəsinin inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin iştirakı ilə Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılan, gücü 2400 MVt olan 8 enerji blokundan ibarət "Azərbaycan" İstilik Elektrik Stansiyasının birinci bloku istismara verildi. Bu hadisə ilə əlaqədar olaraq indi 20 oktyabr hər il təqvimdə Azərbaycan energetiklərinin peşə bayramı günü kimi qeyd olunur. Ümummilli liderimizin xalqımıza bəxş etdiyi töhfələr sırasında xüsusi yeri, çəkisi olan "Azərbaycan" İES bu gün də müstəqil dövlətimizin enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rola malikdir. "Enerji problemini həll etmədən ölkədə nə işsizlik, nə yoxsulluq problemini həll etmək mümkündür. Bu gün enerji probleminin həlli dünya dövlətləri üçün ən ümdə vəzifələrdən biridir. Dövlət başçılarının görüşlərində gündəlikdə duran məsələlər sırasında enerji məsələləri ilk sırada yer alır. Dünyada baş verən münaqişələrə diqqət yetirsək, bunun məğzində də, məhz enerji məsələsinin, enerji mənbələrinə sahib olmağın dayandığının şahidi olarıq. Sevindirici haldır ki, Azərbaycanda bu gün enerji təminatı sahəsində heç

bir maneə yoxdur və bu problemin həllinə hələ Ulu öndər Heydər Əliyev respublikamıza birinci dəfə rəhbərlik etdiyi illərdə nail ola bilmişdi.

1993-cü ilin iyul ayında "Ostankino" dövlətlərarası televiziya şirkətinin müxbirinin ünvanladığı "Azərbaycanın gələcəyini necə görürsünüz?" sualına Heydər Əliyev özünəməxsus dövlətçilik məharəti ilə belə cavab vermişdi: *"Mən belə hesab edirəm ki, Azərbaycan müstəqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır. İndi başqa zəmanədir. Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət kimi görürəm".*

Azərbaycanın müstəqilliyinin təminatçısı ola biləcək əsas vasitə o illərdə məhz neft idi. Amma zəngin neft ehtiyatlarına malik Azərbaycanın bu sərvətdə marağı olan geosiyasi güclərin mümkün mübarizə meydanına çevrilməməsindən ötrü düzgün strateji qərarlar tələb olunurdu. Heydər Əliyevin irəli sürdüyü yeni neft strategiyası bu baxımdan bütün amilləri nəzərə alırdı. Bu strategiya ölkəmizin zəngin neft-qaz ehtiyatlarının qabaqcıl texnologiyanın köməyi ilə hasilatına, xarici bazarlara ixracı, satışı və əldə olunan gəlirlərin cəmiyyətin iqtisadi tərəqqisinə yönəldilməsinə imkan yaratdı.

Azərbaycanın nüfuzunu yenidən bərpa etmək, ölkəmizin neft sənayesində yeni texnologiyaların tətbiqi hesabına hasilatın artımına nail olmaq Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlərin mühüm hədəfləri idi. Neft təsərrüfatının yenidən qurulması, xüsusilə əsas diqqətin dənizdə neftçıxarmaya yönəldilməsi, bu məqsədlə dənizin dərinliklərindəki sahələrdə işləməyə imkan verən qazma qurğularının, mürəkkəb tikinti işlərini təmin etməkdən ötrü xüsusi gəmilərin, texniki avadanlıqların alınması nəticəsində Azərbaycanın neft sənayesi yeni inkişaf mərhələsinə daxil oldu. Bu günə kimi də, Prezident İlham Əliyev Ulu Öndərin neft emalı, neft-kimya, elektroenergetika sahəsində əsasını qoyduğu işləri də Azərbaycan üçün möhtəşəm nəticələrə çevirir. Bütün bunlar xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin uğurları sayəsində bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan ölkəmizin energetika sektorunda əldə etdiyi nəticələrin yalnız müəyyən bir hissəsidir. Azərbaycan energetikləri qlobal inkişaf dəyişikliklərinə uyğunlaşmaqla, istehsal portfelində şaxələnmə və səmərəli idarəetməyə nail olmaqla bu xəttin bundan sonra da davam etdirilməsi missiyasını şərəflə yerinə yetirəcək, müasir və güclü Azərbaycanın gələcəyinin daim işıqlı olmasına fədakar əməkləri ilə töhfə veribdir [4, s.444].

Dövlət qarşısındakı misilsiz xidmətləri ilə ölkəmizi regionun əsas inkişaf mərkəzinə çevirən, Azərbaycana Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısı, qitələri birləşdirən kommunikasiya qovşağı, mədəniyyətlərarası dialoq məkanı statusu qazandıran Ümummilli Lider, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam olur. Bu, bütün həyatını milli ideyaların reallaşmasına həsr edən, ən çətin məqamlarda xalqın yanında olan və xilaskarlıq missiyasını üzərinə götürən, çətinliklərə, maneələrə baxmayaraq insanları aydın məqsədlərə doğru apararaq zamanın axarını dəyişən böyük dövlət adamının, dahi şəxsiyyətin öz şərəfli ömrü ilə yaratdığı böyük bir tarixdir.

Heydər Əliyevin həyatının, siyasi və dövlətçilik fəaliyyətinin salnaməsi Azərbaycan milli dövlətçiliyinin inkişafı və möhkəmlənməsi tarixi, ölkə həyatında çətin bir dövrün parlaq səhifələridir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi həyatında tərəqqi ilə xarakterizə olunur. Əminliklə qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan Respublikasının, onun dövlət quruculuğunun, Əsas Qanununun – Konstitusiyasının işlənib hazırlanmasının əsas memarı məhz Heydər Əliyev olmuşdur. Məhz onun sayəsində ölkəmizdə hüquqi, dünyəvi və demokratik dövlət qurulub və hazırda uğurla inkişaf edir. Azərbaycan güclənir, dünya ictimaiyyəti tərəfindən haqlı olaraq geniş şəkildə tanınır.

Respublikada Heydər Əliyevin məruzələri, çıxışları, bəyanatları, məktubları, müraciətləri, fərmanları, söhbətləri və müsahibələri çox böyük dəyərə malik olan fundamental çoxcildlik

silsiləsinə birləşdirilib. Onlar hamısı birlikdə əvəzsiz salnamə, əvəzolunmaz mənbə, respublikanın tarixini qiymətləndirmək üçün əvəzsiz istinad nöqtəsi, Azərbaycan tarixini əhatə edir.

Heydər Əliyevin çoxsaylı xarici səfərləri Azərbaycanın dünya birliyində nüfuzunun əhəmiyyətli dərəcədə artmasına səbəb olmuş, ölkəyə qarşı qərəzli münasibət məhv edilmiş və istənilən respublika haqqında bir növ mif və uydurmalar aradan qalxdı, normal dövlətlərarası münasibətlər qurulmağa başladı, bir sözlə, dünya Azərbaycan həqiqətlərini öyrənməyə başladı [5, s.155].

Heydər Əliyev təhsil sahəsində hər hansı islahat, hər hansı yenilik həyata keçirərkən yalnız təkamül yolu ilə hərəkət etməyi zəruri hesab edirdi və bu prosesdə bütün cəmiyyətin iştirakı məcburi idi. "Təhsil sistemi elə bir sistemdir ki, orada inqilabi dəyişikliklərə yol verilmir. Və ümumiyyətlə dəyişikliklər həyatımızın bütün sahələrində təkamül xarakteri daşıyır. Təhsil haqqında qanun elə qanundur, təhsil islahatları elə islahatlardır ki, iqtisadiyyatdan, maliyyədən və digər sahələrdən fərqli olaraq bütün cəmiyyətin iştirakı vacibdir. Təhsil və mədəniyyətin idarə edilməsi, hər bir cəmiyyətin inkişafı və sahibkarlıq potensialının artırılması üçün əhəmiyyətli bir məsələdir. Təhsil və mədəniyyət idarə edilməsi, inkişaf edən, dinamik bir cəmiyyətin inkişafını təmin etmək üçün təşəbbüsləri təşkil edir. Bu sahələrin idarə edilməsi, onların məqsədlərinə nail olmasını və effektiv işləməsini təmin etmək üçün müəyyən bir struktura və sistemin yaradılmasını, təşkilatlanmasını və rəhbərliyini daxil edir. Təhsil idarə etmək, təhsil müəssisələrinin və proqramlarının hazırlanması, təşkil edilməsi və nəzarəti ilə bağlı məsələləri əhatə edir. Bir cəmiyyətin təhsil sistemi, yeni nəsilin yetişdirilməsi və onların potensiallarının maksimum inkişafını təmin etməlidir. Təhsil idarə edilməsi, tələbələr üçün möhkəm bir əsas, yaxşı müəllimlər, effektiv proqramlar və infrastrukturun təmin edilməsini daxil edir. Ayrıca, təhsilin keyfiyyətini yüksəltmək üçün monitorinq, qiymətləndirmə və sərhədləndirmə sistemlərinin də inkişaf etdirilməsi əhəmiyyətlidir. Bu Mədəniyyəti idarə etmək, bir cəmiyyətin mədəni varlığını qorumaq, inkişaf etdirmək və mədəni mədəniyyətin özünü təqdim etmək üçün tədbirlərin təşkil edilməsi ilə bağlıdır. Bu, teatr, kinoteatr, muzeylər, gənc sənətçilərin dəstəklənməsi, ədəbiyyat, musiqi və digər mədəni sahələrlə bağlı tədbirləri əhatə edir. Mədəniyyət idarə edilməsi, bu sahələrin maliyyəl təminatı, icraçı orqanların formalaşdırılması və proqramların təşkilatlanması ilə bağlıdır. Həm də bu, mədəniyyətin daha geniş cəmiyyətə təqdim edilməsi üçün ictimaiyyət proyektlərinin təşkil edilməsi və təşviqi ilə bağlıdır. Effektiv idarəetmə tədbirləri, bu sahələrin daha böyük əhəmiyyətə sahib olmasını və insanların potensiallarını tam inkişaf etdirməsini təmin edir. Bu sahələrin idarə edilməsi, birləşdirilmiş bir struktur və məsuliyyət sisteminin yaradılmasını və inkişafını təmin etməyi mütləq edir [3, s.492].

Əslində, ölkədə aparılan bütün islahatların ideoloji lideri, memarı və yaradıcısı olan Azərbaycan Prezidenti xalqın milli sərvəti, dünya miqyasında tarixi şəxsiyyətdir. Bu böyük şəxsiyyətin əsas arzusu xalqın intellektual səviyyəsini yüksəltmək, təhsilimizi, elmimizi, mədəniyyətimizi beynəlxalq standartlar səviyyəsinə çatdırmaq, humanitar sahədə islahatları uğurla başa çatdırmaq niyyəti olmuşdur.[1-3]

Bütün bu nailiyyətlər yalnız ölkəyə dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin rəhbərlik etməsi sayəsində mümkün olmuşdur. Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatında özəlləşdirmə xeyli dərəcədə başa çatdırılmış, torpaq orada işləyənlərin - kəndlilərin mülkiyyətinə çevrilmişdir. Kənd yerlərində yeni mülkiyyət forması fəal şəkildə qəbul edilir. Digər bütün sahələrdə sosial-iqtisadi quruculuq aparılır. Azərbaycanın dünya birliyinə inteqrasiya prosesi sürətləndi, dinamik səviyyəyə çatdı.

Heydər Əliyev tərəfindən yaradılmış azərbaycançılıq ideologiyasının fundamental prinsipləri, konseptual müddəalarının əsasında Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi; onun dönməzliyini və əbədiliyini təmin etmək; Azərbaycanın iqtisadi müstəqilliyinin təsdiqi; azad bazar münasibətləri, istifadə dairəsinin hərtərəfli inkişafı və genişləndirilməsi; Azərbaycan dili milli ideologiyanın ifadə vasitəsi; Azərbaycan xalqının mentaliteti; ümumbəşəri dəyərlərin, dünyəvi,

demokratik, hüquqi dövlət quruculuğu prinsiplərinin təmin edilməsi; təhsil müəssisələrində təhsil, tədris, təbliğat; vətənpərvərlik tərbiyəsinin önə çəkilməsi və s. məzmununda geniş əks olunmuşdur.

Ulu Öndərimiz bütün həyatı boyu xalqa arxalanıb. *"Mənim bütün həyat fəaliyyətim sonsuz sevimli Azərbaycan xalqına, dövlətimizə, ölkənin iqtisadi, siyasi və mənəvi inkişafına xidmət edib. Mən bu yolda bütün gücü və inamı müdrik və minnətdar xalqımızdan aldım".Ən çətin anlarda, ən çətin vəziyyətlərdə ancaq və ancaq xalqa arxalanmışam. Bu mənə dözüm, inam verdi və bütün uğurları təmin etdi".*

Müstəqil Azərbaycanın keçdiyi ən çətin sınaq günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərin doğruluğunu dəfələrlə təsdiqlədi. Heydər Əliyev Azərbaycanı xain cəhdlərdən, dövlət çevrilişi cəhdlərindən, üsyanlardan xilas etdi, ölkəni dirçəlişə, inkişafa apardı, cəmiyyətin öz gücünə inamını qaytardı, sabitlik və firavanlıq üçün şərait yaratmışdır. Onun Azərbaycanın, Azərbaycan xalqının gələcəyi ilə bağlı arzuları sarsılmaz idi. Gələcək düşüncələri ilə möhtəşəm layihələrin, böyük işlərin əsasını qoydu.

Onun üçün beynəlxalq münasibətlər və milli dəyərlər arasındakı münasibət əslində çox mürəkkəb və önəmli bir məsələ idi. Milli dəyərlər, bir ölkənin tarixi, mədəniyyəti, dinləri, etnik tərkibi və siyasi təşkilatlanması kimi bir çox amilləri əhatə edir. Beynəlxalq münasibətlər isə ölkələrin bir-birilə olan diplomatik, iqtisadi, siyasi və hərbi münasibətlərini nəzərə alır. Ölkələr özlərinin milli dəyərlərinə hörmət etməlidirlər və bu, hər hansı bir xarici təhlükə və müdaxiləyə qarşı müdafiənin bir hissəsidir. Lakin, bu milli dəyərlərə qoyulmuş çətinliklər vəziyyətin çətinliyini artırır. Beynəlxalq münasibətlər idarəedilməsinin əsas məqsədi, ölkələrin milli dəyərlərini qorumaq və eyni zamanda beynəlxalq əməkdaşlığı təmin etməkdir. Bu, ölkələrin diplomatiya yolu ilə danışaraq problemlərini həll etmələri və beynəlxalq təşkilatlar kimi platformalarda bir araya gəlmələri ilə baş verir. Bu, habelə ölkələr arasında müqavilələr, sazişlər və beynəlxalq qanunlar kimi formal razılaşmalarla da təmin edilə bilər. Beynəlxalq münasibətlərin idarəedilməsində milli dəyərlər haqqında məqalə, hər bir ölkənin özünün və başqalarının milli dəyərlərinə hörmət etmək və bu dəyərlərlə harmoniyada beynəlxalq əməkdaşlığı inkişaf etdirməsinin təklif olunur. Bu, dünya sülhünün və stabilliyasının qorunması üçün əhəmiyyətli bir addımdır və beynəlxalq münasibətləri daha sabit və müstəqil edir. Beynəlxalq münasibətlər və milli dəyərlər arasındakı əlaqə, ölkələr və həmrəylikləri təşkil edir. Milli dəyərlər, bir ölkənin tarixi, mədəniyyəti, sosial normları və özünü mühafizə etmək istədiyi dəyərlərin cəmiyyətdəki tərcüməsidir. Bu milli dəyərlər, ölkələr arasındakı münasibətlərin idarəedilməsində əhəmiyyətli bir rola sahibdir [3, s.492].

Beynəlxalq münasibətlər zamanı, ölkələr ərazi müstəmləkəçiliyinə qarşı qorunmaq üçün beynəlxalq hüququn təminatı üçün mübarizə apara bilərlər. Milli dəyərlər insan haqları və demokratiyanı dəstəkləyir. Ölkələr, bu dəyərləri beynəlxalq platformalarda təbliğ edir və digər ölkələrlə əməkdaşlıq edir. Dil və mədəniyyət milli dəyərlərin əsas hissələridir. Ölkələr, özlərinin dillərini və mədəniyyətlərini qorumaq və digər ölkələrlə mübadilə etmək arasında bir çərçivə təyin edir. Milli dəyərlər, ölkənin təhlükəsizliyini və müdafiə strukturlarını qurub saxlamağı tələb edir. Beynəlxalq münasibətlər, təhlükəsizlik təminatı və müdafiə sahəsində işbirliyini dəstəkləyir [2, s.1].

Ümummilli Lider tutduğu vəzifədən və şəraitdən asılı olmayaraq ən çətin məsələlərin məsuliyyətini öz üzərinə götürür, onların yüksək səviyyədə həllinə çalışırdı. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda sovet kommunist ideologiyasının hökm sürdüyü şəraitdə sosial, iqtisadi, elmi, mədəni və digər sahələrdə ciddi uğurlara imza atmaqla yanaşı, milli mədəni dəyərlərin qorunması istiqamətində də təsirli addımlar atılmış, milli-mənəvi dəyərlərimizin tədricən dirçəlişinə nail olunmuşdur.

Prezident İlham Əliyev Ulu Öndərin o dövrdəki fəaliyyətinə toxunaraq demişdir: "Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini müdafiə edən şəxsiyyət olmuşdur. Zamanından asılı olmayaraq, Sovet Azərbaycanı dövründə hansı siyasi vəziyyətdən asılı olmayaraq, o, on ildən artıq respublikaya rəhbərlik etmiş, Azərbaycan xalqının mənafeyini, hətta həmin ideoloji baryerlər daxilində də müdafiə etmişdir." Kimliyimizi qoruyub saxlamağımız üçün hər şeyi etməyə çalışırdı.

1970-ci və 1980-ci illərin əvvəllərində bir çox addımlar atdı. Hər bir xalqın tarixində çətin dövrlər olub, lakin hər kəs bu sınaqlardan uğurla çıxa bilməyib. Tarixdə şəxsiyyətin rolunu araşdıran əksər tədqiqatçıların ümumi fikrinə görə, belə hallarda hadisələri düzgün təhlil edib dəyərləndirməyi və lazımi addımları atmağı bacaran, qərar qəbul edə bilən liderin olması həlledici şərtlərdən biridir. Onlar haqlı olaraq qeyd edirlər ki, fərdi xüsusiyyətlər və qazanılmış təcrübə liderin xarakterini və davranışını izah edir. Bu o deməkdir ki, hər hansı hadisəyə münasibət fərdin xarakterinə, şəxsiyyətinə uyğun olaraq dəyişir və müxtəlif məzmunda özünü göstərir. Heydər Əliyevin qanlı 20 Yanvar hadisələri baş verən səhər Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək sovet qoşunlarının Bakıda törətdiyi qətliamı qətiyyətlə və sərt şəkildə pisləməsi onun böyük vətənpərvərliyinin ifadəsi idi. O dövrdə hakimiyyətdə olan qüvvələrin uğursuzluğu və zəifliyi onda idi ki, onlar nə ölkə daxilində, nə regionda, nə də bütövlükdə qlobal səviyyədə baş verən prosesləri, yeni dünya nizamını təsəvvür edə bilmirdilər. və orada Azərbaycanın yeri. İctimai-siyasi sabitliyi təmin etmək əvəzinə ölkədə gərginliyi artıran addımlar atıldı, səriştəsiz kadrların özbaşınalığı hələ də formalaşmamış idarəetmə sisteminə və dövlət institutlarının funksionallığına zərbə vurdu, hərbi və təhlükəsizlik məsələlərinin həlli isə birmənalı qarşıdurma tələb etdi. sistemli yanaşma, cəmiyyətdə terror ab-havası yaradan silahlı birləşmələr, xarici siyasət prioritetləri müəyyən edilmədən beynəlxalq münasibətlərin qurulması istiqamətində uğursuz addımlar atıldı. Belə bir şəraitdə sosial-iqtisadi və hüquqi islahatlardan danışmaq belə mümkün deyildi. Zaman dövlətin yaxın və uzunmüddətli prioritetlərinin, qarşısında duran vəzifələrin müəyyən edilməsini, bu vəzifələrin həyata keçirilməsi üçün cəmiyyətin bütün potensialının, maddi və mənəvi resurslarının səfərbər edilməsini tələb edirdi.

Ulu Öndər Naxçıvan kimi strateji coğrafi ərazini qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək, onun sosial problemlərini həll etməklə yanaşı, bütövlükdə Azərbaycanın müstəqilliyi uğrunda gərgin mübarizəyə başlayıb. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə işə başlayan 12-ci çağırış Naxçıvan Ali Sovetinin 1-ci sessiyasında "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında Naxçıvan Muxtar Respublikasının ali dövlət hakimiyyəti orqanı", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı olan muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarılıb. Respublikanın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsdiq edilməsi, respublika miqyasında analoji qərarın qəbul edilməsi üçün Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılıb. Bu, ulu öndərin Vətən qarşısında növbəti tarixi xidməti idi. Təbii ki, o vaxt gedən gərgin müzakirələrdə ziyalılar, cəmiyyətin tanınmış nümayəndələri, sadə vətəndaşlar ölkəni kimin fəlakətdən xilas edəcəyi ilə bağlı sual vermirdilər. Çünki cəmiyyətimizin yekdil fikri ondan ibarət idi ki, yalnız Heydər Əliyev kimi böyük siyasi təcrübəyə malik müdrik şəxsiyyət bu missiyanı öz üzərinə götürüb Azərbaycanı çətin vəziyyətdən xilas edə, dövlətçiliyimizi qoruyub saxlaya bilər [1].

1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə Bakıya qayıdan Heydər Əliyevin müdrik siyasəti, qətiyyəti və yenilməz iradəsi sayəsində Azərbaycan qısa zamanda təhlükələrin öhdəsindən gələ bildi, silahlı qarşıdurmaya son qoyuldu. bir yana, dövlət çevrilişi cəhdlərinin qarşısı alınmış, siyasi mübarizənin sivil və konstitusiya çərçivəsində davam etdirilməsi üçün əsaslar yaradılmışdır. Ulu öndər bütün məsuliyyəti üzərinə götürərək dövlətin yaxın və uzunmüddətli hədəflərini müəyyənləşdirdi, cəmiyyətin və ictimai münasibətlərin transformasiyası ilə bağlı zəruri resursları yeni əsaslar üzərində səfərbər etdi, dövlətin ardıcıl inkişafı üçün siyasi və iqtisadi baza formalaşdırdı. Azərbaycan. 1995-ci ildə Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi və hüquqi islahatların həyata keçirilməsinə başlandı. İflic vəziyyətinə düşmüş dövlət idarəetmə sistemi yenidən quruldu, dövlət strukturlarının işinə dair meyarlar və tələblər dəyişdirildi. Ulu Öndər bəyan edirdi: "Xalqın, millətin mənafeyi hər kəsin mənafeyindən üstün olmalıdır".

Heydər Əliyevin Azərbaycan xalqı və gələcək nəsillər qarşısında ən böyük xidmətlərindən biri milli ideoloji konsepsiyanın formalaşmasıdır. Qeyd edək ki, 200 ildən artıqdır müxtəlif

imperiyaların təcavüzünə məruz qalan Azərbaycan xalqının birliyi ideyası ciddi şəkildə deformasiyaya uğramış, cəmiyyətdə bir növ ideoloji boşluq yaranmışdır. 1990-cı illərin ortalarında milli kimlik haqqında müzakirələr gedəndə Heydər Əliyev böyük uzaqgörənliklə azərbaycançılıq ideyasını irəli sürdü və təbliğ etdi. Heydər Əliyev deyirdi: "Biz müstəqilliyimizi yalnız milli həmrəylik əsasında qoruyub saxlaya biləcəyik. Yalnız bunun əsasında Azərbaycanın xoşbəxt gələcəyini təmin edə bilərik. Məhz bunun əsasında biz Azərbaycanı müharibə şəraitindən çıxara biləcəyik. Məhz bunun əsasında biz Azərbaycanın ərazi bütövlüyünü təmin edə biləcəyik". Ulu öndərin tarixi əhəmiyyət kəsb edən bu fikirləri Azərbaycan xalqını bölünməz qüvvə, müstəqil dövlətimizi isə dünya azərbaycanlıları üçün vahid məkan hesab edir. Birləşdirici amil kimi çıxış edən azərbaycançılıq ideologiyası elmi və ictimai müzakirələrin istiqamətini müəyyən etmiş, Heydər Əliyevin *"Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"* ifadəsi Azərbaycan milli kimliyini qürur mənbəyinə çevirmişdir.

Azərbaycanın güclü iqtisadi potensialı müasir ordu quruculuğuna şərait yaratmışdır. Azərbaycan ordusu dünyanın aparıcı orduları sırasında layiqli yerini tutub. Ölkəmizdə müdafiə sənayesi formalaşıb, Silahlı Qüvvələrimiz ən müasir silah və sursatlarla təchiz olunub.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs xalqımızın həmrəyliyinin, dünya azərbaycanlılarının ümumi məqsədə nail olmaq naminə birliyinin möhkəmlənməsini təmin etdi.

Beləliklə, Prezident İlham Əliyevin fəaliyyətinin ikinci onilliyinin sonunda Azərbaycan iqtisadi və hərbi gücün yaratdığı potensialı reallaşdıraraq, fəal diplomatiyanın uğurlarını praktiki müstəviyə keçirərək, beynəlxalq hüququn verdiyi imkanlardan istifadə edərək , tarixi ədaləti bərpa edə bildi. Ermənistanın gündən-günə artan hədsiz ambisiyaları, bu ölkənin qeyri-konstruktiv davranışı və dəfələrlə törətdiyi təxribatlar bu tarixi vəzifənin yerinə yetirilməsinə şərait yaratdı. Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan özünümüdafiə hüququndan istifadə edərək 44 günlük Vətən Müharibəsində tarixi ədaləti bərpa etdi. Azərbaycan beynəlxalq hüququn tələbləri və mövcud qaydaların tələbləri çərçivəsində hərbi əməliyyatları layiqincə yerinə yetirmiş, qadağan olunmuş silahlardan istifadə edən mülki əhalini odlu silahdan saxlayan düşmənə döyüş meydanında qətiyyətli cavab verib. Ermənistanın Azərbaycan şərtləri ilə təslim aktını imzalaması bizim tarixi torpaqlarımızdan, Vətənimizin bir parçasından ayrılığımıza son qoydu. Qalib Ali Baş Komandan, Prezident İlham Əliyev atasının vəsiyyətini yerinə yetirərək Şuşanı azad etdi, ümummilli liderin və xalqımızın ən böyük arzusunu gerçəkləşdirdi. Prezident İlham Əliyev qeyd etdi: "Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi və biz onun arzusunu reallaşdırdıq. Biz bununla fəxr edirik, buna sevinirik. Bu, təkcə Azərbaycan vətəndaşları deyil, bütün azərbaycanlılar tərəfindən müsbət qarşılanır. Bütün dünya azərbaycanlıları bizim qələbəmizlə fəxr edirlər. Bu, ədalətin təntənəsi, tarixi ədalətin, beynəlxalq hüququn bərpası idi". Bu tarixi Qələbə Heydər Əliyevin vəsiyyət etdiyi Milli İnkişaf Strategiyasının siyasi-ideoloji davamlılığının məntiqi nəticəsidir. Ümummilli liderin qətiyyətli, inamlı və düşünülmüş qərarları sayəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə dirçələn və güclənən müasir Azərbaycan beynəlxalq münasibətlərin konfiqurasiyasında mühüm aktora, regionda sabitlik və inkişafın hərəkətverici qüvvəsinə çevrilib.

Prezident İlham Əliyev qeyd etdi: "Heydər Əliyevin Azərbaycan tarixindəki rolunun böyük əhəmiyyətini, bəlkə də, indi tam qiymətləndirmək çətindir. Zaman keçdikcə Heydər Əliyevin fəaliyyətini hərtərəfli təhlil etdikdən sonra biz bu şəxsiyyətin böyüklüyünü, Azərbaycan xalqının taleyində xidmətlərini daha aydın görəcəyik". Ümummilli liderin fəaliyyəti və siyasi irsi uzun müddət geniş və ətraflı öyrəniləcək, onun konseptual ideyaları, tarixi qərarları bundan sonra da müstəqil Azərbaycanın inkişafı ilə bağlı məsələlərin həlli üçün əsas rolunu oynayacaqdır. Mübaliğəsiz demək olar ki, ümummilli liderin fəaliyyətinin əsasını təşkil edən həyat fəlsəfəsi, böyük dövlətçilik təcrübəsi, zəngin siyasi irsi onu dövrünün fenomeni statusuna yüksəltmiş, örnək etmişdir gələcək nəsillər üçün əsl məktəbdir. Məhz buna görədir ki, xalqımız Heydər Əliyevin xatirəsini əziz tutur, onu minnətdarlıqla yad edir, 100 illik yubileyini əsl bayram kimi qeyd edir.

Heydər Əliyev azərbaycanlıların qəlbində daim yaşayacaq, onun adı həmişə milli qürur rəmzi olaraq qalacaqdır.

Ümummilli lider Heydər Əliyev dövlətə, xalqa xidmətin ən yüksək meyarını yaradan tarixi şəxsiyyətdir. Bu gün xalqımız dünya miqyaslı dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin 100 illik yubileyini təntənəli şəkildə qeyd edir. Heydər Əliyev Azərbaycan xalqının yaddaşına müdrik rəhbər, xilaskar, nəhəng nailiyyətlərin müəllifi, həyatı və fəaliyyəti ilə Vətənə sədaqət və bağlılığın ən yüksək meyarını yaradan tarixi şəxsiyyət kimi həkk olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi dövlətimiz tərəfindən ulu öndərə verilən yüksək qiymətdir. müasir tariximizin mühüm məqamlarında, Azərbaycan xalqının gələcək taleyinin həll olunduğu çətin bir dövrdə müstəsna xidmətləri olmuşdur. Onun keçdiyi mənalı ömür yolu, Vətən və xalq qarşısında əvəzsiz xidmətləri Heydər Əliyevi öz tarixinə, milli dəyərlərinə, dövlətçilik ənənələrinə dəyər verən azərbaycanlıların qürur mənbəyinə çevirib. Əminliklə demək olar ki, onun böyüklüyü bilavasitə xalqı və dövləti naminə əvəzsiz işlərində öz əksini tapmışdır.

İstifadə edilmiş ədəbiyyat

1. AUDİT 2023, 1 (39), s. 100-107
2. Гейдар Алиев. Азербайджанское государство и далее будет существовать, и наша независимость будет вечной. Речь на торжествах по случаю 10-й годовщины государственной независимости Азербайджанской Республики. - Газ. «Azərbaycan» от 18 октября 2002 г., с. 1.
3. Əliyev İlham. İnkişaf məqsədimizdir. Bakı, 2009. 492 s
4. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, 2002, 444 s.
5. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I c. Bakı, 1997, 155 s.

ƏYYUB ABBASOVUN "ZƏNGƏZUR" VƏ MƏMMƏD ORUCUN "KÖÇÜRÜLMƏ" ROMANLARINDA FACİƏVİLİK

Fərrux Məmməd oğlu Məmmədov
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
farrukh.mammadov62@gmail.com
https://orcid.org/0009-0009-1327-8152

Təxminən iki əsrdən artıq bir müddətdir ki, azərbaycanlıların Qərbi Azərbaycan–Ermənistan ərazisindən köçürülməsinə başlanılmışdır. Soydaşlarımızın dədə-baba torpaqlarından köçürülməsi Gülüstan və Türkmənçay müqavilələrindən sonra xüsusilə "geniş vüsət" almışdır. XX əsrin 80-cı illərin sonunda – 90-cı illərin əvvəllərində ermənilər bu mənfur "planlaşdırmanı" başa çatdırdılar. Axırıncı azərbaycanlı da Qərbi Azərbaycanı tərk etdi. Ermənilər çoxdankı "arzularına" çatdılar. Bu sözün həqiqi mənasında bir millətin faciəsi idi. Qeyd etmək yerinə düşər ki, azərbaycanlıların doğma yurd-yuvalarını məcburi qaydada tərk etmələri haqqında çoxlu elmi, publisistik məqalələr yazılmış, sənədli filmlər çəkilmiş, göstərilmişdir. Son illərdə arxiv materiallarından da geniş istifadə olunur. Ancaq bu problem bədii nəsrdə Əyyub Abbasovun "Zəngəzur" və Məmməd Orucun "Köçürülmə" romanlarında daha geniş şəkildə əks etdirilmişdir. Hər iki yazıçı Qərbi Azərbaycanda yaşamış və erməni faşizminin iç üzünü, didərginlik, köçkünlük həyatının bütün dəhşətlərini öz gözləri ilə görmüşdülər. Ona görə "Zəngəzur" və "Köçürülmə" romanları müəyyən mənada

avtobioqrafik səciyyə də daşıyır. "Zəngəzur" romanında baş verən hadisələr adından da göründüyü kimi Zəngəzur qəzasında, "Köçürülmə"də isə Vedi mahalında cərəyan edir. Ancaq hər iki əsərdə köçkünlük, didərginlik həyatının faciəvi məqamları düzgün, inandırıcı faktlarla göstərmişdir. Yazıçı Elçinin dediyi kimi "Sosrealizm tarixin sınağından çıxa bilməsə də, onun çərçivələri daxilində "Zəngəzur", "Gələcək gün" kimi əsərlər yaranıb". [2, s.15]

"Zəngəzur" romanı XX əsrin 50-ci illərin əvvəllərində yazılmışdır. Əyyub Abbasov dövrün, mövcud kommunist ideologiyasının imkan verdiyi şəraitdə həqiqətləri göstərə bilmiş, erməni daşnaklarını ifşa etmişdi. Ancaq erməni daşnaklarının mənfi planda göstərilməsi cildlərini dəyişmiş millətçilərin - yeni daşnaqların, kommunistlərin xoşuna gəlməmiş və onlar Moskvadakı havadarlarının köməyi ilə "Zəngəzur" romanının "millətlər arasında nifaq toxumu səpən" əsər kimi qiymətləndirilməsinə nail ola bilmişdilər. Romanın yenidən nəşr olunması qadağan edilmişdi. Əyyub Abbasov millətçilikdə ittiham olunmuşdu. Hətta əsərin bütöv nüsxələri Ermənistandakı kitabxanalardan yığışdırılmışdı.

Məmməd Orucun "Köçürülmə" romanının fərqli taleyi olmuşdu. Roman 80-cı illərin axırlarında qələmə alınmışdı. Artıq müəyyən ideoloji qadağalar aradan qaldırılmışdı. Məhz bu səbəblərdən Məmməd Oruc ermənilərin misli görünməmiş vəhşiliyi, qəddarlığı haqqında həqiqətləri tam şəkildə qələmə ala bildi. "Zəngəzur" romanı hər şeydən əvvəl Zəngəzur camaatının yaşam tərzini, problemlərini əks etdirir. Eyni zamanda əsərdə erməni daşnaqlarının həqiqi sifəti, iç üzü göstərilmişdir". [3, s.50]

Məqalədə yuxarıda göstərilən problemlərin araşdırılması nəzərdə tutulmuşdur. Bir faktı vurğulamaq yerinə düşər ki, Əyyub Abbasovun "Zəngəzur" romanının zəngin və maraqlı obrazlar sistemi vardır. Yazıçı cəmiyyətin bütün təbəqələrindən nümunələr götürmürməyə müvəffəq olmuşdur. Qeyd etmək yerinə düşər ki, Əyyub Abbasov əsərdə təsvir olunan azərbaycanlı obrazları ideallaşdırmaq fikrindən çox uzaq olmuşdur. Ermənilərdən fərqli olaraq azərbaycanlılarda yaltaqlıq, satqınlıq, digər millətlərə nifrət, arxadan zərbə vurmaq kimi xüsusiyyətlər yox dərəcəsindədir.

Əyyub Abbasov "Zəngəzur" romanında Rüstəm Comərd, Şahmərdan, Qiyas, Növrəstə, Qumru, Hacı Atakişi, Fərman, Əliabbas, Əhməd əsas obrazlardır. Onların hər birinin əsərin ideya-məzmun xüsusiyyətlərinin açılmasında xüsusi yeri, rolu vardır. Şahmərdanla Comərd Bakıda, neft mədənlərində fəhlə işləmişdilər. Uzun müddətdən sonra doğma kəndlərinə-Qızılcığa qayıtmışdılar. Ancaq kənddə heç nə yaxşılığa doğru dəyişməmişdi. Ümumən kəndlilərin maddi vəziyyəti getdikcə pisləşirdi. Bir tərəfdən də yenicə alovlanmağa başlayan erməni-müsəlman davası... Əyyub Abbasov davanın, millətlər arası qırğının ermənilər tərəfindən başladıldığını inandırıcı faktlarla göstərə bilmişdir. Hadisələrin əvvəlində ermənilər özlərini nisbətən sakit aparır, müsəlmanlarla "qardaş", "qonşu" olduqlarından ağız dolusu danışırdılar. Azərbaycalıların başlarının altına yastıq qoyurdular. Vaxtaşırı azərbaycanlılarla dinc yanaşı yaşamaq haqqında danışıqlar göstərirdilər. Özlərini yazıq, məzlum, "mehriban qonşu" kimi aparırdılar, göstərirdilər.

Ermənilər hələlik öz güclərinə tam arxayın deyildilər, gözləmə mövqeyində dayanmışdılar. Həm də "vahid Mərkəzdən" idarə olunurdular. Yuxarıdakı "rəhbərlərin", ağaların göstərişlərini, məsləhətlərini gözləyirdilər. Bu minvalla müvəqqəti sakitliyə, "sülhə" nail olmuşdular. Həmin məqamı, vaxtı çox gözləmək lazım gəlmədi. Mərkəzdən təlimat alaraq Zəngəzura rəhbər göndərilən Karo "geri çəkilməyin" müvəqqəti xarakter daşıdığını və çoxəsrlik qonşuların-müsəlman, Azərbaycan kəndlərini darmadağın etməyin vaxtının çoxdan çatdığını "Milli Şura" üzvülərinin "gurultulu alqışları altında" elan etdi. Əsrin əvvəllərindən ermənilər xəyanət etmək, arxadan vurmaq dərsini yaxşı mənimsəmişdilər. Həmişə bu "mənimsəmə" ermənilərin "karına" gəlmişdi. "Dost", "qonşu" adlandırdıqları azərbaycanlılara divan tutmağa başladılar. 80-ci illərin sonlarında olduğu kimi məqam, fürsət gözləmişdilər. Ermənilər hiyləgər xislətli tülkü cildinə girmişdilər. Əyyub Abbasov vurğulayır ki, azərbaycanlılar arasında birlik yox idi. Qızılcıq kəndinin ağası, birinci varlısı Hacı Atakişinin əsas məqsədi kəndi qorumaq yox, var-dövlətini artırmaq idi. Hacı Atakişi hətta yaralanmış oğlu Fərmanın qeydinə qalmadı, illərlə yığdığı qızıl-gümüşü çıxarmağı

üstün tutdu... "Zəngəzur" romanının ikinci hissəsində ağır köçkünlük, qaçqınlıq həyatı təsvir olunmuşdur. Burada da yazıçı bədii, tarixi və həyat həqiqətlərinə sadiq qalmış, heç nəyi gizlətməmişdir. Eyni zamanda Əyyub Abbasov həmvətənlərini qəbul edən insanları ideallaşdırmamış, ideallaşdırmaq fikrindən uzaq olmuşdur. Zəngəzurun kəndlərində - Şəkidə, Qızılcıqda Ağudidə, Vağadidə, Urudda və digər yerlərdə xoşbəxt həyat sürən, yaşayan insanlar yeni məkana, fərqli münasibətlə alışa bilmirdilər... Geri qayıdacaqları günü səbrsizliklə gözləyirdilər. "Daş qəlbli", vicdansız qan qardaşlarının münasibəti onları yandırıb yaxırdı. Əlbəttə, yuxarıda deyilənləri hamıya aid etmək düzgün olmazdı...

Əyyub Abbasovun "Zəngəzur" romanında ermənilər xislətlərinə uyğun olaraq təsvir olunmuşlar. Əsərdə Dro, Njde, Karo, Samvel, keşiş Mesrop kimi obrazlarla tanış oluruq. Yazıçı dövrə uyğun olaraq "sadə", "insanpərvər", "beynəlmiləlçi", "xalqlar dostluğunun" tərəfdarları olan erməni kommunistlərinin obrazlarını da yaratmışdır. XX əsrin 90-cı illərində baş verən Xocalı, Qaradağlı, Ağdaban və azərbaycanlıların saysız-hesabsız faciələrini yada salandan sonra adamın yuxarıda göstərilənlərə inanmağı gəlmir! Erməni hara, kommunist hara, beynəlmiləlçilik hara? 30 il Qarabağı işğalda saxlayan keçmiş kommunistlər deyildimi? Əlbəttə, "Zəngəzur" romanında göstərilən bəzi epizodlara görə Əyyub Abbasovu ittiham etmək fikrindən çox uzağıq. Əyyub Abbasov 50-ci illərdə nə mümkündürsə, onu artıqlaması ilə etmişdi. İlk dəfə idi ki, erməni cəlladlarının cinayətləri bədii əsərdə əks etdirilmişdi, göstərilmişdi...

80-ci illərin sonlarında yazılmış "Köçürülmə" romanında isə məsələ tamamilə fərqlidir. Əlbəttə, yuxarıda göstərdiyimiz kimi "Zəngəzur" və "Köçürülmə" romanlarında baş verən hadisələr fərqli məkanlarda cərəyan etmişdir. Ancaq "icraçılar", "rəhbərlər", "səbəbkarlar" dəyişməmişdilər. Eyni Mərkəzdən idarə olunurdular. Daha məkirli, hiyləgər planlar işləyib hazırlamışdılar. Bütün hadisələr Mərkəzin-Moskvanın "tapşırığı, "əmri", atalıq qayğısı" sayəsində, nəticəsidə həyata keçirilirdi. "Köçürülmə" əsərində Əyyub Abbasovun "Zəngəzur" romanında təsvir olunan "vicdanlı", "beynəlmiləlçi" "xalqlar dostluğunun qızğın tərəfdarı" olan kommunistlər nədənsə gözə dəymirdilər. 1948-1952-ci illərdə Qərbi Azərbaycandan azərbaycanlıların köçürülməsi partiyanın, hökümətin zəhmətkeşlərə "qayğısı" kimi təqdim olunurdu. Musiqi sədaları altında köçürülənlərin təntənəli yola salınma tədbirləri, mərasimləri keçirilirdi. Çalıb-oynayanların "sayı-hesabı" yoxuydu. Ermənilər tərəfindən diqqətlə yoxlanılmış, "məsləhət görülmüş", aldadılmış azərbaycanlı kommunistlər alovlu nitqlər söyləyirdilər. Köçürülməni partiya və hökümətin növbəti "qayğısı" kimi qələmə verirdilər. Çox az adam bilirdi ki, "könüllü" şəkildə köçürülənləri qarşıda hansı çətin günlər, fəlakətlər, faciələr gözləyir. Onlardan biri Əlmurad idi... Məmməd Orucun "Köçürülmə"romanında təsvir olunan Əlmurad ermənileri yaxşı tanıyırdı. Heç vaxt onların yalan vədlərinə, şirin dillərinə inanmamışdı. Bacardığı qədər mübarizə aparmışdı. Bilirdi ki, yüksək vəzifələrdə işləyən, ürəklərinin üstündə partiya bileti gəzdirən ermənilər əslində kommunist deyil, ən qatı daşnaklardır, faşistlərdir, cinayətkarlardır... Tez-tez Əlmuradı "enkevediyə" çağırıb danışdıran, ona "Vətən xaini" damğası vurub, Sibirə sürgün etməyə çalışan Badalyan azərbaycanlılara xüsusi nifrəti ilə seçilirdi. Əlmuradı da vətənpərvər olduğuna görə cəzalandırmaq istəyirdi. Bilirdi ki, nə qədər Əlmurad kimi vətənpərvər insanlar yaşayır, mübarizə aparır azərbaycanlıları dədə-baba yurdlarından köçürmək bir o qədər çətin olacaqdır...

Məmməd Orucun "Köçürülmə" romanında göstərilir ki, minlərlə soydaşımız köçkünlük, qaçqınlıq həyatının bütün dəhşətlərini yaşamalı oldular.Ancaq ən ağır, ən çətin anlarda Əlmuradın üzaqqgörənliklə, müdrikliklə söylədiyi, "biz hökmən dədə-baba torpaqlarımıza qayıdacağıq" sözləri müasir dövrümüzdə necə də aktual səslənir...

Qəhrəman, şanlı Azərbaycan ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında erməni işğalçılarından azad etmişdir. Əminik ki, yaxın zamanda soydaşlarımız əbədi-əzəli Azərbaycan torpaqlarına-Qərbi Azərbaycana dönə biləcəklər. İkinci Böyük Qayıdış hökmən olacaqdır! "Köçürülmə" romanının baş qəhrəmanı Əlmuradın dediyi kimi...

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə. Zəngəzur. Bakı: Yazıçı, 1989, 450 s.
2. Elçin. Sosrealizm bizə nə verdi / "Ədəbiyyat" qəz., 2013
3. Nərimanoğlu H. "Əyyub Abbasov: Zəngəzur faciəsini yaşayan və yaradan ədib". Bakı: Mütərcim, 2016
4. Oruc M. Köçürülmə / "Azərbaycan" qəz,. 1989, № 11
5. Oruc M. "Köçürülmə" mənim uşaqlığımın tarixçəsidir / "Azərbaycan" qəz., 2020, № 5

AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ FORMALAŞMASINDA DİDAKTİK MƏZMUNLU MƏTNLƏRİN ROLU

Elnarə Elxan qızı Məmmədova
filologiya üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti
metodist.az@mail.ru
https://orcid.org/0000-0002-4010-4774

Zəngin əbəbi irsə sahib Azərbaycan ədəbiyyatı öz tarixi inkişafı boyunca bir çox mövzuları əhatə etməklə yanaşı uşaq ədəbiyyatına da xüsusi önəm vermişdir.

Uşaq ədəbiyyatının qədim forması kimi meydana gələn laylalar, oxşamalar, tapmacalar, nağıllar və s. klassik dövr Azərbaycan yazılı ədəbiyyatında özünəməxsus yer qazanmış oldu. Uşaqların mənəvi tərbiyəsinin inkişafına yönləndirilmiş bu mətnlər daha çox didaktik xarakter daşıyırdı. Fizuli Əsgərlinin təbiri ilə desək: "Əxlaqi-didaktik məsələlər qədim Şərq ədəbiyyatının, o cümlədən, klassik milli poeziyazımasın ən geniş yayılmış mövzularından biri olmuş, bədii formada yüksək əxlaqi öyüd və nəsihətlər mütərəqqi şairlərin yaradıcılığında səslənmişdir" [20, s.14]. Xaqani Şirvaninin "Gənclərə nəsihət", Nizami Gəncəvinin "Ogluma nəsihət", "Çalışqanlıq və tənbəllik haqqında", "Yaralı bir uşağın dastanı", "Xeyir və Şər", Nəsiminin "Ey nuri didə", Xətainin "Eylə", Füzulinin "Müyvələrin söhbəti" və s. əsərlər bu qəbildəndir.

Bir az öncə də qeyd etdiyimiz kimi, klassik yazılı ədəbiyyatda daha çox gəncliyə nəsihət xarakterli poetik mətnlər yer almaqda idi. Məsələn, Nizami yaradıcılığına diqqət yetirək:

Sən çalış, yaxşıca öyrən dünyanı, İnsanı, bitkini, daşı, heyvanı.
Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdən-hədər. [1, s.5]

Xaqani Şirvani də öz yaradıcılığında gənclərin tərbiyəsinə hərs edilmiş mənzum mətnlərə yer ayırırdı. Onun "Gənclərə nəsihət"ində hiyləgərliyə, nifaq, fitnə-fəsad törətməyin ziyanlarına diqqət çəkir.

Nifaq xəstəsisən nə qədər ki sən- Əlac saymaqdan da ziyan görərsən. Vəfa küçəsində ev tut, yəqin bil: Vəfa mənzilidir ən yaxşı mənzil.

Bu gün yoxdursa kimsədə vəfa,-
Vəsiyyət edirəm olma biməfa. [1, s.9].

Öz fəlsəfi təlimi ilə Nəimi davamçısı olan və insanı kamilliyə səsləyən, kamilliyə çatmağın əsas meyarının isə bilik olduğunu aşılayan Seyyid Nəsiminin "Nəzər eylə istərlər" adlı didaktik məzmunlu lirikası da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Şeirə nəzər salaq:

Sərsəri, girmə meydana,
Aşiq səndən yol istərlər.
Qəllaş ilə oturmadan,
İman əhli pul istərlər.

Təsüvvüfü dünya görüşünü aşılayan şair bu mətndə insanın bilikli, dürüst olmasının, cəmiyyətdə mövqe qazanması üçün özü üzərində qələbə çalmasını tövsiyə edir.

Klassik yazılı ədəbiyyatla yanaşı orta çağda öz inkişafını davam etdirən aşıq yaradıcılığında da uşaq ədəbiyyatı mövzusu aktuallığını qorumaqda idi. Məsələn, Qurbaninin "Dar olmaz", "Ayrı", Abbas Tufarqanlının "Sındırar", "Bar olmaz", "Bəyənməz", Xəstə Qasımın "Kəkliklər", "Eylər-eylər", Molla Pənah Vaqifin "Qızlar", "Durnalar" şeirləri də bu qəbildəndir. Məsələn, Qurbaninin "Eylemek olmaz" şerinə diqqət yetirək:

Dərdim söylə bilənlərə,
Dərd başına gələnlərə,
Hər üzüvə gülənlərə,
Etibar eyləmək olmaz. [1, s.133]

Didaktik mətnlərin tam mənada gündəmə gəlməsi maarifçilik dövrü ilə bağlıdır. Avropada formalaşan maarifçiliyin əsas məqsədlərindən biri də təhsilin inkişafı olduğu üçün bu məsələ, təbii ki, uşaq ədəbiyyatını da öz təsir dairəsinə almaqda idi.

Yeni əsrin qabaqcıl ziyalıları qədim və orta əsrlər ədəbiyyatında öncül mövqedə duran humanist ideyalara söykənərək maarifçiliyi inkişaf etdirməyə başladılar. Qara Namazovun gəldiyi qənaətə görə "Maarifçilik cərəyanı Azərbaycanda mərhələdən-ərhələyə təkmilləşərək, xalqın maariflənməsinə yönəlir, xüsusilə yeni nəsli elmə, biliklərə həvəsləndirmək onların başlıca məqsədi olur. Bu maarifçilərə (A.A.Bakıxanov, Q.B.Zakir, M.Ş.Vazeh və b.) hələlik bəsit nəzərə çarpsa da

M.F.Axundov, S.Ə.Şirvani, H.B.Zərdabi, və N.B.Vəzirovun simasında canlanmış, yeni səviyyəyə çatmışdır". [1, s.6]

Avropada formalaşan yeni ədəbi mühit, maarifçilk ideyaları Azərbaycan ədəbiyyatına ötürüldükdən sonra, uşaq mövzusu ədəbiyyatımızın mühüm hissəsindən birinə çevrildi. Maarifçilik ideyalarının Azərbaycana ötürülməsi bir ictimai hadisə olaraq daha çox Rusiya-Azərbaycan əlaqələri ilə bağlı idi.

Azərbaycan-rus ədəbi əlaqələri XIX əsrin dördüncü onilliyində özünü daha aydın şəkildə büruzə verdi. Avropada o cümlədən Rusiyada maarifçiliyin ən bariz nümunəsi kimi, uşaq ədəbiyyatına olan xüsusi münasibət Azərbaycan ədəbiyyatında da özünü büruzə verdi. Beləliklə də, XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən Azərbaycan maarifçiləri, realistləri və eləcə də romantikləri ədəbiyyatda uşaq mövzusuna xüsusi diqqət yetirməyə başladılar.

Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov, Mirzə Həsən bəy Qarabaği, Seyid Əzim Şirvani, F.Köçərli, S.Ə.Şirvani, M.Ə.Sabir, Abdulla Şaiq, M.Hadi, Əli Nəzmi, Əhmıd Cavad, H.Cavid, C.Məmmədquluzadə, Cəfər Cabbarlı, kimi ədəbiyyatımızın nəhəng simaları öz yaradıcılqlarında uşaq mövzusuna həssaslıqla yanaşır, bu mövzuya xüsusi diqqət yetirirdilər.

Yeri gəlmişkən qeyd etməliyik ki, sözü gedən dövrlərdə uşaq ədəbiyyatı nəsrdən daha çox nəzmdə özünü daha qabarıq şəkildə büruzə verməkdə idi. Bunun ən ümdə səbəblərindən biri də, həmin dövrdə Azərbaycan ədəbiyyatında ənənəvi olaraq poeziyanın daha geniş inkişaf etməsi ilə bağlı idi.

XIX əsr uşaq ədəbiyyatından bəhs edərkən maarifçiliyin banilərindən olan Qasım Bəy Zakirin yaradıcılğından bəhs etmək vacib məsələlərdəndir. Qasim bəy həyatı boyunca Azərbaycanın məşhur şəxsiyyətləri M.F. Axundzadə, İsmayıl bəy Qutqaşınlı, Baba bəy Şakir, Xurşidbanu Natavan kimi ziyalılarla dostluq münasibətlərində olmuşdur.

Zakir yaradıcılığının böyük hissəsi Rus çarizminin istibdadına qarşı satirik yazıları ilə diqqqət çəkir. Onun yaradıcılıq üslubu Nizami, Xaqani, Fizuli poeziyasından bəhrələnərək mənzum hekayələr və təmsillərlə yadda qalır. Xüsusən də, təmsil janrına müraciət Q. Zakir yaradıcılığında Füzuli alleqorizminin davamı kimi yadda qalır. Füzulinin alleqorik yazılarının içində "Meyvələrin söhbəti" əsəri daha çox uşaq ədəbiyyatı üçün uyğun idi.

Beləliklə də realizmin banilərindən sayılan Zakir yaradıcılığında uşaq ədəbiyyatına xidmət edən təmsillər xüsusilə diqqət şəkir. Yazıçının "Aslan, Qurd və Çaqqal", "Dəvə və eşşək", "Tülkü

və qurd", "Xain yoldaşlar" və s. kimi təmsilləri didaktik xarakterlidir. Eyni zamanda onun uşaqlar üçün yazdığı "Bahar oldu", "Ay mədəd", "Arzular", "Çəkər", "Olurmu", "Sədaqətli dostlar haqqında" mənzun əsərləri uşaqların pedaqoji tərviyəvi yöndən inkişafında mühüm əhəmiyyət kəsb edir.

Yeri gəlmişkən qeyd etməliyik ki, Qasım bəy Zakir mövzu seçimində şifahi xalq yaradıcılığında geniş yayılan məsəllərdən, həmçinin "Kəlilə və Dimnə" əsərindəki mövzulardan istifadə etmiş, zaman-zaman Nizami, Cəlaləddin Rumi, Fizuli təmsillərindən də örnək almışdlır.

Həmin dövr poeziyasında özünəməxsus dəsti-xətti ilə fərqlənən və uşaq ədəbiyyatı mövzusuna maraq göstərən şairlərdən biri də Mirzə Həsən Qarabağı olmuşdur. Onun "Kəndli və ayı", "Şir və siçan", "Əfi ilan və cavan oğlan" təmsilləri Nəsihətnamə (Kibr və lovğalıq haqqında), "Elm haqqında", "Yoldaşlıq barəsində" seirləri ənənvi müsəvidə yazılan əsərlərdən hesab oluna bilər.

Azərbaycanda maarifçilk ideyaları və realizm inkişaf etdikcə, uşaq ədəbiyyatının inkişafına xüsusi diqqət ayırılırdı.

Uşaq ədəbiyyatı mövzusu realistlərlə yanaşı, romantiklərin yaradıcılığında da özünü biruzə verməkdə idi. Belə ki, M. Hadi, H. Cavid, A. Şaiqin yaradıcığında uşaq mövzusuna həssas yanaşılır və eyni zamanda uşaqlar üçün xüsusi ədəbiyyat formalaşdırılırdı. Azərbaycan romantizminin banisi Hüseyin Cavid yaradıcılığında da uşaq mövzusuna xüsusi diqqət ayrılmaqdadır.

Məsələn, Onun "Gülbahar" şeirində bir Azərbaycanlı məktəbli qızının şairlə dialoqu diqqət çəkir. Şeir əslində hər bir azərbaycanlı məktəblisi üçün bir örnək xarakteri daşıyır. Bir azərbaycanlı qızının bəyzadə qızı olmasına baxmayaraq sadəliyə üstünlük verməsinin vacibliyi önə çəkilir: Müəllim Gülbahardan bu qədər zəngin olmasına rəğmən niyə bu qədər sadə geyindiyinin səbəbini soruşarkən Gülbahar ona belə cavab verir:

Müəlliməm hər gün söylər,
onların yox qiyməti,
Bir qızın ancaq bilikdir,
təmizlikdir ziynəti. [2, s.49].

Romantizm cərəyanının görkəmli nümayəndələrindən sayılan A.Şaiq də yaradıcılığının böyük bir hissəsini məhz uşaq ədəbiyyatı mövzusuna həst etmiş, və uşaqların mənəvi inkişafı yönündə didaktik mətnlərə xüsusi diqqət ayıtmışdır. Uşaq pedaqoji səhəsinin inkişafı üçün bütün gücü ilə çalışan A. Şaiq "Oyan oğlum", "Məktəbdə" kimi əsərləri məhz didattik xarakterdə yazdı.

Nəticə olaraq qeyd etməliyik ki, qədim dövrdən etibarən istər şifahi istərsə də yazılı ənənəçizdə uşaq ədəbiyyatı mövzusu xüsusi yer tutur. Şərq mədəniyyətinin ayrılmaz parçası olan Azərbaycan ədəbiyyatı da uşaq ədəbiyyatı mövzusunda məhz əxlaqi-didatkik çalarlara üstünlük vermişdir.

Nizami yaradıcılığından başlayaraq Füzuli, Vaqif yaradıcılığında davam edən bu ənənə XIX–XX əsrlərdə də maarifçilikdən realizm və romantizmə adlayaraq uşaq ədəbiyyatı mövzusunu daha da təkmilləşdirmiş, bəhz etdiyimiz ədəbi nəhənglərimiz uşaq pedaqoqikasının inkişafı yönündə müstəsna xidmətlər göstərmişlər.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan uşaq ədəbiyyatı antalogiyası. Üç clldə, I cild. Bakı, Öndər nəşriyyatı, 2005, 248 s.

2. Hüseyn Cavid. Seçilmiş əsərləri. Üç cilddə, Azərbaycan dövlət nəşriyyatı, Bakı, 1968, 370 s.

IMPORTANCE OF SOCIAL AND HUMANITARIAN SCIENCES FOR MODERN SOCIETY

Tunzala Hasanova
Mingachevir Tourism College
tunzalehesenva80@gmail.com
http://orcid.org/0009-0004-9075-5657

Introduction

In the intricate tapestry of the contemporary world, the role of social and humanitarian sciences is paramount. These disciplines, often overlooked, serve as the guiding compass for understanding, navigating, and enhancing the human experience. From decoding the complexities of human behavior to fostering empathy and driving societal progress, the importance of these fields cannot be overstated.

Understanding the Human Psyche

At the core of the social sciences lies the quest to decipher the enigma of human behavior. Disciplines such as psychology, sociology, and anthropology delve into the intricacies of societal structures, interpersonal dynamics, and cultural nuances. In an age where technology accelerates change, understanding the human psyche is more critical than ever. Social sciences equip us with the tools to comprehend the motivations, aspirations, and fears that drive individuals and communities, laying the foundation for effective communication and cooperation.

Fostering Inclusivity and Cultural Appreciation

Humanitarian sciences, encompassing philosophy, ethics, and history, form the ethical bedrock of societies. As the world becomes increasingly interconnected, embracing diversity and fostering cultural appreciation are imperative. Humanitarian sciences cultivate a deep understanding of different belief systems, ethical frameworks, and historical contexts. This knowledge is not only a bridge between disparate cultures but also a catalyst for dismantling stereotypes and prejudices. In shaping a truly inclusive global society, humanitarian sciences play a pivotal role in nurturing empathy and understanding.

Championing Social Justice

Social and humanitarian sciences are powerful advocates for social justice. Sociological studies unravel the threads of inequality woven into the fabric of societies, shedding light on systemic biases and discrimination. Political science analyzes power structures, exposing the mechanisms that perpetuate injustice. Armed with this knowledge, activists and policymakers can advocate for policies that address the root causes of societal imbalances. By championing social justice, these disciplines contribute to the creation of fairer and more equitable societies.

Empowering Decision-Makers

Governments and policymakers face multifaceted challenges in the contemporary landscape. Social and humanitarian sciences provide them with the necessary tools for informed decision-making. Whether crafting policies on education, healthcare, or environmental sustainability, these disciplines offer insights into the nuanced needs of diverse communities. Leaders armed with a deep understanding of social dynamics are better equipped to navigate the complexities of governance, ensuring that policies resonate with the aspirations and well-being of the populace.

The Intersection of Science and Humanity

In the pursuit of progress, the intersection of science and humanity becomes increasingly apparent. Technological advancements, while transformative, must be tempered by ethical considerations and an understanding of their societal impacts. Social and humanitarian sciences serve as the ethical watchdogs, guiding the responsible development and deployment of technology.

The synthesis of these disciplines ensures that progress is not only innovative but also sustainable and aligned with the values of a compassionate society.

Conclusion

In conclusion, the importance of social and humanitarian sciences for modern society transcends academic boundaries. These disciplines are the custodians of our collective humanity, offering insights into the intricacies of human existence and the pathways to a more inclusive, just, and compassionate world. As we navigate the complexities of the 21st century, the wisdom derived from these fields becomes an invaluable asset. Investing in the development and integration of social and humanitarian sciences is not just an academic pursuit; it is a commitment to fostering a society that thrives on empathy, understanding, and shared progress. In the intricate dance between science and humanity, these disciplines provide the melody that resonates with the essence of our shared existence.

References

1. İctimai və humanitar elmlər: zaman kontekstində baxış // Xalq qəzeti, 2009, 9 dekabr, s.2-3
2. Collins, R. (1994), "Why the social sciences won't become high-consensus, rapid-discovery science", Sociological Forum, 9 (2), pp. 155-77.
3. Goertz, G. (2006), "Social Science Concepts. A User's Guide", Princeton, NJ: Princeton University Press.
4. Haskell, Thomas L. (1977), "The Emergence of Professional Social Science", University of Illinois Press: Urbana, Illinois.
5. Hoselitz, Bert. (1959), Reader's Guide to the Social Sciences, Free Press: New York
6. Rein, M. (1976), "Social Science and Public Policy", New York: Penguin Books Ltd, pp 20
7. Rule, J. (1997), "Theory and Progress in Social Science", Cambridge, UK: Cambridge University Press.
8. Weber, M. (1949), "The Methodology of the Social Sciences", New York: The Free Press, pp. 49-112.

İVAN ŞOPENİN TƏRTİB ETDİYİ "İRƏVAN ƏYALƏTİNİN KAMERAL TƏSVİRİ"NDƏ TARİX VƏ ETNOQRAFİYAMIZ

Leyla Kiçmirzə qızı Meybullayeva
Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki Kolleci
leylameybullayeva1989@gmail.com
http://orcid.org/0009-0000-3015-2759

Tarixən belədir: rəvayətlər susanda, əlyazmalar itəndə, tarix saxtalaşdırılanda *daşlar* danışır. Həqiqətən də Qərbi Azərbaycan ərazisindən tapılıb dünyaya "qədim Ermənistan mədəniyyəti" kimi göstərilən saxtalaşdırılmış mədəniyyət *daşlar* üzərində qaldığı üçün sübut edir ki, bu nümunələr tarixi 5 min illik uzun bir zaman qət etmiş qədim Azərbaycan xalqına məxsusdur.Amma zaman-zaman gəlmə ermənilər Azərbaycan mədəniyyətinə aid olan abidələri məhv etmişlər. Bu baxımdan toponimlər tutarlı mənbədir.

Azərbaycanın görkəmli alimi, prof. B.Budaqov üç elmin qovşağında yaranıb formalaşan toponimlər haqqında belə yazır: Hər hansı bir toponim dil baxımından araşdırılmasa lal, coğrafi baxımdan araşdırılmasa yersiz, tarixi araşdırılmasa köksüzdür. [3, s.190]

Toponimlər istənilən bir şəxs üçün bir tərəfdən ünvandırsa, digər tərəfdən "vətən"in simvolik göstəricisidir, milli kimliyimizdir. Toponimlər doğma məkan,tarixi hadisə bildirir. [1, s.18]

"Erməni vilayəti" üzrə inzibati idarənin müşaviri, rus əsilli İvan Şopen çar hökümətinin İrəvan əyaləti üzrə 19 kameral təsvir tərtib etmişdir."İrəvan əyalətinin kameral təsviri" kitabı çoxcildli siyahının sonuncu 5-ci kitabıdır. Əvvəlki 4 cilddə İrəvan şəhəri, Şərur, Verdibasar, Zəngibasar, Gernibasar, Qırxbulaq, Göyçə və Dərəçiçək mahalları haqqında geniş məlumat verilmişdir."İrəvan əyalətinin kameral təsviri" kitabında İrəvan əyalətinin Sürməli, Dərəkənd-Parçenis, Səədli, Talin, Seyidli-Axsaxlı, Sərdarabad, Karpibasar və Abaran mahallarının kameral təsviri verilmişdir. [5, s.14]

Azərbaycan torpaqlarının işğalı uğrunda 1804-1813-cü illərdə I Rus-İran müharibəsi baş verdi. Bu müharibə zamanı 2 dəfə (2 iyul-3 sentyabr 1804-cü il, 3 oktybr- 30 noyabr 1808-ci illər) İrəvan xanlığı Rusiyanın güclü müqavimətinə rast gəldi, lakin İrəvan xanlığı təslim olmamış, mübarizəsini davam etdirmişdir.

1804-1813 və 1826-1828-ci illəri əhatə edən müharibələr İrəvan xanlığının həyatında da fəciəvi sonluqla nəticələndi. Müharibə dönəmində Çar Rusiyasının İrəvan xanlığına hücumları zamanı (1804-1813-cü illərdə) Üçkilsə və Qəmərli uğrunda mübarizədə irəvanlılar düşməni məğlubiyyətə uğratmış, rusları geri çəkilməyə məcbur etmişdir.General Paskeviçin rəhbərliyi ilə rus qoşunu uzun sürən mübarizə nəticəsində İrəvan xanlığını zəbt edə bilmişdir. Bu zaman general Paskeviçə "İravanski" ləqəbi verilir.

II Rus-İran müharibəsi dönəmində (1826-1828-ci illər) I Nikolay Qafqaz qoşunları komandanı general Yermolova əhəmiyyətli mərkəzlərdən biri olan İrəvan xanlığını işğal etməsi ilə bağlı xüsusi tapşırıq vermişdir. Lakin uzunmüddətli müdafiəyə baxmayaraq İrəvan qalası çar qoşunları tərəfindən 1827-ci ildə tutuldu. "*Alınmaz qala*" adlandırılan İrəvan qalası rusların fasilələrlə 23 il apardıqları müharibələr nəticəsində işğal olundu.10 fevral 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinə əsasən, Naxçıvan və İrəvan xanlıqları çar tabeliyinə keçdi. I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı ilə Azərbaycanın İrəvan və Naxçıvan əyalətləri əsasında ermənilər "Erməni vilayəti" yaradıldı. [7, s.121]

Türkmənçay müqaviləsinin XV maddəsində Türkiyə və İran ərazisindən ermənilərin Azərbaycanın İrəvan, Qarabağ, Naxçıvan ərazilərinə köçürülməsi davam etdirilmiş, Cənubi Qafqaz gəlmə ermənilərlə doldurulmuşdur.

Az bir zaman ərzində Azərbaycan xalqı tərəfindən etirazlar baş verdi. Bunu nəzərə alan Qafqazın Ali Baş komandanı buraya hərbi ekspertiza göndərdi. Göndərilmiş müşavirlərin qənaətinə görə bir tərəfdən Azərbaycanda yaradılmış komendant idarəçilik sistemində komendantların özbaşnalığı, digər tərəfdən buraya köçürülmüş erməni ailələrinin fitnəkarlığı yerli əhalinin narazıçılığına səbəb olmuşdur.Komendantlar əhalidən bir ildə bir neçə dəfə eyni adlı vergini toplayırdılar.Ermənilər isə münbit torpaqları kəndlilərin əlindən alırdılar.Bu da əhalinin vəziyyətinin getdikcə pisləşməsinə səbəb olmuşdur. Hətta komendantlar öz vəzifələrindən sui-istifadə edərək ölüm hökmü belə çıxarırdılar.Halbuki, onların bunu etməyə ixtiyarları yox idi. [7, s.188]

İrəvan, Naxçıvan, Qarabağ ərazilərinə göndərilmiş müşavirlər vergilərin düzgün alınması üçün əhalini siyahıyaalmaya başladılar.Siyahıya alınma 1829-cu ilin aprelindən başlamış 1832-ci ilin mayında qutarmışdır. İ.Şopenin "İrəvan əyalətinin kameral təsviri"də 1831-ci ildə İrəvan əhalisinin siyahıya alınması ilə ərsəyə gələn bu vergi dəftərində İrəvan bölgəsinin siyasi tarixi, coğrafiyası, iqlimi, iqtisadiyyatı, kənd təsərrüfatı, məişəti, suvarma sistemi, sənətkarlığı, adətləri, yerli çəki və ölçü vahidləri, bitkiləri, inzibati-ərazi bölgüsü, vergilər, əhalinin sayı, etnik və dini tərkibi və s. haqqında statistik məlumatlar verilmişdir. Onu da qeyd edək ki, kameral dəftərdə ən çox İrəvan əyalətinin antroponimləri və toponimləri yer almışdır. Digər mənbələrdə olduğu kimi

burada da qeyd olunmuş şəxs adları, soyadları, ləqəb, təxəllüs, yurd adları bu torpaqların əzəli sahiblərinin azərbaycanlılara məxsus olduğunu bir daha sübuta yetirilir. [5, s.17]

Rus statistiki İ.Şopenin məlumatına görə İrandan köçürülən ermənilər İrəvan xanlığının 119 kəndində, Naxçıvan xanlığının 72 kəndində, Türkiyədən köçürülən ermənilər isə İrəvan xanlığının 128 kəndində, Naxçıvan xanlığının 4 kəndində yerləşdirilmişdir. Bu köçürülmələr nəticəsində İrəvan xanlığının ərazisində azərbaycanlılarla ermənilərin qarışıq yaşadıqları 50 kənd salınmışdır.

İ.Şopen "İrəvan əyalətinin kameral təsviri" vergi dəftərində İrəvan xanlığında yaşayan əhalinin çoxunun azərbaycanlılardan ibarət olduğunu qeyd etmişdir.Hesablamalara görə İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) azərbaycanlı 4.428 ailə (25.151 nəfər) erməni idi. Qeyd edək ki, xanlığın əhalisinin əsasını səədli, baharlı, bayat, muğanlı, ayrımlı, ustaclı, rumlu, şamlı, bayandur, qacar tayfaları təşkil edir. İ.Şopen azərbaycanlıları müsəlman kimi siyahıya almışdır və az öncə sadalanan tayfa adlarını da qeyd etmişdir. [5, s.4]

Danılmaz həqiqət isə budur ki, İrəvan xanlığında yerli xalqlar türk soylu azərbaycanlılar olmuşdur. Qafqazın ali baş komandanı Paskeviç İrəvan xanlığında yaşayan əhalinin tərkibi haqqında verdiyi məlumatda bu ərazidə 10 min azərbaycanlı, 3 min erməni ailəsinin yaşadığını qeyd etmişdir. Digər bir müəllif ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 %-nin azərbaycanlı olduğunu göstərir. [7, s.183]

Tarixi İrəvan xanlığı 15 mahaldan ibarət olmuşdur: Vedibasar, Zəngibasar, Qırxbulaq, Qarnıbasar, Şərur, Suran, Bəzək, Saatlı, Tala, Sərdarabad, Seyidli-Axaclı, Abran, Dərəçiçək və Göyçə olmuşdur. Müasir erməni tarixçisi T.Anopyan İrəvan xanlığının ərazisinin 24 min kv km olduğunu yazırdı.İnzibati cəhətdən isə 3 məhəlləyə bölündüyünü qeyd edirdi:Şəhər məhəlləsi, Dəmirbulaq məhəlləsi, Topbaşı məhəlləsi. [5, s.15]

İrəvan xanlığının tərkibindəki 15 mahaldan biri Vedibasar mahalı olmuşdur. Tarixən digər mahallardan daha geniş əraziyə malik olan Vedibasar mahalı hal-hazırda 3 dövlətin - Ermənistan, Azərbaycan və Türkiyə arasında bölüşdürülmüşdür. Mahalın əsas hissəsi (təxminən 80 %-i) Ermənistanın tərkibində qalmışdır. Mahalın həm dağlıq, həm də aran torpaqları Vedi çayı vasitəsilə 2 hissəyə bölünür.

İ.Şopen verdiyi məlumata görə çay Vedi kəndi ərazisindən yox, Xorvirab kəndi yanından axaraq Araza tökülür. Əvvəllər bol sulu olan Vedi çayına Arxaşan çayı da tökülürdü, amma sonralar Göyçə gölünə axmağa başlayır. İvan Şopen qeyd edir ki, İrəvan xanı Hüseynqulu xan bu çayı yenidən Verdibasar çuxuruna qaytarmaq üçün bir sıra tədbirlər görsə də, bu ərazilərə rus qoşunlarının hücumu ilə əlaqədar olaraq hərbi əməliyyatlar buna imkan verməmişdir. Hətta belə bir rəvayət də vardır ki, bir azərbaycanlı qız (bu qız çox ehtimal ki, türk qızı Şirin olmuşdur) Vedibasara içməli su ilə təmin etmək üçün Əyri çayın suyunu Həconun yurdundan Məngük dərəsinə aşırmaq istəmişdir, lakin arxı çəkdirə bilməmişdir. Buna görə də bu çaya Arxaşan adı verilmişdir. Ümumiyyətlə, "Kameral dəfətər"lərdə 100-lərlə toponim qeydə alınmışdır. Bu toponimlər öz tədqiqatçılarını gözləməkdədir.

Vedibasar mahalında 3 böyük dərə - Çanaxçı dərəsi, Milli dərəsi və Cığın dərəsi vardır. Burada bir sıra tarixi abidələr, həmçinin *Milli* dərəsində *Koroğlu qalası* da yerləşir. [4, s.73]

Tədqiqatçı İvan Şopen 1828-1832-ci illərdə "Erməni vilayəti"ndə qeyd etdiyi siyahıda İrəvan xanlığının ermənilər tərəfindən dağıntılara məruz qaldığını da vurğulamışdır. Ermənilərin bu ərazilərə köçürülməsi nəticəsində İrəvan əyalətində 521 kənddən 310-nu xarabaya çevrilmişdir. Təkcə Verdibasar mahalında 54 kənddən 33-ü xarabaya çevrilmişdir. Digər mahallar da heç də ürəkaçan deyil. [7, s.226]

İ.Şopen İrəvan şəhərində 12 məscidin adını yazmışdır:

1. Qala məscidi,
2. Şah Abbas məscidi,
3. Zal məscidi,
4. Novruzəli məscidi,

5. Sərtib xan məscidi,
6. Hüseynəli xan məscidi,
7. Hacı İmamverdi məscidi,
8. Hacı Cəfər məscidi.

Və 4 məscid xarabaya çevrilmişdir. İndi nə bu məscidlər var, nə də İrəvan adlı o qədim Türk şəhəri. İndi o şəhərdə bir məscid qalıb o da fars məscidi kimi restavrasiya olunmuşdur. [4, s.89]

Beləliklə, ermənilər zaman-zaman Azərbaycan ərazilərinin yer-yurd adlarını dəyişdirib saxta, qondarma tarix qursalar da, yazdığı bu tarixlər heç də həqiqətə uyğun gəlmir. Azərbaycanın yazıya alınmış tarixində, tarixi əsərlərində, coğrafiyasında, səlnamələrində faktlarla dolu olan və həqiqətlə uyğunlaşan ən qədim tarixindən müasir tarixinə kimi real olan dövlətçilik ənənələri göstərilmişdir. İvan Şopenin "İrəvan əyalətinin kameral təsviri" vergi dəftəridə də bu faktlar içərisindədir. Qərbi Azərbaycanda, İrəvanda olan daş kitabələr, məzar daşları və digər memarlıq abidələri bizə bu yerlərin əzəli sahibi olduğumuzu, bizə vətəndaşlıq hüququnu verən pasportlarımızdır.Həqiqətən, sübut olunur ki, bu torpaqlarda bizim ulu əcdadlarımız – babalarımız yaşayıb. Qərbi Azərbaycan adlı o qədim çoxəsrlik Türk diyarında hazırda 1 nəfər də türksoylu əhali yaşamır. Lakin ermənilərin bu işğalçılıq siyasəti İrəvan xanlığı ərazisinin tarixi-etnik mənsubiyyətini, minillər boyu yaşamış etnosun izlərini tamamilə silib ata bilməz. Vaxt gələcək ki, Qərbi Azərbaycandan erməni zorakılığı ilə qaçqın düşmüş 300 minədək azərbaycanlı öz dədə-baba yurdlarına qayıdacaqlar. Beynəlxalq hüquq da bunu tələb edir və bu "Qayıdış konsepsiyası" ədalətli olacağını açıqlayır. Bu istiqamətdə Azərbaycan Respublikasının nazirliklərində müxtəlifyönümlü işlər aparılır.

İstifadə edilmiş ədəbiyyat

1. Adilov M. Azərbaycan onomastikası. Bakı, 1987, 87 s.
2. Bayramov A. Azərbaycan onomastikası. Bakı, 2015, 319 s.
3. Bayramov J, Mustafayev N. Həqiqətin onomastikası. Bakı: Mütərəcim, 462 s.
4. Ələkbərli. Ə. Qərbi Azərbaycan abidələri. Bakı, 2007, 137 s.
5. İ.Şopen. İrəvan əyalətinin kameral təsviri (Tərcümə edən: N.Əhmədli). Bakı, 2022, 479 s.
6. Qarayev.E. İrəvan xanlığı. Bakı, 2010, 339 s.
7. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. Bakı, 1988, 591 s.

DÜNYANIN MÜASİR DİL MƏNZƏRƏSİ BÖLMƏSİ

"AZƏRBAYCAN DİLİNİN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR DİALEKTOLOJİ ATLASI" HAQQINDA

Namaz Rizvan oğlu Manafov
filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
namaz.manafov@mdu.edu.az
https://orcid.org/0000-0003-1082-1868

Azərbaycan dialektologiyası Türkologiyanın ən qabaqcıl və inkişaf etmiş sahələrindən biridir.

Türkologiyada dilçilik coğrafiyası sahəsində ilk üğurlu addımlar Azərbaycan dilçiləri tərəfindən atılmış, akademik Məmmədağa Şirəliyevin təşəbbüsü və rəhbərliyi ilə ümumtürk dilçiliyində ilk dəfə olaraq, dialektoloji atlas - "Azərbaycan dilinin dialektoloji atlası" (1990-cı il) hazırlanmışdır. Dilçi alimlərimizin müstəqillik illərində tərtib etdikləri "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" (2015-ci il) Azərbaycan dilçiliyini daha da zənginləşdirmişlər.

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun alimləri tərəfindən 4 dildə - Azərbaycan, türk, ingilis və rus dillərində hazırlanmış "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası" isə (Bakı, 2022-ci il) Azərbaycan dilçiliyinin son illərdə ən qiymətli və uğurlu işi, ən böyük nailiyyətidir.

"Elm və təhsil " nəşriyyatında nəfis şəkildə hazırlanmış atlasın məsul redaktoru professor Nadir Məmmədli, dialektoloji atlas qrupunun rəhbəri dosent Kifayət İmamquliyeva, rəyçi Baba Məhərrəmlidir.

"Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın müəllif və tərtibçiləri: Kifayət İmamquliyeva ("Ön söz", "Fonetika", xəritə № 1-69), Məhərrəm Məmmədov ("Morfologiya": "İsim", xəritə № 70-99, Kübra Quliyeva ("Morfologiya": "Sifət", "Say", "Əvəzlik", "Zərf", xəritə № 100- 141), Səkinə Şərifova ("Sintaksis", xəritə № 192-210), Güntəkin Binnətova ("Leksika", xəritə № 211-278), Qüdsiyyə Qəmbərova ("Morfologiya": "Feil", "Köməkçi nitq hissələri", xəritə № 142-191).

Dilçilik coğrafiyası metodu müasir dilçlikdə istifadə olunan ən yeni metodlardan biridir. Bu metodun köməyi ilə dil hadısələrinin yayılma arealı xəritələrin köməyi ilə öyrənilir [3, s.18].

"Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasi"nın tərtibçiləri minə yaxın yaşayış məntəqəsindən materiallar toplamış, xəritələrdə 692 yaşayış məntəqəsinin dil xüsusiyyətləri haqqında məlumat vermiş, kodlaşdırma aparmışlar [1].

Atlasda Qarabağ (şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) dialekt və şivələrinin fonetik, qrammatik və leksik xüsusiyyətlərini əks etdirən 278 xəritə verilmişdir. Bunlardan 69 xəritə Qarabağ və Şərqi Zəngəzur şivələrinin fonetik, 141 xəritə morfoloji və sintaktik, 68 xəritə isə leksik xüsusiyyətlərini göstərir [1].

Xəritələrin rəng seçimi – göy, qırmızı, yaşıl Azərbaycan bayrağının rənglərini əks etdirir, dövlətin və dilin birliyi simvolu kimi səslənir. Eyni zamanda bu, atlasdan istifadə işini daha rahat və asan edir: fonetik xüsusiyyətlər göy rəngli xəritələrdə, qrammatik xüsusiyyətlər qırmızı rəngli xəritələrdə, leksik xüsusiyyətlər yaşıı rəngli xəritələrdə izlənilir.

Onu da xüsusi vurğulamaq lazımdır ki, ermənilər tərəfindən saxtalaşdırılmış, dəyişdirilmiş Azərbaycan toponimləri "Atlas"da öz tarixi adları ilə verilmişdir.

Dialekt və şivələrimizin tədqiqi böyük əhəmiyyət daşıyır. Axı klassiklərimizin əsərlərində işlənmiş yüzlərlə söz müasir ədəbi dilimizdə unudulsa da, dialekt və şivələrimizdə mühafizə olunub

saxlanir, dilimizin və xalqımızın tarixi ilə baglı qiymətli faktlar verır. Bu baxımdan "Atlas"dakı hər bir xəritə dilimizin tədqiqi üçün zəngin və əvəzolunmaz mənbədir.

"Atlas"da köməkçi nitq hıssələrinə dair 26 xəritə verilmişdir (xəritə № 163-187).

Yeddi xəritə (xəritə № 163-169) Qarabağ və Şərqi Zəngəzur dialektlərində işlənən qoşmaların spesifik xüsusiyyətlərini əks etdirir.

Qöşma dialekt və şivələrimizdə geniş şəkildə işlənən köməkçi nitq hissələrindən sayılır.. Qarabağ və Şərqi Zəngəzur dialektlərində elə qoşmalara rast gəlirik ki, onlar ədəbi dilimizdə arxaikləşib, lakin dilimizin keçmışını, onun keçirdiyi dəyişmələri özündə əks etdirir.

"Azərbaycan dili dialektlərini tarixi baxımdan nəzərdən keçirmək, ümumiyyətlə, dilimizin keçirdiyi inkişaf yoluna işıq salmaq deməkdir" [2, s.203].

Qoşmalar öz söz ehtiyatının azlığı cəhətdən bütün nitq hissələrindən kiçik olsa da əhəmiyyəti etibari ilə başqalarından geri qalmır.

163 nömrəli xəritədə *görə* mənasında işlənən qoşmalar tədqiqata cəlb olunur, bu qoşmanın *gö:rə/ gərə* fonetik variantında işləndiyi göstərilir, *ocbatınnan* (Zəngilan, Ağbiz kəndi), *ücübətinnən* (Zəngilan, Dərə Gilətağ kəndi), *ucuvatınnan* (Ağcabədi, Şansevən kəndi), *üjbətinnən* (Ağcabədi, Arazbarı kəndi), *ucunnan/ücünnən* (Kəlbəcər), *üzünnən/üjünnən* (Kəlbəcər, Ağcabədi), *ujvatınnan* (Tərtər), *yüzünnən* (Tərtər) variantları qeyd olunur. Eləcə də *yana* qoşmasının həm də *üçün, görə* mənasında çıxış etdiyi göstərilir.

164 nömrəli xəritədə *kimi* mənasında işlənən qoşmalar verilir, regionda *kimi* qoşması ilə yanaşı, *sayax* (Zəngilan), *təkin (*Zəngilan*), qədər (Laçın), oxşarı* (Qubadlı), *təki (*Füzuli*), cür (*Füzuli*),siyağı (Füzuli*) variantların da mövcudluğu qeyd olunur.

165 nömrəli xəritədə Qarabağ və Şərqi Zəngəzur dialektlərində işlənən fərqləndirmə qoşmaları tədqiq olunur, fərqləndirmə qoşmalarının *səfayi/səvayı (*Zəngilan), *savayı/olayı* (Zəngilan), *alayı* (Qubadlı) *alayı-dolayı* (Qubadlı), *suvayı* (Ağdam, Ağcabədi*), safayı* (Füzuli) *svay (*Ağcabədi) formaları verilir.

166-167 nömrəli xəritələrdə *sonra* qoşmasının *sora, sonra, soram, soxra, sohra* variantlarında, *ötrü* qoşmasının *ötrün* (Zəngilan), *yana* (Zəngilan, Bərdə), *gö:rə* (Kəlbəcər), *ötərənə* (Bərdə, Samıxlı kəndi), *ötrö/sarı* (Cəbrayıl), *ötürü (*Füzuli*), üçün* (Füzuli) variantlarında müşahidə olunduğu göstərilir.

168 nömrəli xəritədə məsafə bildirən qoşmalar *–tan/-tən* (Zəngilan), *təkin* (Ağdam, Bərdə), -can*/-cən* (Füzuli), *təki* (Füzuli) qoşmaları araşdırılır [1].

"Atlas"da verilmiş qoşmaların bəzisi qohum türk dillərində və onların dialekt və şivələrində bu gün də işlədilir. Dialektoloji atlas yeni-yeni tədqiqatlara yol açır.

"Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"ndakı fonetik, qrammatik, leksik dil faktları, Azərbaycan dilinə aid səciyyəvi dialektoloji xüsusiyyətlər bu regionun Azərbaycan diyarı, Oğuz yurdu, qədim türk torpağı olduğunu bir daha sübut edir.

"Atlas" təkcə dilçilərimizin deyil, Azərbaycan elminin böyük uğuru kimi qiymətlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası. Bakı: Elm və təhsil, 2022, 358 s.
2. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Elm və təhsil, 2016, 348 s..
3. Məmmədli M. Azərbaycan dialektologiyası. Bakı: Zərdabi Nəşr, 2019, 350 s.

POPULARIZATION OF ENGLISH IN UKRAINIAN INSTITUTIONS OF HIGHER EDUCATION

[1,2]**Tetiana Uvarova,** [1,3]**Iaroslava Levchenko**
[1]National Automobile and Highway University, Ukraine
[2]PhD in Pedagogy, Associate Professor
uvarova_hnadu@ukr.net
https://orcid.org/0000-0001-8502-2441
[3]Doctor of Sciences in Management and Administration, Professor
slavalevcenko1984@gmail.com
https://orcid.org/0000-0002-4979-1101

In modern variable world, universities are facing the challenge of globalization of education and science. Globalization is the environment in which education is internationalizing, and universities are the main participants in this process around the world.

One of the factors of the globalizing environment is the dominance of English as a common language of modern science and education. Leading universities around the world, with few exceptions, offer education in English. Even those nations for which English is not the language of communication are trying to attract more students or at least prevent their decline by expanding the range of educational services in English.

On Ukraine's path to globalization, English has been recognized as a key competence in the context of economic integration and globalization, a tool for international communication and a means of joining the European educational, scientific and professional space. The importance of English for expanding educational and professional opportunities is recognized by Ukraine and reflected in a number of national strategies and initiatives [1, p.79]

As part of the "English for Universities" project, a number of studies were conducted, based on the results of which the Ministry of Education and Science of Ukraine, together with the British Council in Ukraine, in accordance with the "Conceptual foundations of state policy on the development of the English language in the field of higher education", developed methodological recommendations for ensuring quality study, teaching and use of the English language in higher education institutions of Ukraine.

The development of the English language in higher education in Ukraine involves:

- Increasing the volume and level of teaching English as a foreign language, including English for Special Purposes (ESP);
- Teaching professional disciplines in English as part of the Ukrainian-language program (English as Medium of Instruction for Ukrainians - EMI-u);
- Providing a full educational program in English for foreign students (English as Medium of Instruction for Foreigners - EMI-f). [2]

The methodological recommendations were approved by the order of the Ministry of Education and Science of Ukraine from 25.07.2023, № 898. [3]

The document provides recommendations to the management of higher education institutions of Ukraine, teachers of English for professional purposes and English for academic purposes, teachers of professional disciplines in English, and other employees of higher education institutions.

We consider it is appropriate to pay attention to the similar experience of other European countries, whose educational systems see the role of English in becoming more international, competitive and equal to the "world level". Also, the use of a common language of international communication for teaching and joint research contributes to the internationalization of universities.

English has become the language of science, not only in the natural sciences but also in the social sciences and humanities. English is recognized as the language of PhD thesis defense.

Academic writing is also mostly done in English. In Europe, massive academic mobility programs such as Erasmus have contributed to the spread of English-language educational programs.

The widespread use of English is leading to generations of English speakers. In many countries, education leaders are calling for the expansion of English-language education to attract international students and create an international learning environment for local students. Where as previously, English-language programs were mostly for master's degrees, now English is increasingly being taught at the bachelor's level. In many countries, English language teaching has become one of the priority areas for the development of pre-school and school education.

But in addition to the undoubted advantages of intensifying the use of English in education, we should not forget about certain disadvantages of teaching in English. Despite the fact that many people encourage the presence of English as a tool for international communication, some still believe that the anglicization of education introduces dissonance into the educational space. Many researchers point to the danger of the hegemony of the English language, which leads to the homogenization of research topics and scientific interests around the world.

There is a fear of losing cultural capital, a threat to national languages, especially in the case of small countries. A problem in both English-speaking and non-English-speaking countries is the risk of losing the quality of education using English as the language of instruction due to insufficient proficiency of both students and teachers.

There is a perception that studying in a foreign language contributes to the emergence of intercultural competence of students or "cultural hybridization" in the university environment. However, studying in English does not always lead to this. Researchers say that English, as it is used in international education and research, will remain only a tool of communication and a means of acquiring knowledge, not a carrier of culture.

Many researchers point out that teaching in English to local students widens the gap between the university and society and does not contribute to the readiness of graduates to work in their home country and in their native language.

From the above, it is obvious that a foreign language dimension is emerging among universities seeking internationalization. It seems that the role of foreign languages in general, and undoubtedly English in particular, is growing in the competency portrait of students, teachers and administrative staff. But we shouldn't forget that the language of the country where the learning takes place is no less important than the language of instruction. Researchers emphasize that as proficiency in the language of the country of study increases, so does student satisfaction with their education. It seems that the cultural attitude of the university should be aimed at forming a culture of multilingual, multicultural communication.

Ukraine has had extensive experience in attracting foreign students to study at Ukrainian universities. Also, in many educational institutions, some programs were taught in English. However, the knowing of the language of the country of study, Ukrainian language, that contributed to the cultural and social adaptation and integration of foreigners. Being in the Ukrainian-speaking social space requires knowledge of the Ukrainian language at least at an elementary level. It is very difficult to be in a language vacuum and live a full life at the same time. Also, for Ukrainian students, studying with English in Ukraine contributes to alienation from their own culture and language.

Based on the above, we can say that the use of English in the Ukrainian educational environment should be within reason. That is, Ukrainian universities should use English in teaching for reasons of content rather than commercial value and pay more attention to the study of other languages, especially the mother language.

References

1. Androshchuk, A. Vykladannia anhliiskoi movy v universytetakh Ukrainy v konteksti yevrointehratsii: systemnyi pidkhid. European humanities studies: State and Sosiety 3(II), 2019.-C.74 URL: https://journals.indexcopernicus.com/api/file/viewByFileId/970096.pdf

2. Proekt. Kontseptualni zasady derzhavnoi polityky shchodo rozvytku anhliiskoi movy u sferi vyshchoi osvity v Ukraini. URL: https://mon.gov.ua/storage/app/media/2019-06-24-proekt-konts-angl-movi-1.docx

3. Zakon Ukrainy «Pro osvitu» vid 25.07.2023 r. № 898 URL: https://mon.gov.ua/storage/app/uploads/public/64c/20b/aae/64c20baaec4b3448883937.pdf

SƏRBƏST ŞEİRDƏ ÜSLUBİ ZƏNGİNLİKLƏR VƏ HƏYAT HADİSƏLƏRİNİN FƏLSƏFİ DƏRKİ

Gültəkin Ağacan qızı Əliyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
gultekin392@mail.ru
https://orcid.org/0000-0003-1100-8422

Azərbaycan sərbəst şeiri 60-cı illərdən özünün yeni mərhələsinə daxil olur. Bu mərhələdə Ə.Kərimdən sonra şeirə gələn Ə.Salahzadə, R.Rövşən, İ.İsmayılzadə, V.Səmədoğlu və b. sərbəst şeirin dərininə inkişafında mühüm rol oyanır. Bu şairlər sərbəst şeir yaradıcılığında özünəməxsus bir inkişaf yolu keçmişdir. Onların şeirləri sərbəst poetik formanı yalnız struktur baxımından deyil, poetika baxımından da zənginləşdirmişdir. Lakin elə şairlər də var ki, onların yaradıcılığında sərbəst şeir heca ilə qoşa çıxış etdiyindən sırf sərbəst şeirçilər kimi tanınmamış, ya da ki, onların yaradıcılığına az diqqət yetirilmişdir. B.Vahabzadə, N.Xəzri, X.Rza, M.Araz, F.Qoca, F.Sadıq, N.Həsənzadə, Qabil və b. yaradıcılığında sərbəst şeir vəzn, fonetik sistem, bədii təsvir və ifadə vasitələri, ritm baxımından inkişaf etdirilmişdir. Aristotelin "Poetika" əsərində deyildiyi kimi: *"...ya ayrı-ayrılıqda və ya birlikdə ritm, söz və harmonoyanın köməyi ilə başa gəlir..."* [3, s.34] Bu kimi amillər sərbəst şeirin yeni inkişafı yolunda və təşkilində müəyyən rol oynamışdır. Onların şeirlərində sərbəst şeirimizə xas olan ritmik-intonasiya vəhdəti başlıca yer tutur. Bu şeirlərin əsasında ritmik vahidlər-taktlar mühüm yer tutur. Heca vəznində müxtəlif sayda hecalar poetik mətn üçün əsas olduğu kimi, sərbəst vəzndə həmin funksiyanı ritm-intonasiya təşkil edir. Bu mənada F.Sadığın sərbəst şeirlərini xüsusi qeyd etmək olar. Onun 60-70-ci illərdə "Cığır" (1963), "Ömrün bir günü" (1965), "Dəniz küçəmizə gəlir" (1968), "Sevgi yağışı" (1970), "İşığın yaşı" (1974), "Ağ cığır" (1979), "Yerdən göyə ümid" (1981) və s. çap olunan kitablarında yer alan sərbəst şeirlərini R.Rza və Ə.Kərimdən sonra bu formanın keşiyində duran və bu yolda sabit olan şairlərdəndir. F.Sadıq həm də R.Rza ədəbi məktəbinin ilk "müdavimlərindən" olmaqla bu məktəbə ruh və düşüncə etibarilə ən yaxın olanı idi. Ancaq başqa bir özəlliyi də əruzda, hecada və sərbəstdə eyni dərəcədə yazması və uğur qazanması idi. Hər bir kitabında şair bu üç vəznin hər birindən sənətkarlıqla istifadə edirdi. Bu cəhətdən Fikrət Sadıq yaradıcılığı diqqəti cəlb etməklə yanaşı, istənilən formada özünüifadənin imkanlarını da genişləndirir. Onun "Vətən, vətən", "Günəşini uduram", "Nağılın vətəni", "Növbə daşları", "Bahar bizimçün gəlib", "Yanğın", "Bir qarış ot", "Bir cüt işıq teli", "Başqırd şairi Ramiyə göndərilməmiş məktub", "Dəvə", "Atillanı qınamayın" və s. onlarla şeirlərində cəmiyyətdə və təbiətdə insan həyatının müxtəlif anlarını təsvir edir. F.Sadıq sərbəst şeirə onun üçüncü və yüksələn xətlə inkişaf edən bir mərhələsində gəldi. Bu mərhələdə sərbəst şeir özünü artıq təsdiq etmişdisə, onun R.Rza, Ə.Kərim mərhələsi kontekstində yer tutması

və tanınması o qədər də asan deyildi. Lakin şair onların müəyyənləşdirdiyi yolla getməyi üstün tutmur və son dərəcə məsuliyyətlə söz cilası və zərgərliyi ilə poetik formanı yeni-yeni nümunələrlə zənginləşdirir. Hər bir şeirinə məxsus ritmik intonasiya tapır və onun təbii, fiziki, psixoloji proseslərini görümlü edir. Şeirin məzmunu onun sonluğunda məntiqi nəticə ilə tamamlanır. Bəzi şeirlərində isə ritm və intonasiya tam vəznsizliyə yol açır. Dilçi alim A.Axundov zamanında F.Sadığın sərbəst şeirin yaradıcı davamçılarından biri olmasını və vəznsiz şeirlər yazmasını qeyd edərək yazırdı*: "R.Rzadan sonra poeziyamızda sərbəst şeirin gözəl nümunələrini yaratmış F.Sadığın yaradıcılığında da tam vəznsizlik halları tək-tək olsa da, hər halda vardır"* (4, s.48). Burada F.Sadığın vəzn qarışıqlığından istifadəni, yaxud hər üç vəzndə ayrı-ayrı şeirlər yazmasını da əlavə etmək mümkündür. "Dəniz gülümsədi" şeirində vəznsizlik ritmi şeirin əvvəlindən sonunacan davam edir.

Azərbaycan sərbəst şeirində F.Sadığın poetik yaradıcılığında ritm və intonasiya mühüm yer tutur. Bu komponentlər onun şeirlərində poetik nitqin ayrılmaz estetik komponenti kimi görünür. Bəzən bu ritm söz təkrarı və yaxın səsləşməsi ilə müşahidə olunur. F.Sadıq şeirlərində ritmə böyük əhəmiyyət verir; fikrin inkişafında ritm və intonasiya bərabər şəkildə çıxış edir. "Dənizə axan küçə" şeirində təkrar qoşa sözlərin işlənilməsi ilə kiçik bir parçada müəyyən intonasiya yaradır; "Bir bulud topası / çıxdı bu yandan qaranəfəs / Bir yük maşını da / dırmandı təkər-təkər..." Yaxud, "Nağılın vətəni" şeirindəki ritm elə nağılvaridir; nağılın vətənini müəyyənləşdirmək üçün gərək nağıl donuna girəsən, dəmir çarıq geyinib, əlinə əsa alasan, gəzəsən el-el, oba-oba. Ancaq nağıl da hər adama sirr verməz. Şairin lirik qəhrəmanı nağıl ömrünü belə mənalandırır:

Nağıl ömrü
qəribə olur.
Nağılın da
doğması olur,
qəribi olur.
Ayağı yer tutan kimi
gəzir dünyanı
diyar-diyar [6, s.13].

F.Sadığın bir çox sərbəst şeirlərində nitqin səs təşkilinin müxtəlif çalarlarına rast gəlirik; bu səs təşkili müəyyən qanunauyğunluq daşıyır və poetik fikrin açılmasına xidmət edir. Onun şeirləri sənətdə orijinal özünüifadə formasına, özünəməxsus qəlibə malik olur. Şair sözün deyiliş tərzinə və ifadə formasına maksimum fikir verməyə çalışırdı. Bütün hallarda sözünü təbiiliyinə, sözlərin ritmik düzülüş cəhətlərinə nəzər salırdı. Lakin bəzən bunlar şairi formalizmə aparıb çıxarır, fikri onun estetik ifadəliliyindən ayırırdı. Görkəmli tənqidçi A.Əfəndiyev "Sevgi yağışı" şeirini "orijinal və poetik" əsər kimi qiymətləndirirdi və bu şeirdə məhəbbətin əbədiliyi ideyasının "parlaq" və "təbii assosiasiyalar"la, "nağılvari, sirli" ifadə olunmasını təqdir edirdi. Lakin şairin R.Rzanın "Rənglər" silsiləsinin təsirilə yazdığı şeirləri "sönük və emosional cəhətdən bəsit" adlandıraraq, bəzi poetik mətnlərini kəskin tənqid etməkdən çəkinmirdi: *"Gözümüzün qarşısında yeni F.Sadıq, sifətinə süni müdriklik ifadəsi verən poza sahibi canlanır"* [5, s.107]. Əlbəttə, A.Əfəndiyevin bu cür tənqidi yalnız F.Sadığa qarşı deyildi, ümumiyyətlə, müasir poeziyada emosionallığın getdikcə zəifləməsinə, bədii-estetik zövqün fikrə qurban verilməsinə qarşı idi. Bu mənada A.Əfəndiyevin bu tənqidini anlayışla qarşılamaq lazım gəlir. Həm də ona görə ki, A.Əfəndiyev bir filosof tənqidçi kimi poeziyadan çox şey tələb edirdi.

Azərbaycan sərbəst şeirinin forma, struktur, ritm, intonasiya, ahəng baxımından inkişafında Fikrət Sadığın adaşı Fikrət Qocanın da yaradıcılığı öndə gəlir. Hətta deyə bilərik ki, bu iki Fikrət sərbəst şeirin 50-ci illərindən bu günə kimi bu poetik formanı daha da zənginləşdirmişlər.

F.Qoca da həm hecada həm də sərbəstdə eyni dərəcədə şeirlər yazan və uğur qazanan şairlərimizdəndir. Bunu nəzərdə tutan Anar F.Qocanın vəznə münasibəti ilə bağlı yazır: *"Fikrət Qocanın hansı vəzndə yazılmış şeirlərinin az, hansının çox olduğunu hesablamamışam və belə bir*

fikir heç ağlıma da gəlməyib. Çünki bilirəm, Fikrət əsl şair kimi hansı mövzunu, hansı mətləbi hansı vəznlə ifadə etmənin daha münasib olduğunu fəhmlə özü duyur, özü seçir və seçimi də əksər hallarda ugurlu olur". [2, s.5] Yazıçı Anarın bu müşahidəsi F.Qocanun uzunömürlü yaradıcılığının bütün mərhələlərində özünü göstərir. F.Qoca "Ömür haqqında", "Xəstə və həkim", "Səkilər", "İnfarkt", "Qara dəniz", "Yalançı Məhəmməd", "Uşaq olmaq istəmirəm", "Qaya", "Düşmənim", "Salam Bakımın gələcəyi" və s. onlarla şeirlərində assosiativ düşüncəyə üstünlük verir. Məlumdur ki, saat özündə zamanı əks etdirir. Zamana isə F.Qocanın öz münasibəti var. Kiçik bir parçada şair zamanın obrazını yarada bilmişdir. Saatı danışdıran şair şeirin birinci hissəsində *"Çıq, çıq, çıq! / Yatma, dur! / Ötən vaxt / Üzündə / Hörümçək torunu / toxuyur"* poetik nitq bölgüsü ilə zamanın keçdiyini və insanların bu zamandan mümkün olduğu qədər istifadə etməsini göstərmək istəmişdir. Şairin lirik qəhrəmanı yatanı oyatmaq istəyir, hər yerin (göyün-yerin, yolun) açıq olduğunu, "saçına artıq dən düşdüyünü" xatırladır. Hətta bu sətirlərin alt qatında insan və zaman düşüncəsinin müxtəlif orbitləri haqqında da fikir söyləmək olar. Şeirin ikinci nitq bölgüsündə şair passiv keçən hər bir günün "ömrünə vurulan güllə", "üzünə vurulan sillə" adlandırır. Zaman hər şeydən ağırdır, o bizi öz səsi ilə xəbərdar edir, ancaq biz ona necə əməl edirik. Poetik qənaət lirik qəhrəmanının ruhən azad olmasına gətirib çıxarır.

Şair bir neçə söz və səs təkrarları ilə çoxmənalılıq yaradır və yeni poetik qənaətlərə gəlir. Şairin söz və sətirarasında verdiyi assosiativlik təkcə şeirin formasını dəyişmir, həm də əlavə sözə və şəkilçiyə ehtiyac duymadan yeni məna yaradır. Şairin "yol açıq, yola çıx, yol açaq" sözlərinin bir-biri ilə semantik cəhətdən bağlılığı insanın həmişə yolda olmasını, yol açmasını və yola çıxmasını şərtləndirir. Zaman bizdən bunu tələb edir və buna əməl edənlər zamanla ayaqlaşanlar və zamanı qabaqlayanlardır.

Fikrət Qocanın şeirlərindəki spesifik dil görümləri, detallar, fraqment-cizgilərlə konkret obrazlılıq yaratmağa nail olur. Təsvir etdiyi obyektin daxili mahiyyətini açmaqla yanaşı, izlədiyi ritm və intonasiya ilə poetik formanın yeni nümunələrini yaradır. S.Abdullayev şairin poetik nitqindəki bu görümlülüyü və fraqmentallığı yüksək qiymətləndirərək yazır: *"F.Qocanın şeirlərində təkrar sözlərdən incə təsvir detallar, vəziyyət-təfərrüat ştrixləri kimi istifadə olunmasının özümlü nümunələrinə rast gəlirik".* [1, s.19]

Konkretləşdirmə və detallaşdırmaya F.Qoca sərbəst şeirinin xarakterik xüsusiyyətlərindən biri kimi tez-tez rast gəlmək olur. Onun bu cür şeirlərində təkrar sözlər bir sistem şəklində işlənir və üslubi keyfiyyət qazanır. "Gecənin nəğməsi" şeirində təkrar və bir-birinə yaxın sözlərin tez-tez və yaxın məsafələrdə işlənilməsi ilə poetik fikri bir məcraya yönəldir və poetik vəhdət yaradır.

F.Qocanın bəzi şeirlərində sintaktik formanın məzmunla uyğunluğu əsas olur. İlkin daxili obrazlılıq və estetik simvollaşdırma burada yeni kontekstdə çıxış edir. Bu zaman F.Qoca yaradıcılığı bəzi parametrləri ilə R.Rza yaradıcılığı ilə səsləşir. Bu cəhətdən şairin "Rəng" şeiri olduqca maraqlıdır. Şair lirik qəhrəmanın daxili həyəcanlarını qara rəng üzərində kökləyir və bu istiqamətdə poetik qənaətlərə gəlir. R.Rzanın "Rənglər" silsiləsindən fərqli olaraq, şair burada qara rəngi "tünd qara" rəngdə göstərmir, hətta "Qara rəngsiz yaşamaq olar?" sualını da verir. Poetik sonluq nikbinliklə bitir.

Sərbəst şeirin bu mərhələsində heca və əruzla yanaşı, sərbəstdə də ən yaxşı poetik nümunələr yaradan Qabilin sərbəst şeirləri bu poetik formanın inkişafında əhəmiyyətli rol oynayır. Bu cəhətdən Qabilin yaradıcılığı F.Sadığın formadan istifadəsi ilə anologiya təşkil edir. Onun poeziyasında sərbəst şeir poetik düşüncələr xəritəsini daha da zənginləşdirir, poeziyasına yeni ölçülər, intonasiyalar gətirir və onu gələcəyə doğru hərəkət etdirir. Şeirlərindəki poetik melodiya fikrin inkişafını sürətləndirir və ona yeni poetik ömür qazandırır. Əgər onun hecalı şeirləri vəznə əsaslanırsa, sərbəst şeirləri isə əsasını təqtilər təşkil edən ritmə əsaslanır. Maraqlıdır ki, vəzn-ritm əvəzlənməsində Qabil yaradıcılığı ikincinin qabarıq görünməsi ilə müşahidə olunur. Şair öz şeirlərində ritmə vəzndən uzaqlaşma sistemi kimi yox, onun şeirlərinin əsas faktorlarından biri olaraq baxır. Bəzən isə vəzn-ritm paralelliyi poetik dərketmədə ən mühüm amil kimi çıxış edir.

Şairin "Səhv düşəndə yerimiz", "Tramvay parka gedir", "Gedən yerim olaydı", "Küləkli havalarda", "Uzaq səfərlər kapitanı", "Pullar və düşüncələr", "Dağlara qalxırsan", "Solo", "İskəndərin anası" və s. onlarla şeirində poetik formanın ən yaxşı nümunələrini yaratmışdır. Bu şeirlər yalnız ritm və intonasiyası ilə deyil, həm də mövzunun bədii həllinə və şairin vətəndaşlıq qayəsinə görə poetik formanın ən yaxşı nümunələri hesab oluna bilər. "Səhv düşəndə yerimiz" şeiri forma ilə məzmunun vəhdətini ən yaxşı şəkildə ifadə edən orijinal ritm və intonasiya şəklində mümkün olmuşdur. Bu ritmlə şair həm də bir vətəndaşlıq narahatlığını ifadə edə bilmişdir. *"Xaric səslənirik biz, / Səhv düşəndə yerimiz", "Müsibət oluruq biz, / Səhv düşəndə yerimiz", "Gərəksiz oluruq biz, / Səhv düşəndə yerimiz"* və s. bənd sonrası müstəqil təkrarlar şeirin ideyasını möhkəmləndirir, poetik qənaətlərə zənginlik gətirir. Şair qeyri-adi bir intonasiya ilə həyatın fəlsəfəsini açmağa yönəlir.

Şair insanın-fərdin dünyada və cəmiyyətdəki yerini vətəndaşlıq borcunu, mənəvi-əxlaqi ləyaqət hissini bəşəri duyğularla ifadə edir. Burada həm də təbiət hadisəsi ilə cəmiyyət hadisəsi qovuşuq şəkildə təsvir edilir:

Duman dağı dolanar,
Qiyamət olar.
Duman yola sallanar,
Müsibət olar.
Müsibət oluruq biz,
Səhv düşəndə yerimiz.

Küt bıçaq parıldayıb
Xırçıltı salıb.
Qılınc qında pas atıb
Qında korşalıb...
Heyf... korşalırıq biz,
Səhv düşəndə yerimiz. [7, s.72]

Şeirin sonunda şair pərdələri xüsusi bir nizamla düzülümüş tarı kökləyir; əgər kökləməsə, simlərin yeri səhv düşsə yenə də tarazlıq pozulacaq, çünki: "Xaric səslənirik biz,/Səhv düşəndə yerimiz". Şeirdəki dövrün ictimai-siyasi proseslərinin xəritəsi, sosial-mənəvi-siyasi, əxlaqi düşüncəsinin inikası, müşahidələrin dəqiqliyini, panoram genişliyini şərtləndirir. Bədii təxəyyülün əhatə dairəsini ancaq bu ritm və intonasiya ilə yığıb-yığışdırmaq və bu cür məhsuldar poetik qənaətlərə gəlmək olar. Şeir sanki yazılmayıb, deyilib və səsləndirilib. Ümumiyyətlə, şeirin hər parçasında həyatın bir həqiqəti təsvir edilir. Qabil bununla cəmiyyətlə təbiəti uzlaşdırmağa çalışır. Şeirdən çıxan poetik mesaj ondan ibarətdir ki, insanların cəmiyyətdəki, əşyaların təbiətdəki yerini dəyişmək olmaz, onların hər birinin öz funksiyası vardır.

Qabilin sərbəst şeirləri ilə şeirlərindəki sərbəstlik bəzən bir-birinə qarışır. Şeirlərinin strukturundakı polifonizm məzmun çalarlarının çatdırılmasını və emosional təsir imkanlarını artırır. "Gedən yerim olaydı" şeirində də eyni emosiya ilə poetik məkanda yeni bir intonasiya yaratmış olur. Bu şeirlərin mayasında həm də bir həyat fəlsəfəsi vardır. Şair bu şeirində hər bir insanın qəlbində olan və zaman-zaman keçən təbii hissləri təsvir etmişdir. İnsan həmişə düşünür ki, "Harasa gedən yerim olaydı. /Çətin bir ünvan axtaraydım, / Gəlişimə inanmayan, / Gəlişimi gözləməyən / İnsan axtaraydım". Bu düşüncə lirik qəhrəmanı fərqli düşüncələrə sövq edir, raket sürəti ilə müxtəlif yerlərdə olmasını arzulayır. Şairin gəldiyi poetik qənaət sanki Əli Kərim şeirlərindəki kimi gözlənilməz şəkildə bitir

Əlbəttə, Qabillə Əli Kərim fərdi üslubu və poetik düşüncə baxımından fərqlidirlər. Qabilin "Qoy danışsın təbiət", "Səhv düşəndə yerimiz", "Tramvay parka gedir", "Gedən yerim olaydı", Ə.Kərimin "İki sevgi", "Atamın xatirəsinə", "Babəkin qolları" şeirləri müxtəlif üslublu olsa da, ruh və məna baxımından bir-birinə yaxındır. Bu yaxınlıq həm də şeirlərin özünəməxsus

intonasiyasından irəli gəlirdi. Görünür, bu oxşarlıq tənqidçi V.Yusiflinin bu iki şair arasında müqayisə aparmasına imkan vermişdir.

Hər iki şairin üslubu arasında yaxınlıq görməyən tənqidçinin son qənaəti isə fərqlidir: *"Lakin Qabilin şeirlərini oxuyanda elə məqamlarla üzləşdim ki, istər-istəməz Əli Kərimin poetik məna dolu misraları arasında canbirlik, qanbirlik hiss etdim. Qabilin "Tramvay parka gedir" və onlarla bu tipli yarı istehsalat, yarı qəlb dialektikasını əks etdirən şeirləri ilə Əli Kərimin o zaman neftçilərə həsr etdiyi şeirlər yan-yana düzülsə, qətiyyən aralarında ciddi bir fərq nəzərə çarpmaz".* [8, s.2012]

Tənqidçi V.Yusiflinin şairlər və bəzi şeirlər arasında tapdığı bu cür "qanbirlik", "canbirlik" paralellərini başqa şairlərin də yaradıcılığında axtarmaq və oxşarlıqlar tapmaq mümkündü. Əsl sənət əsərləri vəznindən, üslubundan asılı olmayaraq, bir-birinə "qohum", "doğma" görünür. Onları doğmalaşdıran sənət amilləridir. N.Xəzri, B.Vahabzadə, F.Qoca, N.Həsənzadə, Ə.Kürçaylı, C.Novruz kimi şairlərin də yaradıcılığında sərbəst şeirlərin yeni, orijinal nümunələri yaranmışdır. Bu illərdə poeziyanın mövqeyi yeni üslub və dil gəlişdirməsini şərtləndirirdi. Ritmika və intonasiya bu zaman şairin müraciət etdiyi "dil" komponentlərindən birinə çevrilir. Lirik, melodik şair kimi tanınan N.Xəzrinin şeirlərinin modifikasiyasında, yəni müxtəlif əlaqələrdən olan sintaktik əlaqələrində ritm və intonasiya başlıca yer tutur. Şair hər bir şeirinə ayrıca ritmik intonasiya tapır və buna uyğun mövzu seçimi onu sərbəstləşdirir. Bir çox şeirlərində şair bu əlaqələrə süjetlilik komponenntini də əlavə edir ki, bu da şairin sərbəst şeirlərini fərqləndirən cəhətlərdən olur. Ümumiyyətlə, N.Xəzri sərbəst şeirləri özünün spesifik cəhətləri ilə seçilir. Bu cəhətdən N.Xəzrinin sərbəst şeirlərinin M.Müşfiqin şeirləri ilə yaxınlıq təşkil etdiyini görmək olar. N.Xəzri şeirlərinin ritmi M.Müşfiq şeirlərindəki ritmika həm vəznli, həm də sərbəst şeirə aid ən mühüm dil və fonetik vasitə olaraq çıxış edir. Şeirlərində kainat, həyat, dünya, insan və onun istək və arzuları, təbiət və cəmiyyət hadisələri haqqında düşüncələrini ölçülü-ölçüsüz əvəzləmələrlə və ritmik-melodik şəkildə ifadə edir.

Altmışıncı illərdə sərbəst şeirin əsas xüsusiyyətlərini özündə cəmləşdirən və səciyyələndirən cəhətlər çoxdur. Assosiativ qavrayış və fikrin poetik tutumu bu dövr sərbəstinin orijinallığını təmin edən faktorlardandır. Bu üslubi zənginliklər həm də Azərbaycan sərbəst şeirinin inkişafının şərtləndirilməsində mühüm rol oynayır və şairin poetik üslubunu müəyyənləşdirir. Bu dövr sərbəst şeirlərdəki üslubi zənginliklər həyat və dünya hadisələrinin təsvirində və fəlsəfi dərkində geniş imkanlar yaradır. Məhz bu mərhələdən sonra sərbəst şeirin imkanları və meydanı daha da genişlənir, sərbəst şeir sənət faktı kimi qəbul edilməyə başlayır. N.Xəzri, B.Vahabzadə, Ə.Kürçaylı, N.Həsənzadə, F.Sadıq, F.Qoca və b. sərbəst şeiri ilə R.Rza, Ə.Kərim, Ə.Salahzadə, İ.İsmayılzadə, V.Səmədoğlu sərbəst şeirləri arasında müəyyən fərqlər meydana çıxır. Bu şairlərin sərbəst şeirləri daha çox hecanın sərbəstinə əsaslanır. Onların şeirlərinin ölçü strukturunda ifadə seçimi və sözlərin düzülüşü başlıca yer tutur. Şeirlərin poetik konsept səviyyəsinə qalxmasında zərif intonasiyadan geniş istifadə edilir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullazadə, A. Şairlər və yollar. -Bakı: Elm, -1984. -224 s.
2. Anar. Fikrət Qoca təsəllisi. / F.Qoca. Seçilmiş əsərləri. 2 cilddə, -I c., -Bakı: -Lider, -2004, s.4-11.
3. Aristotel. Poetika. -Bakı: -Azərbaycan Dövlət Nəşriyyatı, -1974. -191 s.
4. Axundov, A. Şeir sənəti və dil. -Bakı: -Yazıçı, -1980. -159 s.
5. Əfəndiyev, A. İnam və şübhə. -Bakı: - Yazıçı, -1988, 436 s.
6. Fikrət, S. Yerdən göyə ümid. -Bakı: -Yazıçı, -1981. - 232 s.
7. Qabil. Seçilmiş əsərləri. –Bakı: -Azərnəşr, -1988. - 335 s.
8. Yusifli, V. Gedən yerim olaydı -525-ci qəzet, -2012, 15 avqust. –s.14.

QURBAN SƏİDİN "ƏLİ VƏ NİNO" VƏ "QIZIL BUYNUZDAN OLAN QIZ" ƏSƏRLƏRİNİN ORTAQ CƏHƏTLƏRİ

Fidanə Vəli qızı Musayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı
fidana.musayeva@yandex.ru
https://orcid.org/0009-0000-0244-2652

Azərbaycan mühacirət ədəbiyyatının görkəmli nümayəndəsi Qurban Səidin XX əsrin 30-cu illərində yazılmış bədii əsərlərində Şərq – Asiya dünyası insanlarının mədəniyyət, tarix və dünya baxışı geniş şəkildə proyeksiya olunur. Milli mənsubiyyət məsələsi ətrafında mübahisələrin səngimək bilmədiyi Qurban Səidin "Əli və Nino" və "Qızıl buynuzdan olan qız" əsərlərinin yazıçıya aid olub-olmaması, eyni bir müəllif tərəfindən yazılıb-yazılmaması haqqında da müxtəlif fikirlər mövcuddur. "Əli və Nino" romanının baş qəhrəmanı – Əlinin dili, təhkiyə və düşüncəsi vasitəsi ilə Azərbaycan tarixinin zəfər səhifələrinə və tarixi faciələri məsələrinə tez-tez müraciət olunması əsərin ədəbiyyat tariximizdə daha da önəm qazanmasına səbəb olmuşdur.

Yazıçının "Əli və Nino" romanında Azərbaycan tarixinin şərəfli, ziddiyyətli və uzun müddət təhrif edilmiş XX əsrin əvvəllərinə aid məlumatlar olduğu kimi, "Qızıl buynuzdan olan qız" (və ya "Haliçdən olan qız") əsəri də ümumitürk və Osmanlı İmperiyasının tarixinə aid maraqlı elmi-bədii fikirlərlə zəngindir. "Qızıl buynuzdan olan qız" əsərində eyni zamanda türk dilçilik tarixinə dair də bir sıra elmi məlumatlar var. Müəllifin bu zaman hansı elmi fikirlərə istinad etdiyi və bu elmi məlumatların nə dərəcədə dəqiq olmasını düşündürücü məsələlərdən biridir.

Diqqət çəkən məsələlərdən biri Qurban Səidin türk dilçilik tarixinə aid verdiyi məlumatların elmi əsaslı olub-olmamasını və bu məlumatları verməklə hansı məqsəd güddüyünü aydınlaşdır-maqdır.

Yazıçının "Qızıl buynuzdan olan qız" əsərində baş qəhrəmanın təhkiyə və düşüncəsi vasitəsi ilə türk tarixinin zəfər səhifələrinə və türk dilləri tarixi qrammatikası məsələrinə tez-tez müraciət olunur.

Bu baxımdan, "Əli və Nino" və "Qızıl buynuzdan olan" əsərləri bir çox ortaq xüsusiyyətlərə malikdir.

1) Təxminən eyni dövrlərdə yazılmış hər iki əsərdə hadisələr Türk və Azərbaycan xalqının burulğanlı keçid dövründə – köhnə hakimiyyət sisteminin yeni dövlət sisteminə keçdiyi dövrdə baş verir və bu tarixi özünəməxsus proyeksiyası edir. Bir çox dünya xalqları və dövlətlərində olduğu kimi türk və Azərbaycan xalqının da təkamül yolunda dəfələrlə belə mürəkkəb və təzadlı mərhələ – keçid dövrləri olub. Keçid mərhələsi – mövcud olan cəmiyyətin tədricən dəyişməsi və inkişafin bir mərhələsindən digər mərhələsinə keçməsidir [4]. Keçid dövründə iqtisadiyyatda da, sosial-siyasi vəziyyətdə də həm keçmiş, həm də təzə mərhələnin xüsusiyyətləri özünü göstərmiş olur. Yeni siyasi-ictimai və iqtisadi şərait bərqərar olanacan özünü göstərən bu qarışıq vəziyyət, sistem keçid dövrü kimi xarakterizə olunur.

2) Hər iki əsər hadisələrin baş verdiyi tarixi dövrü reallığa çox yaxın şəkildə əks etdirməklə yanaşı, özlərindən daha əvvəlki dövrlərə, türk tarixinin zəfər səhifələrinə və tarixi faciələri məsələrinə toxunur, bir çox real tarixi şəxsiyyətlərin bədii obrazı yaradılır.

3) Hər iki əsər Şərq və Qərb mədəniyyətini, müsəlman və xristian mədəniyyətlərini qarşılaşdırır.

4) Hər iki əsərin əsas baş qəhrəmanı və təhkiyəçisi Şərqin, islam dünyasının adından danışan bir təmsilsisi, nümayəndəsidir.

5) Hər iki əsərin bu baş qəhrəmanları öz analarını çox erkən itirmişlər. Və bu anasız böyüyən bu obrazlar – Əli ("Əli və Nino") və Asiyadeh ("Qızıl buynuzdan olan") vətənlərini sanki öz

anaları hesab edir, ona çox bağlı olub. Ürəkdən sevirlər. Lakin aid olduqları, bağlı olduqları dünyanı (Şərqi, islam dünyasını, vətənlərini) hədsiz sevdiklərinə baxmayaraq, onların Aşiq olduqları, sonradan sevdikləri insan isə Qərb, xristian dünyasının övladıdır.

6) Hər iki əsərdə baş qəhrəman, yəni eyni zamanda təhkiyəçi, yüksək təbəqənin nümayəndəsidir.

7) Hər iki əsərdə qərb, xristian dininin bir nümayəndəsi qadına qarşı qeyri-etik bir hərəkət edir. ("Əli və Nino" əsərində əvvəlcə özünü Əlinin "dostu" kimi göstərən Naxardyan Ninonu qaçırarkən maşında onu zorla öpür, "Qızıl buynuzdan olan qız" əsərində də ailəli olan Asiyadehi ərinin dostu zorla öpür).

8) Hər iki əsərdə Berlin şəhəri bir obraz kimi canlandırılır. "Əli və Nino" da elə əsərin ilk səhifələrində bu, çox ötəri şəkildə, yalnız Avropanın bir rəmzi kimi təqdim edilirsə, "Qızıl buynuzdan olan" əsərində hadisələrin böyük hissəsi məhz orada baş verir. Müəllifin də uzun müddət Berlində yaşadığını nəzərə alsaq, əsərlərində bu şəhərə nə üçün bu qədər önəm verdiyini daha dərindən anlamış oluruq.

9) Hər iki əsərdə qəhrəmanların adı da təsadüfi seçilməyib. "Əli və Nino" da Əli adı XIX əsrdə azərbaycanlıların xalqın milli özünüdərkində, özünütəsdiqində, milli kimliyinin müəyyənləşməsində şiəlik konfessiyasının nə qədər önəmli rol oynadığını göstərir. Əsərin baş qəhrəmanının adının Əli olması, yəqin ki, bir təsadüf deyil. Müəllif burada azərbaycanlıların dünyabaxışında, milli kimliyində önəmli rol oynayan dini inancını – şiəlik konfessiyasını vurğulamaq istəmiş və müfəvvəqiyyətıə buna nail olmuşdur.

"Qızıl buynuzdan olan qız" əsərində baş qəhrəmanına müəllifin Asiyadeh adını verməsini təsadüfi saymaq olmaz. Əsərin baş qəhrəmanı Asiyadehin də bütün süjet boyu islam Asiyasını təmsil edən, onun nümayəndəsi kimi çıxış edən, bu mədəniyyətin, bu dünyabaxışın uğurları ilə öyünüb, uğursuzluqlarına məyus olaraq, göz yaşı axıtdığının şahidi oluruq.

Əliyə milli idealogiyamızın bir formalaşma simvolu kimi baxsaq, hələ yaranmaqda olan milli ideogiyanın romanda hadisələrin baş verdiyi dövrdə, yəni XX əsrin əvvəlində hansı formada olduğunu hiss edə bilərik. Milli deyaların zirvə nöqtəsi – ADR in yaranmasının əsərdə geniş təsvirinin şahidi oluruq.

"Əli və Nino" romanında Əli adının simvolikası haqqında danışarkən də əlavə edək ki, müəllif əsərdə həm də tarixi müəyən qədər proyeksiya edən XIII əsrə aid olan başqa bir rəvayətə – gürcü prinsesi Tamarla evlənmiş II Qiyasəddin Keyxosrovun adı ilə bağlı oxşar süjetli bir hadisəyə müraciət edir .

Yuxarıda sadalanan bu ortaq cəhətlər hər iki əsərin eyni bir müəllifə aid olduğunu və yazıçının Azərbaycan tarixininə və ümumilikdə türk dünyasına bağlılığını bir daha sübut edir.

Tanınmış yazıçı və ədəbi tənqidçi Mehdi Hüseyn "Yazıçı və tarix" adlı məqaləsində qeyd edir: "Tarixçi dövrün ümumi ictimai münasibətlərini əks etdirirsə, yazıçı ən çox dövrün psixologiyasını təşrih edir." [2, s.45] Bu baxımdan hər iki əsər həmin dövrün həm də psixoloji durumunu dəqiq anlamağa kömək edir.

Nərgiz İsmayılovanın da qeyd etdiyi kimi, "tarixi roman cəmiyyətə daha tez nüfuz edir, nəinki tarix kitabları. Tarixi romanı xalq oxuyur, mütaliə edir, bədiiliklə birlikdə tarixi gerçəklikləri öyrənir, hadisələri daha tez qavramaqla uzun müddət yaddaşda saxlaya bilir. Belə əsərlər həm də hər bir oxucuda sanki həmin hadisələrin şahidi kimi müqayisə bacarığı formalaşdırır." [3] Bu baxımdan "Əli və Nino", "Qızıl buynuzdan olan qız" ("Haliçli qız" əsəri) və eləcə də Qurban Səidin digər bir neçə romanı keçid dövrünün təzahürlərini, özünəməxsusluğunu dərindən anlada bilən və unudulmağa qoymayan bir əsərlərdir desək, yanılmarıq. Eyni zamanda, hər iki əsərin müəllifinin eyni adam, olmaması fikrinin müzakirələrə səbəb olduğunu nəzərə alsaq, sadalanan bu ortaq cəhətlərin bir çox mətləblərə aydınlıq gətirdiyini də deyə bilərik.

İstifadə edilmiş ədəbiyyat

1. Qurban Səid (M. Esed bey). Əli və Nino (1927), s.42 http://www.kkoworld.com/kitablar/Qurban_Seid_Eli_ve_Nino_aze.pdf. Derived February 4, 2021.
2. Hüseyn M. Yazıçı və tarix. Bakı, 1965
3. İsmayılova N. Tarixi roman janrının banisi –Şərq qapısı, 18.07.2014 Web. Retrieved 22 February. http://serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/4685-tarikhi-roman-zhanr-n-n-banisi20144444666
4. Social change. (2023, August 14). In Wikipedia. https://en.wikipedia.org/wiki/Social_change

THE APPLICATION OF INFORMATION TECHNOLOGIES IN UKRAINIAN AS A FOREIGN LANGUAGE TEACHING

[1,2]**Daria Riazantseva,** [1,3]**Stanislava Prykhodko**
[1]Kharkiv National Automobile and Highway University, Ukraine
[2]Candidate of Philological Sciences, Associate Professor
nannyhelp24@gmail.com
https://orcid.org/0000-0002-3226-9165
[3]Candidate of Pedagogical Sciences, Associate Professor
morgan.sa92@gmail.com
https://orcid.org/0000-0003-3853-529X

The paper is devoted to the application of new techniques and information technologies in the discipline of Ukrainian as a foreign language teaching. The analysis of the question is given with regard of the opinions of modern scientists, working on the problem. Some pieces of advice on the application of information technologies in Ukrainian as a foreign language (UFL) are offered.

The emergence of information technologies and the introduction of personal computers at the turn of the XX-XXI centuries not only changed the life of society but also made adjustments and began to occupy dominant positions in the educational process. New concepts appeared: E-learning, distance learning, cyber-educational environment, etc.

The need for the use of computer technologies in education at the moment is very big. With their help today it is possible to provide:

- a comprehensive, integrated approach to language teaching;
- authentic communicative didactic materials at any stage of learning (including the initial stage);
- full-fledged independent work of students in individual mode at all learning stages;
- flexible teaching models that take full account of students' individuality;
- organization of distance language learning and much more.

The role of the teacher is not diminished at all, on the contrary, his/her possibilities in applying various teaching tools and mechanisms of influence on the learner are expanding, the sphere of influence of his/her personality is increasing: from the university classroom to the «virtual classroom» with an unlimited number of students on the Internet. Thus, information technology is only a tool in the hands of the teacher.

Information technologies at the present stage give a great opportunity to the authors-developers of computer programs, from whom new methodical techniques are required to solve the set tasks. The material should meet all modern trends in the development of science since the teaching materials developed earlier are outdated and do not meet modern state general education

standards. Modern scientists (N.Kurakh, L.Koval, K.Hevorhian, M.Hashemi, B.Ghasemi, S. Bardine) agree that in order to solve this problem, it is necessary to develop a conceptual approach to the organization of the educational material of the multimedia complex, to select the place of each element of the multimedia complex on a hypertext basis (animation, video, sound, image support), to determine the types and forms of work with the educational material, providing training and test tasks, to develop a mechanism for organizing and managing the work of students in the multimedia complex.

Consequently, among the primary tasks that need to be solved in modern universities, the following can be emphasized:

- providing material and technical basis for the Ukrainian language training;
- analyzing already ready-made teaching materials and selecting relevant material;
- expansion of the selected materials (system of exercises) and providing it with grammatical explanations with hypertext links to relieve possible difficulties in understanding;
- development of a uniform system and criteria of control assessments for all students;
- providing explanatory and service texts in the languages of the users.

If all the above criteria are taken into account, it is possible to count on the emergence of a qualitatively new e-learning tool. Any educational computer program is a tool that is designed to help in the organization of students' independent work, especially when it concerns training work with lexical material (Maquiné et al., 2020). Therefore, it is necessary to clearly define the focus, the nature of exercises and methodological techniques suitable for solving the set tasks. The following types of training tasks are most often used:

- question-answer dialogue (the essence of the learner's work is to give direct answers to the questions of the computer program, using as a basis and scheme the language material contained in the question);
- dialogue with a selective answer (the learner chooses one of several options to answer);
- dialogue with a freely constructed answer (the dialogue is provided by the program with all possible answers to each question posed by the computer so that the latter can «know» and evaluate the correctness of the answer);
- exercises for filling in the blanks (the computer offers the learner a text or a set of sentences with blanks, it is necessary to fill in the blanks using a hint in the form of Ukrainian words to be translated into the foreign language and used in the required form; it is also possible to fill in the blanks with words or word combinations, choosing them from those offered by the computer);
- exercises for self-monitoring of vocabulary skills. The computer offers a list of words to be translated; the computer offers to match two lists of words and find equivalent pairs of these words in both languages; the computer offers to match two lists of foreign words and to establish pairs of synonyms or antonyms; the computer offers a list of foreign words and a list of definitions of these words, from which the learner is given a list of definitions.

The following computer programs are considered popular:

Wordstock – a program for working with dictionaries, allowing the student to form his/her personal dictionary with examples from his/her own experience;

Matimaster – a program for matching (this type of program can be useful in the course of Ukrainian as a foreign language).

Ukrainian universities use such educational systems as ATutor, CCNet, Chamilo, Claroline, Desire2Learn, eFront, ILIAS, metacoon, OLAT, Sakai Project, WebCT, SharePointLMS, JoomlaLMS, Pass-port, Yacapaca, CampusCE, each of which has its own advantages and disadvantages.

Thus, if we set the task of providing computer materials for the preparatory and basic course of the Ukrainian language as a foreign language and further support and development of this work, then it should be solved purposefully:

- organize training for teachers not only in the general principles of developing electronic textbooks and manuals but also in working with various modern computer programs;
- fund projects aimed at developing multimedia textbooks and manuals;
- to control and bring the work to the stage of appearance of the finished product and its implementation in the educational process.

So, the system that represents computer-based learning technology includes technical, appropriate software and educational support. The development and use of modern computer programs and different structures of teaching material will allow to create a system of intensive learning, when the student is given the opportunity to choose a suitable program and learning technology, i.e. the principle of individualization of learning is implemented. The use of computer technologies in teaching the Ukrainian language as a foreign creates a favorable atmosphere in the classroom, helps the teacher to organize the learning process at a high methodological level, taking into account differentiated tasks, promotes the development of students' skills in using Internet resources, stimulates their academic and professional activities.

The presented study does not cover the whole range of issues related to the use of information technologies in teaching UFL, which causes the need for further research into this problem and the development of methodological recommendations for improving the organization of work with modern computer technologies in the structure of the UFL course.

References

1. Ghasemi, B., Hashemi, M. M., & Bardine, S. H. (2011). The capabilities of computers for language learning. Procedia – Social and Behavioral Sciences, 28, 58–62. https://doi.org/10.1016/j.sbspro.2011.11.012.

2. Kurakh, N. P., Koval, L., & Hevorhian, K. (2022). The importance of digital methodologies in foreign language studies at higher education institutions. Ìnnovacìjna Pedagogìka, 1(48), 97–102. https://doi.org/10.32843/2663-6085/2022/48.1.20

3. Maquiné, G. O., Da Silva Coelho, I. M. W., & Figueiredo, S. (2020). Digital tools for remote teaching of additional languages in times of pandemic. Educitec, 6. https://doi.org/10.31417/educitec.v6.1570eng

ДО ПИТАННЯ ПРО ЗАПРОВАДЖЕННЯ ОНЛАЙН-ЗАСОБІВ В КОНТЕКСТІ НАВЧАННЯ ГРАМАТИКИ ІНОЗЕМНОЇ МОВИ

[1,2]**Наталія Скрипник,** [1,3]**Олена Шамрай**
[1]Харківський національний автомобільно-дорожній університет, Україна
[2]кандидат педагогічних наук, доцент
skrypnykns@gmail.com
https://orcid.org/0000-0002-8208-3019
[3]shamrai.elena27@gmail.com
https://orcid.org/0000-0001-6808-9214

Вивчення граматики завжди займало одне з центральних місць у програмах навчання іноземних мов. Засвоєння граматичних правил є необхідним етапом для досягнення повноцінної комунікації в усній та письмовій формах. З уведенням дистанційного та змішаного формату навчання вивчення граматики стало актуальнішим і вимагає нових підходів та ресурсів.

Ця робота присвячена аналізу онлайн-ресурсів для викладання граматики іноземної мови на прикладі англійської в умовах сучасного освітнього середовища. Ми розглянемо готові, адаптовані та авторські ресурси, їхні можливості та обмеження у змішаному та дистанційному форматах. Проведемо аналіз переваг та недоліків кожного типу ресурсів, а також визначимо ключові критерії вибору ефективного онлайн-інструментів для вивчення граматики іноземної мови.

В сучасному світі, де технології стають невід'ємною частиною освіти, розуміння, як ефективно використовувати онлайн-ресурси для вивчення граматики, є критично важливим завданням для викладачів та студентів. Розглянуті аспекти допоможуть зрозуміти, як краще адаптувати навчальний процес до вимог сучасного освітнього середовища та забезпечити ефективне вивчення граматичних конструкцій іноземної мови у віртуальному форматі.

У сучасних умовах викладач іноземної мови повинен володіти не тільки методикою викладання і психологією, але й цифровими навичками. Це передбачає вміння працювати з різними пристроями, використовувати системи обміну повідомленнями, опанування систем віддаленого навчання, редагування аудіо та відео матеріалів тощо. Хоча оволодіння новими навичками вимагає часу, використання ефективних онлайн-ресурсів допомагає зробити процес вивчення іноземної мови цікавішим і ефективнішим.

Щодо майбутнього формату навчання в Україні, його важко передбачити, але вже очевидно, що вміння працювати дистанційно з використанням сучасних цифрових ресурсів стає необхідністю, незалежно від ситуації.

Проаналізувавши різноманітні дослідження та підходи вчених до питань викладання граматики, стає очевидним, що це завдання є одним із ключових у сфері методології навчання іноземних мов. В сучасних умовах, коли дистанційне навчання стає все більш актуальним, інтернет-ресурси стають необхідним інструментарієм для вивчення граматики. Зазначені дослідження вказують на те, що пандемія COVID-19 викликала не тільки необхідність використання дистанційних методів навчання, але й підкреслила важливість інтернет-ресурсів у вивченні граматики. Дослідження Лазуткіної, Маслової, а також вчених із численних іноземних праць, показують, що інтерактивність, доступність та різноманітність інтернет-ресурсів можуть значно полегшити процес вивчення граматичних аспектів іноземної мови.

Вивчення граматики входить у численні обов'язкові етапи програм вивчення іноземних мов і становить ключовий елемент у всіх навчальних ситуаціях. Без вміння розуміти граматичні конструкції важко досягти повноцінного спілкування як у письмовій, так і у усній формі. Викладачі іноземних мов активно використовують різноманітні матеріали для презентації, вправ та перевірки засвоєння граматичних правил. Перехід до змішаного або дистанційного формату навчання може ускладнити доступ або зробити неефективним використання традиційних матеріалів.

Щоб зробити процес вивчення граматики більш доступним у змішаному та дистанційному форматі, пропонується систематизувати онлайн-ресурси за категоріями презентації, практики та перевірки.

Використання різноманітних форм візуалізації матеріалу вважається ключовим для ефективного сприйняття та запам'ятовування інформації. Статичні зображення, такі як графічні органайзери, схеми та таблиці, можуть використовуватися для актуалізації знань під час занять та надавати підтримку при виконанні домашніх завдань.

Навчальні відео є основним інструментом для презентації граматичних концепцій. Вони сприяють розвитку уваги та пам'яті студентів і створюють атмосферу спільної пізнавальної діяльності. Відеоматеріали особливо корисні в асинхронному режимі, де студенти можуть самостійно опрацьовувати матеріал з урахуванням свого розкладу та прийнятного для них темпу засвоєння.

Онлайн-ресурси для практики граматики включають різноманітні вправи та тести, які можна виконувати онлайн у синхронному та асинхронному режимі. Ці завдання сприяють контрольованій практиці та автоматизації знань студентів.

Категорія ресурсів для перевірки засвоєння граматичних явищ включає тестування та/або контрольні завдання у синхронному та асинхронному режимах, також у форматі онлайн. Слідуючи за цим, наступним кроком є систематизація онлайн-ресурсів для викладання граматики англійської мови за їхнім походженням і роллю викладача. Розрізняємо три основні групи таких ресурсів: готові, адаптовані і авторські.

Готові онлайн-ресурси зазвичай входять в склад навчально-методичних комплексів з онлайн-підтримкою, таких як комплекси для вивчення англійської мови Empower від Cambridge University Press чи Gateway від MacMillan Education та багато інших. Вони містять матеріали для презентації, практики та перевірки в одному місці. Однак доступ до таких ресурсів обмежений певним терміном, зазвичай на один-два роки, і вимагає придбання такого комплексу кожним студентом.

Адаптовані онлайн-ресурси включають в себе матеріали, які вже існують і доступні у мережі інтернет, але викладачі адаптують їх до свого навчального контексту. До переваг таких ресурсів відносяться великий вибір матеріалів за рівнями складності та зручність використання, але їхнім недоліком є необхідність у ретельній перевірці та адаптації.

Авторські онлайн-ресурси створюються викладачами самостійно відповідно до їхніх освітніх потреб. Такі ресурси ідеально відповідають конкретним вимогам та цілям викладача, але вимагають багато часу на створення та оволодіння навичками користування певними сервісами.

Важливою є відповідність вибору ресурсу вимогам і потребам конкретного освітнього контексту та зручність його використання. Усі групи ресурсів мають свої переваги та недоліки, і вибір повинен бути обґрунтованим з урахуванням конкретних умов і завдань навчання.

Таким чином, у висвітленні ролі граматики в процесі вивчення іноземної мови в онлайн-середовищі були розглянуті три основні типи ресурсів: готові, адаптовані та авторські. Готові ресурси, що входять до складу навчальних комплексів, забезпечують широкий спектр матеріалів, але можуть бути обмеженими у доступі та терміні використання. Адаптовані ресурси відрізняються великим вибором, але вимагають ретельної перевірки та адаптації. Авторські ресурси дають викладачам можливість самостійно створювати матеріали, але вимагають часу та навичок у роботі з певними інструментами.

Аналіз вказаних ресурсів дозволяє визначити, що кожен тип має свої переваги та недоліки, і вибір залежить від конкретних вимог та особливостей освітнього процесу. Важливо підкреслити, що успішне впровадження онлайн-ресурсів вимагає ретельного вибору, адаптації та вивчення можливостей відповідних платформ. Розуміння цих аспектів допомагає ефективно інтегрувати онлайн-ресурси для покращення процесу вивчення граматики іноземної мови в онлайн- та змішаному форматах навчання у сучасних умовах.

References

1. Cotter, T. (2005). Planning a grammar lesson. Retrieved from. URL: https://www.teachingenglish.org.uk/professional-development/teachers/planning-lessons-and-courses/articles/planning-grammar-lesson

2. Elbashir, R.M., & Hamza, S.M. (2022). The impact of virtual tools on EFL learners' performance in Grammar at the times of COVID 19 Pandemic. *Journal of University Teaching & Learning Practice,* 19 (3). URL : https://ro.uow.edu.au/jutlp/vol19/iss3/07

3. Kruk, M. (2014). The use of internet resources and browser-based virtual worlds in teaching grammar. *Teaching English with Technology*, 14(2), 52-67.

4. Lapaire, Jean-Rémi. (2009). De la grammaire anglaise baladodiffusée au portfolio grammatical électronique: vers de nouvelles pratiques adaptées à l'ère du numérique. *Alsic*, Vol. 12,. URL: http://journals.openedition.org/alsic/1314

5. Заблоцький, Ю.В. (2021). Використання інтернет-інструментів в умовах дистанційного навчання для вивчення іноземної мови. *Наукові записки Національного університету «Острозька академія»: серія«Філологія»*, 11(79), 3–7.

6. Коваленко, А. (2021). Дистанційне навчання іноземної мови за умов пандемії: специфіка форм і методів роботи. *Актуальні питання гуманітарних наук,* 35 (3), 250 – 255.

7. Лазуткіна, Ю. (2014). Граматичний аспект вивчення іноземної мови. *Педагогічні науки*, 61-62, 120 – 126.

8. Тарасенко, М. І., & Маслова, К. І. (2020). Принципи використання граматики при вивченні іноземних мов (англійської). *Педагогіка формування творчої особистості у вищій і загальноосвітній школах,* 73 (1), 96 – 100.

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNNOVATİV YANAŞMA: BORAY METODU

Vəfa Eldar qızı Məhərrəmova
filologiya üzrə fəlsəfə doktoru,dosent
Mingəçevir Dövlər Universiteti
vafa.maharramova@mdu.edu.az
https://orcid.org/0000-0002-9204-3782

Qloballaşan dünya, insanlar arasında çoxaspektli ünsiyyət və əməkdaşlığa duyulan ehtiyacı hər keçən gün artırır. Bu reallıq isə öz növbəsində insanları ana dilindən başqa xarici dilləri bilmək məcburiyyəti ilə qarşı-qarşıya qoyur.

Keçmişdə olduğu kimi, bu gün də ingilis dilinin tədrisi ilə məşğul olan mərkəzlərdə və təhsil müəssisələrində xarici dilin öyrədilməsinin hansı üsulunun daha asan və nəticəyönümlü olduğu məsələsi mübahisə mövzusu olaraq qalır.

Müxtəlif nəzəri yanaşmalara əsaslanan bir sıra xarici dil öyrətmə usulları keçmişdə istifadə edilmiş və bu gün də istifadə edilməyə davam edir. Ümumi olaraq nəzər saldıqda, ingilis dilinin öyrədilməsində istifadə edilən əsas metodların aşağıdakılar olduğunu qeyd etmək olar:

- Qrammatika və tərcümə metodu;
- Düz məntiq metodu;
- Qulaq-dil vərdişi metodi;
- Koqnitiv öyrənmə metodu;
- Təbii üsul;
- Ünsiyyət əsaslı yanaşma;
- Seçmə üsulu;
- Təlqin metodu;
- Qrup metodu;
- Səssizlik metodu;
- Bütöv fiziki reaksiya metodu.

Fərqli metodlar və yanaşmalar tətbiq edilmiş, bu praktika nəticədə zamanla dilin öyrədilməsində əhəmiyyətli rol oynamışlar. Lakin 1991-ci ildə ingiliz pedaqoq Dik Olrayt Kanadada baş tutan bir beynəlxalq konfransda "Metodların məhvi" adlı məruzə ilə çıxış edərək, xarici dilin öyrədilməsi üsullarının effektinin aşağı olduğu qeyd etmişdir [1]. Bu gün artıq

nəzəriyədə yer alan, doqmatik şəkildə tətbiq edilən dil öyrətmə metodları yerinə pedaqoqların daha fəal olduqları metod və texnalogiyalar dövrüdür.

Məsələyə yanaşmanın dəyişməsi nəticəsində xarici dilin tədrisi sahəsində diqqət edilməsi və pedaqoqlar tərəfindən həssaslıqla yanaşılması lazım gələn əsas cəhətləri Yaboks və Jacobs ve Farel tərəfindən belə ifadə edilmişdir:

1) öyrənənin xüsusiyyətləri;
2) öyrənmənin sosial təbiəti;
3) öyrətmə proqramının inteqrasiyası;
4) məna üzərində dayanılması;
5) müxtəliflik;
6) düşünmə bacarıqları;
7) alternativ qiymətləndirmə;
8) öyrənmə tərəfdaşları olan pedaqoqlar [5].

Pedaqoqun yanaşması və bu istiqamətdə tətbiq edəcəyi metodlar, texnologiyalar xarici dil öyrənən şəxsin bu dili mənimsəmə prosesinə təsir göstərən mühüm faktorlardan biridir. Cemrn, kursiyerin auditoriyada qarşılaşdığı xarici dil öyrənmə təcrübəsinin müxtəlif üsul və texnologiyalarının, onun xərici dil bacarığının inkişaf səviyyəsini böyük ölçüdə müəyyən edəcəkdir. İngilis dili öğrədilən siniflərdə pedaqoqun istifadə etdiyi metodun, öyrənilənlər üzərində böyük təsirə malik olduğuna dair bir sıra tədqiqatlar həyata keçirilmişdir [2; 3; 4].

Xüsusilə, 1980-ci illərdən etibarən ingilis dili dünyada və Azərbaycanda paralel olaraq, hər keçən gün daha çox cəlbedici olmuş, buna baxmayaraq, ibtidai siniflərdən başlayaraq XI sinfə qədər davam edən İngilis dili dərsləri heç də gözləntiləri qarşılamamışdır. Nəticənin neqativ olmasının səbəbini izah edərkən tədqiqatçı T.Paker qeyd edir ki, "təəssüf ki, hələ də minlərlə dərs saatı düzgün cümlə qurmaq çalışmaları ilə boşa sərf edilir. Heç bir bacarığın ölçülmədiyi, təkcə qrammatikanın hansı səviyyədə öyrənildiyini qiymətləndirmək üçün təşkil edilən imtahanlarda yol verdikləri ən sadə qrammatik səhvlərə görə şagirdlərin göstəriciləri aşağı düşür. Nəticə "mən öyrənə bilmirəm!" hissinə qapılan, özünə inamı aşağı düşən milyonlarla şagird" [6].

Məktəblərimizdə dil vərdişləri istənilən səviyyədə aşılana bilmir. İstər kitab, istərsə də yerli və xaricdən dəvət edilən pedaqoqlara ayrılan vəsaitlər, ölkə daxilində və xaricdə fəaliyyət göstərən ingilis dili kurslarına getmək üçün sərf edilən maliyyə vəsaitləri, digər resurslar uşaqların istənilən səviyyədə ingilis dilini öyrənmələrini təmin etməmişdir. Həmçinin qarşılaşılan başqa bir məsələ də, xarici dil tədrisinə dair yeni metodlar, qaynaq əsərlər, rəsmi və özəl dil məktəbləri, kompüter proqramları, xarici məktəblər-kurslar və digər sahələrdə bir qarışıqlığın hökm sürməsidir. Məsələnin maraqlı tərəfi isə, xarici dil öyrənməkdə çətinlik çəkənlər arasında əksəriyyətin tələbələr təşkil etməsidir. Bu isə onu göstərir ki, tətbiq edilən metod və texnikalar, onların məzmunu, yaradılan şərait tələbələrin böyük əksəriyyətinə öyrənməyə çalışdıqları xarici dildə başa düşəcək, danışacaq və yazacaq səciyyədə bacarıq əldə etməyə kömək etmir.

Əldə edilən innovativ yeniliklər, müxtəlif metodlar ingilis dilini öyrənə bilməmək, danışa bilməmək və ünsiyyət qura bilməmək kimi mühim problemi həll edə bilməmişdir.

İngilis dilinin tədrisində istifadə olunan innovativ metodlardan biri də son illərdə geniş şəkildə istifadə olunan "Boray metodu"dur.

Boray üsulu klassik-ənənəvi ingilis dili tədrisi metodlarının yerinə yeni, öyrənən və öyrədənlə dost, asan istifadə edilən, effektini qısa müddətdə göstərən bir üsuldur.

Boray üsulu, sözün əsl mənasında ünsiyyət və başa düşmək üzərinə qurulan və bunlara əhəmiyyət verən bir üsuldur. Bu üsulun ortaya çıxmasında "ünsiyyət konsepsiyası"nın prinsipləri əsas alınmışdır. Lakin bir bütöv olaraq nəzər yetirildikdə, üstünlük ünsiyyət yanaşmasının prinsiplərinə verilməklə yanaşı, Boray üsulu hər metodun, sinifdə xarici dilin öyrədilməsini təmin edəcək bütün konsepsiyaların faydalı metodlarını, prinsiplərini nəzərə alır.

Boray metodunun əsas prinsipləri aşağıdakılardır:

- Dörd əsas bacarıq inkişaf etdirilməlidir: dinləmə, danışıq bacarıqlarının inkişaf etdirilməsi ilə başlayır.
- Öyrətmə və öyrənmə fəaliyyətləri çok açıq və başa düşülən olmalıdır.
- Sadədən mürəkkəbə doğru gedilir.
- Ana dili lazım olduqda istifadə edilir.
- Mərhələli öyrənmə. Hər mərhələdə yalnız bir yenilik təqdim edilir.
- Dil öyrənmənin ayrı-ayrı istiqamətləri inteqrativ şəkildə həyata keçirilir.
- Xarici dilin öyrənilməsinin praktik tərəfləri gündəlik həyatla bağlıdır və müəllim-şagird tərəfindən gündəlik olaraq həyata keçirilməlidir.
- Şagird, valideyn və digər sosial sistemlər öyrənmə prosesinin elementləri olaraq qəbul edilməlidir.
- Nəticənin əldə edilməsində motivasiya bilikdən daha əvvəl gəlir. Sinif və öyrənmə şəraiti şagirdlərin və pedaqoqun motivasiyasına pozitiv təsir edəcək şəkildə tərtib edilməlidir.
- Öyrənə biləcəyinə olan inam və bunun qısa müddət ərzində şagird tərəfindən interiorizasiya edilməsini təmin etmək, pedaqoqun əsas məqsədlərindən biridir.
- Öyrənmə mühiti, öyrənmə praktikası cəlbedicidir, hər şagird çalışır ki, həm sinifdə, həm də audioriyadan kənarda öyrənsin.
- Hər bir insan öyrənə bilər. Boray Metodu sayəsində kursiyerlər arasında fərq getdikcə ortadan qalxır.
- Dil müasirləşir və dilin öyrədilməsində həmişə hazırda istifadə edilən dilə üstünlük verilir.
- Öyrənməyə bütün tərəflər töhfə verir [7].

Boray metodu, hansı səviyyədə olmasından asılı olmayaraq, insanların ana dilindən irəli gələn ingilis dilində danışa bilməmək problemini ortadan qaldıraraq, bu dili öyrənmələrini asanlaşdırmaq və öyrənmənin ünsiyyət prosesində baş verməsini təmin etməklə bağlı üsuldur.

Şagirdin səviyyəsinə, öyrənmə sürətinə görə bir ay ilə beş ay arasında öz nəticəsini verir. Harada və necə ingilis dili öyrənilirsə öyrənilsin, birinci dərəcəli metod olaraq və ya inkişaf etdirici-dəstəkləyici bir üsul kimi, fərdi, qrup halında və sinifdə pedaqoq rəhbərliyində bu metoddan istifadə edilə bilər.

Bu metod, dil öyrənmə prosesinə cəlb olmuş fərdləri məkrəbdə, kursda əldə etdiyi, danışarkən bir tərəfdən də dilin qrammatikasına əməl etmək məcburiyyətindən, ana dilinin strukturu və istifadəsindən meydanan gələn düz, sürətli, monoton, cansız və artikulyasiyasız danışıqdan, utancaqlıq, səhv etmək qorxusu və insanların sizə lağ edəcəkləri kimi "sosioloji qorxulardan" xilas etmək üçündür. İngilis dilini öyrənmək istəyənlərə həm psixoloji, həm də fiziki sakitlik verməklə, ingilis dilinin öyrənilə biləcəyinə inandırmaq məqsədi daşıyır.

Bu üsulun ingilis dilini öyrənənlərə faydaları aşağıdakılardır:

- İngilis dilini öyrənənlər ana dilinin səbəb olduğu tələffüz çətinliyinin; ağız tənbəlliyinin; çox sürətli və artikulyasiyasız ingilis dilində danışdıqlarını görəcəklər. Yuxarıda qeyd edilən problemləri necə aradan qaldıracaqlarını öyrənəcəklər.
- Azərbaycan dili kimi dillərdə feilin cümlənin sonunda yer alması, danışığın sürətli olmasına səbəb olur. Şagirdlər, ingilis dilini də bu qaydada, yəni sürətli danışmağa meylli olurlar. Boray üsulu şagirdlərə və xarici dil öyrənənlərə bu yanaşmadan uzaqlaşıb, ingilis dilində tələsmədən danışmağı öyrədir.
- Dili təkcə sinifdə yox, həyatdan öyrənəcəklər.
- Fərdi və ya qrup çalışmalarıyla, nitqin səs yazan vasitələrlə qeydə alınması və yenidən qulaq asılaraq buraxılan səhvlərin aradan qaldırılması ilə ingilis dillərini inkişaf etdirə biləcəklər.
- Söz ehtiyatını artırarkən, üstünlük əsas feillərə verilməlidir. Çünki ingilis dilində sərbəst danışmaq üçün əsas feilləri bilməyin əhəmiyyəti böyükdür.
- Motivasiya və özünə inam hissi ən yüksək səviyyəyə çatacaq. "v, w" kimi türk dillərində olmayan səslərin artikulyasiyalarını öyrənə biləcəklər. Xarici ölkələrə getməyə ehtiyac olmadan da,

ingilis dilini ən gözəl şəkildə danışa biləcəklər. Öz nitqinə qulaq asmağın, öz hərəkətlərini müşahidə etməyin və bundan sonra qiymətləndirməyin ən səmərəli ingilis dili öyrənmə üsulu olduğunu başa düşəcəklər.

- Uzun illər ingilis dilində təhsil aldığı halda bu dili danışa bilməyənlər "Pişik texnikası" ilə asanlıqla, həm də öz-özünə, "əsas feil vurğulu səs qeydiylə" isbatını başa düşərək, bu dildə danışa biləcəklər.

- Öyrənməyə daha yeni başlayanlar isə qrammatik qaydaları danışa danışa öyrənib, qətiyyən əvvəlki nəsillər kimi "çox yaxşı başa düşürəm, amma danışa bilmirəm" deməyəcəklər.

- İngilis dilinin tədrisində hər səviyyədə "danışıq" ilk və ən əhəmiyyətli məqsəddir. Azərbaycan dili də daxil olmaqla, oxuma və yazma vərdişləri formalaşmamış şagirdlərə və kursiyerlərə daha çox ingilis dilində oxudaraq və yazdıraraq, səhv taktikalarla ingilis dilində materiallara qulaq asdırılaraq bu dili öyrətmək metodları etibarlılığını itirmişdir.

Boray metodunun mərhələləri aşağıdakılardır:

"Pişik texnikası" (15 dəqiqədə əsas feil vurğulu səslərin qeyd edilməsi): Boray metodunun ilk və ən əhəmiyyətli hissəsini "Pişik texnikası" təşkil edir. Bu texnika öz adını əsas feil vurğusunun atlayan bişiyə oxşarlığından alır. İngilis dilinin, xüsisə bizim kimi türkdilli insanlar tərəfindən daha rahat dinlənməsini, başa düşülməsini və danışılmasını təmin edən "əsas feil vurğusu və təqibi" Boray metodunun əsasını təşkil edir. İndi isə daha yaxından baxaq.

Şagird öz xarici dil səviyyəsinə uyğun olaraq mətni səsli şəkildə oxuyur və ilk səs qeydə alınır və özünə qulaq asdırılır. Sonra dinlədiyi səs başqasının səsi kimi fikir bildirməsi tələb olunur. Ana dil ilə ingilis dili arasında vurğu, ritm və əsas feilin əhəmiyyəti başa salınır.

İlk səs yazısı ilə motivasiya olunan şagird, hər gün "ən azı yarım saat" mütəmadi olaraq dərs keçməlidir. Bəzən ondan "Pişik texnikası"ndan istifadə edərək seçdiyi mövzunu izah etməsi və səsini yazması xahiş olunur. Əsas məqsəd danışarkən pişik texnikasını təbii şəkildə tətbiq edə bilməkdir. Bu şüur və dəyişiklik prosesi zamanı şagird, audio və video medianı daha asan izləməyə başlayır və böyük bir sirri açmış kimi hiss edir. Gündəlik olaraq 5-15 dəqiqə "televizor, radio, internet, CD və ya DVD-dən eşitdiklərini əslinə uyğun cümlələrlə səsli olaraq təkrar etməsi tələb edilir.

Cümlədəki digər vurğulu sözlər, cümlənin vurğulu hecası və bəzi səslərin artikulyasiyaları "əsas feil"in üzərində yüksəlir.

- Səsli oxuma və danışıq prosesində şagirddən cümləyə başlamazdan əvvəl, quracağı cümləni fikirləşməsi, daha sonra isə cümləni səsləndirməsi, heç dayanmadan və qrammatik tələblərə fikir vermədən təkcə əsas feilə konsantrasiya olaraq cümləni sürətlə bitirməsi tələb edilir.

- Şagirddən bir vərəqə iyirmi ədəd əsas feil yazması və ancaq bu feillər əsasında əvvəlcə bir, sonra iki, sonra üç, sonra dörd zamanda cümlələr qurması tələb edilir.

- Öyrənən şəxsin əvvəlcə nəzəri bilik yükləyib sonra isə danışmağa çalışması yerinə, danışıqda qrammatikanın əsas xüsusiyyətlərini öyrənməsi tələb edilir.

- Xarici dil bacarığını daha da inkişaf etdirmək üçün qrup üzvləri bir dairənin içinə alınır və burada hamı eyni anda qarşılıqlı söhbət etməyə başlayır ki, "mürəkkəb dairə" təcrübə adlanan bu təcrübədən vaxtaşırı istifadə edilir.

- Şagirdə başda köməkçi feillər olmaqla, bütün zəif formalar verilir və öyrənməsi tələb edilir.

- Hansı zəif və güclü formaların olduğunu öyrənən şəxsdən mətnin hərflərini vurğuya görə böyüdərək-kiçildərək, vurğulanan və vurğulanmayan elementləri vizuallaşdırmaqla kompüterdə yazması xahiş olunur. Daha sonra sözün zəif və güclü formalarını ucadan oxuyaraq bunu qeyd edir və sözlərin tələffüz formalarının gücləndirilməsi nəzərdə tutulur.

- Xarici dil öyrənmə prosesində yer alan fərdə, ana dilindən qaynaqlanan hecalama və vurğunu ilk hecaya salma vərdişini tərk edib, sözü bir bütöv olaraq görməsi öyrədilir [8].

Nəticə etibarilə, hər hansı bir xarici dili öyrənməyin tək yolu, həmin dilə aid çox sayıda başa düşülən informasiyanı qəbul etmək lazımdır. Buna görə də, həm dərs mühiti, həm də auditoriyadan

kənar mühit xarici dil öyrənənlərin çox sayda başa düşülən informasiya əldə edə biləcəkləri şəkildə hazırlanmalıdır. Başqa bir ifadə ilə, xarici dilin tədrisi prosesi, dili mümkün qədər real həyatda, bir öyrənmə və ünsiyyət vasitəsi olaraq istifadə edilmək üzrə təqdim edəcək şəkildə həyata keçirilməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Cameron, L. Teaching Languages to Young Learners /L. Cameron. – Cambridge: Cambridge University Press, - 2001.
2. Demirel, Ö. Yabancı Dil Öğretimi / Ö.Demirel. – Ankara: Pegem Akademi, - 2016.
3. Gardner, R.C. Integrative motivation: past, present and future [Electronic resource] / - 2019. URL: http://publish.uwo.ca/~gardner/docs/GardnerPublicLecture1.pdf
4. Gündoğdu, A. Pergelin sabit ayağını buraya, kendi özümüze kilitleyerek // Eğitime Bakış, - 2009. № 14, - s. 1-2.
5. Jacobs, G.M., Farrell, T.S. Understanding and implementing the CLT (Communicative Language Teaching) paradigm // - RELC Journal. - 2003. № 34 /1, pp. 5-30.
6. Paker, T. İletişimsel dil öğretim yöntemi / T. Paker. - Ankara: Pegem Akademi, - 2015.
7. Richards, J.C. Approaches and methods in language teaching / J.C.Richards, T.S.Rogers. - Cambridge: Cambridge University Press, - 2001.
8. Yıldıran, G., Aydın, E. The effects of mastery learning and cooperative, competitive and individualistic learning environment organizations on achievement and attitudes in mathematics // - Research in Mathematical Education, - 2005. № 9/1, - pp. 69-96.

LINGUISTIC PICTURE OF THE WORLD

Mehdi Rahimov, Shafa Hunbatova
Mingachevir State University
PhD in philology, Associate Professor
mehdi.rahimov@mdu.edu.az
https://orcid.org/0000-0001-8324-573X
shafa.hunbatova@mdu.edu.az
https://orcid.org/0009-0002-9830-1583

A linguistic picture of the world, historically formed in the everyday consciousness of a given linguistic community and reflected in the language as a set of ideas about the world, a certain way of conceptualizing reality. The concept of a linguistic picture of the world goes back to the ideas of W. von Humboldt and Weisgerber about the internal form of language. Each person has a subjective image of a certain object, which does not completely coincide with the image of the same object in another person. This idea can only be objectified by making "its own way through the mouth into the outside world." The word, thus, carries the burden of subjective ideas, the differences of which are within certain limits, since their speakers are members of the same linguistic community and have a certain national character and consciousness.

The merit of L. Weisgerber lies in the fact that he introduced the concept of "linguistic picture of the world" into the scientific terminological system. This concept determined the originality of his linguo-philosophical concept, along with the "intermediate world" and the "energy" of language.

The main characteristics of the linguistic picture of the world, which L. Weisgerber endows it with, are the following:

1. the linguistic picture of the world is a system of all possible contents: spiritual, which determine the uniqueness of the culture and mentality of a given linguistic community, and linguistic, which determine the existence and functioning of the language itself,

2. the linguistic picture of the world, on the one hand, is a consequence of the historical development of ethnicity and language, and, on the other hand, is the reason for the unique path of their further development,

3. The linguistic picture of the world as a single "living organism" is clearly structured and in linguistic expression is multi-level. It determines a special set of sounds and sound combinations, structural features of the articulatory apparatus of native speakers, prosodic characteristics of speech, vocabulary, word-formation capabilities of the language and the syntax of phrases and sentences, as well as its own paremiological baggage. In other words, the linguistic picture of the world determines the overall communicative behavior, understanding of the external world of nature and the internal world of man and the language system,

4. the linguistic picture of the world is changeable over time and, like any "living organism," is subject to development, that is, in a vertical (diachronic) sense, at each subsequent stage of development it is partly non-identical to itself,

5. the linguistic picture of the world creates the homogeneity of the linguistic essence, helping to consolidate its linguistic, and therefore cultural, uniqueness in the vision of the world and its designation by means of language,

6. the linguistic picture of the world exists in a homogeneous, unique self-awareness of the linguistic community and is transmitted to subsequent generations through a special worldview, rules of behavior, way of life, imprinted by means of language,

7. the picture of the world of any language is the transformative power of language, which forms the idea of the surrounding world through language as an "intermediate world" among speakers of this language,

8. The linguistic picture of the world of a particular linguistic community is its general cultural heritage.

Language is a fact of culture, an integral part of the culture that we inherit, and at the same time its instrument. The culture of a people is verbalized in language; it is the language that accumulates the key concepts of culture, transmitting them in a symbolic embodiment - words. The model of the world created by language is a subjective image of the objective world; it carries within itself the features of the human way of comprehending the world, i.e. anthropocentrism that permeates all language.

This point of view is shared by V.A.Maslova: "The linguistic picture of the world is the general cultural heritage of the nation; it is structured and multi-level. It is the linguistic picture of the world that determines communicative behavior, understanding of the external world and the inner world of a person. It reflects the way of speech and thinking activity characteristic of a particular era, with its spiritual, cultural and national values." [1]

The linguistic picture of the world, as noted by G.V.Kolshansky, is based on the characteristics of the social and labor experience of each people. Ultimately, these features find their expression in differences in the lexical and grammatical nomination of phenomena and processes, in the compatibility of certain meanings, in their etymology (the choice of the initial feature in the nomination and formation of the meaning of a word), etc. in language "the whole variety of creative cognitive activity of a person (social and individual) is fixed", which consists precisely in the fact that "in accordance with the boundless number of conditions that are the stimulus in his directed cognition, each time he selects and consolidates one of the countless properties of objects and phenomena and their connections. It is this human factor that is clearly visible in all linguistic formations, both in the norm and in its deviations and individual styles" [2; 33].

References

1. Красных В.В. Этнопсихолингвистика и лингвокультурология: Курс лекций. – М.: ИТДГК «Гнозис, 2002. – 284 с.
2. Колшанский Г.В. Объективная картина мира в познании и языке. - М.: Наука, 1990

SÖZ YARADICILIĞINDA FONETİK DƏYİŞMƏ (PROFESSOR BAYRAM ƏHMƏDOVUN TƏDQİQATLARINDA)

Maarifə Nuh qızı Manafova
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
maarifa.manafova@mdu.edu.az
https://orcid.org/0000-0001-7425-2313

Professor Bayram Əhmədov Azərbaycan dilinin dialektologiyasına dair qiymətli tədqiqatların və dərs vəsaitlərinin müəllifidir. Onun elmi yaradıcılığında leksika məsələləri xüsusi yer tutur. Azərbaycan dilinin şivələrində leksik zənginlik çox güclüdür. B. Əhmədov bu zənginliyi təşkil edən sözlərin formalaşma üsulları və modellərinin öyrənilməsinə xüsusi diqqət yetirmişdir.

Tədqiqatçılar sözlərin yaranma üsullarını araşdırarkən, əsasən, leksik, morfoloji və sintaktik yolları müəyyənləşdirmiş, fonosemantik amillər - səsin semantik cəhətdən sözyaradıcı funksiyası nəzərə alınmamışdır. Azərbaycan dilində söz yaradıcılığının 3 prosesi olduğunu qeyd edən Səlim Cəfərov [1, s.121] fonetik tərkibin dəyişməsi ilə bağlı söz artımının daha qədim dövrlərə aid olduğunu göstərir: " Səs tərkibində dəyişiklik əmələ gəlməklə yeni sözlərin yaranması yolu daha qədim dövrlərə aiddir. Sözlərdə səs dəyişməsi prosesi çox gec başa gəldiyindən müasir dildə bunu müşahidə etmək çətin olur. Dilimizdə bu gün biz ən çox vaxtilə baş vermiş bu hadısənin izlərini tapa bilirik" [1, s.129].

Dialekt və şivələrdə fonetik dəyişmə və söz yaradıcılığını izləyən professor Bayram Əhmədov belə bir nəticəyə gəlmişdir ki, bu sahənin tədqiqinə xüsusi ehtiyac var. Azərbaycan dili şivələrində çoxlu sözlər var ki, onlar məhz səs dəyişməsi ilə formalaşmışdır. Tədqiqatçı onları belə qruplaşdırır: səslərin əvəzlənməsi ilə formalaşanlar, səs artımı ilə formalaşanlar, səs düşümü ilə formalaşanlar, səslərin yerdəyişməsi ilə formalaşanlar.

Dildə, o cümlədən dialektlərdə səs əvəzlənməsi, səs keçidi kimi qeydə alınan bəzi fonetik hadisələr bir müddət fonem variantı kimi çıxış etsə də, müəyyən vaxtdan sonra fonemə çevrilərək sözün leksik mənasını dəyişdirir. Bu isə Azərbaycan ədəbi dilə ilə müqayisədə semantik fərqlilik yaradır [3, s.1009].

Tədqiqatçı göstərir ki, mövcud sözün geniş mənası bir formaya sığışmadıqda səs dəyişir, semantik cəhətdən əlaqəli başqa bir sözə keçid başlayır. Məs.:

A – ə əvəzlənməsi: Çətir (başa çəkilən lent kimi *çit*) – *çətən* (qarğının xırdalarından iplə hörülüb düzəldilən *süzgəc*).

*A – o əvəzlənməsi: gap (*Qazax dialektində *söhbət, ixtilat*) – gop (ədəbi dildə də işlənir *danışıq*).

Ü – i əvəzlənməsi: ün - əksər şivələrdə *səs* mənasındadır. "Əlim çatmır, ünüm yetmir" ifadəsi geniş işlədilir. *Ü – i* əvəzlənməsi nəticəsində *in(ləmək)-ün(eləmək), in(ilti)* sözlərinin yarandığı aydın görünür.

Səs dəyişməsi ilə əlaqədar *dələmə, çöjək//çöjmək, kövşə, yengə, qasırğa, koduş, pışqı//puşqu, şırıqqa, şırğa, yütmə, ağurux, mırğız, qurax, qıyma//qiymə, puşqax (bucaq), duqqu, çutqu, dodaq*

(ədəbi dil), quşqun, buğum, gumac, ufaq, urva, boran (ədəbi dil) və s. sözlərin təhlili dilimizin tarixi qrammatikası üçün qiymətli faktlar verir.

Bayram Əhmədov haqlı olaraq bu fikirlə razılaşır ki, samitlər qədimdə kəmiyyətcə az olmuşdur. Azərbaycan dili dialekt və şivələrində samitlərin dəyişmələri ilə də yeni sözlər yaranmışdır. Məs.:

H – y əvəzlənməsi: Dialektlərimizdə *hel-* sözü dağdan qopub yumalanan, uşaqların dağdan üzü aşağı dığırlatdıqları *daş* deməkdir. *(*Gəlin gedək *hel* dığırrayax.Qazax dialektində.*)* Tədqiqatçş göstərir ki, *hel* sözü ədəbi dildəki *yel (yellənmək)* sözü ilə eyni köklü olub, dialektal törəmə sayıla bilər [2, s.30].

Y – v əvəzlənməsi: Küy-küv sözləri. Ədəbi dilimizdə işlənən *küy* – "səs" sözü samit dəyişməsindən sonra *küv* şəklinə düşüb bu gün də Cəbrayıl şivəsində *səs* mənasında işlənir.

R – l əvəzlənməsi: *Vər* sözü keçid şivələrdə ot, taxıl, pambıq sahələrindəki *iki cız arası*na deyilir. *R – l* əvəzlənməsi ilə yaranan *vələ* sözü isə *çalınıb sıra ilə tökülmüş ot* deməkdir: *Vələni çöldən daşudun, yoxsa hələm qaley (Yardımlı).*

Samit əvəzlənməsi ilə söz yaradıcılığında bəzən saitlərin də dəyişməsi müşahıdə olunur. Yəni sözdə samitlərlə birlikdə saitlərin də əvəzlənməsini görürük. Həm sait, həm də samit səslərin əvəzlənməsi ilə formalaşan *kəs//kes//qıs, çəv//şiv, tış-daş-diş(ədəbi dildə), dodaq (ədəbi dildə), sıra, cərgə(ədəbi dildə), şirım, kilkə, qüçük, şaraf kəklik (ədəbi dil), keçəl (ədəbi dil), vam, şomba və s.* sözlər maraqlı dil fakttları ilə yadda qalır.

Şivələrdə səs artımı (proteza), xüsusilə samit artımı diqqəti çəkir və samitlərin artımı fonovariant və fonosemantik sözlərin yaranmasına xidmət edir. Bayram Əhmədov bu fikri bir daha vurğulayır ki, *hörmək, hürkmək, hucmaq, hıçqırmaq* kimi sözlərdə söz əvvəlində işlənən *h* səsi şivələrdən gəlmişdir. *Hel, horumçu, herti, hert, hırıltı, həs, hənək, hənir, həbə, həfçı//əvəçı//əvənçi, həmərsin//həmərsün, hayta, höyüş* və s. sözlər də səs artımı ilə yaradılmışdır.

Dilçi alim göstərir ki, dialekt və şıvələrdə mühafizə olunan bəzi sözlər səs düşümü (eliziya) ilə formalaşmışdır. Çoxhecalı sözlərdə bu özünü daha qabarıq göstərir. *Zəngi* sözü şıvələrdə *çarığın ip keçirilən hissəsinə* deyilir. Ədəbi dilimizdə *üzəngi* sözü işlədilir (*üzəngi* yəhərin ayaq qoyulan hissəsinin adıdır). Deməli səs düşümü ilə yeni söz formalaşıb.

Əksər şivələrdə işlənən *kətil* sözü *ağacdan kəsilib düzələn oturacaq mənasında* işlədilir. Tədqiqatçı göstərir ki, bu söz *kərt//kərit//kəc* sözləri ilə bağlıdır. *Kərt* sözü ilə həmin əşyanın düzəldilməsi prosesi arasında bir yaxınlıq var. Həm də *kərtil* sözündəki *t* səsinin düşməsi ilə *kətil* formasına düşmüş, yeni söz yaradılmışdır. Bu siraya *asırğa-sırğa, yalov-alov-lov-lo, acmaq-acımaq* sözlərini də aid etmək olar. Səs düşümü aşağıdakı sözlərin də semantikasını formalaşdırmışdır: *Təpçi-//təpşi, nəmçi-, barxana, calğa, val, yığla-, yuğna, yaxala (ədəbi dildə) xama, qutka, qıxmıx, sapma, busağa,pörə, sirkan, axı, kərkı, örpək, bala, qabaq, yuva, qasa, acı (ədəbi dil), löküd, cana, kövər, kici və s.*[2, s.68].

Professor Bayram Əhmədov qeyd edir ki, səslərin yerdəyişməsi dialekt və şivələrdə geniş təsadüf olunan fonetik hadisədir. Xüsusən samitlərin yerdəyişməsi daha geniş yayılmışdır. *Çırpışmaq* sözünü misal çəkən dilçi alim bu qənaət gəlir ki, burada *p-r* samitləri yerlərini dəyişmişdir. XV əsr mənbələrində indiki *çırpışmaq* sözünün *çaprış* kimi qeyd olunması bunu bir daha sübut edir. Gördüyünüz kimi dialekt və şivələrdə səslərin yerdəyişməsi də yeni sözlər formalaşdırır.

Tədqiqatçı bu nəticəyə gəlir ki, sözlərin şəkli dəyişməsi səs qanunları əsasında baş verir.

Beləliklə, professor Bayram Əhmədov Azərbaycan dili şivələrində fonetik dəyişmələrlə söz yaradıcılığına dair qiymətli tədqiqatlar aparmışdır ki, bunlarsız fonosemantik yolla söz yaradıcılığının düzgün, dəqiq təhlilini vermək mümkün deyil.

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə. Leksika. Bakı: Şərq–Qərb, 2007. – 121 s.

2. Əhmədov B. B. Leksika məsələləri. Bakı: Maarif, 1990. - 140 s.
3. Müasir Azərbaycan dili. Leksikologia. II kitab. Bakı: "Zərdabi Nəşr" MMC, 2022, 1152 s.

SÖZ DİSKURSUN VAHİDİ KİMİ

Elşad İsa oğlu Allahverdiyev
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
elshad.allahverdiyev@mdu.edu.az
https://orcid.org/0009-0007-9593-5472

Dil nitq əsasında və fərqli mətnlərin ümumiləşdirilməsi yolu ilə yaranır. Daha sonra nitq yaxud mətn yaradılarkən dilin struktur vahidlərindən, qayda və normalarından bir baza kimi istifadə edilir. İnsan ünsiyyət ehtiyacını ümumilikdə nitq vasitəsi ilə, daha dəqiq desək yazılı və ya şifahi nitq vasitəsilə ödəyir. Məsələn, məqalə, monoqrafiya tipli yazılı nitq elmi ünsiyyətə xidmət edir. Şifahi nitq və ya söhbət, bir digər adıyla diskursdur. Hazırda dilçilik elmində işlənən diskurs terminini dilçiliyə gətirən amerika dilçisi Z.Hərris olmuşdur. Daha sonra Avropada da diskurs üzrə tədqiqatlar geniş vüsət aldı. Diskurs termini ingilis dilindən tərcümədə discourse – "söhbət", "danışıq", fransız dilindən tərcümədə "mühakimə", "fikir yürütmə" mənalarını ifadə edir. Elmi ədəbiyyatda diskursun aşağıdakı növləri fərqləndirilir: siyasi diskurs, vətənpərvərlik diskursu, biznes diskursu, elmi diskurs və s.

T.A.van Deyk diskursu həm geniş, həm də dar mənada izah edərək göstərir ki, "geniş mənada diskurs danışan və dinləyən (eləcə də müşahidə edən) arasında müəyyən zaman və məkan daxilindəki ünsiyyət fəaliyyəti prosesində yaranan kommunikativ hadisədir. Diskursa aid ən sadə nümunə adi danışıq, dialoq və s. sayıla bilər. Dar mənada diskurs kommunikativ təsirin yalnız verbal təşkiledicisi əsasında formalaşan mətn və ya danışıqdır" [1, s.72]. A.Məmmədov və M.Məmmədov da diskursu mətn və kontekstin vəhdətində nəzərdən keçirirlər. Onlar N.Enkvistin bu fikrini qeyd edirlər: "Diskurs mətn ilə situasiya komponentinə malik kontekstin məcmusudur" [2, s.9].

Diskursu həm nəticə (ünsiyyət zamanı meydana çıxan mətnlər toplusu olaraq), həm də proses (nitq-təfəkkür fəaliyyəti) kimi nəzərdən keçirən V.V.Krasnıx hesab edir ki, "diskurs həm prosesi, həm də onun nəticəsini özündə əks etdirməklə linqvistik, eyni zamanda ekstralinqvistik plana malik olan verbal ifadə olunmuş nitq-təfəkkür fəaliyyətidir" [3, s.200-203]. Beləliklə, müasir elmi ədəbiyyatda diskurs dedikdə müxtəlif ekstralinqvistik, o cümlədən sosial-kulturoloji amilləri özündə birləşdirən kommunikativ akt nəzərdə tutulur. Ünsiyyət prosesinin reallaşdığı situasiyanın, sadəcə danışanın və onun müsahibinin ruh halının deyil, ünsiyyətin təsadüfi iştirakçılarının belə diskursun yaranmasında rolu var. Bu baxımdan hesab etmək olar ki, diskurs mətndən başqa, mətni başa düşmək üçün zəruri olan ekstralinqvistik amilləri (dünya haqqında biliklər, münasibət, adresatın məqsədi və s.) özündə birləşdirən mürəkkəb kommunikativ hadisə və ya nitq axınıdır.

Mətn məlumatları fiksasiya edilmiş və bitkin formada təqdim edir. Mətn üçün möhkəm daxili struktur-semantik bağlılıq xarakterikdir. Mətnin məntiqi-semantik bütövlüyünü təmin edən başlıca vasitələr koheziya (mətn dilçiliyində bütövlüyün, tamlığın göstəricisi) və koherensiya (assosiativ, kompozision və məntiqi əlaqə, məna bağlılığı) terminləri ilə ifadə olunur, bu iki komponent biri-digərindən qarşılıqlı şəkildə asılıdır. Beləliklə, mətn müəyyən informasiya daşıyıcısı olmaqla konkret nitq situasiyalarında dil materialından funksional istifadənin nəticəsidir.

Diskursda sintaktik və semantik münasibətlərin öyrənilməsi baxımından sözün və cümlənin özündən əvvəl və ya sonra gələn söz və cümləyə bağlılığı daim maraq kəsb etmişdir. Diskursun

presuppozisiyasını (ingiliscə "güman", "ehtimal" sözündəndir) müəyyənləşdirmək bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu zaman fikir mətndə söz və ya cümlə formasında bilavasitə iştirak etməsə də asanlıqla müəyyən edilə bilir.

Son dövrdə humanitar və sosial elmlər sahəsində əlaqəli mətnin və diskursun öyrənilməsinə maraq xeyli artmışdır. Mətni anlama strategiyası T.A. Van Deyk və V.Kinç tərəfindən yazılmış "Diskursu anlama strategiyası" (1983) adlı kitabda irəli sürülmüşdür. 1980-cı illərdə T.A. van Deyk diskurs təhlilinin koqnitiv mexanizmləri ideyasını işləyib hazırladı. Onun irəli sürdüyü koqnitiv model ictimai şüurda gedən bir çox mürəkkəb proseslərin anlaşılması baxımından olduqca faydalı oldu və koqnitiv dilçiliyin inkişafına öz töhfəsini verdi. T.A. van Deyk və V.Kinç tərəfindən təqdim edilmiş təsvirin tamlığına əsaslanan modelə görə, dərketmə yalnız qəbul edilən məlumatların emal və interpretasiyasını deyil, həmçinin daxili koqnitiv informasiyanın aktivləşdirilərək istifadəsini nəzərdə tutur. Onlar bu tip informasiyanı "presuppozision əsas" adlandırır [4]. Bu o deməkdir ki, hər hansı hadisə barədə nəql olunan mətn konkret situasiyada və sosial-mədəni kontekst daxilində danışan və dinləyən tərəfindən bənzər situasiyalara əsaslanan öz keçmiş təcrübələri fonunda şərh edilir. Odur ki, diskursun emalı təkcə koqnitiv deyil, həm də ictimai hadisədir.

Mətn və diskurs nisbəti indiyədək, hətta müasir dilçilikdə belə mübahisəli olaraq qalmaqdadır. Lakin, bu mövzuya dair əksər elmi ədəbiyyata nəzər saldıqda aydın olur ki, bu iki anlayışın – mətn və diskursun bir-birilə əlaqədar olması heç bir mübahisə doğurmur. Həm mətnin, həm də diskursun qurulmasının psixolinqvistik əsası dil və məntiqin əlaqəsinin nəticəsidir.

Diskursa xas olan cəhətlərdən biri də onun spontan olmasıdır. Diskurs dinamik, mətn isə statikdir. F.Y.Veysəlli yazır: "Mətn isə real zamana bağlı olmur, o, abstrakt, mental konstruktdur, özü də diskursda reallaşır" [5, s.21]. Diskursda nəzərə alınan cəhətlərdən biri də həmsöhbətlərin reaksiyasıdır. Diskurs canlı auditoriya üçün, mətn isə mücərrəd və qeyri-müəyyən auditoriya üçün nəzərdə tutulmuş ola bilər.

Hər bir mətn əvvəlcə diskurs formasında mövcud olmuşdur, diskursiv fəaliyyətdən kənar mətn yoxdur. Diskurs praqmatik, mətn isə sırf linqvistik kateqoriyadır. Diskurs prosesi, mətn isə həmin prosesin nəticəsini bildirir. Mətn diskursda reallaşır və ya aktuallaşır. Beləliklə, mətn və diskurs fərqli anlayışlar olsa da, onlar arasındakı münasibət səbəb-nəticə əlaqəsinə əsaslanır. Eyni zamanda, mətn və diskurs biri-digərindən qarşılıqlı şəkildə asılıdır. Hər bir diskurs eyni zamanda mətndir. Lakin, heç də hər bir mətn diskurs deyildir. Mətn və diskurs bir birindən fərqlidir, amma biri digərinə çevrilə bildiyi kimi biri digəri əsasında yarana da bilir. Təbii ki, diskursu mətnə transformasiya etmək mümkündür. Amma mətndə ekstralinqvistik amilləri olduğu kimi ifadə imkanı mövcud deyil. Yazılı mətni də diskursa transformasiya etmək olar. Lakin, nəzərə almaq lazımdır ki, mətn əsasında yaradılan diskurs ilkin diskursun sadəcə reprezentasiyası mahiyyətini daşıyır. Qədim, ölü dillərə aid mətnləri isə nəinki nitqə və ya diskursa çevirmək, bəzi hallarda heç reprezentasiya etmək belə mümkün deyil. Bunun səbəbini, həmin dillərin fonetik, orfoepik və morfoloji qayda və prinsiplərini bərpa etməyin qeyri-mümkünlüyü ilə izah etmək olar.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olar ki, indiyədək dilçilik ədəbiyyatında bu istiqamət üzrə tədqiqatlar əsasən diskurs və mətnin müqayisəsinə yönəlmişdir. Diskurs və nitq problemini şərh etməzdən əvvəl isə dilçilik elmində ümumiyyətlə dil və nitqlə bağlı deyilənlərə nəzər salaq. Dillə nitqi V.Humboldt ilk dəfə fərqləndirməyə cəhd etmiş olsa da, onlar arasındakı mühüm fərqləri F.Sössür göstərmişdir. Məlumdur ki, dil nitqdə reallaşır. Dil nitq üçün bazadır. Həm dil, həm də nitq təfəkkürlə bağlıdır.

Ç.Osqud psixolinqvistikasında nitq – ünsiyyət nəzəriyyəsində irəli sürülən bilgilərə uyğun şəkildə qurulan kommunikativ sistemə aid edilir. Miller-Xomski psixolinqvistikasında isə nitq – fərdin transformasiya qaydalarına müvafiq qrammatik cəhətdən düzgün cümlələr əmələ gətirmə-sidir. Nitq fəaliyyəti nəzəriyyəsinə gəldikdə isə burada əsas cəhət nitqin kommunikantlararası ünsiyyətin təşkili məqsədilə yaranma və qəbul edilməsi prosesidir [6, s.129].

M.B.Əsgərov nitqi linqvo-psixoloji baxımdan, yəni onu sinktual dərketmə nəticəsində gerçəklik elementi və birinci intellekt obrazına ekvivalent olaraq yaranan və kommunikant tərəfindən müstəqil gerçəklik elementləri kimi dərk edilən dil struktur vahidlərinin danışıq anındakı məqsədə (və ya okkazional nitq ehtiyacına) uyğun şəkildə sıralanması kimi izah edir [7, s.55].

Mətn, nitq və diskurs reallaşma şərtləri və mexanizmi baxımından kifayət qədər fərqli anlayışlar olsa da onların hamısı eyni məqsədə, ünsiyyətə və ya onun təsvirinə xidmət edir. "Mətn, bir qayda olaraq, məkan və zaman baxımından uzaq təmas bazasında, yəni, aktiv və passiv kommunikantın vizual, vokal və digər təmas imkanlarından tamamilə məhrum olduğu bir şəraitdə yaranır... Diskurs isə, bunlardan başqa nitq situasiyasını, yəni nitqdən əvvəl, nitq vaxtı və nitqdən sonra yaranan real situasiya və prosesləri də əhatə edir". Beləliklə, mətn və ya nitqdən hansının daha geniş və ya məhdud imkanlara malik olmasını şərti olaraq belə ifadə etmək olar: nitqdə sadəcə, məkan baryerini aşmaq imkanı müşahidə olunur. Nitqdən fərqli olaraq, mətn kommunikantarası vizual-vokal təmas imkanlarından məhrum olsa da, onun tam real olmasa belə, həm zaman, həm də məkan baryerini aşmaq potensialı mövcuddur. Bütün bunlar göstərir ki, mətn formal konstruksiya, diskurs və nitq isə mətnin konsituasiyada (situativ kontekstdə) aktuallaşmasının müxtəlif formalarıdır.

Diskursa sosiolinqvistik yanaşma müxtəlif ictimai-mədəni kontekstlərdə sosial qrupların və ünsiyyət iştirakçılarının ümumi söhbətini əhatə edir. Diskurs ekstralinqvistik, praqmatik, psixoloji və digər amillərlə müşayiət olunan əlaqəli mətndir, məqsədyönlü sosial situasiyada insanların qarşılıqlı fəaliyyəti nəticəsində və koqnitiv prosesdə yaranan situativ nitqdir.

Diskursu əmələ gətirən minimal vahidlər sırası və silsiləsi ilə diskurs, söyləm, deyim və sözdür. Yəni bu silsilədə ilk əvvəl söz ayırd edilir. Belə ki, bir qayda olaraq sözlər əsasında deyim, deyimlər əsasında söyləm, söyləmlər əsasında isə diskurs yaranır. Bununla yanaşı, bəzən ayrıca bir söz eyni anda həm deyim, həm söyləm, həm də diskurs kimi, ayrıca bir deyim, həm söyləm, həm də diskurs kimi, ayrıca bir söyləm eyni zamanda diskurs kimi çıxış edə bilər. Buna misal olaraq baş üzvlərdən yalnız birinin iştirakı ilə qurulan təktərkibli cümlələri göstərmək olar: Qışdır. Payız idi (Xəbər əsasında formalaşan). XIII əsr. Qarabağ xanlığı. Xan sarayı (Mübtəda əsasında formalaşan). Bu nümunələrdə söz və ya söz birləşmələri ayrıca sintaktik vahid rolunda çıxış edir.

A.Axundov müəyyən qrammatik formaya malik olan, dilə aid sintaktik vahidləri cümlə, müəyyən intonasiya cildinə malik olan, nitqə aid sintaktik vahidləri isə söyləm adlandırır. O, nitq məlumat vahidi olan söyləmi beş cəhətlə əlaqədar nəzərdən keçirir:

1) kommunikativ vəzifə;
2) virtual modelin xətti realizasiyası;
3) dinamik mərkəzlərin bölgüsü;
4) prosodik tərtibat;
5) situativ məna.

Alim, hesab edir ki, söyləm üçün mənanın konkret vəziyyətlə əlaqədar olması, yəni beşinci cəhət xüsusilə böyük əhəmiyyətə malikdir [8, s.158-159].

Bildiyimiz kimi, ənənəvi dilçilikdə cümlənin mübtədası nitq söyləminin əsas vahidi hesab olunur, müvafiq olaraq, onun hərəkəti və ya vəziyyəti isə cümlənin xəbəri ilə ifadə olunur. Söyləmin digər gerçəklik elementlərinə ekvivalent olan dil struktur vahidləri ilə yaranan fonları isə təsviri qrammatika baxımından cümlənin ikinci dərəcəli üzvlərini təşkil edir. Funksional dilçilikdə isə tema söyləmin əsas vahidi, rema isə həmin söyləmin digər gerçəklik elementlərinə ekvivalent olan dil struktur vahidləri ilə yaranan fonlarını bildirən terminlərdir.

Beləliklə, cümlə dil faktı kimi, söyləm isə nitq faktı kimi nəzərdə tutulur. Müvafiq olaraq, cümlənin, mətnin qurulmasına xidmət edən məna və funksiyası söyləmdə realizə olunur. Eynilə, dil faktı kimi mətndə mövcud olan söz birləşmələri də deyimlər formasında nitqdə, ən nəhayət diskursda reallaşır. Söz isə diskursun minimal vahidi mahiyyətini daşıyır. Lakin buna baxmayaraq sözün semantikası söz birləşməsinə nisbətən daha genişdir.

Söyləm, deyim və söz həm diskursun, həm də nitqin daxili elementləridir. Burada fərqli cəhət odur ki, diskurs nitq situasiyasını, yəni real situasiya və prosesləri də əhatə edir.

Göründüyü kimi, nitqlə eyni zamanda real dil situasiyasının da mövcudluğu diskursun yaranmasını şərtləndirən başlıca cəhətdir. Söyləm istər forma, istərsə də məna və situasiya baxımından diskursa bərabər və ya ekvivalent ola bilər. Hər iki halda söz əsas tərkibi element rolunda çıxış edir. Yaranma və mənimsənilmə baxımından sözün linqvo-psixoloji mahiyyəti həm söyləmin, həm də diskursun şərhi üçün kifayət edir.

İstifadə edilmiş ədəbiyyat

1. Dijk T.A. Van. Text and context. Exploration in the Semantics and Pragmatics of Discourse/ T.A.Van Dijk. - London-New-York: Academic Press, - 1983, 288 p.

2. Məmmədov, A. Diskurs təhlilinin koqnitiv perspektivləri / A.Məmmədov, M.Məmmədov – Bakı: Çaşıoğlu, - 2010, 96 s.

3. Красных, В.В. Основы психолингвистики и теории коммуникации. Лекционный курс / В.В. Красных. – Москва: Гнозис, 2001, 270 с.

4. Дейк Т.А. ван и Кинч В. Стратегия понимания связного текста // – Москва: Новое в зарубежной лингвистике, – 1988. № 23, Когнитивные аспекты языка http://philologos.narod.ru/ling/dijk.htm

5. Veysəlli, F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri / F.Y.Veysəlli. – Bakı: Mütərcim, - 2015, 120 s.

6. Psycholinguistics. A Survey of Theory and Research Problems / Ed.by Ch. E.Osgood, T.A.Sebeok, - Indiana University Press, - 1965, 205p.

7. Əsgərov, M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi / M.B.Əsgərov. – Bakı: Elm və təhsil, - 2015, 192 s.

8. Axundov, A. Ümumi dilçilik. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları / A.Axundov. – Bakı: Şərq-Qərb, - 2011, 280 s.

BRİTANİYA VƏ AMERİKA İNGİLİS DİLLƏRİ ARASINDAKI FƏRQLƏRİ BİLMƏYİN DİLİN TƏDRİSİNDƏ ƏHƏMİYYƏTİ

Xəyalə Rəmiyəddin qızı Abdullayeva
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
khayala.abdullayeva@mdu.edu.az
https://orcid.org/0000-0001-6956-3360

Standart ingilis dili rəsmi tədbirlərdə geniş istifadə olunan ingilis dili deməkdir. Beynəlxalq dil hesab edilən ingilis dili yalnız Böyük Britaniya və Amerikada deyil, demək olar ki, dünyanın hər yerində istifadə olunur. Standart ingilis dili universal olaraq təhsildə, kütləvi informasiya vasitələrində, siyasətdə ticarət və hətta əyləncələrdə və s. istifadə olunur. Son onilliklər ərzində standart ingilis dilinin yayılma arealı daha da böyüyüb.

Hazırda tələbələrin böyük əksəriyyəti Amerika ingilis dilini daha "*cool*"" hesab etdiklərinə və daha çox ingilis dilinin bu variantını öyrənməyə cəhd etdiklərinə görə müəllimlər İngilis dilinin təkcə Britaniya variantından deyil, həm də Amerika variantından istifadə etməli olurlar.

Odur ki, ingilis dilini tədris edən müəllim Britaniya və Amerika İngilis dili arasındakı fərqləri bilməlidirlər. Məsələn, *centre / center* (mərkəz) hansı düzgündür?

Bu fərqləri bilən müəllim tələbələrin bu mövzuda verilə biləcəyi sualları cavablandırmaqda çətinlik çəkməz.

İngilis və Amerikan ingilis dilləri eyni bir dilin variantlarıdır. Lakin bu variantlar arasında fonetik (ən çox orfoepik və orfoqrafik), eləcə də qrammatik və leksik fərqlər müşahidə olunur. Bəzi tələbələr fərqləri bilirlər, lakin tələbələrin əksəriyyətinin fərqlər haqqında məlumatı azdır. Bəzən tələbələr bu halla qarşılaşanda səhvlərə yol verirlər. Bəzi nümunələr göstərir ki, onları fərqləndirmək heç də asan olmur. Məsələn,

Dialogue BE / dialogAE, colourBE / colorAE , Car /kɑ:BE/ or car /kɑ:r AE

Have u done your assignment?BE / did u do your assigntment?AE

Bu mövzuda bəzi dilçi alimlərin fikirləri maraq doğurur. Məsələn, Makvardın fikrincə, Britaniya və Amerika ingilis dilləri arasındakı fərqlər dili öyrənməyə çalışanlar arasında çaşqınlığa və tərəddütə səbəb olacaq. Bu fərqlər nə qədər minimal da olsa problem yarada biləcək [1, s.36]. Britaniya və Amerika ingilis dilisi arasındakı bəzi fərqlərə nəzər yetirsək məqalə bizim üçün daha anlaşılan olacaq.

British English (BrE) Britaniya və ya İngiltərədən gələn bir növ ingilis dilidir və o, Received Pronunciation (RP) kimi tanınır. Londonda və İngiltərənin cənub-şərqində yaşayan təhsilli insanların və başqa yerlərdə bu şəkildə danışan digər insanların nitqini ifadə edir.

AmE və BrE arasındakı fərq əsasən tələffüz, orfoqrafiya və qrammatikadan fərqlərdir. Bu cür fərqləri vaxtında izah etmək, dil öyrənənlər arasında çaşqınlıq və anlaşılmazlığın qarşısını almaq vacib məsələlərdən sayılır [2, s.64].

AmE və BrE arasındakı fərqlər daha çox tələffüzdə görünür (Modiano, 1996). Yuxarıda qeyd edildiyi kimi, İngilis dilinin Britaniya variantı Received Pronunciation (RP), Amerika variantı General American kimi tanınır. RP və GA arasında diftong, sait və ritorik vurğuda da bəzi fərqlər var. Məsələn:

Word RP GA

Gogəʊ goʊ

Class klɑ:sklæs

Askɑ:sk æsk

İngilis dilinin hər iki variantın arasındakı qrammatik fərqləri də qeyd etməyəi lazım bilirik. Nəzərə alsaq ki, bu fərqləri bilməmək dili başa düşməyimizə təsir etməyəcək , ancaq peşəkar ingilis dili müəlliminin bunları bilməyi zəruridir [3, s.94]

Əksər hallarda qrammatikadan səhv və yaxud düz istifadə ünsiyyətə mane olmayacaq. BrE və AmE arasındakı bəzi qrammatik fərqlər bunlardır:

British American

In future In the future

On average On the average

Fill in a form Fill out a form

Amerikalılar və ingilislərin həmçinin bir-birlərindən fərqli istifadə etdiyi bir qrup sözlər var: *trousers* BE, *pants* AE, *flat* BE, *apartment* AE, *lorry* BE, *truck* AE [4, s.75]. Müəllim belə bir problemlə qarşılaşdıqda tələbələrdə çaşqınlıq yaşanmaması üçün Britaniya və Amerika ingilis dilləri arasındakı fərqləri bilməlidirlər. İngilis və Amerika İngilis dilisi arasındakı fərqləri bilmək çətin deyil. BrE və AmE arasındakı fərqlər haqqında məlumat verən çoxlu kitablar, vebsayt materialları və məqalələr var.

Mingəçevir Dövlət Universitetində ingilis dilinin xarici dil kimi tədris edildiyi akademik qruplarda tələbələrin daha çox Amerika ingilis dilini cazibədar hesab etdiklərini aşağıdakı üç əsas səbəblə əlaqələndirmək olar:

1) Əyləncə. Əvvəla, baxdıqları əksər filmlərdə, sevdikləri seriallarda, qulaq asdıqları musiqilər Amerika aksentidir. Amerika gənclərin marağını cəlb edəcək əyləncələr istehlak etdiyi üçün tələbələr Amerika ingilis dilinə daha çox maraq göstərirlər. Bu, altyazıları oxumağa ehtiyac

duymadan sevdiyiniz filmi və ya televiziya şousunu anlamağa köməkedəcək. Amerika ingilis dilini öyrənmək onlara sevimli əyləncələrdən həzz almağa kömək edəcək [5, s.84].

2) Biznes. Bu gün Amerika İngilis dili beynəlxalq biznesin dili olmuşdur. Bunun səbəbi daha çox Amerikada beynəlxalq və ya çoxmillətli biznesin olmasıdır. Xüsusilə, iqtisadi yönümlü ixtisaslarda təhsil alan tələbələr beynəlxalq biznes üçün Amerika İngilis dilinin ən yaxşı seçim olduğunu düşünürlər.

3) Amerika ingilis dilini istifadə edənlərin sayının artması.

Bu, bəlkə də ən güclü səbəbdir: Amerika İngilis dilində daha çox danışan var! Təxminən 250 milyon insan Amerika İngilis ləhcəsiilə, təxminən 60 milyon insan isə İngilis ləhcəsi ilə danışır. Yalnız rəqəmlərlə getmək istəyirsinizsə, Amerika İngilis dilini öyrənmək daha yaxşı olardı.

İstifadə edilmiş ədəbiyyat

1. Alftberg, Ann-Kristin.British or American English,2009.

2. Attitudes, Awareness and Usage. Journal Online www.divaportal.org retrieved on 28th August 2018.

3. Biswanger, Markus.2008. Varieties of English in Current Language Teaching.

4. Stellenbosch Papers in Linguistics, Vol. 38,2008, 27-47 Journal online http://dx.doi.org/10.5574/38-0-21 retrieved on 28th August 2018 Concise Oxford English Dictionary (Elevent Edition)

5. "The Two Streams: British and American English," Journal of English Linguistics Vol. 19, № 2 (Oct 1986), 269

FUNKSİONAL LEKSİKANIN FORMALAŞMASI

Könül İsrafil qızı Həsənova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
konul_salmanova@mail.ru
https://orcid.org/0000-0003-1490-5751

Dilin leksik-semantik sisteminin öyrənilməsi dilçiliyimizin qarşısında duran əsas problemlərdən biridir, çünki dili leksik sistemsiz təsəvvür etmək olmaz. Baxmayaraq ki, dilçilikdə bəzən dilin leksik sistemi aralıq sistem kimi qəbul edilir. Buna səbəb, əlbəttə ki, leksik sistemin digər dil səviyyələrindən fərqlənməsidir. Bu barədə danışarkən A.Axundov yazır: "Leksika bir dil səviyyəsi və sistem olmaq etibarilə dilin fonoloji və qrammatik sistemlərindən fərqlənir.

Bəzi ümumi dilçilik mütəxəssisləri dilin leksik sistemi ilə adları çəkilən digər sistemləri arasında üç fərqin olduğunu göstərirlər:

1. Hər şeydən əvvəl, "dilin lüğət tərkibi adamların müdaxiləsi" üçün bilavasitə açıqdır, o, konkret vahidləri dəyişməyə, müxtəlif mənşəli və müxtəlif yaranma üsullu sözləri seçməyə imkan verir. Belə vəziyyət fonoloji və qrammatik səviyyələrdə yoxdur.

2. Dilin leksik-semantik sistemi dilin xarici strukturu, dil üslubları və nitq fəaliyyətinin müxtəlif kommunikativ sahələri ilə bilavasitə bağlıdır, belə ki, leksik sistemin təsvirində dilin daxili və xarici strukturu təlimləri bir-birilə kəsişir. Neytral (üslublararası) və üslubi leksika qarşılaşdırılması mərkəzi leksik-üslubi oppozisiya sayılır.

3. Leksik semantik kateqoriyalar müxtəlif və çoxlu semantik əsaslara görə müəyyənləşir. Buna görə də onun kateqoriyaları fonoloji oppozisiyalar və qrammatik kateqoriyalar qədər qapanmış xarakter daşımır" [1, s.164].

Hər bir elmi problemin həlli təkcə müvafiq faktların varlığı ilə deyil, müəyyən elm sahəsində onları tədqiq etmək, onlarla məşğul olmaq zərurəti və imkanının meydanda olması ilə şərtlənir. Leksikanın sistemliliyi problemi hər şeydən əvvəl dilin sözlərlə təmsil olunan məzmun planının əlaqəli təşkili təsəvvürünə əsaslanır. "Linqvistikada leksikanın sistemliliyi problemi bir-birindən təcrid olunmuş faktlar barəsində düşünməyin səmərəsizliyini anlayıb, qarşılıqlı şəkildə bağlı olan vahidlər sisteminin öyrənilməsi zərurətini (Veynreyx) dərk etməkdən doğmuşdur" [5, s.186].

Bəzi dilçilər peşə-sənət sözlərini etnoqrafik leksika adı ilə öyrənməyin vacibliyini qeyd edirlər. Dilçilik ədəbiyyatında "peşə-sənət sözləri", "peşə-sənət leksikası", "məişət-sənət leksikası", "məişət sözləri", yaxud "məişət leksikası", "etnoqrafik leksika", "etnomədəniyyət leksikası", "maddi və mənəvi mədəniyyəti bildirən sözlər", "maddi mədəniyyət leksikası", "mənəvi mədəniyyət leksikası", "xalq terminoloji leksikası" və s. adlarla bəhs olunan tədqiqatlarda etnoqrafik leksikaya müxtəlif münasibətlər göstərilmişdir. Bu leksik təbəqə elə etnoqrafik sözlərin əsas hissəsini təşkil edir. Fikrimizcə, bu kateqoriyaya aid sözlər peşə-sənət leksikasına nisbətən daha böyük əhatə dairəsinə malikdir. Bu fikri İ.Məmmədovun özü də təsdiqləyərək yazır: "Bu tipli leksik vahidlər /Azərbaycan dilinin mənəvi mədəniyyət leksikasına aid sözlər nəzərdə tutulur – İ.M./ içərisində xalqımızın qədim mənəvi dünyasını, mifik və dini görüşlərini, müxtəlif mərasim və adət-ənənələrini özündə əks etdirən və günümüzədək yaşayan "mənəvi mədəniyyət leksikası" adlandırılan tematik qrup da müəyyən yer tutur. Belə sözlər dilin elə spesifik milli qatını təşkil edir ki, onun köməyi ilə xalqın mənəviyyat aləmini açmaq olur. Deyək ki, geyim, mənzil, yemək, sosial quruluş və s. lüğət vahidləri ilə yanaşı, xalqın mənəvi mədəniyyətini özündə yaşadan müxtəlif əxlaqi münasibətləri, mifik və dini dünyagörüşü, toy və yas mərasimləri və s. bildirən leksik qatın da tədqiqi bütövlükdə Azərbaycan xalqının etnik tarixinin öyrənilməsinə kömək edir" [4, s.27]. Göründüyü kimi, müəllif burada söz qruplarının bölgüsünə daha geniş aspektdən yanaşır.

H.Əsgərov da İ.Məmmədovun bu fikrinə münasibət bildirərkən etnoqrafik leksika ilə peşə-sənət leksikasının eyni olmadığını təsdiq edir və bu iki leksik lay arasında aşağıdakı fərqlərin olduğunu qeyd edir:

"1. Etnoqrafik leksika anlayışı peşə-sənət leksikası anlayışından daha geniş və əhatəlidir. Etnoqrafik leksika maddi və mənəvi aləmin müxtəlif sahələri ilə bağlı anlayışları ifadə etməyə xidmət edir. Başqa sözlə desək, peşə-sənət leksikası etnoqrafik leksikanın cüzi bir qismini təşkil edir.

2. Peşə-sənət leksikası məhdud istifadə dairəsinə malik leksik təbəqə kimi xarakterizə olunur. Etnoqrafik leksikanı isə bütövlükdə məhdud istifadə dairəsinə malik leksik təbəqə kimi səciyyələndirmək olmaz.

3. Peşə-sənət leksikası sosioloji dilçiliyin, etnoqrafik leksika isə etnolinqvistikanın prinsipləri əsasında müəyyənləşdirilir. Onların təkcə tədqiqat obyektləri deyil, eləcə də tədqiqat metodları və məqsədləri bir-birindən kifayət qədər fərqlidir.

4. Dilin leksik sistemində etnoqrafik leksika qeyri-etnoqrafik leksika ilə oppozisiya təşkil edir. Həm etnoqrafik, həm də qeyri-etnoqrafik leksika ümumişlək sözlər əsasında bölünür. Peşə-sənət leksikası isə dil sistemində ümumişlək sözlərlə korrelyasiya təşkil edir.

5. Etnoqrafik leksikadan fərqli olaraq, peşə-sənət leksikasına daxil olan sözlər mücərrəd anlayışların deyil, real gerçəklikdəki konkret əşya və hadisələrin ifadəçisi kimi çıxış edir. Etnoqrafik leksika, xüsusən də, mənəviyyat leksikasına daxil olan sözlərin müəyyən qismi mücərrəd anlayışları da (mifoloji varlıqların adları, dini leksika və s.) ifadə edə bilər" [2, s.95-96].

Fikrimizcə, peşə-sənət sözlərinə H.Həsənovun yanaşması daha düzgündür. Peşə-sənət sözlərindən bəhs edən müəllifin fikrinə görə "peşəsi, işi, sənəti, istehsalat fəaliyyəti, ixtisası ilə əlaqədar birləşən kollektivin nitqində işlədilən sözlərə *peşə-sənət leksikası* deyilir. Bunlar xüsusi məfhumu, əmək alətini və ya məhsulunu, istehsalın əmək prosesini ifadə edir. Ona görə də, onları bəzən xüsusi sözlər və ya terminlər adlandırırlar. Bu cür terminlər Azərbaycan dilində danışan hər bir adama məlum olmadığına, hamı tərəfindən anlaşılmadığına görə onlara arqo sözlər də deyirlər.

Əslində, bu sözlər ancaq bir peşə ilə bağlı olan şəxslərin (dülgər, bənna, dəllək, dərzi, dəmirçi, çəkməçi, tibb və poliqrafiya işçiləri, hüquqşünas, dənizçilər və s.) hər biri üçün məlumdur, bəllidir. Məsələn, dənizçilərin nitqində: kambuz (gəmi mətbəxi), kubrik (gəmidə alt göyərtə), mersal (dördkünc düz yelkən), dekalaj (gəminin bütün tipləri). Çapçıların nitqində: nonparel (altı punktluq xırda mətbəə şrifti), metranpaj (naborda səhifə bağlayan mürəttib), fals (çap vərəqinin bükümü) və s." [3, s.302].

Ümumilikdə, belə bir qənaətə gəlmək olar ki, dildəki funksional söz qruplarının ən böyük hissəsini təşkil edən peşə-sənət leksikası, etnoqrafik leksika və terminoloji leksika dilin leksik sisteminin ayrı-ayrı laylarını təşkil edir. Dilin funksional leksikası isə tarixi kateqoriya olub, dilin tarixi diferensiallaşmasının nəticəsidir.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov A. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006, 280 s.
2. Əsgərov H. Azərbaycan dilində maddi mədənyyət leksikası. Bakı: Nurlan, 2006, 448 s.
3. Həsənov H. Azərbaycan dilinin leksikası. Bakı: Nurlan, 2005, 452 s.
4. Məmmədov İ. Azərbaycan dilinin etnoqrafik leksikası. Bakı: Nurlan, 2003, 450 s.
5. Musayev M., Cəfərov Q. Azərbaycan dilinin funksional qrammatikası: Morfologiyaya yeni baxışlar və leksematika. II cild, Bakı, Prestige çap evi, 2014, 328 s.

DÜNYA DİLÇİLİYİNİN İNKİŞAFI ÜÇÜN LİNQVİSTİK NİSBİLİK FƏRZİYYƏSİ

Mətanət Hidayət qızı Məhərrəmova
filologiya üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti
meherremova79@inbox.ru
https://orcid.org/0000-0003-3494-1400

Linqvistik nisbilik fərziyyəsi 2000-ci illərdə yaranmışdır və etnolinqvistikanın baniləri – E.Sapir və onun tələbəsi B.Vorfun əsərlərində öz əksini tapmışdır. Bu fərziyyəni B. Vorf bir sıra bəyanatları və məqalələrində verdiyi nümunələr əsasında formalaşdırmışdır. Linqvistik nisbilik fərziyyəsinə görə, insanın təfəkkürünün xüsusiyyətləri onun danışdığı dillə müəyyən edilir və "ətrafımızdakı dünyanı tanımaq tərzi təfəkkürün həyata keçirildiyi dildən asılıdır"[3].

Dil nisbiliyi fərziyyəsi Sapirin fərziyyələrinə əsaslanır. Hər bir dil sosial məhsul olmaqla müəyyən bir dil sistemini təmsil edir, ayrı-ayrı dillərin linqvistik sistemləri təkcə mədəni təcrübənin məzmununu fərqli şəkildə nəzərdə tutmur, həm də öz danışanlarına təqdim edir: reallığı dərk etmək və dərk etməyin müxtəlif yolları. "Real dünya" əsasən şüursuz şəkildə müəyyən sosial qrupun dil vərdişləri əsasında qurulur. İki fərqli dil heç vaxt eyni sosial reallığı ifadə etmək vasitəsi sayıla biləcək qədər oxşar olmur" [2]. Sapir üçün dil idrak prosesində fəal rol oynayan simvolik sistemdir və buna görə də reallığın qavranılmasına və təcrübəmizə təsir göstərir.

B.Vorf əsərində Sapirin fikirlərini inkişaf etdirib konkretləşdirsə də, onun şərhi daha radikaldır. Onun üçün dil bir-biri ilə əlaqəli kateqoriyalar sistemidir, bir tərəfdən dünyanın müəyyən mənzərəsini əks etdirir, digər tərəfdən isə onu tutur. Hopi amerikan hindu qəbiləsinin dili və mədəniyyətini Avropa dilləri ilə müqayisə edərək əldə etdiyi materiala əsaslanaraq, linqvistik nisbilik fərziyyəsini formalaşdırır. O, dil, mədəniyyət və düşüncə formaları arasında birbaşa əlaqə görürdü: "Biz dünyanı parçalayırıq, onu anlayışlar şəklində təşkil edirik və mənaları başqa şəkildə deyil, bir şəkildə paylayırıq, çünki biz bu cür sistemləşdirməni nəzərdə tutan razılaşmanın

iştirakçılarıyıq. Bu müqavilə konkret dil icması üçün keçərlidir və dilimizin modellər sistemində öz əksini tapmışdır" [3].

Oxşar fikirləri digər alimlər, məsələn, V. von Humboldt əsərində ifadə etdi: "İnsan ilk növbədə və hətta müstəsna olaraq, onun hissiyyatı və hərəkəti ideyalarından asılı olduğu üçün – dil ona təqdim etdiyi kimi cisimlərlə yaşayır". Humboldt dili insanlarla onları əhatə edən obyektiv dünya arasında yerləşən "aralıq dünya" hesab edir; insan dünyanı qavrayışında tamamilə dilə tabe olur.

Sapir-Vorf fərziyyəsinin güclü və zəif versiyaları var. Güclü versiyaya (linqvistik determinizm anlayışı) görə, dildəki fərqliliklər təfəkkürdə fərqliliklərə səbəb olur, yəni düşünmək bilavasitə dildən asılıdır. Daha zəif versiya budur ki, təfəkkürdəki fərqlər sadəcə dillə bağlıdır, lakin mütləq ondan qaynaqlanmır. Sapir-Vorf fərziyyəsi yarandığı gündən bəri çoxlu mübahisələrə səbəb olmuşdur. Onun tərəfdarları tez-tez iddia edirlər ki, onun heç bir sübuta ehtiyacı yoxdur, çünki orada yazılan ifadə aşkar faktdır; opponentlər bunun nə sübut oluna, nə də təkzib edilə bilməyəcəyinə inanırlar. Bu qütb təxminləri arasında bu fərziyyəni yoxlamaq üçün çoxsaylı cəhdlər var. Xüsusilə, bu cəhdlər dünya dillərindəki rəng və çalar adları əsasında fəal şəkildə aparılır. Təcrübələr zamanı tədqiqatçılar belə qənaətə gəliblər ki, müxtəlif mədəniyyətlərə malik insanlar dillərindəki köklü fərqlərə baxmayaraq, rəngləri çox oxşar şəkildə qəbul edirlər. Nəticə etibarilə, bu vəziyyətdə ətraf aləmin qavranılması dildən asılı deyil və müəyyən edilmir, çünki rənglərin qavranılma yolları əsasən insanın bioloji quruluşu, xüsusən də görmə sisteminin bioloji quruluşu ilə əvvəlcədən müəyyən edilir. Bütün mədəniyyətlərdən olan insanlar üçün eynidir. Ancaq insanın dünya ilə "ünsiyyətinin" digər sahələrinə diqqət yetirsəniz, Sapir-Vorf hipotezini təsdiqləyən dəlillər tapa bilərsiniz.

Bizcə, linqvistik nisbilik fərziyyəsinin mövcud olmağa haqqı var. Bunu sübut etmək o qədər də asan olmaya bilər, lakin bu, təsadüfən yaranmayıb və bir sıra kifayət qədər inandırıcı əsaslara malikdir. Ancaq biz daha çox bu fərziyyənin zəif variantının tərəfdarıyıq, çünki o, daha az kateqoriyalıdır. İnsanlar tez-tez şəkillərdə düşünürlər, lakin bu şəkilləri nitqdə necə "ifadə etmələri" onların danışdıqları dildən asılıdır. Hər bir dilin özünəməxsus leksik və qrammatik sistemləri var və insan onların əsasında öz mülahizələrini qurur. Üstəlik, hər bir dilin sözlərləri müəyyən mənalar toplusuna malikdir ki, bu da başqa dildəki oxşar sözün mənalar toplusu ilə üst-üstə düşməyə bilər. Bəzən sözlər məna çalarlarına görə fərqlənirlər. Məsələn, rus dilində "ümid" sözü hələ qeyri-müəyyənliyi ifadə edirsə, fransız dilində təxminən eyni məna daşıyan "espérer" sözü daha çox güvəni ifadə edir, hətta istifadəni müəyyən edir [1].

Bunun nəticəsidir ki, rus dilindən fransız dilinə tərcümə zamanı bu məna çalarlarının (əhval-ruhiyyə, ümid, güvən) verilməsində səhvlər olur.

Başqa bir misal: fransız dilində əlin və ya qolun bir hissəsini, biləkdən çiyinə qədər, təyin etmək üçün xüsusi sözlər var – "əsas" və "bütqalter", rus dilində isə belə bir fərq prinsipial əhəmiyyət kəsb etmir; rus insanı üçün anlayış "əl" bütöv bir şey kimi dərk edilir. Odur ki, rus dilli bir şəxs fransızla mədəniyyətlərarası ünsiyyətin iştirakçısına çevrilirsə, bu fərqi nəzərə almalıdır.

Beləliklə, hər bir dil müəyyən dərəcədə hələ də bizi əhatə edən dünyaya baxışı müəyyən edir.

İstifadə edilmiş ədəbiyyat

Multilinqvizmin ən çox rast gəlinən forması bilinqvizimdir (lat. *bis* - iki dəfə, *lingua* - dil, iki dildə sərbəst danışmaq qabiliyyəti). ABŞ-da aparılmış sosioloji araşdırmaların nəticələrinə əsasən bilinqvizm "iki dildən professional fəaliyyətdə, sosial münasibətlərdə və təhsil müəssisələrində eyni legitimlik səviyyəsində istifadə olunmasıdır". Əslində, bilinqvizm daha geniş mahiyyət kəsb edən fenomendir. O, bir dil (nitq) kollektivi çərçivəsində iki fərqli dilin birgə mövcudluğunu və qarşılıqlı təsir mexanizmlərini nəzərdə tutur. Bu zaman hər iki dil müxtəlif kommunikativ sferalarda fərqli sosial situasiyalardan və kommunikativ aktların çox sayda digər parametrlərindən asılı olaraq vahid sosial-linqvistik sistem yaradır və funksional cəhətdən bir-birini tamamlayır. Beləliklə, iki dil kimi tanınan fenomen aşağıdakı prinsiplər üzərində köklənir:

- iki müxtəlif dildən növbəli şəkildə istifadə etmək praktikası;
- iki müxtəlif dildən istifadə etməklə uğurlu kommunikasiya yaratmaq qabiliyyəti;
- iki müxtəlif dili bərabər səviyyədə bilmək və onlardan istifadə etmək bacarığı.

Qeyd etmək lazımdır ki, iki dildə danışan cəmiyyəti bilinqvist cəmiyyət, iki dildən istifadə etmək bacarığı olan şəxsləri "bilinqvlər", üç dildən bərabər səviyyədə istifadə etmək bacarığı olan şəxsləri "trilinqvlər", üçdən çox dildən bərabər səviyyədə istifadə etmək bacarığı olan şəxsləri isə "poliqlotlar" adlandırırlar. Bilinqvlər eyni zamanda iki müxtəlif sosial qrupa məxsus olan insanlar hesab olunur. Bəzi hallarda bilinqvizmi "diqlossiya" (q.yun. *δυο* - iki, *γλωττα* - dil) anlayışı ilə əvəz edirlər. Lakin onlar məna və tətbiq baxımından çox vaxt bir-birinə uyğun gəlmir. Bilinqvizmin özəl forması olan diqlossiya zamanı konkret ərazidə və ya cəmiyyətdə iki müxtəlif dil, yaxud bir dilin iki müxtəlif forması mövcud olur. Diqlossiya üçün ikidilliliyin balanslaşdırılmamış situasiyası xasdır. Bu situasiyada bir dil, yaxud vahid dilin variantlarından biri keyfiyyət baxımından "yüksək", digəri isə "aşağı" əlamətləri ilə seçilir. Diqlossiya zamanı "aşağı" keyfiyyət meyarları olan dil bütün əhali üçün doğma hesab olunur və gündəlik ünsiyyət vasitəsi möhürü daşıyır [3, s.164].

Bilinqvizmin mövcud olduğu cəmiyyətlərdə dillərin mənimsənilməsi prosesini aşağıdakı kimi sinifləşdirmək qəbul olunmuşdur:

1. İkinci dilin yaş üzrə mənimsənilməsi – uşaq bilinqvizmi.
2. Gec bilinqvizm – insan həyatının sonrakı mərhələlərində mənimsənilən ikinci dil.
3. Təbii linqvizm – müxtəlif dil daşıyıcılarının arasında mənimsənilən ikinci dil.
4. Süni bilinqvizm – başqa dil mühiti olmadan, süni şəkildə mənimsənilən ikinci dil.

Bundan başqa ikinci dilin mənimsənilməsi üzrə digər rəngləri də müəyyən edirlər:

- reseptiv bilinqvizm – mədəniyyətlərin qarşılıqlı əlaqəsi nəticəsində mənimsənilən dil.
- reproduktiv bilinqvizm – kolonializm mühitində yerli əhalinin mənimsədiyi ikinci dil.
- produktiv bilinqvizm – ali təhsil müəssisəsində mənimsənilən ikinci dil [4, s.36-37].

Alimlərin apardığı tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, ikinci dilin uşaq yaşlarında öyrənilməsi beynin inkişafına həlledici təsir göstərir. Bu proses insanın nitqinin sürətli olmasına xidmət edir. Sözügedən bu effekt, özünü ikinci dilin 5 yaşına qədər öyrənilməsi zamanı daha aydın şəkildə büruzə verir. Tədqiqatlar prosesində məlum olmuşdur ki, ikidilli insanlarda boz maddənin (lat. *substantia grisea* – onurğalılarda mərkəzisinir sisteminin əsas komponenti) həcmi daha böyük olur. Kəllə beyin qabığının parietal sahəsinin aşağı hissəsində formalaşan boz maddə dilin daha gec öyrənilməsi zamanı daha az olur. Qeyd etmək lazımdır ki, məhz boz maddə informasiyanın təhlil edilməsinə cavabdeh olan element sayılır.

Bilinqvlərdən fərqli olaraq multilinqvlərin və yaxud poliqlotların (yun. *Πολύγλωττος* – çoxlu sayda dilləri bu və ya digər səviyyədə bilən insan) sayı çox azdır. Lakin poliqlotun neçə dil bilməsi

və onları hansı səviyyədə bilməsi haqqında elmi müstəvilərdə ümumi kəmiyyət və keyfiyyət meyarları müəyyən edilməmişdir. Onu da qeyd etmək lazımdır ki, poliqlotla plürilinqv və multilinqval insan arasında ciddi fərqlər mövcuddur. Əgər poliqlot insan ana dilindən başqa digər dillərə konkret yaş dövründə, konkret situasiyada, təbii və ya süni şəraitdə, müstəqil, yaxud repetitor vasitəsi ilə sahib olursa, plürilinqv bir neçə dili məktəb şəraitində bu və ya digər səviyyədə mənimsəyir. Multinqvlər isə ana dilindən başqa çox sayda digər dilləri kiçik yaşlarından başlayaraq mənimsəyən insanlardır.

Tanınmış ABŞ linqvisti Maykl Erard (1967) iddia edir ki, poliqlotlar, bir qayda olaraq, ayrı-ayrı dillərdə "qaçaraq" danışan insanlardır və onlar həmin dilləri, heç də yaxşı bilmirlər, müxtəlif dillərdə yazılmış mətnləri asanlıqla oxuyan poliqlotlar isə, adətən həmin dillərdə danışmaqda ciddi çətinlik çəkirlər. Hətta ən istedadlı poliqlotlar belə, yalnız altı-yeddi dildə nitq kodlarını asanlıqla dəyişə bilirlər. [2, s.240]

Multilinqvlər, təbii olaraq, əvvəl yalnız bir dildə danışa bilirlər. Müəyyən bir dövrdə, konkret şəraitdə, formal təhsil rejimi olmadan onlar digər dili mənimsəməyə başlayırlar. Bu şəraitdə ikinci dili mənimsəyən uşaq "paralel bilinqv" (ing. *simultaneous bilinguals*) adlanır. Lakin bu halda belə, bu dillərdən biri dominant xarakter kəsb edir və uşaq həmin dili daha mükəmməl, ən xırda detalına və incəliklərinə qədər bilir.

Linqvistikada "Birinci dil" (L1), bir qayda olaraq, "anadangəlmə dilin daşıyıcısı" (ing. *nativespeaker*) konsepsiyası ilə bağlı olur. Bu halda "Birinci dil"in (L1) daşıyıcısı olan şəxslər elə əlamət və xüsusiyyətlərə malik olur ki, həmin əlamətlərə bu dili ikinci və yaxud sonrakı dil kimi öyrənən şəxsin sahib olması, demək olar ki, mümkün deyil.

Elmi tədqiqatlar və çoxsaylı eksperimentlər nəticəsində məlum olmuşdur ki, iki dildə danışan (bilinqvlər) və yaxud çoxlu dillərdən sərbəst şəkildə istifadə etməyi bacaran insanlar daha yüksək icraedici funksiyalara sahib olurlar. Onlar, həmçinin, monolinqvlərdən fərqli olaraq dillərin və ayrı-ayrı elmlərin mənimsənilməsində özlərini daha aktiv ifadə edə bilir və yüksək nəticələrə sahib ola bilirlər. Multilinqvin beyni, adətən daha "çevik" olur, baş verənlərə daha sürətli və dəqiq reaksiyalar verir, mübahisəli situasiyalarda daha yaxşı hərəkət edir, münaqişələri həll etmək bacarığına sahib olur, Alzgeymer xəstəliyinə (idiopatik sindrom və demensiyanın ən çox yayılmış forması, ilk dəfə xəstəliyin əlamətlərini 1907-ci ildə, alman psixiatoru Aloiz Alzqeymer - 1864-1915, - izah etmişdi) və demensiyanın (lat. *dementia* - ağılsızlıq, - həyatda qazanılan gerizəkalılıq, insanın anadangəlmə idraki qabiliyyətinin davamlı zəifləməsi və müxtəlif səviyyələrdə itirilməsi) digər formalarına daha yaxşı müqavimət göstərə bilir.

İnsanların ana dillərindən başqa digər dillərə sahib olması prosesində "ötəri bilinqvizm" (ing. *distractive bilungialism*) adlanan fenomenə də rast gəlmək olar. Bilinqvizmin bu forması özünün natamam və mükəmməl olmayan (ing. *semilingualism*) xüsusiyyəti ilə seçilir. Belə hallarda birinci dilin öyrənilməsi prosesi və qrammatik şablonların, aktiv və savadlı ünsiyyətə şərait yaradan lüğətin formalaşması bu və yaxud digər səbəblərdən yarımçıq qalır. Bu çox vaxt miqrant uşaqların məcburi şəkildə yeni dilə keçməsi ilə əlaqədar baş verir. Bu zaman birinci (L1) və ikinci (L2) dilin daşıyıcısı olan insanlar başa düşürlər ki, hər iki dildə mükəmməl səviyyədə danışa bilmirlər.

Bilinqvlər və poliqlotlar, monolingvlərlə müqayisədə, bir qayda olaraq, əmək bazarında aşkar üstünlüyə sahib olur. Onlar eyni şəraitdə daha geniş müştəri seqmenti qazana bilir, monolinqvlərdən fərqli olaraq, daha çox və mürəkkəb vəzifələri icra edə bilirlər. ABŞ-da və Avropada aparılmış elmi tədqiqatlar nəticəsində bu fakt tam şəkildə sübuta yetirlimişdir. Bunun üçün müvafiq eksperiment aparan şəxslər müəyyən etmişlər ki, monolinqvlər ilə müqayisədə bilinqvlər və multilinqvlər daha çox uğur qazana bilir və daha çox dividend (pul ekvivalentində) əldə edə bilirlər. [1, s. 449-450]

Hazırda dünyada passiv bilinqvlər (ing. *receptive bilinguals*) olan insanların sayı daha çoxdur. Belə insanlar birinci dildən (L1) başqa ikinci dili (L2), bu və ya digər səbəblərdən (psixoloji və s.) başa düşür, lakin həmin dildə danışa və ya fikirlərini ifadə edə bilmirlər. Passiv linqvizm hallarına, adətən yaşlı immiqrantların arasında rast gəlinir.

Bilinqvlər və poliqlotlar müxtəlif dillərdə fikirlərini ifadə edərkən onların təfəkküründə və təxəyyülündə linqvistik kodların dəyişdirilməsi prosesi gedir. İkidilli şəxslər bunu ünsiyyət zamanı asanlıqla edə bilirlər. Bu zaman onlar qaçaraq şifahi ünsiyyət vərdişlərinə yiyələnirlər.

Çoxdilliliklə bağlı bu və ya digər prosesləri elmi səviyyədə "neyroelm" (ing. *Neuroscience of multilingualism*) adlanan təlim öyrənir. Neyroelm çoxdilliliyin müxtəlif aspektlərini öyrənərkən insan beynində ayrı-ayrı altsistemlərin təqdimatını, çoxdilliliyin beynin strukturundakı plastikliyə (neyroplastiklik) necə təsir göstərməsini, multilinqvlərin afaziyasını (əksifadə - formalaşmış nitqin pozulması və ya yoxa çıxması) və bimodal bilinqvizmi (adi dildən və jest dilindən istifadə etmək bacarığı) əsas götürür.

Alimlər bilinqvizmin və poliqlossiyanın insanın sağlamlığına təsiri haqqında da çoxlu sayda elmi tədqiqatlar aparmışlar. Buna baxmayaraq, bu təsirin pozitiv və ya neqativ olması haqqında qəti və konkret fikir formalaşdırmaq mümkün olmamışdır. Həyata keçirilən eksperimentlərdə qoyulan əsas problemlər isə aşağıdakı kimi formalaşdırılmışdır:

1. İkidillilik və ya çoxdillilik uşaqlarda yaranan stresin səbəbi ola bilərmi?
2. İkidillilik və ya çoxdillilik uşaqların daha ağıllı olmasına xidmət edirmi?

Tədqiqatlar zamanı belə məlum olmuşdur ki, bütün hallarda iki və daha çox dillərdə danışmaq beyini inkişaf etdirir, onu daha sağlam və daha fəal edir. Lakin araşdırmalar zamanı bu fikrin çoxlu sayda opponentləri də olmuşdur.

Təqdim olunan tezisin məzmunundan belə nəticə çıxarmaq olar ki, qlobal tendensiyaların baş verdiyi müasir cəmiyyətdə insanın linqvistik kompetensiyalara sahib olması müvafiq əlaqələrin, regional və qlobal miqyasda dialoqun və mədəni kommunikasiyaların yaradılması üçün şərtdir. Bu proses nə qədər mürəkkəb və çətin olsa da günün və dövrün tələbi kimi öz aktuallığını durmadan artırır.

İstifadə edilmiş ədəbiyyat

1. Agirdag, O. The long-term effects of bilingualism on children of immigration: student bilingualism and future earnings // International Journal of Bilingual Education and Bilingualism: journal. - 2014. - Vol. 17, no. 4
2. Като Ломб. Как я изучаю языки. Заметки полиглота. - М.: Манн, Иванов и Фербер, 2017
3. Joshua A. Fishman, Ofelia Garcia. Handbook of Language and Ethnic Identity: Disciplinary and Regional Perspectives. - Oxford University Press, 2010
4. Прошина Л Г., Юзефович Н. Г. - Москва, ФЛИНТА: Наука, 2013

LİNQVİSTİKADA OKSİMORON NƏDİR VƏ NİYƏ ƏDƏBİYYATDA OKSİMORONLAR İSTİFADƏ OLUNUR

Nərmin Mehdiyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nerminmhdv30@gmail.com
https://orcid.org/0009-0001-9072-8702

İlkin olaraq, "oksimoron" sözünün etimologiyasına nəzər salaq. "Oksimoron" sözü iki qədim yunan sözündən ibarət olaraq "kəskin küt" anlayışını ifadə edir. Yəni, birinci söz olan "Oxus" "kəskin", ikinci ""Mōros" sözü "küt" və ya "ağılsız" mənasını ifadə edir. Birlikdə götürdükdə, hərfi mənada "kəskin küt" kimi tərcümə olunur. Göründüyü kimi, ""termininin özü də bir söz olaraq ziddiyyətlidir.

Ədəbiyyatda oksimoronların işlənmə tezliyindən bəhs etsək, görərik ki, oksimoronlardan hələ qədim yunan şairləri də geniş şəkildə istifadə ediblər. Oksimoron anlayışının ədəbiyyatda və ədəbi nümunələrdə yerini müəyyənləşdirsək belə qeyd edə bilərik ki, oksimoron ədəbiyyatda söz və ya ifadəyə yeni məna yaratmaq üçün iki ziddiyyətli termini qarşı-qarşıya qoyan obrazlı dil vasitəsi kimi çıxış edir. Eyni zamanda oksimoronu həm də paradoks adlandırıraraq əsrlər boyu yazıçı və şairlər tərəfindən həyatın fitri ziddiyyətlərini və uyğunsuzluqlarını təsvir etmək üçün istifadə edilmiş ədəbi cihaz kimi yanaşa bilərik. Oksimoron nümunələri ədəbiyyatda və nitqdə yumor, istehza və ya sarkazm hissinə səbəb olmaq məqamlarında işlədilir. Məsələn, biz gündəlik məişətimizdə və bədii dildə tez-tez rast gəldiyimiz bir neçə oksimoron nümunəsini qeyd edək:

- Sevgi nifrət - Biz sevgi-nifrət münasibətini paylaşdıq.
- Səssiz qışqırıq - Onların yorğunluğu kömək üçün səssiz qışqırıq kimi proqnozlaşdırılırdı!
- Sıfır tolerantlıq - Zorluğa qarşı sıfır dözümlülük siyasətimiz var.
- Qərəzsiz rəy - Qərəzsiz fikrimi istəyirsiniz?
- Ən az sevdiyim dondurma dadı çiyələkdir.

Ədəbi əsərlərdə oksimoronlara həm nəzm, həm də nəsr nümunələrində geniş şəkildə rast gəlirik. Şeirdə oksimoronların təsnifini yaratsaq həm Azərbaycan poeziyasından, həm də xarici poeziya kifayət qədər nümunələr gətirmək olar.

Öz tədqiqatlarında bədii dildə işlənən oksimoronlardan söhbət açan B.Xəlilov *oksımoronları* antonym sözlərin növlərindən biri hesab edir: "Onlar antonimlərin növlərindən biri kimi, məntiqi cəhətdən bir-birinə zidd olan söz, söz birləşmələri və ifadələrdən əmələ gəlir" Dilçi alim antonimlərin bu növünün yanaşı işlənərkən "obrazlı bir ifadə" kimi başa düşüldüyünü qeyd edir. [3, s.198]

M.Adilov isə "İzahlı dilçilik terminləri" lüğətində *oksimoron* barədə yazır: "mənaca bir-birinə zidd gələn, məntiqi cəhətdən bir-birini inkar edən iki sözün birləşməsindən ibarət *üslubi ifadə tərzi*" məs: *ağıllı dəli, diri ölü, dilənçi milyoner, orijinal nüsxə, danışan sükut, soyuq od, gəliş-gediş, alqı-satqı və s.* [1, s.205]

Ü.Hacıyeva isə oksimoronları sözünməntiqi və emotiv mənalarının qarşılıqlı əlaqəsindən yaranan üslubi vasitə kimi təqdim edir, onları "mənanın məntiqə əks olan iki sözün birləşməsi" kimi izah edir. İngilis dilində "*cold fire, the best enemy, ill health, alone together, living death*" kimi oksimoronların nümunəsində müəllif yazır: "bu birləşmələrdə sifət təyin etdiyi ismə mənaca əks olur və bununla da təyin etdiyi obyekti yumor və ya ironiya ilə təsvir edir". [4]

Oksimoronların bədii dildəki rolunu sadə bir cümlə ilə izah etməyə çalışaq. Məsələn, "O, qüsursuz bir yazıçıdır." Sadə cümlədə bir-birinə zidd olan bu iki söz bizi düşünməyə vadar edir, beləliklə də tənqidi düşüncəyə səbəb olur.

Necə olur ki, yazıçı eyni zamanda həm mükəmməl, həm də qeyri-kamil ola bilər? Bu, onların sadəcə orta səviyyəli olduqlarını bildirirmi? Kimi suallara cavab axtarmağa çalışsaq, qeyd edə bilərik ki,bu kimi bir oksimoronik ifadəni eşidəndə və ya oxuyanda onun mənasını düşünmək və anlamaq üçün bir az vaxt ayırmalıyıq. Oksimoronlar yazıçılar və şairlər tərəfindən bizi iki dəfə düşünməyə məcbur etmək üçün istifadə olunur. Oksimoronik bir cümlə və ya ifadədəki iki ziddiyyətli söz, ilk növbədə, birbaşa əks olduqları üçün heç bir məna kəsb etməyə bilər. Başlamaq üçün oksimorondan istifadə etmək əyləncəsinin bir hissəsi ola bilər.

Şeirdə, yaradıcı yazıda, nitqlər kimi inandırıcı parçalarda və hətta gündəlik söhbətdə oksimoronların istifadəsinə rast gəlirik. Əsasən, kontrastdan istifadə edərək vurğu yaratmaq istədiyiniz hər yerdə oksimoronlara təsadüf edə bilirik.

"Bəs yazıçılar niyə oksimoronlardan istifadə edirlər?" sualına gəldikdə isə deyə bilərik ki, yazıçılar əsərlərinə dramatik təsir qatmaq üçün oksimoronlardan istifadə edirlər. İki təzadlı söz yan-yana qoyulduqda bu, oxucuları dayanıb düşünməyə vadar edir və yazılmış nəsrin əsas mahiyyətinin dərkinə gətirib çıxarır. Oksimoronlar ironiya, yazçının əsərinə yumor qatmaq və ya ədəbiyyata komediya əlavə etmək üçün istifadə edilə bilər.

Ümumilikdə götürsək isə, fikrimizi professor Mahirə Hüseynovanın "Məntiqcə birgə işlədilməsi mümkün olmayan belə sözlərin bədii mətndə mümkünlük qazanması təbii ki, müəyyən səbəblərdən doğan məqsədlər güdür". Professor bunu oksimoronların "güclü ifadəliliyə, ekspressiv emosionallığa" malik olması ilə əlaqələndirir. [2, s.354]

İstifadə edilmiş ədəbiyyat

1. Adilov M. İ., Verdiyeva Z. N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı: Maarif, 1989, 358 s.
2. Hüseynova M. A. Dil və poeziya. Bakı: Elm, 2008, 432 s.
3. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442 s.
4. Hajiyeva U.D. English Stylistics. Baku, 2014, 166 p.

CƏMİYYƏTİN İNKİŞAFINDA DİLİN ROLU

Səbinə Bəlohər qızı Novruzova
Mingəçevir Dövlət Universiteti
sabina.novruzova@mdu.edu.az
https://orcid.org/0000-0003-2137-2551

Dil insanların fikirlərini çatdırmaq üçün istifadə etdiyi mürəkkəb və dinamik ünsiyyət sistemidir. Bu, insan mədəniyyətinin və cəmiyyətin əsas aspektidir və düşünmək, öyrənmək, ətrafımızdakı dünya ilə qarşılıqlı əlaqə qurmaq qabiliyyətimizdə mühüm rol oynayır. Ümumiyyətlə, dil milli kimliyin və inkişafın vacib elementidir. O, iqtisadiyyatdan tutmuş təhsilə, siyasətə qədər cəmiyyətin bütün sahələrində mühüm rol oynayır. Dil ölkələr üçün vacibdir, çünki o, vətəndaşlar arasında ünsiyyət və əməkdaşlığa imkan verir, milli kimliyi və mədəniyyəti inkişaf etdirir, iqtisadi inkişaf və ticarəti dəstəkləyir, təhsil və tədqiqatı asanlaşdırır, vətəndaş iştirakını və demokratiyanı təmin edir. Dil bir ölkə daxilində ünsiyyət və əməkdaşlıq üçün vacibdir. İnsanlar effektiv ünsiyyət qura bildikdə, problemləri həll etmək, ümumi məqsədlərə nail olmaq və daha güclü bir cəmiyyət qurmaq üçün birlikdə işləyə bilərlər.

Dilin öyrənilməsi bir sıra səbəblərə görə vacibdir. Birincisi, dil ünsiyyət vasitəsi kimi, fikirlərimizi ətrafımızdakı insanlara çatdırmaqda bizə daha çox kömək edir. İnsanlar müxtəlif dilləri bildikləri zaman, istər sosial, istərsə də mədəni inkişaf baxımından müxtəlif məlumatlar əldə etmiş olurlar. İkincisi, dili öyrənmək bizə ünsiyyət bacarıqlarımızın inkişafına müsbət təsir göstərmiş olar. Dili mükəmməl bildikdə, həm peşəkar, həm də şəxsi həyatımızda daha təsirli ünsiyyət qura bilərik. Üçüncüsü, dilin öyrənilməsi müasir qlobal məsələlərin həllində insanlara kömək etmiş olar. Məsələn, dilçilər nitqin tanınması və dilin tərcüməsi üçün yeni texnologiyaların hazırlanmasında iştirak edirlər. Onlar həmçinin savadlılıq təhsilini təkmilləşdirmək və dilində qüsuru olan insanlara kömək etmək məqsədilə proqramlar hazırlamaq üzərində işləyirlər. Nəticə olaraq, dil insanların ünsiyyəti və öyrənməsi üçün vacib olan mürəkkəb bir hadisədir.

Tədqiqatlar göstərir ki, xarici dil öyrənmək yaddaş, diqqət və problem həll etmə bacarıqları kimi idrak funksiyalarını inkişaf etdirə bilər. Bunun səbəbi dil öyrənmək üçün beyninizin müxtəlif hissələrindən istifadə etməyi tələb edir. Yeni bir dil öyrəndiyiniz zaman beyninizi daha çevik və uyğunlaşmaq üçün məşq edirsiniz. Dilin öyrənilməsi ətrafımızdakı insanları daha yaxşı başa düşməyə, ünsiyyət bacarıqlarımızı təkmilləşdirməyə və müasir dövrün problemlərini həll etmək baxımından vacibdir.

Dil təhsil və tədqiqat üçün vacibdir. Məhz dil vasitəsilə biz yeni şeylər öyrənirik və biliklərimizi başqaları ilə bölüşürük. Dil vətəndaş iştirakı və demokratiya üçün vacibdir. Bu,

vətəndaşlara cari hadisələrdən xəbərdar olmaq, öz fikirlərini bildirmək və siyasi proseslərdə iştirak etmək imkanı verir. Dilin öyrənilməsi linqvistika kimi tanınır və o, fonetika, fonologiya, morfologiya, sintaksis, semantika və praqmatika daxil olmaqla, geniş spektrli fənləri əhatə edir. Dilçilər dilin əsas quruluşundan və səs sistemindən tutmuş müxtəlif sosial və mədəni kontekstlərdə istifadəsinə qədər dilin bütün aspektlərini öyrənirlər.

Dilçilikdə əsas suallardan biri dilin necə işlədiyidir. Mənanı çatdırmaq üçün dildən necə istifadə edirik? Bu suallar əsrlər boyu dilçilər tərəfindən araşdırılıb və hələ də bilmədiyimiz çox şey var. Bununla belə, nevrologiya və koqnitiv elmdə son nailiyyətlər dilin işlənməsinin altında yatan sinir və idrak mexanizmlərini əsas götürür. Dil həm də öyrənmə və ünsiyyət üçün güclü vasitədir. Bu, bizə bilik, fikir və təcrübəmizi başqaları ilə bölüşməyə imkan verir. Bu, həm də bizə yeni biliklər yaratmağa və problemləri həll etməyə imkan verir.

Dil haqqında müdriklərin fikirlərinə nəzər salaq; " Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir" (H.Əliyev)."Biz dünyanı dilimiz vasitəsi ilə öyrəndik, dilimiz vasitəsi ilə tərbiyə tapdıq"(A.Səhhət). [1, s.10]

Dil milli kimlik və mədəniyyətdə əsas amildir.Məhz dil vasitəsilə dəyərlərimizi, adət-ənənələrimizi, mədəni irsimizi dünya xalqlarına çatdırırıq. Dil həm də keçmişimizlə əlaqə saxlamağa və gələcəyimizi təsəvvür etməyə kömək edir. F.de Sössür deyir: "Boppun xidməti təkcə Avropanın və Asiyanın bəzi dilləri ilə sanskritin qohumluğunu kəşf etməkdən ibarət deyildi, o həm də predmeti qohum dillər arasındakı münasibətdən ibarət olan müstəqil bir elm yaratmağın mümkünlüyünü dərk etmişdi. Bir dili başqa bir dilin əsasında təhlil etmək, bir dilin formalarını başqa dilin formaları ilə izah etmək..." [2, s.28].

Müasir dillərin öyrənilməsi dövrümüz üçün daha vacibdir. Ona görə ki, dünya insanlarının bir-birinə bağlı olduğu qloballaşan dünyada fərqli düşüncədə, mədəniyyətdə olan insanlarla ünsiyyət vacibdir. Müasir bir dil öyrənmək bizə fərqli perspektivləri anlamağa kömək edə bilər və üfüqlərinizi genişləndirə bilər. Müasir dil öyrənməyin əsas vacibliyi ondadır ki, o, başqa ölkələrdən olan insanlarla əlaqə qurmağa imkan verir. Bu, biznes və təşkilatların sərhədləri aşaraq fəaliyyət göstərdiyi müasir qloballaşan dünyada xüsusilə vacibdir. Xarici dildə danışa bilsəniz, müxtəlif ölkələrdən olan həmkarlarınız, müştərilərniz və tərəfdaşlarınızla daha effektiv ünsiyyət qura biləcəksiniz. Bu, daha yaxşı işgüzar əlaqələrə və daha çox imkanlara şərait yarada bilər.

Eyni zamanda təhsil sahəsində də müxtəlif dilləri bilməyin üstünlükləri var. Belə ki, istər metodika baxımından, istərsədə, keyfiyyət baxımından önəmlidir. Məsələn, İngilis dilini bilən tələbə xaricdə təhsil ala, yeni mədəniyyətlə tanış ola bilər və gələcəkdə qazandığı təcrübəni ölkəmizdə tətbiq etməklə, xalqlar arasındakı əlaqələrin genişlənməsində rol oynuyar.

Müasir bir dil öyrənməklə maraqlanırıqsa, çoxlu müxtəlif resurslar mövcuddur. Belə ki, universitetlərdə dərs ala və ya müxtəlif proqramlar və vebsaytlardan istifadə edərək onlayn öyrənə bilərsiniz. Hansı metodu seçməyinizdən asılı olmayaraq, ən başlıcası təhsilinizlə ardıcıl olmaqdır. Dil öyrənmək vaxt və səy tələb edir, lakin əgər siz öz fədakarsınızsa, bu, mütləq mümkündür.

Bununla yanaşı xarici dildə filmlərə və televiziya verilişlərinə baxmaqla, bu dildə musiqi dinləməklə, dildə kitab və məqalələr oxumaqla edə bilərsiniz. Müasir bir dil öyrənmək çətin, lakin faydalı təcrübədir. Bu, bizim üçün yeni imkanlar aça bilər və ətrafdakı dünyanı daha yaxşı anlamağa kömək edə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov, A., Məhərrəmov, Z., İsgəndərzadə, M. Azərbaycan dili və nitq mədəniyyəti / A.Bayramov, Z.Məhərrəmov, M.İsgəndərzadə. - Bakı: - 2015. - 236 s.

2. Cəfərov, Q. Ümumi dilçilik etüdləri / Q.Cəfərov. – Bakı: - 2020. – 168 s.

İNGİLİS DİLİNİN KEÇDİYİ TARİXİ DÖVRLƏR

Ülviyyə Murad qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
ulviya.mehdiyeva@mdu.edu.az
https://orcid.org/0000-0002-1991-342X

Müasir dövrdə ingilis dili siyasi danışıqlar və biznes dilinə çevrilib. Əsas elmi və tibbi araşdırmalar bu dildə aparılır. Müxtəlif ölkələrdə insanların bir-biri ilə ünsiyyətini təmin etmək üçün çox vaxt ingilis dili rəsmi dövlət kimi çıxış edir. İngilis dili dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi-texniki və kütləvi informasiya dili kimi məşhurdur. Zəmanəmizdə nəşr olunan ədəbiyyatın və kütləvi mətbuatın əksəriyyəti ingilis dilində dərc olunur. Bugün ingilis dili regional nüansları əks etdirən variasiyaları ilə qlobal bir dildir. Köhnə ingilis dilinin müasir ingilis dilinə təkamülü, sosial və mədəni dəyişiklikləri özündə əks etdirir. İngilis dili BMT-nin 6 rəsmi və işçi dillərindən biridir. İngilis dili hal hazırda bir neçə ölkənin rəsmi dilidir. Bu dil danışanların sayına görə ən böyük dil, ana dili kimi danışanların sayına görə isə üçüncü ən böyük dildir (Cədvəl 1) [5]:

Cədvəl 1

İngilis dili ana dili olan insanlar

Ölkə	İngilis dili ana dili olanların sayı
ABŞ	214.809.000
Böyük Britaniya	58.200.000
Kanada	17.694.830
Avstraliya	15.581.334
İrlandiya	4.200.000
CAR	3.673.203
Yeni Zelandiya	3.500.000
Sinqapur	665.087

Tanınmış ingilis dilçisi Simeon Potter "Dilimiz" (Our language) kitabında ingilis dilinin tarixi və keçdiyi yol haqqında geniş məlumat vermişdir. Böyük alim bu qənaətə gəlir ki, ingilis dili flektiv dillərdən olsa da, onda yunan, latın və ya qot dili kimi yüksək dərəcədə flektivlik yox idi. Bu dil hind-Avropa sintetikliyindən müasir ingilis analitizminə doğru aparan linqvistik yolun yarısından bir qədər çox məsafə qət edib.

İngilis dilinin tarixi bundan 5 min əvvələ gedib çıxır. Belə ki, bu dilin tarixi bizim eranın V əsrində İngiltərəni işğal edən 3 alman qəbiləsinin gəlişi ilə başladı. Bu tayfalar anqlar, saksonlar və yutlar Şimal dənizini Danimarka və Şimali Almaniya adlanan yerdən keçdilər. Uzun illər ərzində saksonlar, anqllar və yutların danışdığı dillərin qarışığı nəticəsində anqlosaks, ya da qədim ingilis dili təşəkkül tapmışdır. [4]

Qədim ingilis dilini başa düşmək əslində çox çətindir. Belə ki, bu dildə olan yazı nümunələrini bəzi ingilis dili üzrə ekspertlər oxuya bilirlər. İngilis dilinin formalaşmasına təsir edən 5 əsas tarixi hadisəyə nəzər salaq:

1. Roma istilası – Britaniyanın romalılar tərəfindən zəbt edilməsi.
2. Britaniya ərazisində German tayfaları – German tayfaları Britaniyanın taleyini həll etdilər.
3. Britaniyada Vikinqlər – Skandinav istilası.
4. XI əsrdə ingilis taxt-tacının fransızlar tərəfindən tutulması – 1066-cı il və ondan sonrakı dövr.
5. Yeni dövr – müasir ingilis dilinin formalaşmasının başlaması [3].

E.ə. 54-cü ildə Qalliyanı istila edən Yuliy Sezar Britaniya adalarına hücum etdi. Bu vaxtdan başlayaraq bizim eranın 1-ci minilliyinin 80-ci illərinə kimi romalılar ölkənin dərinliklərinə daxil oldular. Roma hökmranlığının sərhədləri dağlıq Şotlandiyanın cənubunda tikilmiş Roma səddinə qədər çatırdı. Bunun da nəticəsində romalılar tərəfindən məskunlaşmış ərazilər şəhərlərə çevrildi. Bu şəhərlər adının tərkibində latın dilindən yaranan castra yəni, "hərbi düşərgə" elementi vardır: Lanchester, Manchester və digərləri buna misal ola bilər.

Britaniyanın germanlar tərəfindən istilası 5-ci əsrin ortalarında baş verdi. Roma-Kelt mədəniyyəti darmadağın oldu. 6-cı əsrin sonuna doğru germanlar Şotlandiya, Uels və Kornuollun dağlıq ərazilərindən başqa, Britaniyanın hər yerində məskunlaşdılar.

6-cı əsrin axırında Britaniyada xristianlaşma başladı. 7-ci əsrin sonuna yaxın bütün ölkədə xristianlaşma bərqərar oldu. Xristianlaşmanın yayılması anqlo-sakson dövlətlərinin növbəti mədəni inkişafında əhəmiyyətli rol oynadı.

Təxminən min yüz il bundan əvvəl İngiltərəyə skandinav vikinqlərinin hücumu başladı. Danimarka, Norveç və başqa şimal ölkələrindən gələn vikinqlər ticarət yollarını genişləndirmək və qul bazarları tapmaq istəyirdilər. Onlar bəzi ərazilərdə güclənərək, müvəqqəti bazalar yaratmışdı. İngilislərin skandinavlarla yaxın qonşuluğunun nəticəsi olaraq ingilis dilində skandinav leksikasından alınma sözlər işlənməyə başladı. Alınma sözlər gündəlik işlənən sözlər oldu. Belə ki, skandinav mənşəli alınma sözlərə fellow, husband, law, wrong, sky, leg, call və s. kimi digər müasir sözlər aiddir. [2]

1066-cı ildə Britaniya daha bir istilaya məruz qalmışdı. Tarixdə bu, Norman İşğalları adlanır. Bu işğalçılara istilaçı Vilyam başçılılq edirdi. Normanlar Fransanın şimalında Normandiyadan çıxmışdılar. Onlar Britaniyanın hökmdarları olmuş və bir neçə yüz il ərzində fransızca danışmışlar. O dövrdə ən vacib dillərdən biri hesab olunan fransız dilində savadlı adamlar danışırdı. Digər insanlar isə qədim ingilis dilində danışırdı.

Qədim ingilis dilinə fransız dilindən bir çox sözlər keçmişdir. Məsələn, "damage" (zərər), "prison" (həbsxana), "marriage" (evlilik) kimi sözlər fransız dilindən keçib. Müasir ingilis dilində qanunlar və hökumətə aid bir sıra sözlər də normanların danışdığı fransız dilindən keçib. Məsələn, "jury" (jüri), "parliament" (parlamant), "justice" (ədalət) kimi sözləri misal göstərmək olar. [1]

Sonrakı dövrlərdə qədim ingilis dili təkmilləşərək müasir ingilis dilinə çevrilir. Müasir ingilis dilinin inkişafı XV əsrin sonunda başlayır. Kitabların kütləvi şəkildə yayılması ilə normativ kitab dilinin möhkəmlənməsi baş verir. İngilis dilinin inkişafının mühüm mərhələsi Britaniya koloniyalarında dialektlərin yaranması oldu. Yeni ingilis dilində xeyli miqdarda beynəlmiləl sözlər yarandı. Mənşəyinə görə bu sözlər latın və yunan dillərindən alınma sözlərdir: ingilis dilində physics, fransız dilində physique, azərbaycan dilində fizika; progress-progres; democracy-democrtaie. [6]

Çox müsbət haldır ki, ölkəmizdə gənclər ingilis dilinin tarixini öyrənməklə bu dili daha dərindən mənimsəmiş olurlar. Müasir ingilis dilində elə sözlər və qrammatik qaydalar var ki, onları yalnız qədim və ya orta dövr ingilis dili haqda məlumatı olanlar daha asan mənimsəyə bilirlər. Məsələn, keçmiş qeyri- məyyən zaman formasını düzəldərkən qaydasız feillərin məhz qədim ingilis dilindən bugünümüzə kimi gəlib çıxdığını həmin mənbələrə əsaslanaraq bilmiş oluruq. Məsələn, to read- read- read, to do-did-done və s. Müasir ingilis dilində işlənən geyim adlarının, yer adlarının, tayfa adlarının araşdırılması dil tarıxi baxımından çox maraqlı və qiymətli faktlar verir.

İstifadə edilmiş ədəbiyyat

1. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bakı, 2016

2. Cercignani, Fausto / Shakespeare's Works and Elizabethan Pronunciation, Oxford Clarendon Press, 1991

3. Mallory J.P. İn Search of the İndo-Europeans, Thames and Hudson. 2005

4. www.amerikaninsesi.org
5. www.wikipedia.ru
6. www.krugosvet.ru

MÜASIR İNGİLİS DİLİNDƏ ALINMA SÖZLƏRİN TƏSNİFATI HAQQINDA

Ləman Vahid qızı Zeynalova-Məmmədzadə
Mingəçevir Dövlət Universiteti
leman.zeynalova@mdu.edu.az
https://orcid.org/0000-0003-1526-1409

Dildə alınma sözlər həm nominasiya prosesləri, həm də motivasiya baxımından xüsusi lüğət təbəqəsini təşkil edir. Dildə yaranan nominativ boşluqları doldurmaq üçün xarici dilin hazır vahidlərindən istifadə olunur. Bu, nitq qavrayışı prosesində onların mənasını tanımaqda əhəmiyyətli çətinliklər yaradır. Alınma sözlər bir dilin elementlərinin digər dildə istifadə prosesi kimi linqvistik əlamətin təbiəti ilə bağlıdır.

Dünyada elə bir inkişaf etmiş dil tapmaq olmaz ki, başqa dillərdən söz almamış olsun. İngilis dili günyanın ən zəngin, inkişafetmiş dillərindən biri olsa da, bu, ingilis dilində alınma sözlərin payının o qədər də böyük olmadığı anlamına gəlmir. Dünyanın 50-yə yaxın dilindən götürülmüş leksik vahidlər ingilis dilinin lüğət tərkibinin demək olar ki, 75 %-ni təşkil edir və müxtəlif tarixi dövrlərdə, müxtəlif inkişaf və mövcudluq şəraitinin təsiri altında götürülmüş lüğət qatlarını özündə birləşdirir. Bunlar arasında tarixi, coğrafi, sosial, iqtisadi, mədəni alınmalar; alınmaların yolları, formaları və növləri, eləcə də alınma sözün onun üçün yeni dil mühitində məruz qaldığı transformasiyalar da diqqəti cəlb edir. Alınma sözlər, ilk növbədə, müəyyən bir dilin lüğətinin sistem strukturuna təsiri ilə, habelə bir sıra genetik xüsusiyyətlər qorunub saxlandıqda, onları götürən dildə xüsusi statusu ilə maraqlıdır. [3]

Haugen, Weinreix və Vinford kimi dilçilər etiraf etmişlər ki, leksik sistemlərin tədqiqi təkcə linqvistik deyil, həm də sosial-linqvistik, psixolinqvistik və s. sistem xüsusiyyətləri ilə bağlıdır. Göstərilən xüsusiyyətlər arasında əsas yer "leksik boşluğ"un sosial dil vəziyyətidir, bu da dil lüğətinin fasiləsiz inkişafının stimullaşdırıcı amili olan yeni bir dil təklif etmək üçün sosial induksiya ehtiyacı ilə müəyyən edilir. Bir qayda olaraq, bu ehtiyac hər bir dil tərəfindən aşağıdakı prinsipial istiqamətlərlə yanaşı ödənilir:

1) törəmə imkanlar və semantik törəmə hesabına leksik vahidlərin və onların ekvivalentlərinin yaradılması;

2) başqa dillərdən istifadəyə hazır leksik vahidlərin götürülməsi.

Birbaşa alınmalar dilin lüğətini doldurmağın ən məhsuldar üsullarından biridir. Bu zaman leksik vahidlərin fonetik və morfoloji variantlarının birbaşa olaraq, əsas dildən reseptor dilə keçməsi baş verir. Birbaşa alınmaların iki növü var: tam və qismən. Dilçilər birinci tipə dilin lüğət tərkibində həm daxili, həm də zahiri formanın alınma prosesi nəticəsində yaranmış leksik vahidləri aid etmişlər. Birbaşa alınmaların ikinci növü, dildə formal və xarici ifadəsi olan bu növ birbaşa alınmaları qismən səciyyələndirmişlər. Onların yaradılmasının əsas üsulu söz elementlərinin əsas dildən reseptor dilə hərfi tərcüməsi olan xarici nümunələrdən sonra sözlərin və konstruksiyaların modelləşdirilməsidir (kalka və ya kredit tərcüməsi), məsələn, almanca – Mittelalter, ingiliscə – Middle ages [2].

Son onilliklərdə alınma lüğətinin alınma və mənimsənilməsi proseslərində ekstralinqvistik amillərin təsiri nəticəsində kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verir. Sosial və iqtisadi inkişaf, yeni informasiya texnologiyalarının tətbiqi, ümumi kompüterləşmə dünyanın bütün dillərinə nüfuz

etməsinə səbəb olur, onların uyğunlaşmasını sürətləndirir və bununla da onların hərtərəfli öyrənilməsinə ehtiyac yaradır.

Ekstralinqvistik amillər arasında alman xalqının ingilis xalqı və dünyanın digər xalqları ilə müxtəlif münasibətlərini də qeyd etmək yerinə düşər. Burada cəmiyyətlərin icmalararası inkişafını, elm və texnikanın tərəqqisini və s. nəzərə almamaq olmaz. Sözün alınma predmeti, hadisəsi, keyfiyyəti, hərəkəti və s. ilə birlikdə alınması belə əlaqələrin həyata keçirilməsi formasıdır. Bu proseslər hər hansı bir dilin inkişafının ilkin mərhələləri üçün xüsusilə xarakterikdir.

Bu gün ingilis dili həqiqətən qlobal əhatəyə malik başqa dillərdən sözlər götürür. Oksford İngilis dili lüğətinin son 30 ildə ingilis dilinə daxil olmasını təklif etdiyi bəzi nümunələr arasında qaymaqlı hind mərcimək yeməyi olan tarka dal, qar sığınacağı növü quinzhee, (Slave və ya Şimali Amerikanın Sakit okean sahilinin başqa dilindən), Sinqapur və ya Malayziya bulvarı bir növü olan popiah (Malay dilindən), izakaya, yemək təqdim edən Yapon barının bir növü , affogato, dondurma və qəhvədən hazırlanmış italyan deserti və s. daxildir.

Nəhayət, alınma sözlərin nümunələri əsrlər boyu mədəni əlaqələrin mürəkkəb nümunələrini əks etdirir. Qidaların, bitkilərin, heyvanların və təbii dünyanın digər xüsusiyyətlərinin adları dünyanın müxtəlif yerlərində insanlar arasında əsas trafikin bir hissəsi kimi götürülür. Lüğətin digər sahələrinə təsir edən alınmalar adətən dillər arasında güc və prestij yollarını izləyir.

Xarici sözlər çox vaxt "yad" mədəniyyətin və ya sözdə ekzotizmlərin ötürücüsü kimi çıxış edə bilər. Bu qrupa ölkənin, dövlətin mədəniyyətini ifadə edən sözlər daxildir. Dildə bu və ya digər anlayışın, hadisənin və ya adın sadəcə olaraq olmaması ilə əlaqədar belə sözlərin kütləvi informasiya vasitələri sahəsində rolu çox böyükdür. Belə sözlər ölkənin mentalitetini, adət-ənənəsini, dəyərlərini əks etdirir, bir sözlə, bizə yad mədəniyyətdən bir parça çatdırır. Ekzotik sözlərə aşağıdakı alt qruplar aid edilə bilər:

- içkilərin və yeməklərin adları;
- yaşayış yerlərinin adları;
- ənənəvi geyim (*ərəb* - hicab);
- musiqi alətlərinin adları;
- adət və ənənələr.

Beləliklə, belə nəticəyə gələ bilərik ki, bir proses kimi alınma sözlər kifayət qədər çox yönlüdür, lakin bu proses ingilis dilinin formalaşmasının tərkib hissəsidir.

İngilis dilinin lüğət tərkibində əcnəbi sözlərin yaranmasının səbəbləri də aydınlaşdırılıb, onların mətbuatda və ictimai həyatda əhəmiyyəti müəyyən edilib. Alınmaların tətbiq edilməsinin səbəbləri həm səthdə, həm də dil sisteminin daxilindədir. Bu prosesin zəruriliyi inkişaf edən beynəlxalq əlaqələrə görə tarixi amillərlə müəyyən edilir. Alınmalar ingilis dilinin, demək olar ki, bütün sahələrini əhatə edir: məişət, elmi, siyasi, idman və iqtisadi. [1]

Bəzi dillərin ingilis dilinə təsiri hələ kifayət qədər öyrənilməmişdir. Lakin bu mövzu dilçilik sahəsində sürətlə inkişaf edir və zənginləşir.

Çoxlu sayda leksik alınmalara baxmayaraq, qrammatik quruluş dəyişməz qalmışdır. Üstəlik, alınmaların meydana çıxması ilə yanaşı, əcnəbi sözlərin gəldiyi dilin sözdüzəltmə normaları da dilə qismən daxil olmuşdur. Bu baxımdan hazırda ingilis dilində mövcud olan bir çox sözlər morfoloji təhlilə uyğun deyil. Buna baxmayaraq, xeyli sayda söz ingilis dilinin qayda-qanunlarına tabe edilmişdir ki, bu da onların qrammatik və səs quruluşunun dəyişməsinə səbəb oldu.

İstifadə edilmiş ədəbiyyat

1. Heydərov R.A. Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar. Bakı : Azərbaycan Universiteti, 1989, 94 s.

2. Antruşina G.B., İngilis dilinin leksikologiyası. / Afanaseva O.V., Morozova N.N. –M.: Orta məktəb, 1985

3. Dubenets E.M. Müasir ingilis dili. Leksikologiya. M.: Feniks, 2010, 192 s.

DİL MƏNZƏRƏSİ SOSİAL FƏLSƏFƏ KATEQORİYASI KİMİ

Gülxar Firqət qızı Yusibova
Mingəçevir Dövlət Universiteti
gulxar.yusubova@mdu.edu.az
https://orcid.org/0009-0000-5603-737X

Qeyd etmək lazımdır ki, linqvistik mənzərə özlüyündə mövcud olmamışdır. Dillərin yayılma sahəsi var. Onun dəyişməsi iqtisadi, siyasi və dünyada baş verən miqrasiya, geosiyasi proseslərdən asılıdır. Ona görə də "linqvistik mənzərə" kateqoriyasından təkcə dilçilik baxımından deyil, həm də sosial fəlsəfə mövqeyindən danışmaq lazımdır. Bir metafora anlayışı olan "linqvistik mənzərə" konseptual əhatə dairəsinin necə genişləndiyini nəzərə alaraq sosial fəlsəfənin bir kateqoriyası kimi öyrənilir. Bu kontekstdə metaforanın mahiyyəti "köçürmə" kimi başa düşülür.

Hesab edirik ki, "linqvistik mənzərə" kateqoriyasının sosial fəlsəfə nöqteyi-nəzərindən öyrənilməsi onunla bağlıdır ki, "metafora ilkin olaraq ontoloji, funksional və simvolik dualizmdə ifadə olunan ikili mahiyyəti ehtiva edən kateqoriyalı bir hadisədir. Bu cür dualizm metafora ilə bağlı çoxsaylı, bəzən mübahisəli tədqiqatlar üçün müxtəlif nöqteyi-nəzərdən imkan yaradır.

Linqvistik landşaft anlayışı elmi dövriyyəyə 1997-ci ildə R.Landri və R.Borhis tərəfindən "Linqvistik landşaft və etnolinqvistik canlılıq: empirik tədqiqat" (Landry, Bourhis, 1997) məqaləsində daxil edilmişdir. Həmin müəlliflər bu gün də aktuallığını qoruyan anlayışın klassik tərifini vermişlər: "İctimai yol nişanlarının, reklam lövhələrinin, küçə adlarının, rayon adlarının, mağaza nişanlarının və ictimai hökumət binalarının üzərindəki işarələr müəyyən ərazinin, bölgənin və ya şəhər aqlomerasiyasının linqvistik mənzərəsini formalaşdırır" [2]. Bu tərif onun tərkib elementləri olan sosial linqvistik işarə qruplarını sadalamaqla "linqvistik mənzərə" anlayışının mahiyyətini açır. "İctimai məkanın simvolik konstruksiyası kimi linqvistik landşaft" R.Landri və R.Borhisin tərifini genişləndirərək "dövlət qurumundan kənarda və ya daxilində yerləşən hər hansı işarə və ya elanı" linqvistik mənzərəyə aid hesab etməyi təklif etmişdir [3]. C.Habermasın ictimai sfera nəzəriyyəsinə əsaslanaraq, İ.Ben-Rafael və E.Şohami nişanların quraşdırılması üçün ictimai məkanı şəxsi məkan istisna olmaqla, məsələn, parklar, küçələr, meydanlar, qatar stansiyaları istisna olmaqla, istənilən xüsusi məkan adlandırmışlar. Bu məkanlar hamı üçün ümumidir və işarələrin yaratdığı linqvistik landşaft tipi sadəcə söz və dillərin tərkibi deyil, işarələrin arxasında xüsusi təfəkkür mexanizmləri gizlənir. A.Yavorski linqvistik mənzərəni şərh edərkən sosial semiotikaya müraciət edir və linqvistik landşaftın müxtəlif aspektlərdən, məsələn, dil, mədəniyyət, verilmiş məkanda əməli fəaliyyət, vizual fəaliyyət və s., xüsusən də interpretasiyadan formalaşdığını fərz edir, linqvistik mənzərəni işarə mənbələrindən formalaşan və mətnə əsaslanan məkan diskursundan istifadə edən bir konsepsiyanın ən dərin və geniş şərhlərindən biri hesab edir [4].

"Linqvistik mənzərə" anlayışı ("linqvistik landşaft", "linqvistik mənzərə", "linqvistik görünüş" və "linqvistik məkan" sinonimi anlayışları kimi hazırda, əsasən, müəyyən sosial qrupun linqvistik xüsusiyyətlərinin qiymətləndirilməsində istifadə olunur. Eyni zamanda, linqvistik mənzərəni daha ümumi kontekstdə, geniş mənada ətraf mühitin bir hissəsi kimi nəzərdən keçirmək olar. Dil məkanının dərk edilməsinə oxşar yanaşmanı "Linqvistik idarəetmə və iqtisadi səmərəlilik" kollektiv monoqrafiyasında da görmək olar, burada linqvistik landşaft "mürəkkəb inteqrasiya sistem" kimi müəyyən edilir ki, bu da "linqvistik təbəqələşmə"yə əsaslanır. Linqvistik təbəqələşmə, öz növbəsində, "sosial, mədəni, milli, gender və peşəkar amillərin qarşılıqlı təsiri" nəticəsində formalaşır. Tədqiqat metodu kimi linqvistik landşaftın təhlilindən danışırıqsa, bu, çoxdilli və ya çoxmillətli şəhərin və ya digər bölgənin ictimai məkanında bir neçə dil arasında birgəyaşayış və münasibətlərin öyrənilməsinin müxtəlif yollarını əhatə edir.

Bundan əlavə, linqvistik mənzərənin görünmə və aşkarlıq, mövcud dil müxtəlifliyi haqqında ictimaiyyətin məlumatlandırılması kimi mühüm amillərini qeyd etmək lazımdır. Beləliklə, ekstra-

linqvistik reallığın linqvistik mənzərədə əks olunması hiss olunur ki, bu da digər şeylərlə yanaşı, müəyyən bir istiqamətdə tədqiqat fəaliyyətinin aktiv inkişafına imkan verir.

Linqvistik landşaft üç əsas meyara əsaslanır: linqvistik landşaftı kim yaradır, kimin üçün və onun inkişaf istiqamətləri nədir? Bu meyarlar P.Bakhaus tərəfindən də Tokionun linqvistik landşaftına dair tədqiqatında müəyyən edilmişdir [1].

Linqvistik mənzərə haqqında ən dəqiq anlayışı formalaşdırmaq üçün rəsmi və qeyri-rəsmi simvolların nisbəti, mətnlərdə dillərin nisbəti, dillərin bir-birini izləmə sırası, həmçinin müəyyən bir coğrafi məkanda dillərin təmsil olunması, tərcümənin və ya transliterasiyanın mövcudluğu və ya olmaması kimi amilləri nəzərə almaq lazımdır.

Dil mənzərəsi çoxlu məlumat ehtiva edir, müəyyən bir bölgənin mədəni inkişafı burada cəmləşir. Bu səbəbdən, linqvistik mənzərənin insana müəyyən bir bölgənin mədəniyyətini və ya hansısa hadisəsini daha yaxşı başa düşməsinə imkan verən məlumat daşıyıcısı olduğuna da inanmaq olar. Məlumat xüsusiyyətləri sayəsində linqvistik landşaft müəyyən bir bölgənin mədəniyyətlərinin xüsusiyyətlərinin mənzərəsini göstərə bilər.

Bununla belə, ikidilli linqvistik landşaftın elementlərindəki tərcümə xətaları tədqiqatçıların diqqətini xeyli əvvəl cəlb etmişdir. Kanadalı tədqiqatçılar Jean-Paul Vinay və Jean Darbelnet (Vinay) arasında tərcümə üzrə dərsliyin yaradılması ideyasını doğuran səbəb Nyu-Yorkdan Monreala gedən yolda yol nişanlarının mətnlərindəki tərcümə xətaları və onların linqvistik təhlili idi.

Sosiolinqvistikada bu yeni istiqamət bütün ölkələrin alimlərinin, xüsusən də çoxdilli şəhər əhalisi olan yüksək urbanizasiya ölkələrinin tədqiqatçılarının diqqətini cəlb etmişdir. Son onilliklərdə linqvistik mənzərənin tədqiqi daha intensivləşmişdir.

Analitik icmal ilə bağlı ədəbiyyat məsələləri bizə deməyə imkan verir ki, "linqvistik mənzərə" hələ də ancaq dilçilik kateqoriyası kimi qəbul edilir. Bu cəhət sosial fəlsəfənin mövqeyindən kifayət qədər əsaslandırılmadığı üçün konseptual "linqvistik mənzərə" termininin əhatə dairəsinin tərifinə keçək. Dilin universal olduğu aydındır, ünsiyyət vasitəsi kimi cəmiyyətin bütün sahələrində baş verən dəyişiklikləri əks etdirir, buna görə də "linqvistik mənzərə" termininin konseptual əhatə dairəsi yalnız linqvistik sərhədlərlə məhdudlaşmamalıdır. Tam olaraq sosial münasibətlərin tədqiqi fəlsəfə üçün vacibdir, çünki dilin qarşılıqlı əlaqəsi probleminin ictimai inkişaf baxımından aktuallığını təsdiq edir. Hesab edirik ki, bu kontekstdə "linqvistik mənzərə" və "dünya düzəni" anlayışları belə hesab edilə bilər, çünki dil problemlərinin həlli ilk baxışdan dilçiliklə heç bir əlaqəsi olmayan bir çox ziddiyyətləri həll etməyə kömək edə bilər. Buna misal olaraq, keçmiş Yuqoslaviyada baş verən son hadisələr, eləcə də hazırda Ukrayna hadisələridir. Qlobal problemlərin kompleks tədqiqində fəlsəfənin rolu əhəmiyyətli dərəcədə artır ki, bu da müxtəlif elmlər arasında real qarşılıqlı əlaqəni təmin etmək, sosial inkişafın ayrı-ayrı amillərinin müəyyənləşdirilməsindən və onların bəzilərinin digərlərinə zidd olmasından yayınmağa hesablanmışdır. İ.T.Frolov yazırdı: "Qlobal insan probleminin hərtərəfli həlli bütün insan elmləri kompleksinə arxalana bilməz" [2]. Qlobal problemlərin hər biri mürəkkəb olmaqla müxtəlif aspektlərdə özünü göstərir ki, onların hər biri özünəməxsusluğu ilə ayrı-ayrı fənlər daxilində tədqiqat tələb edir. Elmi fəlsəfə geniş spektrli elmlərin fənlərarası qarşılıqlı əlaqəsini təşkil edir. Əslində, hərtərəfli fənlərarası yanaşma dialektik idrak prosesinin klassik triadasının həyata keçirilməsinə birbaşa ya dolayı çevrilir. Müasir şəraitdə cəmiyyətin üzləşməli olduğu problemlər, qloballaşma mürəkkəb xarakter daşıyır və onların həlli bütün elmlər kompleksinin qarşılıqlı əlaqəsini tələb edir. Qlobal problemlər üzrə tədqiqatlar bir çox elmlərin - təbii və sosial sahələrin cəmləşməsi hesabına innovasiyanın "artım nöqtələrini" yaradan və qlobal yanaşmaları təsdiqləyən kompleks tədqiqat nümunəsidir. Hər bir elmin mövzu sahələrinə dair ümumiləşdirilmiş baxış olmalıdır ki, bu da fərqli müqayisə aparmağa imkan verir: tədqiq olunan reallığın şəkillərini təsvir edir, onlarda ümumilik tapır və onları eyni obyektiv reallıq hesab edərək, müxtəlif elmlər arasında anlayış və metodların mübadiləsini nəzərdə tutur. Beləliklə, sosial

fəlsəfədə tədqiqat metodu kimi "linqvistik mənzərə" kateqoriyası kifayət qədər əhatə olunmayan və əlavə öyrənilməsi tələb olunan problemlərin dairəsini təsvir etməyə imkan verir.

Linqvistik mənzərə həm də şəhərin və ya ərazinin mədəni müxtəlifliyində dərin kök salır. Beləliklə, linqvistik mənzərənin öyrənilməsi mədəni müxtəlifliyin dərk edilməsinə kömək edə bilər, çünki daimi sakinlər və immiqrantlar arasında istifadə olunan dillər və ya məlumatın ziyarətçilərə təqdim edilmə tərzi şəhərin əhalisini əks etdirir. Deməli, linqvistik landşaft əslində şəhərin dil və mədəni müxtəlifliyinin əsas xüsusiyyətlərini əks etdirir. Müasir şəhər həyatı müşahidəçiləri nümayişlər və mitinqlər zamanı afişaların "canlı mətnləri"ni sosiolinqvistik qiymətləndirmə üçün heç də az əhəmiyyət kəsb etmir. Dilçilik landşaftı ilə bütün bir çox qrafik və ictimai məkanda olan yazılı işarələr, mətnlər müşahidəçi üçün əlçatandır. Əlbəttə ki, bu cür işarələrin əsas funksiyası məlumatdır, lakin şübhəsiz ki, burada simvolik bir funksiya da var - müəllifin sosial qrupunun təqdimatı. Dinamik linqvistik mənzərə nümayişlər zamanı baş verən kortəbii bir hadisədir.

Linqvistik dil nisbətən yeni dilçilik intizamıdır və onun nəzəri prinsipləri formalaşma mərhələsindədir. Sözün müxtəlif mətnlərdə yazılışının tədqiqi insanların, assosiasiya qruplarının, institutların və dövlət qurumlarının mürəkkəb reallıq daxilində simvolların oyununda rəqabət apardıqları müxtəlif üsulları təmsil edən nümunələri/naxışları müəyyən etməyə imkan verir. Şəhər mühitində dillərin təhlili, dillərin qarşılıqlı əlaqəsi, linqvistik canlılıq, dünyanın linqvistik mənzərəsindəki dəyişikliklər vektoru, əxlaq normaları və dəyər sistemləri, dil siyasətinin vurğulanması və daha çox suallara cavab verir. Məlumatlar aşağıdakı doqquz analitik kateqoriyadan istifadə etməklə müzakirə olunur: işarələrdə olan dillər; birləşmə nümunələri; rəsmi və qeyri-rəsmi işarələr arasındakı fərqlər; coğrafi paylanmanın qanunauyğunluğu; tərcümə və ya transliterasiyanın olması; dillərin birləşmə sırası; linqvistik idiosinkraziyanın yaranması; bu tip işarələrin köhnə və yeni variantlarının birgə mövcudluğu. Burada şəhər mühitinin əlamətlərinin mövcud tipologiyaları və onların inkişaf dinamikası da diqqətə layiqdir. Sözün müxtəlif mətnlərdə yazılışının (NL-nın) təsviri multikulturalizmin, sosial idrakın, dil sürüşməsinin, yeni sosial reallığın yaradılmasının və digər hadisələrin nəticələrinin öyrənilməsi və sınaqdan keçirilməsi üçün faydalı vasitədir.

Linqvistik mənzərə müasir fənlərarası tədqiqatlarda əsas anlayışlardan biridir. Dil mənzərəsinin tədqiqi sosial mədəniyyətin inkişafı zamanı yaranmış yeni bir tədqiqat sahəsidir. Linqvistik landşaft müəyyən regionda yazı dilinin istifadə xüsusiyyətlərini və qaydalarını özündə ehtiva edir və dilin inkişafı, dil siyasəti, etnik kimlik, dillərin qarşılıqlı əlaqəsi məsələlərinin öyrənilməsi ilə bağlıdır. Son illərdə linqvistik landşaftların tədqiqində dil siyasətinin həyata keçirilmə dərəcəsini və müxtəlif mədəniyyətlərin qorunub saxlanmasını anlamağa imkan verən konkret nümunələrə diqqət yetirilir. Şəhərlərin linqvistik landşaftının təhlili bir çox ekspert və alimləri, xüsusən də müqayisəli dilşünaslıq və tərcümə sahəsində mütəxəssisləri maraqlandırmışdır.

Lakin bu günə qədər ikidilli linqvistik mənzərə, eləcə də bu janrdakı mətnlərdəki tərcümə xətalarının sistemləşdirilməsi məsələləri kifayət qədər nəzəri əhatə almamışdır ki, bu da bu sahədə tədqiqatların həm nəzəri, həm də metodoloji əsaslarının daha da inkişaf etdirilməsini zəruri edir.

İstifadə edilmiş ədəbiyyat

1. Zeynalova, S.S. Koqnitiv metaforlaşmanın substansional və prosessual aspektlər. Bakı, 2016. – 28 s.

2. Dilçilik İnstitutunun əsərləri. Bakı: Elm və təhsil, 2012, № 2, 176 s.

3. Həsənov H.Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2003, 399 s.

4. Шаховский В.И. Лингвистическая теория эмоции. Монография. М.: Гнозис, 2008, 416 с

FRANSIZ DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏR

Leyla Zülfüqar qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
leyla.mammadova@mdu.edu.az
https://orcid.org/0000-0001-8271-3853

Hər bir dilin lüğət tərkibində frazeologizmlər mühüm yer tutur. Frazeoloji vahid, komponentlərin vahid uyğunluğu ilə müxtəlif struktur tipli sözlərin ayrıca formalaşmış, semantikasının tam və ya qismən dəyişmiş sabit söz birləşməsi kimi başa düşülür,

Frazeologizmlər dilin xalq fizionomiyası, onun orijinal vasitəsi, varlıq və zəka zənginliyinin göstəricisidir. Onların həm məzmun, həm də forma etibarı ilə zənginliyi və dildə həddindən artıq işlədilməsi dilçi-alimlərin diqqətini cəlb etmiş, frazeologiya dilçilik elminin bir şöbəsi olan leksikologiyanın xüsusi bir bölməsinə çevrilmişdir.

Концептуальное понятие "рай" в процессе эволюции русского литературного языка претерпевал изменения, отражая не только языковые, но и культурные сдвиги в обществе. В ранний период истории русского литературного языка, такие фразы, как «в раю» или «райская жизнь» часто воспринимались буквально, олицетворяя идею счастья и блаженства.Но со временем, в контексте социокультурных изменений, значения «Рая» стали более абстрактными. В период Золотого века русской литературы, образы «райских уголков» или «на седьмом небе от счастья» часто использовались для выражения чувства восторга и удовлетворения (*Когда же настанет райское, желанное житье? Гончаров И.А., «Обломов»*). Одновременно, в эпоху романтизма, когда стали более актуальными темы свободы и эмоционального влечения, образы Рая принимали новые оттенки, олицетворяя идею свободы и неведомых граней (*Вы видите, я добр… взамен терзаний ада, Вам оставляю рай земной. Лермонтов, «Маскарад»).* В современное время, концепт «рая» может отражать стремление к материальному благополучию, комфорту и удовлетворению жизнью. С появлением новых технологий и образа жизни, «райский уголок» может ассоциироваться не только с природой, но и с современными условиями жизни, создавая новые контексты и значения.

Все это позволило нам рассмотретькультурный концепт «рай», как компонент фразеологического пласта русского языка:

- Устойчивое сочетание «*на чужой спине в рай въехать*» (Федоров) употребляется по отношению к человеку, который достиг или пытается достичь успеха, посредством усилий, труда других людей или же непосредственно при помощи другого человека: «*Что ты... привязался? Спросишь, спросишь... Сам спрашивай. Язык есть? Норовите на чужой спине в рай въехать» (В.Сёмин. Нагрудный знак «OST*») (108, Михельсон. «Рай» в данном фразеологизме употреблен в фигуральном смысле, обозначая «состояние счастья, успех, благополучия».
- Устойчивое выражение «*с милым рай и в шалаше*» впервые появилось в стихотворении русского поэта татарского происхождения Николая Михайловича (Нигмата Мисаиловича Ибрагимова) «Русская песнь», которое было опубликовано в 1815 году. Именно после публикации данного стихотворения фразеологизм начал широко употребляться в современном русском языке:

«Не ищи меня, богатый:
Ты не мил моей душе.
Что мне, что твои палаты?
С милым рай и в шалаше!»

Компоненты «рай» и «шалаш» являются метафорами в данном контексте, где «рай» олицетворяет блаженство, идеальные условия, а «шалаш» служит метафорой для скромных, но уютных домашних условий.

- Во фразеологическом словаре под редакцией Фёдорова *«рай земной (рай на земле)»* - очень красивое место, где всего в изобилии и где можно счастливо жить: «Какая страна, какая природа! Виноград, абрикосы, персики, миндаль, грецкий орех. Всего много. Можно бы устроить здесь рай земной (Гаршин. Письмо матери, 21 июня 1877). Лексема «рай» употребляется здесь в своем первоначальном значении «идеальное место для жизни или отдыха», может быть, как реальное место с уникальными природными или культурными особенностями, так и абстрактное понятие об идеальном обществе или условиях жизни.
- Фразеологизм «райские кущи» имеет свою историю происхождения. По словарю Даля «куща» – это *шатер, наметь, палатка, ставка, шалаш, балаган, курень, навес, беселка; хижина* [4; с.233]. Кроме того, встречаются и варианты значений «куст, угол». Первона-

чально «райские кущи» использовались для описания места обитания Бога и праведников, наряду с «райские селы, небесные жилища». Существует также синонимичный вариант «кучи небесныя». В дальнейшем переносное значение постепенно вытесняет первоначальное. На современном этапе развития языка понятие «райские кущи» употребляется в значении идеальные условия или места, где царит блаженство и счастье. В русском же языке впервые данное сочетание было использовано в стихотворении Г.Р.Державина «На кончину Ольги Петровны» в 1795 году, но в единственном числе: «*В райскую кущуИдет дитя; Зрит на Россию, Зрит на Петрополь, Зрит на родных…*».

Кроме того, встречается также использование данного фразеологизма в ироничном, саркастическом значении с угрожающим оттенком: «отправить в райские кущи», что эквивалентно фразеологизму «отправить на тот свет»: *— А в том дело, — зловеще ответил Липогон, — что вы, господин Каменюк, подсовываете клиентам тухлую баранину. И тем самым можете отправить их в райские кущи.* (Паустовский. Повесть о жизни). [8, с.449].

Таким образом, рассмотренный фразеологизм обладает как отрицательными, так и положительными вариантами употребления:

1. Синонимичным является устойчивое сочетание «*райский уголок*», использующее для описания места, где человек чувствует себя счастливым, спокойным, удовлетворенным: «Он повернулся и пошёл в другую сторону, не глядя на играющих. Он не мог даже предположить, что в этом *райском уголке* уже завтра произойдёт убийство» (Чингиз Абдуллаев, «Волшебный дар»).

2. Фразеологизм «*загреметь к богу в рай*» по словарю Федорова имеет то же значение, что и «*загреметь в тартарары*», т.е. погибнуть. «Загреметь» в основном употребляется в контекстах с отрицательным значение (загреметь за решётку, загреметь в больницу), «Загреметь в тартарары» верно передает смысл фразеологизма: тартарары – подземное царство, которое ассоциируется с мучениями и страданиями, в тоже время как словоформа «рай» означает полностью противоположную дефиницию – состояние вечной совершенной жизни. Употребление двух противоположных по смыслу элементов в пределах одного фразеологизма создает контраст и придает выражению ироническую окраску: «– Ты чего тут подглядываешь?.. Вот попало бы топором в котелок, и загремел бы к Богу в рай» (В. Астафьев. Солдат и мать) [8; с.236]

3. Фразеологизм «*не житье-просто рай*» является эквивалентом выражения «*не житьё, а масленица*», является устаревшим экспрессивным фразеологизмом, который обозначает «очень хорошая, вольготная жизнь»: ««*Ну, как они живут? Богат ли здешний край?» «Великий государь! здесь не житьё им — рай*»» (Крылов. Рыбьи пляски). [8, с.231]. В современном русском языке лексема «житье» в составе фразеологизма приобрела форму «жизнь»: «не жизнь, а рай». Кроме того, данное устойчивое сочетание может также употребляться и в антонимическом значении «тяжелая жизнь»: Этих басен ходит много Про советский край. Там, не верите? ей-Богу, Не житье – а рай.. (Зинаида Гиппиус, «Товарищ»)

Таким образом, можно отметить, что существует как положительное, так и отрицательное значение фразеологизма «не житьё – просто рай». В положительной коннотации может интерпретироваться как выражение полной удовлетворенности и благополучия, в отрицательной же используется с иронией и сарказмом для описание тяжелой жизненной ситуации, а также для комментирования преувеличенных или иллюзорных представлений о жизни.

Говоря о ценностном компоненте концепта, следует отметить, что проанализированные ФЕ позволяют выделить специфику функционирования и эволюцию, а также установку, связанную с восприятиемлингво-концепта «рай» во фразеологии прослеживается от буквального толкования к более абстрактным и переносным коннотациям, отражая изменения в социокультурном контексте. Например, фразеологизмы, такие как «рай земной»

или «райские кущи», демонстрируют сдвиг от первоначального значения к идеализированным условиям счастья и блаженства.

Можно отметить, что «рай» может нести как положительные (*с милым рай и в шалаше, райский уголок, райские кущи, не житье-просто ра*й), так и отрицательные оттенки (*на чужой спине в рай въехать*, отправить в райские кущи, загреметь к богу в рай), а также варианты употребления с саркастическим оттенком (*не житье-просто ра*й) в зависимости от контекста употребления.

Использованная литература

1. Рябцева, Н.К. Язык и естественный интеллект / Н.К.Рябцева. – М.: Academia, 2005. – 640 с.
2. А.Н.Баранов, Д.О.Добровольский Фразеологический объяснительный словарь русского языка. М.: ЭКСМО, 2009.- 704 с..
3. А.К.Бирих, В.М.Мокиенко, Л.И. Степанова. Русская фразеология, историко-этимологический словарь. М.: Астрель, Аст, Люкс, 2005.- 927 с..
4. Даль В.И. Толковый словарь живого великорусского языка: В 6 т. М., 1980. 2734 с..
5. Крылов Г.А. Этимологический словарь русского языка. СПб.: ООО Полиграфуслуги, 2005. - 432 с..
6. Ожегов С.И. Толковый словарь русского языка М., 1964. - 1836 с..
7. Фасмер М. Этимологический словарь русского языка в 4-х т. М.: Прогресс— АСТ, 1987. - 2944 с..
8. *Фёдоров А.И. Фразеологический словарь русского литературного языка. — М.: Астрель, АСТ, 2008.-880 с..*
9. https://kartaslov.ru/?ysclid=l87kt03ofr37527800
10. http://rus-yaz.niv.ru/

MIRZƏ KAZIM BƏYİN "TÜRK-TATAR DİLİNİN ÜMUMİ QRAMMATİKASI" (1846) ƏSƏRİNDƏ SİNTAKSİS VƏ MÜRƏKKƏB CÜMLƏ MÖVZUSUNUN İŞLƏNİLMƏSİ

Ceyran Rəhim qızı Salahova
Bakı Slavyan Universiteti
nizamisalahov77@gmail.com
https://orcid.org/0000-0002-2912-7465

Azərbaycan dilçiliyində Mirzə Kazım bəydən başlayaraq, 1950-ci illərə qədər mürəkkəb cümlələr əsas etibarilə feli tərkiblərlə qarşılıqlı olaraq öyrənilmişdir. Bu da mürəkkəb cümlələrin asılı komponentlərinin feli tərkiblərlə ifadə olunan budaq cümlələr kimi öyrənilmsi ilə bağlı olmuşdur. Ancaq burada, hər şeydən öncə, feli tərkiblərin və digər yarımpredikativ birləşmələrin müxtəlif sintaktik, kommunikativ və intonasiya özəlliklərinin, əsasən, sadə və ya sadə geniş cümlə kontekstində gerçəkləşdiyi unudulmuşdur.

Qeyd olunmalıdır ki, feli sifət, feli bağlama və məsdər tərkibləri konkret bir cümlə üzvü vəzifəsi daşıyırsa da, belə cümlə üzvlərinin hamısı yer tutduğu sintaktik əhatədə eyni bir qrammatik funksiyaya malik olmur və müxtəlif intonasiyalarla ifadə olunur. Bu xüsusiyyəti nəzərə alaraq, sintaktik-kommunikativ funksiyasına əsasən sadə cümlələrdə yer alan feli tərkibli genişlənmiş cümlə üzvlərini iki yerə ayırmaq olar:

1. Xüsusiləşməyən geniş üzvlər;

2. Xüsusiləşən geniş üzvlər.

Xüsusiləşməyən geniş üzvlər sadə cümlədə adətən mübtəda, təyin, tamamlıq, az miqdarda isə xəbər yerində işlənilir.

Mübtəda vəzifəsində işlənilən feli və ya məsdər tərkibi ilə xəbər bilavasitə və sıx surətdə bir-birinə bağlı olur, çünki xəbər mübtəda ilə uzlaşır. Tamamlıq vəzifəsində işlənən feli sifət və məsdər tərkibləri də, həmçinin xəbərlə möhkəm əlaqədə olur; çünki belə tamamlıqları xəbər idarə edir, yəni xəbərin tələbi ilə bu tərkiblərin əsas sözü ismin müəyyən hal formasını qəbul etməli olur. Təyin vəzifəsində işlənən feli sifət tərkibləri təyinlənən üzvə yanaşmış olur ki, bunların arasında fasilə əmələ gəlmir (bəzi xüsusi hallar nəzərə alınmır). Əgər tərkib xəbər vəzifəsində olsa, deməli, o başqa üzvlərlə yenə də sıx əlaqədədir. Bir sözlə, saydığımız bu hallarda cümlə üzvü vəzifəsində işlənən həmin geniş üzvlər cümlənin əsas qismindən fasilə ilə ayrılmır və buna görə də xüsusiləşmir.

Xüsusiləşən geniş üzvlərə gəldikdə isə onlar əsasən xüsusiləşmiş zərfliklərdən ibarət olur. Bunun da səbəbi – feli bağlama tərkiblərinin və qoşma qəbul etmiş feli sifət və məsdər tərkiblərinin və ya qoşmalı birləşmələrin cümlənin xəbəri ilə zəif əlaqədə olması, cümlənin əsas hissəsindən onların fasilə ilə ayrılması, ayrıca məntiqi vurğuya və intonasiyaya malik olmasıdır. Həmin tərkiblərdə ayrıca subyektin olması da daha artıq xüsusiləşməyə səbəb olmaqdadır.

Feli bağlama, feli sifət və məsdər tərkiblərini mürəkkəb cümlənin tərkib hissəsi və ya müstəqil komponenti saymaq olmaz. Çünki, asılı komponent kimi, ümumiyyətlə, yalnız sözlərin elə bir predikativ birləşməsi qəbul edilə bilər ki, onlar baş cümlədən ayrı, müstəqil cümlə kimi işlənilə bilsin. Bu da ancaq şəxs – xəbərlik şəkilçiləri vasitəsilə mümkündür. Halbuki bunu feli sifət və feli bağlama tərkibləri haqqında söyləmək olmaz.

Mirzə Kazım bəyin (1802-1870) əsl adı Məhəmməd Əli olmuşdur. O, Azərbaycan əsilli bir şərqşünas, tarixçi, filoloq və türkoloqdur. Ana dili ilə yanaşı, rus, ingilis, ərəb, fars, fransız və bir neçə türk dilini mükəmməl bir şəkildə bilmiş, latın və alman dillərini də öyrənmişdir. Mirzə Kazım bəy 1926-cı ildə Kazan Universitetində Şərq dilləri və ədəbiyyatları müəllimi vəzifəsində işləməyə başlamışdır. 1828-ci ildə isə həmin Universitetdə açılmış "Türk dilləri" fakültəsinin rəhbəri vəzifəsinə təyin edilmişdir. O, 1844-1849-cu illərdə Kazan Universiteti Dil və Tarix Fakültəsinin dekanı olmuş və Kazanda işlədiyi 23 il ərzində həm öz həmkarları arasında, həm də bütün Avropada bir alim, tarixçi, filoloq və türkoloq kimi çox məşhurlaşmışdır. O, 1849-cu ildə Çar Rusiyasının o zamankı Təhsil Nazirliyi tərəfindən Sankt- Peterburq Universitetində Şərq dilləri fakültəsini qurmaq və oradakı işləri təşkil etmək üçün dekan vəzifəsinə təyin olunmuş və ömrünün sonuna qədər sözügedən universitetdə işləmişdir.

Mirzə Kazım bəyin tarix, ədəbiyyat, folklorşünaslıq və dilçilik elmləri sahəsində yazdığı önəmli əsərlərdən aşağıdakıların adlarını çəkmək olar: "Bab və Babilər: 1848-1852-ci illər İranda Dini və Siyasi Təlatümlər" (1865), "Qurani-Kərimdə ahəngdarlıq" (1859), "Müridlik və Şamil" (1859), "İslam tarixi"(1860), "Türk dillərinin öyrənilməsində kurs dərsliyi" (1854) və s. Onun "Türk-tatar dilinin ümumi qrammatikası" adlı məşhur əsəri 1839 və 1846-cı illərdə yayımlanmış və Demidov mükafatına layiq görülmüşdür. Mirzə Kazım bəyin həmin əsəri Avropa universitetlərində 1921-ci ilə qədər istinad edilən əsas mənbə rolunu oynamışdır. 1921-ci ildə Jan Deninin "Türk dilinin qrammatikası" (Osmanlı dialekti) adlı kitabı yayımlanmışdır.

Mirzə Kazım bəyin qrammatika kitabının "Ön söz"dən və üç əsas hissədən ibarət olduğu göstərilmişdir:

1. Əlifba, hərflərin tələffüzü və nitq hissələri olaraq isim, sifət, say və əvəzlik;
2. Feil, qoşma, zərf, bağlayıcı, nida;
3. Söz birləşməsi və digər söz qrupları və hər cür söz və cümlə birləşmələri və ya bütölükdə sintaksis. [3, s.148]

Bu əsərdə öz dövrünün Osmanlı türkcəsi morfologiyası və sintaksisi quruluşunun Azərbaycan türkcəsi və tatar türkcəsnin və digər müxtəlif türk dialektlərinin uyğun dil səviyyələri ilə müqayisəli olaraq örnəklərlə çox geniş təsvir olunduğu göstərilmişdir. Yeri gəldikcə türk dillərindən gətirilən

dil örnəklərinin monqol, rus və Fransız dillərindəki uyğun linqvistik qarşılqlarıyla müqayisəli araşdırmaya cəlb olunduğunun vurğulanması da unudulmamışdır.

Kitabın, təbii ki, Hind-Avropa dilçiliyi ənənələrinə görə tarixi-müqayisəli və təsviri-linqvistik yöntəmlərlə yazıldığı göstərilmişdir. Ancaq Mirzə Kazım bəyin bir şərqşünas və öyrəndiyi dillərin bilavasitə daşıyıcısı olduğu üçün sözügedən kitabında qərb və şərq filologiyası ənənələrindən də uğurla istifadə etdiyi diqqətə çatdırılmışdır. Ancaq əsərdə Fransız dilçisi Joberin qrammatik modeli əsas götürüldüyü üçün türkoloji dilçilikdə yanlış təsnifləndirmələrə, uzun və məzmunsuz mübahisələrə yol açıldığı da təsbit edilmişdir. Belə ki,"sözügedən mübahisələr, hər şeydən öncə, feli sifət, feli bağlama, məsdər və bəzi qoşmalı sintaktik konstruksiyaların mürəkkəb cümlələrin budaq cümləsi (clause) olaraq müəyyənləşdirilməsilə bağlı olmuşdur. Mirzə Kazım bəyin "Türk-tatar dilinin ümumi qrammatikası" adlı əsərində fonetika bölməsi həcm etibarilə çox qısadır. Həmin bölmədə türk dilinin önəmli fonetik hadisələri, ahəng qanunu və dodaq ahəngi mövzularına heç toxunulmamış, fonemlərdən hərflər olaraq bəhs edilmişdir [5, s.229-231; 301]. Bütün bunlara baxmayaraq, Mirzə Kazım bəyin "Türk-tatar dilinin ümumi qrammatikası" adlı kitabı türk dillərinin fonetikası, morfologiyası və sintaksisi haqqında təsviri və tarixi-müqyisəli dilçilik yötəmlərilə yazılan geniş həcmli bir əsər olaraq türkoloji dilçiliyin tarixində özünəməxsus bir yer tutmaqdadır". [3, s.148-149]

Yuxarıda göstərildiyi kimi, türk-tatar dilinin "Sintaksis" bəhsi kitabın üçüncü hissəsində açıqlanmışdır. Bu baxımdan heç də təsadüfi deyildir ki, kitabın "Üçüncü hissə" olaraq verilən ümumi sərlövhəsi qarşısında mötərizə içərisində bir də "Nitqdə sözlərin sintaktik əlaqəsi" adlı bir başlıq-açıqlanma da vardır. Kitabın sözügedən üçüncü hissəsinin birinci fəslində öncə nitqdə sözlərin etimoloji və məntiqi, sonra isə onların sintaktik uzlaşma əlaqəsindən bəhs edilir. Burada felin isim, xəbərin mübtəda və ismin sifətlə olan sintaktik səciyyədəki uzlaşma əlaqəsi sözügedən dillərdən gətirilən konkret örnəklərlə işıqlandırılır. [4, s.342-361] Kitabın üçüncü hissəsinin ikinci fəslində isə bütövlükdə sözlərin cümlə və ya frazada bir-biri ilə sintaktik olaraq birləşməsi hadisəsi və onların arasında ismin müxtəlif hallarıyla gerçəkləşən idarə əlaqəsi açıqlanır. [4, s.302- 420] Burada əvvəlcə cümlənin baş üzvləri yerində işlənilən, müxtəlif nitq hissələri ilə ifadə olunan mübtəda və xəbərdən danışılır [4, s.362-367], sözlər arsındakı sintaktik əlaqələrdən bəhs edilir. İsimlərin yiyəlik və birgəlik, feillərin isə təsirlik, birgəlik və yönlük halları ilə gerçəkləşən idarə əlaqəsi işıqlandırılır. Feillərin zaman və şəkillərində özünü göstərən müxtəlif morfoloji və sintaktik dəyişikliklərə diqqət edilir. [4, s.367-420]

Mirzə Kazım bəyin "Türk-tatar dilinin ümumi qrammatikası" adlı kitabının üçüncü hissəsində cümlə konstruksiyalarının ümumi sisteminə aid olan əsas sintaktik özəlliklər açıqlanır. Əvvəlcə cümlədə söz sırasından, cümlənin birinci və ikinci dərəcəli tərkibi və mürəkkəb üzvlərindən danışılır. Cümlənin isimlərlə, saylarla, əvəzliklərlə, sifətlərlə, zərflərlə, feli sifətlərlə və s. ifadə olunan mübtədası, xəbəri, təyini, tamamlığı və zərifliyi yerində işlənilən üzvlərindən örnəklərlə bəhs edilir [4, s.420-436] Kitabın sözügedən hissəsinin "Fraza və ya cümlələrin bəzi nitq hissələri ilə qarşılıqlı olaraq birləşməsi" adlı "B" paraqrafında isə mürəkkəb cümlənin komponentlərinin türk dilində morfoloji və sintaktik səciyyəli vasitələrlə birləşdiyi vurğulanır. Burada Mirzə Kazım bəy yazır ki, özəlliklə türk kitab dilində mürəkkəb cümlənin komponentləri və ya cümlələr və frazalar söyləmdə bir-biri ilə bağlayıcıların, feli sifət və feli bağlamaların işlənilməsilə bağlanır. [4, s.436]

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 281 s.
2. Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, Maarif, 1974, 418 s.
3. Абдуллаев К.М. Проблемы синтаксиса простого предложения в азербайджанском языке. Баку, Элм, 1983, 108 с.

4. Казым-Бек М. Общая грамматика турецкого-татарского языка. Казань, 1846, 457 с.
5. Кононов А.Н. История изучения тюркских языков в России. Дооктябрский период. Издание Второе. Ленинград: Наука, 1982, 299 s.

MODERN TRENDS IN FOREIGN LANGUAGE TEACHING IN THE CONTEXT OF STRENGTHENING THE ROLE OF ICT IN EDUCATION

Turkan Jalilova
Ph.D student
Ganja State University
calilovat@mail.ru
https://orcid.org/0000-0002-4186-5022

Currently, one of the key points in the development of education is the strengthening of the role of information and communication technologies (hereinafter referred to as ICT). This trend affects all levels and areas of education. The problem of using ICT is also relevant in teaching foreign languages. This is explained by the fact that computer technologies are perfectly capable of solving the problems of modern methods of teaching foreign languages, put forward by E.N.Solovova in 2013, including increasing the interactivity of a foreign language course and increasing the efficiency of managing students' educational and cognitive activities, including with the help of distance learning [2, pp.67-70]. The use of ICT in the educational process is in harmony with all modern slogans in education - learning without boundaries, anytime, anywhere learning, life-long education, timely, sufficient and personalized learning [4].

The use of ICT in teaching foreign languages fits well with the learning style that modern students prefer. They require a minimum of explanation, like to act according to a given algorithm, scheme, need visual support, and actively use social networks and services. Students perceive any info graphics well - diagrams, graphs, diagrams, tables, maps, lists, etc. Students today are focused on quickly achieving practical results, while they are not inclined to long and hard work. Preference is given to Internet tests and online exercises, where an automated system evaluates the completion of each task, indicates the correct answers, and explains the mistakes made. Having completed the task, students require immediate incentive, praise, evaluation, and an increase in rating.

Strengthening the role of ICT in education contributes to the establishment of such trends in teaching foreign languages as the integration of Web 2.0 technologies, gamification, the use of interactive textbooks, changing the content of training in favor of multicultural education, while English serves as a means of intercultural communication, including in a virtual environment.

ICTs provide an opportunity to reconsider the issue of the content of foreign language teaching. In connection with the strengthening role of ICT in foreign language education, the content of training is changing in favor of the formation of a comprehensive picture of a multicultural world in which a foreign language serves as a means of communication. Leading foreign publishing houses strive to create comprehensive textbooks (global course books), representing the diversity of cultures and ethnic groups (globally inclusive), taking into account the features of intercultural communication, excluding everything that may be inappropriate in another culture (avoiding inappropriacy) [3]. These include Headway, English File and Navigate from Oxford University Press and Straightforward Second Edition and Global from Macmillan. An analysis of these textbooks shows that their authors are not limited to including linguistic and cultural information only about English-speaking countries, but show the world globally, introducing students to diverse cultures, including images and stories of people from all over the

world. In these textbooks you can hear the accents of not only native speakers, but also representatives of other cultures who use English as a means of international communication - a lingua franca. Subject to an integrated approach, the authors respond quite flexibly to students' requests and try to adapt the content of textbooks to the characteristics of a particular region.

The authors of textbooks from the mentioned foreign publishers avoid discussing topics that may cause controversy in different cultures, such as racism, genetic engineering, terrorism, etc.

In modern textbooks you will no longer find recent topics for memorization; instead, original articles, texts for listening or videos for viewing and subsequent discussion are included. There are many practical tasks aimed at mastering professional communication skills in a foreign language, for example, writing a resume, business letter, filling out a customs declaration, etc. It would seem that such content in foreign language textbooks seems appropriate, meeting the requirements of modern standards since it introduces the cultures of different countries and is focused on achieving practical communication skills, including in the professional sphere. However, according to the results of a survey of students using the Headway textbook, only 44 % of respondents confirmed that situations from everyday life, hobbies, problems and experiences of peers described in the textbook are similar to situations from their lives [3]. This study also showed that students appreciated the Headway textbook as it helped them become part of a global network through learning English. Computer and mobile technologies have become an integral part of our lives, so students today want to talk about social networks, new products in mobile devices and the gaming industry.

Thus, we can conclude that a modern foreign language textbook depicts the world globally and truthfully, is consistent in intercultural terms, describes the lifestyle characteristic of modern youth, discusses and uses the latest ICT, including social networks and other Internet services.

Along with changes in the content of foreign language textbooks, the teaching format itself is changing. In many universities, educational materials are translated into a unified educational information system using open software such as Moodle.

The concept of blended learning, which is a combination of distance learning, classroom learning (face-to-face learning) and online learning, is becoming increasingly popular.

More and more printed textbooks are now being published in electronic format. A wide range of electronic library systems has appeared that provide the opportunity to get acquainted with textbooks, manuals, lectures, articles, dissertations, historical sources, and documents in electronic form in various fields of knowledge. Popular among them are information and library systems (eLIBRARY, IPRbooks, BOOK.ru), federal electronic libraries and information centers (Garant, Consultant Plus), libraries of higher educational institutions (electronic library of Mayo. Lomonosov Moscow State University, library of the history department of Moscow State University, library St. Petersburg State University), etc. Printed textbooks, as a rule, have electronic versions with integrated audio and video files, interactive vocabulary and grammar games for classroom work on an interactive whiteboard or using a projector and computer. Recently, hybrid textbooks have appeared in which learning goes beyond reality, penetrate into the digital space, and unite students from different countries on the textbook platform (Bravissimi, Community, Rond-Point, Team Deutsch, Alternativas).

As a result of the fact that the virtual space is radically changing the conditions in which modern children grow up, printed textbooks are losing their relevance. Our observations of students indicate that they are more likely to take a photo of a page of a printed textbook from a fellow student on their mobile phone than to borrow it from the library. Printed textbooks are replacing their electronic versions, uploaded to mobile devices, posted on educational information platforms or even on social networks, hybrid textbooks in printed and electronic formats with Web 2.0 tools, interactive textbooks, preferably with mobile applications.

Since virtual space is considered as a new cyberspace for the functioning of language, today we can talk about the emergence of new types of speech activity:

- cyber reading (dynamic reading of text on a computer screen using hyperlinks);
- cyber writing (a productive type of speech activity, the object of which is written speech operating in virtual space);
- cyber-listening (auditory perception of speech (contact or remote), recorded in digital format and transmitted over an audio channel, and its understanding);
- cyber speaking (the use of oral speech to establish contact and mutual understanding for the purpose of exchanging information (contact or remotely) in the virtual space) [1, pp.22-24].

In this regard, the introduction of Web 2.0 technologies is becoming another trend in teaching foreign languages in our time. With their help, you can communicate in the virtual space with native speakers and thus express yourself, train cyber-listening, cyber-speaking, cyber-reading and cyber-writing skills, interact in a group, and involve users in collective content addition.

References

1. Кащук С. М. Стратегия интеграции мультимедиа технологий в систему языкового образования (на примере обучения французскому языку) : дис. … д-ра пед. наук: 13.00.02 / Кащук Светлана Михайловна. М., 2014. С. 22 – 24.
2. Соловова Е. Н. Перспективные направления вузовской методики преподавания иностранных языков // Вестник МГИМО. 2013. № 6. С. 67 – 70.
3. Melliti M. Global Content in Global Course books URL: http://sgo.sagepub. com/content/3/4/2158244013507265#sec-6.
4. Traxler J. Current State of Mobile Learning // Mobile Learning: Transforming the Delivery of Education and Training. URL: http://www.aupress.ca/books/120155/ ebook/01_Mohamed_Ally_2009-Article1.pdf.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ DİSKURSİV MARKERLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ

Gülnar Əli qızı Allahverdiyeva
doktorant
Bakı Slavyan Universiteti
allahverdiyeva.g95@bk.ru
https://orcid.org/0000-0002-9619-7818

Diskurs markerləri diskurs təhlili və linqvistik praqmatikada əsas tədqiqat obyektlərindəndir.

Diskurs nəzəriyyəsində diskursiv markerlər sosial nitqin semantik-sintaktik, praqmatik, koqnitiv və arqumental əlaqələrinin göstəriciləridir. Onlar əsasən metadil, metadiskurs və interaksional funksiya yerinə yetirir [1, s.235-260; 2, s.4; 3, s.189]. Bildiyimiz kimi, ingilis dilinin sosial nitqi diskursiv markerlər kontekstində qərb dilçiləri tərəfindən daha ətraflı öyrənilsə də, Azərbaycan dilçiliyində bu sahədə müəyyən boşluqlar vardır. Bu da diskurs nəzəriyyəsinin Azərbaycan dilçiliyinə qərb dilçiləri ilə müqayisədə nisbətən gec gəlməsi ilə bağlı idi.

Diskursiv markerlər işlənilməsi nitq situasiyası və diskurs tipindən asılıdır. Diskurs tipinin müəyyənləşdirilməsi nitq situasiyasına aid digər məsələlərə də aydınlıq gətirir. Digər məsələlər deyəndə nitq situasiyası, onlara müvafiq olaraq fon biliklə situasiyanın əlaqələndirilməsi və onun linqvistik cəhətdən strukturlaşdırılması və bu kimi digər xüsusiyyətlər nəzərdə tutulur [5, s.24-30].

Diskursiv markerlərin informasiya verimində iştirakı da bu faktorlarla bağlıdır. Onların nitqdə işlənilməsi natiqin, müəllifin nitq intensiyasından asılıdır.

Diskursun strukturunda iki vacib şərt var: birincisi, nəyinsə haqqında informasiya verimi, digəri isə müəllif modallığının informasiyaya yerləşdirilməsidir. Diskursiv markerlərin seçimi də müəllif intensiyasından asılıdır. Onu müəyyənləşdirən müəllif və situasiyadır. Diskursiv markerin eksplikatorluğu o deməkdir ki, dinləyici markeri eşidən kimi müvafiq nitq obyektinə yönəlir; qavrama bu kontekstdə reallaşır. Modallıq verballaşan situasiyanın koqnitiv şərhidir. Əgər dil vahidləri bir tərəfdən reallığı əks etdirirsə, digər tərəfdən onun haqqında dəyərləndirici məlumat verir. Bu səbəbdən diskursiv markerlərin öyrənilməsi onların linqvistik funksiyasından əlavə, sosial mahiyyətini də əks etdirir. Yuxarıda qeyd etdiyimiz kimi diskursiv markerlərin diskursdakı semantikasını düzgün başa düşmək üçün kontekst nəzərə alınmalıdır. Bu ona görə vacibdir ki, informasiyada vurğunun nəyin üzərində qoyulduğu düzgün anlaşılsın, eləcə də kontekstə görə nəyin deyildiyi və necə başa düşüldüyü aydınlaşsın. Ona görə də informasiya nəzəriyyəsi ilə məşğul olanlar diskursiv markerlərin linqvistik funksiyası ilə yanaşı, onun sosial-mədəni funksiyasına da xüsusi fikir verirlər.

Müxtəlif dillərdə qrammatik və leksik elementlərin diskurs markerləri funksiyasında çıxış etməsinin tədqiqi maraq doğuran məsələlərdəndir. Bir çox hallarda bu elementlər analoji funksiya daşısalar da, bəzi fərqlər də mövcuddur. Bu fərqlər daha çox müxtəlif sistemlərə aid dillər arasında büruzə edir. Məsələn, şəkilçilərin diskurs markerləri kimi funksiyası Avstraliya aborigen xalqlarının dilləri əsasında araşdırılmışdır [4, s.225-240]. Xüsusilə aqqlutinativ və ya iltisaqi dillərə nəzər salsaq, bu dillərdə şəkilçilərin də diskurs markerlər kimi çıxış etməsini də görə bilərik. Müasir ingilis və Azərbaycan dillərində diskursiv markerlər ədatları, bağlayıcıları, modal sözləri, nidaları, şəkilçiləri, eləcə də zərfləri və bir sıra isimləri əhatə edir. Onların formalaşma yolları və kommunikativ funksiyaları da oxşardır; hətta onların linqvistik əlamətləri də üst-üstə düşür. Məsələn: Müasir ingilis dilində "like" həm bağlayıcı, həm sözön, həm də ədat kimi işlənilməsi ilə yanaşı, diskursiv marker kimi də fəaldır. Əsas nitq hissəsi kimi isim, sifət və zərf funksiyasında çıxış edir. Funksiyaca fərqli, hətta əks mövqedə dayanan funksiyaların bir dil vahidində toplanması "like" isminin həm semantik genişliyi və funksional diferensiallaşması ilə bağlıdır. Qeyd olunan dil vahidində funksional diferensiallaşma iki istiqamətdə – bir tərəfdən əsas nitq hissələri daxilində, bir də mənaca ümumiləşmiş köməkçi nitq hissələri kontekstində reallaşmışdır. Etimoloji cəhətdən qədim ingilis dilində işlənilən *"gelic", "oxşar"* mənasını verən bu söz protogerman mənşəlidir [6, s.163]. Qeyd olunan leksemin köməkçi nitq hissələri funksiyasında çıxış etməsi onun məna ümumiləşməsinə, qrammatikləşməyə məruz qalması ilə bağlıdır.

Müasir Azərbaycan dilində "da" ədat, bağlayıcı və nida funksiyasında işlənir. Məsələn:

1. Ədat kimi:

"O, buraya gəlin gələndə ərinin var-dövləti olsa da, əməlli-başlı bir otağı **da** yox idi. Bunların hamısında onun, Zərnigar xanımın əməyi vardı. O özünə toxtaqlıq verdi. Heç yana getməməyi, əksinə, onun yurduna su salmaq istəyəni evdən qovmağı qərara aldı. Yarğanın kənarında oturub oğlunu gözləyəsi oldu. "Şamxal bu işləri belə qoymaz, – deyə özünə təsəlli verdi. – Harada olsa gəlib çıxacaq. Kimin anasının mələr qaldığını onda görərik..." [8, s.9]

2. Bağlayıcı kimi:

"Şamxal dinmədi. O bu cür sözləri birinci dəfə eşitmirdi. Atası hər dəfə bir yana gedəndə, toydan-mağardan qayıdanda evdə belə söhbətlər olurdu. Anası həmişə kişinin üstünə düşüb dava-dalaş salar, ağlayıb-sızıldayar, sonra **da** sakitləşərdi. Şamxal həyətə girdi. Xalxalın yanından ötüb çardağa yaxınlaşdı. Kərəntini dirəkdən asdı. Heybəni çiynindən götürdü. Üstünə boz kilim salınmış taxtda oturub, əlini çarığın bağına uzatdı" [8, s.11].

3. Nida kimi:

"Cavab ver **da**! Niyə susursan?!" (*Şifahi nitqdə*).

Yuxarıdakı müqayisədən göründüyü kimi, həm ingilis, həm də Azərbaycan dillərində qrammatikləşmiş vahidin polifunksionallığı özünü göstərir. Bu universal cəhətlər həm də onların diskursiv implikator olmasında da müşahidə olunur. Yəni "like" və "da" öz semantikaları dairəsində oxşar funksiyaları yerinə yetirir. "Like" semantik cəhətcə "kimi", "sanki" qoşmalarının, eləcə də "da" bağlayıcısı və ədatının ingilis dilində adekvatıdır. Hər iki dildə əlaqələndirici rol oynayan bu dil vahidlərinin diskursiv funksiyası onların diskursiv implikator olmasındadır.

Diskursiv markerlərin eksplikatorluğu verilən informasiyanın hansı məqamının mühüm olması ilə bağlıdır; belə də demək olar ki, diskursiv markerlər remaya istiqamətlənir. Mətndə rema cümlədən fərqli olaraq , informasiyanın yeni – məlumatverici hissəsinin üzərinə düşür. Bu cümlə ilə müqayisədə təkcə həcm məsələsi deyil, yeni məzmunlu nitq parçası ilə bağlıdır. Misallara müraciət edək:

"…She's said to be very beautiful by people who ought to know." ***"Well, I'd like to, but".***

We went on, cutting back again over the Park toward the West Hundreds. At 158th Street the cab stopped at one slice in a long white cake of apartment-houses" [9].

Verilmiş mətndə "**Well, I'd like to, but"** "böyük məmnuniyyətlə" diskursiv markerdir, o, diqqəti "ancaq…" hissəsinə, yəni implisit deyilən remaya yönəldir. Onun exsplikatorluğu da budur. Digər bir məsələ isə remanın implisitliyi ilə bağlıdır, o, deyilmir, lakin nəzərdə tutulur. Ancaq eksplisit olan remalarda markerlərin eksplisitliyi daha aydın müşahidə olunur. Məsələn:

"Tələbələrlə müəllimin arasında baş verən bu üstüörtülü zarafat hamının əhval-ruhiyyəsini düzəltdi. Uşaqlar bir də ona görə sevindilər ki, bu gün Kipiani gəlmişdi. Əgər o, növbətçi müəllim olsaydı, nahardan sonra şəhərin kənarına, Kürün sahilinə gəzməyə getmək arzusu baş tutacaqdı. Kipiani məktəb həyətinin ortasına çatan kimi tələbələr onu əhatə etdilər, Kim isə gülə-gülə:

– **Nə yaxşı oldu,** – dedi.

– Yaxşı olan nədir?

– Sizin növbətçi olmanız.

– Yox, səhv edirsiniz. Bu gün mən növbətçi deyiləm.

– Bəs kimdir?

– Bu saat bilərsiniz.

Birdən o, sözünə ara verdi. Kənardaca, Firidunun yanında dayanan Əşrəfi yanına çağırdı. Əşrəf qızardı, sonra rəngi avazımağa başladı" [8, s.376].

Bu mətndə rema diskursiv markerdən (**Nə yaxşı oldu)** sonrakı hissədir. O, mərhələli şəkildə açılır və diqqəti "növbətçi"yə yönəldilir. Bununla da diskursiv markerin əsas funksiyası reallaşır.

"…And ***now*** *for no reason at all, he was shy, boorish - positively rude*

"I shan't take any more trouble with him," said Sarah indignantly" [7].

İngilis dilinə aid verilmiş mikromətn parçasında "**And now** (indi isə)" mətnin rema hissəsidir. Onun vasitəsi ilə yeni informasiya – rema ("I shan't take any more trouble with him") verilir. Beləliklə də, diskursiv markerin yeni informasiyaya istiqamətlənməsi reallaşır.

İngilis və Azərbaycan dillərində diskursiv markerlərin formalaşması yolları da bəzən üst-üstə düşür:

"Of course I knew what they were referring to, but I wasn't even vaguely engaged. The fact that gossip had published the banns was one of the reasons I had come East. You can't stop going with an old friend on account of rumors, ***and on the other hand (digər tərəfdən)****. I had no intention of being rumored into marriage"* [7].

"And on the other hand" let's get started. In any case, Azərbaycan dilinə "digər tərəfdən", "hər halda" kimi tərcümə olunur və həmin ifadələr hər iki dildə söz birləşməsi olaraq marker funksiyasını yerinə yetirir. Bu onların tipoloji tərəfləridir.

Lakin ingilis dilində mövcud olan "maybe" (ola bilər) və digər bu kimi markerlər genezis cəhətdən başqa yolla formalaşmışdır. Yəni Azərbaycan dilində modal sözlərin bir qismi sintaktik

yolla formalaşmışdır. Bunu Azərbaycan dilində bəzi cümlələrin modal sözlərə transformasiyası kimi başa düşmək olar. Məsələn, bütün bunlardan belə görünür ki //görünür; sözün düzü// düzü və s.

Azərbaycan dilində şəkilçiləşmiş "-mı" ədatı və hal şəkilçiləri diskursiv marker rolunda çıxış edə bilir. Məsələn,

"Axı, Zərnigar da yazıq idi, neçə il idi ki, onunla bir yastığa baş qoyurdular. Yetişmiş oğlu, qızı vardı. İndi necə olsun? Onu bu evdən qovmaq olar**mı**? El-oba buna nə deyər? Bəs Mələyin təqsiri nədir? Bu yazığı da yerindən-yuvasından o oynatmayıb**mı**? Bəs onun əri? Bu gün-sabah meydana çıxıb qan-qan deyə, at oynatmayacaq**mı**? Düşüncələr getdikcə güclənir, ağır yük kimi onu əzirdi. Cahandar ağa gah hirslənir, nahaq yerə başını cəncələ saldığını duyub peşmanlayır, gah da özünə ürək-dirək verirdi. "Əşi, nə olub, eldən çıxan bir iş tutmamışam ki? Elə dədə-babadan iki arvad saxlamaq peşəmiz deyil**mi**? Bu işi bir mən ha görməmişəm" [8, s.23].

Qeyd olunan şəkilçiləşmiş ədat diskursiv marker olaraq bağlandığı sözdən çıxış edir, həmin söz remanı təşkil edən vahidlərdən biridir. "-mı" ədatı aid olduğu sözün semantikasından kənara çıxaraq bütövlükdə mətn remasını əhatə edir, daha doğrusu, onu göstərir.

Digər misal:

"Bir ay bundan əvvəl onlar qazının qapısına getmiş və qız "hə"sini almışdılar. Onlar Əşrəf gələnə qədər hər şeyi hazır etmək istəyirdilər. Elə bu məqsədlə də Cahandar ağa şəhərə, həftə bazarına getmişdi. Geri qayıdanda parça-paltar əvəzinə Mələ**yi (İsmin təsirlik hal şəkilçisi "-ı"** gətirmişdi. Zərnigar xanım**ı (İsmin təsirlik hal şəkilçisi "-ı")** da elə yandıran bu idi. Bunları düşündükcə onun başından tüstü çıxır, ünü göyə qalxırdı. "Səni görüm el içində xəcil olasan, ay kişi, oğul-uşaq yanında üzün qara olsun", – deyə ərinə qarğayırdı" [8, s.36].

Azərbaycan dilində şəkilçilərin diskursiv marker rolunda çıxış edir. "Mələyi" və "Zərnigar xanımı" sözləri ismin təsirlik halında olmaqla verilmiş mikromətnin remasının sosial markeridir.

İstifadə edilmiş ədəbiyyat

1. Hansen M.-B. The semantic status of discourse markers. // Lingua, – 1998. Volume 104, Issues 3-4, – pp. 235-260.

2. Hansen M.-B. The Functions of Discourse Particles. A study with special reference to spoken French. – Amsterdam: John Benjamins, – 1998. – 417 p.

3. Macshler Y. and Schiffren D. Discourse markers language, meaning and context. In book: The Handbook of Discourse Analysis. Second edition. – John Wiley & Sons, Ltd. – 2015. – pp. 189-221

4. Pensalfini Rob The rise of case suffixes as discourse markers in Jingulu – a case study of innovation in an obsolescent language // Australian Journal of Linguistics, – 1999/2010. Vol. 19, Issue 2, – pp. 225-240

5. Дейк Т.А. ван, Кинч В. Стратегии понимания связного текста // Новое в зарубежной лингвистике, – 1988. Вып. XXIII: Когнитивные аспекты языка. – с. 24–30

6. Чиглинцева Е.С., Викулова Е.А. Служебные и дискурсивные функции английского слова like. URL: https://elar.urfu.ru›bitstream›iurg-2017, 163 p.

Bədii ədəbiyyat

7. Agatha Christie. Appointment with Death. https://achiqkitab.aztc.gov.az/Books/Read/1989/Agatha-Christie-Appointment-With-Death

8. Şıxlı İ. Dəli Kür. Bakı: Yazıçı, 1982.

9. Фицжеральд Фрэнсис, Великий Гэтсби. Электронная Библиотека. http://www.6lib.ru/books/velikii_getsbi-44452.html

KOMMUNİKATİV DİL TƏDRİSİ METODU

Gülnar Möhkəm qızı Həsənova
Sumqayıt Dövlət Universiteti
gulnar.qurbanli.1996@mail.ru
https://orcid.org/0009-0001-5187-7932

Hazırda ingilis dili qloballaşma və ümumi kompüterləşmə nəticəsində qlobal dil statusu almışdır. Müasir ingilis dilinin tədrisi şagirdlərin müasir həyata linqual və sosial adaptasiyası məqsədi daşıyır. İngilis dilində yaxşı ünsiyyət bacarıqlarına artan ehtiyac bütün dünyada ingilis dilinin tədrisinə böyük tələbat yaratmışdır. Bu gün milyonlarla insan ingilis dilini daha yaxşı öyrənmək və ya uşaqlarının ingilis dilini daha mükəmməl bilməsini təmin etmək istəyir. İngilis dilini öyrənmək imkanları rəsmi təlimat, səyahət, xaricdə təhsil, eləcə də media və internet vasitəsilə müxtəlif yollarla təmin edilir.

İngilis dilinə qlobal tələbat keyfiyyətli dil tədrisi və dil tədrisi materialları və resurslarına böyük tələbat yaratmışdır. Müasir mütəxəssis öz fikirlərini ingilis dilində ifadə etmək bacarığına malik olmalı, yəni nitq, dil və mədəni səviyyələr daxil olmaqla, kommunikativ bacarıqlara yiyələnməlidir. Öz növbəsində, dil öyrənmək motivasiya tələb edir. Motivasiya əldə etmək dil öyrənənin təlim prosesinin fəal və yaradıcı iştirakçısına çevrilməsi sayəsində mümkündür; yəni şagird və ya tələbə ünsiyyətə cəlb edilməlidir.

Xarici dilin tədris predmeti kimi özəlliyi ondan ibarətdir ki, o, həm məqsəd, həm də öyrənmə vasitəsidir. Şübhə yoxdur ki, ikinci dili öyrənərkən tələbələr başqaları ilə ünsiyyət qurma yollarını mənimsəməlidirlər. Müasir mərhələdə xarici dilin tədrisinin məqsədi kommunikativ səriştənin mənimsənilməsidir.

Kommunikativ dil tədrisinin əsasını 1960-cı illərin sonlarından etibarən ingilis dilinin tədrisi ənənəsində baş verən dəyişikliklərdə axtarmaq lazımdır.

1960-cı illərin ortalarında ABŞ-da Audiolingualizmin əsasını təşkil edən dil nəzəriyyəsindən imtina edildiyi kimi, İngilis tətbiqi dilçiləri Situasiyalı dil tədrisinin əsasını təşkil edən nəzəri fərziyyələri də şübhə altına almağa başladılar.

1971-ci ildə bir qrup ekspertlər vahid-kredit sistemi üzrə dil kurslarının işlənib hazırlanması imkanını tədqiq etməyə başladılar, bu sistemdə öyrənmə tapşırıqları "hissələrə və ya vahidlərə bölünür, onların hər biri öyrənənin ehtiyaclarının komponentinə uyğundur və sistematik olaraq bütün digər hissələrlə bağlıdır" [3, s.6]. Qrup avropalı dil öyrənənlərin ehtiyaclarına dair araşdırmalardan, xüsusən də ingilis dilçisi D.A.Vilkins tərəfindən hazırlanmış ilkin sənəddən istifadə etdi, bu da dilin tədrisi üçün kommunikativ sillabusların işlənib hazırlanması üçün əsas ola bilər. D.A.Vilkinsin töhfəsi dil öyrənənin anlamalı və ifadə etməli olduğu kommunikativ mənaların təhlili idi. D.A.Vilkins dilin əsasını ənənəvi qrammatika və lüğət anlayışları vasitəsilə təsvir etmək əvəzinə, dilin kommunikativ istifadələrinin arxasında yatan mənalar sistemini nümayiş etdirməyə çalışdı. O, iki növ məna təsvir etmişdir: şərti kateqoriyalar (zaman, ardıcıllıq, kəmiyyət, yer, tezlik kimi anlayışlar) və kommunikativ funksiya kateqoriyaları (tələblər, inkarlar, təkliflər, şikayətlər). D.A.Vilkins daha sonra 1972-ci ildə hazırladığı sənədi yenidən nəzərdən keçirdi, genişləndirdi və Kommunikativ dil tədrisinin inkişafına əhəmiyyətli təsir göstərən Şərti Proqramlar adlı kitaba çevrildi. [6]

Dil tədrisində kommunikativ yanaşma dilin ünsiyyət kimi nəzəriyyəsindən başlayır. Dil tədrisinin məqsədi D.Haymzın "kommunikativ səriştə" adlandırdığı şeyi inkişaf etdirməkdir. D.Haymz bu termini dilə kommunikativ baxışı və N.Xomskinin səriştə nəzəriyyəsinə ziddiyyət təşkil etmək üçün işlətdi. N.Xomski hesab edirdi ki, linqvistik nəzəriyyə, ilk növbədə, tam bircinsli nitq cəmiyyətində onun dilini mükəmməl bilən və yaddaşın məhdudlaşdırılması, diqqətin yayındırılması, diqqətin və marağın dəyişməsi kimi bu cür qrammatik cəhətdən qeyri-münasib

şərtlərdən və dil haqqında biliklərini real icraatda tətbiq edərkən səhvlərdən təsirlənməyən ideal danışan-dinləyiciyə aiddir. [2, s.3]

Dilin kommunikativ təbiəti ilə bağlı fikirlərinə görə tez-tez istinad edilən başqa bir nəzəriyyəçi Henri Uiddovsondur. H.Uiddovson özünün "Dilin ünsiyyət kimi öyrədilməsi" kitabında linqvistik sistemlər və onların mətn və diskursdakı kommunikativ dəyərləri arasındakı əlaqəyə baxışı təqdim etmişdir. O, dildən müxtəlif məqsədlər üçün istifadə etmək bacarığının əsasında duran kommunikativ aktlara diqqət yetirmişdir [5, s.15]. Kommunikativ səriştənin pedaqoji cəhətdən ətraflı təhlilinə M.Kanal və M.Sveində rast gəlinir, burada kommunikativ səriştənin dörd ölçüsü müəyyən edilir: qrammatik səriştə, sosial-linqvistik səriştə, nitq səriştəsi və strateji səriştə [1, s.3]. Qrammatik səriştə N.Xomskinin linqvistik səriştə adlandırdığı və D.Haymzın "formal olaraq mümkün olan" nəyi nəzərdə tutduğuna aiddir [4, s.154]. Bu, qrammatik və leksik imkanların sahəsidir. Sosiolinqvistik səriştə, ünsiyyətin baş verdiyi sosial kontekst, o cümlədən rol münasibətləri, iştirakçıların paylaşılan məlumatları və onların qarşılıqlı əlaqəsi üçün kommunikativ məqsəd haqqında anlayışa aiddir. Diskurs səriştəsi ayrı-ayrı mesaj elementlərinin onların bir-biri ilə əlaqəsi və mənanın bütün diskurs və ya mətnə münasibətdə necə təmsil olunduğu baxımından şərhinə aiddir.

Strateji səriştə, rabitəçilərin ünsiyyəti başlatmaq, dayandırmaq, saxlamaq, təmir etmək və yönləndirmək üçün istifadə etdikləri mübarizə strategiyalarına aiddir. Kommunikativ səriştə anlayışının faydalılığı ilkin kommunikativ səriştə anlayışını təkmilləşdirmək üçün edilən çoxsaylı cəhdlərdə görünür. M.Kanal və M.Sveinin daha əvvəl müzakirə olunan kommunikativ səriştənin D.Haymz modelinin genişləndirilməsi öz növbəsində Baxman tərəfindən işlənmişdir. Bu model öz növbəsində M.A.Sels-Mursia, A.Dörnyei və S.Thurrell tərəfindən genişləndirilmişdir.

Dil nəzəriyyəsi səviyyəsində Kommunikativ dil tədrisi zəngin, bir qədər eklektik olsa da, nəzəri bazaya malikdir. Dilə bu kommunikativ baxışın bəzi xüsusiyyətləri aşağıdakılardır:

1. Dil mənanın ifadə sistemidir.
2. Dilin əsas funksiyası qarşılıqlı əlaqə və ünsiyyətə imkan verməkdir.
3. Dilin strukturu onun funksional və kommunikativ istifadələrini əks etdirir.
4. Dilin ilkin vahidləri onun təkcə qrammatik və struktur xüsusiyyətləri deyil, nitqdə nümunə göstərildiyi kimi funksional və kommunikativ məna kateqoriyalarıdır [4, s.161].

Kommunikativ dil tədrisi metoddan çox yanaşma kimi qəbul edilir. O, dil və dil öyrənilməsinə kommunikativ baxışı əks etdirən və müxtəlif sinif prosedurlarını dəstəkləmək üçün istifadə edilə bilən müxtəlif prinsiplər toplusuna aiddir. Bu prinsiplərə aşağıdakılar daxildir:

- Öyrənənlər bir dili ünsiyyət üçün istifadə edərək öyrənirlər.
- Həqiqi və mənalı ünsiyyət sinif fəaliyyətinin məqsədi olmalıdır.
- Səlistlik ünsiyyətin vacib ölçüsüdür.
- Ünsiyyət müxtəlif dil bacarıqlarının inteqrasiyasını nəzərdə tutur.
- Öyrənmə yaradıcı tikinti prosesidir və sınaq və səhvləri ehtiva edir [4, s.172].

Beləliklə, xarici dilin tədrisində danışıq bacarığının formalaşdırırlması və inkişaf etdirilməsi məqsədilə yaradılmış dil tədrisi metodlarından bir neçəsini nəzərdən keçirdik. Bu metodların hər biri hələ də müxtəlif yaş qruplarında müxtəlif dil səviyyəsinə malik öyrənənlərə tətbiq edilir. Bu metodlar içərisində günümüzdə ən çox istifadə edilənlərə səriştəyə əsaslanan və kommunikativ dil tədrisi metodlarıdır.

İstifadı edilmiş ədəbiyyat

1. Canale M., Swain M. Theoretical bases of communicative approaches to second language teaching and testing. Applied linguistics, 1(1), 1980, pp.1-47
2. Chomsky N. Aspects of the Theory of Syntax. Cambridge, Massachusetts: The MIT Press. 1965
3. Ek J., Alexander L.G. Threshold Level English. Oxford: Pergamon.1980

4. Richards J. and T. Rodgers. Approaches and Methods in Language Teaching. Cambridge University Press: Cambridge, 2001
5. Widdowson H.G. The teaching of English as communication. English Language Teaching 27(1), 1972, pp.15–18
6. Wilkins D.A. Notional Syllabuses. Oxford: Oxford University Press.1976

DİL DƏRSLƏRİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏ

[1,2]**Samirə Əli qızı Abdullayeva,** [1,3]**Günay Muzənfər qızı Quliyeva,**
[1,4]**Cəvahir Nizami qızı Mehdiyeva**
[1]Azərbaycan Dövlət Aqrar Universiteti
[2]samira.abdullayeva@adau.edu.az
https://orcid.org/0009-000208398-0907
[3]gunay.quliyeva@adau.edu.az
https://orcid.org/0009-0006-7825-7799
[4]cevahir.mehdiyeva@adau.edu.az
https://orcid.org/0000-0003-4543

Texnologiya bütün dünyada xarici dil öyrənməyə getdikcə təsir edir. Dil tədrisi və dil öyrənmə mənzərəsi o qədər sürətlə dəyişib ki, rəsmi sinif artıq əsas dil öyrənmə saytı kimi xidmət etmir. Elektron təhsil proqramları və texnologiyası ilə dil öyrənmənin təkmilləşdirilməsi yeni bir tendesiyadlı, çünki bizim rəsmi təhsil sistemimiz artıq son illər ərzində müxtəlif təhsil texnologiyası vasitələri və multimedia əsaslı təlim məzmunundan istifadə etməyə başlayıb. [1, s.96]

Təhsil texnologiyası vasitələri müəllimləri necə dəstəkləyir?

1. Daha yaxşı öyrənmə mühiti yaradır.

Texnologiyaya əsaslanan öyrənmə mühitində birləşdirilmiş cihazların, audiovizual alətlərin və məqsədyönlü mebellərin inteqrasiya olunduğu çevik sinif otaqları tələbələrin müsbət əlaqəsini asanlaşdırır və indi tələbə uğuru üçün vacib hesab edilən müstəqil kiçik qrup və ya bütöv sinifin öyrənməsini asanlaşdırır.

2. Dil öyrətmə metodlarının və resurslarının daha geniş spektrinin imkanlarını artırır.

Şagirdləri passiv və cansıxıcı edə bilən ənənəvi dil öyrətmə üsulları ilə müqayisədə müasir dil öyrətmə strategiyaları ilk növbədə multimedia, kommunikativ dil öyrətmə yanaşmalarından, müxtəlif mövcud resurslardan və öyrədici oyunlardan istifadə edir, tələbələrə hədəf dillə tanışlıqlarını mənalı şəkildə artırmağa və beləliklə də, onların bilik və bacarıqlarını artırmağa imkan verir. Dil müəllimləri öz tədris materiallarını əlavə etmək üçün elektron kitablar, audio fayllar, videolar və onlayn məqalələr kimi geniş çeşiddə rəqəmsal resurslardan istifadə edə bilərlər. Bu resurslar artan çeviklik təklif edir və asanlıqla yenilənə bilər ki, bu da onları dil tədrisində dəyərli vasitəyə çevirir. [2, s.132]

3. Sinif otağı real dünya ilə əlaqələndirir.

Videolar, şəkillər və proqram həlləri kimi dil sinfində yeni texnologiya müəllimlərə daha böyük real dünyanı sinifə daxil etmək imkanı verir. Nəzəriyyələrin praktiki təcrübəyə çevrilməsi tələbələri təcrübə etməyə və ikinci dil öyrənməyə dərindən maraqlanmağa sövq edir.

4. Dərsin planlaşdırılması və təşkilində vaxta qənaət edir.

Texnologiya müəllimlərə dərslərini daha səmərəli planlaşdırmağa, təşkil etməyə və paylaşmağa kömək edən vasitələr və platformalar təqdim edir. Öyrənmə idarəetmə sistemləri (ÖİS) və Sanako Connect kimi xüsusi dil tədris platformaları müəllimlərə kurs məzmununu, tapşırıqları və qiymətləndirmələri mərkəzləşdirilmiş onlayn məkanda idarə etməyə imkan verir. [4]

5. Davamlı peşəkar inkişaf (DPİ) imkanlarını genişləndirir.

Onlayn kurslar, təlimat videoları, vebinarlar və elektron konfranslar dil müəllimlərinə təhsillərini davam etdirmək və təhsil texnologiyası və dil tədrisi pedaqogikasına aid yeni bacarıqları inkişaf etdirmək üçün imkanlar yaradır.

Dil öyrənmə texnologiyası tələbələri necə dəstəkləyir?

1. Hədəf dil və mədəni kontekstlərə daha geniş məruzqalma

Texnologiya tələbələrin sinif daxilində və ya xaricində müxtəlif səviyyələrdə doğma danışanlarla və digər dil öyrənənlərlə orijinal qarşılıqlı əlaqə imkanlarını artırır. Təcrübə mükəmməlliyə aparır və texnologiya ilə zəngin dil öyrənmək bunu mümkün edir.

2. Dil kursu zamanı daha yüksək motivasiya və diqqət.

Passiv alıcılardan aktiv öyrənənlərə çevrilən tələbələr dil öyrənmə mövzusunda çox həyəcanlı ola bilər və səsin tanınması və interaktiv multimedia məşqləri və s.

3. Çevik öyrənmə

Şagirdlərə dilə necə yanaşdıqlarını və sinifdən kənarda nə vaxt və harada öyrənəcəklərini seçmək üçün sinif daxilində daha çox sərbəstlik verilir. Öz-özünə qərar vermə və fərdi məsuliyyət götürmə daha dərin və zənginləşdirici linqvistik immersiyanı stimullaşdırır.

4. Adaptiv öyrənmə

Texnologiya şagirdin irəliləyişini izləyə və dərsləri buna uyğun tənzimləyə bilən adaptiv təlim sistemləri yaratmağa imkan verdi. Bu, tələbələrin öz sürətləri ilə öyrənmələrini və təkmilləşdirməyə ehtiyac duyduqları sahələrə fokuslanmasını asanlaşdıraraq, daha uyğunlaşdırılmış öyrənmə təcrübəsini təmin etməyə kömək edir.

Proqram həlləri bütün əsas dil bacarıqlarında səmərəliliyi və effektivliyi necə artırır?

Tələffüz və nitq bacarıqları

Xarici sözləri və cümlələri necə tələffüz etməyi öyrənmək dil öyrənmənin əsas başlanğıc nöqtəsidir. Tələbələr üçün video çarxların göstərilməsi müəyyən səs çıxarmaq üçün onların dilini və çənəsini düzgün şəkildə necə hərəkət etdirəcəklərini göstərən ətraflı təlimatlar verə bilər. Nitqin tanınması texnologiyası tələbələrə ümumi sözləri və ifadələri düzgün tələffüz etməyə kömək edəcək və onlar səsləri düzgün əldə etmək üçün hədəflənmiş rəy və xal alacaqlar. [5, s.18]

Pronounce (tələffüz) xüsusiyyətini nümayiş etdirən Sanako Connect proqramından istifadə müəllimlərə istənilən mətn materialını kopyalayıb yapışdırmağa imkan verir və sistem həmin mətni danışıq səsinə çevirir. Ən müasir dilləri dəstəkləyir. Şagirdlər daha sonra bu doğma canlı nitq modellərini dinləyir və müqayisə üçün öz tələffüzlərini qeyd edirlər. Daha sonra nitq tanıyan texnologiya tələbələrə avtomatik rəy və qiymətləndirmə əsasında təmin edir.

Fərdi təcrübəyə imkan verməklə yanaşı, proqram həlləri şifahi qarşılıqlı əlaqə üçün tələbələri cüt-cüt qruplaşdıra və ünsiyyəti daha məhsuldar edə bilər. Beləliklə, müəllimlər dil dərsini daha effektiv idarə edə və tələbələrə danışıq və aktiv öyrənməyə daha çox vaxt sərf etməyə imkan verə bilər.

Dinləmə bacarıqları

Müəllimlər dinləmə bacarıqlarını təkmilləşdirmək üçün xüsusi olaraq L2 tələbələri üçün nəzərdə tutulmuş müxtəlif dərəcəli dinləmə resurslarını işə sala bilərlər. Bir sıra mövcud veb-saytlar və TED danışıqları və xəbər verilişləri kimi orijinal dinləmə materialları tələbələrin artıq öyrəndikləri və onların maraqları əsasında istifadə edilə bilər. Hər bir şagird eyni mövzunu öyrənsə belə, həqiqətən fərdiləşdirilmiş təcrübə əldə edə bilər.

Oxuma bacarıqları

Oxumağı başa düşmək əsaslara, dilə və yüksək səviyyəli düşünmə bacarıqlarına yiyələnməyi tələb edir. Müəllimlər şagirdlərin oxuduğunu başa düşmələrini addım-addım təkmilləşdirmək üçün söz ehtiyatının artırılmasından tutmuş test hazırlığına qədər mövcud materialları seçə bilərdilər. Proqram həlləri tələbələrin irəliləyişlərini izləyir, bu da onların zəif və güclü tərəfləri barədə

məlumatlılığını artırır və beləliklə, xüsusi bacarıqları artırmaq üçün uyğunlaşdırılmış oxu mətnləri təqdim edir.

Yazı bacarıqları

Dil öyrənmə proqramı tələbələrin fikirlərini beyin fırtınası etmək və vizuallaşdırmaq, onların məlumatlarını ardıcıl şəkildə təşkil etmək və s. üçün fəaliyyət göstərə bilər. Orfoqrafiya yoxlanışı alətləri tələbələrin yazdığı hər şeyi avtomatik olaraq yoxlayır və səhvləri tez aşkar etməyi və düzəltməyi asanlaşdırır. Bloqlar tələbələrə daha ifadəli şəxsi yazılar yaratmağa və ya paylaşılan yazılı işlərin qaralamalarına yenidən baxarkən həmyaşıdları nəzərdən keçirməyə imkan verir. [3]

Hansı dili öyrətdiyinizdən və onu öyrətmək üçün hansı dil öyrətmə yanaşmasından istifadə etməyinizdən asılı olmayaraq, Sanakonun bazarda aparıcı proqram alətləri dil müəllimlərinə dilləri daha səmərəli və müvəffəqiyyətlə öyrətməyə kömək edən çoxlu unikal xüsusiyyətlərə malikdir. Məhz buna görə də dünyanın aparıcı təhsil müəssisələri onlayn və fərdi dərslərin çatdırılmasını dəstəkləmək üçün Sanako-nu üstünlük təşkil edən təchizatçı kimi seçirlər.

İstifadə edilmiş ədəbiyyat

1. Nəzərov A.M. Müasir təlim texnologiyaları. Bakı, 2012
2. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. ARTPİ-nin elmi əsərləri, 2006, 132 s.
3. Alqahtani A. (2019). The use of technology in English language teaching. Frontiers in Education Technology., 2(3). DOI:10.22158/fet.v2n3p168
4. EdStaff (2018, February, 12). What Is a Modern Learning Environment? https://edtechmagazine.com/k12/article/2018/02/what-modern-learning-environment
5. Richards, J. C. (2015). Technology in Language Teaching Today. Indonesia Journal of English Language Teaching, 10(1), 18-32.

MÜASİR İNGİLİS DİLİNDƏ İNKARLIĞIN MÖVCUDLUĞU

Vəfa Tofiq qızı Balakişiyeva
Mingəçevir Dövlət Universiteti
vefa.balakisiyeva.@mdu.edu.az
https://orcid.org/0000-0001-5395-7031

Təsdiqlik-inkarlıq kateqoriyasını araşdırarkən bir çox tədqiqatçılar tərəfindən inkar cümlələrin ilkin təsdiq cümlələrdən alınması fikrinin irəli sürüldüyünə rast gəlinir. Hər bir inkar cümləni formal olaraq təsdiq cümləyə istinad etmək mümkündür. Bir çox dilçilər inkarı təsdiq cümlə formalarının variantı, pozitiv çıxış formanın transformu hesab edirlər [1, 2].

Müxtəlif tipoloji quruluşlu dillərin təsdiqlik-inkarlıq kateqoriyası üzərində aparılan araşdırmalara əsasən demək olar ki, təsdiq cümlələrdən inkar cümlənin alınması prosesi, əsasən, iki istiqamətdə gedir:

1) inkar cümlə ya fakültativ struktur ünsürlərin (inkarlıq konstituentlərinin) təsdiq cümləyə əlavə edilməsi;

2) təsdiq cümlənin müqabil koordinativ distributiv komponentini cümlədən çıxarmaqla [3, 62].

Yuxarıdakı bölgüyə əsasən bir neçə təsdiq və inkar cümləyə baxaq:

l. He has absolutely refused to pay it [4, 2].

He has not absolutely refused to pay it.

2. She both plays the piano and sings.

She neither plays the piano nor sings.

İnkar cümlələrə səthi struktur metodu ilə yanaşılması onların ifadə müxtəlifliyini daha aydın müşahidə etməyə imkan vermir. Bir çox inkar qarşılığı olmayan təsdiq cümlə və təsdiq qarşılığı olmayan inkar cümlə mövcudluğunu ələ alaraq qeyd etmək lazımdır ki, Avropa dillərinin materialı əsasında tətbiq olunun bu tədqiqat metodu (W.Hartung, G.Stickel, R.Lakoff) bütün təsdiq-inkar münasibətlərini əhatə edə bilmir ki, buna da nida cümlələrini, kommunikativ xarakterli frazeoloji birləşmələri misal göstərmək olar:

What sort of a fortress it is! [5, 3].

My dear girl, what is your name, by the way? [6, 14].

Bütün dillərdə olduğu kimi ingilis dilində də səthi strukturda hər bir inkarlıq əlaməti ilə reallaşan cümlənin məzmunu bir çox hallarda It is not true that..., I don't believe... quruluşlarla ifadə olunur.

Herbert was the only child the Lord had vouchsafed to them, and… [4].

It was not true that Herbert was the only child the Lord had vouchsafed to them. Somebody should tell them she could not stand it [7, 4].

I don't believe anybody should tell them she could not stand it.

Verilən misallarda inkarlığın reallaşması baxımından məna və quruluş müntəzəmliyi nəzərə çarpır. Məsələn, təsdiq və inkar cümlələr arasında something-nothing, somewhere-nowhere, somebody-nobody, both and-neither nor, too-either və s. məna çalarlığı özünü göstərir.

Qeyd etmək lazımdır ki, bu cür transformasiyada təsdiq-inkar paralelliyi pozulduqda "not", "nothing", "nobody", "never" və s. kimi ümumiləşdirici neqatorlar ilkin leksik-semantik mənalarını itirərək emosional qüvvətləndiriciyə çevrilirlər [8, 9, 10].

I did not, as Bill had thought, go to the supermarket.

1 did, as Bill had thought, not go to the supermarket.

Misallardan göründüyü kimi "not" inkarlıq konstituenti emosional qüvvətləndirici kimi cümlədə semantik-struktur müntəzəmliyi pozmuşdur. Cümlələr üzərində müşahidələri davam etdirsək belə qənaətə gəlmək olar ki, qeyri-müəyyən əvəzlik və zərflər olan cümlələrdə inkarlıq vasitələrinin reallaşması başqa istiqamətdə gedir. Qeyri-müəyyən əvəzlik və zərfin (inkarlıq konstituentləri) işlənmədiyi cümlələrdə "not" qrammatik ədatının cümlədə çıxışı inkarlığın reallaşması ilə nəticələnir. Məsələn, Amos did not at first answer [11]. They could not strip him of a single one of his qualifier [12].

Ümumiyyətlə, inkarlıqla müəyyənlik və qeyri-müəyyənlik arasındakı semantik-sintaktik əlaqələri nəzərə almadan inkarlıq semantikasının struktur formasını aşkara çıxarmaq qeyri mümkündür. Bu münasibətləri geniş tədqiq edən xüsusi araşdırmaların olmaması hal-hazırda da bir çox sualların cavabsız qalmasına səbəb olmuşdur. Bu haqda S.Abdullayev qeyd edir ki, qeyri-müəyyənlik semantik əlamətli konstituentin işlənmədiyi cümlələrdə əlavə inkarlıq vasitəsinin reallaşması, daha doğrusu, təsdiq cümlələrin bu və ya digər tərkib hissəsinə inkarlıq vasitəsinin əlavə edilməsi dillərin struktur özünəməxsusluğu ilə əlaqədar olaraq müxtəlif şəkillərdə təzahür tapır. Flektiv olan ingilis, alman, fransız, rus və s. dillərdə bu, müvafiq olaraq not, no, nicht, ne kimi qrammatik ədatlarını əlahiddə vəziyyətdə cümləyə daxil edilməsi, iltisaqi dillərdən olan Azərbaycan, özbək, qazax və s. dillərdə distributive uyarlıq daxilində -ma, mə, -m şəkilçilərin felə qoşulması (gəl-mə-miş-di) və ya nominal komponentlərə "deyil" sözünün əlavə edilməsi şəklində formalaşır.

Qeyd etmək lazımdır ki, dillərin inkarlıq xarakteri onların polineqativ və ya mononeqativ olmalarından asılıdırlar. Bəzi tədqiqatçılar yalnış olaraq dünya dillərinin polineqativ və mononeqativ quruluşunu, inkarın reallaşmasım onların inkişaf səviyyəsi ilə əlaqələndirməyə çalışmışlar. O.Jespersen cümlədə vahid inkarlıq əlamətinin kifayət etmədiyini dilin zəifliyi kimi izah edir və onun fikrinə görə çox inkar az inkişaf etmiş dillər üçün səciyyəvidir. Onun fikrindən belə yalnış nəticə çıxarmaq olar ki, Azərbaycan, rus, fransız, ispan, italyan dilləri ingilis və alman

dillərinə nisbətən az inkişaf etmişdir. Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində cümlələrin inkarlaşması üçün bir inkar konstituentin cümlədə çıxışı kifayət edir. Məsələn:

Bu gün sahildə heç kimlə rastlaşmadım,

No one saw him anywhere.

Yuxarıda qeyd etdiyimiz "no one" qeyri-müəyyən əvəzliyi kimi "nothing", 'nowhere", "neither" və s. əvəzlik və zərflər inkarlıqla yanaşı, şəxs və ümumiləşdirmə semalarım da ifadə edir. Halbuki müasir ingilis dilində "not" xalis inkarlıq xüsusiyyətinə malikdir. Onu da qeyd etmək lazımdır ki, inkar cümlələrin yaranması sadəcə struktur amillərin təsirləri ilə məhdudlaşmır, həm də bir sıra köməkçi amillərin təsirini də nəzərə almaq lazımdır. Müasir ingilis dilinin inkarlıq vasitələri sistemində dominant mövqe tutan "not" inkar ədatı müəyyənlik əlamətinə malik olmaqla bərabər inkarlığın reallaşma şərtlərinə görə "no" inkar əvəzliyinin işlənməli olduğu bir sıra hallarda üstünlük qazanır:

With no job, John would be happy.

John would not be happy with any job.

In no clothes, Mary looks attractive.

Mary does not look attractive with any clothes.

Sual cümlələrində bəhs etdiyimiz üstünlük daha çox hiss edilir:

Do you have no question?

Don't you have any question?

Göründüyü kimi, ingilis dilində ismə təhkim olunan "no" inkar əvəzliyi cümlə daxilində heç də həmişə isimlərlə birləşə bilmədiyi və belə vəziyyətlərdə daha dominant "not" ədatı ilə əvəzlənir. Buna görə də "no" inkar əvəzliyi ingilis dilinin inkarlıq sahəsində "not" inkar ədatından sonra ikinci yeri tutur. İstisnasız, olaraq bütün söz növləri ilə əlaqələnən mütəhərrik "not" ədatından fərqli olaraq "no" yalnız isimlərlə birləşir.

Müasir ingilis dilində inkarlıq sahəsində "not" inkar ədatının "no" inkar əvəzliyindən üstünlüyünü onun struktur sərbəstliyi və mütəhərrikliyi ilə izah etmək olar. İnkarlıq reallaşmasının əsas semantik şərtlərini araşdırarkən belə nəticəyə gəlmək olar ki, inkarlaşmanın mərkəzində daha çox müəyyənlik ifadə edən semantika durur. Bunu ingilis dilinin inkarlıq sahəsindəki "not" konstituentinin aparıcı mövqeyi bir daha təsdiq edir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev S. Müasir alman va Azarbaycan dillarinda inkarhq kateqoriyası, Bakı: Maarif-1998
2. W.Somerset Maugham Kite
3. C.S.Forester The Hostage
4. Eric Linklaster Seaklin Trousers
5. Rosamond Lehmann A dream of winter
6. Chomsky N. Negation in English, London, 1957
7. Klima E.S. Negation in English, Prentice Hall,1964
8. Horn L.A. Natural History of Negation. Chicago, 1989
9. John Moore Local boy makes good
10. Frances Towers The little willow

EXPLORING TABOOS IN KAZAKH AND ENGLISH WITHIN GLOBAL LANGUAGE DYNAMICS

[1,2]**Aidana Kashkeyeva,** [1,3]**Bakytgul Kulzhanova**
[1]Al-Farabi Kazakh National University, Kazakhstan
[2]PhD doctoral student
aidanaga@mail.ru
http://orcid.org/0009-0009-3262-2449
[3]candidate of philological sciences, associate professor
bahit777@mail.ru
http://orcid.org/0000-0002-2998-4723

This article analyses the concepts that play a special role in linguistics, and especially in modern Kazakh linguistics – "taboo", "euphemism". These concepts have their own historical era, history of development, they are unique in different social environments, and are used in different ways. Theoretical views on euphemisms and taboos are expressed and summarized by scholars.

Kazakh, deeply rooted in Central Asian heritage, encapsulates a set of linguistic taboos intricately woven into the fabric of its culture. These taboos often revolve around concepts of respect, honor, and hospitality. Respect for elders, reflected in specific linguistic norms, highlights the cultural significance of addressing and interacting with older individuals. Similarly, the importance of hospitality in Kazakh culture is echoed in language, with distinct expressions and etiquettes tied to welcoming guests.

Contrastingly, the English language, a global lingua franca, presents its own array of taboos shaped by diverse cultural influences. Profanity and swearing, for instance, illustrate a universal taboo that varies significantly in acceptability across cultures. Additionally, discussions surrounding sensitive topics like religion, politics, race, and gender carry their own set of linguistic taboos, often demanding a delicate and respectful choice of language [1].

Examining these linguistic taboos in Kazakh and English within the framework of global language dynamics sheds light on the interplay between language, culture, and globalization. In an increasingly interconnected world, where languages converge and cultures intersect, understanding these taboos becomes pivotal for effective cross-cultural communication.

All cultures are familiar with the concept of taboo. But is it really a sacred prohibition, a religious practice, or a way of regulating people's daily lives? In fact, we are talking about three ways of understanding this term: taboo as a historical phenomenon in Polynesia, as religious prohibitions and, finally, taboo in a figurative, everyday sense. A taboo is a prohibition on human activity declared as sacred and forbidden or dangerous or unclean either physically or spiritually. Breaking a taboo may serious consequences, ranging from imprisonment to social ostracism. The idea of a universal taboo is questionable, but some taboos, such as cannibalism, incest, and genocide, occur in the majority of societies. Taboos often remain in effect after the original reason behind them has expired. Study of taboos by anthropologists has led to deeper understanding of the development of different societies, and the similarities among cultures spread throughout the world. Even if the actual taboos are not universal, the concept of prohibiting particular acts is, indicating that humankind as a whole aspires to goodness.

In the XIX century, the classics of anthropology and religious studies believed that there is some universal essence of man (approximately the same among the wild aborigines on the Tonga Islands and the highly intelligent French) and it is best to study it by the simplest and wildest tribes. In Modern times, in principle, there was an attitude associated with the general rationalism of the era that all religious phenomena should have a natural cause, a scientific explanation [3].

The British scientist James Fraser, who himself did not go anywhere and worked with travelers' notes, published the work "The Golden Bough: A Study of Magic and Religion" in 1890. He noticed that the food taboos of the islanders are often associated with family traditions (for example, some ancestor before his death said that he could reincarnate into a banana tree, so his descendants do not eat bananas), and considered that psychological taboos are a product of fantasy.

The aborigines were also interested in Sigmund Freud. It seemed to him that the example of savages could be used to study the formation of the psyche of a modern person. In Totem and Taboo, he describes (also from second sources) various Aboriginal practices. Freud is interested in the relationship between the sexes, and from all the variety of examples he chooses taboos prohibiting the relationship between mother-in-law and son-in-law, father-in-law and son-in-law, daughter-in-law and father-in-law, daughter-in-law and mother-in-law. Some tribes have restrictions on any contacts between mother-in-law and son-in-law: they should not even talk, they should not even see each other. Freud happily concludes from this that such prohibitions are related to the potential attractiveness of the mother-in-law for the son-in-law, since she presumably resembles his wife. To eliminate this incestuous temptation, society creates a regulatory taboo. Another explanation is that a man may be frightened by what his wife will become. It turns out that Freud, on the one hand, has psychologism, and on the other — the introduction, if not of personal experience, then, in any case, of some European cultural codes [4]. Today, not only religious systems, but also everyday superstitions bear the imprint of primitive taboos. Fishermen, shepherds, creative people have professional prohibitions (surely everyone has heard about the actor`s wish to break a leg) and almost all representatives of professions that are fraught with danger to life, for example, athletes: a very thin line separates them from failure, and therefore they hold on to the opportunity to keep this luck. We call this professional superstition — but what is it if not taboo?

Taboos in their primitive sense, which did not allow people to go beyond the social, have not gone away, it`s just that instead of tribes, we now have subcultures and information circles.

Any of the social environments form rules that can or cannot be violated. There are also taboos in the fitness club - if you break them, everyone will look at you askance, because this little environment wants to remain stable. There is no longer a moment of sacredness here and we are talking exclusively about the social dimension.

It`s the same in Oceania, where it all started. In the XVIII century, Cook came to the Polynesians, learned about the taboo and took this knowledge to Europe. Europeans really liked the idea of taboo, they started using this word. And while they were developing anthropology, the colonial system collapsed in Polynesia and the taboo (just like ours) gradually lost its sacred meaning. In Hawaii, the word "kapu" (taboo) is now signed by public monuments, and in French Polynesia, taboo means any private property.

To what extent do the prohibitions existing in different religions fall into the area of taboos? If we follow the ideas that taboo is everything that concerns both sacred and dangerous, requiring certain preparation for contact, then it is quite possible to attribute food prohibitions in Judaism or a specific attitude to cows in India to taboo. A cow is not only something that cannot be eaten and beaten, but it is also a source of cleansing practice. If someone breaks a taboo, it can be cleaned with cow urine - this is the sacred status of a cow in India. This is embedded in a certain technological system: thus, God Krishna, according to Hindu beliefs, was a shepherd at a certain stage of his divine life.

Durkheim identifies another basic type of taboo - prohibitions associated with some kind of contact. For example, food bans - on food prepared in a certain way. Another form of contact taboo is taboo avoidance. You can avoid the same mother-in-law or people with some specific properties [5].

According to the religion of Islam, the commission of prohibited acts is considered as "sin". At the same time, some names considered "negative" by religion, the Kazakh people try not to say

much, and in those cases when they should be used, they are replaced with other words. For example, such words as "Shaitan" (devil), "zhyn" (demon), "albasty" (a demonic creature in the image of a woman, allegedly harming a woman in labor), "ibilis", "peri", "obyr», "kuldirgish", "montany", "abilet", "matru", "suk", "ubbe", "badik", "zheztyrnak", "kargu", "ausyl" (kinds of devil) etc [6].

If we look at the meaning of taboo words, we will find that it covers different areas of Education. They can be conditionally divided into: first of all, it should be noted that the appearance of a person in connection with various relationships;second, the power of the supernatural forces of nature; third, to avoid an increase in the incidence of various diseases.

Taboo is a complex concept that depends on the situation, time and depends on the individual, society and people. Currently, in many languages of the world there are a large number of such words. The results of our analysis show that there are many similar points in Kazakh and English languages in the field of taboos and euphemisms as they are the most important aspects of any language. Taboos and euphemisms contribute a lot to the development of the language culture as languages culture implies the appropriate means of language that suit the aim of the speech situation.

References

1. The vitality of the Kazakh language and language planning, (pp. 11-26) Eleonora Suleimenova. From: Kazakh in Post-Soviet Kazakhstan: Proceedings of the International Symposium on Kazakh, November 30 - December 2, 2011, Giessen, Harrassowitz Verlag (2015).
2. Languages and Ethnic Politics in Central Asia: The Case of Kazakhstan, Chaimun Lee. Journal of International and Area Studies, Vol. 11, No. 1 (June 2004), pp. 101-116.
3. Мистика. Религия. Наука. Классики мирового религиоведения. Антология. М.: «Канон+», 1998.
4. Фрейд З. Тотем и табу. СПб.: Азбука-классика, 2005.
5. Дюркгейм Э. Элементарные формы религиозной жизни. М.: Элементарные формы» 2018.
6. Akhmetov A. taboo and euphemisms in Turkic languages. - Almaty: Science, 1995. 208 p.
7. Элиаде М. История веры и религиозных идей. В 3 т. М., 2002–2003.

DİLÇİLİK FƏLSƏFƏSİ VƏ ONUN DİL FƏLSƏFƏSİNDƏN FƏRQİ

Ulcay Muxtar qızı Qiyasi
Bakı Avrasiya Universiteti
uljaygiyasi@gmail.com
http://orcid.org/0000-0002-2726-0318

Hər bir insanın danışdığı dil cəmiyyətdə bir-biri ilə ünsiyyət qurmağa, fikirləri, fərziyyələri, duyğuları, istəkləri və ifadə edilməli olan bütün məlumatları bölüşməyə imkan verən bilik və bacarıqlar toplusudur. Dilçilik bu bilik sistemlərinin bütün aspektlərini öyrənən elm sahəsidir. Belə bir bilik sistemi necə qurulur, necə əldə edilir, mesajların hasil olması və başa düşülməsində necə istifadə olunur, zamanla necə dəyişir kimi suallara cavab verir. Dilçilik həmçinin bütün insan dillərinin hansı ümumi xüsusiyyətlərə malik olmasını, bir-birindən fərqlərini, fərqlərin sistemlilik prinsipini, yəni fərqlərdə nümunələr özünü necə göstərməsi yollarını öyrənir (2, s.4). Uşaqlar qısa müddətdə dil haqqında bu qədər dolğun biliyə necə yiyələnirlər? Dillərin zamanla dəyişə biləcəyi

yollar hansılardır və dillərin dəyişməsi ilə bağlı məhdudiyyətlər varmı? Dili əmələ gətirən və anladığımız zaman meydana çıxan idrak proseslərinin təbiəti nədir? [3, s.10]

Dilçilik insan şüurunu öyrənən geniş koqnitiv elm sahəsinin bir hissəsidir. Müasir dilçilikdə koqnitiv (zehni) qrammatikaya xüsusi yer verilir: bir dildə danışanların hamısının şüurunda olan və bir-birini başa düşməyə imkan verən system kimi araşdırılır. Hər bir dilin mental qrammatikasına fonetika, fonologiya, morfologiya, sintaksis və semantika daxildir [3, s.14].

Dilçiliyin dilin quruluşu ilə məşğul olan hissəsi bir sıra alt sahələrə bölünür:

- Fonetika - nitq səslərinin fiziki aspektlərində öyrənilməsi sahəsidir.
- Fonologiya - nitq səslərinin idrak aspektlərində öyrənilməsidir.
- Morfologiya - sözlərin əmələ gəlməsini öyrənir.
- Sintaksis - cümlələrin formalaşması haqqında biliklərdən ibarətdir.
- Semantika - mənanın öyrənilməsidir.
- Praqmatika - dil istifadəsinin tətqiqi ilə bağlı sahədir [2, s.11].

Dil strukturundan başqa, dilə dair digər perspektivlər ixtisaslaşdırılmış və ya fənlərarası bölmələrdə təmsil olunur:

- Tarixi dilçilik;
- Sosiolinqvistika;
- Psixolinqvistika
- Etnolinqvistika (və ya antropoloji dilçilik);
- Dialektologiya;
- Hesablama dilçiliyi;
- Neyrolinqvistika. [7]

Apardığımız aradırmanın məqsədi dilçilik fəlsəfəsi və dil fəlsəfəsi arasında olan fərqi izah etmək, onların özünəməxsus məsələlərini işıqlandırmaqdan ibarətdir. Araşdırmada mövzu ilə bağlı məsələ geniş araşdırılaraq həm ölkə, həm də xarici elmi ədəbiyyatda öz əksinin tapan fikirlərə aydınlıq gətirilir.

İlkin olaraq dilçilik fəlsəfəsinin mahiyyətinin izahına başlamaq istərdik, çünki dilçilik fəlsəfəsi dilçiliyin daxilində öyrənilir. Belə ki, dilçilik fəlsəfəsi dilçiliyə tətbiq edilən elm fəlsəfəsidir. Bu, onu ənənəvi olaraq məna və istinad məsələlərinə aid olan dil fəlsəfəsindən kəskin şəkildə fərqləndirir [1, s.103]. Digər xüsusi elmlərin fəlsəfəsində olduğu kimi, metodologiya və izahat kimi məsələlərlə bağlı ümumi mövzular və daha spesifik fəlsəfi məsələlər gündəmdə olur. Dilçilik fəlsəfəsinin ümumi mövzularına aşağıdakılar daxildir [7]:

- Mövzu nədir,
- Nəzəri məqsədlər nələrdir,
- Nəzəriyyələr hansı formada olmalıdır,
- Nə məlumat sayılır.

Bu baxımdan müasir mövzuya çevrilən dil fəlsəfəsi dilçilik fəlsəfəsindən kəskin surətdə fərqlənir. Elmi ədəbiyyatda bu mövzuda müəyyən fikirlər irəli sürülsə də, dilçi-filosof C. Katz mövzunin izahına giriş vermişdir və onları bir-birindən ayırmışdır. [4, s.4]

Dil fəlsəfəsi ilə dilçilik fəlsəfəsi arasında sərhəd xəttinə düşən mövzular vardır: dilin reallıqla əlaqəsi, insan davranışının dildə mahiyyəti, dilin dünyanı təsvir etməsi, linqvistik nisbilik (təfəkkür dilə təsir edir) (Sapir-Uorf nəzəriyyəsi), danışıq aktları (performativ – nəsə demək nəsə etməkdir və konstativlər, illokusiya aktları, lokusiya aktları) (Ostin), yəni insan davranışının forması, məntiqi pozitivizm (Q. Freqe) və s. Dilçilik fəlsəfəsi dilçilik sahəsində aparılan araşdırmaların tətbiqi metodudur [6, s.23], yəni metodlar sistemidir. Bu araşdırmanı nəzəri təhlil də adlandırmaq olar.

Dilçilik fəlsəfəsi və ya linqvistik fəlsəfə fəlsəfi problemlərin həllində istifadə olunan metod və texnikanı adlandırmaq üçün bir termindir. Dil fəlsəfəsi metodun adı deyil, o, fəlsəfənin sahəsi kimi bir mövzudur (subject matter). Məsələn, dilçi /bilmək/, /düşünmək/, /zənn etmək/, /hesab etmək/ kimi sözlərin adi işlənmə yollarını izah edir, skeptisizmlə bağlı problemləri həll etməyi nəzərdə

tutur. Lakin dil fəlsəfəsi fəlsəfənin daxilində mövzunun adıdır və burada dilin dünya ilə əlaqəsi kimi problemlər öz əksini tapır: mənanın mahiyyəti, gerçəklik, istinad (əlaqə), məntiqi zəruriyyət və s.

Dilçilik fəlsəfəsi ilə bağlı araşdırmalar göstərir ki, bu sahədə müəyyən fikirlər irəli sürülüb, lakin müasir elmi ədəbiyyatda dil fəlsəfəsinin təhlilinə daha çox yer ayrılır. Dil fəlsəfəsi və dilçilik fəlsəfəsinin mahiyyəti əslində bir-birindən fərqli yollarla təhlil edilir. [4, s.6] Dil fəlsəfəsi ünsiyyət xarakteri daşıyan və dünyanı, gerçəkliyi tanıdan və özündə əks etdirən, düzü səhvdən ayırmağa kömək edən dilə fəlsəfi baxışları öyrənir [5, s.33]. Dil fəlsəfəsinin digər elm sahələri ilə bağlı olmasına baxmayaraq onun mövqeyi danışıq aktları, məntiqi düşüncə, linqvistik nisbilik və bu kimi fəlsəfi fikirləri əhatə edir. Dil fəlsəfəsi ilə bağlı fikirlər əsasən C.Ostin, C.Syörl, C.Katz, Q.Freqe, B.Uorf, L.Vitgenştayn, E.Sapir, N.Xomskiy, U.Kvayn və digər dilçi-filosoflara aiddir. Dilçilik fəlsəfəsi ilə bağlı araşdırmalar isə C.Syörl, C.Katz, R.Steyntonun fikirlərinə əsaslanır. Belə ki, dilçilik fəlsəfəsi dilçiliyin digər elm sahələrində yeri və rolu haqqında təlimdir, məsələn, dilçilik və psixologiya, dilçilik və riyaziyyat, dilçilik və fizika və s.

Dilçilik və psixologiya sahələrinin birgə təhlil etdiyi ümumi tədqiqatlar olan biheyviarizm kimi mövzular dilçilik fəlsəfəsi kimi təhlil edilir. Neyrolinqvistika, psixolinqvistika, ekolinqvistika və bu kimi linqvistik problemlər dilçilik fəlsəfəsinin obyektidir.

Neyrolinqvistika dilin beyində necə təmsil olunduğunu öyrənir: yəni beynimizin danışdığımız, anladığımız, oxuduğumuz və yazdığımız dil (və ya dillər) haqqında biliklərimizi necə və harada saxladığını, əldə etdiyimiz zaman beynimizdə baş verənləri öyrənir. Neyrolinqvistlər beynin insan dilini necə mümkün etməsini araşdırır. Ünsiyyət sisteminin heyvanlardan fərqi, dildən musiqi və ya riyaziyyat kimi digər idrak sistemləri ilə eyni növ sinir hesablamalarında istifadə edilməsi, öyrənilən sözlərin beynin hansı hissəsində yerləşməsi, ehtiyac duyulduğunda bir sözün necə ağla gəlməsi kimi məsələlər neyrolinqvistikada təhlil edilir. Ekolinqvistika dilin insanların, digər canlı aləmin və fiziki mühitin həyatı təmin edən qarşılıqlı əlaqəsində rolunu araşdırır. Burada məqsəd insanları təkcə cəmiyyətin bir hissəsi kimi deyil, həm də həyatın asılı olduğu daha böyük ekosistemlərin bir hissəsi kimi görən linqvistik nəzəriyyələri inkişaf etdirməkdir. Məsələn, ekolinqvistikada ən məşhur nümunələrdən biri də eskimosların /qar/ üçün istifadə etdiyi çoxlu sözlərin olması fikridir. Bu iddia müzakirə oluna və həddən artıq sadələşdirilə bilsə də, yenə də dil və mühitin bir-birinə necə təsir edə biləcəyini göstərir.

Yuxarıda qeyd edilən linqvistik təhlillərdən fərqli olaraq dil fəlsəfəsinə Q.Freqenin məntiqi pozitivizmindəki *a=b* düsturu kimi məsələlər daxildir, çünki, burada a-nın b ilə bərabərliyi, yəni a-nın b-yə necə bərabər olması araşdırırlır. Həmin fikrin həqiqəti necə təsvir etməsi məsələləri təhlil edilir. Həmçinin, danışıq aktları nəzəriyyəsi dil fəlsəfəsində geniş mövzu mənbəyidir. Burada lokusiya, illokusiya və perlokusiya kimi aktlar təhlil edilir. Lokusiya aktı deyimin yerinə yetirilməsini bildirir, yəni /çöldə yağış yağır/ deyimi, bu ifadənin özü lokasiya aktı adlanır. Sadə izahla desək, lokasiya aktı nəyisə demə aktıdır, sözün hərfi mənasıdır. İllokusiya aktı dedikdə danışanın iddia etməsi, təklif və ya tələb etməsi, söz və ya vəd verməsindən ibarət olan akt nəzərdə tutulur, məsələn, /tələb edirəm/, söz veririəm/. Perlokusiya aktı müraciət olunan şəxsə təsir göstərməklə icra edilən danışıq aktıdır, məsələn, /inandırıram ki/, /əmin olun ki/. Danışıq aktları nəzəriyyəsi filosof J. L. Ostin tərəfindən dilçiliyə daxil edilmişdir. Onun fikrincə, lokusiya deyilən və nəzərdə tutulan fikirdir, illokusiya edilən aktdır və perlokusiya nəticədə baş verəndir.

Beləliklə, apardığımız araşdırma göstərir ki, dilçilik fəlsəfəsi bir elm kimi dilçiliyin mahiyyəti haqqında təlimdir, o, dil təlimi ilə bağlı nəzəri biliklər toplusudur. Dilçilik fəlsəfəsi dilçilik elminin digər elmlər arasında yeri və rolu haqqında təlimdir. Dil fəlsəfəsi isə fəlsəfənin daxilində bir mövzudur və dilin gerçəklik, dünya, təfəkkürlə əlaqəsi ilə bağlı problemləri təhlil edir.

İstifadə edilmiş ədəbiyyat

1. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. Bakı: Təhsil NPL, - 2005. - 344 s.

2. An Introduction to Language and Linguistics. Edited by Ralph Fasold and Jeff Connor-Linton. Printed in Spain by Grafos S.A. Arte Sobre Papael, BarcelonaCambridge University Press-2013. ISBN 978-0-521-84768-1 Hardback. ISBN 978-0-521-61235-7 Paperback.

3. Catherine, Anderson, Hamilton, Mcmaster University Hamilton Ontario Bronwyn Bjorkman, Kingston, Ontario Derek Denis, Mississauga, Ontario – 2022. 456 p.

4. Jerrold J. Katz. The Philosophy of Linguistics. Harper & Row, publishers. New York, 1966. No of pages 326. Pp. 2, 3, 4, 6, 8, 12, 13, 15, 94, 98, 225

5. Soames, Scott. Philosophy of Language. Princeton Foundations of Contemporary Philosophy. Prınceton Unıversıty Press. Prınceton and Oxford – 2020. p.201. P. 33

6. Пономарев, А.Б. П56 Методология научных исследований: учеб. пособие / А.Б.Пономарев, Э.А.Пикулева. – Пермь: Изд-во Перм. нац. исслед. политехн. ун-та, 2014. – 186 с. ISBN 978-5-398-01216-3

7. https://plato.stanford.edu/entries/linguistics/

DÜNYANIN DİL MƏNZƏRƏSİNİN MƏDƏNİYYƏTDƏ İFADƏSİ

Günel Elxan qızı İsmayılova
Bakı Slavyan Universiteti
filoloq.ismaylova2017@yandex.ru
https://orcid.org/0009-0006-5555-5283

Dil ünsiyyət vasitəsidir. Dilin ictimai ünsiyyət vasitəsidir.İctimai ünsiyyət vasitəsi olan dil ictimai əmək bölgüsündə yaranmışdır. İnsanın bütün fəalliyyət dairəsini əhatə edən dil insanın sosial tələbatını və onun digər insan toplumu ilə əlaqəsini möhkəmləndirməkdə əvəzsiz rol oynayır. Dil heç bir vaxt irsi olmayıb. Dil irsi olmadığı üçün balaca bir uşaq öz əcdadlarının dilində dil açmaya bilər.Bir uşaq öz millətinin deyil digər millətin içində dünyaya göz açırsa və o evdə onun doğma dilində danışa bilən dil daşıyıcı yoxdursa, o dünyaya göz açdığı məkanda həmin yerli toplumun dilində danışmağa başlayacaq. Dil həm də sosial mühitdə ən vacib ünsiyyət vasitəsidir. Dil həm sosialdır. çünki sosial mühitə xidmət göstərən dil sosiallaşır. [2, s.11-12]

Dil birbaşa mədəniyyətlə, adət-ənənə, incəsənət, ədəbiyyat, psixolinqvistika, etnokulturologiya, sosial dilçilik, koqnitiv dilçilik və s. elm sahələri ilə bağlıdır. Hər bir dil dünyanı özünəməxsus şəkildə görür və özünəməxsus şəkildə konseptuallaşdırır. Hər bir dilin dünyanı dərk etməsi üçün xüsusi mənzərəsi və linqvistik şəxsiyyəti var. Və bu insanın dünya haqqında təsəvvürü və dərki özünü dildə əks etdirir.İnsanın dünya haqqında təsəvvürü onun dil mənzərəsinə bağlıdır.

Dünya mənzərəsi dil daşıyıcısının ulu əcdadının milli-etnik və mental təsəvvürünün məcmusudur. Dilçilik və kulturologiya üçün önəm kəsb edən dünyanın dil mənzərəsi ictimai şüurda gerçəklik haqqında təsəvvür yaradan biliklərin məcmusudur. Dünyanın dil mənzərəsi hər bir fərdin ünsiyyət qurduğu aləmin onun təsəvvüründə formalaşdırdığı bir modeldir. Dil daşıyıcısının dünyagörüşü onun dünya dil mənzərəsinə görə formalaşır. [4, s.16-17]

İnsan haqqında biliklərinin formalaşmasının və mövcudluğunun ən mühim yolu dildir. Fəaliyyət prosesində obyektiv dünyanı əks etdirən idrak özünü dildə sözlə ifadə edir.İnsan özünü, dünyanı, ətraf aləmi idrakın sayəsində dərk edir.Nəticədə idrakın dünya haqqında yaratdığı təsəvvür dünya mənzərəsinin əksi dildə baş verir.Beləliklə dünyanın linqvistik mənzərəsi onun dünya dil mənzərəsinin yaratdığı biliklərin məcmusudur.

XIX əsrin görməkli dilçiləri (J.Qrimn, R.Rask, V.F.Humbolt, A.A.Potebnya) dil və mədəniyyətin qarşılıqlı əlaqəsini öz tədqiqatlarında qeyd edirdilər.V.F.Humbolt qeyd edir: "Dil xalqın ruhudur. Xalqın ruhu onun dilidir." Dil həm də mədəniyyət faktorudur.Humbolta görə maddi və

mənəvi mədəniyyət dildə əks olunur. Hər hansı mədəniyyət milli olduğu üçün onun milli xarakteri dildə xüsusi ifadə olunur. Xalqların dünya görüşü, onun tarixi və mədəniyyətinin əsasını təşkil edən dil dünya mənzərəsini özündə cəmləşdirir.

Tədqiqatçıların fikrinə görə, dil bizim ulu əcdadımızın bizə miras qoyduğu mədəniyyət faktorudur. Dil vasitəsi ilə biz mədəniyyəti assimilyasiya edirik. Bütün mədəni hadisələrin ən mühimi olan dil bizim mədəniyyətin, elmin, ədəbiyyatın, incəsənətin, dinin mahiyyətini dərk etməkdə əsas rol oynayır. Mədəniyyətdə baş verən hadisələr insan beynində dil faktı əsasında kodlaşır. Dünyanın təsviri və ya linqvistik təsviri insanın dünya haqqında təsəvvürlərinə əsaslanır. Xarici aləmin hadisə və obyektləri insan şüurunda daxili görüntü formasında təmsil olunur. Dünyanın obrazlar sistemi yəni mənzərəsi dilin əsas linqvistik qatını əks etdirir. [3.s.45-49]

Bəzi tədqiqatçıların fikrincə insanı əhatə edən dünya üç formaya malikdir.

1) Dünyanın gerçək mənzərəsi;

2) Dünyanın mədəni mənzərəsi;

3) Dünyanın dil mənzərəsi.

Dünyanın dil mənzərəsi dünyanın mədəni mənzərəsi ilə gerçəkliyin əks olunmasıdır. Dünyanın gerçək mənzərəsi ana dili vasitəsiylə qurulur. Dünyanın mədəni mənzərəsi xarici dilin öyrənilməsi zamanı meydana çıxır. Bir dilin dil mənzərəsi o dilin daşıyıcısının mədəniyyətini, düşüncə tərzini özündə əks etdirir. Məsələn, papaq, yaylıq, qadın, namus, qeyrət, əxlaq və s. [1, s.158-159]

Müxtəlif dillərdə papaq insanın baş nahiyəsini isti və ya soyuqdan qorumaq üçün istifadə edilən üst geyimidir. Məsələn, "Hava soyuqdur, papağını geyinməyi unutma." Burada papaq ifadəsi geyim forması olaraq nəzərdən keçrilir. Bütün xalqların dillərində eyni mənanı ifadə etsədə, Azərbaycan milli mental təfəkküründə papaq kişinin namusu, qeyrəti və şərəfidir. Məsələn, "Filankəs nəslinin papağını yerə soxdu." Bu ifadə papağın baş örtüyü deyil, namusu və qeyrəti mənasında işlədilir.Yəni dünyanın dil mənzərəsi müxtəlif xalqların mədəniyyətini milli koloritini və mental düşüncəsini əks etdirir. Bu ifadəni yalnız Azərbaycan milli mental təfəkkürünün sahibi başa düşə bilər. Rus və ya ingilisin təfəkküründə bu ifadə yoxdur. "Yaylıq" sözünün ifadə etdiyi məna bütün xalqların təfəkküründə qadın baş örtüyüdür. Lakin Azərbaycan milli mədəniyyətinin və mentalitetinin əsasını təşkil edən yaylıq qadının namusu, iffəti və ismətidir. Qədim dövrlərdə türk dünyasında qadınlar kişi xeylağının yanında baş örtüyü yaylıq və ya kəlağayı örtərdilər. Hətta bir çox qadınlar isə yaşmanırdılar. Əgər iki nəfər bir-biri ilə qılıncla döyüşürdüsə, ora qadın ana gələrək yaylığını ortaya atardısa döyüş dərhal dayanardı. Bu milli mədəniyyət bir çox Qafqaz xalqlarının mental təfəkküründə mövcud idi. Qadın konseptini təhlil edərkən müxtəlif xalqların dil mənzərəsində fərqli məqamlar ortaya çıxır. Qadın konsepti müxtəlif xalqların dil mənzərəsində kişi cinsinin əksi kimi başa düşülür. Qadın həm gözəllik etalonu həm də nəslin artırılmasında iştirak edən insandır. Məsələn, "qadın" ifadəsi fars dilində "arvad" ifadəsi hesab edilir. Lakin Türk toplumunda qadın konsepti dedikdə ilk olaraq göz önündə ana, bacı obrazı canlanır. Qadın ilk olaraq, bir anadır və bacıdır. Digər mənada qadın dedikdə namus, qeyrət mənasını ifadə edir. Bütün Şərq müsəlman ölkələrində müharibələr zamanı qadının əsir düşməsi o toplumun namusunun, qeyrətinin əldən getməsi idi. Ona görə Ərəb xilafətində ərəb qəbilələri qız uşaqları doğulan kimi onu diri-diri torpağa basdırırdılar. Belə qənatə gəlirdilər ki, qız uşağı döyüşlərdə hərbi qənimət olaraq əsir düşərdisə o qəbilənin namusunun və qeyrətinin əldən getməsi idi. Bu düşüncə qadın haqqında təsəvvürün çox cılız və cahil olduğunun göstərici idi. Onlardan fərqli olaraq, Türk xalqlarının həyatında qadın müqəddəs hesab edilirdi. Qadın bir anadır. Qadın bir həyat yoldaşıdır. Qadın həm də gözəllik simvoludur. Qadın namusun və qeyrətin ifadəsidir. Şərq mental təfəkkür ilə Qərb mental təfəkkürü arasında çox böyük fərqliliklər mövcudur. Ona görə də dünyanın vahid dil mənzərəsinin hər yerdə eyni olduğu qənaətinə gəlmək yalnışdır.

Müxtəlif xalqların mədəniyyətində müxtəlif milli-etnik və mental dəyərlər var ki, müxtəlif mənaları ifadə edir. Dil hər millətin ulu əcdadlarından onlara miras qalan milli-mental təfəkkürü və

mədəniyyəti özündə daşıyır. Dillləri öyrənərkən biz müxtəlif xalqların müxtəlif dil mənzərələri ilə tanış oluruq. Dünyanın dil mənzəri müxtəlif ərazilərdə yaşayan xalqların dünya haqqında təsəvvürlərinin kiçik bir mənzərəsidir. Hər bir fərd və ya toplum ətrafı, özünü, dünyanı dil vasitəsi ilə dərk edir və öyrənir. Dil hər zaman insanlar arasında ən vacib ünsiyyət vasitəsi olaraq qalacaq. Dil mədəniyyətin və dünyanın dərk edilməsi mənzərəsinin açarıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Filologiya məsələləri jurnalı, № 6. Bakı , Elm və təhsil, 2020, s.157-159
2. Qurbanov A. Ümumi dilçilik. III cild (3 cilddə). Bakı, "AMEA" , 2019, s.512
3. Маслова В. А. Лингвокультурология: Учеб. пособие для студ. высш. учеб, заведений. -- М.: Изд-ский центр «Академия», 2001. с. 208
4. Vəliyeva S. Dini komponentli frazeologizmlərdə şaquli kontekst.Magistr dissertasiyası, İxtisas: HSM 060201- Dilşünaslıq - Müqayisəli dilçilik. Bakı. 2018, s.45

AZƏRBAYCAN DİLİNDƏ SİNTAQM

Aybəniz Natiq qızı Əliyeva
Mingəçevir Turizm Kolleci
aybealiyeva@gmail.com
https://orcid.org/ 0000-0003-2736-2426

Sintaqm haqqında ilk tədqiqatlar Cenevrə və Praqa dilçilik məktəblərində işlənib hazırlanmışdır. Cenevrə dilçilərinin dediyinə görə, sintaqm kateqoriyası dəqiq qrammatik məfhum deyil, sintaqm morfem, söz və ya söz birləşməsindən əmələ gələ bilər.

F.Aslanov "Müasir alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimental-fonetik tədqiqi" adlı tədqiqatında qeyd edir ki, müasir Azərbaycan dilində hələ də öz həllini tapmamış və mübahisələrə səbəb olan problemlərdən biri də canlı ünsiyyət prosesində nitq aktının bölünməsi nəticəsində yaranan sintaqm problemidir. Qısa araşdırma, inkişaf tarixinə malik olan sintaqm problemi dilçiliyin yeni sahəsi kimi elmə məlum olduqdan sonra görkəmli dilçi alimlərin diqqətini cəlb etmişdir. Sintaqm terminini dilçiliyə ilk dəfə kimin daxil etməsi məsələsi də mübahisəlidir. Bununla bağlı iki məşhur dilçinin adı çəkilir.

İ.A.Boduen de Kurtene sintaqmı bölünməz sintaktik vahid adlandırır və onların bir-birindən qrafik intervallarla ayrıldığını vurğulayır. O, sintaqmı söz birləşməsi, bəzən isə cümlənin ayrıca üzvü olaraq qəbul edir. Onun bu fikri müasir sintaqmlar nəzəriyyəsinə uyğun gəlmir, çünki onun fikrincə, sintaqm vahidin morfoloji elementi olan, söz və ya cümlə kimi nisbətən mürəkkəb morfoloji tamı bildirən sözdür.

İ.A.Boduen de Kurtenedən fərqli olaraq, Ferdinand de Sössür sintaqma başqa nöqteyi-nəzərdən yanaşır. Onun fikrincə, sintaqm anlayışı təkcə sözə deyil, həm də ifadəyə (söz birləşməsi) və ya istənilən uzunluqda olan sadə və ya mürəkkəb sintaktik vahidə aid edilə bilər. Onun nəzəriyyəsinə görə, sintaqm ardıcıl işlənmiş vahidlərin daxili bağlı ardıcıllığı kimi qəbul edilir. Buna görə də hər bir sintaqmın əsasını təyin edənlə təyin olunan arasındakı əlaqə təşkil edir. Sintaqm haqqında sonrakı bütün təsəvvürlər bu mənbələrdən qidalansa da, problemlə bağlı bu ideyalara dəyişiklik və yeniliklər daxil olmuş və nəticədə illər keçdikcə sintaqm ilkin variant-larından uzaqlaşaraq yeni forma və məzmun kəsb etmişdir.

Sintaqm nəzəriyyələri içərisində L.V.Şerbanın işləyib hazırladığı sintaqmlar nəzəriyyəsi elmi mahiyyəti və reallığı ifadə etmək bacarığı ilə daha çox diqqəti cəlb edir. Bu nəzəriyyəni inkişaf

etdirərkən L.V.Şerba ilk olaraq sintaqmın dil vahidi deyil, cümlələrin özündən daha kiçik fikri ifadə edən və intonasiya baxımından bölünməz bir bütöv olan nitq vahidi olduğunu irəli sürdü.

Dildə işlənən hər bir sözün meydana çıxması müəyyən tələbatın nəticəsi olduğu kimi, danışıq aktında nitq axınının təşkili zamanı formalaşan sintaqmlar da danışanın öz fikrini aydın ifadə etməsi,dinləyicinin isə göndərilən məlumatı məqsədə uyğun qəbul edə bilməsi ehtiyacından irəli gəlir.

Qəzənfər Kazımov yazır ki, bəzən söz birləşmələri sintaqmlarla qarışdırılır. Dilçilikdə sintaqm anlayışı müxtəlif cür izah olunur. Sintaqmın L.V.Şerba tərəfindən izahı fonetik sintaqmlara aiddir. Bu təlimə görə, sintaqmlar semantik bütövlüyə malik olan ritmik nitq bölümlərindən ibarət fonetik vahidlərdir. Sintaktik sintaqmlar haqqında təlim fərqli idi, onu F.de Sössür, Ş.Balli, V.V.Vinoqradov, F.Mikuş və başqaları hazırlamışdır.

Sintaqm (yunanca "*syntagma*" sözündəndir, "*birləşmə, qurma*" mənasını verir) cümlədə sintaktik əlaqə ilə bağlanan və vahid bütövlükdə fəaliyyət göstərən söz birləşmələrindən və söz qruplarından ibarətdir. Sintaqmlar əlaqə növünə görə fərqlənir və predikativ sintaqm, atributiv sintaqm, obyektiv sintaqm, relyativ sintaqm kimi növlərə bölünür. Adətən, binary (ikili) xarakterdə, yəni ikiüzvlü olur. Sintaqmlar söz birləşmələrinə bənzəsə də, həcminə və bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir.

Söz birləşmələri sintaktik əlaqənin növünə və əsas komponentin kateqoriya xüsusiyyətlərinə görə, sintaqmalar isə komponentlər arasındakı sintaktik əlaqələrə və əlaqə növlərinə görə təhlil edilir.

Söz birləşmələrindən fərqli olaraq, sintaqmların komponentləri mənasını dəyişmədən başqa sözlərlə əvəz edilə bilər. Bəzi dilçilər qeyd edirlər ki, söz birləşmələri statik keyfiyyətə malik olan dil faktıdır, sintaqmlar isə nitq faktı olmaqla dinamikdir: söz birləşməsi iki semantik vahidin statik-qrammatik birləşməsindən ibarət birləşmədir, sintaqm isə nitqdə və ya cümlədə aktiv funksiya yerinə yetirən söz qrupudur. Söz birləşmələrindən fərqli olaraq sintaqmlarda da predikativ əlaqə var.

Ş.Balliyə görə, ola bilsin ki, cümlədə predikat (mübtəda) olmasın, lakin subyekt-predikat əlaqəsinin olması zəruridir. Subyektlə predikatın münasibəti təyinlə təyinlənənin, obyektlə təsirli felin münasibətinə bənzəyir.

Sintaqmın xarakterik xüsusiyyətləri aşağıdakılardır:

- sintaqm ikili-binar xarakter daşıyır (ikiüzvlü) və mütləq iki üzvü özündə birləşdirir;
- sintaqmın bu və ya digər üzvü başqa sintaqma aid ola bilər;
- sintaqmlar komponentləri arasında subordinasiya (tabelilik) əlaqəsinin olması ilə xarakterizə olunur.

"Gənc həkim xəstəni diqqətlə müayinə etdi" cümləsində bu sintaqmlar var: gənc həkim, həkim müayinə etdi, xəstəni müayinə etdi, diqqətlə müayinə etdi. Onlardan birincisi - atributiv münasibət, ikincisi - predikativ münasibət, üçüncüsü - obyekt münasibəti, dördüncüsü - relyativ münasibət əsasında qurulan sintaqmlardır. Gördüyünüz kimi, bütün nümunədəki bütünaqmlar binardır və tabeçilik əsasında qurulmuşdur; "Həkim" sözü iki sintaqm, "müayinə etdi" sözü isə üç sintaqma daxildir. Sintaqmlar frazalardan həcminə görə fərqlənir. Bu sintaqmlardan yalnız biri (gənc həkim) sintaktik birləşmələrlə üst-üstə düşür. Sintaqmlar söz birləşmələri çərçivəsindən kənara çıxır, çünki onlar predikativ birləşmələri ehtiva edir və ikiüzvlüdür.

Söz birləşmələri və sintaqmlar arasında aşağıdakı fərqləri ayırd etmək olar:

1. Sintaqmlar şifahi nitqə aiddir və fonetik ritmlə həyata keçirilir. Söz birləşmələri heç bir ritmlə əlaqələndirilmir və onlar üçün yazılı və şifahi nitqin heç bir məhdudiyyəti yoxdur.

2. Əgər söz birləşmələrinin arasına söz daxil etmək olarsa, sintaqmlar arasına bir söz də daxil edilə bilməz.

3. Söz birləşməsi yaratmaq üçün ən azı iki söz olmalıdır. Sintaqmlar bir sözdən ibarət ola bilər.

4. Söz birləşmələrinin daimi qrammatik modelləri olsa da, sintaqmların daimi forma modeli olmur.

/Şagird kitab oxuyur/ cümləsi bir sintaqm kimi tələffüz edildiyi halda iki söz birləşməsinin- /şagird oxuyur/ və /kitab oxuyur/ sintezini təmsil edir. Deməli, qeyd olunan nümunədə sintaqm öz strukturuna görə söz birləşməsindən böyükdür [1, s.15].

Sintaqmların müəyyənləşməsində ritm və ritmin düzgün ifadəsi böyük əhəmiyyət kəsb edir. Çünki ritm pozulduqda fikir aydın olmur, cümlə qrammatik cəhətdən düzgün üzvlənmir. Məsələn, "Sevil tələsik otaqdan çıxıb qaça-qaça həyətə düşdü." Bu cümləni aşağıdakı ritmdə tələffüz etsək: Sevil tələsik / otaqdan / çıxıb qaça / qaça həyətə / düşdü. Göründüyü kimi nizamsız ritmlənən cümlə sintaktik cəhətdən də düzgün deyil.

Y.Seyidov söz birləşməsini və sintaqmı müqayisə etmişdir. O göstərir ki, sintaqm məsələsi müstəqil mövzu kimi çox qədim tarixə malik deyildir. Hətta bu haqda, nə ümumi dilçilik, nə də ayrı-ayrı dillərin materialları əsasında müstəqil tədqiqat işi yazılmamışdır.

Sintaqmların söz birləşmələrindən fərqli olduğunu izah edən Y.Seyidov yazır ki, biz sintaqmanı belə başa düşürük: sintaqma cümlə (nitq) daxilində bir-birini izləyən və bir nəfəslə ifadə olunan sözlər qrupudur (bəzən bir sözlə olur). Sintaqmalar xüsusi vurğuya malikdir və bir-birindən fasilə ilə ayrılır.

Həm Y.Seyidov, həm də Q.Kazımov rus dilçisi L.Şerbanın sintaqm haqqında fikirlərini qismən qəbul edirlər [3, 2].

İstifadə edilmiş ədəbiyyat

1. Aslanov F.Ə. Müasir Alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimental-fonetik tədqiqi. Bakı, 2009. 40 s.

2. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, 2007. 494 s.

3. SeyidovY.M. Azərbaycan dilində söz birləşmələri. Bakı Universiteti nəşriyyatı, Bakı, 1992. 408 s.

MÜASİR İNGİLİS DİLİNİN SOSİAL DİALEKTLƏRİNDƏ İSTİFADƏ EDİLƏN SLENQLƏR

Lalə Mədəd qızı Məmmədova
Mingəçevir Turizm Kolleci
lalamammadova@mail.ru
https://orcid.org/0009-0008-1778-9198

Giriş

Danışıq dilində qeyri-formal, bir-birini çox yaxşı tanıyan, eyni sosial qrupa mənsub olan insanlar arasında müəyyən sözlərdən istifadə olunur. Bu sözlərə "slenq" sözlər deyilir. Yaxın münasibətdə olmayan insanlarla ünsiyyət zamanı bu cür sözlərin işlədilməsi insanlar tərəfindən təhqir kimi qarşılana bilər. Slenq qeyri-formal dildir. Bir qayda olaraq, slenq sözlər ən çox yazıda deyil, danışıqda işlədilir. Slenq cəmiyyətin müxtəlif təbəqələri tərəfindən istifadə oluna bilər.

"Slenq" – dilin, müvafiq olaraq da nitqin ayrılmaz tərkib hissəsi olub, leksikologiyanın əsas, ən aktual və mübahisəli problemlərindən biridir. Slenq, leksikanın ədəbiyyat normalarına uyğun olmayan təbəqəsidir. Bəzi tədqiqatçıların fikricə, slenq ədəbiyyata yabançı olan, mədəni insanın nitqinə xas olmayan söz və ifadələrdir. Lakin buna baxmayaraq, bu gün slenqə insan fəaliyyətinin bütün sahələrində rast gəlmək mümkündür. Hazırda, slenqdən radio və televizyada, mətbuatda,

ədəbiyyatda, internet şəbəkəsində, hətta demək olar ki, bütün yaş dövrlərindən olan, müxtəlif sosial qrupa və sinfə mənsub olan insanlar arasında istifadə olunur.

Şifahi nitqdə "slenq" sözünün ilk dəfə nə zaman meydana çıxdığı barədə heç bir məlumat yoxdur. Yazılı formada isə ilk dəfə XVIII əsrdə İngiltərədə qeydə alındığı bildirilir. O zaman slenq sözlər "təhqir" mənasında işlənirdi. Dilşünas V.A.Xomyakov öz kitablarından birində "slenq" termininin ilk dəfə 1756-cı ildə "çox səviyyəsiz vulqar tipli dil" (*language of low or vulgar type*) mənasında; 1802-ci ildən bu terminin "müəyyən sinif və ya dövrün jarqonu" (*The cant or jargon of a certain class or period*) kimi işləndiyini, 1818-ci ildən başlayaraq isə bu termin altında "yüksək səviyyəli danışıq dil səviyyəsindən aşağı olan, müəyyən mənada işlənən sözlər" başa düşülməyə başlandığını göstərmişdir. Təxminən 1850-ci ildə "slenq" termini "qeyri-qanuni" loru leksika ifadəsi kimi daha geniş istifadə olunmağa başlamışdır [1, s.43].

Bu günə qədər "slenq" termininin etimologiyası hələ də tam olaraq müəyyən edilməmiş və leksikologiyanın əsas problemlərindən biri olaraq qalmaqdadır.

"Slenq" termininin etimologiyası ilə məşğul olan görkəmli tədqiqatçılardan biri, müasir ingilis dilinin leksikoqrafiyasında nadir yeri olan, dilşünas E.X.Patric "slenq" termininin keçən əsrin ikinci yarısından etibarən "qeyri-qanuni" danışıq dili mənasında ("*illegitimate*" colloquial speech) qəbul edildiyini göstərir.

E.X.Patric və eləcə də, onun davamçıları (məsələn, J.Qrinok və K.İ.Kittridj) slenqi "ünsiyyət zamanı müəyyən sosial və ya peşəkar mühitə aid olan insanların ictimai düşüncələrini əks etdirən, kifayət qədər qeyri-sabit, sistemsiz və əksər hallarda hətta qarışıq leksemlər toplusu" kimi müəyyən edirlər [2, s.9].

İngilis dilinin Böyük Oksford lüğətində isə "slenq" – "ziyalıların nitq standartından aşağı hesab edilməmiş danışıq dili, yeni sözlərdən və yaxud xüsusi mənalarda işlədilən geniş yayılmış sözlərdən ibarət", "cəmiyyətin aşağı təbəqəsinə aid və pis etimada malik olan bir qrup şəxslər tərəfindən işlədilən xüsusileksemalar məcmusundan ibarət" bir dil kimi müəyyən edilir.

"Slenq" termini barədə illərdən bəri bir çox fərziyyələr irəli sürülmüşdür. XX əsrdə də bu məsələ tədqiqatçıları yaxından maraqlandırmış, yeni fərziyyələr ortaya çıxmışdır. Lakin bütün fərziyyələr arasında E.X.Patricin fərziyyəsi, tarixi dəlillərə əsaslanan bir nöqteyi-nəzər olduğundan, həqiqətə daha uyğun hesab edilir. Onun fərziyyəsinə görə, "Slang" sözü "to sling" – "*to utter*" (danışmaq, ifadə etmək) feilindən götürülmüşdür.

Slenq – müəyyən məqsədlər üçün meydana çıxır, tez-tez dəyişir və sonradan dildən çıxarıla bilir. Lakin bunu bütün slenqlərə şamil etmək olmaz. Belə ki, bəzi slenq sözlər və ifadələr ingilis dilinə adi bir slenq kimi deyil, əsas söz, ifadə kimi daxil olur. Məsələn, "*hang out*" ifadəsini nəzərdən keçirək. XVIII əsrin əvvəllərində "*loiter or idle* (*stand or wait around without apparent purpose*)" mənasında meydana çıxan bu ifadə bu gün danışıqda ən çox işlədilən ifadədir və ingilis dili mədəniyyətinə elə daxil olmuşdur ki, onun yüksək səviyyəli işgüzar görüşlərdə belə istifadəsi, heç kim tərəfindən qeyri-formal danışıq sözü kimi qəbuledilmir.

Yuxarıda qeyd etdiyimiz kimi, slenq cəmiyyətin bütün təbəqələrindən olan insanlar tərəfindən işlədilir. Bu sözlərdən istifadə edənlər azlıq təşkil edir. Lakin müəyyən bir yeni slenq sözü və ya ifadəsi insanlara öz ənənəvi dilində izah edə bilmədiklərini söyləməyə imkan verdiyi halda və yaxud da əhalinin böyük bir qismi tərəfindən istifadə edildiyi halda, həmin sözlər və ya ifadələr artıq slenq olmaqdan çıxır vədilin lüğət tərkibinə daxil olur. Qeyd etmək lazımdır ki, slenq və qeyri-formal ingilis dili eyni şey deyil. Bəzi slenq sözlər və ifadələr formal şəraitdə istifadə oluna bilər, lakin qeyri-formal şəraitdə işlədilən sözlər – slenq deyil.

İngilis dilinin lüğət tərkibində slenqlər

İngilis dili daşıyıcıları öz danışıq dilində slenq sözlərdən istifadə etməklə, ingilis dilini əlavə sözlərlə zənginləşdirirlər. Slenq sözlər – danışıq dilində ədəbi dil standartları elementlərinin şüurlu, düşünülmüş surətdə təmiz üslub məqsədləri üçün: yenilik, qeyri-adilik effekti yaratmaq, ümumi qəbul edilən nümunəvi ifadələrdən fərqli olan sözlər işlətmək, ifadə edilmiş fikrə konkretlik,

canlılıq, ifadəlik, təsirlilik, müxtəsərlik və s. vermək üçün istifadə edilir [5, s.10]. Bu məqsədlərə nail olmaqda metafora, metonimiya və s. köməklik göstərir. Bu nöqteyi-nəzər əksər tədqiqatçılar tərəfindən bölüşdürülür.

İngilis dilində qeyri-formal danışıqda ən çox istifadə olunan slenqlərdən bir neçəsini qeyd edək:

- "*Bee's knees*" - insanın və ya hər hansı bir şeyin "ələnin ələsı" olduğu mənasında işlədilir. Qeyd etmək lazımdır ki, bu ifadə Marqaret Tetçer haqqında danışarkən də istifadə edilirdi.
- "Quid" - Birləşmiş Krallıqda rəsmi pul vahidi "funt sterlinq" olsa da, ingilis pullarını təsvir etmək üçün daha çox qeyri - formal slenq sözlərdən istifadə edilir. Məsələn: *quid* - funt sterlinq əvəzinə; *ton* - £100 əvəzinə; *grand* – £1000 və ya $1000 əvəzinə; *fiver* - £5 əvəzinə; *tenne*r - £10 əvəzinə işlədilən slenq sözlərdir. Həmçinin, ümumi pul mənasında işlədilən "*cash*" sözü ən geniş istifadə olunan slenq sözüdür.
- "*Skiving*" - "işdən və ya dərsdən yayınmaq" mənasında işlədilir.
- "*Killing me*". Bu ifadə sözün əsil mənasında başa düşülməməlidir. Bu slenq sözünün mənası - "bərk ağrıtmaq" deməkdir.
- "*Nicked*" - "oğurlanmış" mənasında işlənir, məsələn: "*My car is nicked!*"
- "*Veg*" - "tərəvəz" mənasını bildirən bu slenq sözünə ingilis menyusunda rast gəlmək olar.
- "*Sarnie*" - "buterbrod" (*sandwich*) deməkdir.
- "*Cuppa*" - "bir fincan çay" (*a cup of tea*) deməkdir.
- "*Kip*" slenq sözü olub, "qısa bir müddətə yuxu almaq" (*a short sleep*) mənasında işlədilir. Bu slenqin "*nap*" variantından da istifadə edilir.

İngilis dilində slenq sözlər və ifadələr çoxdur. Biz yalnız bir neçəsini nəzərdən keçirdik. İngilis dilininslenq lüğət tərkibi ingilis dilinin lüğət tərkibi kimi zənginləşir [3, s.33]. Slenq lüğət tərkibini zənginləşdirən ən səmərəli üsullardan biri metaforizmdir. Slenq xüsusilə gənclər arasında geniş yayılmışdır, belə ki, onlara öz həmyaşıdlarından fərqlənmək imkanı verir. Gənclərin dilində metaforizm onların təsirli danışmaq qabiliyyətinə olan meyli, həvəsi ilə izah edilir. Məsələn: "*hold on to your socks*" – "artıq özünüzü gözləyin"; "*stay kind*" ("*be healthy*") – "salamat qalın"; "*to shake a bit*" – "gözəl rəqs" nümunəsi göstərmək kimi metaforik slenq ifadələrini misal göstərmək olar. Gənclər slenqi öz əksini internet-ünsiyyətdə də tapır. Sosial şəbəkə yazışmalarında sözlərin ixtisarı ilə əmələ gələn slenq sözlərdən geniş istifadə edilir. Bu cür slenqlərə bir neçə misal gətirək:

- P (*pretty*) – haqqında danışılan keyfiyyəti vurğulamaq üçün "very" mənasında istifadə olunan slenq.
- *Ship* ("*relationship*" sözünün ixtisarı) – əsərin/filmin qəhrəmanları və ya insanlar arasında romantik münasibəti və ya yaxın dostluğu göstərmək üçün istifadə olunan slenq.
- *Suh* ("*What's up?"* ifadəsinin ixtisarı) – dostlar arasında qeyri-rəsmi salamlaşma slenqi.
- *Sus* ("*to suspect*" sözünün ixtisarı) – şübhəli insan və vəziyyət haqqında ifadə olunan slenq.

Slenqdən tələbələr də geniş istifadə edirlər. Dilşünaslar tələbə slenqinin Böyük Britaniyada və Amerikada hələ XIX əsrin ortalarından geniş yayılmağa və zənginləşməyə başladığını hesab edirlər. Dilçilik nöqteyi-nəzərindən, tələbə slenqində qeyri-standart və ya dil normalarına uyğun olmayan söz yoxdur. Tələbə slenqində müxtəlif fəaliyyətlərlə bağlı sözlər çoxdur, lakin tədris prosesi ilə bağlı leksika isə tələbə slenq lüğətinin cəmi 2-3 %-ini təşkil edir. Tədris prosesi ilə bağlı slenqlərə: "*bear*" (müəllimlərə verilən ləqəb); "*aggie*" (kənd təsərrüfatı universitetləri tələbələrinə verilən ləqəb); "*underclassman*" ("*underclasswoman*") ("uşaq-muşaq" mənasında yuxarı kurs/sinif tələbələrinin aşağı kurs/sinif tələbələrini adlandırdıqları sayğısız ifadə) və s. slenq sözləri misal gətirmək olar. Qeyd etmək lazımdır ki, gənclər slenqi ən dinamik slenqdir, bu da gənclərin fəal həyatı ilə izah edilir.

Müasir dövrdə slenq, demək olar ki, dilin vacib bir hissəsi hesab edilir. Həyat və hadisələrin təsviri üçün istifadə olunan slenqlər ingilis dilinin daim dəyişməsinə və əlavə sözlərlə zənginləşməsinə səbəb olur.

Slenq inkişaf edir və çox sürətlə dəyişir. Hazırda ingilis dilində istifadə edilən slenq sözlərin və ifadələrinsay vahidini hesablamaq mümkün deyil. Lakin qeyd etmək lazımdır ki, slenq cəmiyyətin bütün təbəqələri tərəfindən istifadə olunur, hətta bir zaman yaranan bəzi slenqlər ədəbi dilə də daxil olur.

İngilis dilinin slenq lüğət tərkibi ingilis dilinin lüğətində mövcud olan bir sıra sözlərin leksik-semantik mənasının başqa cür mənalandırılması ilə də zənginləşir. Dilşünas V.Q.Vilyumanın nöqteyi-nəzərincə, sözlərin mənasının yenidən mənalandırılması slenqin yeni vahidlərinin yaranmasında ən əsas rol oynayır [4, s.138].

İngilis dilinin variantlarında, xüsusilə də bu dilin Amerika və Avstraliya variantlarında fərqli həyat tərzi, özünəməxsus heyvanlar və bitkilər aləmi, fərqli sosial gerçəkliklər ilə əlaqədar olaraq, slenqlərin sayı olduqca çoxdur və öz linqvistik xüsusiyyətlərinə görə obrazlı ifadələrin bu sahəsi dilin leksikasında önəmli yer tutur və nəticə etibarilə geniş aktuallıq təşkil edir.

Misal üçün, "*to be in the province of Bachus*" ingilis dilində "möhkəm sərxoş olmaq" mənasındadır, onun hərfi mənası isə "Baxusun (*şərab tanrısı*) vilayətində olmaq"dır, lakin adı çəkilən tanrı mifologiyada məşhur şərab tanrısı olduğundan, ifadə "sərxoş olmaq" anlayışının emosional şəkildə ifadəsinə xidmət edir [2, s.571]. Bu təsirlilik, emosionallıq slenqlərdə çox dərin, aydın ifadəsini tapdığından, ingilis slenqi leksikanın çox önəmli bir qolu kimi müstəqil inkişaf etmişdir.

Və yaxud "*to hold out an olive branch*" ("*to make a sign of peace*") frazasına rast gəldikdə, onun sülh niyyətinin emosional və üslubi ifadə vasitəsi olduğunu dərhal anlamaya bilərik. Bunun üçün, tərcüməçinin Bibliyada Nuhun tufanına dair hekayətlə təfsilatı ilə tanış olması, Nuhun azad etdiyi göyərçinin geri dönərkən ağzında gətirdiyi zeytun çubuğunun sülh simvolu, tanrının insanları bağışlamaq niyyətinin rəmzi əlaməti olduğunu bilməsi lazımdır.

Dilçilikdə slenqin rolu haqqında müxtəlif fikirlər mövcuddur. Slenqdən fəaliyyətin müxtəlif sahələrində istifadə edilir. Slenq sözləri başa düşmək üçün isə, onları bilmək lazımdır. Slenq biliyi ingilis dilini öyrənənləri təbii dil mühitinə salır, onların kommunikativ səriştələrini inkişaf etdirir.

İstifadə edilmiş ədəbiyyat

1. Hacıyeva A., Nacafova E., Jafarov A. English lexicology. Bakı: Elm ve Tehsil, 2000, 228 p.
2. Hornby A.S. Oxford Advanced Learner's Dictionary of Currant English. Jungle Publication. Oxford University Press, 2007, 1780 p.
3. Lakoff G., Johnson M. Metaphors we Live by. University of Chicago Press, 1980, 168 p.
4. Vinareva L.A., Yanson V.V. English Idioms. M.:Ayris Press, 2008, 381p.
5. Adam Makkai. A Dictionary of American Idioms. «Barron's», 2004, 396 p.

KOQNİTİV DİLÇİLİK – MÜASİR DİLÇİLİK ELMİNİN MÜSTƏQİL SAHƏSİ KİMİ

Ülviyyə Namiq qızı Rəhimova
Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki kolleci
mehemmedli.ulviyye1994@gmail.com
https://orcid.org/0009-0000-0144-017X

Koqnitiv linqvistika müasir dilçilik elminin sürətlə inkişaf edən bir sahəsidir. Linqvistikanın bu qolu digərlərinə nisbətən daha gənc və yenidir. Elə buna görə də koqnitiv linqvistikanın həm nəzəri məsələlərində, həm də tədqiqat metodlarında mübahisəli məsələlər çoxdur. Bu səbəbdən koqnitivliyin nəzəri və təcrübi əsasları ilə bağlı olan dil məsələlərinə ciddi yanaşma tələb olunur.

Koqnitiv dilçilik müasir dünya dilçiliyində öz yerini tutmuşdur. Belə ki, onun yaranması və sürətli inkişafı dilçiliyin müasir mərhələsi üçün xarakterikdir.

Dilçilik tarixində koqnitiv linqvistikanın yaranması 1989-cu ilə aid edilir. Belə ki, həmin il Duysburqda keçirilən elmi konfransda koqnitiv linqvistika birliyinin yaradılması elan olunmuşdur. Bununla da, koqnitiv linqvistika dilçiliyin ayrıca bir sahəsi kimi meydana gəlmişdir. Müasir koqnitiv linqvistikanın yaradılması amerikan dilçiləri Corc Lakoff, Ronald Lanqaker, Reya Cakendoff və başqalarının adı ilə bağlıdır.

Koqnitiv linqvistika mental prosesləri, dərketmə zamanı baş verənləri və dərketmənin mental əksinin növ və formalarını tədqiq edir. Linqvokoqnitiv təhlilin obyekti dildir, məqsədi isə koqnitiv linqvistikanın müxtəlif məktəblərində fərqli ola bilər [1, s.151]. Koqnitiv linqvistikanı digər koqnitiv elmlərdən fərqləndirən cəhət məhz onun obyektidir. Koqnitiv linqvistika dərketməni dil materialları əsasında, digər koqnitiv elmlər isə öz materialları əsasında tədqiq edir. İkinci fərqləndirici cəhət isə onun metodudur. Koqnitiv linqvistika koqnitiv prosesləri araşdırır və linqvistik təhlil metodlarından istifadə edərək, insanın dərketməsinin müxtəlif növləri haqqında nəticələr çıxardır [2, s.88]. Bu gün "dünyanın dil mənzərəsi" anlayışının tədqiqinə həsr olunmuş çoxlu elmi araşdırmalar mövcuddur. İlk dəfə belə bir mənzərənin mövcudluğu haqqında fikri isə

V. fon Humboldt səsləndirmişdir. O, dilin təhlilində dialektik metod tətbiq etmişdir. Məhz V. fon Humboldt hər bir dilin şüur ilə ayrılmaz vəhdət şəklində obyektiv dünyanın subyektiv mənzərəsini yaratdığını vurğulamışdır. Sonralar onun bu sahədəki fikirləri davamçıları tərəfindən daha da inkişaf etdirilmiş və bu davamçılardan biri olan L.Vaysgerber XX əsrin otuzuncu illərində elmə "dünyanın dil mənzərəsi" terminini gətirmişdir. L.Vaysberger qeyd etmişdir ki, hər bir toplumun dilində mənəvi məzmun, bilik xəzinəsi yaşayır və bu xəzinəni o dilin dünya mənzərəsi adlandırmaq gərəkdir [3, s.2].

Qeyd etmək lazımdır ki, dünyadakı bütün dillərin özünəməxsus, bənzərsiz ümumi mənzərəsi mövcuddur. Bu mənzərə gerçəkliyin dildə fiksə edilmiş və bir dilin daşıyıcıları üçün spesifik olan qavrama sxemidir. Dil mənzərəsi həm də dünyanın universal, rasional-spesifik qavranılması vasitəsidir. Hər hansısa bir dilin mənzərəsi ilə qarşılaşarkən, həmin dildə danışan insanların mədəniyyəti, milli mentaliteti, düşüncə tərzi ilə də tanış olmaq mümkündür. Dil mənzərələri arasındakı fərqlər özünü əsasən başqa dillərə tərcüməsi qeyri-mümkün olan konseptlərin mövcudluğunda göstərir. Bu konseptlər konkret bir dilin sərhədləri içində öz varlıqlarını sürdürürlər. Onların olduğu kimi başqa bir dilə köçürülməsi mümkün deyil. Bu vaxt tərcümə dilində uyğun konseptlərin tapılması lazımdır. Buna görə də dünyaya başqa bir xalqın gözü ilə baxmaq istəyən hər bir şəxs, o xalqın danışdığı dili mütləq dərindən öyrənməlidir. Qeyd olunmalıdır ki, hər bir dildə dünya mənzərəsi bir cür şərh edilir, çünki məhz dil mədəniyyətin tərkib elementi rolunda çıxış edir [4, s.372].

Dünyanın dil mənzərəsi çərçivəsində konkret dil qrupu üzvlərinin sadəcə onları əhatə edən gerçəklik haqqında deyil, həm də insanın özü, onun psixikası və təfəkkürü haqqında da təsəvvürləri güzgüdəki kimi əks olunur. Buna görə də dilçilikdə bəzən "dünyanın dil mənzərəsi" termini ilə yanaşı "dünyanın milli dil mənzərəsi" termini də işlədilir. Rus tədqiqatçısı O.A.Kornilov bu və ya digər milli dilin bir neçə əsas funksiya daşıdığını vurğulayır [5, s.349]. Tədqiqatçının fikrincə, bu funksiyalardan biri "real gerçəklik haqqında bir dil kollektivinin bütöv təsəvvürlər və biliklər məcmusunun fiksə edilməsi və qorunub saxlanılması"dır. Belə böyük miqyasda bir biliyin, məlumat bazasının formalaşması leksik və frazeoloji dil tərkibində özünü göstərən kollektiv şüurun mövcudluğu sayəsində mümkün olur. Buna görə də "dünyanın dil mənzərəsi" son vaxtlar onun milli spesifikliyinə daha çox diqqət ayıran müasir dilçilərin tədqiqat işlərinin mərkəzində durur. Müxtəlif dillər vasitəsilə yaradılan dünya mənzərəsi bəzi xüsusiyyətlərinə görə bənzər, bəzi xüsusiyyətlərinə görə isə fərqlidir.

Dil mənzərələri arasındakı fərqlər özünü ilk növbədə başqa dillərə tərcümə olunmayan və konkret bir dil üçün spesifik olan konseptləri içində cəmləyən xüsusi sözlərin mövcudluğunda

göstərir. Bu cür sözlərin mədəniyyətlərarası çərçivədə tədqiqi müxtəlif dillərdə mövcud olan dünyanın dil mənzərələri arasında əlaqələndirmələr qurmağa imkan yarada bilər. İnsanlar kimi dillər də müxtəlifdir. Onların hər birində dünya haqqında öz təsəvvürü əks olunur. Su nədir, sürətli hərəkət etmək necə olur, anlamaq nə deməkdir – bu sualların cavabları bütün dillərdə bənzər olsa da, bəzən müəyyən fərqliliklər də göstərir.

Əslində, biz eyni dünyada yaşayırıq, başımız üzərində eyni səmadır, eyni günəşin istisinə qızınırıq, hamımız sevinirik, kədərlənirik, həyəcanlanırıq, qorxuruq, ümid edirik. Amma bütün bunlar bizim eyni hissləri yaşadığımızı, eyni şeylər gördüyümüzü, düşündüyümüzü deməyə əsas verə bilməz. Məsələn, yuxarıda da qeyd etdiyimiz "su nədir?" sualını müxtəlif millətlərin nümayəndələrinə versək, "su mayedir", "su rəngsiz mayedir", "su həyat mənbəyidir", "su dənizlər və okeanlardır", "su yağışdır" və s. kimi fərqli cavablar alarıq. Bu suala bir fizik cavab verməyə başlasa, suyun fiziki xüsusiyyətləri haqqında eşidəcəklərimiz bizi daha da təəccübləndirə bilər. Çünki bizim peşələrimiz, məşğuliyyətlərimiz də düşüncə tərzimizə təsir edir. Deməli, su və su haqqında təsəvvürlər eyni şey deyil. Əslində, dünyanın dil mənzərəsi onun varlığının spesifikliyini, onun dünya ilə qarşılıqlı əlaqələrini, mövcudluğunun şərtlərini, dünyanın dil mənzərəsi isə insanın dünyasının fərqli mənzərələrini və dünyanın ümumi mənzərəsini əks etdirir. Konseptual dünya mənzərəsi idraki və sosial fəaliyyətin nəticələrini əks etdirərək daim yenilənir. Dünyanın dil mənzərəsinin ayrı-ayrı fraqmentləri isə insanların dünya haqqında köhnəlmiş, qədim dövrlərdən qalma təsəvvürlərini hələ uzun müddət qoruyub saxlayır, "yeni yaranan və alınma şeylərin yanında çox vaxt uzaq qədimlik yaşamağa davam edir" [6, s.331].

Koqnitiv dilçiliyin ilkin xüsusiyyəti linqvistik analizi bizim idrak haqqında bildiklərimizə uyğun analiz etməkdir. Koqnitiv dilçilik son dərəcə çoxlu informasiyanın insanın beynində necə formalaşdığını və düşünərkən insanın ondan necə istifadə etməsini öyrənməyə çalışır. N.Xomski yazır: "Dil nəzəriyyəsi insan psixologiyasının tam xüsusi bir mental orqanıdır" [7, s.322].

Beləliklə, koqnitiv dilçiliyin məqsədi təkcə linqvistik datanı təsvir etmək, təqdim etmək və sistemləşdirmək deyil, həmçinin dilin daha universal aspektlərlə necə əlaqəli olduğunu göstərməkdir [8, s.118]. Koqnitiv dilçilik hər hansı nəzəri konseptlərin və linqvistik kateqoriyaların koqnitiv əlaqələndirilməsidir ki, onlara da linqvistik modellərlə istinad edilir. Koqnitiv dilçilik özünün bütün təzahürü ilə əsas önəmi mental ifadələrin çeşidlənməsi və formalaşmasına qoyur .

Dünyanın dil mənzərəsində hər bir dil üçün xarakterik olan sözlər, sözbirləşmələri və sintaktik konstruksiyalar əks olunur. Bütün bu dil vahidləri dünyanın dil mənzərəsi timsalında insanın öz ətrafına xüsusi münasibətini, öz ətrafını dərketməsini (bütün canlı varlıqları, təbiəti, nəhayət özünü) formalaşdıra, bununla da davranışın xüsusiyyətlərini, normaları və ümumi dəyərləri, onların həyatın müxətlif təzahurləri ilə ya izahsız – elmi faktların və nəzəriyyələrin sadə təzadı, ya da elmi yolla əlaqələrini müəyyənləşdirə bilərlər.

Göründüyü kimi, "dünyanın dil mənzərəsi" kimi terminlər hələ tam konkret təsnifata sahib deyillər. Koqnitiv dilçilik yeni bir elm sahəsi olduğu üçün onun terminoloji bazası da müəyyən-ləşmə, dəqiqləşmə dövrünü yaşayır. Bu anlayışların hər birinə yüzlərlə tədqiqat işi həsr olunsa da, yaxın gələcəkdə onların hələ də ciddi tədqiqata ehtiyacları olacaqları açıq-aydın görünür.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev Ə.Ə. Koqnitiv dilçiliyin əsasları. Bakı: Sabah, 2006. 228 s

2. Cahangirli T. "Konsept" və "konseptosfer" koqnitiv dilçiliyin əsas vahidləri kimi // Filologiya məsələləri. № 6, AMEA. Bakı: Elm və təhsil, 2016, s.136-140.

3. Вайсгербер Й.Л. Родной язык и формирование духа. М.: УРСС эдиториал, 2004, 232 с.

4. Березин Ф.М., Головин Б. Н. Общееязыкознание. М.: Просвещение, 1979, 416 с.

5. Корнилов О.А. Языковые картины мира как производные национальных менталитетов. 2-е издание, испр. и доп. М.: ЧеРо, 2003, 349 с.

6. Юдин А.В. Русская народная духовная культура. М.: Высшая школа, 1999, 331 с.
7. Dilçilik ensiklopediyası (prof. F.Veysəllinin redaktəsi ilə). II cild / – Bakı: Mütərcim, 2009. – 528 s.
8. Вардуль, И.Ф. Основы описательной лингвистики / И.Ф.Вардуль. – М.: Наука, – 2008. – 350 с.

AŞIQ ƏLƏSGƏRİN ŞEİRLƏRİNDƏ FONETİK HADİSƏLƏR

Mahirə Famil qızı Rahtari
dissertant
Sumqayıt Dövlət Universiteti
arifmeryem@mail.ru
https://orcid.org/0009-0000-3225-0328

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan aşıq poeziyasını zirvələrə yüksəltmiş ustad sənətkar Aşıq Ələsgərin anadan olmasının 200-cü ildönümünün təntənəli qeyd olunmasını təmin etmək məqsədilə 2021-ci ildə müvafiq sərəncam imzalamışdır. Bununla bağlı olaraq, aşığın zəngin poetik irsinin sənətkarlıq xüsusiyyətlərini təhlil etmək xüsusi maraq doğurur.

Aşıq Ələsgər aşıq şeirinin ən görkəmli nümayəndələrindən biri olub, zəngin sənətkarlıq qüdrəti ilə seçilir. Onun yaradıcılığı öz gözəlliyi, orijinallığı, dərinliyi, şirinliyi və yüksək poetik təsir gücü ilə fərqlənir. Ustad aşıq xalq düşüncə tərzini, xalqın zəngin təcrübəsindən irəli gələn xalq müdrikliyini dərin bildiyi üçün dilin bütün incəliklərini şeirlərində məharətlə istifadə etmiş və ən müxtəlif fonetik fiqurları tətbiq etmişdir. Aşıq şeirlərində fonetik quruluş, sözlərdə heca vurğusu, misradaxili bölgü, bölgüdaxili qafiyə, ahəng, ritm, intonasiya və digər məsələlərə xüsusi incəliklə yanaşmış, bu xüsusiyyətləri nəzərə alaraq, dildə yeni şeir janrlarının (diltərpənməz, dodaqdəyməz təcnislər) mahir yaradıcısına çevrilmişdir.

Aşıq Ələsgərin şeirlərində fonetik hadisələr ən müxtəlif incəliklərinə kimi təsvir olunmuşdur. Bu fonetik hadisələrin aşığın şeirlərində realizə üsullarına nəzər yetirək:

Eliziya: şairin yaradıcılığında səsdüşümü hadisəsinə bir çox şeir nümunələrində rast gəlindi. Şeirlərdə bir çox halda söz sonundakı –r samiti, saitlərin düşümü, bəzi nümunələrdə isə hecanın düşmə halları, yəni qaplologiya hadisəsi baş vermişdir:

Şəhr *aydı*, bayram onun *gülüdü*,
Iki ay *bir-birnin müttəsilidi*.
Üç yüz altmış altı gün bir *ilidi*,
Səkkiz min, yeddi yüz səksən dörd saat,
Gəl verim *isnad*. ("Qoşma-müstəzad")

*****

Səndən ötrü *ömrün* barın becərdim,
Mübarək dəstinlə de bir üz, bir üz. ("De bir üz, bir üz")

*****

Ala gözlərinə gözüm sataşdı,
Əridi *ürəymin* yağı, qırmızı. ("Qırmızı")

*****

Aşıq Ələsgər *der*, ay qaşı kaman,
Belə mürvət olmaz, aman, əlaman!.. ("Dağıtsın")

*****

Çalxanır sonalar, çığrışır qazlar,

Zəm-zəm zümzüməli göllərin, dağlar! ("Dağlar")

Nümunələrdə bir-*birnin/bir-birinin, isnad/istinad, ömrün/ömrümün, ürəymin/ürəyimin, der/deyir, çalxanır/çalxalanır* kimi sözlərdə qaplologiya hadisəsi baş vermişdir.

Proteza: bəzən aşıqlar qafiyənin tamamlamaq, dilə sadəlik, incəlik qatmaq üçün sözlərin əvvəlinə sait səs artırırlar. Bu səsartımı hadisəsinə dildə proteza deyilir. Aşıq Ələsgərin şeirlərində proteza hadisəsinə aid nümunələr də verilmişdir:

Qədd əyilib, gül *irəngim* saralıb,
Xəzan dəymiş gülüstana dönübdü. ("Dönübdü")

*****

Düşəndə məclisə, ağır yığnağa,
Mənə hörmət qoyur *irəncbər* ağa. ("Hayıfsan")

Şeir parçasında iştirak edən *rəng/irəng, rəncbər/irəncbər* sözlərində söz əvvəlində -i saitinin işlənməsi ilə səsartımı hadisəsi- proteza özünü göstərmişdir.

Assimilyasiya: Aşıq Ələsgər şeirlərində assimilyasiya (uyuşma) hadisəsinə də rast gəlirik. Assimilyasiyanın daha geniş yayılmış iki növü - geri və irəli assimilyasiya aşığın zəngin yaradıcılığında bol-bol istifadə edilmişdir:

Məni qoca gördü, rübəndin *aşdı*,
Ala gözlərinə gözüm sataşdı. ("Dolanır")

"Dolanır" şeirindən verilmiş bir nümunədə açdı sözü aşdı formasında geri uyuşmaya məruz qalmışdır. Növbəti şeir parçası isə irəli assimilyasiya hadisəsinə nümunə verilmişdir:

Addadı zimistan, gəldi *novbahar*,
Şamamanın tağı *yaşıldı*, yaşıl. ("Yaşıl")

Verilmiş şeir parçasında *adladı* sözü *addadı* formasında, *növbahar* sözü *novbahar* formasında, *yaşıldır* sözü isə *yaşıldı* kimi müxtəlif fonetik hadisələrə məruz qalmışdır.

Dissimilyasiya: səs fərqləşməsi də adlanan bu fonetik hadisə uyuşmanın əksinə olaraq, hər hansısa bir səsin digər bir məxrəcdə olan səslə ifadə olunmasıdır. Aşıq Ələsgərin şeirlərinə rast gəldiyimiz bir nümunəyə nəzər salaq:

İyid nərəsindən, güllə səsindən,
Dəyməmiş tökülür kalların, dağlar!
Hanı mərd *iyidlər*, boş qalıb yurdu,
Səxavətdə Eldar nurələn-nurdu. ("Dağlar")

*****

Məhəbbət əhlisən, bircə danış, gül,
Qoy sərimdən bu *sövdanı* dağıtsın. ("Dağıtsın")
Annamaz annasın, *annayan* qansın,
At sürməsin bu meydana, deyirəm. ("Deyirəm")

Seçilmiş şeir parçalarında *igid / iyid (g > y), sevda / sövda (e > ö), anlamaz / annamaz (l > n), anlasın / annasın (l > n), anlayan / annayan (l > n*) şəklində dissimilyasiya hadisəsinə məruz qalmışdır.

Metateza: səslərin yerdəyişməsini nəzərdə tutan bu fonetik hadisəni də Aşıq Ələsgərin şeirlərində müşahidə edirik:

Ələsgərəm, qərq olmuşam bu qəmə,
Yoxsulluğum dağ *çəkibdi* sinəmə.
Nakəs müxənnətdən mətləb diləmə,
Yoxdu namıs, qıryat, ar *nişanası*. ("Nişanası")

Verilmiş qoşma nümunəsində *qıryat* sözü (qeyrət formasında) metateza hadisəsinə, *çəkibdi, yoxdu* sözləri eliziya hadisəsinə, *namıs* sözü dodaqlanma (labializasiya), *nişanası* sözü isə qalınlaşma kimi intensiv istifadə olunmayan fonetik hadisəyə məruz qalmışdır. Buna aid kifayət qədər nümunələr vermək mümkündür.

Bunlardan başqa, ustad sənətkarın yaradıcılığında səs tərkibi, ritmik tələffüz, alliterasiyanın poetik səslənməsi, assonansın melodik çalarlığı və digər fonetik fiqurlar dolğun çalarlığı ilə diqqəti cəlb edir. Ümumiyyətlə, Aşıq Ələsgər yaradıcılığı həm fonetik, həm leksik, həm morfoloji, həm sintaktik, həm də üslubi baxımdan zəngin yaradıcılıq nümunəsidir.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası, Bakı: Maarif, 1983, 388 s.
2. Aşıq Ələsgər. 2 cilddə, I və II cild, Bakı: Elm nəşriyyatı, 1972, 482 s.
3. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə. Fonetika, orfoepiya, orfoqrafiya, Bakı: Şərq-Qərb, 2007, 256 s.

THE PROBLEM OF THE SIGNIFICANCE OF A POSITIVE COGNITIVE LINGUISTIC

Ulkar Aliyeva
Mingachevir Tourism College
ulkar.ali87@gmail.com
https://orcid.org/0000-0002-0251-3972

Modern linguistics is characterized by a variety of scientific schools and directions, some of which already have their status as a scientific paradigm, while others are only "sprouting" or "taking root". In connection with the latter, after E.S.Kubryakov, we can say that "the status of modern linguistics should be characterized as multi-paradigmatic".

The problem of meaning has practically never left the field of view of linguists of all scientific paradigms: structural, generative, functional linguistics. And this is fully explained by the words of Academician V.I.Vernadsky: "The history of science... must be critically compiled by each scientific generation, and not only because the stock of our knowledge about the past changes, documents are discovered or new methods are found for restoring the past. No! It is necessary to rework the history of science again, to go historically into the past again, because thanks to the development of modern knowledge, one thing gains meaning in the past and loses another. Each generation of scientific researchers seeks and finds in history a reflection of the scientific theories of its time. Moving forward, science not only creates something new, but also inevitably overestimates the old, what has been experienced" [6, p.112].

Indeed, no one belittles the role and significance of previous paradigms, which made it possible to crystallize new approaches to solving complex problems in linguistics. The study of the problem of meaning has been and remains one of the main tasks in the development of linguistics. At each stage of thought a task is set that meets the needs of the time. So, within the framework of lexical semantics, it was important to establish how qualification processes (categorization) occur within the lexical meaning - the emergence of different meanings of a word, taking into account the syntagmatics of the sentence and the recording of these meanings in the dictionary as LSV. For a more imaginative understanding of the differences between cognitive semantics and the semantic directions that preceded it, we can cite the words of R.Taylor about the difference between cognitive semantics and component analysis. He notes that even using decomposition in its description, he wants to see integrity and causality in the resulting semantic picture, that is, the absence of randomness both in the organization of each meaning separately and in the organization of submeanings into some unity; The criterion here is not only and not so much the simplicity of the description, but its anthropocentricity [5]. Linguistics of the 20th century can be presented in the form of "as-linguistics", where the leading principle was description, description of linguistic

phenomena and their essences. Its place is currently being replaced by "why/why-linguistics," which aims not only to describe this or that phenomenon, but also to explain its cause and essentially functional mechanism. Many linguistic phenomena today can be explained using data and knowledge not only of linguistics itself, but also of extra-linguistics.

Moreover, when explaining linguistic facts, it is important to take into account both theoretical and everyday knowledge, which is fundamentally different from the traditional approach. In other words, the correlation of ontological and epistemological entities in the process of cognition, the correlation and consideration of scientific and everyday knowledge, becomes significant. İn traditional linguistics and, in particular, semantics, have previously noted the importance of linguistic and equetralinguistic realities, but linguists sought to contrast them as much as possible. At the modern stage, linguists are trying to combine these two types of factors and use them to explain linguistic phenomena, since the process of identifying meaning is closely connected with the deep mechanisms of human intellectual activity, with his consciousness, thinking, and intuition. One of the areas of cognitive semantics is frame semantics (semantics, in which the concept of a frame is widely used, which plays a leading role in the schematization of human knowledge. To explain the possibility/impossibility of the appearance of certain grammatical forms, syntactic structures, and the actualization of one or another meaning, not only linguistic data, but also extralinguistic knowledge are important, as noted above. In other words, at present, priority does not belong to linguistics, the field of study of which was limited to "language in itself and for itself," but to linguistics, which goes beyond the actual linguistic framework.

The cognitive direction of modern linguistics, as is known, sets one of its main goals as penetration into the mechanisms of linguistic phenomena, taking into account not only linguistic information itself, but also extra-linguistic information, for obtaining which both the process of cognition of the surrounding world and the cognitive activity of a native speaker are important. In other words, "intra-linguistic semantic analysis of a sentence should be considered as a demonstration of the lexical, grammatical and semantic content of the sentence, and this demonstration serves to create a "working drawing" (Faconnier's metaphor), using which the interpreter recreates the picture of the whole. The interpreter achieves this by enriching the "working blueprint" with a wealth of knowledge, especially knowledge about the interpretive frames that are or can be activated when analyzing the required or can be activated when analyzing the required sentence, as well as knowledge about the larger structure (about the "text"), in which this sentence is presented" [3, p. 66]. A small child composes connected sentences not only because he still does not operate well with the grammatical and lexical norms of the language, but also because he does not have life, cognitive experience. We explain the possibility/impossibility of the appearance of certain actants in verbs not only because we know the grammatical and lexical possibilities, but also because we have life experience, knowledge, and linguistic competence. In this regard, we will perceive sentences, combinations and other units of language differently, built according to the same structural scheme, but with different natures of relationships, conveying different concepts. Wed: ring the bell: ring the bell; beat the enemy; sound the alarm, beat the forehead; draw lots, etc.

Thus, the "actually linguistic" or "conventional sentence should be understood as "a set of conditions imposed on the understanding of the sentence and appearing in all contexts of its use, determining the situationally bound meaning of the sentence, characterizing its usage". These words once again emphasize the importance of linguistic and extralinguistic factors in understanding the mechanism of formation of the meaning of lexical units [3]. In the process of cognitive activity and personal experience, concepts are formed in the human mind that capture and store our knowledge about the world. In language, these concepts are "masked" into certain word meanings, grammatical forms or syntactic structures. that is, they are verbalized, and they are stored in the memory of the speaker, who operates with them in the process of communication. However, in order to understand

how the process of verbalization occurs, it is important to have a good and accurate understanding of the cognitive foundations of a particular linguistic phenomenon, that is, the mental image or concept that is activated during verbalization. A structural diagram is a kind of filter for the use of a word in a particular model. On the other hand, the same concept (and, to put it somewhat more broadly, a frame) can be represented not only by linguistic synonyms themselves, but by words that acquire the status of functional synonyms if, when activating a mental image, the words "maybe" are used as arguments) of that same salyugo frame (for example, "acquisition" - to get money - to make money, etc.). The provisions presented above largely seem to explain the possibility/impossibility of the appearance of certain lexical units when the same or different concepts are activated; we illustrate this using the example of the concept "vision".

In the English language there is a fairly representative class of synonyms, the formation of the meaning of which is based on this concept: watch, notice, gaze, look, stare and many others. However, they can immediately be divided into two large subgroups depending on the sign of directional/non-directional vision (look, gaze, stare - on one side; see, watch, notice - on the other side). This is grammatically represented in the use of the preposition "at" in the first subgroup of heads. Perhaps the differentiation of the meanings of these verbs is determined by a cognitive basis. The verb "look" in A.S.Hornby's dictionary is defined as "turn the eyes in some direction, try to see, use one's sight," and the word "see" as "have or use the power of sight." In the dictionary Russian language Ozhegova, the verb "to look" is defined as "to direct one's gaze, to see someone or something, to look," and the verb "to see" is to perceive someone through sight". Thus, verbs of both subgroups can implement the typical structural scheme of an English simple sentence: [S+Pr+Obj]:

- Maxi looked at him with a trace of unease (J.Krantz).
- As he went over towards the big four poster bed he noticed an enveloplying on the pillow (A.Christie)
- Every time she saw her father's chair she was so vividly aware of hiqjf that, try as she would, tears rushed to. her eyes (J.Krantz).

However, verbs of the first subgroup cannot be used in constructions typical of the English language and traditionally called complexes with a complex object and complex sentences like:

- Abdullah watched the sun disappear and the sky fade (Lace)
- ...I saw him indicate the decanter, as though inviting me (Barber).
- Looking in, however, she saw that Hercule Poirot was taking a plcasanj| little nap. (A.Christie).

With a quick glance at her watch Maxi saw that... she would manage tcfl reach her destination on time (J.Krantz).

In complex sentences, the verb see actualizes the meaning "to see" along with the meaning "to comprehend," i.e. in this case, the implementation of the meaning of lexical units lies in a more complex concept. The actualization of the meaning of "understand" by the verb "see" can be explained on the basis of extra linguistic data - an abstract phenomenon cannot be seen; child, but it can be comprehended (cf. also simple sentences where the object is expressed by an abstract noun, for example: I see the point).

The verb see can also actualize the meaning "to meet", in which case it is often used in the imperative form, acquiring cate-| horial meaning "action", as in the following example:

-It doesn't seem to have affected his tennis game, Strand said. How was your ghastly childhood affected yours?

- Oh, Daddy, Caroline waved her racquet at him, don't tease.
- See you at home. Don't be too late (I.Shaw).

In other words, the lexical meaning is formed on the basis of "profiling" (R.Lanecker's term) of a specific sentence-statement, that is, accentuation of a specific situation and its design using a

specific sentence scheme. This position can be illustrated with the help of examples formed by a synonymous group of verbs with the meaning "opinion".

One of the most recurrent verbs of this group is the verb think - "to think, consider, believe." This verb, when included in different structural schemes, can form different meanings, reflecting different concepts. Thus, in a sentence like "He was thinking of her whole evening", the verb actualizes the meaning "to think, to reflect", in which the presence of "an active person" and "an object to which the efforts of the subject are directed" is assumed. Grammatically, the latter is expressed in the obligatory use of the preposition of.

In sentences like: I think we'd better let the old man take it easy for a couple of weeks, until the doc says he can do business (M.Puzo), or I thinkhim to be a good student, the verb "think" actualizes meaning "to believe" In this case, the subject of the verb is inactive, and the object is structurally expressed either sententiously or in the form of a complex addition, and the nature of the subject-object relations must be separately understood within the framework of each subject-predicate link. On the other hand, practically the same meaning can be generated by verbs that have different systemic lexical meanings, reflecting the same concept, for example, the speaker's opinion about something or someone, when included in the same structural diagram sentences-statements. Let's illustrate this using the verbs believe, know, etc.:

- For all I know you saved my life.
- I know him to be a good student.
- I don't think an old gun is an ever generous return for that.
- Think him to come in time.
- İ thought you might be glad to learn of my good fortune.

As can be seen from the presented examples, the nature of subject-object relations in these statements is identical. Moreover, each of these verbs in its semantic structure has differentiating semes, they are extinguished due to the identity of the structural diagram, and the same meaning is conveyed. Thus, for the formation of meaning, not only the systemic meaning of a word is important, but also the meaning of the structure, which is interpreted on the basis of the nature of subject-object relations within the framework of a sentence-statement. Moreover, lexical meaning is not a narrow set of features necessary to identify a class of objects, but a complex of knowledge behind the denoted, including implicit ones, and this complex is implemented in a sentence-statement with different sets participants.

References

1. Belyaev E.G. Semantic structure of the word in nominative and communicative aspects: Diss. ... philol. — M., 2002. — 401 p.
2. Boldyrev N.N. Cognitive semantics Course of lectures on English language. — Tambov: 2000— 123 p.
3. Fillmore Ch. Frames and semantic understanding//New in foreign linguistics: Cognitive aspects of language. — M.: Progress, 2012. — Issue. XXIII.— p.52-92
4. Kibrik A.E. Modern linguistics: from where and where? // Vestn. Moscow universitet. — Ser. 9. Filology. — M., 2005. — p.84-92.
5. Taylor J.R. Contrasting Prepositional Categories: English and Italian.— Rudzka-Ostyn, 2014,— P.587
6. Vernadsky V.I.Essays and speeches.—Petrograd, 2015, 123 p.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş

"DAVAMLI İNKİŞAF STRATEGİYASI: QLOBAL TRENDLƏR, MİLLİ TƏCRÜBƏLƏR VƏ YENİ HƏDƏFLƏR"

II BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI

III CİLD

8-9 dekabr 2023-cü il

MİNGƏÇEVİR

Konfrans materiallarında verilən məlumat və faktlara görə müəlliflər məsuliyyət daşıyırlar

Yığılmağa verilib: 12.12.2023
Çapa imzalanıb: 27.12.2023
Format: 60 x 84 1/16
F.Ç.V. 38